RASİM NƏBİOĞLU, MÜŞFİQ CABİROĞLU

VÜQAR ƏHMƏDİN YARADICILIQ YOLU

Bakı – 2013

Ön sözün müəllifi: ***Vasim MƏMMƏDƏLİYEV***
akademik

Elmi redaktor: ***Vüqar QARADAĞLI***
filologiya üzrə fəlsəfə doktoru

Rəyçilər: ***Teymur Kərimli***
AMEA-nın müxbir üzvü, *professor*

İslam Qəribli
filologiya üzrə fəlsəfə doktoru

Rafiq Musazadə
Azərbaycan Milli Konservatoriyasının professoru

Rasim Nəbioğlu, Müşfiq Cabiroğlu «Vüqar Əhmədin yaradıcılıq yolu». Bakı, «MBM», 2013, 384 səh.

«Vüqar Əhmədin yaradıcılıq yolu» monoqrafiyası görkəmli şair, yazıçı, alim, tənqidçi, publisist, musiqişünas, dramaturq, tərcüməçi və pedaqoqun 50 illik ömür yoluna və çoxşaxəli fəaliyyətinə həsr olunmuşdur. Monoqrafiya müəllifləri respublikada və xaricdə geniş tanınan Vüqar Əhmədin ədəbi-bədii və elmi-pedaqoji yaradıcılığını ətraflı təhlil və tədqiq etmişlər.

Bu kitab ilk növbədə gənclərə ünvanlanmışdır. Daha sonra elm, tədris müəssisələrinin, mədəni-maarif ocaqlarının tələbələri və əməkdaşları, həmçinin magistr, dissertant və doktorantlar, habelə kütləvi oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-29-073-6

© R.Nəbioğlu, M.Cabiroğlu
Bakı, «MBM», 2013

MÜNDƏRİCAT

ÖN SÖZ 4

GİRİŞ..... 7

HƏYATI..... 11

I FƏSIL. Vüqar Əhmədin ədəbiyyatşünaslıq fəaliyyəti 14

II FƏSİL. Vüqar Əhməd poeziyası çağdaş Azərbaycan şeirinin yeni mərhələsi kimi 188

III FƏSİL. Vüqar Əhmədin bədii nəsri, dramaturgiyası və publisistikası 243

IV FƏSİL. V.Əhməd musiqi tədqiqatçısı kimi..... 280

V FƏSİL. Vüqar Əhməd haqqında ürək sözləri..... 319

NƏTİCƏ..... 358

İstifadə olunmuş ədəbiyyat..... 362

Professor, şair-ədəbiyyatşünas Vüqar Əhmədin əsərlərinin biblioqrafiyası..... 363

ÖN SÖZ

V.Əhməd bizim ən istedadlı alimlərimizdən biridir. Mən Vüqarın tədqiqatlarını çox maraqla izləyirəm, o çox orijinal tədqiqatçıdır. Xüsusən də, Seyid Cəfər Pişəvəri haqqında tədqiqatları çox lazımlıdır. O, Cənubi Azərbaycanda bizim milli dövlətimizin yaranması nöqteyi-nəzərindən S.C.Pişəvərinin elmi arxivini üzə çıxardıb. Onun təkcə siyasi xadim deyil, həmçinin gözəl şair, mütəfəkkir, qəzetçi olduğunu araşdırıb tədqiq etmiş, bütövlükdə Pişəvəri şəxsiyyətinin tam portretini canlandırmışdır. Azərbaycan oxucusunda M.Pişəvəri haqqında bütöv təsəvvür yaradan tədqiqat məhz V.Əhmədə məxsusdur. Və burada V.Əhməd özünü gözəl tarixçi, ədəbiyyatşünas, dərin tədqiqat qabiliyyətinə malik bir alim kimi göstərib. V.Əhmədin bu tədqiqatı Seyid Cəfər Pişəvəri haqqında yazılan ən görkəmli, ən sanballı tədqiqat əsərlərindən biri və birincisidir. Təsadüfi deyil ki, bu gün Pişəvəridən yazanlarımız V.Əhmədin tədqiqatına istinad edirlər. Düzdür, V.Əhməd özü də bir çox tədqiqatlara istinad edib. Amma hazırda bizim əlimizdə Pişəvəri haqqında məhz yeganə V.Əhmədin fundamental tədqiqatıdır və bunu mən onun elm aləmində çox böyük uğurlarından hesab edirəm. Biz V.Əhmədi təkcə alim kimi tanımırıq. O, bizim dəyərli musiqiçimiz, sözü, qələmi, ilhamı olan şairimizdir. Kövrək qəlbli şair – nasir - dramaturqdur.

V.Əhməd musiqimizi, muğamlarımızı dərindən bildiyi üçün onların yaranma tarixini müntəzəm şəkildə tamaşaçılarımıza izah edir, onların təhlilini verir. Özü mahnı da yazır, hərdən musiqi də bəstələyir. Vüqar musiqini yaxşı bildiyi üçün sözlərin özündə də bir musiqi görür, sözlər necə deyərlər, hazır mahnı mətnidir. Yəni o, musiqini o qədər gözəl bilir, duyur ki, onun sözləri elə bil musiqinin qəlibinə, donuna girir. Bəstəkarların V.Əhmədin şeirlərinə tez-tez müraciət etmələri təsadüfi deyildir. Nəğmə üstə şeir yazan görkəmli şairlərimiz var, ancaq V.Əhmədin həmin şairlərdən əsas fərqi ondadır ki, o şeirlə yanaşı musiqini də gözəl bilir və onun

əsərlərinə musiqi bəstələmək bəstəkarlarımız üçün çətinlik törətmir. Bəzən, V.Əhmədin mahnılarının bu qədər çoxluğunu görüb heyrətlənərək ona başqa rəng verənlər də olur. Ancaq mən tam səmimi qənaətimlə deyirəm ki, Vüqarın şeirləri elə musiqidir.

Vüqar yaxşı mühitdə böyüyüb, dinimizi də yaxşı bilir. Bakı kəndlərində dindar mühit güclü olur. Vüqar da gözünü açıb o mühitdə formalaşıb. Hacı Madərlə qohumdur. Hacı Madərin böyük məclislərində Şeyxülislamdan tutmuş bütün tanınmış din xadimlərimiz iştirak edib. Vüqar da o din xadimlərimizi görüb, onlardan bəhrələnib, öyrənib. Dini nöqteyi-nəzərdən Vüqarın hazırlığı yaxşıdır. Ona görə də o bizim həm lirik, həm də nəğməkar şairimizdir. Mən ona bir status da verirəm – DİNİ ŞAİR.

Dini bilməsən, dini şeirlər yazmaq çətindir. Din başqa şey deyil, dinlə zarafat etmək olmaz. Dini gərək gözəl biləsən. Dinimiz, Peyğəmbərimiz, İslamımız, İslamın görkəmli şəxsiyyətləri haqda bilmədən yazmaq, onları poeziya dili ilə tərənnüm etmək ayrı cür qeyri-mümkündür. Bu baxımdan Vüqarın bəxti gətirib. Ümumiyyətlə, Vüqar çox istedadlı gəncdir. Gözəl ailəsi var, mən Vüqarı öz ailə üzvlərimin biri hesab edirəm. Gözümüzün qabağında böyüyüb, saf, təmiz adamdır. Vüqar Əhmədin milli televiziyamızda Azərbaycan musiqisindəki milliliyin saxlanılması, qorunması və milli zəmində inkişafı naminə bu işə məsul şəxs kimi gördüyü əvəzsiz xidmətləri təqdirəlayiq hesab edirəm. Vüqara Allah-Təala alim kimi, şair kimi, musiqiçi kimi gözəl istedad verib. Bunların fövqündə Vüqar etibarlı dostdur.

Dostluğu qiymətləndirmək, ona sadiq qalmaq kimi insani keyfiyyətləri mən Vüqar Əhməddə daha qabarıq görürəm. Gözəl insanlıq, adamlıq onun xislətindədir, sözün əsl mənasında Azərbaycan vətənpərvəridir V.Əhməd. Dövrümüzün layiqli alimi, filologiya elmləri doktoru, professor Vüqar Əhməd bu gün də çoxşaxəli yaradıcılığı ilə bizi təəccübləndirir. Bu yaxınlarda onun qələminin məhsulu olan «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» romanının təqdimetmə mə-

rasimində iştirak etdim və ürək sözlərimi söylədim. Sözün həqiqi mənasında Vüqar Əhməd avtobioqrafik ruhda yazdığı əsərdə ağrımız-acımız olan Qarabağ faciəmizi ön plana çəkir. Mən onun yazıçı qismində qələmə aldığı ilk romanı oxuyanda həyəcan məni bürüdü. Bütövlükdə həmin romanı fundamental əsər kimi dəyərləndirirəm. Əsərin adına yüksək qiymət verirəm. Müəllifin "Qarabağ yuxusu"nun tezliklə çin olmasını arzulayıram.

Vüqar Əhmədin yaradıcılıq yolu haqqında yazılmış monoqrafiyanı yüksək qiymətləndirirəm və aparılmış tədqiqatı təqdirəlayiq hesab edirəm.

Vasim Məmmədəliyev
Akademik

GİRİŞ

Azərbaycan ədəbiyyatının tarixi çox qədim dövrlərdən başlayır. Tarixi mənbələri öyrənib dərin köklərə söykənən, sanballı əsərlər araya-ərsəyə gətirən tədqiqatçıların apardıqları dəyərli araşdırmalar nəticəsində ədəbiyyatımızın yaranması, yüksəliş istiqamətləri müəyyən edilmişdir. Tədqiqatçıların ən böyük xidmətləri odur ki, onlar həqiqətləri yaza-yaza müfəssəl şəkildə qələmə almışlar. Onların nəzərini ən çox Xətib Təbrizinin «Şərhul-Həmasə», Mərzban Bəhmənyarın «Kitabül-bəhcət və əs-səadət» (XI əsr), Şərəfəddin Həsən Rami Təbrizinin «Hədaiqül-həqaiq» və «Ənisul-üşşaq» (XIV əsr), Vəhid Təbrizinin «Risaləyi-cəmi-müxtəsər» (XVI əsr), Sadiq bəy Əfşarın «Qanun us-süvər» (XVI-XVII əsrlər), Məhəmməd Rəfi Dost Məhəmməd oğlunun «Məşrəbul-ətşan» (XVII əsr), Mirzə Əbutalib Təbrizinin «Xilasətül-əfkar» (XVIII əsr) əsərləri cəlb etmişdir.

Xətib Təbrizidən sonrakı əsrlərdə Azərbaycan ictimai fikrinin inkişafında, xüsusilə müasir tipli ədəbiyyatşünaslığımızın təşəkkül tapmasında M.F.Axundzadə, F.Köçərli, A.Sur, Ə.Hüseynzadə, Seyid Hüseyn (Kazımoğlu), Xəlil İbrahim, Ə.Nazim, Ə.Abid, B.Çobanzadə, A.Musaxanlı, M.Quliyev, H.Zeynallı kimi klassik alimlərin adlarını çəkmək vacibdir. Həmçinin Məmməd Arif, Məmməd Cəfər, Mirzə İbrahimov, Əziz Mirəhmədov, Əziz Şərif, Həmid Araslı, Mehdi Hüseyn, Feyzulla Qasımzadə, Əli Sultanlı kimi alimlərin elm aləminə gətirdikləri yeniliklər ədəbiyyatşünaslığımızın vahid müstəvidə təkmilləşməsinə töhfələr vermişdir.

Həmçinin Abbas Zamanov, Rüstəm Əliyev, Kamal Talıbzadə, Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Aida İmanquliyeva, Yaşar Qarayev, İsa Həbibbəyli, Mehdi Kazımov, Azad Nəbiyev, Azadə Rüstəmova, Nüşabə Araslı, Məsud Əlioğlu, Nizami Cəfərov, Teymur Kərimli, Xeyrulla Məmmədov, Kamran Məmmədov, Əlyar Səfərli, Paşa Əfəndiyev, Qara Namazov, Teymur Əhmədov, Məmmədhüseyn Təhmasib, Mirəli Seyidov, Qəzənfər Paşayev, Yavuz Axundov, İs-

lam Ağayev, Təhsin Mütəllibov, Elçin Əfəndiyev, Şamil Salmanov, Abbas Hacıyev, Cəlal Abdullayev, Xəlil Yusifov, Ağarəfi Zeynalzadə, Sabir Əliyev, Nərgiz Paşayeva, Gövhər Baxşəliyeva, Abdulla Abbasov, Şamil Qurbanov, Xalid Əlimirzəyev, Akif Hüseynli kimi elm xadimlərinin tənqid və ədəbiyyatşünaslıq sahəsindəki xidmətləri təqdirəlayiqdir.

Azərbaycan xalqı müstəqillik qazandıqdan sonra hər bir sahədə olduğu kimi elm dünyamızda da axtarışlar vüsətləndi, yeni-yeni tədqiqat əsərləri yarandı.

Müstəqillik dövrü ərəfəsində baş vermiş ictimai-siyasi olaylara, 20 Yanvar qırğınları, Xocalı müsibəti, Qarabağ faciəsi, ədəbi və əzəli torpaqlarımızın itkilərinə baxmayaraq ədəbiyyatşünaslıq elminin rolu əhəmiyyətli dərəcədə artdı.

Müasir dövr ədəbiyyatşünaslarımızdan İmamverdi Həmidov, Bəhlul Abdulla, Himalay Qasımov, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Rəhim Əliyev, Məsiağa Məhəmmədi, Nadir Cabbarlı, Vaqif Arzumanlı, Kamran Əliyev, Muxtar İmanov, Məhərrəm Qasımlı, Tahirə Məmməd, İslam Qəribli, Rasim Nəbioğlu, Elman Quliyev, Bədirxan Əhmədov, Arif Əmrahoğlu, Adilxan Bayramov, Hüseyn Həşimli, Nikpur Cabbarlı, Elmira Rəhimova, Mahirə Quliyeva, Yaqub Babaxanlı, Mahizər Mehdibəyova, Esmira Fuad, Nazim Rizvan, Zaman Əsgərli, Vaqif Yusifli, Cavanşir Yusifli və başqalarının bu sahədə məqsədöynlü xidmətlərini qeyd etmək lazımdır.

Ədəbiyyat tariximizdə əhatəli, çoxşaxəli yaradıcılığı ilə iz qoymuş şəxsiyyətlər elə də çoxluq təşkil etmir.

XI əsrin klassiki Xətib Təbrizi şeir yazmaqla yanaşı, əsasən apardığı elmi tədqiqatları və risalələri ilə tanınmış, şərhçi və təfsirçi olaraq ədəbiyyatşünaslıq və tənqidin əsasını qoyanlardan biri olmuşdur.

XIX əsrdə Abasqulu ağa Bakıxanov həm tarixçi, həm şair, nasir, filosof, astronom, dilçi, mütərcim və b. kimi çoxcəhətli yaradıcılığı ilə xalqımıza xidmət edib. M.F.Axundzadə dramaturgiyamızın və türkdilli nəsrimizin banisi olmaqla yanaşı, fəlsəfi traktatlar, tənqid və ədəbiyyatşünaslığa dair

misilsiz əsərlər müəllifi kimi ədəbiyyat tariximizdə özünə abidə ucaldıb.

XX yüzilliyin birinci qərinəsində Cəfər Cabbarlı həm dramaturq, həm də şair-bəstəkar, mütərcim, rejissor kimi fəaliyyət göstərib. Bu ədəbi-mədəni silsiləyə Üzeyir Hacıbəylini, Seyid Hüseyni və M.Ə.Rəsulzadəni də əlavə etmək olar. Güney Azərbaycanda Ş.M Xiyabani və M.C.Pişəvəri də onların məsləkdaşı və davamçılarındandır.

Sovet dövrü Azərbaycan ədəbiyyatında isə Səməd Vurğun, Cəfər Xəndan, Mikayıl Rəfili, Mir Cəlal, Qasım Qasımzadə, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar Rzayev, Elçin, Kamal Abdulla həm ədəbiyyatşünas, həm də yazıçı, şair, dramaturq kimi ədəbi xəzinəmizə töhfələr vermiş, milli mədəniyyətimizi zənginləşdirmişlər.

Geniş erudisiyaya, rəngarəng yaradıcılığa malik ədəbi şəxsiyyətlərdən biri də Vüqar Əhməddir.

Ötən əsrin 80-ci illərinin sonlarında xalq hərəkatı dövründə ilk elmi və bədii əsərlərini yazmağa başlayan Vüqar Əhməd müstəqillik illərində daha geniş miqyasda ədəbi fəaliyyət göstərməyə başlayır. O, az bir zaman içərisində ədəbiyyatşünas, şair, musiqi tədqiqatçısı, tele-radio jurnalisti, publisist, pedaqoq, mətbuat xadimi və redaktor kimi çoxsahəli yaradıcılığı ilə şöhrət tapır, ədəbi-mədəni ictimaiyyətin və oxucuların rəğbətini qazanır.

Həqiqətən də, Vüqar Əhmədin yaradıcılıq yolu zəngindir, araşdırılmağa layiqdir. Onun yaradıcılığının ətraflı tədqiqinə böyük ehtiyac var.

Vüqar Əhmədin çoxşaxəli yaradıcılığı haqqında müxtəlif illərdə akademik Vasim Məmmədəliyev, tanınmış alimlərdən Yaşar Qarayev, Şamil Vəliyev, Elman Quliyev, Rəfail Hüseynov, Buludxan Xəlilov, Rasim Nəbioğlu, Şahrza Ağayev, Fərrux Həsənov, Mirəvəz Rəhimov, şairlərdən Məmməd Aslan, Ağasəfa, Musa Ələkbərli, Tofiq İmişli, jurnalistlərdən Müşfiq Cabiroğlu, Oktay Gürşad, Anar Niftəliyev, Qafar Əsgərzadə, Şamxəlil Məmmədov, Zümrüd Orxan, İsmayıl Alışoğlu, Zakirə Zakirqızı, Aygün Şəmkirli, Səfura Novruz

və başqaları kitablarda, qəzet səhifələrində, jurnallarda müxtəlif yazılar çap etdirmişlər. Güney Azərbaycanda doktor Cavad Heyət, şair Savalan onun yaradıcılığı haqqında məqalələr qələmə almışlar.

Vüqar Əhməd yaradıcılığının ilk tədqiqatçısı Alim Nəbioğludur. Onun «Vüqar Əhmədin söz dünyası» adlı kitabı 2003-cü ildə nəşr olunmuşdur. Əlbəttə, bu kitabı Vüqar Əhmədin yaradıcılığı haqqında yazılmış ilk əsər kimi təqdirəlayiq hesab etmək olar. Lakin həmin kitabda Vüqar Əhmədin yaradıcılığı bir tərəfdən elmi səviyyədə tədqiq edilməmiş, digər tərəfdən isə onun elmi fəaliyyəti burada öz əksini tapmamaşdır.

Bu gün filologiya elmləri doktoru, professor Vüqar Əhmədin tənqidçi-ədəbiyyatşünas kimi səmərəli fəaliyyəti göz qabağındadır. Onun alim, şair, publisist, musiqişünas və b. kimi çoxcəhətli yaradıcılığının ən mühüm xüsusiyyətlərini araşdırıb təhlil süzgəcindən keçirmək məqsədəuyğun hesab olunur. Buna görə də «Vüqar Əhmədin yaradıcılıq yolu» mövzusunda elmi əsər qələmə almaq zərurəti yarandı.

HƏYATI

Vüqar Mikayıl Mahmud oğlu Əhməd 1963-cü il aprel ayının 17-də Bakı şəhərində anadan olub. Atası Mikayıl Mahmud Soltan Əhməd oğlu Əhmədov (1920-1995) Böyük Vətən (İkinci Dünya) müharibəsi əlili, hərbiçi-zabit idi, ömrünün 45 ilini gəmiçilik sahəsində işləmiş, "Əmək veteranı" olmuşdur. Dövlət tərəfindən yüksək orden və medallarla təltif edilmişdir. Pirşağı bəylərindən həkim Kərbəlayi Mahmudun nəvəsidir. Soy-kökü, şəcərəsi İstanbulda şərəfinə Came ucaldılmış Soltan Əhmədin nəslindəndir. Anası Hacı Almaxanım Kərbəlayi Məsədi Əzim qızı (1920-2007) Bakının Binəqədi kəndində anadan olub. Hacı Almaxanım ana tərəfdən Binəqədi və İçərişəhərə mənsub bir nəslin nümayəndəsi, ata tərəfdən isə XIX əsrin ortalarında zəlzələ nəticəsində Şamaxının "Sarıtorpaq" məhəlləsindən Binəqədiyə köç etmiş şirvanlılardandır.

Vüqar Əhməd 1980-ci ildə Bakıdakı M.Müşfiq adına 18 saylı orta məktəbi, 1984-cü ildə indiki ADPU-nu "Fərqlənmə" diplomu ilə, 1990-cı ildə Pedaqoji Universitetin aspiranturasını uğurla bitirib.

1984-87-ci illərdə Şamaxı rayonunun Dərəkənd kəndində dil-ədəbiyyat müəllimi işləyib. Müxtəlif illərdə "Novruz" qəzetinin və "Azərbaycan dünyası" nəşriyyatının baş redaktoru, Azərbaycan Kütləvi İnformasiya Vasitələri həmkarlar komitəsinin sədr müavini vəzifəsində, 1987-ci ildən-2005-ci ilə qədər isə Azərbaycan Teleradiosunda müxtəlif məsul vəzifələrdə çalışıb. Eyni zamanda, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, hazırda baş elmi işçisidir. Azərbaycan Müəllimlər İnstitutunun professoru olmuşdur (2005-2011).

Azərbaycan Milli Dram Teatrının (Türk İşçi Teatrı) ilk direktoru və baş rejissoru olmuş Bilal Əhmədin qardaşı nəvəsi, bəstəkar, şair-dramaturq Mövsüm Əhmədin kiçik qardaşıdır.

Ailəlidir, bir oğlu, bir qızı var.

1992-ci ildə filologiya elmləri namizədi, 2005-cü ildə isə filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

"Rus uşaq ədəbiyyatı və Azərbaycan" (Bakı, 1992), "Mircəfər Pişəvəri: həyatı, mühiti və yaradıcılığı" (Bakı, 1998), "Azərbaycan Uşaq Ədəbiyyatı" (Bakı, 2006), "Ədəbiyyatşünaslıq" (Bakı, 2007), "Şeyx Məhəmməd Xiyabani", "Elmi-filoloji araşdırmalar" və s. kimi 30 kitab və 300-dən çox elmi, publisistik məqalələr müəllifidir.

Əsərləri İran, Türkiyə, Yunanıstan, Almaniya, Gürcüstan və digər ölkələrdə çap olunub. Nəğməkar şair kimi 500-dən çox mahnının sözlərinin, eləcə də bir sıra nəğmələrin musiqi müəllifidir.

Filologiya elmləri doktoru, professor, Nyu-York EA-nın həqiqi üzvü, həmçinin Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin, "Muğam" assosiasiyasının, Bakı şəhəri İcra Hakimiyyəti ali mədəniyyət şurasının üzvüdür.

"Araz" ali ədəbi, "Abdulla Şaiq", Məmməd Araz", "İlin nəğməkar şairi", 2 dəfə "Zirvə", "İlin mahnısı" "Simurq" milli mükafatı, "AHİK"-nın fəxri fərmanı (8 dekabr 2009-cu il), AKİVHİ-nin rəyasət heyətinin qərarı ilə "Qızıl qələm" (12 fevral 2013) mükafatı və fəxri fərmanlarla təltif edilmişdir.

Bu yaxınlarda "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" romanı, Cənubi Azərbaycan və Qarabağın tarixini əks etdirən "Qaradağlılar" roman-trilogiyası çapdan çıxmışdır

20 ilə yaxın AZ TV –də çalışan Vüqar Əhməd 200-ə yaxın verilişin, telefilmin müəllifi, aparıcısı və redaktoru olmuşdur.

Bu yaxınlarda onun ssenarisi əsasında akademik Vasim Məmmədəliyev haqqında "Mənalı ömrün anları" filmi ATV kanalında nümayiş olunmuşdur. Həmin kanalda Vüqar Əhmədin rəhbərliyi və redaktorluğu ilə böyük muğam layihəsi lentə alınmışdır.

YAP-ın üzvü olan Vüqar Əhməd dövlət başçısı İlham Əliyevə həsr olunmuş ilk mahnının – "Vətənə layiq bir oğuldur İlham" adlı nəğmənin müəllifidir.

2008-ci ildə Tehranda "Anam mənim" kitabı kütləvi tirajla dövlət nəsriyyatında çap olunmuşdur. Həmin il İranın dövlət televiziyasında Azərbaycan Respublikasının Prezidentinin və ölkənin birinci ledisi Mehriban xanım Əliyevanın gördüyü əvəzsiz işlərlə və müasir milli ədəbi proseslə bağlı çıxış etmişdir.

AMEA-nın Ədəbiyyat İnstitutu nəzdində ixtisaslaşdırılmış "Dissertasiya Şurası"nın üzvüdür.

I FƏSIL

VÜQAR ƏHMƏDİN ƏDƏBIYYATŞÜNASLIQ FƏALİYYƏTİ

"Vüqar Əhməd elə şəxsiyyətdir ki, onun yaradıcılığında elm, musiqi insan mənəviyyatının bütün sahələrini əhatə edərək vəhdət təşkil edir".

Kamal Talıbzadə
Akademik
(26 yanvar 2005-ci il)

Azərbaycan elminin ən çətin və məsuliyyətli sahələrindən biri ədəbiyyatşünaslıqdır. Bunun səbəbləri çoxdur. Tarix boyu xalqımız dəfələrlə əlifba dəyişikliklərinə məruz qalmışdır. Zaman keçdikcə yazı tariximizin əlifba dövründən get-gedə uzaqlaşırıq, Qədim və orta əsrlərin, XIX, XX yüzilliyin 30-cu ilinə qədər olan dövrlərdəki yaranan əlyazmaları, mətbuatı oxuyub-araşdıra bilən mütəxəssislərin sayı çox deyildir. Keçmiş dövrlərin yadigarları, ötən əsrlərin zəngin ədəbi irsi müasir oxucunun üzünə bir neçə alimin gözü ilə açılır. Şəhərimizin kitabxanalarında və fondlarında yüz illərlə bundan öncə Azərbaycanda, Tiflisdə nəşr olunan dövri mətbuat nümunələrini bütöv halda tapmaq mümkün deyildir. Düşmən qüvvələr dövri mətbuat nümunələrimizi, ədəbi irsimizi natamam hala salmışlar. Uzun illərdir ki, ədəbiyyatşünas alimlərimiz tədqiq etmək üçün, həmin nümunələrlə tanış olmaqdan ötrü Rusiya və Tiflis kitabxanalarına üz tuturlar. Bəzən isə ədəbiyyat tarixçilərimiz qədim əlyazmalarımızın surətini Drezden, Vatikan və Misir kitabxanalarından gətirə bilirlər. Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi üçün isə qorxu-hürku ilə İran kitabxanalarının oxucusuna çevrilirlər. Çox vaxt bu işdə alimlərimizin köməyinə İrandakı milli ziyalılarımızın şəxsi ki-

tab fondları və arxivləri çatır.

Əlli illik ömrünün 30 ilini bu çətin və şərəfli işə sərf etmiş görkəmli ədəbiyyatşünas alimlərdən biri yaradıcılıq enerjisi aşıb-daşan şair-publisist, yazıçı, musiqi tədqiqatçısı, pedaqoq Vüqar Əhməddir.

Professor Vüqar Əhməd XX əsrin əvvəllərindəki milli ədəbi əlaqələrimizi, klassik ədəbiyyatımızı, Güney Azərbaycan tarixi və ədəbiyyatını, Cənubun görkəmli şəxsiyyətlərinin ədəbi yaradıcılıqlarını, Güney və Quzeyin ədəbi prosesini xüsusi qayğı və diqqətlə araşdırıb üzə çıxaran, nəşr etdirən zəhmətkeş mütəxəssislərdən biridir.

XX əsr, XXI yüzilliyin əvvəllərindəki bədii ədəbiyyatımızla, publisistikamız və elmi-nəzəri fikrimizlə bağlı monoqrafiyalar dediyimizin təsdiqidir.

Vüqar Əhmədin ədəbi-elmi faəliyyətinin sərhədləri nə qədər geniş olsa da o, əsas gücünü Güney ədəbiyyatının tədqiqinə sərf edib. Ş.M.Xiyabani, M.C.Pişəvəri haqqında ilk fundamental tədqiqatlar Vüqar Əhmədin adı ilə bağlıdır.

Vüqar Əhməd o alimlərimizdəndir ki, sözünü yalnız ilk mənbələr əsasında deyir, elmi qənaətləri arxiv sənədlərinə və etibarlı mənbələrə söykənir. Vüqar müəllim vaxtının böyük hissəsini Bakı, Sankt-Peterburq, Tehran, Təbriz kitabxanalarında və arxivlərində keçirmişdir. Onun monoqrafiyalarının elmi dəyərini müəyyənləşdirən cəhətlərdən biri də məhz bu fondlarda, arxiv və cünglərdə əldə etdiyi sənədlər, elmi-tarixi faktlardır. Onun tədqiqatları Güney və Quzey ədəbiyyat tariximiz haqqında ən dəyərli araşdırmalar sırasındadır.

Vüqar Əhməd həm də uşaq ədəbiyyatının araşdırıcılarından biridir. Müstəqillik dövründə çağdaş ədəbi-nəzəri aspektdə ali məktəblər üçün yazılmış "Azərbaycan uşaq ədəbiyyatı" dərsliklərindən biri də ona məxsusdur.

Ümumiyyətlə, dediklərimizə əsaslanaraq bu fikrə gələ bilərik ki, Vüqar Əhməd geniş erudisiyaya malik, yaradıcılıq coğrafiyası əhatəli olan peşəkar ədəbiyyatşünas və faktoqraf

alimdir. Zəngin yaradıcılığı bizi onun əsərləri üzərində tədqiqat aparmağa sövq etdi. Onun dərin mündəricəli yaradıcılığı bizi belə bir tədqiqata həvəsləndirdi. Bu səbəbdən də biz "Vüqar Əhmədin yaradıcılıq yolu"na üz tutduq.

A) Azərbaycan-rus ədəbiyyat məsələləri ədəbi əlaqələr müstəvisində

Azərbaycan-rus ədəbi əlaqələri həmişə alimlərimizin diqqət mərkəzində olub. Bütün bunlar Azərbaycan rus ədəbiyyat məsələlərinin inkşafında,elmi cəhətdən çözələnməsində mühüm əhəmiyyət kəsb edir. Bu mənada professor Vüqar Əhməd Azərbaycan-rus ədəbi əlaqələr zəminində dəyərli tədqiqatlar apararaq yazır: "Demək lazımdır ki, Azərbaycan-rus ədəbi əlaqələrinin inqilaba qədərki dövrü ədəbiyyatşünaslıq tərəfindən diqqətlə araşdırılmış və araşdırılmaqdadır. Bu sahədə M.Rəfilinin, M.Arifin, M.Cəfərin, Şıxəli, Qurbanovun, K.Talıbzadənin, H.Babayevin, Ş.Qurbanovun, M.Sadıqovun, A.Alməmmədovun, Ə.Bağırovun və başqaılarının tədqiqatları xüsusi əhəmiyyətə malikdir. Yaxşı haldır ki, bu qəbildən araşdırmalar bu gün də davam edir, ədəbiyyatşünaslığımızın gənc nəsli bu problemi müasir ədəbiyyat elminin ən müasir tələb və nəzəri metodları səviyyəsindən tədqiq etməyə başlamışdır". (1, 5)

Vüqar Əhməd müəllifi olduğu "Rus uşaq ədəbiyyatı və Azərbaycan" monoqrafiyasında XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələrinin inkşafı və bədii tərcümə məsələlərinə nəzər salır. Ədəbiyyat tarixindən məlumdur ki, Azərbaycan-rus ədəbi əlaqələrinin təşəkkülünün başlıca istiqamətləri şəxsi münasibətlərdən güc almış və inkşafa təkan vermişdir. Belə ki, A.Bakıxanov, İ.Qutqaşınlı və M.F.Axundzadənin, Puşkin, Lermontov, Bestujev-Marlinski, Polanski kimi ədəbi simalarla sıx əlaqələri ədəbiyyatların yaxınlaşmasında stimul rolunu oynadı. A.Bakıxanovun İ.Krılovdan çevirdiyi

"Eşşək və bülbül" təmsili ilə Azərbaycan-rus ədəbi-mədəni əlaqələrin yeni başlanğıcı, əsası qoyuldu, təməli, özülü yarandı. Bu möhkəm bünövrə üzərində rus ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi məsələlərinə istiqamət verildi, gələcək başlıca xətt müəyyən edildi. Bütün bunlara elmi cəhətdən qiymət verən Vüqar Əhməd yazır: "XIX əsrin 70-ci illərindən başlayaraq Azərbaycan-rus ədəbiyyatına maraq, onu təbliğ edib yaymaq üçün təşəbbüslər artdı. Bu, birinci növbədə xalq maarifi sahəsində yaranan dirçəlişlə əlaqədar idi. Məlum olduğu kimi, 1879-cu ildə Zaqafqaziya (Qori) Seminariyasının nəzdində azərbaycanlılara məxsus şöbə təşkil edildi. Səksəninci illərin başlanğıcında Azərbaycanın iri kənd və qəsəbələrində ibtidai məktəblər açıldı. onilliyin sonunda Bakıda (Rus-müsəlman) məktəbləri yaradıldı. Bütün bunlar uşaq mütaliəsinə kəskin ehtiyac əmələ gətirdi. Rus ədəbiyyatından tərcümələr də elə bu vaxtdan artmağa başladı. A.Bakıxanovun ilk tərcüməsindən təxminən 40 il sonra Qori seminariyasının azərbaycanlı müəllim və tələbələri, Tiflis Aleksandrovski Müəllimlər İnstitutu və gimnaziyalarının məzunları bu işi müvəffəqiyyətlə davam etdirməyə və irəli aparmağa başladılar. S.Vəlibəyov, G.Kəngərli, C.Ünsizadə, E.Sultanov, H.X.Qaradağı, R.Əfəndiyev, S.M.Qənizadə, F.Köçərli, S.Hacıbəyov, M.Ə.Növrəs və b.-nın simasında peşəkar tərcüməçilər yetişdi". (1, 12)

Hər iki ədəbiyyatdan edilən tərcümələrdə xalqların milli xüsusiyyətlərinə həssaslıqla yanaşılırdı. Tərcümə üçün janrından asılı olmayaraq seçilən hər hansı bir əsərin ideya-bədii keyfiyyətlərinə, dini adət və ənənələrinə ciddi fikir verilirdi. Monoqrafiyada müəllif tərcümə ədəbiyyatı məsələlərinə incəliklə yanaşır: "Lakin bu illərdə Rusiyada siyasi iqlimin kəskinləməsi, Azərbaycan xalqının milli xüsusiyyətləri ilə əlaqədar olaraq Rus ədəbiyyatından edilən tərcümələr spesifik səciyyə daşıyırdı. Belə ki, tərcümə üçün əsər seşilərkən onun əxlaqi-tərbiyəvi məzmunu, yerli xalqların dini əqidələri, həyat və məişət qanunları ilə səsləşməsi və s. nəzərə alınırdı. Ona

görə elə əsərlərə müraciət olunurdu ki, onların vasitəsilə bütün xalqlar üçün müştərək olan ideyalar təbliğ olunurdu. Fikrimizi isbat etmək üçün XIX əsrin sonu, XX əsrin əvvəllərində dilimizə çevrilmiş əsərləri nəzərdən keçirmək kifayətdir. Puşkinin "Balıqçı və qızıl balıq" nağılı (F.Köçərli, R.Əfəndiyev, Ə.Cavanşir), "Kaftar", " Hal anası", "Su pərisi" (R.Əfəndiyev), "Çöl xanımı", "Yel gəmisi" (Ə.Adığözəlov), "Təsiri-dua" (R.Əfəndiyev), Qrotun "Allah təbiətdə" (S.Vəlibəyov), Krılovun təmsilləri, Tolstoy və Uşinskinin hekayələri bu qəbildəndir". (1,12-13)

Azərbaycan-rus ədəbi əlaqələrinin tarixinə və xüsusiyyətlərinə böyük diqqət göstərən alim aşağıdakı fikirləri qələmə almışdır: "Azərbaycan-rus ədəbi əlaqələrinin ümumi tarixi və xüsusiyyətləri haqqında yazılmış ayrı-ayrı əsərlərdə yeri gəldikcə uşaqlar üçün qələmə alınmış Rus uşaq ədəbiyyatı nümunələrinin tərcüməsinə, bu mövzunun ancaq ayrı-ayrı cəhətlərinə toxunulmuşdur. Akademik M.Cəfər 1964-cü ildə çap olunmuş "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən" adlı monoqrafiyasında iki xalqın arasındakı mənəvi ünsiyyətin ilk addımlarından Sovet hakimiyyəti illərinə qədərki dövr tədqiqata cəlb olunmuşdur. A.Bakıxanov, Q.Zakir, İ.Qutqaşınlı, M.F.Axundov, H.Zərdabi və Ü.Hacıbəyovun rus ədəbiyyatı ilə əlaqələrindən söhbət açılsa da, iyirminci yüzilliyin əvvəllərində edilmiş tərcümələrdən bəhs edilməmişdir". (1, 8-9)

Bütün bu deyilənlərin elmi əsasını qiymələndirən professor Buludxan Xəlilov monoqrafiya haqqqında qələmə aldığı məqalədə yazır: "Filologiya elmləri namizədi Vüqar Əhmədin "Rus uşaq ədəbiyyatı və Azərbaycan" (Bakı, 1992) adlı monoqrafiyası XX əsrin mürəkkəb və təlatümlü bir dövrünə - (1905-1917-ci illər) həsr olunmuşdur. Həmin dövr uşaq ədəbiyyatı materialları əsasında Azərbaycan-rus ədəbi əlaqələrinin konkret illərini əks etdirir. Müəllif inqilaba qədərki Azərbaycan-rus ədəbi əlaqələrini öyrənən ədəbiyyatşünasların zəngin tədqiqatlarından bəhrələnmiş, dövrün tələbləri baxımından uşaq ədə-

biyyatı sahəsində maraqlı bir monoqrafiya yazmışdır. Monoqrafiyada demək olar ki, ilk dəfə olaraq tarixi-geneoloji və müqayisəli-tipoloji metoddan gen-bol istifadə olunmuşdur". (2, 195)

B) Cənubi Azərbaycan ədəbiyyatı problemlərinin milli ideallar kontekstində araşdırılması

"Pişəvəri haqqında ən sanballı tədqiqat
Vüqar Əhmədə məxsusdur".
Vasim Məmmədəliyev
Akademik

Cənubi Azərbaycan ədəbiyyatının elmi nöqteyi-nəzərdən araşdırılması bir sıra alimlərimizin, o cümlədən Mirzə İbrahimov, Cəfər Xəndan, Sabir Əmirov, Nazim Rizvan, Rəhim Əliyev, Elman Quliyev, İslam Qəribli, Almaz Əliqızı, Mahmizər Mehdibəyova və başqalarının qələmə aldıqları iri həcmli monoqrafiyalarda, ədəbi əsərlərdə, oçerklərdə, filoloji məqalələrdə əksini tapıb. O taylı ədəbiyyatın bu tayda təbliğ olunması vahid bir cəmləmənin yaranmasına dəlalət edib. Bu sahədə çox böyük işlər görmüş, neçə-neçə əsərlərin müəllifi, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin xidmətləri təqdirəlayiqdir. Mühüm cəhət odur ki, Cənubi Azərbaycan ədəbiyyatında XIX əsrin sonu XX əsrin əvvəllərini məhz ilk dəfə olaraq Vüqar Əhməd tədqiq etmişdir. Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin buraxdığı "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" ikicildliyinin II cildində M.Pişəvəri, Ş.Xiyabani, Manafzadə Sabitin yaradıcılıqlarına həsr edilmiş 3 oçerk tanınmış ədəbiyyatşünas Vüqar Əhmədin qələminin məhsuludur. Hazırda Vüqar Əhməd XX əsrin 50-80-ci illərində "Cənubi Azərbaycan poeziyası və folklor ənənələri" mövzusunda 15 çap vərəqi həcmində monoqrafiya üzərində işləyir. Vüqar Əhmədin elmi yaradıcılığının

ən yüksək zirvəsi böyük cəsarət və məsuliyyətlə demək olar ki, "M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı" (monoqrafiya) fundamental əsəridir. Bu geniş miqyaslı və əvəzsiz əsər Cənubi Azərbaycan ədəbiyyatı problemlərini milli ideallar kontekstində araşdıran monoqrafiyalar arasında sözün bütöv mənasında mühüm əhəmiyyət kəsb edir. Biz bununla ədəbiyyatşünaslarımızın, akademiklərimizin həmin sahədə yazdıqlarına kölgə salmaq fikrindən tamamilə uzağıq. Bu monoqrafiyanın dəyəri, çəkisi, məzmunu Cənubi Azərbaycan ədəbiyyatı tarixində, bütövlüklə ədəbiyyat dünyamızda ölçüyəgəlməyən tarixi hadisədir. Akademik Vasim Məmmədəliyev monoqrafiyaya yüksək qiymət verərək istedadlı tədqiqatçı Alim Nəbioğlunun "Vüqar Əhmədin söz dünyası" kitabındakı "Ön söz"ündə yazır: "V. Əhməd bizim ən istedadlı alimlərimizdən biridir. Mən Vüqarın tədqiqatlarını çox maraqla izləyirəm, çox orijinal tədqiqatçıdır. Xüsusən də, Seyid Cəfər Pişəvəri haqqında tədqiqatları çox lazımlıdır. O, Cənubi Azərbaycanda bizim milli dövlətimizin yaranması nöqteyi-nəzərindən S.C.Pişəvərinin elmi arxivini üzə çıxardıb. Onun təkcə siyasi xadim deyil, həmçinin gözəl şair, mütəfəkkir, qəzetçi olduğunu, bütövlükdə Pişəvərinin tam simasını canlandırmışdır, Azərbaycan oxucusunda M.Pişəvəri haqqında kompleks təsəvvür yaradan tədqiqat məhz V.Əhmədə məxsusdur. Və burada V.Əhməd özünü gözəl tarixçi, ədəbiyyatşünas, dərin tədqiqat qabiliyyətinə malik bir tədqiqatçı alim kimi göstərib. V.Əhmədin bu tədqiqatı Seyid Cəfər Pişəvəri haqqında yazılan ən görkəmli, ən sanballı tədqiqat əsərlərindən biri və birincisidir. Təsadüfi deyil ki, bu gün Pişəvəridən yazanlarımız V.Əhmədin tədqiqatına istinad edir. Düzdür, V.Əhməd özü də bir çox tədqiqatlara istinad edib. Amma hazırda bizim əlimizdə Pişəvəri haqqında məhz yeganə V.Əhmədin fundamental tədqiqatıdır və bunu mən V.Əhmədin elm aləmində çox böyük uğurlarından hesab edirəm". (3, 5)

Doktorluq dissertasiyası və sənədlər (4)

Vüqar Əhməd müəyyən müddət "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası üzərində çalışmış, həmin tədqiqat alimlər tərəfindən müzakirə olunmuş, nəticədə ortaya layiqli elmi əsər çıxmışdır.

Nizami adına Ədəbiyyat İnistitutunun Elmi seminarının
21 oktyabr 1998-ci il tarixli iclasının 15 saylı

P r o t o k o l u

İŞTİRAK EDİRLƏR:

İnstitunun elmi işlər üzrə direktor müavini, f.e.d. M.Qasımlı /sədr/, f.e.d., prof.Ə.Saraclı, f.e.d. H.İsrafilov, f.e.d. İ.Ağayev, f.e.d. R.Əliyev, f.e.n. S.Əmirov, f.e.n. N.Məmmədov, f.e.d. İ.Qəribov. f.e.n. N.Rizvan, f.e.n. R.Sadıqov, f.e.n. Ş.Vəliyev, f.e.n. A.Əliyeva, f.e.n. K.Qocayeva, f.e.n. B.Ağayev, k.e.i. M.Mehdibəyova.

GÜNDƏLİK MƏSƏLƏ:

Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı, hal-hazırda Azərbaycan Televiziya və Radio verilişləri şirkətinin əməkdaşı Əhmədov Vüqar Mikayıl oğlunun "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası əsasında elmi məruzənin müzakirəsi.

EŞİDİLDİ:

Elmi seminarın sədri f.e.d. M.Qasımlı Əhmədov Vüqar Mikayıl oğlunun dissertasiya mövzusu, tədqiqatçılıq təcrübəsi və istedadı barədə danışır və məruzə üçün sözü V.M.Əhmədova verir.

V.M.Əhmədov "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda yazdığı doktorluq dissertasiyasının əsas tezis və nəticələri haqqında məruzə edir. Sonra məruzə ətrafında dissertanta suallar verilir.

M.QASIMLI: Yaxşı olardı ki, M.C.Pişəvərinin əsərlərinin nəşri tarixi və əldə edilən, tədqiqata cəlb olunan materialların haqqında ətraflı danışasınız. Tədqiqatdan kənarda qalan əsər olubmu?

V.M.ƏHMƏDOV: Çoxşaxəli fəaliyyəti, ictimai-siyasi fəaliyyəti, bədii yaradıcılığı və publisistikası ilə Azərbaycan tarixində əhəmiyyətli yer tutan M.C.Pişəvəri öz əsərlərini dövrünün müxtəlif mətbuat orqanlarında nəşr etdirib. Bunlar Cənubi və Şimali Azərbaycan mətbuatında daha çox özünü göstərir. Əsərlər həm Azərbaycan, həm də fars dilində yazılıb. Tədqiqat zamanı bunların demək olar ki, hamısı təhlil hədəfinə çevrilib. Söz yoxdur ki, hər hansı bir əsərin və əlyazmasının tədqiqatdan kənarda qalması mümükündür. Lakin toplanmış və təhlilə cəlb olunmuş əsərlər M.C.Pişəvərinin yaradıcılığının bizə məlum olan hamısını əhatə edir və onun həyatı, mühiti, yaradıcılığı haqqında ətraflı bəhs açmağa imkan yaradır.

S.ƏMİROV: M.C.Pişəvərinin əsərləri tədqiq olunarkən onun müasirlərinin yaradıcılığına münasibət necə olub?

V.M.ƏHMƏDOV: M.C.Pişəvərinin məqalələri ən çox "Azərbaycan", "Hürriyyət", "Ajir ", "Həqiqət" qəzetlərində çap olunub. Həmin mətbuat orqanlarında, habelə digər nəşrlərdə M.C.Pişəvərinin fəaliyyətinə verilən qiymət təhlillərdə mütləq nəzərə alınır, həmin dövrün ictimai-siyasi problemləri tədqiqatda əsas götürülür. 1906-1946-cı illərdə İranda milli-azadlıq və demokratik hərəkat məsələlərindən müxtəlif dövrlərdə H.Həsənov, İ.İbrahimi, Ş.Cavidi, Ə.Əmidi-Nuri, B.Duqlas, B.İqelton, Ç.Lenqoski, R.Fray, S.Zəbih, M.C.Çeşmazər və başqaları yazarkən Azərbaycan Demokratik Partiyasının fəaliyyətinə işıq salınır, onların xalq hakimiyyətini obyektiv qiymətləndirirlər. Azərbaycan Milli Hökümətinin tarixi isə bəllidir ki, M.C.Pişəvərinin həyatı və fəaliyyəti ilə yaxından əlaqəlidir. Bu baxımdan mövcud tədqiqatları təhlil süzgəcindən keçirən müəllif həmin illərin ədəbiyyatı məsələlərini nəzərdən qaçırmır, bu böyük şəxsiyyətin bədii ədəbiyyat vasitəsilə icti-

mai-siyasi proseslərə istiqamət vermək məharətini diqqət mərkəzinə çəkir.

N.RİZVAN: M.C.Pişəvərinin bədii irsi hansı istiqamətdə tədqiqata cəlb olunub?

V.M.ƏHMƏDOV: M.C.Pişəvəri yaradıcılığa kiçik həcmli şeirlər və publisistik məqalələrlə başlayıb. Onun ən iri həcmli əsəri isə "Zindan xatirələri" dəftəridir. Ədibin bədii irsi bütöv Azərbaycan ədəbiyyatı və mədəniyyətinin diqqətəlayiq nümunəsi kimi qiymətləndirilir, onlar milli-estetik ehtiyac baxımından öyrənilir. Şeirlərində M.Ə.Sabirin satira ənənələri üstünlük təşkil edən M.C.Pişəvərinin yaradıcılığında ümumazərbaycan mədəniyyəti və ədəbiyyatı ənənələri də diqqət mərkəzinə çəkilir. Onun bədii publisistikasında ictimai-fəlsəfi və siyasi fikrə üstünlük verilməsi xüsusilə maraq doğurur və bu istiqamətdə geniş fəaliyyət göstərən M.C.Pişəvərinin çoxsaylı yaradıcılıq nümunələri araşdırılır.

İ.QƏRİBOV: M.C.Pişəvərinin həyatı, tərcümeyi-halı haqqında müxtəlif mülahizələr var. Buna münasibətiniz necədir?

V.M.ƏHMƏDOV: M.C.Pişəvərinin həyatı ictimai-siyasi ziddiyyətlər dövrünə təsadüf edir. Onun ölümü müəmmalı şəkildə olub. Sui-qəsdlə müşayiət olunan ölüm siyasi səbəblərdən həyata keçirilib. Bu barədə dissertasiyada konkret fikir söylənilir və onun həyat yolu işıqlandırılır.

İ.AĞAYEV: Dissertasiya mənim çox xoşuma gəldi. Bu əsər çox gərgin əmək, dərin elmi-nəzəri bilik və hazırlıq, çoxillik tədqiqatçılıq təcrübəsi tələb edir. Müəllif müxtəlif dillərdə /fars,rus, azərbaycan/ olan materiallardan, əlyazmalarından, qəzet və jurnal məqalələrindən istifadə edir, dəqiq, aydın mülahizələr söyləməyə çalışır. Buna görə də dolğun, məzmunlu bir əsər ortaya çıxara bilmişdir. Mən ona uğurlar arzulayıram. İşi tamamilə bitkin bir əsər kimi qiymətləndirirəm, müəllifin filologiya elmləri doktoru alimlik dərəcəsi almasına tərəfdaram.

M.QASIMLI: Bu dissertasiya haqqında deyilən xoş sözlərə mən də şərikəm. Mənə elə gəlir ki, dissertant gərgin əməyi,

tədqiqatçılıq təcrübəsi və istedadı nəticəsində işin öhdəsindən uğurla gəlib və uğurlu bir əsər yaratmağa nail olub. İş açıq müdafiəyə buraxılmağa layiqdir.

QƏRAR

Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı, hal-hazırda Azərbaycan Televiziya və Radio verilişləri şirkətinin əməkdaşı Vüqar Mikayıl oğlu Əhmədovun "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda yazdığı dissertasiya bəyənilsin və filologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün müdafiəyə buraxılsın.

Elmi seminarın rəhbəri:
M.P.QASIMLI
Filologiya elmləri doktoru
Katib: M.H.MEHDİBƏYOVA
kiçik elmi işçi
21 Oktyabr 1998-ci il.

"Təsdiq edirəm"

Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun
Direktor əvəzi **TEYMUR KƏRİMLİ**
"29" yanvar 2003-cü il

Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan Ədəbiyyatı" və "Yeni dövr ədəbiyyatı" şöbələrinin birgə keçirdikləri 15 yanvar 2003-ci il tarixli iclasının

PROTOKOLU

İŞTİRAK EDİRDİLƏR: Filologiya elmləri doktoru Rəhim Əliyev (sədr), filologiya elmləri doktoru, professor Teymur Əhmədov, filologiya elmləri doktoru Hüseyn İsrafilov, filologiya elmləri doktoru İslam Ağayev, tarix elmləri doktoru Şövkət Tağıyeva, filologiya elmləri namizədi Sabir Əmirov, filolo-

giya elmləri namizədi Nazim Rizvanov, filologiya elmləri namizədi İslam Qəribov, kiçik elmi işçi Xuraman Quliyeva, kiçik elmi işçi Mahmizər Mehdibəyova, kiçik elmi işçi Pərvanə Məmmədova (katib).

GÜNDƏLİK MƏSƏLƏ: Vüqar Mikayıl oğlu Əhmədovun "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasının müzakirəsi.

EŞİDİLDİ: İclasın sədri,f.e.d. R.Əliyev tədqiqatçı haqqında məlumat verdi. O qeyd etdi ki, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin dissertantı,filologiya elmləri namizədi Vüqar Əhməd uzun illər üzərində işlədiyi "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasını müzakirəyə təqdim edib. İş prosesində bu əsərin ayrı –ayrı hissələri şöbədə müzakirə olunub, dissertant göstərilən iradları, məsləhətləri nəzərə alıb, müəyyən düzəlişlər və əlavələr edib. Biz hamımız Vüqar Əhmədi həm şair kimi, həm də tədqiqatçı kimi yaxşı tanıyırıq, kitabları, şeir və məqalələrini oxuyuruq, fəaliyyətini, yaradıcılığını izləyirik.

İndi də dissertasiyası haqqında məruzə etmək üçün sözü Vüqar Əhmədə verirəm.

Məruzəçi V.Əhməd: Hörmətli sədr, hörmətli iclas iştirakçıları! Müzakirənizə çıxarılan doktorluq dissertasiyasi "Mir Cəfər Pişəvərinin həyatı,mühiti və yaradıcılığı" adlanır. Bu mövzü təsadüfən seçilməyib.Təəssüf hissi ilə qeyd etməliyəm ki, müxtəlif ideoloji qadağalar və uzun illər boyu mədəni əlaqələrin zəif inkişafı səbəbindən Güney Azərbaycan ədəbiyyatı kifayət qədər araşdırılıb nəşr edilməmişdir. Bu sahədə Azərbaycan ədəbiyyatşünaslığındakı boşluğu doldurmaq üçün Respublika EA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində Cənubu Azərbaycan şöbəsi yaradılmış, burada çalışan əməkdaşların qüvvəsi ilə M.Şəhriyar, Səhənd, doktor Cavad Heyət və başqalarının həyat və yaradıcılığı ilə bağlı müxtəlif janrlı yazılar dərc olunmuş, əsərləri nəşr edilmişdir.

Güney Azərbaycanı ədəbiyyatında ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin miqyası, genişliyi, rəngarəngliyi və zənginliyi ilə seçilən böyük şəxsiyyətlərdən biri Mir Cəfər Pişəvəridir. Güney Azərbaycanında dünyaya göz açan Mir Cəfər 13 yaşında olarkən ailəsiylə birlikdə Bakıya köçmüş, burada təhsilini davam etdirməklə yanaşı işləməyə başlamış, siyasi fəaliyyət meydanına atılmışdır. 1920-ci ildə İrana qayıdan Pişəvəri siyasi hərəkatın demokratik genişlənməsində fəaliyyət göstərmiş,Gilan Respublikasının xarici işlər naziri işləmiş, "Həqiqət" qəzetinin nəşrinə nail olmuşdur. Sonra siyasi fəaliyyətinə görə həbs edilərək on bir il Qəsri-Qacar zindanında yatmış, 1941-ci ildə Rza xan diktatorluğu süqut etdikdən sonra həbsdən azad edilmişdir. Bundan sonra daha əzm və qətiyyətlə siyasi mübarizə meydanına atılmış, "Ajir" qəzetinin nəşrinə başlamış, Azərbaycan Demokratik Firqəsini yaradaraq ona rəhbərlik etmiş, Azərbaycan Milli Hökumətinin baş naziri olmuşdur. Bunlarla yanaşı o, ədəbi tənqidlə məşğul olmuş, hekayələr yazmış,ictimai-siyasi publisistikanın gözəl nümunələrini yaratmış, tərcüməçilik bacarığı nümayiş etdirmişdir. Demokrat Partiyasının 19 yanvar 1947-ci il tarixli iclasından, Məhəmməd Biriyanın Mərkəzi Komitənin I katibi seçildiyindən sonra Pişəvəri Sovet Azərbaycanına üz tutmalı olmuşdur. Elə həmin il Mir Cəfər Pişəvəri Goranboyla Gəncə arasında milliyətcə erməni olan sürücü Melikyanın vasitəsilə maşın qəzasında öldürülmüşdür. Bütün ömrünü xalqın azadlığı, vətənin demokratik yolla inkişafı naminə sərf etmiş Mir Cəfər Pişəvərinin həyatı müəmmalı şəkildə bitmişdir.

Qısaca şərh etdiyim bu məsələlər dissertasiyanın dörd fəslində öz geniş şərhini tapmışdır, sizin hamınız dissertasiya ilə tanış olduğunuz üçün vaxtınızı alıb onu bütün təfərrüatları ilə açıqlamağı artıq hesab edirəm. Diqqətinizə görə sağ olun.

V.Əhmədin çıxışından sonra tədqiqat işinin məzmunu ilə bağlı dissertasiya müəllifinə suallar verildi. Həmin sualları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Tədqiqat işi hansı materiallar əsasında aparılmışdır?
Cavab qənaətbəxş hesab edildi.
2.Əsərin əsas elmi yeniliyi nədən ibarətdir?
Cavab qənaətbəxş hesab edildi.
3.M.C.Pişəvərinin publisistik əsərləri hansı keyfiyyətlərinə görə seçilir?
Cavab qənaətbəxş hesab edildi.
4.M.C.Pişəvərinin ən güclü və ən zəif əsərləri, sizcə, hansıdır?
Cavab qənaətbəxş hesab edildi.

ÇIXIŞLAR:

Dissertasiya işinin müzakirəsində f.e.d. R.Əliyev,
f.e.d H.İsrafilov, f.e.d. İ.Ağayev, t.e.d. Ş.Tağıyeva,
f.e.n S.Əmirov, f.e.n N.Rizvanov, f.e.n İ.Qəribov
çıxış etdilər.

Rəhim Əliyev: Güney Azərbaycan ədəbi-mədəni mühitində ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin miqyası, genişliyi, rəngarəngliyi və zənginliyi ilə seçilən böyük şəxsiyyətlərdən biri Mir Cəfər Pişəvəridir. Onun-ictimai-siyasi xadimin, yazıçı, tərcüməçi və ədəbiyyatşünasın, istedadlı publisist və bacarıqlı mühərririn, dövlət xadiminin həyat yolunun, ədəbi-bədii və publisistik irsinin daha geniş miqyasda, elmi-tədqiqat prinsipləri ilə öyrənilib qiymətləndirilməsi, Azərbaycan xalqına çatdırılması çağdaş Azərbaycanşünaslıq elminin qarşısında duran vəzifələrdəndir. Yanar zəka, güclü erudisiya sahibi olan, ana dilində və farsca diqqətəlayiq əsərlər yaratmış M.C.Pişəvərinin fəaliyyəti və yaradıcılığı zəngin, çoxşaxəli, müxtəlif növ yaradıcılıq sahələrini əhatə edir.

Müzakirəyə təqdim olunan dissertasiya işində M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı (ədəbi, bədii, publisistik və tənqidi əsərlər) tədqiqata cəlb olunmuş, mövzu doktorluq dissertasiyasının tələbləri səviyyəsində geniş elmi şərhini tapmışdır.

Sabir Əmirov: İlk dəfə mövzu şöbəyə təqdim olunanda sevindim. Mövzu özü, Pişəvəri, cənubluların həyatının əksi hər bir qələm sahibindən böyük cəsarət tələb edir. İşin işlənməsinə müəllif ürəklə yanaşıb. Azərbaycan xalqının taleyini öyrənmək üçün bu işin böyük rolu var. Müəllif mənbələrdən gözəl istifadə edib. Mən bir çox şəxslərə bu işlə ətraflı tanış olmağı tövsiyə edirəm. Xüsusilə "Zindan xatirələri" ilə bağlı hissəsində Pişəvərinin həm də yazıçı, jurnalist kimi xalqına bağlılığı, əməyi geniş şərh olunur. O, Pişəvərini öyrənmək üçün dönə-dönə yazdıqlarına qayıdır, yeni fikir söyləyə bilir. Dissertasiyada Pişəvərinin ikicildlik əsəri mükəmməl təhlil (xüsusilə 1941-46-cı illər) olunur. Pişəvəri bizə çox lazımdır. Onun qoyduğu problemlər hələ öz ictimai əksinin tapmayıb. Biz inanırıq ki, müəllif bundan sonra da Cənubla bağlı bir çox məsələlərə aydınlıq gətirəcəkdir.

Şövkət Tağıyeva: Əsər çox maraqlıdır. Pişəvəri haqda müxtəlif rəylər var. Onun həyatı çox rəngarəngdir. Bütün bunları öyrənməyi Vüqar Əhməd öz üzərinə götürüb. Fəsillərdən görünür ki, Pişəvəri publisist, şair kimi, birinci fəsildə isə tarixçi, ictimai xadim kimi verilir. Əsərin qiymətli cəhətləri çoxdur. Dissertant Pişəvərinin kitabına istinad edib, onu Tehranda tapıb. O kitab itmişdi, onu üzə çıxarıb, istifadə edib. Pişəvərinin əsərlərindən, o dövrdəki qəzetlərdən istifadə son dərəcə diqqətəlayiqdir. Çox şeyləri aydınlaşdırmaq lazımdır. Cənubda Pişəvərini olduğu kimi təqdim etmirlər, burada necədirsə, orada da elə olacaq 1.Ona xain damğası vururlar; 2. Bolşevik məfkurəli kimi tanıdırlar; halbuki neytral-obyektiv elmi münasibət və faktlarla hesablaşmaq lazımdır. Stalinin Cənubi Azərbaycan mövzusuna münasibəti necə olub? - bu barədə 1990-ci illərdən bəzi məqalələr var. Bu əsər elmi-ictimai marağın qanunauyğun və dəyərli bir nümunəsi hesab oluna bilər. Çünki təhlil obyektivliyi və fakt zənginliyi ilə diqqəti cəlb edir.

M.C.Pişəvəri, M.Ə.Rəsulzadə və N.Nərimanovun vəhdəti – müəllifin gəldiyi bu gözəl nəticə məni çox düşündürür. Onu da

unutmaq olmaz ki, Pişəvərinin partiyası öncə bolşevik partiyası olsa da sonralar sosial-demokrat partiyasına çevrildi.

Ümumiyyətlə, əsər haqqında fikrim çox yüksəkdir və müəllif bu əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

İslam Qəribov: Bu işin I fəsli Pişəvərinin həyatı və yaradıcılığı haqqındadır. Bu fəsil əsaslı şəkildə göstərir ki, dissertasiya zəngin məlumatlı əsərdir. M.C.Pişəvəri siyasətçi kimi tanınır. Onun "Zindan xatirələri" əsəri vardır. Onun 1918-22-ci illərdə yazdığı şeirlər Sabiranə ruhdadır. Müəllif fakt və dəlillərə istinad edərək göstərir ki, Pişəvəri həm də istedadlı ədəiyyatşünas imiş. Nəhayət, onun böyük xidmətlərindən biri də jurnalistlik fəaliyyətidir. Dissertant bunları öz imkanları daxilində saf-çürük edib. Fars dilindəki əlyazmaları işləmək onun böyük zəhmətidir.

İslam Ağayev: Əsərin aktuallığı, müasirliyi əsas şərtdir. Pişəvərinin tədqiqata cəlb olunması çox gözəldir. Ş.Tağıyeva gözəl fikir söylədi. Pişəvəri ədəbiyyata jurnalist və publisist kimi gəlib. O, cənubluların lideri olub. Əsərdə biz Pişəvərinin publisist kimi fəaliyyətini görürük. Əliheydər Qarayev və Pişəvəri o vaxtlar iki tanınmış publisist idilər. Pişəvəri böyük istedada malik idi. O, publisistikaya Seyid Pişəvəri kimi gəlib. Onun haqqında cənublular çox yazıb, lakin həmin yazılar müxtəlif mövqelidir. Burada aydın bir konsepsiya olmalıdır. M.C.Pişəvərinin həyatı, kommunist ideallarına bağlılığı o dövrün hökmü idi. Dünyanı yenidən bölmək uğrunda mübarizə gedirdi, indi də gedir. Müharibədən sonra Amerika razı olmazdı ki, Cənub, onun nefti Rusiyanın əlinə keçsin. Azərbaycan xalqı yenidən tarixin güdazına getdi.

Əsər çox qiymətlidir. M.C.Pişəvəri Cənubi Azərbaycanın taleyi barədə düşünürdü. Əsəri təqdir edirəm və onun müəllifini filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq bilirəm.

Nazim Rizvanov: V.Əhmədi çoxdan tanıyıram. O, uşaq ədəbiyyatı və ədəbi əlaqələrdən yazıb.

XX əsrin ictimai-siyasi təlatümləri içərisində M.Rəsulzadə, N.Nərimanov, S.Pişəvərinin böyük milli xidmətləri var. "Zindan xatirələri"nə doktorluq işində haqlı olaraq geniş yer verilib və o, milli ədəbi düşüncə miqyasında təhlil edilib. Pişəvəri zəngin həyat keçirmiş və faciə ilə həyatını bitirmişdir. Belə bir adam haqqında yazılan elmi işin müdafiəyə buraxılmasını alqışlayıram.

Hüseyn İsrafilov: Burada söylənən fikirlərlə tamamilə şərikəm. Müəllifin buna qədər əsərləri və elmi-publisistik yazıları onun geniş ədəbiyyatşünaslıq fəaliyyətini bir daha nəzərə çatdırır. M.C.Pişəvərinin ömür yolu və ədəbi-ictimai fəaliyyətini düzgün olaraq Azərbaycanın problemləri konteksində öyrənir və diqqətəlayiq elmi-nəzəri mülahizələr söyləyir. Əsərdəki fakt zənginliyi, arxiv sənədləri və mətbuat materialları tədqiqatçı səriştəsi ilə təhlilə cəlb olunur və onun elmi axtarış meyli və marağını aydınlaşdırır. Müəllifin –dissertantın öz mülahizə və təhlillərində bədii düşüncə prinsiplərinə üstünlük verməsi onun əsərinin uğurlarından sayılmalıdır.Onun bu əsərinin müdafiəyə buraxılmasını məqsədəuyğun sayıram.

Çıxışçılar qeyd etdilər ki, dissertsiya ağır, gərgin zəhmətin, ardıcıl araşdırmanın məhsuludur. Ümumiyyətlə, "Pişəvəridən yazmaq böyük hünərdir" (R.Əliyev). Dissertant qarşıya qoyulan problemin **aktuallığını** nəzərə alaraq konkret elmi nəticələr söyləməyə nail olur, mövcud filoloji fikir nailiyyətlərindən bəhrələnərək tədqiq olunan problemə konseptual yanaşma tərzini nümayiş etdirə bilir. M.C.Pişəvərinin həyatı, mühiti və şəxsiyyəti ümummilli inkişaf, onun ədəbi-bədii axtarışlarının mahiyyəti ictimai tarix baxımından dəyərləndirilir.

Tədqiqatın **elmi** prinsipini nəzəri və tarixi təhlil aspektləri təşkil edir. İctimai- siyasi fikirlə bədii düşüncənin vəhdətdə təhlil hədəfinə çevrilməsi ümumxalq həyatının öyrənilməsinə geniş imkan yaradır. Əsərdə tarixi gerçəkliklə müasir ictimai-siyasi və bədii ideyaların sintezi vətən, dövlət, xalq anlayışlarının elmi şərhinə əsaslı imkanlar yaradır.

Müəllifin istifadə etdiyi **tədqiqat materialları** bir sıra nəzəri ümumiləşdirmələrə imkan verir. Dissertasiyada Cənubi və Şimali Azərbaycanda nəşr olunan mətbuat orqanları, tarixi faktlar, sənədlər, bədii ədəbiyyat mətnləri milli hərəkat kontekstində öyrənilir.

Dissertasiyanın **strukturu** tədqiqatın problematikasına, məqsəd və vəzifələrinə uyğundur. Əsərin dörd fəsildən ibarət mətnində xronoloji ardıcıllıqla və sistemli şəkildə M.C.Pişəvərinin həyatı, mühiti və şəxsiyyəti milli tarixi və ədəbi proseslə əlaqəli şəkildə təhlil olunmuşdur.

İşin **elmi yeniliyi** ilk növbədə Azərbaycan tarixində xüsusi yer tutan M.C.Pişəvərinin və onun ideya dostlarının fəaliyyətinin geniş planda aydınlaşdırılmasıdır. Burada tarixi təsvirlə müqayisəli təhlil əsas götürülməklə milli-mədəni yüksəliş məsələləri araşdırılır, ədibin folklor və yazılı ədəbiyyat ənənələrindən bəhrələnmə məharəti müəyyənləşdirilir. Dissertasiyanın Pişəvərinin bədii yaradıcılığı və ədəbi-tənqidi fikirlərini əhatə edən fəsilləri tədqiqatın zirvəsi hesab edilə bilər. Əsər elmi-publisistik dildə, müasir elmi tələblərə cavab verə biləcək səviyyədə qələmə alınmışdır.

Dissertasıyanın böyük **nəzəri** və **təcrübü** əhəmiyyəti var. Dissertasiyada əhatə olunmuş materiallar və onlar barədə elmi-nəzəri mülahizələrdən Güney Azərbaycanı ədəbiyyatı haqqında tədqiqatların aparılmasında, "Cənubi Azərbaycan ədəbiyyatı" və ya "Azərbaycan ədəbiyyatı tarixi" adlı çoxcildlik əsərin hazırlanmasında bir mənbə kimi istifadə etmək mümkündür.

Tədqiqatçının çap əsərləri mövzusunu əhatə edir.

QƏRAR:

1.Vüqar Mikayıl oğlu Əhmədin "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda yazdığı dissertasiya filologiya elmləri doktoru alimlik dərəcəsinin tələblərinə cavab verir.

2.Tədqiqatçının çap etdirdiyi monoqrafiya və məqalələr dissertasiyasının ümumi məzmununu əhatə edir.

3.Dissertasiya tamamlanmış iş kimi müdafiəyə layiq bilinir. Tədqiqat 10.01.03 – Azərbaycan ədəbiyyatı ixtisas şifrinə uyğun gəlir.

SƏDR: **R.Əliyev**
filologiya elmləri doktoru

KATİB: **P.Məmmədova**
kiçik elmi işçi

Vüqar Mikayıl oğlu Əhmədin "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda yazdığı doktorluq dissertasiyası işinə OPPONENT RƏYİ

Son onillikdə beynəlxalq aləmdə baş verən əsaslı ictimai-siyasi dəyişikliklər ədəbiyyat tariximizin bir sıra məsələlərilə məlum ideoloji qadağalar aradan qalxdığı üçün, onlara yenidən baxmağa şərai yaratmışdır. Sovet-rus imperiyasının süqutundan sonra dünya xəritəsində siyasi mənzərə dəyişmiş, xalqların doğma ana dillərini, milli adət-ənənələrini, mənəvi-mədəni dəyərlərini yenidən öyrənib tədqiq etməyə, təkmilləşib zənginləşdirilməyə başlamışlar.

Son illər dünyanın siyasi xəritəsində meydana gələn dəyişiliklər, Quzey Azərbaycanın müstəqillik yoluna yenidən qədəm qoyması, genişlənməsi, milli kökə daha əsaslı qayıdışın başlanması Azərbaycan ədəbiyyatının Cənub qolunun daha geniş miqyasda araşdırılmasını zəruriləşdirmişdir.Bu zərurətin ifadəsi kimi orta və ali məktəblərin ədəbiyyat dərsləri proqramlarında tarixilik prinsipləri zəminində bütövlükdə Azəbaycan ədəbiyyatının təmsil olunması tələbinə bu və ya digər dərəcədə əməl edilmişdir.

Bu baxımdan istedadlı alim Vüqar Mikayıl oğlu Əhmədin Güney Azərbaycanı ədəbiyyatında ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin miqyası, genişliyi, rəngarəngliyi və zənginliyi ilə seçilən, böyük şəxsiyyətlərdən

biri olan Mir Cəfər Pişəvərinin həyatının, mühitinin və yaradıcılığının öyrənilməsinə həsr edilmiş doktorluq dissertasiyası mövzusunun aktuallığı ilə diqqəti cəlb edir.

Tədqiqatın əsas məqsədi M.C.Pişəvərinin sistemli şəkildə bioqrafiyasını izləməkdən, bədii, publisistik əsərlərinin mövzu və ideya xüsusiyyətlərini, bədii məziyyətlərini, Azərbaycanda milli-demokratik hərəkatın xidmətlərini açıqlamaqdan, bunlara müasirlik baxımından qiymət verməkdən ibarətdir.

Bu məsələləri açıqlamaq üçün dissertant əsərə giriş, dörd fəsil, nəticədən ibarət müvafiq quruluş seçmişdir.

"Giriş"də mövzunun aktuallığını, tədqiqatın obyektini, məqsəd və vəzifələrini, elmi yeniliyini, nəzəri və təcrübi əhəmiyyətini əsaslandırdıqdan sonra, müəllif əsərin əsas məzmununu açıqlamağa səy göstərmişdir.

Dissertasiyanın "M.C.Pişəvərinin həyatı və mühiti" adlanan birinci fəsli üç bölmədən ibarətdir. Bu bölmələrdə böyük ictimai xadim, yazıçı, publisist və elmi-nəzəri fikir adamının ömür yolu işıqlandırılır, onun milli-azadlıq və dövlətçilik uğrunda mübarizəsinə aydınlıq gətirilir. Təqdirəlayiq haldır ki, Azərbaycan ictimai fikri və mədəni intibahında əhəmiyyətli rol oynayan bu şəxsiyyətin formalaşdığı mühit bir sıra arxiv materialları və sənədlərin köməyi ilə ətraflı şəkildə öyrənilir, maraqlı mülahizələr söylənilir. Bəzi arxiv materiallarının ilk dəfə tədqiqata cəlb edilməsi əsərin dəyərini xeyli artırır.

Dissertasiyanın "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlı ikinci fəslində ədibin ilk qələm məhsullarına nəzər salınır, şeirlərinin dil və üslub məziyyətləri açıqlanır, nəsr əsərlərinin mövzu və ideya, bədii təsvir və ifadə xüsusiyyətləri təhlil edilir.

Aparılan tədqiqat göstərir ki, mətbuat aləmində ilkin addımlarını atan mühərririn yazılarında diqqəti cəlb edən başlıca tərəflər aşağıdakılar olub: a) müəllif İranda yaşayan xalqların düşdükləri ağır vəziyyətin ictimai-siyasi səbəb və amillərini aydın görür, yanılmadan göstərirdi, həqiqəti söyləyirdi; b)

Pişəvəri irtica və imperializm, müstəmləkəçilik və despotizm əleyhinə mübarizədə İran xalqlarının ittihad və ittifaqının təmin olunmasını başlıca şərt hesab edirdi.

Pişəvərinin ilk qələm təcrübəsi olan satirik şeirlərini təhlil edən dissertant, çox düzgün olaraq qeyd edir ki, bu şeirlər onun poetik duyumu, həyata tənqidi münasibətinin bədii inikası haqqında dolğun təsəvvür yaradır.Onun şeirlərinin dil-üslub xüsusiyyətlərini böyük Sabirin poetikasına bənzədən dissertant hesab edir ki, danışıq dilindən alınmış "Qarnıyoğunlar", "Cəhənnəm olsun", "Göz dəyməsin", "Sonyaları oynadırıq", "Əziyyətdə dolansın" kimi ifadələr Pişəvəri poetikası barədə xeyli informasiya əks etdirir.

Bu fəsildə dissertant həmçinin Pişəvərinin həbsdə olduğu vaxt qələmə aldığı və onun yaradıcılığında mühüm yer tutan "«Zindan xatirələri dəftərindən»" adlı əsəri də geniş təhlilə cəlb edir, bu əsərlə bağlı öz fikir və mülahizələrini söyləyir . Əsərdən gətirdiyi nümunələr bu fikirləri daha da inandırıcı edir.

Dissertasiyanın üçüncü fəslində M.C.Pişəvərinin ədəbi-tənqidi fikirləri təhlil olunur. Bu fəslin ilk bəndində ədibin ədəbi-tənqidi baxışlarının ədəbi-estetik vəzifəsindən, tərbiyəvi, ictimai-tarixi əhəmiyyətindən bəhs olunur. Pişəvərinin ədəbi irsində ictimai-siyasi, elmi-publisistik və ədəbi-tənqidi məqalələrin mühüm yer tutduğunu qeyd edən dissertant, onun ədəbiyyata, maarifə, teatra, operaya, ümumən mədəniyyətə, siyasi-ictimai hadisələrə aid fikirlərini təhlil edir, Pişəvərinin ədəbi-tənqidi görüşlərinin və publisistikasının inqilabi fəaliyyəti ilə sıx bağlı olduğu qənaətinə gəlir.

Bu fəslin növbəti bölməsində M.C.Pişəvərinin ilk dəfə tədqiqata cəlb edilən ədəbi-tənqidi məqalələri əsasında klassik və müasir ədəbi və mədəni irs, rus ədəbiyyatı, şeir vəznləri haqqında fikir və mülahizələri açıqlanır.

Pişəvərinin bu fikirlərini bacarıqla təhlil edən dissertant doğru olaraq hesab edir ki, ədib incəsənətin xüsusi bir növü olan ədəbiyyata üstünlük vermiş, onu ictimai şüurun forması

kimi yüksək dəyərləndirmiş, dövrünün ədəbi prosesini müntəzəm olaraq izləmiş, ayrı-ayrı əsərlərin tərbiyəvi dəyərini aşkara çıxaran və ya məzmun naqisliyini tənqid edən məqalələr yazmışdır.

Dissertantın dördüncü fəsli M.C.Pişəvərinin publisistikasına həsr olunub. Pişəvərinin "Hümmət", "Açıq söz", "Hürriyyət", "Həqiqət" və digər qəzetlərdə dərc edilmiş məqalələrinin təhlili dissertanta Pişəvərinin publisistikasının Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələrinin bünövrəsi üzərində yüksəldiyini söyləməyə haqq vermişdir.

Dördüncü fəslin bu bölməsində M.C.Pişəvərinin "Ajir" qəzetinin naşiri və redaktoru kimi fəaliyyəti geniş təhlil olunur.

Dissertant konkret faktlar və nümunələr əsasında onun azad və demokratik mətbuat uğrunda apardığı mübarizədən söz açır, həmçinin ədibin "Azərbaycan" qəzetini yenidən təsis etməsindən və həmin qəzetdəki böyük işindən xəbər verir. Bu qəzetlərdə dərc olunan məqalələrin təhlili göstərir ki, Pişəvəri Azərbaycan dilinə, onun inkişafına çox fikir vermiş, həmçinin İran dövləti tərəfindən Azərbaycanda icra olunan xalqa zidd siyasəti ifşa və tənqid etmişdir.

Bu fəsildə dissertant həmçinin M.C.Pişəvəri publisistikasının xüsusiyyətlərini şərh edir, göstərir ki, ədib publisistika janrının bütün növlərindən istifadə etmiş, felyeton, oçerk, məqalə, resenziya və s. əsərlər yazmışdır. Bu əsərlərin hamısının ən başlıca xüsusiyyəti əvvəlki təcrübəyə, ənənəyə əməl etmək, folklordan və klassik ədəbiyyatdan nümunələri bacarıqla işlətmək, fikri yığcam, lakonik və kəsərli sözlə ifadə etməkdir.

Aparılan tədqiqat göstərir ki, Pişəvəri öz publisistik əsərlərində təşbih, təkrir, mübaliğə, müqayisə və bu kimi bədii ifadə vasitələrindən geniş istifadə etmişdir.

Dissertasiyasının "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir və aparılan araşdırmalara yekun vurulur.

Faktiki materiallarla yanaşı, tədqiqatçının İranda elmi ezamiyyətdə olarkən aşkara çıxardığı müəlliflərin fikirlərini

tədqiqata daxil etməsi əsərin məziyyətlərindəndir.

Bunlarla yanaşı bəzi xırda iradların islahını dissertanta tövsiyə edirəm:

1.Dissertasiyanın I fəslində "Pişəvərinin istintaqı" adlı bölmə tədqiqata salınmış, cəmi bir abzasla şərh olunmuşdur. Yaxşı olardı istintaqdakı sorğu-suala münasibət bildirərək bir qədər şərh olunsun.

2. Tədqiqatçı bəzən elmi-ədəbi təhlili unudub bədii üsluba varır. Şübhəsiz, bu, tədqiqatçının qələm adamı olmasından irəli gəlir. Lakin yaxşı olardı ki, M.C.Pişəvərinin bədii əsərlərinin təhlili zamanı tədqiqatçı ədəbi təhlil, ədəbiyyatşünaslıq tədqiqat prinsipi ilə münasibət bildirəydi.

Bunlara baxmayaraq mən belə hesab edirəm ki, Vüqar Əhmədin "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı doktorluq işi elmi tələblərə cavab verən, yüksək səviyyədə yazılmış dəyərli araşdırma nümunəsidir. Bu dissertasiya işinə görə Vüqar Mikayıl oğlu Əhməd filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Ağarəfi Zeynalzadə,
Rəsmi opponent, filologiya elmləri doktoru.
30.XI.2004

Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün yazılmış dissertasiya işinə

RƏY

Çoxəsrlik və zəngin tarixə malik olan Azərbaycan ədəbiyyatının müasir mərhələdə bütöv, tam mənzərəsini yaratmaq üçün ədəbiyyatımız bu gün hər cür ideoloji təsir və təqiblərdən uzaq, milli kök və qaynaqlara əsaslanaraq yenidən araşdırmalı

və çağdaş nəzəri fikrin kontekstində tədqiq olunmaqla Azərbaycanın həm Güneyində, həm də Quzeyində gedən ədəbi proses ayrı-ayrılıqda öyrənilməli, sonra isə bütöv ədəbiyyatımızın mənzərəsi yaradılmalıdır. Çünki bölünüb parçalandığımız gündən Güneyli-Quzeyli, həm də dünyaya səpələnmiş 50 milyonluq millətimizin bütövlük ruhunu əsk etdirən, ən çətin məqamlarda belə milli və bütövlük ruhunu ölməyə qoymayan Azərbaycan ədəbiyyatı olmuşdur. Hansı dildə yaranmasından asılı olmayaraq ədəbiyyatımız həmişə xalqımızın bütövlük həsrətini yaşatmış, bu hissi bir anda olsa unutdurmağa imkan verməmiş, fars və rus işğalına məruz qalanda da istiqlaliyyət idealımız ədəbiyyatımızda yaşamışdır.

Azərbaycan ədəbiyyatı dünən də, bu gün də ayrılmazdır, o bütov dərk edilir və millətimizin mənəvi sərvətidir. Lakin ədəbiyyatımızın qarşısında duran çətinliklərdən ən başlıcası iki əsrə yaxın bir müddətdə ikiyə parçalanması, ədiblərimizin ayrı-ayrı ictimai-siyasi, milli ədəbi mühitlərdə yaşayıb-yaratması, nəticədə xalqımızın ədəbiyyatının fərqli ideya-estetik xüsusiyyətlər və ədəbi ənənələrə malik iki qolunun meydana gəlməsidir. Şimali Azərbaycan ədəbiyyatı kifayət qədər araşdırılıb tədqiqatlar meydana çıxsa da, Cənubda yaranan ədəbiyyat haqqında bunu demək mümkün deyil. Az-çox tədqiq olunan əsərlərin bir qismi Sovet dönəmində ərsəyə gəldiyi üçün bu tədqiqat əsərləri milli təfəkkür işığından kənarda təhlil olunmuşdur.

Ədəbiyyat tariximizin yeni konsepsiyasını şərtləndirən əsas amil onu milli dəyərlər əsasında obyektiv tarixilik mövqeyindən dərk və şərh etməkdir. Bu boşluğu doldurmağa cəhd edən bütün həmkarlarımızın, tədqiqatçılarımızın zəhmətinə bir daha saygı göstərməklə Vüqar Mikayıl oğlu Əhmədin tədqiqatını xüsusi qeyd etmək istərdik.

Vüqar Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı doktorluq dissertasiyası qeyd etdiyimiz aktual poblemlərin həlli yolunda atılmış ciddi addımlardan biri sayılmalıdır. Müəllifin müdafiəyə təqdim etdiyi dissertasiya işi

Güney Azərbaycan ədəbiyyatı ilə bağlı yazılmış elmi işlərin davamı kimi qəbul edilə bilər.

Doğrudur, XX yüzillikdə bu istiqamətdə kifayət qədər işlər görülmüş, çoxsaylı tədqiqat işləri meydana çıxmışdır. Cənubi Azərbaycan ədəbiyyatının tədqiqində yeni mərhələ əslində 90-cı illərin ortalarından başladı. Vüqar Əhmədin dissertasiyası da 90-cı illərin ortalarından başlayan bu mərhələnin uğurlu nəticələrindən biridir. Çünki təqdim olunmuş dissertasiya hər cür ideoloji tələb və buxovlardan azad olan, milli mənafe və gerçəkliyə söykənən, isti ürək, soyuq ağıl və məntiqə dayanan, tamlığı, əhatəliyi ilə seçilən, nəhayət, filoloji dərinliyi elmi mühakimənin hakim kəsildiyi məntiqə söykənən, elə bu cəhətlərinə görə də diqqəti cəlb edən tədqiqat işidir. Əsər tədqiqatçı, şair və vətəndaş amalının birləşdiyi bir məqamın ərsəyə gətirdiyi, milli dəyərləri hər şeydən üstün tutan milli təfəkkür sahibinin uzun illərin zəhmətinin bəhrəsidir. Əsər həm də Mircəfər Pişəvəri haqqında ümumiləşdirilmiş, əhatəli, bütöv monoqrafik tədqiqatdır.

Ümumiyyətlə, Cənubi Azərbaycan ədəbiyyatı və ayrı –ayrı şəxsiyyətlərin bədii irsinin öyrənilməsi aktual olsa da, milli baxımdan şərəfli bir addım sayılsa da, onun işlənməsi müəyyən çətinliklərlə də bağlıdır. Çünki bu mövzüları işləyən müəllif İranda, Cənubi Azərbaycanda, həm də Şimali Azərbaycanda yayınlanmış zəngin ədəbiyyatı da tədqiqata cəlb etməyi bacarmalıdır. Təqdirəlayiq haldır ki,dissertant tədqiqatında bu çətin işin də öhdəsindən gəlməyi bacarmış, dissertasiyaya kifayət qədər elmi, bədii və tədqiqat xarakterli əsaərləri daxil etmiş, fikir və mülahizələrində türk və fars mənbələrinə istinadlanmış, ortaya elmi sanbalına görə bir iş çıxara bilmişdir.

Dissertant Mir Cəfər Pişəvərinin həyatını, mühitini və yaradıcılığını əhatəli tədqiq etmək üçün belə bir fabula seçir: "Giriş", "Pişəvərinin həyatı və mühiti" adlanan birinci fəsil, "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlanan ikinci fəsil, "Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanan üçüncü fəsil,

"M.C.Pişəvərinin publisistikası" adlanan dördüncü fəsil, "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat". Dissertasiyanın bu şəkildə qurulması müəllifə tam sərbəst olmaq, Pişəvəri kimi çoxillik ictimai-siyasi təcrübəyə, çevik və məntiqi təfəkkürə maik siyasətçi, nasir, ədəbiyyatşünas, alovlu publisist, tənqidçi və bir çox cəhətləri özündə cəmləşdirən şəxs haqqında əhatəli fikir söyləmək imkanı verir. Dissertasiyanın bu fabulada təqdim edilməsi hər fəslin obyektini predmetiləşdirən, onun struktur vəhdətini gerçəkləşdirən amil kimi dərk olunur.

Dissertasiyanın "Giriş" ində verilmiş tələblərə uyğun olaraq mövzunun aktuallığı, tədqiqat məqsəd və vəzifələri, metodu, elmi yeniliyi, təcrübi əhəmiyyəti,hətta dissertantın bir sıra təklifləri də açıqlanır, sonrakı fəsillərin təqdimatına bir körpü salır.

"M.C.Pişəvərinin həyatı və mühiti" adlanan I fəsildə həm Pişəvərinin bir fərd olaraq özünün, həm də Cənubi Azərbaycanın İran daxilində keçdiyi çox mürəkkəb, ziddiyyətli, mübarizələrlə zəngin, ağır və şərəfli tarixinin xronikası yaradılır. Bu fəsildə Pişəvərini daha çox azadlıq mücahidi kimi təqdim edən müəllif Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatı haqqında məlumat verir. Pişəvərini bu hərəkatı istiqamətləndirən, siyasi təşkilatın – ADF-nin yaradıcısı kimi təqdim edir.Bu fəsildə bizi razı salan ümdə cəhət odur ki, bu vaxta qədər bəzi hallarda Pişəvəri daha çox sosialist və kommunist məsləkinə uyğun siyasətçi kimi təqdim edilsə də, Vüqar Əhməd bu böyük şəxsiyyətin fikir və çıxışlarında olan gizli mətləbləri aşkarlaya bilir.

Pişəvəri deyir: "...Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləğv edə bilməzdik.Biz eləyə bilməzdik ki, milli partiya olduğumuz halda, birinci qədəmdə sinfi mübarizəni alovlandıraq. Bunu bəziləri partiyanın baş xəttindən geri çəkilmək kimi başa düşsə də bizim fikrimizcə, bu ən doğru qərar idi (Dis.səh.48) və yaxud: "Bizim xalqımız böyük və qəhrəman xalqdır. Bu xalq nə Tehranda, nə İsfahanda, nə də

İranın başqa yerlərində yaşayan xalqa oxşamaz.O fars deyil və farslarla fərqi var.O farslara deyirdi: "Sizdə öz yurdunuza məhəbbət və əlaqə yoxdur.Azərbaycanlı heç bir cəhətdən sizə bənzəmədiyi kimi, Vətən məhəbbəti, ana eşqində də sizlərə oxşamaz". (Dis.səh.59) Bu fəsildə təkzibolunmaz tarixi faktlar, həqiqətlər, obyektiv tarixi mənbələr əsasında Cənubi Azərbaycanda gedən ictimai-siyasi proseslər, onların kökləri açıqlanır. Azərbaycan türklərinə, onların ana dilinə, təhsil, mədəniyyət və ədəbiyyatına, mətbuatına dövlət səviyyəsində olan münasibət və bu münasibətin doğurduğu xalqın etirazı ifadə olunur.

Milli hökumətin qurulması, onun nailiyyətləri Mərkəzi hökuməti hövsələdən çıxarırdı. Bu ərəfədə 7 maddədən ibarət bəyənnamənin qəbulu Azərbaycan xalqının mübarizə tarixində müəyyən bir başlanğıc kimi səciyyələnsə də, İran daxilində Muxtariyyət məsələsinin qoyuluşu və s. məsələlər haqqında birmənalı qəbul edilə bilməyən, bəzən mübahisə doğura biləcək fikirlər olsa da, güman edirik ki, bunlar elmi baxımdan, tariximizin araşdırılması baxımından lazımdır. Hətta təqib və təzyiqlərə məruz qalanda da, milli hüquqlarının, naliyyətlərinin geri alındığı bir zaman da Azərbaycanın istiqlal mücadiləsinin səngimədiyi fikrini irəli sürməsi dissertantın tarixilik prinsipinə diqqətlə yanaşmasının məntiqi davamı kimi səslənir.

"Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlanan II fəsildə dissertant Pişəvərinin ədəbi-bədii yaradıcılığından söhbət açarkən onu "ədəbi və ictimai fikir tarixində M.F.Axundzadə, C.Məmmədquluzadə, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun, M.Hüseyn, M.İbrahimov kimi erudisiyalı, geniş dünyagörüşlü, ədəbi növə janr baxımından yaradıcılığı rəngarəng və zəngin olan bir sənətkar kimi" (Dis.səh.78) səciyyələndirməsi bir daha sübut edir ki, tədqiqatçı Pişəvərinin məhz Azərbaycan ədəbi mühitində formalaşdığını və onun yaradıcılığının milli mənəvi dayaqlara söykəndiyini göstərir.

Bu fəsildə Pişəvərinin ədəbiyyatşünaslığımıza məlum olan bir neçə şeirindən söhbət açılır, xüsusilə Cənubi Azərbaycanda

satirik ədəbi cərəyanın yetişməsi və formalaşmasında M.Ə.Sabirin böyük xidməti qeyd olunmaqla dövrün poeziyasının aparıcı istiqaməti kimi dəyərləndirilir. Müəllif Azərbaycan türkcəsində və xarici dillərdə olan memuar ədəbiyyatı haqqında olan ədəbiyyata müraciət edən Vüqar Əhməd fikirlərini Pişəvərinin "Zindan xatirələri" əsəri üzərində cəmləyir. "Əsər bədiiliyinə görə Mirzə Cəlil, A.Şaiq, Y.Vəzirin xatirələri ilə yanaşı durur" (səh.86) söyləyən dissertant adlarını çəkdiyimiz böyük sənətkarlarla Pişəvərinin nəsrində bir yaxınlıq və uyarlıq görür. Xüsusən "Zindan xatirələri" əsəri mövzu və süjet baxımından obyektiv şəkildə araşdırılır, diqqəti cəlb edən dəyərli elmi mühakimə və mülahizələr söylənilir. Dissertant XX əsrin əvvəllərində İranda baş vermiş siyasi qarışıqlıq, inqilab və sarsıntıların təsiri altında artıq maarifçilik məfkurəsinin arxa plana keçərək ədəbiyyatda və fikirlərdə sosial demokratizm və inqilabi demokratik meyllərin güclənməsi fikrini təlqin edir, tənqidi realizmin Pişəvərinin yaradıcılığında formalaşdığı qavramını gerçəkləşdirir.

Düşünürük ki, milli azadlıq və şəxsiyyətin azadlığı məsələsini Pişəvəri realizminin əsas keyfiyyətlərindən biri kimi təqdim edən dissertantın qənaətləri obyektiv elmi fikirlər kimi qəbul edilə bilər. Milli varlıq və mədəniyyətə yönəlmiş irticanın repressiv fəaliyyəti fonunda dar ağaclarına sürüklənmiş, zindanlara atılmış, qəriblik möhnətini yaşamağa məhkum edilmiş insanların acı taleyi haqqında səhifələri həyacansız oxumaq mümkün deyil.

"Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanan fəsli dissertant şərti olaraq 3 yerə bölür. Bu bölmələrdə Xalxalinın ədəbiyyatın bədii-estetik funksiyası, tərbiyəvi əhəmiyyəti haqqında fikirləri, onun klassik və cağdaş ədəbi əsərlərə münasibəti, ana dilimiz haqqında mülahizələrinin hər biri öz obyektini predmetləşdirən, dissertasiyanın struktur vəhdətini gerçəkləşdirən komponentlər kimi qərarlanır.

Dissertasiyanın sonuncu IV fəsli Pişəvərinin publisistikasına

həsr olunmuşdur. Fikrimizcə, dissertant bu fəsildə ədəbiyyat və siyasət, şəxsiyyət və zaman kimi ədəbi və ümumbəşəri problemlərin konkret zaman və məkan müstəvisində təzahürünün özünəməxsus incəliklərini açıqlayır. Onun publisistikasının problematika rəngarəngliyini, bu yolun "Hümmət"dən başlanan "Hürriyyət", "Həqiqət", "Ajir" və "Azərbaycan" qəzetlərinədək keçən şərəfli yol səbrlə izlənilir.Pişəvərinin gələcəyə və istiqlala inam hissini yaşadan publisistik əsərlərini tədqiqatçı-vətəndaş sevgisi ilə təhlilə cəlb edir. Onun publisistikasında dissertant Pişəvərinin müraciət etdiyi mövzular sırasında milli qeyrət və vətənpərvərliyi ön sıraya çəkərək onun həm siyasi, həm də ədəbi-publisistik fəaliyyətində qabarıq ifadə olunan bu böyük amili onun yaradıcılığının əsas aparıcı istiqaməti kimi dəyərləndirir. Ümumiyyətlə, əsər elmiliyinə, müasirliyinə, elmi ümumiləşdirmə imkanlarına və praktiki əhəmiyyətinə görə sanballı tədqiqat əsərlərindən biridir. Bununla belə, dissertasiyada bəzi qüsur və çatışmamazlıqlar da var ki, onları dissertantın nəzərinə çatdırmaq istərdik:

1. Pişəvəri ictimai-siyasi xadim idi. Cənubi Azərbaycanda yaranmış Milli Hökumətin yaradıcısı, rəhbəri və 21 Azər Hərəkatının qəhrəmadı idi. Belə olan tərzdə onun həyatından, bədii yaradıcılığından, istərsə də ədəbi-tənqidi görüşlərindən, xüsusilə publisistikasından söhbət açarkən Pişəvərini M.F.Axundzadə, A.Şaiq və s.müqayisə etməkdənsə daha yaxşı olardı ki, o, böyük öndər, görkəmli siyasi xadim, ideoloq, eyni zamanda bədii yaradıcılığı və parlaq publisistikası ilə diqqəti daha çox cəlb edən, türk müsəlman aləmində ilk demokratik cümhurriyətin banisi və yaradıcısı M.Ə.Rəsulzadə ilə müqayisə olunsun.

2. Dissertasiyanın 150-ci səhifəsində oxuyuruq: "İstiqlal" adlı qəzetin mövzusu ilə barışmayan Pişəvəri "Müntəzir" imzası ilə təqdirəlayiq bir cəsarətlə yazırdı: "Hərgah bolşeviklərin dediyi sözü və zəhmətkeşlərin sizə olan nifrətini düşünüb anlasaydınız "İstiqlal" qəzetinin hər bir nömrəsini min manata alıb çeynəməmiş udardınız ki, bir daha camaat oxuyub, sizi

məsxərə etməsin". Ardınca dissertant yazır: "...Bu və ya onlarca bu kimi məqalələr Pişəvərinin prinsipial, tənqidçi olduğunu aydın göstərirdi".

Bolşeviklərin millətimizin və vətənimizin başına açdıqları oyunları bilirik. Pişəvəriyə olan sevgi və sayğılarımızla bərabər, tarixi həqiqətlərə göz yummaq düzgün deyil. Bu məsələlərə dissertantın münasibətini görmək istərdik.

3. Pişəvəri 1917-ci il "Hümmət" qəzetinin 14-15-ci nömrələrində "Qarabağ övzai" başlığı altında yazdığı məqalələrində bəylərin, xanların və bir sıra ruhanlərin cinayəti nəticəsində Qarabağın bir parça qan dəryasına dönməsindən yazır. Çox istərdik ki,dissertant bu məsələlərə bu günün baxışı ilə yanaşsın və münasibətini bildirsin. Beynəlmiləlçilik adı altında başımıza gələn bəlaların acısını az çəkməmişik.

4. Dissertasiyanın 198-ci səhifəsində 1906-1946-cı illərdə çap olunan qəzetlərin sırasında "Azərbaycan" - 1918-ci ildə türklər tərəfindən Təbrizdə nəşr olunan pantürk ruhlu qəzet idi" cümləsi yerinə düşmür. Milli varlığı danılan, hər addımda təhqir olunub milli heysiyyəti tapdanan millət milli hüquqları uğrunda mübarizə aparırsa, onun ziyalıları bu barədə dövrü mətbuatda yazılarla çıxış edirlərsə, bu onların insani və milli haqlarıdır. Bir də ki, düşmənlərimiz bizə lazım olduğundan artıq bu adları qoyublar. Bizim öhdəmizə düşən isə tarixdə olan bu ləkələri təmizləməkdir.

Yuxarıda deyilən nöqsanlar dissertasiyasının elmi dəyərinə xələl gətirmir. Tənqidi mülahizələrimiz Azərbaycan ədəbiyyatşünaslığının inkşafı və əsərin təkmilləşməsinə xidmət edir.

Uzun illər zəhmətinin nəticəsi olan bu əsər dərsliklərin yazılması üçün faydalı mənbə ola bilər. Deyilənləri nəzərə alaraq Vüqar Mikayıl oğlu Əhmədi "Mir Cəfər Pişəvərinin həyatı,mühiti və yaradıcılığı" mövzusunda dissertasiyasına görə filologiya emləri doktoru alimlik dərəcəsinə layiq bilirəm.

Bakı Dövlət Universitetinin professoru
filologiya elmləri doktoru Məmmədova Almaz Əli qızı

Elmi katib:
Prof.Almaz Əli qızı Məmmədovanın
Imzasını təsdiq edirəm: dos. B.H.Babazadə

VÜQAR MİKAYIL OĞLU ƏHMƏDİN "MİR CƏFƏR PİŞƏVƏRİNİN HƏYATI, MÜHİTİ VƏ YARADICILIĞI" MÖVZUSUNDA DOKTORLUQ DİSSERTASİYASINA

R Ə Y

Etiraf etmək lazimdır ki, Cənubi Azərbaycanda ədəbi-mədəni və ictimai proseslərin tədqiqi xüsusi aktuallıq kəsb edən ciddi elmi problem olaraq qalmaqdadır. Bu problemin sistemli şəkildə araşdırılıb ümumiləşdirilməsi Cənubdakı soydaşlarımızın mili oyanışı, azadlıq mübarizəsi, ədəbi-mədəni əlaqələrin vəziyyəti və imkanları kimi mühum məsələlərin öyrənilməsinə xidmət etdiyi üçün xüsusi əhəmiyyət kəsb edir. XX əsr boyu müxtəlif vaxtlarda nəşr edilmiş çoxcildlik antologiyalar, çap olunmuş monoqrafiyalar və məqalələr qeyd edilən sahədə müəyyən nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bununla belə, Cənubi Azərbaycanda ədəbi-mədəni və ictimai proseslərin öyrənilməmiş problemləri hələ də çoxluq təşkil edir. Cənubi Azərbaycandakı milli azadlıq hərəkatının görkəmli liderlərindən olan Mir Cəfər Pişəvərinin həyatı və mühitinin, çoxcəhətli fəaliyyətinin geniş planda, bütün yönləri ilə tədqiq olunması da həmin qəbildən olan ciddi problemlərdən biridir. Xüsusən, keçən əsrin 50-70-ci illərində örtülü şəkildə olsa da bu böyük siyasi xadimin adı üzərində müəyyən qadağaların olması, 80-90-cı illərdə siyasi proseslərin elmi arxa plana keçirməsi uzun bir dövr ərzində Mir Cəfər Pişəvərinin

həyatı və fəaliyyətini əhatəli tədqiqatların predmetinə çevrilməsini geçikdirmişdir. Bu mənada Vüqar Mikayıl oğlu Əhmədin Mir Cəfər Pişəvərinin mövzusundakı doktorluq dissertasiyası mövcud boşluğu doldurmağa xidmət edən aktual elmi əsər kimi mühum əhəmiyyətə malikdir. Təqdim olunan uğurlu doktorluq dissertasiyası Mir Cəfər Pişəvəri kimi görkəmli ədəbi-tarixi şəxsiyyətə həsr olunmuş birinci monoqrafik tədqiqat əsəri kimi Azərbaycan elminin Mir Cəfər Pişəvəri qarşısındakı çoxillik borcunu da aradan qaldırmağa xidmət edir. Əsasən, siyasi xadim kimi milli tariximizdə əbədiləşmiş Mir Cəfər Pişəvərinin ədəbi-publisistik və tərcüməçilik fəaliyyətinə, habelə tənqidçilik sahəsində xidmətlərinə həsr olunmuş birinci əhatəli və sistemli tədqiqat işi kimi də Vüqar Əhmədin doktorluq dissertasiyası aktuallıq kəsb edir. Nəhayət, bu dissertasiya geniş mənada Azərbaycanşünaslığa layiqli töhfə kimi də dəyərləndirilməyə layiqdir.

Giriş, dörd fəsil, nəticə və ədəbiyyat göstəricisindən ibarət olan doktorluq dissertasiyasında görkəmli siyasi xadim, böyük tarixi şəxsiyyət olan Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı ilk dəfə olaraq geniş planda, sistemli elmi prinsiplər əsasında əhatəli surətdə araşdırılmış və ümumiləşdirilmişdir. Dissertasiyanın "Mir Cəfər Pişəvərinin həyatı və mühiti" adlandırılan birinci fəsli üç bölmə üzrə tədqiqata cəlb olunmuş, yeni sənədlər və dövri mətbuat materiallarının əsasında öyrənilmişdir. Vüqar Əhməd Azərbaycan ədəbiyyatşünaslığında birinci dəfə Mir Cəfər Pişəvərinin mühiti ilə vəhdət şəklində elmi tərcümeyi-halını yaratmağa müfəvvəq olmuşdur. Mir Cəfər Pişəvərinin həyatının ayrı-ayrı mərhələləri- Xalxal, Bakı, Gilan, Təbriz dövrləri dissertasiyada etibarlı ədəbi-tarixi materiallar əsasında işıqlandırılır. Eyni zamanda, əsərdə Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsinin inkşaf yolu da öz yaradıcısının həyat yolu ilə əlaqəli şəkildə izlənilir. Mühitin tədqiqində ictimai proseslərlə yanaşı, ədəbi gedişata da nəzər salınması görkəmli siyasi xadim olan Mir

Cəfər Pişəvərinin bədii-publisist əsərlərin yaradıcısı kimi formalaşması məsələsinin ön mövqeyə çəkilməsinə şərait yaradır. Bundan başqa, ictimai-siyasi mühitin xarakterini müəyyən etmək məqsədilə Vüqar Əhmədin tanınmış yazıçıların, o cümlədən Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz və başqaları kimi ədiblərin əsərlərinə müraciət etməsi İranda, xüsusən Cənubi Azərbaycanda Pişəvərini əhatə edən ədəbi-tarixi proseslərin dolğun şəkildə təqdiminə və obyektiv qiymətlədirilməsinə işıq salır. Nəticə etibarilə dissertasiyanın bu fəsli Mir Cəfər Pişəvərinin hərtərəfli, kamil elmi portretini əhatəli şəkildə təqdim edə bilir.

Vüqar Əhməd dissertasiyanın "Mir Cəfər Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlandırdığı ikinci fəslində ilk növbədə görkəmli siyasi xadimin bədii yaradıcılığa müraciətinin səbəblərini araşdırmış, ədəbi fəaliyyətini haqlı olaraq ictimai fikirlərin daha təsirli və kəsərli ifadəsinin mühüm vasitəsi kimi dəyərləndirmişdir. Bu fəsildə M.C.Pişəvərinin ilk qələm təcrübəsindən tutmuş yetkin sənət əsərləri sayıla bilən şeirlərinə və nəsr əsərlərinə qədər bütün yaradıcılıq məhsulları geniş elmi təhlildən keçirilir. Yaxşı cəhətdir ki, doktorant Pişəvərinin bədii yaradıcılığından bəhs edərkən ümumi təhlil yolu ilə getməmiş, məhz onun əsərlərinə məxsus olan özünəməxsusluqları ön mövqeyə çəkməyə üstünlük vermişdir. Bu mənada Vüqar Əhmədin Pişəvərinin yazdığı şeirlərdə "bir milli təəssübkeş, Vətən fədaisi, xalqını müstəqil və birləşmiş görmək istəyən vətəndaş obrazının" canlandırılması barəsindəki elmi mülahizələri, ədibin "Zindan xatirələri" əsərini "bədii üslubla publisistik üslubunun orijinal bir qovuşuğu" əsasında yaratdığı tarixi xatirə-povest kimi təqdim etməsi həmin istiqamətdə aparılan araşdırmaların məntiqi nəticəsidir. Dissertasiyada Pişəvərinin şeir yaradıcılığının təhlili prosesində özündən əvvəl bu mövzuda tədqiqatlar aparmış alimlərin mülahizələrinə yaradıcı-tənqidi münasibətin ifadəsi əsərə əhəmiyyətli polemik

ruh gətirir. Eyni zamanda, "Zindan xatirələri" povestinin janr xüsusiyyətlərinin konkret olaraq müəyyənləşdirilməsi istiqamətində aparılmış təhlillər və gəlinən elmi qənaət ədəbiyyatşünaslıq elmimiz üçün yeni səslənir.Vüqar Əhmədin əhatəli tədqiqatı zəminində Mir Cəfər Pişəvərinin bədii yaradıcılığı barədə bitkin və dolğun təəssürat formalaşa bilir. Tədqiqatçının "Pişəvəri sosial bəlaları şeir dili ilə söyləyərkən bu poetik nümunələrin sənətkarlığının bir qədər də fərqinə varmamışdır" qəbilindən olan qənaətləri onun mövzuya obyektiv münasibətini ifadə etməklə yanaşı, ümumi mənzərənin tamlığına da xidmət göstərir.

Dissertasiyanın "Mir Cəfər Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanan üçüncü fəslində tədqiqata cəlb olunan ədəbi-siyasi şəxsiyyətin ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərindən bəhs olunur. Həyatı, mühiti, bədii yaradıcılığı və publisistikası ilə müqayisədə Pişəvərinin ədəbi-tənqidi görüşlərindən az bəhs olunduğunu nəzərə alsaq, elmi yenilik baxımından bu fəslin birbaşa, tamamilə Vüqar Əhmədə məxsusluğunu ayrıca qeyd etməyi lazım bilirik. Doktorant ilk dəfə olaraq Mir Cəfər Pişəvərinin ədəbi-tənqidi məqalələrini seçib ayırmış, qruplaşdırmış, təhlildən sonra ümumiləşdirmiş, özünəməxsus elmi nəticələr çıxarmışdır. Vüqar Əhmədin Mir Cəfər Pişəvərinin ədəbi-tənqidi görüşlərini mövzu və istiqamət baxımında obyektiv dərk etməyə xidmət edən təsnifatı mükəmməl elmi prinsiplərə söykənməsi ilə seçilir. Təqdim olunan elmi təsnifat Pişəvərinin tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətinin aydın mənzərəsini özündə cəmləşdirir. Bununla yanaşı, dissertantın Pişəvərinin zəngin mütaliəsi, dünya ədəbiyyatı klassiklərini oxuyub öyrənməsi,xüsusən ədəbi-tənqidi görüşlərində Şimali Azərbaycandakı qüvvətli ədəbiyyatşünaslıq məktəbindən təsirlənməsi, Cənubi Azərbaycandakı ədəbi proseslərin dəyərləndirilməsinə ciddi maraq göstərməsi barədəki tezisləri onun tənqidçi və ədəbiyyatşünas kimi özünəməxsus simasını müəyyən etməyə imkan verir. Bundan başqa,Vüqar Əhmədin

Pişəvərinin rus ədəbiyyatı, teatr, opera, mədəni irs barəsindəki fikirlərini də təhlilə cəlb etməsi ədibin geniş dünyagörüşünə dair məlum təsəvvürləri daha da dərinləşir.

Nəhayət, Cənubda Azərbaycanın milli muxtariyyatına nail olmaq kimi böyük tarixi vəzifənin öhdəsindən gəlmiş Pişəvərinin ana dili-Azərbaycan dili və bədii dil məsələlərinə dair baxışlarını da xüsusi olaraq dərindən təhlil etməklə tarixi şəxsiyyətin siyasi görüşləri ilə ədəbi qənaətlərinin bir-birini tamamlaması qayəsi təsdiq olunmuşdur.

Dördüncü fəsildə Mir Cəfər Pişəvərinin publisistikasını xüsusi elmi təqdiqatın predmetinə çevirən Vüqar Əhməd ədibin mətbuat sahəsindəki fəaliyyətini və publisist məqalələrini təhlil edib dəyərləndirmişdir.Müəllif haqlı olaraq Pişəvərinin "Ajir" qəzetindəki redaktorluq fəaliyyətini ayrıca bölmədə tədqiq etmişdir. Üç ilə yaxın nəşr edilən bu qəzetdəki redaktorluq fəaliyyətini və burada çap olunan məqalələrini Pişəvərinin demokratik görüşlərinin zirvəsi, onun milli-azadlıq uğrunda apardığı mübarizənin ən kamil publisist ifadəsi kimi qiymətləndirən Vüqar Əhməd "Ajir" qəzetini də Azərbaycan demokratik mətbuatının tarixində mühüm yer tutmağa layiq olan əhəmiyyətli mətbuat orqanı səviyyəsində nəzərə çarpdırmışdır. Bununla yanaşı, dissertasiyada Mir Cəfər Pişəvərinin "Hümmət", "Açıq söz", Hürriyyət, "Həqiqət" və s. Azərbaycan qəzetlərindəki çoxillik və çoxcəhətli fəaliyyəti də araşdırılıb layiq olduğu səviyyədə ümumiləşdirilmişdir.Tədqiqat işində Pişəvəri publisistikasının özünəməxsusluğu, sənətkarlıq xüsusiyyətləri də ciddi elmi prinsiplər əsasında müəyyən edilmişdir. Ədibin publisistikasında bədiilik və janr müxtəlifliyi barədəki araşdırmalar daha çox maraq doğurur.

Göründüyü kimi,Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusundakı doktorluq dissertasiyası görkəmli bir siyasi-tarixi və ədəbi şəxsiyyətin zəngin və şərəfli ömür və mübarizə yolu,çoxcəhətli bədii-publisist yaradıcılığı haqqında əhatəli və sistemli elmi

təsəvvür yaratmağa uğurla xidmət edən sanballı tədqiqat əsəridir. Bununla belə, fikrimizcə,dissertasiyada aşağıdakı bir sıra çatışmamazlıq və nöqsanlar da vardır:

1.Dissertasiyada ilk dəfə aşkar olunmuş arxiv sənədləri, dövri mətbuat materialları vardır. Ancaq Azərbaycan müstəqillik qazandıqdan sonra Şimalda və Cənubda elmi axtarışlar aparmaq sahəsində yaranmış geniş imkanlarla müqayisədə bu qəbildən olan sənədləri və materialları daha da artırmaq mümkün idi.

2. Dissertasiyanın "Mir Cəfər Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlanan ikinci fəslində ədəbi-bədii ifadələrindən biri artıqdır. Ümumiyyətlə, elmi fikrimizdə fərqinə varmadan işlədilən bu kəlmələrin eyni mətləbi ifadə edən sinonimlər olduğunu nəzərə almaq lazımdır.

3. "Zindan xatirələri" əsərini Cəlil Məmmədquluzadə, Abdulla Şaiq və Yusif Vəzir Çəmənzəminli kimi ədiblərin xatirələri ilə yanaşı duran memuar kimi təqdim etmək obyektiv səslənmir. Bir qədər sonra Vüqar Əhmədin özünün bu əsərin Cəlil Məmmədquluzadə və Zeynalabdın Marağayinin əsərlərinin təsiri ilə yarandığını etiraf etməsi ilə onların əsərlərini eyniləşdirmək meylləri bir-birini tamamlamır.

Bütün bunlar təqdim olunan doktorluq dissertasiyasının elmi-nəzəri əhəmiyyətinə ciddi xələl gətirmir.Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı doktorluq dissertasiysı mövzusunun aktuallığına, elmi yeniliyinə, praktik əhəmiyyətinə görə ciddi maraq doğuran fayda və sanballı tədqiqat əsəridir. Çoxcildlik Azərbaycan ədəbiyyat tarixinin, yaxud Cənubi Azərbaycan ədəbiyyatı tarixinin hazırlanmasında bu dissertasiyadakı zəngin materiallardan, elmi qənaətlərdən geniş şəkildə istifadə etmək mümkündür.Elmi yeniliyi, aktuallığı və praktik əhəmiyyəti nəzərə alınmaqla Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusundakı

dolğun və əhatəli elmi tədqiqat işinə görə filologiya elmləri doktoru alimlik dərəcəsinə layiqdir.

İSA HƏBİBBƏYLİ
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor

Akademik İsa Həbibbəylinin imzasını təsdiq edirəm.

ELMİ KATİB: t.e.n. E.D.ZAMANOV
11 yanvar 2005

Vüqar Mikayıl oğlu Əhmədovun "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı doktorluq dissertasiyası işinə

RƏY

Tədqiqatda dissertant M.C.Pişəvərinin ictimai-siyasi ədəbi-bədii, publisistik və tərcüməçilik irsini təhlil edir, onun ictimai fəliyyətinin başlıca istiqamətləri barədə məlumat verir, ədibin şeirlərinin və bədii nəsrinin mövzu və ideya istiqamətlərini şərh edir, onun tərcüməçi peşəsinə münasibətini açıqlayır, M.C.Pişəvərinin həyatı və yaradıcılığını müasirlik baxımından qiymətləndirir.

Bütün bu məsələlər zəngin faktiki materiallar, arxiv sənədləri, ədibin yaradıcılığı əsasında açıqlanır.Bu baxımdan Vüqar Əhmədovun tədqiqat işi diqqətəlayiqdir və mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Əsərin quruluşu dissertanta öz fikir və mülahizələrini açıqlamağa imkan verir.

Tədqiqat giriş, dörd fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Təlimata əsasən müəllif girişdə mövzunun aktuallığını əsaslandırır, tədqiqatın obyektini, məqsəd və vəzifələrini müəyyənləşdirir, elmi yeniliyini, nəzəri və təcrübi əhəmiyyətini açıqlayır.

Dissertasiyanın birinci fəsli "M.C.Pişəvərinin həyatı və mühiti" adlanır.

Bu fəsildə M.C.Pişəvərinin uşaqlıq və gənclik illərindən tutmuş onun ömrünün sonunadək ictimai-siyasi və ədəbi-mədəni ideallarına sadiq qalması, müasirləri ilə yaradıcılıq əlaqələri tarixi faktlara istinadən izah olunur.

Müəllif doğru olaraq göstərir ki, vəzifə, amal və idealından asılı olmayaraq hər bir insanın, o cümlədən də M.C.Pişəvərinin həyatı - onun tərcümeyi-halı, gördüyü işlər, iştirakcısı olduğu hadisələr, yaratdığı əsərlər ümumilikdə xalqın tarixinin müəyyən dövrü ilə əlaqəlidir. Məhz bu fikirdən çıxış edən dissertant M.C.Pişəvərinin tərcümeyi-halını geniş şəkildə təsvir edir, onu yetirən mühiti, o dövrün ab-havasını, Güney Azərbaycandakı durumu şərh edir, Pişəvərinin inqilabi mübarizə meydanına daxil olmasının səbəblərini açıqlayır.

Qeyd etmək lazımdır ki, bu fəsildə verilən məlumatların çoxusu yeni olduğu üçün, böyük maraq kəsb edir.

Dissertasiyanın "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlanan ikinci fəslində ədibin ilk qələm təcrübələri olan satirik şeirləri və onun yaradıcılığında xüsusi yer tutan nəsr əsərləri təhlilə cəlb edilir. Göstərilir ki, elə ilk əsərlərində Pişəvəri öz həyat idealına, qayəsinə sadiq qalmış, həyatdakı çatışmazlıqları, ədalətsizliyi, qanunsuzluğu kəskin satira atəşinə tutmuşdur.

Tədqiqatın ikinci fəslində ədibin nəsr əsərlərinin, o cümlədən həbsdə qələmə aldığı "«Zindan xatirələri dəftərindən»" adlı povestinin mövzu və ideya, bədii təsvir və ifadə xüsusiyyətəri açıqlanır. Burada V.Əhmədov bir sıra görkəmli ədəbiyyatşünasların o cümlədən prof. Ə. Mirəhmədovun, prof. P.Xəlilovun, prof.M.Cəlalın fikir və mülahizələrinə əsaslanaraq Pişəvərinin bu əsərinin memuar janrına mənsub olduğunu

söyləyir və onu avtobioqrafik povest kimi dəyərləndirir. Onun bu fikirləri, zənnimizcə, ağlabatan və inandırıcıdır.

Dissertasiyasının "M.C.Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanan üçüncü fəslin üç bəndində ədibin çoxsaylı məqalələri əsasında göstərilir ki, ömrünü təkcə Azərbaycan xalqının deyil, Yaxın və Orta Şərqin, dünyanın məzlum xalqlarının azadlığı və istiqlaliyyəti uğrunda inqilabi mübarizəyə həsr etmiş Pişəvəri ictimai fikir tariximizdə həm də ədəbiyyatşünas, alovlu publisist və tənqidçi kimi yer tutmağa layiq irs qoymuşdur.

Aparılan tədqiqat göstərmişdir ki, onun ədəbi-tənqidi görüşləri və publisistikası inqilabi fəaliyyəti ilə sıx bağlı olmuşdur. Ədibin ədəbi-tənqidi fikirlərini açıqlayan və geniş şərh edən dissertant belə bir doğru qənaətə gəlir ki, Pişəvəri bədii əsərlərində olduğu kimi, ədəbi-tənqidi və publisist əsərlərində də ədəbiyyata, sənətə və mətbuata xalqın ictimai- mədəni və əxlaqi-tərbiyəvi yüksəlişinə təsir göstərən vasitələr kimi yanaşırdı.

Dissertasiyanın ən maraqlı hissələrindən olan bu fəslin ikinci bölməsində M.C.Pişəvərinin ilk dəfə tədqiqata cəlb edilən ədəbi-tənqidi məqalələri əsasında klassik və müasir ədəbi və mədəni irs, rus ədəbiyyatı, opera və dramatik əsərlər, şeir vəznləri, o cümlədən heca vəzni haqqında fikir və mülahizələri şərh edilir.

Dissertant ədibin "Bakı sovqatı" adlı oçerkini təhlil edərkən, "Vaqif", "Dumanlı Təbriz" dramları, "Vətən" operası haqqında söylədiyi mülahizələrini şərh edir, bu məsələrdə öz fikirlərini də yürüdür, bəzi məqamlarda ədiblə razılaşmadığını da bildirir və bunun səbəbini də açıqlayır.

M.C.Pişəvərinin bədii tərcümə haqqında söylədiyi fikirləri açıqlayaraq, dissertant ədibin bu məsələdə nə qədər düzgün mövqedə olduğunu göstərə bilir.

Dissertasiyanın dördüncü fəslində M.C.Pişəvərinin publisist əsərlərini təhlilə cəlb edən V.Əhmədov doğru olarq qeyd edir ki, onun publisistikası Azərbaycan ədəbiyyatının mütərəqqi

ənənələrinin bünovrəsi üzərində yüksəlirdi. İctimai həyat həqiqətlərini əks etdirmək, çağdaş həyatın tələbləri səviyyəsində durmaq onun fəaliyyətinin əsasını təşkil edir.

Dissertantın fikirincə, öz dövrünün elə bir tarixi-siyasi hadisəsi olmamışdır ki, Pişəvəri yaradıcılığında öz əksini tapmasın. M.C.Pişəvəri publisistik qələm məhsullarında humanizmin, azadlığın, demokratiyanın böyük müdafiəçisi kimi çıxış etmiş, zülm və istibdad altında yaşayan, torpaq həsrəti çəkən xalqın məşəqqətli həyatını, əqidə saflığını orijinal ifadə və formalarda ifadə etmişdir.

Dördüncü fəslin ikinci bölməsində M.C.Pişəvərinin "Ajir" qəzetinin naşiri və redaktoru kimi fəaliyyəti geniş təhlil olunur, konkret faktlar və nümunələr əsasında onun azad və demokratik mətbuat uğrunda apardığı mübarizə, "Azərbaycan" qəzetini yenidən təsis etməsi və həmin qəzetdəki böyük işi şərh edilir.

Dissertant konkret nümunələr əsasında göstərir ki, bu qəzetlərin səhifələrində dərc olunan məqalələri ilə M.C.Pişəvəri Azərbaycan xalqının milli şüurunun oyanmasında, onu öz istiqlaliyyəti uğrunda mübarizəyə hazırlamasında böyük rol oynamışdır.

Bu fəslin üçüncü bölməsində dissertant M.C.Pişəvəri publisisikasının xüsusiyyətlərindən bəhs edir, göstərir ki, ədib felyetonlarında, oçerklərində, məqalələrində, resenziyalarında əvvəlki təcrübəyə, ənənəyə əməl etmiş, folklordan və klassik ədəbiyyatdan nümunələri bacarıqla işlətmiş, fikirlərini yığcam, lakonik və kəsərli sözlə ifadə etmişdir. Onun felyetonlarında bacarıqla işlədilən atalar sözləri,təşbihlər,mübaliğələr, müqayisələr və bu kimi bədii ifadə vasitələri bu əsərləri daha da maraqlı və təsirli etmişdir.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir.

Dissertasiya rəvan, oxunaqlı, elmi dillə yazılmış bitkin, müstəqil bir əsərdir. O, doktorluq dissertasiyaları qarşısında duran bütün tələblərə cavab verir və hesab edirəm ki, bu əsərə görə onun müəllifi, filologiya elmləri namizədi Vüqar Mikayıl

oğlu Əhmədov filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

İslam Ağayev
Filologiya elmləri doktoru
22.01.2004

DOKTORANT VÜQAR MİKAYIL OĞLU ƏHMƏDOVUN "M.C.PİŞƏVƏRİNİN HƏYATI, MÜHİTİ VƏ YARADICILIĞI" MÖVZUSUNDA YAZDIĞI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Azərbaycanda müstəqil respublikanın yaranması xalqımızın ictimai fikir tarixinin, eləcə də irsin yenidən araşdırılmasını tələb edir. Sovet hakimiyyəti ilərində çərçivəyə salınmış ədəbiyyatşünaslığın imkanları indi genişlənmiş, hadisələrin obyektiv qiymətləndirilməsinə şərait yaradılmışdır.

Vüqar Əhmədovun Mir Cəfər Pişəvərinin həyat və yaradıcılıq yolunu tədqiq etməsi bu cəhətdən diqqətəlayiqdir.

Tədqiqatçının Pişəvərinin həyat və yaradıcılığını ən incə çalarlarına, qaranlıq səhifələrinə qədər ehtiva edən dissertasiyasının meydana gəlməsi Vətən, xalq qarşısında məsuliyyət hissindən doğmuşdur.

Doktorluq dissertasiyasının birinci fəslinin "Mübarizələrdə yaşanmır ömür" sərlövhəli birinci bölməsi Cənubi Azərbaycan milli azadlıq hərakatının liderlərindən olan Pişəvərinin uşaqlıq və gənclik illərindən, eyni zamanda siyasi fəaliyyətindən bəhs edir.

Dissertasiyanın bu fəslində XX əsrin əvvəllərində İran-Rusiya münasibətlərinin, eyni zamanda xalqın milli azadlıq hərəkatı ilə şərtlənən mürəkkəb ictimai-siyasi vəziyyətinin geniş panoramı verilmişdir. Cənubi Azərbaycanda Pişəvərinin geniş fəaliyyəti, Gilan Respublikasının Xarici İşlər Naziri işləməsi,

zindanda keçən illəri, milli demokratik mətbuat və Milli Hökumət uğrunda mübarizəsi haqqında bəhs etdiyimiz mürəkkəb ictimai-siyasi proseslər fonunda, tarixi şəraitin ümumi konteksində nəzərdən keçirilir. Məsələlərin müəllif tərəfindən məhz belə kontekstdə müəyyənləşdirilməsi Pişəvərinin siyasi fəaliyyətinin obyektiv dərk olunmasına yardımçı olur.

Azərbaycan Demokratik Firqəsinin rəhbərliyi altında Azərbaycan hökumətinin yaradılması, birillik fəaliyyəti, bu fəaliyyət müddətində həyata keçirdiyi siyasi, hərbi, mədəni tədbirlər də dissertasiyanın birinci fəslində əsas tədqiqat obyektidir.

Doktorluq dissertasiyanın "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlı ikinci və "M.C.Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlı üçüncü fəsilləri adından da göründüyü kimi, Pişəvərinin bədii və elmi yaradıcılığına həsr olunmuşdur. Müəllif ilk əvvəl Pişəvərinin şeirlərini tədqiqata cəlb edir, öz satirik ruhu etibarilə onları Sabir ədəbi məktəbinin davamı kimi nəzərdən keçirir. Ədibin ilk gənclik illərinə məxsus şeirləri ictimai məzmun kəsb edib, işgəncələrə məruz qalmağına həsr olunmuşdur.

Tədqiqatda Pişəvərinin "Zindan xatirələri" dəftərindən povesti dolğun təhlil edilmişdir.

Rza şah istibdadı nəticəsində on bir il "Qəsr" həbsxanasında təkadamlı kamerada dustaq olmuş Pişəvəri zindanda keçən məşəqqətli ömrünün ən ağır günlərini "Zindan xatirələrində əks etmişdir. Müəllif əsərin ayrı-ayrı hissələrindən nümunələr verməklə və bu nümunələr üzərində ədəbi-nəzəri ümumiləşdirilmələr aparmaqla, əsas şəkildə sübut edir ki, "Zindan xatirələri" bitkin, mükəmməl bir bədii əsərdir. Alim Pişəvərinin xatirələrini bədii fikrimizin ötüb getmiş bir səhifəsi kimi tarixə atmır, onu bu gün də öz aktuallığını itirməyən, mübarizələr meydanında məktəb olan əsər kimi qiymətləndirir.

Vüqar Əhmədov Pişəvərinin elmi-ədəbi görüşlərindən bəhs edərkən onun yaradıcılığının bu sahəsini Pişəvəri şəxsiyyətinin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayır. Eyni zamanda,

onun elmi yaradıcılığını da öz ictimai məzmunu etibarilə siyasi fəaliyyətinin bir sahəsi olduğunu nəzərə çatdırır.

Dissertasiyanın "Qüdrətli publisist, istedadlı jurnalist-mühərrir" adlı dördüncü fəsli M.C.Pişəvərinin publisist fəaliyyətinə həsr olunmuşdur. Ayrı-ayrı illərdə "Hürriyyət", "Açıq söz", "Azərbaycan" və s. qəzetlərdə publisist yazılarla çıxış edən Pişəvəri cəmiyyətin ictimai eyblərini, imprelializm istibdadını, fars şovinizmini kəskin tənqid atəşinə tutmuş, milli-azadlıq hərəkatında geniş xalq kütlələrinə başçı və öndər olmaq funksiyasını uzun illər məhz bu yolla həyata keçirmişdir. Dissertasiyada bu millət fədaisinin publisist yaradıcılığı ayrı-ayrı mərhələlərə bölünür, hər mərhələdə ədibin yaradıcılığının inkişafı, kəsb etdiyi yeni xarakter ardıcıllıqla izlənir.

Tədqiqatçı alim Vüqar Əhmədovun M.C.Pişəvərinin həyat və yaradıcılığını özündə ehtiva edən bu doktorluq dissertasiyası zəngin tarixi materiallar, Azərbaycan və fars dillərində arxiv sənədləri, dövri mətbuatda çap olunan məqalələr əsasında yazılmışdır ki, bu da dissertasiyanın tarixilik baxımından sanbalını, əhəmiyyətini bir daha artırır. Həm də alim ayrı-ayrı müəlliflərin M.C.Pişəvəri haqqında yazılmış müxtəlif dillərdə olan əsərlərindən sadəcə istifadə etməmiş, yeri gəldikcə, onların irəli sürdüyü müddəalara təshihlər də vermişdir. Bütün bunların nəticəsində Mir Cəfər Seyid Cavad oğlu Cavadzadə Xalxali Pişəvərinin həyatı və yaradıcılığı haqqında yeni sanballı əsər meydana gəlmişdir.

"M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" tədqiqatı doktorluq dissertasiyasının tələblərinə tam cavab verir, onun müəllifi Vüqar Əhmədov filologiya elmləri doktoru elmi dərəcəsi almağa tamamilə layiqdir.

TEYMUR ƏHMƏDOV

Elmi məsləhətçi: Azərbaycan MEA Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, Y.Məmmədəliyev adına mükafat lauretı

"Təsdiq edirəm"
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru
prof.B.İ.AĞAYEV
10 dekabr 2004-cü il

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Filologiya fakültəsinin ixtisas ekspert elmi-nəzəri seminarının
Seminarının 10 dekabr 2004-cü il tarixli
22 saylı protokolundan

Ç I X A R I Ş

AMEA NİZAMİ adına Ədəbiyyat İnstitutunun dissertantı Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı doktorluq dissertasiyasına

R Ə Y

İştirak edirlər: prof.H.Balıyev, prof. H.Qasımov, prof. X.Məmmədov, prof.M.Mustafayev, prof.A.Hacıyev, dos. R.Əhmədov, dos.E.Quliyev, dos.M.Nağıyev, dos.T.Cavadov və başqaları

Gündəlik məsələ: AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı Vüqar Mikayıl oğlu Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı"

Eşidildi: Məsələ ətrafında prof.H.Balıyev, prof.H.Qasımov, prof.A.Hacıyev, prof.X.Məmmədov, prof.M.Mustafayev, dos.R.Əhmədov, dos.M.Nağıyev, dos.E.Quliyev, dos.T.Cavadov və başqaları çıxış edərək dissertasiyanın aktuallığını, tədqiqatın müasir elmi-nəzəri və təcrübi əhəmiyyətini göstərdilər.

Çıxış edənlər bildirdilər ki, Vüqar Əhməd maraqlı və orijinal tədqiqat obyekti seçmişdir. Milli müstəqillik bizə imkan vermişdir ki, Avropaya inteqrasiya persperktivi ilə yanaşı öz soyumuza, klassikamıza, milli-mənəvi dəyərlərimizə qayğı və diqqətlə yanaşıb, bu ənənələrimizi müasir gözlə qiymətləndirək. Vüqar Əhmədin Mir Cəfər Pişəvəri kimi çoxcəhətli fəaliyyəti ilə fərqlənən bir şəxsiyyətin ibrətamiz həyat və mübarizə yolunu elmi tədqiqat obyekti götürməsi bu baxımdan olduqca mənalı və aktualdır. Mir Cəfər Pişəvərinin yaradıcılıq tərcümeyi-halının elmi araşdırılması siyasi regional baxımdan ikiyə bölünmüş Azərbaycanın vahid mədəni-ədəbi və ictimai düşüncəsini dəyərləndirmək deməkdir.

Quzey və Güney Azərbaycanın ədəbi-mədəni mühiti, onun yaradıcı simaları ayrı-ayrılıqda araşdırılmış, dəyərli tədqiqatlar aparılmışdır. Bir sıra qiymətli monoqrafiyalar meydana gəlmişdir. Lakin mənəvi birliyinə baxmayaraq ayrı ayrı dövlət qurumları olan Güney və Quzey Azərbaycanın milli istiqlalı uğrunda yorulmaz mübarizə aparan ictimai-siyasi xadimin yazıçı-publisistik, tərcüməçi ədəbiyyatşünasın ədəbi-bədii və jurnalistik fəaliyyətinin intensiv şəkildə konseptual tərzdə tədqiqinə məhz bu dissertasiyada təsadüf edilir.

Dissertantın seçdiyi tədqiqat predmeti şərəfli və əhəmiyyətli olması ilə yanaşı, həm də mürəkkəb siyasi-ideoloji və nəzəri-metodoloji məna daşıyır. Bu gün əldə etdiyimiz milli müstəqillik, demokratiya, məhz vaxtilə M.S.Pişəvərinin ədəbi-bədii və siyasi-sosial, publisist aləmi ilə milli-demokratik hərəkatdakı yorulmaz fəaliyyətinin nəticəsidir. Bu fəaliyyətin öyrənilməsi və üzə çıxarılıb dəyərləndirilməsinə ehtiyac var idi. Vüqar Əhmədin həmin bu doktorluq işi bu zərurətin qanunauyğun nəticəsinin məhsuludur.

Dissertant tədqiqatın məqsəd və vəzifəsini düzgün müəyyənləşdirərək öz elmi araşdırmalarını vahid elmi-tədqiqat strukturunda aparmışdır.

Dissertasiya geniş və dərin erudisiyanın, hərtərəfli araşdırmaların və informatik-analitik təhlillərin bəhrəsidir. Tədqi-

qatda Güney və Quzey Azərbaycana bölünmüş bir xalqın XX əsrdə yarıməsrlik siyasi-ictimai mübarizə tarixi, ədəbi-bədii mühiti təqdim olunur. Sanki M.C.Pişəvəri burada fon rolu oynayır. Araşdırıcının ustalığı məhz bu məqamda parlaq meydana çıxır.

Tədqiqat predmeti ilə bağlı Pişəvəri haqqında dissertantın həm Azərbaycan, həm də rus dillərində çap olunmuş monoqrafiyaları, elmi məqalə və tezisləri sübut edir ki, Vüqar iş üzərində ciddi və ardıcıl araşdırmalar aparmış, elmi nəticələr əldə ediləndən sonra doktorluq dissertasiyasını ortaya qoymuşdur. Müəllif çox orijinal materiallara, arxiv sənədlərinə müraciət etmişdir. Pişəvərinin ədəbi-tənqidi görüşləri, publisistik fəaliyyəti olduqca ilhamla yazılmış səhifələrdəndir.

Dissertasiyanın əsas müddəaları avtorefaratda öz elmi-nəzəri təcəssümünü tapmışdır. Iş bütövlükdə AAK-nın filologiya ixtisası üzrə doktorluq dissertasiyalarının qarşısında qoyduğu ən son tələblərə tam cavab verir.

Işdə bəzi məqamlarla bağlı qeydlər də demək mümkündür. Məsələn:

1. Dissertasiyada M.S.Pişəvərinin M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir kimi klassiklərlə bir sırada dayandığı vurğulanır. Halbuki Pişəvəri onların ənənəsinə sadiq bir sima kimi dəyərləndirilə bilər.

2. Yerində sərrast səslənməyən bəzi termin və ifadələrə təsadüf olunur:

"Zindan xatirələri" povest yox, memuar əsəri hesab edilməlidir, "poeziya" janr adlandırıla bilməz.

Əlbəttə, bu qeydlər heç də dissertasiya işinin ümumi dəyərinə təsir etmədiyi üçün onu yekdilliklə müdafiəyə təqdim edirik.

Q Ə R A R

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı Vüqar Mikayıl oğlu Əhmədin " M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlı dissertasiyası AAK-nın doktorluq disser-

tasiyaları qarşısında qoyduğu son tələblərə cavab verdiyi üçün onun müəllifi "Azərbaycan ədəbiyyatı" – 10.01.01 indeksi üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün müdafiəyə buraxılsın.

SƏDR: **prof. H.B.BALIYEV**
ELMİ KATİB: **dos. R.ƏHMƏDOV**

ÇIXIŞ

Hörmətli sədr, hörmətli Şura üzvləri. Bu gün müdafiəyə çıxarılan dissertasiya işi "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" adlanır.

Hər bir xalqın maddi-mənəvi dəyərləri sırasında onun ədəbiyyatının xüsusi yer tutduğu yaxşı məlumdur; ədəbiyyat – millətin tarixi-iqtisadi-siyasi və bədii-estetik xarakteristikasını verən başlıca mənbələrdəndir. Xalqın həyat salnaməsi, psixologiyası, dünya duyumu haqqında zəngin məlumat verən ədəbiyyat tariximizin bir çox görkəmli nümayəndələrinin həyat və yaradıcılıqları layiqincə öyrənilmiş, ayrı-ayrı görkəmli şəxsiyyətlərin bioqrafiyası, ədəbi irsinin xalqın tarixində oynadığı rolu araşdırılmışdır. Bu baxımdan ədəbiyyatımızın Quzey Azərbaycanı qolu daha geniş miqyasda öyrənilmiş, nəşr olunmuş, təbliğ edilmişdir. Bunun üçün Nizami, Nəsimi, M.P.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, S.Rəhimov və digər bu kimi görkəmli sənətkarların ədəbi irsləri və ya yaradıcılıqlarına həsr edilmiş elmi-tədqiqat əsərlərini xatırlamaq kifayətdir. Təəssüf ki, ideoloji qadağalar və uzun illər boyu mədəni əlaqələrin zəif inkşafı səbəbindən Güney Azərbaycanı ədəbiyyatı kifayət qədər araşdırılıb nəşr edilməmişdir.

Bu sahədə Azərbaycan ədəbiyyatşünaslığındakı boşluğu doldurmaq üçün Respublika MEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində vaxtilə Cənubi Azərbaycan şöbəsi yara-

dılmış, burada calışan əməkdaşların qüvvəsilə M.Şəhriyar, B.Q.Səhənd, doktor Cavad Heyət və başqalarının həyat və yaradıcılığı ilə bağlı müxtəlif janrlı yazılar dərc olunmuş, əsərləri nəşr edilmişdir.

Güney Azərbaycan ədəbiyyatında ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin miqyası, genişliyi, rəngarəng və zənginliyi ilə seçilən böyük şəxsiyyətlərdən biri Mir Cəfər Pişəvəridir / Cavadzadə Xalxali /. Mir Cəfər Pişəvəri 1892-ci ildə Cənubi Azərbaycanın Xalxal mahalının Zaviyə obasının Zivəsadiq kəndində dünyaya göz açmışdır. Iranda ictimai-siyasi durum, maddi-iqtisadi sıxıntı, dövrün ictimai bəlaları da Mir Cəfər Pişəvərinin ailəsinin, o dövrdə məlumdur ki, bütün İranda maddi durumun çətinliyi, ümumiyətlə ictimai stabilliyin olmamasından bir çox Cənubi Azərbaycanlılar, bizim soydaşlarımız Qafqaz şəhərlərinə, Rusiyaya dolanmaq üçün üz tuturdular. Güney Azərbaycanında dünyaya göz açan Mir Cəfər 13 yaşında yaşında olarkən dövrün iqtisadi, ictimai bəlaları onun ailəsini də Bakıya köçməyə məcbur etmişdir. O, Quzey Azərbaycanında təhsilini davam etdirməklə yanaşı işləməyə başlamış, siyasi fəaliyyət meydanına atılmışdır. İran Sosial-Demokrat Partiyasının Qafqazdakı təşkilatlarında fəaliyyət göstərən M.C.Pişəvəri elə burada mətbuat aləminə qədəm qoymuş, "Azərbaycan cüzi layənfəkki İran", "Hürriyyət" qəzetlərində müxbir və redaktor kimi çalışmışdır. O, eyni zamanda iranlıların İttihad mədrəsəsində müəllimlik etmişdir. 1920-ci ildə İranda Pişəvəri demokratik hərəkatın genişlənməsində fəallıq göstərmiş, Gilan Respublikasının xarici işlər naziri işləmiş, İran Kommunist Partiyasının qurultayında iştirak etmiş, "Həqiqət" qəzetinin nəşrinə də nail olmuşdur. İrana qayıtdıqdan sonra həbs edilərək on bir il Qəsri-Qacar zindanında yatmış, 1941-ci ildə Rza xan diktatorluğu süqut etdikdən sonra həbsdən azad edilmişdir. Bundan sonra daha əzm və qətiyyətlə siyasi mübarizə meydanına atılmış, "Ajir" qəzetinin nəşrinə başlamış, "Mətbuatın azadlıq cəbhəsi" adlı

leqal təşkilatının işini canlandırmış, Azərbaycan Demokrat Fiqrəsini yaradaraq ona rəhbərlik etmiş, Azərbaycan Milli Hökumətinin baş naziri olmuşdur. Bütün bunlarla yanaşı, M. C. Pişəvəri ədəbi tənqidlə də məşğul olmuş, hekayələr yazmış, ictimai-siyasi publisistikanın gözəl nümunələrini qələmə almış, tərcüməçilik bacarığını nümayiş etdirmişdir. Azərbaycanda inqilabi hərəkat tarixinin salnaməsi üçün mənbə, qaynaq rolu oynayan məqalə və xatirələr yazmış, tarixi məruzə və nitqlər söyləmişdir. Qısa, lakin Azərbaycan xalqının mübarizələr və dövlət quruculuğu tarixi,mədəniyyətin inkişafı salnaməsi ilə sıx bağlı olan bir ömür yaşamış, bütün varlığı ilə Azərbaycana,onun sabahı və gələcəyinə bağlı olmuşdur. M.C.Pişəvəri 1947-ci ildə müəmmalı şəkildə avtomobil qəzasına düşüb dünyasını dəyişmişdir. Nəzərinizə çatdırım ki, ilk dəfə bu dissertasiyada Pişəvərinin ölümü geniş şəkildə işıqlandırılmış və Almaniyada iki məqalə çap olunmuşdur. Onun adı və fəaliyyəti bir neçə il diqqətdən kənarda qalmışdır. 80-cı illərdən etibarən onun əsərlərinin toplanıb tərcümə olunmasına başlanılmış,onlar nəşr edilmişdir. Azərbaycanda demokratik hərəkat tarixinin araşdırılma prosesində M.C.Pişəvərinin xidmətləri qeyd olunmuşdur.

M.C.Pişəvərinin həyatı və irsinin xalqın tarixi, ədəbiyyatı, publisistik dəyərləri kontekstində öyrənilib qiymətləndirilməsi əslində tarix, ədəbiyyatşünaslıq, jurnalistika, hüquq və dövlət quruculuğu nəzəriyyəsi sahəsində çalışan mütəxəssislərin birgə,əlaqəli fəaliyyətləri ilə mümkün ola bilər. M.C.Pişəvərinin həyatı və yaradıcılığının (ədəbi,bədii,publisistik və tənqidi əsərlərinin) doktorluq dissertasiyası şəklində tədqiqii bu istiqamətdə aparılacaq araşdırmalar sahəsində bir addım kimi qiymətləndiririk.

Doktorluq dissertasiymızın mövzusu kimi tədqiqatın əsas məqsədi M.C.Pişəvərinin sistemli şəkildə bioqrafiyasını işləməkdən, bədii, publisistik əsərlərinin mövzu və ideya xüsusiyyətərini, bədii məziyyətlərini, Azərbaycanda milli-demokratik

hərəkatın inkşafında xidmətlərini açıqlamaqdan, bunlara müasirlik baxımından qiymət verməkdən ibarətdir.

M.C.Pişəvərinin adı vəfatından sonrakı illərdə müəyyən dərəcədə kölgədə qalmışdır. Doğrudur, Quzey Azərbaycanına mühacirət etmiş həmvətənləri arasında onun həyatı, faciəli ölümü barədə gizli söz-söhbətlər gəzmişdir. Stalinin ölümü və M.C.Bağırovun məhkəmə prosesindən sonra Mir Cəfər Pişəvəri haqqında, onun ədəbi bədii, publisistik irsi, ictimai-siyasi fəaliyyəti barədə yazılar mətbuatda görünməyə başlayır. 1984-cü ildə Pişəvərinin seçilmiş əsərləri çap olunmuşdur. Bu sahədə ilk sistemli iş filologiya elmləri doktoru, professor Həmid Məmmədzadəyə məxsusdur. Müəllif 1955-ci ildə müdafiə etdiyi "İnqilabçı jurnalist-yazıçı Pişəvəri" adlı namizədlik dissertasiyasında /H.M /M.C.Pişəvərini bir inqilabçı, bir jurnalist və yazıçı kimi tədqiq etmişdir. H.Məmmədzadə görkəmli şəxsiyyətin bioqrafiyası ilə bağlı ilkin məlumat vermiş, daha çox onun publisistik yazılarını araşdırmış, "««Zindan xatirələri dəftərindən»»" adlı povestini təhlilə cəlb etmişdir. Sonrakı illər M.C.Pişəvərinin anadan olmasının 90 və 100 illiyi münasibəti ilə, Azərbaycan Demokratik firqəsinin yaranması və fəaliyyəti mövzusunda araşdırmalar aparılmış, qəzet və jurnallar vasitəsilə geniş oxucu kütləsinə çatdırılmışdır. Bu baxımdan M.İbrahimov, C.X.Hacıyev, Ə.Əzimzadə, T.Musəvi, H.Ciddi, M.Çeşmazər və başqalarının qələm məhsulları təqdirəlayiqdir.

M.C.Pişəvərinin həyatı və yaradıcılığı onun ictimai fəaliyyəti ilə daha çox əlaqəlidir. Həmin fəaliyyət isə Azərbaycan xalqının muxtariyyət qazanmaq uğrunda mübarizəsi ilə sıx bağlıdır. 1906-1946 illərdə İranda milli-azadlıq və demokratik hərəkat məsələləri müxtəlif dövrlərdə H.Həsənov, İ.İbrahimi, Ş.Cavidi, Ə.Əmidi-Nuri, V.Duqlas, V.İqelton, C.Lençovski, R.Fray, S.Zəbih və başqaları İranda demokratik hərəkat tarixindən yazarkən Azərbaycan Demokratik Partiyasının fəaliyyətinə işıq salır, xalq hakimiyyətini obyektiv dəyərləndirirlər.

Azərbaycan Milli Hökumətinin tarixi isə bəllidir ki M.C.Pişəvərinin həyat və fəaliyyəti ilə yaxından əlaqəlidir. Bu baxımdan mövcud tədqiqatları təhlil süzgəcindən keçirərək Azərbaycan Demokratik Partiyasının yaranması, azadlıq hərəkatının qələbəsi və xalq hakimiyyəti tədbirlərinin həyata keçirilməsi uğrunda mübarizə məsələlərini şərh edən M.M.Çeşmazərin kitabı tarixi dəyərinə görə seçilir. Haqqında bəhs etdiyimiz bu araşdırmaların əksəriyyəti M.C.Pişəvərinin ictimai-siyasi fəaliyyətinin şərhi və təhlilinə həsr olunmuşdur. Lakin bu görkəmli tarixi şəxsiyyətin həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı bütövlükdə geniş miqyasda tədqiq olunmamışdır. Həmin tədqiqatlarda Pişəvərinin həyatı, mühiti ilə bağlı problemlər sistemli şəkidə qələmə alınmamış onun şeirləri, hekayələri və povesti, tənqidi məqalələri, dil üslubu haqqında geniş elmi-nəzəri fikir söylənilməmişdir. Bu mənada müdafiəyə təqdim olunan əsər Mir Cəfər Pişəvərinin bir siyasi xadim, ədib, publisist və mühərrir kimi yaradıcılığının tədqiqinə həsr olunmuş təşəbbüs kimi dəyərləndirilməlidir.

Müdafiəyə təqdim etdiyimiz dissertasiya giriş, dörd fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti müəyyən edilir.

Dissertasiyanın "M.C.Pişəvərinin həyatı və mühiti" adlı birinci fəslinin üç bölməsi haqqında bəhs açılan bu böyük ictimai xadim, yazıçı, publisist və elmi-nəzəri fikir adamının ömür yolu işıqlandırılır, onun milli azadlıq və dövlətçilik mübarizəsinə aydınlıq gətirir. Azərbaycan ictimai fikri və mədəni intibahında əhəmiyyətli rol oynayan bu şəxsiyyətin formalaşdığı mühit bir sıra arxiv materialları faktları sənədlər və problemlərin köməyilə ətraflı şəkildə öyrənilir.

Dissertasiyanın "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adlı ikinci fəslinin iki bölməsində Pişəvərinin ilk qələm məhsullarına nəzər salınır, şeirlərinin dil və üslub məziyyətləri

açıqlanır, nəsr əsərlərinin mövzu və ideya-bədii təsvir və ifadə xüsusiyyətləri geniş təhlil edilir.

Bədii nümunələr yaradan hər bir yaradıcı şəxs kimi qüdrətli dövlət xadimi, yazıçı, jurnalist ilk yazılarını uşaqlıq çağlarında qələmə almışdır. Lakin bu qələm təcrübələrini çapa verməmişdir. 1919-cu ildə "Ence" imzası ilə yazdığı şeirləri çap etdirməklə ədəbiyyata gəlmişdir. Pişəvərinin bədii yaradıcılığı haqqında azlıq təşkil edən araşırmalarda gələcək ədibin ilk poetik qələm məhsulları bədii səviyyəsinə görə tənqid edilmişdir. Dogrudur, onun bu ilk əsərləri poetik sisteminə görə heç də yüksək səviyyəli deyil, amma mövzu baxımından müraciət baxımından M.Ə.Sabir ruhu Pişəvəri şeirlərində öz əksini tapmaqdadır. Yəni "O yandan, bu yandan" başlığı altında çap etdirdiyi şeirlər, mən burada onu Üzeyir Hacıbəyovun "Ordan burdan"ıyla əlaqələndirərdim ki, ümumi başlığı xatırladır. Deyirər ki, Pişəvərinin "Gərək zülmdən azad ola kəndli" misrası ilə başlanan şeiri Sabirin "Fəhlə, sən də özünü bir insanmı sanırsan?", "Əkinçi" adlı şeirləri ilə səsləşir. Onu da xatırladım ki, Pişəvəri öz şeirlərini "Nadi" imzası ilə yazmışdır. Pişəvərinin bədii yaradıcılığında həbsdə olduğu vaxtda qələmə aldığı "Zindan xatirələri dəftərindən" adlı əsəri mühim yer tutur. Əsər müəllifin gördüyü, şahidi olduğu, şəxsən iştirak etdiyi hadisələr haqqında xatirələrdən ibarətdir. "Zindan xatirələri dəftərindən" İranın 20-40-cı illərdəki ictimai quruluşunun iflası, polis və məmurların özbaşınalığının təsviri nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir. Bu xatirələrdə hakim dairələrə mənsub olan şəxslərin xəyanəti, qorxaqlığı, ikiüzlülüyü və tamahkarlığı da kəskin tənqid edilmişdir. Əsərin baş qəhrəmanı yazıçının özüdür. Ədib digər surətlərlə yanaşı, öz bədii xarakteri və povestin bədii obrazı kimi çox dolğun müsbət bir obraz səciyyəsində oxucunun nəzərinə çatdırır. Povestin dəyərini artıran cəhətlərdən biri də orada tarixi şəxsiyyət olan obrazlar haqqında məlumat verməsidir . Əsərdə oxucu siyasi dairənin vaxtilə rəisi olmuş Müşü Humayın Rza şahın sağ əli

olub, sonra isə onun qəzəbinə düçar olmuş Teymurtaş, Xanbaba Əsəd, Ərdəbilli İzzət, Seyid Fərhad, Əli Rövşən, Çörəkçi Əbülqasım və başqa şəxslərin zindan dövründəki günləri, düşdükləri vəziyyətin xarakterik məqamları ilə tanış olub. Adlarını çəkdiyimiz şəxslətrin bəziləri əsərlərdə bədii obraz kimi bir qədər dırnaqarası geniş fəaliyyət göstərsələr də, bəziləri epizodik məqamlarda xatırlanır. Lakin yazıçı qələminin ustalığı nəticəsində surətlərin bir çoxu yadda qalandır. Pişəvərinin "Zindan xatirələri" povestindən başqa digər əsərləri də olmuşdur. Onu da deyim ki, "Zindan xatirələri" əsəri farsca "Yaddaşayi zindan" adı altındadır. Əsərdə müəllif Kapitan Yəzdi kimi mənfi bir tipik obraz yaratmışdır. Yəni əsərdə tam Rza şah diktaturasına, fars şovinizminə nifrəti o, Kapitan Yəzdinin bariz nümunəsində vermişdir. Yəni orada bir məqam adamı kövrəldir ki, Pişəvərinin bir qohumu onun zindandan buraxılması üçün çox əlləşir. Yenə də siyasi idarənin rəisi buna mane olur. Çünki günahsız yatır o Qəsri-Qacarda. Birdən Kapitan Yəzdi Pişəvəriyə müraciət edir ki, eh uşaqlar yenə də qaldı. Pişəvəri deyir ki, yəni bunda mərhəmət hissi var? Bu mənim uşaqlarımın qeydinə qalır? Lakin sonra məlum olur ki, Pişəvəri onun balalarının müəllimi olub. Görürsünüz ki, nə qədər alçaq, xain bir insan müəllimə hörmət göstərir. Və mən deyərdim ki, əsərin kuliminasiya nöqtələrindən biri də budur.

Dissertasiyanın üçüncü fəsli "M.C.Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanır. Bu fəslin üç bəndində göstərilir ki ömrünü təkcə Azərbaycan xalqının deyil, Yaxın və Orta Şərqin, dünyanın məzlum xalqlarının azadlığı və istiqlaliyyəti uğrunda inqilabi mübarizəyə həsr etmiş Pişəvəri ictimai fikir tarixizmizdə həm də ədəbiyyatşünas, alovlu publisist və tənqidçi kimi yer tutmağa layiq irs qoymuşdur. Bu fəslin ilk bəndində M.C.Pişəvərinin ədəbi-tənqidi baxışlarının ədəbi-estetik vəzifəsi, tərbiyəvi ictimai-tarixi əhəmiyyətindən bəhs olunur.

Onun ədəbi-tənqidi görüşlərini əks etdirən fikirləri mövzu etibarilə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ədəbiyyatın tərbiyəvi rolu, xəlqiliyi barədə fikirlər.
2. Söz sənətinin ictimai həyatla bağlılığı məsələlərini əks etdirən mülahizələr.
3. Ayrı-ayrı sənətkarların əsərləri ilə bağlı ədəbi-tənqidi fikirlər.
4. Ədəbi janr və növlər haqqında qeydlər.
5. Sənət, dil, mövzu gözəlliyi barədə fikirlər.

Üçüncü fəslin ikinci bölməsində M.C.Pişəvərinin ilk dəfə tədqiqata cəlb edilən ədəbi-tənqidi məqalələri əsasında klassik və müasir ədəbi və mədəni irs, rus ədəbiyyatı, opera və dramatik əsərlər, şeir vəznləri, o cümlədən heca vəzni haqqında fikir və mülahizələri açıqlanır.

Aparılmış tədqiqat göstərir ki, dilin isifadə edilməsi, zənginləşməsi, təmizliyinin qorunması məsələsində M.C.Pişəvəri C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun və s. ədiblərin mövqeyindən çıxış edirdi. M.C.Pişəvəri məhz bu ədiblərin layiqli davamçılarından biri olmuş, istər bədii əsərlərində, istərsə müxtəlif mövzulu məqalələrində, istərsə də məruzə və çıxışlarında:

a) Dilin inkşafı, təmizliyi, saflığı məsələlərinə toxunmuş, ondan bəhs etmişdir:

b) Azərbaycan dilinin təmizliyi və saflığını qorumaq zərurətindən danışmaqla kifayətlənməmiş, özü bu yolda bir ədib, publisist, bir ictimai xadim kimi mübarizə aparmışdır:

c) Ana dilində qələmə aldığı hər bir mövzunu istər bədii, istər publisistik işlərkən Azərbaycan dilinin zəngin lüğət fondundan bəhrələnmiş, fikrin yığcam, obrazlı deyiminə çalışmış və buna nail olmuşdur.

Bu baxımdan onun ədəbi-tənqidi məqalələrində dillə bağlı ifadə etdiyi fikirlər, qeyd və mülahizələr ciddi maraq doğurur.

Pişəvərinin ədəbi-tənqidi görüşlərini araşdırarkən onun Rus ədəbiyyatı haqqında, ümumiyyətlə Fransa ədəbiyyatı haqqında məqalələri diqqəti cəlb edir. Eyni zamanda Səməd Vurğunun "Vaqif" dramı haqqında onun elmi-tənqidi məqaləsi çox

ürəyiaçandır. Səməd Vurğun yaradıcılığına Pişəvərinin məhəbbəti və "Vaqif" dramının gözəl bir şəkildə təhlilinə biz dissertasiyada yer ayırmışıq. Ümumiyyətlə, həm siyasi xadim kimi, həm də tənqidçi kimi, həm də onun musiqi əsərləri də dissertasiyada öz yerini tapıb.

Dissertansiyanın dördüncü fəsli "M.C.Pişəvərinin publisistikası" adlanır. Bu fəslin birinci bölməsində ədibin ilk publisist yazıları təhlil edilir, onun "Hümmət" "Açıq söz", "Hürriyyət" və "Həqiqət" qəzetlərindəki müxbir, redaktor, naşir kimi fəaliyyəti tədqiq olunur. Öz atəşin qələmilə publisistikanın gözəl nümunələrini yaratmış Pişəvərinin bu sahədəki fəaliyyətinin də tədqiqi çox faydalıdır. M.C.Pişəvərinin publisistik yazıları mövzu genişliyi, qələm məhsullarının obrazlığını təmin etmək üçün istifadə etdiyi ədəbi materialların çoxmotivliyi, zəngin epizodluluğu ilə seçilir.

Pişəvərinin publisistikası Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələrinin bünövrəsi üzərində yüksəlirdi. İctimai həyat həqiqətlərini əks etdirmək, çağdaş həyatın tələbləri səviyyəsində durmaq onun fəaliyyətinin əsasını təşkil edirdi. Dövrünün elə bir tarixi-siyasi hadisəsi olmamışdır ki, Pişəvəri yaradıcılığında öz əksini tapmasın. M.C.Pişəvəri publisistik qələm məhsullarında humanizmin, azadlığın, demokratiyanın böyük müdafiəçisi kimi çıxış edirdi. Istedadlı publisist xalq azadlığını, özü də ictimai-siyasi-mənəvi azadlığı yüksək qiymətdləndirir, zülm və istibdad altında yaşayan, torpaq həsrəti çəkən xalqın məşəqqətli həyatını, onun mənəvi-əxlaqi paklığını, saflığını orijinal ifadə və formalarda ifadə edirdi.

Dördüncü fəslin ikinci bölməsində M.C.Pişəvərinin "Ajir" qəzetinin naşiri və redaktoru kimi fəaliyyəti geniş təhlil olunur, konkret faktlar və nümunələr əsasında onun azad və demokratik mətbuat uğrunda apardığı mübarizə, Azərbaycan qəzetini yenidən təsis etməsi və həmin qəzetdəki böyük işi şərh edilir.

Dördüncü fəslin üçüncü bəndində M.C.Pişəvəri publisistikasının xüsusiyyətləri şərh edilir.

Aparılmış tədqiqat göstərir ki, M.C.Pişəvəri irsinin böyük əksəriyyətini onun publisist əsərləri təşkil edir. O, publisistika janrının bütün növlərindən istifadə etmiş, o cümlədən felyeton, oçerk, məqalə, resenziya və s. əsərlər yazmışdır. Bu əsərlərin hamısının ən başlıca xüsusiyyəti özündən əvvəlki təcrübəyə, ənənəyə əməl etmək, folklordan və klassik ədəbiyyatdan nümunələri bacarıqla işlətmək, fikri yığcam, lakonik və kəsərli sözlə ifadə etməkdir.

M.C.Pişəvərinin Azərbaycan dilində yazdığı məqalələrin böyük bir qisminin başlığı çox yığcam, konkret və az qala aforistik səciyyəlidir: "O yan, bu yandan", "Ayılıbdır", "Karlar eşitsin, korlar da görsün", "Qardaş qanı tökülməsin", "Daldan atılan daş topuğa dəyər", "Nədən narazıyıq", "Ayı dostluğu", "Azərbaycan yatmamışdır", "Biz də bunu deyirik", "Cücəni payızda sayarlar", "Uşaq tovlayırlar" və s. Bu misalların sayını xeyli artırmaq olar.

Pişəvəri öz publisistikasında təşbih, təkrir, mübaliğə, müqayisə və bu kimi bədii ifadə vasitələrindən geniş istifadə etmişdir. Məsələn, o, İranda xanların hökmranlığına dəymədən zahiri islahata əl atanların işini əsası çürümüş evin divar və qapılarını rəngləməyə oxşadır. Yaxud İranda müxtəlif mənafeyi olan şəxslərdən təşkil olunmuş hökumət haqqında – "Bu kabinə Krılovun məruf balıq, ördək və xərçəngin araba çəkmək hekayəsini xatirə gətirir" sətirlərini yazmışdır.

Felyetonlarının dil və üslub xüsusiyyətlərinə gəldikdə, demək lazımdır ki, Pişəvəri Cəlil Məmmədquluzadənin yolu ilə getmiş və onun uzun illər boyu yaradıcılıq fəaliyyəti nəticəsində əldə etdiyi zəngin sənətkarlıq təcrübəsindən istifadə etmişdir.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir və aparılan araşdırmalara yekun vurulur.

Ümid edirik ki, tədqiqat M.C.Pişəvərinin həyatı, mühiti, ictimai fəaliyyəti, şair, nasir, publisist və mühərrir kimi ədəbi-bədii irsinin təhlilini verməklə, bütövlükdə, aşkara çıxarılan

yeni faktlar əsasında yaradıcılığının araşdırılmasına kömək göstərə bilər.

Diqqətinizə görə çox sağ olun.

QEYD VƏ IRADLARA CAVABLAR

Ağarəfi Zeynalzadə

Mərhum opponentim f.e.d. A.Zeynalzadənin əsasən müsbət rəyinə görə ruhu şad olsun. Allah rəhmət eləsin!

Birinci qeyd: Tənqidi qeydlərinə gəldikdə isə deməliyik ki, mərhum opponentim Pişəvərinin istintaqı ilə bağlı işdə müfəssəl danışmağımızı arzulamışdır. Dissertasiyanın elmi-nəzəri strukuru bu təfərruata varmamağı nəzərə almışdır.

Ikinci qeyd: Mərhum opponentimin digər qeydinə görə dissertasiyanın yazılmasında elmi üslubla yanaşı bədii üslubun da mövcudluğu nəzərə çarpdırılır.

Bilirik ki, elmi üslubun bədii üslubdan əlahiddə sərhəddi yoxdur. Görkəmli tənqidçilərimizdən Məmməd Arif Dadaşzadə ilə Cəfər Cəfərovun, Yaşar Qarayevin bu sahədə mübahisələri olmuşdur. Məmməd Arif və Yaşar Qarayevin fikrincə, ədəbi-nəzəri fikir bədiilikdən uzaq olmamalıdır. Məmməd Arifin "Ədəbi tənqid də bir yaradıcılıqdır" məqaləsini yada salaq. Bədii üslubsuz elmi təhlil quru və sxolastikdir.

İsa Həbibbəyli

Birinci opponentim hörmətli professor İsa Həbibbəylinin haqqımda yazdığı əsasən dəyərli rəy üçün ona minnətdarlığımızı bildiririk.

Hörmətli opponentimin qeydlərinə gəldikdə, birinci qeydi ilə bağlı onu deməliyəm ki, doktorluq işini 1998-ci ildə tamamlayıb müdafiə şurasına təqdim etmişəm. Heç şübhəsiz, bundan sonrakı mərhələdə də həm arxiv materiallarına, həm də dövri mətbuata, həm də ədəbiyyatşünaslığın müasir problemlərinə sistematik olaraq müraciət etmişəm. Dissertasiyanın

İstifadə olunmuş ədəbiyyat siyahısına nəzər saldıqda bu, aydın hiss olunmaqdadır. Bu başqa söz ki, hörmətli opponentim daha ətraflı informatik ədəbiyyatlara bələd olduğu üçün onlara bizim də mürəciətimizi arzu etmişdir. Monoqrafiya üzərinə yenidən işləyərkən bunu nəzərə alacağıdır.

İkinci iradla bağlı onu deyə bilərik ki, eyni anlayışı əks etdirən ikinci söz yoxdur. Ədəbi-bədii termini ən çox işlədilən estetik anlayışdır. Məlumdur ki, ədəbi sözü daha çox ədəbi materiallara, bədii isə bütövlükdə incəsənətin digər növlərinə də aiddir.

Üçüncü qeydlə bağlı deyə bilərik ki, almanlar demişkən hər bir müqayisə qüsurludur. Lakin elmi tədqiqatın tələblərinə görə tarixi-müqayisəli və nəzəri-tipoloji müqayisələr aparmaq zəruridir. Pişəvərinin "Zindan xatirələri" əsərini C.Məmmədquluzadə və başqa sənətkarların yaradıcılıq nümunələri ilə müqayisə etmək də bu tələbdən irəli gəlir.

Almaz Əliqızı

İkinci opponentim hörmətli professor Almaz Əliqızına haqqımda yazdığı əsasən dəyərli rəy üçün minnətdarlığımızı bildiririk.

Birinci qeyd: M.C.Pişəvərini M.F.Axundovla müqayisə etməyimiz ədəbiyyatın ictimai funksiyasını böyük mütəfəkkir M.F.Axundovun ilk dəfə olaraq ön plana çəkməsi ilə bağlıdır. M.Ə.Rəsulzadə isə daha çox publisist, jurnalist fəaliyyəti ilə siyasi xadim olaraq məhşurdur. Rəsulzadənin siyasi-ictimai xadim kimi Azərbaycan xalqının milli müstəqillik ideologiyasının formalaşması və yaranmasında müstəsna rolu olmuşdur. Ancaq bu siyasi liderin ədəbi-bədii yaradıcılığına müqayisə üçün münasibət bildirməmişdir. Biz isə bunu nəzərə alaraq M.Ə.Rəsulzadənin tarixi və siyasi xidmətlərini Pişəvəri ilə müqayisəli şəkildə dissertasiyada əks etdirmişik.

İkinci qeyd: Biz filologiya elmləri ixtisası üzrə doktorluq işi yazdığımız üçün bu siyasi fəaliyyətin təfərrüatına varmaqla ixtisasın indeksini qarışdırmaq istəmədik. Ona görə də yalnız

tədqiqat obyektini, konkret olaraq dissertasiyanın predmetini ön plana çəkmişik.

Üçüncü qeyd: Hörmətli opponentimin bu iradı ilə bağlı onu deyə bilərəm ki, f.e.d. alimlik dərəcəsi almaq üçün yazılan dissertasiya müəllifdən bugünkü siyasi durumumuza radikal münasibət əks etdirməyi tələb etmir. Biz bunu qarşımıza məqsəd qoymamışıq. Məqsədimiz bu gün əldə etdiyimiz milli müstəqillik ideologiyasının yaranması və formalaşmasında öz tarixi missiyasını, yazıçı-publisist rolunu oynayan Pişəvərinin ən ümdə olan yaradıcılıq fəaliyyətini üzə çıxarıb dəyərləndirməkdir.

Dördüncü qeyd də bizə qismən populist görünür. Bununla da yanaşı panturkist ifadəsinin yerinə düşmədiyini etiraf edirəm.

Pedaqoji Universitet – aparıcı müəssisə

Birinci irad: Azərbaycan ədəbiyyatında birbaşa həyata, cəmiyyətin ictimai-siyasi problemlərinə nüfuz etmək baxımından M.F.Axundov mərhələsi vardır. Bu mərhələnin qanunauyğun davamı M.Cəlil, M.Ə.Sabir kimi realistlərin yaradıcılığı ilə daha da qüvvətlənir. Bu mənada çoxcəhətli yaradıcılığı ilə (ictimai-siyasi) Pişəvəri yaradıcılığı həmin ənənənin davamı kimi bizə daha doğma görünür. Başqa sözlə XX əsrin ən tələtümlü, təkamül prosesləri Azərbaycan xalqının, Quzey və Güneydə ictimai şüurun oyanması, milli mənlik düşüncəsinin formalaşması prosesləri M.Cəlil, M.Ə.Sabir qələmilə yanaşı Pişəvəri qələminə də məxsusdur. Biz M.Cəlilin, Sabirin yalnız sənətkarlıq, bədii-estetik kəşflərinə görə yox, həm də sonrakı yaradıcılığının cəmiyyətin tərəqqisinə etdiyi fəal təsir baxımından Pişəvərini onlarla yanaşı tutmağı münasib sayırıq. Burada yazıçıların yaradıcılıq fəaliyyəti heç şübhəsiz nəzərdən qaçırılmışdır. Ona görə də aparıcı müəssisənin rəyində göstərilən bu iradı qeyri-təvazökarlıq olsa da tam qəbul edə bilmərik.

Ikinci irad: Məlumdur ki ədəbiyyatşünaslıq terminləri lüğətində janr, şəkil və ədəbi növ anlayışları çox zaman sinonim kimi izah olunur. Ədəyyatın növlərə bölünməsi başlığı altında növ geniş mənada işləndiyi halda, folklorda lirik növün janrlar bölümündən sonra təzədən növ termini işlədilir. Məsələn: "epik növün janrları" dedikdə nağıl, dastan, rəvayət və s. nəzərdə tutulur. Lakin sonradan dastanın özü də məhəbbət, qəhrəmanlıq dastanları kimi növlərə ayrılır. Bizə elə gəlir ki, "poeziya" sözü Avropa termini olaraq şeir, lirika anlayışlarının qüsuru yox, sinonimidir və ədəbiyyatşünaslığımızda tez-tez rast olunan janr-terminoloji qarşılığından irəli gəlir. Əlbəttə məqamına görə poeziya da demək olar, şeir də demək olar. Elmi üslubda biz bunu nəzərə almışıq.

Bədii ədəbiyyatın forma və məzmununa görə ədəbi növlərə ayrılması bir başqa hadisədir, onun məzmun motivlərinə görə fərqləndirilməsi, ona janr keyfiyyəti aşılaması tamam başqa hadisədir.

Memuar ədəbiyyatı, yəni xatirə ədəbiyyatı həcminə və keyfiyyətinə görə povest janrında da ola bilər, roman janrında da. Biz "Zindan xatirələri"ni povest hesab etməklə heç də onun memuarlıq keyfiyyətini inkar etmirik.

Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin baş redaktor müavini, 1963-cü ildə anadan olmuş, azərbaycanlı, ali təhsilli filologiya elmləri namizədi ƏHMƏDOV VÜQAR MİKAYIL oğlu üçün

X A S İ Y Y Ə T N A M Ə

V.M.Əhmədov Vüqar Əhməd 1987-ci ildən Dövlət Teleradio Şirkətində işləyir. O, peşəkar jurnalist kimi işinin öhdəsindən məharətlə gəlir. Vüqar Əhməd populyar jurnalist kimi tamaşaçı və dinləyicilərin məhəbbətini qazanıb. Vüqar Əhməd tədqiqatçı alim kimi bir sıra araşdırmaların müəllifidir. ədəbiy-

yatşünaslıq sahəsində də öz sözünü deyib. Əsərləri ictimaiyyət tərəfindən təqdir olunan Vüqar Əhmədin elmi maraq dairəsi özünəməxsusluğu ilə seçilir. O, klassik Azərbaycan ədəbiyatı, rus-Azərbaycan ədəbi əlaqələri, Cənubi Azərbaycanda ədəbi-mədəni mühit, milli uşaq ədəbiyyatımızın inkşaf problemləri və s. ilə bağlı elmi tədqiqat əsərləri və bir sıra publisistik məqalələrin müəllifidir.

V.M.Əhmədov işgüzarlığı, bilik və bacarığı, təvazökarlığı, sadəliyi, səmimiliyi, qayğıkeşlik və həssaslığı ilə kollektivin hörmətini qazanmışdır.

V.M.Əhmədov jurnalistika sahəsində xidmətlərinə görə "Araz" ali ədəbi mükafatına layiq görülüb.

Xasiyyətnamə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasına təqdim edilmək üçün verilir.

Dövlət Teleradio Verilişləri
Şirkətinin sədri. professor: NİZAMİ XUDİYEV

Azərbaycan Respublikası Prezidenti
Yanında Ali Attestasiya Komissiyası
AMEA-nın Ədəbiyyat İnstitutu nəzdindəki
D 01.131 Dissertasiya Şurasının sədri
AMEA- nın həqiqi üzvi K.A. Talıbzadəyə
Hörmətli Kamal müəllim!

Iddiaçı Vüqar Mikayıl oğlu Əhmədovun "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda 10.01.03 – Azərbaycan ədəbiyyatı ixtisası üzrə doktorluq dissertasiyasının müdafiəsinin keçirilməsinə AAK Kollegiyasının 5 dekabr 2003-cü il tarixli (prot. № 36) qərarı ilə icazə verilmişdir.

V.M.Əhmədovun doktorluq dissertasiyası onun müdafiəsinin təşkili və keçirilməsi üçün Sizin sərəncamınıza göndərilir.

SƏDR akademik A.Ş.Mehdiyev

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu nəzdində elmlər doktoru və elmlər namizədi alimlik dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.131 Birləşdirilmiş Dissertasiya Şurası üzvlərinin Vüqar Əhməd Mikayıl oğlunun "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyanın avtoreferatı ilə

TANIŞLIQ VƏRƏQƏSİ

№	Soyadı, adı, atasının adı	Alimlik dərəcəsi elmi adı	Şurada ixtisasının Şifri	Tanış Oldum
1.	Talıbzadə Kamal Abdulla Şaiq o. (sədr)	MEA-nın həqiqi üzvü, f.e.d.,prof.	10.01.08	
2.	Paşayev Qəzənfər Məmməd o. (həmsədr)	F.e.d., prof.	10.01.09	
3.	Həmidov İmamverdi Yaver o. (elmi katib)	F.e.n.	10.01.01	
4.	Abdullayev Bəhlul Ağabala o.	F.e.d.	10.01.09	
5.	Abdullayev Cəlal Mehdi o.	F.e.d., prof.	10.01.09	
6.	Abbasov İsrafil İsmayıl o.	F.e.d., prof.	10.01.09	
7.	Əsgərli Zaman Şükür o.	F.e.d.	10.01.08	
8.	Hüseynov Akif Məmməd o.	F.e.d., prof.	10.01.08	
9.	Hüseynov Tofiq Hüseyn o.	F.e.d., prof.	10.01.08	
10.	Qasımlı Məhərrəm Paşa o.	F.e.d., prof.	10.01.09	
11.	Qasımov Himalay Ənvər o.	F.e.d., prof.	10.01.08	
12.	Məmmədli Əflatun Yunis o.	F.e.d., prof.	10.01.01	
13.	Məmmədov Xeyrulla Qulam o.	F.e.d., prof.	10.01.01	
14.	Məmmədov Alxan Bayram o.	F.e.d., prof.	10.01.01	
15.	Mütəllimov Təhsin Mütəllim o.	F.e.d., prof.	10.01.01	
16.	Nəbiyev Bəkir Əhməd o.	MEA-nın Həqiqi üzvü, f.e.d., prof.	10.01.01	

17.	Osmanlı Vəli Musa o.	F.e.d.	10.01.08	
18.	Rəhimova Elmira Abdulla q.	F.e.d., prof	10.01.09	
19.	Rüstəmova Azadə Cəfər q.	MEA-nın müxbir üzvü, f.e.d., prof.	10.01.01	

Kamal Talıbzadə: Öz salamımı bildirirəm. Təşəkkür edirəm ki, bizim bugünkü məclisimizə gəlmisiniz. Yetersay var. Şura üzlərindən 18 nəfər iştirak edir.

Gündəyili elan edirəm. Doktorluq dissertasiyasının müdafiəsi: Vüqar Əhmədin "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası.

İxtisası: "Azərbaycan ədəbiyyatı üzrə".

Elmi məsləhətçisi: F.e.d., prof. Teymur Əhmədov

Rəsmi opponentlər: MEA-nın həqiqi üzvü, prof. İsa Həbibbəyli, f.e.d., prof. Almaz Məmmədova, f.e.d. Ağarəfi Zeynalov

Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universiteti

Dissertantın sənədləri haqqında məlumat vermək üçün söz elmi Dissertasiya şurasının katibi Imamverdi Həmidova verilir.

İ. Həmidov: Əhməd Vüqar Mikayıl oğlu 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Təhsili alidir. 1984-cü ildə Azərbaycan Pedaqoji Universitetini "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. 1986-90-cı illərdə həmin universitetin aspiranturasında oxumuşdur. Xarici dillərdən rus və fars dillərini bilir. Filologiya elmləri namizədidir. 1992-ci ildə "Azərbaycan-rus ədəbi əlaqələri (1900-1920-ci illər) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 30-a yaxın elmi əsərin, monoqrafiya, broşura və elmi məqalələrin müəllifidir. O sıradan "M.C.Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" monoqrafiyası

Azərbaycan dilində və rus dilində nəşr olunmuşdur. Məqalələrindən bir sırası Avropada, xaricdə Azərbaycan dilində çıxan elmi mətbuatda nəşr olunmuşdur. Əmək fəaliyyətinə 1984-cü ildə başlamışdır. 1984-86-cı illər Şamaxıda müəllimlik etmişdir. Dərəkənd kəndində işləmişdir. 1987-ci ildən Dövlət Teleradio şirkətində işləyir. Əvvəlcə redaktor, baş redaktor, indi isə baş redaktor müavini vəzifələrində çalışır. Xarici ölkələrdən Türkiyədə, İranda olmuşdur. O sıradan elmi ezamiyyətdə olmuşdur. İranda 2 dəfə. Ailəlidir, 2 övlad atasıdır. Bütün sənədlər Ali Attestasiya Komissiyasının tələb etdiyi əsasnaməyə və tələblərə uyğun şəkildə tərtib edilmiş və bizə göndərilmişdir. Müdafiənin keçirilməsi haqqında Ali Attestasiya Komissiyasının qərarı vardır. Sənədlər haqqında bunları deyə bilərəm.

Kamal Talıbzadə: Dissertasiyanın məzmunu haqqında şuraya məlumat vermək üçün söz iddiaçıya, dissertanta verilir.

Prof. Məhərrəm Qasımlı: Bu Cənubi Azərbaycandan gələn demokratlar bir qayda olaraq Bakıya gələndən sonra ya elmi ya bədii yaradıcılığla məşğul olurlar. Bəs Pişəvərinin Bakı dövrü oldu ki, bir neçə il Bakıda yaşadı, bu müddət ərzində Pişəvəri bədii yaradıcılığla məşğul olubmu?

VÜQAR Ə.: Bakı dövründə bəli, mədrəsəni bitirdikdən sonra, yəni Bülbülə kəndinə köçəndən sonra 13 yaşında Bakıya gələndə qeyd etdiyim kimi, bədii yaradıcılığa ilk dəfə şeirlə başlayır.

Bəhlul Abdullayev: Mənim belə bir fikrim var ki, çıxış da edəcəyəm, amma bir sual vermək qənaətinə gəldim. İlk cümləsində Vüqar müəllim belə bir fikir dedi ki və burda da var – Güney Azərbaycanda yaşayıb yaratmış yazıçılardan Xətib Təbrizi, Qətran Təbrizi, Arif Ərdəbili, Qövsi Təbrizinin yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi sahəsində bir böyük boşluq yarandığı üçün Azərbaycan Elmlər Akademiyasında Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi yarandı. Və sonrakı cümlə də gəlir ki, bu şöbə də cəmi-cümlətanı

öyrəndi Səhəndi, Şəhriyarı və bizim bu gündə həyatda yaşayan Cavad Heyəti. Bu Xətib Təbrizidən, Qətran Təbrizidən, Arif Ərdəbilidən bu şöbə bir əsər yazıb çıxardıbmı ortalığa yoxsa yox? Siz özünüz dediniz ki, bu şöbə onlara görə yaradılmışdır, onlardan kimlər tədqiq olunubdur?

VÜQAR Ə.: Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi yarananndan sonra Cənubi Azərbaycan ədəbiyyatı daha fundamental, ətraflı şəkildə işıqlandırıldı. Yəni Ədəbiyyat İnstitutunun bütün əməkdaşları bilir. Elə bu yaxınlarda ötən il, görkəmli alim Sabir Əmirov doktorluq müdafiə elədi və bizim gözəl alimimiz, mənim elmi məsləhətçim Teymur Əhmədovun rəhbərliyi altında biz hamımız bu əsərləri yaratmışıq və üçcildlik, dördcildlik "Cənubi Azərbaycan Antologiyası"nı Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsi çap elədi. Və hal-hazırda çoxlu materiallar var, Namizədlik və doktorluq dissertasiyaları, əlbəttə, şübhəsiz, şöbə yarananndan sonra. Nə də ki müasir ədəbiyyat şöbəsi - Kamal müəllimin rəhbərlik etdiyi şöbə. Şübhəsiz, Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin gördüyü iş, elə mənim də çap elədiyim iş həmin bu şöbənin məhsuludur.

Kamal Talıbzadə: Keçirik müzakirələrə. Çıxış üçün söz verilir prof. Elmira Rəhimovaya.

Elmira Rəhimova: Güney Azərbaycanı ilə bağlı hər bir mövzu bizim üçün çox doğma, çox yaxın, çox əzizdir. Xüsusi qeyd etməliyəm ki, Sovet dövründə, Sovet rejimində belə bu mövzu bizim və bizim elm xadimlərimiz tərəfindən diqqət mərkəzində olmuşdur. Şübhəsiz ki, hal-hazırda yaranmış şəraitlə əlaqədar, müstəqilliyimizlə əlaqədər bu mövzuda geniş imkanlar, geniş perspektivlər açılmışdır. Şübhəsiz ki, bu baxımdan sizin işiniz olduqca aktual, olduqca təqdirə layiqdir. Mən xüsusi qeyd etmək istəyirəm ki, burada siz Pişəvərinin bədii yaradıcılığı ilə bərabər elmi fəaliyyətinə də geniş yer vermisiz. Bu da təsadüfü deyil, çünki Pişəvərinin bizim bədii dilimiz haqqında, bizim bədii tərcüməmiz haqqında dediyi

sözlər bu gün də aktualdır, bu gün də təqdirə layiqdir. Misalçün, bədii tərcümə ilə əlaqədər Pişəvərinin bir fikrini sizin diqqətinizə çatdırmaq istəyirəm. Pişəvəri deyir ki: "Bədii tərcümənin keyfiyyəti tənqidin səvyyəsindən asılıdır". Doğrudan da bizim şah əsərlərimiz "Dədə Qorqud" və "Koroğlu"nun rus dilində tərcümələrini yadımıza salsaq və uzun müddət bu barədə, bu haqda bizim tənqidimizin susmasını da nəzərə alsaq, onda bunların aqibəti bizim gözümüzün önündə tamamilə canlanır. Sizin işinizdə mənim diqqətimi çox cəlb eləyən nədir? Məndə diqqət doğuran nədir? Birinci, təqdirə layiqdir ki, siz Pişəvərinin bədii yaradıcılığına, həyatına müraciət edərək o dövr, o zaman haqqında tam təsəvvür yaratmağa nail olmusunuz. İkinci isə, məndə maraq doğurmaqdan əlavə, çox xoşuma gəldi, məmnuniyyətlə oxudum. Çox mürəkkəb problemlər haqqında o qədər aydın, o qədər səlis, sadə danışırsınız ki, onların elə izahını verirsiniz ki, bu barədə danışmamaq olmaz. Və nəhayət, üçüncü məndə maraq doğuran məntiqi ardıcıllıqdır. Elə bil ki, bir- birinə bağlı mühakimələrdir, fikirlərdir bir-birindən doğur. Mən sizin fikrinizə bir şeyi çatdırmaq istəyirəm, orada siz deyirsiz ki, Pişəvəri sovet rejiminə, sovet dövrünə çox müsbət münasibət bəsləyir və həyatının sonuna qədər də bu münasibətdə olur. Mən orada bir şeyə məəttəl qaldım ki, niyə siz buna öz münasibətinizi bildirməmisiniz, ola bilər ki, dissertasiyada bildirmisiniz. Və bir də mən bir şeyə cavab tapmaq istəyərdim ki, deyirsiniz ki, ədəbi irs, biz hamımız deyirik ədəbi irs, bu da xeyli müddətdir ki, həyatını dəyişib, bu ədəbi irs haqqında siz tam məlumat toplaya bilmisizmi? Bax burada bir dəqiq söz yoxdur. Yoxsa haradasa sizin dissertasiyanız birinci dissertasiyadan az fərqlənir, yaxud fərqi nədədir? Bilirsiz, mən sizin verilişlərinizə televiziya ekranlarında çox baxmışam. Və sizin yaradıcılığınızı da çox izləmişəm. Və bu gün də siz doktorluq adı almaq uğrunda mübarizə aparırsınız, səy göstərirsiniz, bütün bunlar mənə nədə haqq verir, nəyi söyləməkdə haqq verir, mən bunu tam

sakitliklə deyə bilərəm ki siz işıqlı insansınız. Və sizin daxilinizdə olan o işıq sizin bütün işinizə, bütün fəaliyyətinizə də işıq saçır. Mən sizə müvəffəqiyyətlər arzu edirəm.

Xeyrulla Məmmədov: Mən Vüqar Əhməd haqqında danışmaya bilmərəm. Çünki Vüqar Əhməd birbaşa mənim tələbəmdir. Mənim yetirməmdir. Vüqar Əhməd yaradıcılıq yoluna ümumiyyətlə ali məktəbdə həmişə mənimlə addımlayıb. Mən onun namizədlik dissertasiyasının elmi rəhbəri olmuşam. Və bu gün də xoşdur ki, Vüqar Əhməd artıq doktorluq dissertasiyası müdafiə edir. Vüqar Əhməd əvvəla öz şəxsi keyfiyyətləri etibarilə çox orijinal adamdır. O ali məktəbdə oxuyarkən çox şən, şux, bütün müəllimlərin hörmətini qazanmış bir oğlandır. Pedaqoji Universiteti də fərqlənmə diplomu ilə bitirib. Və onu demək istəyirəm ki, Vüqar Əhməd təsadüfi adam deyil. Vüqar Əhmədin sonraki fəaliyyəti də göz qabağındadır ki, o ədəbiyyatşünaslığın çərçivəsindən çox kənara çıxıb, artıq bu dəqiqə Respublikanın musiqi ictimayyiətinə rəhbərlik edir, və onun ən aparıcı simalarından biridir. Vüqar Əhmədin namizədlik dissertasiyası Azərbaycan-rus ədəbi əlaqələri idi. O zaman dəbdə olan mövzu idi və Vüqar Əhməd də onu çox uğurla başa çatdırdı. Indi isə müraciət edib sırf milli mövzuya, özü də elə milli mövzu ki, bizim ürəyimizdə yeri olan, odu olan bir mövzudur, yəni Cənubi Azərbaycan ədəbiyyatıdır. Cənubi Azərbaycan ədəbiyyatında böyük siyasi-ictimai fəaliyyəti ilə məşğul olan və Azərbaycan xalqının milli istiqlaliyyəti uğrunda mübarizələrin böyük səhifəsini yazan bir şəxsiyyətə həsr olunmuş işdir. Elə Vüqar Əhmədin belə bir mövzuya müraciət etməsi, belə bir şəxsiyyətin həyatına müraciət etməsi, onun o milli keyfiyyətlərindən, vətənə millətə olan o böyük məhəbbətindən irəli gəlir.

Vüqarın işi bizim kafedrada müzakirə olundu. Biz onun haqqında çox geniş söhbət elədik.Və geniş söhbətə də səbəb o oldu ki, Vüqarın işi geniş söhbət üçün zəngin qida verirdi. Zəngin material verirdi. Və o materialı biz geniş şəkildə təhlil

etdik. Və dissertasiya haqqında burada çox danışıldı. Seyid Cəfər Pişəvərinin həyat və yaracılığından,onun bədii yaracılığından, ədəbi-tənqidi görüşlərindən və publisistikasının təhlilindən ibarətdir . Bu dörd fəsildə demək olar ki, Vüqar, Seyid Cəfər Pişəvərini bir portret çəklində təqdim edə bilib. Mənə elə gəlir ki, Seyid Cəfər Pişəvəri haqqında hər hansı bir material əldə etmək istəyən, onun haqqında təsəvvür hasil etmək istəyən adam, Vüqarın dissertasiyasına müraciət etsə, artıq onun üçün qaranlıq heç bir şey qalmaz, hər şey məlum olar. Vüqarın işi zəngin filoloji və tarixi material əsasında yazılıb. Və bütün fəsillərdə bu, hiss olunur. Lakin Vüqarın işində iki nöqtə mənim diqqətimi cəlb eləyib. Bunların birincisi Seyid Cəfər Pişəvərinin ölümü ilə bağlı materiallardır. Ilk dəfə geniş şəkildə və bizə məlum olmayan mənbələrdən Vüqar materialları əxs eləyib və onun nə şəraitdə faciəli şəkildə öldürülməsini bütün təfərrüatı ilə açıqlayıb. Və mənə elə gəlir ki, elə bu materialların özü çox böyük bir xidmətdir. Bu materialların üzə çıxarılması, təhlili və onların dəqiq qiymətləndirilməsi çox böyük xidmətdir. Elə bunun özü, bir dissertasiya üçün kifayət eləyir. Çünki Seyid Cəfər Pişəvəri Azərbaycan xalqının Səttərxanla, Şeyx Məhəhmməd Xiyabaniylə, Məmməd Əmin Rəsulzadə ilə, Nəriman Nərimanovla, bu qəbildən olan digər inqilabçılarla bir sırada duran bir adamdır və deyərdim ki, bu, sonuncu mogikandır, yəni bu cərgədə axırıncı adamdır. Bu mənada bu materialların bizim tariximiz üçün, bizim ədəbiyyatımız üçün, ümumiyyətlə ictimai fikrimiz üçün böyük əhəmiyyəti var. İkinci nöqtə mənim diqqətimi cəlb edən onun ədəbi-tənqidi görüşlərinin təhlilinə həsr olunan fəsildir. Belə ki, Seyid Cəfər Pişəvəri professional tənqidçi olmayıb. O, professional tənqidlə məşğul olmayıb, lakin siyasi-ictimai fəaliyyətində, ədəbi fəaliyyətində, gündəlik məsələlərə cavab vermək üçün lazım olan ədəbiyyat məsələlərinə müraciət edib, ayrı-ayrı əsərləri təhlil edib, ayrı-ayrı ədəbi-estetik mülahizələr irəli sürüb və bunlar pərakəndə şəkildədir.Onun

konkret ədəbi yazısı yoxdur. Yəni ədəbiyyatın nəzəri məsələlərinə həsr olunmuş yazısı yoxdur. Amma Vüqar müxtəlif mənbələrdən bu pərakəndə şəkildə olan materialları yığıb, o mozaikada olan kimi ayrı -ayrı xırda faktları elə quraşdırıb və Seyid Cəfər Pişəvərinin tənqidi görüşləri haqqında çox zəngin təsəvvür oyadıb, eyni zamanda bizim ədəbi tənqidimizə onun xidmətlərini gətirməklə, bizim ədəbi tənqidimizin tarixində xüsusi bir səhifə yaratmağa nail olub. Və bu, Vüqarın iki ən başlıca uğurudur və dissertasiyanın ən qiymətli səhifələrini təşkil edir. Bunu deməklə mən heç də o biri fəsillərin qiymətini və dəyərini azaltmıram. Amma bu iki keyfiyyət Vüqarın dissertasiyasında qabarıq şəkildə gözə çarpır. Bununla bərabər Vüqarın işində məni qane etməyən bir-iki nöqtə var. Nöqtələrin biri ondan ibarətdir ki, bayaq burada çox söhbət getdi onun haqqında, onun memuarları ilə əlaqədardır. Mənə elə gəlir ki, onun memuarlarının qiymətini azaltmaq olmaz. Yəni Mirzə Cəlilin, Abdulla Şaiqin, Yusif Vəzirin xatirələri ilə müqayisədə guya bunlar kifayət qədər əhəmiyətli deyil, amma elə deyil. Seyid Cəfər Pişəvərinin xatirələri çox gözəl xatirələrdir. Bədii cəhətdən kamil, siyasi cəhətdən çox kəskin xatirələrdir. Amma Vüqarın bu xatirələri povest adlandırmağı məni qane eləmir. Və biz onu kafedrada da dedik və kafedrada da o barədə söhbət getdi. Bədii əsərin strukturu var, ekspozisiyası var, razvyazkası var, kuliminasiyası var, finalı var. Bədii əsər ona görə bədii əsərdir ki, bu cəhətlər orada var. Bu cəhətlər, keyfiyyətləri olmayan bədii əsər deyil. Xatirədə də bunlar yoxdur. Olmadığına da görə onu povest adlandırmaq olmaz. O xatirədir. Elə sən onun o bədii cəhətlərindən ki yazmısan, onun özü onun bədiiliyi haqqında, bədii dəyəri haqqında kifayət qədər məlumat verir. Bunu qiymətə mindirmək üçün məhz onu povest adlandırmaq, bu yarlıqı ona vurmaq, mənə elə gəlir, elmi cəhətdən düz deyil. O biri qüsur ondan ibarətdir ki, əsərin struktunda müəyyən qədər qüsur var. Yəni bu, nədən ibarətdir. Seyid Cəfər Pişəvəri nə yazır-yazsın, birinci publisistdir. Publi-

sistika onunçün xarakterik keyfiyyətdir. Bütün partiya rəhbərləri kimi Lenindən, Vorovskidən, M.Ə.Rəsulzadədən, Nərimanovdan üzü bəri - birinci növbədə onlar publisistdirlər. Çünki publisistika onlara lazımdır döyüş üçün . Ona görə də Seyid Cəfər Pişəvəri publisistdir. Mənə elə gəlir ki, fəsillərin quruluşunu düzəldəndə publisistika ön plana keçməliydi. Ədəbi tənqiddən danışılarkən, ədəbi tənqidin özü də publisistikadır. Bu məsələlərə diqqət etmək lazımdır. Bu keyfiyyətlər əlbəttə Vüqarın işinin dəyərini, qiymətini qətiyyən azaltmır. Vüqar Azərbaycan ədəbiyyatşünaslığına çox dəyərli töhfə verib. Mən deyərdim ki, bu təkcə Azərbaycan ədəbiyyatşünaslığı üçün yox, Azərbaycan tarixi üçün bayaq özünün dediyi kimi, Azəraycan hüquq elmi üçün, Azərbaycanın ümumiyyətlə siyasi-ictimai fikrini öyrənmək üçün çox dəyərli mənbədir, özü də çox mükəmməl mənbədir. Mən o vaxtda dedim, əsəri mən rusca oxumuşam bir də avtorefaratını oxumuşam.Və əsər çox mükəmməl, gözəl dildə yazılıb. Çox şirəli bir dildə yazılıb. Və bütün bunlar göstərir ki, Vüqar ümumiyyətlə bir alim kimi kamillik səviyyəsinə yüksəlib və bütün, necə deyərlər, hərtərəfli artıq elmi fikirlərini çox dəqiq şəkildə, aydın şəkildə, məzmunlu şəkildə ifadə etməyi bacarır və mən Seyid Cəfər Pişəvərinin həyat və yaradıcılığı haqqında olan bu dissertasiyaya görə Vüqarı filologiya elmləri doktorluq, alimlik dərəcəsi almağa layiq bilirəm. Və özüm səs verəcəm. Sovetin üzvlərini də ona səs verməyə çağırıram.

Bəhlul Abdullayev: Hörmətli ağsaqqalımız Kamal müəllim. Mən burada ağsaqqal sözünü bilərəkdən deyirəm. Çünki bizim Ali Attestasiya Komissiyasının bir nöqsanı vardı ki, bizdə sədr sözünü götürüb, oraya bir həmsədr sözünü qoyub və ona görə də Qəzənfər müəllimdə gəlib burada oturubdur. Amma Kamal müəllim sədrdən də yüksək bizim üçün həmişə ağsaqqaldır. Hörmətli Dissertasiya Şurasının üzvləri, qonaqlar. Mən Vüqar Əhmədin əsərinin xülasəsini oxuyandan sonra bircə söz işlədə bildim. Vüqar Əhməd ölənlərivə rəhmət. Niyə?

Bu rəhməti Vüqarın bütün ölənlərinə deməyimlə Vüqarın iki baxımdan mən bu məsələni nəzərdə tutdum. Birincisi, biz İranda olduğumuz zamanlarda orada yetişən cavanlığın, gəncliyin bizə olan ümidi. Onların yaradıcılığını, oradakı şairlərin yaradıcılığının tədqiqini nə qədər ümid ilə bizdən gözləyirlər. Və orada necə bir gənclik yetişir və nə qədər bu cür əsərlərə onların istəyi, arzusu vardır. İndi çox asanlaşıbdır. 80-ci illəri lap götürsək, mən onda bir-bir ərəb əlifbasında Tehranda, Təbrizdə çap olunmuş kitabları bircə dənə söz-söz yığıb onlar üçün Qəzənfər müəllimin də yadındadır o kitab "Arazam, Kürə bəndəm" adlı bir kitab çap etdirdim. O vaxt çox çətin idi, o vaxt İran yadımıza düşmürdü, biz həsrətnən baxırdıq. Amma Vüqarın dövründə ora gediş-gəliş var idi və oradakı insanlarla bəzən biz deyirik, vallah həqiqət var, iki xalq məsələsi var. Bir o hegemon bir doğurdan da əsl o xalq. Bu mənada İranda da Azərbaycan ədəbiyyatına, Azərbaycan xalqına maraq var, mən başqa farsları demirəm, öz azərbaycanlılarımızı nəzərdə tuturam. Onların təfəkkürü, baxış tərzləri tamamilə ayrı-ayrıdır. Və bizə olan ehtiyac orada daha üstündür. Bu baxımdan Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin bu cür əsərləri ərsəyə gətirməsi çox gözəldir. Vüqar da bu işi yazıbdır. Və ikinci mən rəhməti Vüqar üçün ona görə dedimki bayaqları açığı deyim ki, opponentlər çox gözəl danışdılar. İstər İsa müəllim istər Almaz xanım mənə ləzzət etdi, xüsusilə onun o ifadələri, dedikləri, o fikirləri o bədii ədəbiyyat, ədəbi-bədii məsələsinə görə rəhmət oxuyuram. Vüqar bizim unudulmuş, yaddan çıxmış elə şəxsiyyətlərimizi sənət sahəsində, incəsənət sahəsində ortaya gətirir, tanıdır onları təbliğ edir. Bunlar çox gözəldir. Və bu cəhətdən də mən onun ölənlərinə rəhmət dilədim. Əsərin mahiyyətinə gəldikdə mən çox uzun danışmaq istəmirəm. Çünki istər opponentlərin, istər Xeyrulla müəllimin, Elmira xanımın danışıqlarında bunlar geniş şəkildə açıldı. Amma bir arzumu, bəlkə də mən düz düşünmürəm, amma Vüqar bütün əsərində sənədlərə söykəndiyindən mən də sənədlərin dilindən

bir söz demək istəyirəm. Yazırsınız ki, dissertasiyada 1946-cı ildə İranın baş naziri Moskvaya gəldi. Stalinlə söhbət apardılar, müqavilə bağladılar, Şimal neftinin 51 faizi Sovetlərin, 49 faizi isə İranın olmaq şərtiylə Azərbaycanın hakimiyyətinin ləğvi məsələsi qoyuldu. Yəni onları qırmaq məsələsi qoyuldu. Düzdü deyirsiz o sənəd İranda təsdiq olunmasa da amma Stalin onları qırdırdı. Bir az mən bu fikirə niyə şübhə ilə yanaşıram, Stalin elə kafir deyildi ki, oradan 49 faiz neft, 51 faiz neft hesabına o qoşunu çıxartsın. Stalin oraya qoşunu salmışdı ki, 100 faiz neft onun idi. İran onun idi. Amma mən onu arzu edərdim ki, siz Ceyms Oldricin, bəlkə oxumusunuz, bir də yadınıza salıram "Diplomat" əsərini . Ceyms Oldric Yalta müşavirəsində Çörçilin birdəfəlik katibi, müşaviri idi. Bu sənədləri yazan idi. Stalinin nəinki İrandan heç qoşununu Berlindən də çıxartmaq fikiri yox idi. Amma Yalta müqaviləsinin şərtlərinə görə müharibə qurtarandan sonra, qoşunlar müharibə etməyən ölkələrdən məcburi şəkildən çıxardılmalı idi. Yəni Stalini məcbur etdilər oradan qoşunu çıxartmağa, neft haqq-hesabı deyildi. Yəni mən sənədlərdən danışıram sizə. Stalin berlindən bir dənə də qoşun çıxartmaq istəməzdi. Əgər onu məcbur etməsəydi ingilislər, amerikanlar. Ona görə də bu cəhətlərə biz gərək fikir verməliyik. Son olaraq, Vüqar doğurdan da çox yaxşı işlər görür. Bir dəfə yadımdadır, xəbərim yox idi, Vüqarı heç tanımırdım da, bəlkə az tanıyırdım, mənim kitabım haqqımda Vüqarın məqaləsi çıxmışdı ki xeyirxahlığı həmişə vardır. Həmişə öz işini görür. Mən düşünürəm ki, bugünkü əsər onun ümumi xeyirxahlıq ideyasından ortaya çıxan bir əsərdir. Mən şuranın üzvi kimi belə çox sidqi ürəklə bu işə səs verirəm. Bununla da "çox sağ ol", Vüqar, sənə deyirəm. Səs verəcəm sənə. Bütün şura üzvlərinin də sənə səs verməyini arzu edirəm. Çox sağ ol, təbrik edirəm səni.

Himalay Qasımov: Vüqar Əhmədin belə bir dissertasiya ortaya qoyması təsadüfi deyil. Vüqar Əhmədlə mənim yaradıcılıq əlaqələrimin tarixi bir qədər qədimdir. Təxminən 25

illik tarixi var. O vaxt Vüqar Əhməd mənim rəhbərliyim ilə Elçin haqqında diplom işi yazmışdı. Kifayət qədər lakonik, eyni zamanda elmi siqləti üstündə olan bir diplom işi idi. Bu diplom işinə görə Vüqar Əhməd əla qiymət aldı. Bütün bunlar onu göstərir ki, Vüqar Əhmədin, özünün bu gün elmə gəlməsinində müəyyən tarixi səbəblər var. Eyni zamanda mən deməliyəm ki, Vüqar Əhmədin bu gün müzakirəyə təqdim etdiyi dissertasiyası kifayət qədər fundamental bir tədqiqat əsəridir. Fundamentallığı həm də ondan irəli gəlir ki, Vüqar Əhməd təkcə Mir Cəfər Pişəvərini tədqiq etməyib, eyni zamanda onunla bağlı olan bütün çevrəni əhatə edib. Mən bunu öncə deyə bilərəm ki, tarixşünaslığa nüfuz eləyibdir və bu nüfuzunda da kifayət qədər tutarlı dəlillərlə fikrini əsaslandırıbdır. Yoldaşlar qeyd elədilər, mənə məlum oldu ki, düzdür bizim kafedrada müzakirə olunubdur. Və mən ordada çıxış eləmişəm, fikir söyləmişəm. Bu tədqiqat doğrudan da Mir Cəfər Pişəvərini bir şəxsiyyət kimi, həm siyasi xadim kimi, həm ədəbi, eyni zamanda yaradıcı bir insan kimi kifayət qədər əks etdirir. O ki qaldı müəyyən məqamlara münasibətdə, xüsusilə ayrı -ayrı əsərlərin janrları ilə bağlı bayaq Xeyrulla müəllim fikir söylədi. Ancaq mənə elə gəlir ki, əlbəttə janrı, janrın modelini fetişləşdirmək də düzgün deyil. Çünki janrı əsas götürüb bədiiyyatı müəyyən mənada arxa plana çevirib bu əsərin bədiiyyatı haqqında müəyyən fikir söyləmək də əlbəttə, o qədər də yerinə düşmür. Bizim bir sıra şəxsiyyətlərimiz, o cümlədən Xaqani öz məhşur əsərlərindən birisini – "Həbsiyyə"sini zindanda yazıb. Yəni bu zindan ədəbiyyatının gündəmə gəlməsi və bizim yazıçılarımızın yaradıcılığında özünü göstərməsi də təsadüfi deyil. Yəni bunun da tarixi var. Bu baxımdan "Zindan xatirələri silsiləsi əsəri doğurdan da Mir Cəfər Pişəvərinin yaradıcılığında kifayət qədər önəm kəsb eləyən bir əsərdir. Və mənə elə gəlir ki, o həm də bizim bədii ədəbiyyatımıza, təfəkkürümüzə müəyyən mənada qida verən əsərdir. Eyni zamanda, Vüqar Əhmədin tədqiqatı insanı kifayət qədər düşündürür və

dərinliklərə aparır. Mir Cəfər Pişəvərinin tarixi şəxsiyyəti haqqında da kifayət qədər tutarlı fikirlərdə söyənilir . O fikirlərin bir çoxu bizə məlum deyil. Mən məsələn fikirləşirəm ki, haradasa tarixin unudulmuş bir səhifəsini Vüqar Əhməd bizə təqdim etdi və kifayət qədər tutarlı dəlillərlə təqdim etdi. Xüsusilə onun ömrünün, taleyinin belə faciə ilə sonuclanması, bu elə faktlarla əlaqələndirilir ki, bu faktlar doğrudan da indiyə kimi bəlkə də elm aləminə bəlli deyildi. Ayrı- ayrı arxivlərdən, ayrı-ayrı memuar əsərlərindən tapılan, müəyyən mənada əlaqələndirilən bu faktlar Mir Cəfər Pişəvərini həm tarixi şəxsiyyət kimi, həm siyasi xadim kimi və o dönəmin aparıcı siması kimi təqdim edir. Və bu baxımdan mən, əlbəttə, kafedrada da Vüqara bir irad tutmuşdum, mən istəyərdim ki, bu iradı burada da açıqlayım. Bu da ondan ibarətdir ki, orada M.C.Bağırova münasibət bir qədər kəskindir və xüsusilə də mən deyərdim bir qədər ifratdır. Indi bilirsiniz ki, M.C.Bağırovun müəyyən tarixi xidmətləri də olubdur. Ona görə də bu əsərin M.C.Bağırova münasibətində, bir qədər burada sosioloji təfəkkür öz işini görübdür. Mənə elə gəlir ki, əlbəttə, indi elə bir tarixi gərçəklər yaranıb ki, müstəqillik şəraitində biz öz tarixi şəxsiyyətlərimizə də qiymət verərkən müəyyən ölçüləri, meyarları gözləməliyik. Və tarixi şəxsiyyətlərin qiymətini həm öz yaşadıqları dövr üçün qiymətini, dəyərini həm də bizim üçün bu gün oynadıqları rola görə qiymət vermək lazımdır. Və mən elə fikirləşirəm ki, Vüqar Əhməd gələcəkdə bu məsələdə münasibətini bir qədər başqa kontekstdə ortaya qoyacaqdır. Düzdür, doğrudur, bu əsər Vüqar Əhmədin dediyi kimi, 1998-ci ildə təqdim olunubdur müzakirəyə və bir sıra ola bilsin ki, dəyərli, fundamental tədqiqat əsərləri də burada yer almaybdır . Amma mənə elə gəlir ki, Vüqar Əhməd bu məsələlərə də müəyyən miqdarda gəzinti edəcəkdir. Və o mənada ki, bu Mir Cəfər Pişəvəri doğrudan da bizim milli intibahımızla, ümumiyyətlə azadlıq ideyalarının kifayət qədər reallaşmasında, ümumiyyətlə, fərdi

şəxsiyyətdir. Allah təala ona elə bir tale qismət elədi ki, əlbəttə, bu taleyin qisməti ilə, alın yazısı ilə hərəkət edirdi və çox dönməz, iradəli, əzmkar bir insan idi. Və bütün bunlar onu göstərir ki, o öz ölümünü əvvəlcədən görürdü, bəlkə də ölümə doğru gedirdi . Bütün bunları Vüqar Əhməd kifayət qədər açıqlayıb. Və əlbəttə, bu dissertasiyaya görə Vüqar Əhmədə təşəkkür edirəm. Mənə elə gəlir ki, belə bir fundamental əsər bizim gələcək tədqiqatlarımız üçün də müəyyən bünövrə olacaqdır. Mən fikirləşirəm ki, biz hamımız ona səs verəcəyik və bu ona həqiqətən layiqdir.

Qəzənfər Paşayev: Azərbaycan bir çox xüsusiyyətlərinə görə tarix boyu fərqlənib. Və bir çox bəlalar Azərbaycanın başına gəlib. Dünyada birinci parçalanan ölkə də Azərbaycan olub. Və bayaq adını çəkdilər burada Ceyms Oldric Azərbaycanı ikiyə bölünmüş bir ürək adlandırır. Əslində Azərbaycan ikiyə bölünməyib. Bir neçə yerə bölünüb. Onun 2 milyon yarımı da qıraqdadır. Dərbənd hissəsi başqadır, Ermənistan hissəsi başqadır, Gürcüstan hissəsi başqadır, bunlar hamısı Azərbaycanın parçalarıdır, parçalanıbdır. Indi bu birliyi biz nədə yarada bilərik? Yalnız ədəbi əlaqələrlə, mədəni əlaqələrlə incəsənət nümayəndələrinin gediş- gəlişilə.1994-cü ildə İraqa gedənlərin bir neçəsini də mən burada görə bilirəm. Vasim müəllim də buradadır, Canəli müəllim də buradadır. Əkbərov, Kərimov əyləşib, bizim yoldaşlardan var burada, görürəm. Getdik, gəldik inanın ki, Kərkükdə konsert verdilər bizim incəsənət nümayəndələri, ondan sonra kitablar yazıldı, ondan sonra işlər görüldü, indi də İraqın Azərbaycandakı səfiri azərbaycanlıdır, yəni kərküklüdür. Bir gedin görüşün, Vasim müəllim görüşüb onunla, görün o necə Azərbaycanca danışır. Necə təmiz, səlis və bu, Azərbaycanın bir hissəsidir, tərkib hissəsidir. Bu Azərbaycanı birləşdirmək üçün ayrı bir yer yox-dur. Nə silahla, nə güclə, nə zorla, o birlik yalnız ədəbi-mədəni əlaqələr yolu ilə ola bilər. Bugünkü dissertasiya işinə mən hər şeydən əvvəl bu müstəvidə baxıram. Və o birliyimizin

yaranması uğrunda atılan uğurlu bir addım hesab edirəm Vüqar Əhmədin bu sanballı dissertasiyasını. İkinci sovet dövründə Ali Attestasiya Komissiyasının nizannaməsində bir bənd var idi. Onu biz unutmuşuq. O nə idi? "Alim olmaq asandır, insan olmaq çətin" deyirdilər. Yəni o insanı kim müdafiə edir? Onun şəxsiyyəti nədir? Cəmiyyətdə mövqeyi nədir? Cəmiyyətə gətirdiyi xeyir nədir?. Mən bu ikinci baxımdan Vüqar Əhmədin işinə qiymət verirəm. Onun apardığı yetkin, bütöv verilişə baxırsan. O veriliş qurtaranda gözünün qabağında tam bütöv bir əsər canlanır. Və burda bizim böyük alimlərimiz iştirak edir. Mən bir dəfə baxmışam. İzləyirəm və son ayda Vüqar müəllim ya bu dissertasiyaya görədi hər həftə bir veriliş apardınız, ya da xalqın tələbi ilədir bu. mənə belə gəlir ki, bu xalqın dolğun tələbi ilədir. Çox gözəl verilişlər aparırsınız. Mən görürəm ki, Ağaxan müəllim burada əyləşib, Fərhad Qasımov burada idi. Vasim müəllim orada iştirak etdi və orada siz qəribə təvazökürlük də elədiniz və həqiqətən də bu belə idi. Dediniz Vasim müəllim, siz muğamatdan belə danışırsınız, mən bu dərinliyi bilmirdim. Onun özü də camaata yaxşı təsir edir. Yəni Vüqar Əhmədin mən o sadəliyini, təvazökarlığını deyirəm. Və bu gün burada incəsənət xadimlərinin belə yığışması, özü də onların hamısı görkəmli incəsənət xadimləridir ki, xalq qarşısında böyük xidmətləri olan adamlardır. Bu da Vüqar Əhmədin şəxsiyyətinə olan hörmətdir. Ayrı cür onlar buraya yığışmazdılar, hərəsinin bir işi var, dərdi var siz bilirsiniz. Bax, bunu da mən istəyirdim deyim. Sonra onu da yada salmaq istəyirəm ki, sovet dönəmində bir çox adları çəkmək, hətta xidmətləri olmuş adamların adlarını çəkmək mümkün deyildi. Dərbənd adını çəkmək olmazdı, Təbriz adını çəkmək olmazdı, Türkiyənin adını çəkmək olmazdı və hətta mənim yaxşı yadımdadı, 70-ci illərdə çox adam bilmir Məmməd Araz niyə xəstələndi. Məmməd Araz "Ədəbiyyat" qəzetində müavin işləyirdi, N.Nərimanovun ildönümü haqqında bir səhifəlik yazı buraxmışdı. Ona görə onun başına bəlalar gəldi. Nərimanov bu

xalqa nə pislik eləmişdi? Yəni belə şeylər orada çox olurdu. Və o vaxtlar dissertasiyalar yazmaq bu şəxsiyyətlər haqqında çətin idi. Doğrudur Pişəvəri haqqında Həmid Məmmədzadə 1955-ci ildə namizədlik dissertasiyası yazmışdı və siz onu Müsavatı çox tənqid elədiyinə görə çox tənqid eləmisiz . Bilirsiniz, gərək zamanın gözü ilə baxaq. Həmid Məmmədzadə ədəbiyyat tariximizdə çox böyük xidmətləri olan adamdır. Əgər o onu yazmasa idi, inanın ki, o dissertasiyanı müdafiəyə buraxmazdılar. O bəlkə də onu qarğış kimi eləmişdi, onu demişdi. Məncə, burada çox gözəl söhbətlər getdi. Mən istəmirəm dissertasiyanın məziyyətlərindən danışım, çox vaxtınızı alım, çünki dissertantın özü də, opponentlər də, çıxış edənlər də onu yaxşı təhlil etdilər. Və bir onu deyərəm ki Vüqar Əhməd yaxşı qələmi olan, xalq arasında,ədəbiyyatçılar arasında,elm aləmində dəsti-xətti olan, tanınan, təfəkkürü olan bir alim kimi bizə məlumdur. Və ona görə də onun dissertasiyaının Ali Attestasiya Komissiyasının doktorluq dissertasiyası qarşısında qoyduğu bütün tələblərə cavab verdiyini mən də görürəm. Onun məqalələrinin burada adı da çəkildi. Onun monoqrafiyaları buna əsas verir, deyək ki, Vüqar Əhməd filologiya elmləri doktoru adına layiqdir və biz buna hamımız səs verəcəyik.

Akademik Vasim Məmmədəliyev:

Hörmətli sədr, hörmətli Dissertasiya Şurasının üzvləri, hörmətli xanımlar və cənablar, bu gün müdafiəyə təqdim olunan bu dissertasiya işi doğrudan da son dövrlərin gözəl tədqiqat əsərlərindən biridir. Və mən çox sevinirəm ki, bizim həm ədəbi ictimaiyyətimizə, həm elmi ictimaiyyətimizə, incəsənət aləminə çox gözəl tanış olan Vüqar Əhməd, nəhayət özünün çoxdan layiq olduğu bu elmi dərəcəni bu gün çox şərəflə, çox ciddi Dissertasiya Şurasının üzvləri qarşısında müdafiə eləyib almaq üzrədir. Vüqar Əhmədin yaradıcılığı bizə məlumdur. Mən onu çoxdan tanıyıram. Və çox sevinirəm ki, bu gün onun müdafiəsində iştirak etmək mənə qismət oldu. Mənim çox başım

qarışıq idi, bu gün, amma özümə borc bildim ki, gəlim burada iştirak edim. Vüqar Əhməd haqqında, əsəri haqqında öz fikrimi deyim. Bu yaxınlarda elə bir yerdə idik.Vüqar Əhmədlə bir yerdə idik, çox qəribədi həyat. Muğam haqqında bir söhbətimiz var idi. Vüqar Əhmədlə canlı veriliş gedirdi, çıxdıq getdik evə, Hacı Tələt də mənimlə idi. Evə çatdım, mənə bir nəfər zəng elədi ki, Almaniydan bir nəfər gəlib, almandır özü. Seyid Cəfər Pişəvəri haqqında bir əsər istəyir . Mən dedim ki, qismətə bax, taleyin qismətinə bax, Vüqar Əhmədlə mən indi ayrılmışam. Tez götürdüm Vüqargilə zəng elədim ki, həmin adamın əl telefonunu aldım və zəng elədim, dedim ki, Azərbaycanda bu sahənin ən görkəmli tədqiqatçısı Vüqar Əhməddir, xoşbəxtlikdən biz bir yarım saat bundan əvvəl bir yerdə idik. Və Vüqar Əhmədə onun telefonunu verdim və o çox sonra mənə zəng edib təşəkkür etdi ki, Seyid Cəfər Pişəvəri haqqında bu gözəl tədqiqat əsərini mən aldım. Yəni demək istəyirəm ki, hələ mənə rəhmətlik Əli Minayəli Almaniyadan zəng eləmişdi ki, əgər mümkündürsə, Vüqar Əhmədin o əsərindən bir neçə nüsxə Almaniyaya göndərin. Yəni mən bunun canlı şahidiyəm. Və mən Vüqar Əhmədə zəng elədim ki, Əli Minayəli bizim böyük sənətkarımız, böyük xəttatımız, gözəl alimimiz xahiş eləyib və bir neçə nüsxə də Əli Minayəlinin xahişi ilə göndərdik. Yəni mən onu demək istəyirəm ki, mən canlı şahidiyəm ki, Avropada, xüsusilə Almaniyada Seyid Cəfər Pişəvəriyə nə cür böyük maraq və o sahənin ən gözəl tədqiqatçısı Vüqar Əhmədin əsərlərinə böyük bir maraq var. Bax, bunu elə qeyd etmək istəyirəm ki, əsərin bəzən biz praktik əhəmiyyətindən danışırıq, bu əsərin əhəmiyyəti elə Almaniyada ona qarşı göstərilən böyük maraqdan məlumdur və bir şeyə də çox sevinirəm ki, Seyid Cəfər Pişəvərini biz əsasən böyük bir siyasi xadim kimi tanımışıq. Güney Azərbaycan Milli Azadlıq Hərəkatının rəhbəri, Azərbaycan Hökümətinin Baş naziri, böyük siyasi xadim. Vüqar Əhmədin bu dissertasiyası isə Seyid Cəfər Pişəvərini bizim gözümüz qarşısında tam şəkildə

canlandırır. Yəni onu böyük bir siyasi xadim kimi, ictimai xadim kimi, publisist kimi, bir gözəl ədəbi əsərlər müəllifi kimi onun poeziyasından burada söhbət gedir, onun ədəbi- nəsr əsərlərindən söhbət gedir, publisistikasından söhbət gedir, tənqidi məqalələrindən söhbət gedir. Yəni bir tam şəkildə biz Seyid Cəfər Pişəvəri haqqında təsəvvürü Vüqar Əhmədin bu vaxta qədər yazdığı sanballı monoqrafiyalardan və bu gün də müdafiəyə təqdim etdiyi dissertasiyadan əldə eləmişik. Əsər mənə elə gəlir ki, çox dəyərli əsərdir, mən yenə deyirəm Seyid Cəfər haqqında baxmayaraq ki, vaxtilə bizim M.İbrahimov, H.Məmmədzadə, M.Çezmazər və Tağı Musəvi kimi (Allah ona da rəhmət eləsin) çox adamlar yazıb. Amma fundamental şəkildə bizim elmimizə Seyid Cəfər Pişəvərini bütöv kamil bir şəxsiyyət kimi tanıdan, məhz Vüqar Əhmədin bu tədqiqatı və Vüqar Əhmədin Seyid Cəfər Pişəvəri haqqında yazdığı yazılardır. Ona görə məncə, Ziya paşa deyir ki: "Ayinəsi işdir kişinin lafə baxılmaz, mərdin görünür lütfeyi-əqli əsərində". Bu kişi də yazıb qoyub, təqdir də eyləyib, müdafiəsini də eyləyib. Mən də ona uğurlar arzu edirəm, bir şeyi də demək istəyirəm ki, Vüqar Əhmədin fəaliyyəti təkcə onu ədəbi və elmi fəaliyyəti ilə bitmir, Vüqar həm də sözün əsl mənasında bizim münəvvər ziyalılardan biridir, Azərbaycan musiqisinin keşiyində duran bizim gözəl ziyalılarımızdan biridir. Bilirsiniz, bu saat o zövqlərin bayağılaşdığı, meyxana səsası altında rəqs olunduğu,mənəviyyatı aşılandığı bir dövrdə insanların zövqlərinin korlandığı və çox adamın da o səhnədə gözəl sənət, səhnə mədəniyyəti göstərmək əvəzinə erotik bədən hərəkətləri göstərdiyi bir zamanda və xalqın çox kütləsinin də bunu sənət əsəri kimi qəbul elədiyi bir zamanda mən sevinirəm ki, Vüqar Əhməd kimi bizim bir ziyalımız Azərbaycan musiqisinin keşiyində durur, Azərbaycan musiqisinin saflığı, təmizliyi uğrunda mübarizə aparan bizim gözəl musiqi xadimlərindən də biridir və bu nöqteyi-nəzərdən də mən ona təşəkkür edirəm. Təkcə onun ədəbi fəaliyyəti elmi fəaliyyəti ilə deyil,

Azərbaycan musiqisi, Azərbaycan mədəniyyəti sahəsində göstərdiyi fəaliyyəti də mən yüksək təqdir edib onun bu günkü dövrümüzün, yenə deyirəm, gözəl ziyalılarımızdan biri hesab edirəm. Və belə hesab edirəm ki, Vüqar Əhmədin şəxsində bu gün Azərbaycan elminə çox kamil, yetişmiş bir alim gəlir, mən də təbrik edirəm və inanıram ki, inşallah bu günkü Dissertasiya Şurası ona ürəkdən səs verəcək. Və çox tezliklə də o, Ali Attestasiya Komissiyası tərəfindən öz təsdiqini alacaq.

Sabir Nəbioğlu:

Hörmətli sədr, hörmətli Dissertasiya Şurasının üzvləri və mən bir də bü gün Vüqar Əhmədin dissertasiyasının müdafiəsinə gəlmiş bizim gözəl musiqi xadimlərinə müraciət edir, Baba müəllimi, Ramiz müəllimi və b. burada görürəm. Mən fərəhlənirəm ki, onların da ədəbiyyat aləminə nə qədər gözəl münasibətləri var. Mən sözümü qısa eləmək üçün bir neçə məsələyə toxunmaq istəyirəm. Əvvala, mən birinci orasını qeyd eləyim ki, bu günləri bu əsəri müdafiə eləyən Vüqar Əhmədlinin götürdüyü mövzuya həddən artıq məhəbbət hiss eləmişəm mən. Nə üçün? Çünki Vüqar müəllimin ilk bu mövzuya başladığı dövrdən mən səhv eləmirəmsə ən çox əlaqəsi olan bizim Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsi olub. İnanın ki, bəlkə də həftə demək çox olardı, ayın bu başında da, o başında da Vüqar müəllim bizim şöbəyə gəlib, tək Pişəvəri haqqında yox, ümumiyyətlə Cənubi Azərbaycan ədəbiyyatı haqqında bir sıra məsələləri, düşündüyü məsələləri oturmuşuq müzakirə eləmişik və mən hiss eləmişəm ki, bu Vüqar müəllimdə Cənub mövzusuna nə qədər böyük məhəbbət var. İkincisi, bu məhəbbətin əlamətlərindən birisi bu idi ki, Vüqar müəllim İrana getmişdi, oradan qayıdandan sonra mənə dedi ki, Sabir müəllim, vaxtınız varsa radio tərəfə gələsiniz. Dedim niyə yoxdu ki . Getdim, gördüm o orada təqribən iki torba ədəbiyyat hazırlayıb. İrana gedəndə oradan gətirmişdi və mənə müraciət elədi ki, Sabir müəllim, hansı lazım olarsa xahiş

edirəm bunlardan seçin götürün siz də istifadə eləyin. Üçüncüsü, bir şeyi qeyd etmək istəyirəm ki, son dövr Pişəvəri ilə əlaqələr bizim Respublikada bəlkə də arzu olunmayan bir dalğa keçdi. Bunu açmağa gərək yoxdu, çünki burada elm adamları əyləşiblər ki, bu məsləhəti biz onlardan almalıyıq. Nə qədər gözəl bir vaxtına düşdü ki, Vüqar qardaşımız dissertasiya müdafiəsini bu dalğanın rəngini, mahiyyətini, istiqamətini dəyişmək üçün mən bunu böyük əlamət hesab edirəm. Pişəvəri, Cənub mövzusu yenə də qüvvədə olan mövzudur, onu heç bir amil nəzərdən qaçıra bilməz və bizim Vüqar müəllimin də bu sahədəki xidmətlərini mən xüsusi qeyd etmək istəyirəm. Başqa şeylərə toxunmayım, bir-iki məsələyə, mən Pişəvərinin xarakterini açmaq üçün sizin yadınıza salmaq istəyirəm. Yəqin ki, Kamal müəllim siz də bilirsiniz, 1946-cı ildə Azərbaycandakı hərəkatı boğmaq üçün birinci növbədə Milli Hökumətə müraciət eləmişdilər. O Milli Hökümətin iclaslarının birisində demişdilər, orada yuxarıdan da gəlib məsləhət, bu tərəfdən də gəlib. Gərək biz könüllü surətdə təslim olaq. Pişəvəri orada qələmi yerinə qoyub ki, mənim əgər cənazəmin üstündən keçsəniz, mən bunu təsdiq edərəm. Elə oradan da Mərkəzi Komitənin rəhbərliyindən imtina etdi. Pişəvəri bütün varlığı ilə ona bağlı olduğu üçün bu işə qol qoymadı, buna razılıq vermədi. Pişəvərinin mahiyyəti budur. İkinci bir hal, hörmətli Xoşginabini yəqin ki, tanıyırsınız. Bizim böyük yazıçılarımızdan birisidir. Biz indi burada danışırıq ki, Pişəvərinin bəlkə də imkanları az olub yazmağa. Pişəvəri hətta Milli Hökümətin rəhbəri olduğu zamanlar, Mərkəzi Komitənin katibi olduğu zamanlar qələmi yerə qoymayıb. Xoşginabi yazır ki,mən hər gün redaksiyda olurdum. Rəhmətlik Pişəvəri gedib saat 5-ə qədər işləyirdi Nazirlər Sovetində, beşdən sonra gəlirdi redaksiyaya . Onda bizim redaksiyamız balaca bir yerdə yerləşirdi. Oraya gələn kimi mənim balaca bir mizim var idi. Deyirdi Həmzə, bir çay qoy, mən də 5 dəqiqə dincimi alım. 10 dəqiqə orada dincini alırdı, ondan sonra dururdu növbəti nömrənin baş

məqaləsini mənə diktə edirdi. Bax, bu qədər qabilliyətli olan adam olub. Pişəvərinin xarakterində ilk baxışda bizə elə gəlir ki, bəlkə də deyək, humanizm həddindən artıq böyük olub. Milli Hökümət qurulandan sonra Təbrizdə bir Qarnıyırtıq Kazım adlı birisi var idi. Bu qarnıyıtrıq Kazım Təbrizin lotusu idi, hansı dövlətliyə yazsa idi ki, mənə sabah 2 min tümən gətirməsən səni öldürəcəyik. Bir neçə dəfə də belə cinayət törətmişdi. Bunu Pişəvəriyə xəbər verəndən sonra deyir onu tutun. Və ilk dəfə Azərbaycan Milli Hökümətində mərhum Firudin İbrahiminin ölüm cəzası kəsdiyi adam o olub. Və beləliklə də o bütün Azərbaycanı böyük bir talandan xilas edir. Sonra sizə mən bir tarixi faktı yada salmaq istəyirəm. Milli Hökümət qurulandan sonra siz bilirsiniz ki, o zamana qədər bizim teatrımız Sovet-İran mədəni rabitə cəmiyyəti nəzdində fəaliyyət göstərən bir teatr idi. Elə ki, Milli Hökümət yarandı məsələ qalxdı ki, bunu Azərbaycan Dövlət Dram Teatrı eləmək lazımdı. O yaranma günü ərəfəsində, rəhmətlik Pişəvəri və M.İbrahimov, mən də o zaman teatrda var idim. Gəldilər teatra. Yığdılar bütün aktyorları, rəhmətlik Səməd Səbaili, o da bizim rejissorumuz idi. Söhbət elədik. Orada onun ilk məsləhəti teatra bu oldu. Dedi ki, bu teatr açılacaq, sizə məsləhətim ondan ibarətdir ki, orada ilk dəfə C.Məmmədquluzadənin "Anamın kitabı" əsərini tamaşaya qoyasınız. Bu doğrudan da belə oldu, "Anamın kitabı" əsərini tamaşaya qoydular və doğrudan da böyük uğur qazandı. Mən demək istəyirəm ki, Pişəvəri mədəniyyətə, teatra, ədəbiyyata həddindən artıq bağlı bir adam olub. Mən burada Pişəvərinin bir məqaləsindən bir cümləni icazəniz ilə oxumaq istəyirəm. Pişəvəri axı tək siyasi xadim deyildi, tək publisist deyildi, gözəl ədəbiyyatşünas olub. Burada gətirdiyim sitat onun ədəbiyyatşünaslıq qabiliyyətini göstərmək üçün gözəl bir misal ola bilər. Pişəvəri Nizaminin yaradıcılığı haqqında yazırdı: "Xəmsənin təsvir etdiyi dağlar, dərələr, çaylar, çəmənlər və Nizaminin şeirini təzhil edən çiçəklərin hamısı gözəl Azərbaycan torpağının məhsuludur".

Axı, bilirsiniz də Nizami haqqında yenə söz-söhbət gedir, yenə bu söz-söhbət davam edir. İran şairidir, farsca yazıb, belə bir vaxtda Pişəvərinin belə bir iddia irəli sürməsi, Kamal müəllim, mənə elə gəlir ki, bizim üçün mənalı bir şeydir. Vüqar müəllimin o cəhətini mən də xüsusi qeyd eləmək istəyirəm ki, əsgərə atıcılığı ona görə öyrətmirlər ki, getsin səngərdə qoysun tüfəngi başının altına və yatsın, onda faydalı olur ki, əsgər öyrəndiyi o silahdan istifadə eləyə bilsin. Mənə elə gəlir, Vasim müəllim burada çox gözəl cəhətdir ki, Vüqarın gözəlliyi dissertasiyanın fonunda doğrudan da müasir bir münəvvər kimi yetişməsindədir. Sonra bayaqları burada bir söhbət oldu, mən nəysə istəyərdim ona münasibətimi bildirim. Dedilər ki, guya Pişəvəriyə Vüqarda müəyyən qədər məftunluq, aludəçilik var. Bu aludəçilik hər sənətkara qarşı yaranmır. O sənətkar sənətkar olmalıdır ki, ona yaransın . Sədi nə qədər gözəl deyir: "Dostlarım mənə tənə eləyir ki, mən nə üçün sənə bu qədər vurulmuşam, səni bu qədər sevirəm, əvvəl səndən soruşmaq lazımdır ki, xudavənd-aləm səni nə qədər gözəl yaradıb". Ona görə də mənə belə gəlir ki, tək bizim Vüqar qardaşımız yox, hər hansı bir tədqiqatçı da yenə o mövzuya qayıtsa Pişəvəriyə böyük məhəbbət bəsləməyə bilməz. Icazə verin bizim burada Güneydən də yoldaşlarımız, xanımlarımız, qızlarımız iştirak edir. Onların adından da biz Vüqar qardaşı təbrik edək və elmi müdafiə şurasından xahiş eləyək ki, burada irəli sürülən ona elmlər doktoru verilməsi təklifinə bizim şöbənin də tərəfdar olduğunu nəzərə alsınlar. Səni təbrik edirəm.

Vilayət Əliyev:

Hörmətli Kamal müəllim, sizə təşəkkür edirəm ki, bu gün Vüqarın doktorluq dissertasiyasının bu təntənəli mərasimində, mənə də söz verdiniz və qonaq kimi bir-iki kəlimə mən də demək istəyirəm. Son iki ayda bu zal Azərbaycan Televiziyasının və Radiosunun iki dəyərli nümayəndəsini dinləməli oldu. Təxminən bir ay əvvəl, Qulu Məhərrəmlinin "Azərbay-

can Televiziya dili" əsərini dinlədim və burada iştirak eləyən qonaqlar, eləcə də sovet üzvləri bilirlər ki, mütəxəssisin öz sahəsi ilə bağlı işlənməmiş bir sahəni işləməsi nə deməkdir. Ikincisi bu gün Vüqar Əhmədin doktorluq dissertasiyasının müzakirəsi gedir və çox yüksək səviyyədə də dinləmələr də göstərir ki, həqiqətən əsər professionalcasına yazılıb və Vüqarın əsərinin dəyərini mən nədə görürəm? Hər bir əsərin birinci növbədə mövzusunun aktuallığını hər bir adam araşdırır. Mən şəxsən bir ziyalı kimi onda görürəm ki, Pişəvəri Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində, Azərbaycanın siyasi həyatında əvəzi olmayan, qeyri-adi bir şəxsiyyət olubdur. Aktuallığı haqqında, onun elmi nəticələri haqqında opponentlərin, çıxış edən yoldaşların çox dəyərli fikirləri oldu. Mən bunların hamısını alqışlayıram. Bu əsəri ilk oxuyanlardan biri də mən olmuşam. Yəni avtorefarat çıxan kimi birinci növbədə müəyyən bir təşkilata göndərilir ki, məsləhət bilirsiniz ya yox. O cümlədən əsər Azərbaycan Dövlət Pedaqoji Universitetinə təqdim olunmuş və o avtorefaratın bizim profilə uyğun yazılıb-yazılmadığını göstərək, mən orada elmi işlər üzrə prorektor işləyirəm. Təbii ki, bunu nəzərdən keçirəndən sonra biz təqdim edirik lazım olan kafedralarda müzakirə olunur. Və mən avtorefaratla tanışam, onun çıxan məqalələrini izləyirəm, onun ictimai mühitdəki, həyatdakı fəaliyyətini hamı kimi mən də izləyirəm və bir də onu deyim ki, Vüqar müəllim mənim üçün çox doğma bir insandır. Nə qohumlumuğuz var, nə bir şey. Biz hər ikimiz təmiz azərbaycanlıyıq. Vüqar mənim tələbəm olubdur. Özü də ən yaxşı tələbələrimizdən olubdur. Öz fəaliyyəti ilə Universitetdə seçilib. Onun namizədliyini də izləmişəm, iştirak eləmişəm, onun digər uğurlarında da sevinmişəm bugünkü doktorluq müdafiəsində də iştirak edirəm. Vüqarın üçüncü böyüklüyü də ondadır ki, Vüqar cəmiyyətdə artıq özünü təsdiq edən bir insandır. Yəni Vüqar haqqında 100 adamdan soruşsan ki, Vüqar Əhmədi tanıyırsan, bəlkə də təktükdən başqa 99-u deyəcək ki, tanıyıram. Onlardan kimə desən

ki, nə fikrin var, onun 99-u deyəcək ki, Vüqar mütəxəssisdi, Vüqar Azərbaycan musiqisini, Azərbaycan ədəbiyyatını, Azərbaycan mədəniyyətini təbliğ eləmək ilə məşğuldur. Mən sizi, Vüqarı və Vüqarın bu işində əziyyət çəkən bütün insanları təbrik edirəm. Mən əminəm ki, Ali Attestasiya Komissiyası bu əsərin bu sovetin verdiyi qərarı yüksək səviyyədə qiymətləndirəcək, Vüqar formal da olsa o doktorluq dissertasiyasını alacaq. Azərbaycanda elm aləmində fəaliyyət göstərən ən gözəl oğlanlardan biri olacaq. Səni təbrik edirəm! Sənin kollektivinə təşəkkür edirəm.

Ramiz Quliyev:

Hörmətli ağsaqqalımız Kamal müəllim, çox sağ olun mənə söz verdiyinizə görə. Hörmətli müdafiə şurasının üzvləri, hörmətli alimlər, hörmətli həmkarlar, əziz dostlar. Mən həqiqətən çox xoşbəxtəm ki, son bir ay ərzində iki gözəl müdafiədə iştirak etdim. Bundan əvvəl bir müdafiə doktorluq müdafiəsi oldu, hörmətli Nərgiz xanım Paşayevanın müdafiəsi idi. Və bu gün də bizim dostumuz, hörmətli Vüqar Əhmədin müdafiəsidir. Bu məni sevindirir. Və mən istəyərdim ki, niyə çıxdım buraya, mən özüm öz arzumla çıxdım. Orada çıxışçılar arasında adım yazılmamışdı, amma mən doğrudan bu müdafiədən ləzzət alıb, belə bir biixtiyari zövq aldım, çünki bu təkcə Vüqar Əhmədin nailiyyəti deyil, mən belə hesab edirəm ki, buraya gələn nə qədər xalq artisti var nə qədər əməkdar artist var, nə qədər sənətkarlar var, bunların hamısının hərəsinin bir kaprizi var, hərəsinin bir nazı var bunların hamısının, kaprizini, nazını çəkənlərdən biri də Vüqar Əhməddir. Mən Vüqar müəllimə həm dost kimi, həm də bir qeyri-rəsmi opponent kimi çıxdım bura. Niyə opponent kimi? Çünki mən nəyi demək istəyərdim: Vüqar müəllim 1987-ci ildən televiziyada işləyir, artıq bir-iki ildən sonra 20 il olacaq. Baxmayaraq ki, Vüqar müəllim bu illər müddətində bir dəfə də olsun ki, məni öz verilişinə dəvət etməyib. Amma mən bu müdafiəyə dəvət alan-

da sevindim. Bax, əsl səmimi söz, əsl səmimi münasibət odur ki, burada heç bir təmənna olmasın. Yəni Vüqarın mənim üçün başqa bir sənətimdə haqqı, təmənnası yoxdur. Bir dost kimi, xalqımızın bu günləri mədəni-ədəbi, özünün dediyi kimi, ədəbi mühitində, elmdə olan haqqı var. O haqqı demək üçün mən özümə xoş bildim buraya çıxmağı. Bayaq yoldaşlar, böyük alimlər bu sahənin mütəxəssisləri çox gözəl dedilər, Qəzənfər müəllim hörmətli, Almaz xanım hörmətli, hörmətli Xeyrulla müəllim və digərləri. Çox gözəl çıxışlar oldu. Bu dissertasiyanın müsbət tərəflərini bildirdilər. Və həqiqətən də onlar qat-qat yaxşı bilirlər bu elmi işin disertavelli olmasını və burada o müəyyən qüsurların qeydlərin deyilməsini də özü də bir ləzzət elədi. Çünki böyük işdə, gözəl elmi işdə həmişə müəyyən qüsurlar olur, o müəyyən qüsurlar olmasa o işin böyüklüyü ola bilməz. Və balaca da olsa qüsurları deyəndə biz orada sizin o cavablarınız bizi ruhlandırdı və mən ruhlandım bura çıxmağa ki, Vüqar Əhməd televiziyada ürəkli olduğu kimi və bu gün ədəbiyyat elmində də ürəklidir, güclüdür, cəsarətlidir, bu məni sevindirir. Mən bizim bu hamı üçün doğrudan bu gündə ədəbiyyatda, tarixdə, elmdə, siyasətdə böyük bir sima olan, parlaq sima olan Pişəvəri haqqında az-çox bilirdik. Amma bu qədər təəssüratıyla müfəssəl bilmirdik. Mən Berlində olanda qastrol səfərində Pişəvərinin nəvəsi, diş həkimi var. O mənim dişimi müalicə edəndə söhbət elədik. Onun o böyük vətənpərvərliyindən, onun keçdiyi məşəqqətli yoldan, Azərbaycançılıq ideyası ilə yaşayan böyük bir şəxsiyyətin bütün keçmişindən, varlığından söhbət elədi və mən çox fəxr duydum ki, elə bir gün olsun ki, onun həyatı, onun yaradıcılığı, onun fəaliyyəti böyük bir dissertasiya mövzusu olsun. Bu günləri bizi o arzumuza çatdırdı Vüqar müəllim. Vüqar müəllim bir çox sahələrin istedadını özündə birləşdirir. Mən bayaqları, mənim sənət dostum, bizim hörmətli bəstəkarımız Ramiz Mirişli dedi, biz də səs veririk, bir nəfər orada, yanında əyləşən Səadət xanım dedi ki, yox biz səs vermirik . Amma mən onu

deyim ki, biz çox üzr istəyirik, bu gün səs vermirik. Amma biz Vüqar Əhmədə bundan qabaq səs vermişik redaktor seçiləndə. Və Azərbaycan televiziyasında Ramiz Mirişlinin rəhbərliyi ilə biz çoxdan səs vermişik. Mən əvvəlcədən dedim ki, 20 ilə qədər qalan, olan bir müddətdə bir dəfə olsun Vüqar Əhməd məni yada salmayıb. Amma mən buna görə ona minnətdaram. Mən bu nailiyyətə, bu müdafiəyə bugünkü Vüqar Əhmədin bizim dostumuz, əzizimiz Vüqar Əhmədin uğurlu müdafiəsinə sevinirəm və inaniram ki, bu zəhmət yerdə qalmayacaq. Bu Ali Attestasiya Komissiyası – bu gün burada əyləşən böyük alimlərin, əsl mütəxəssislərin müsbət rəylərini nəzərə alacaqlar və bu doktorluq müdafiəsi işi yüksək qiymətləndiriləcək, siz o təsdiqi tapacaqsınız. Vüqar müəllim sizə şairliyinizdə, redaktorluq işinizdə olduğu kimi alimliyinizdə də uğurlar arzulayıram. Ümumiyyətlə siz xeyir-şər adamısınız. Şər uzaq olsun. Həmişə xeyir-şərdə olan adam yaxşı adam olur. O xeyir-şəri və bütün o həyati fəaliyyətinizi, indiyə kimi gördüyünüz bütün işləri mən təqdir edirəm və bundan sonrakı işlərinizdə böyük müvəffəqiyyətlər arzu edirəm. Sizə möhkəm cansağlığı və daha-daha böyük uğurlar arzulayıram.

Kamal Talıbzadə: Bilirsiniz, o qədər danışmaq istəyən var ki, amma ömrüm belə məclislərdə keçib, amma bu gün bu sözlər elmə o qədər yaraşmır, bəlkə belə təntənəli müdafiə mən görməmişəm. İndi görürəm bütün məclisdə kimi durğuzsaq danışmağa, danışar. Elə indi icazə verin bir nəfərə də söz verək, ondan sonra biz məclisimizi yekunlaşdıraq.

Baba Mahmudoğlu:

Burada Səməd Vurğun çox gözəl demişdir: Ballı pətəklərə bənzər beynimiz, içində boş qalmış bir çox şanılar. Çox dolu pətəklər burada çıxış elədi. Mənim çox xoşuma gəldi. Böyük alimlərin qarşısında çıxış etmək özü çox böyük cəsarət tələb edir. Çünki böyük yunan filosofu Aristotel demişdi ki:

"Dünyanın bir müvəffəqiyyət sarayı var, sarayın min otağı, bir qapısı, bir qıfılı, bir açarı var, açarın üstündə dörd söz yazılıb: Ağıl, hövsələ, cəsarət və məhəbbət". Mən sözümü xəstə olsam da vokalnan demək istəyirəm. Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu – mən söz dəyirmanının kasıb bir dəyirmançıcı kimi bu dostumun məclisinə gəlmişəm. Özü də özünə dedim ki, mən Səməd Vurğun demişkən: İnqilab maşinist, tarixsə qatar, tarixi inqilab çəkib aparar. Mənə söz verməsələr də inqilab eləyəcəyəm. Elə doğrudan da inqilabla gəldim buraya, mənim xoşum gəlir inqilabdan, anama da demişdim Allah rəhmət eləsin dedim: Yaxşı ki, sən məni dünyaya gətirdin, yoxsa bəşər karvanı Baba Mahmudoğlu qədər kiçilərdi. dedim ay Ana, sənə inqilab eləyirəm bir az orta savadlı qadın idi. Amma intusiyası çox güclü idi. Dedim ki, sənə inqilab edirəm. Dedi nə barədə? Dedim ki gərək məni qız doğardın, oğlan doğdun, məni zülmə saldın. Dedi bala başın batsın səni qız doğsam heç kim almayacaqdı, dedim nətər oldu iki qızını sırıya bilirsən, məni sırıya bilmirsən. Yəni mən bu barədə bir az orijinal adamam. Mən sözümü Nizaminin "İsgəndərnamə"sində yazdığı bir fikirlə başlamaq istəyirəm. Deyir "ondan od almışdır bu bəşər tamam, o tamdır qalanlar nə var natamam". Onun yaratdığı biz zümrələrin hamımız natamamıq. O tamlıq zirvəsinə yüksəlmək Allah-təalanın bəşər zümrəsinə elə bir istedad verməyib. Mən Akademiyanın çox gözəl iki məclisində - bu ikinci məclisdi ki, çıxış edirəm bir dəfə simpoziumda çıxış eləmişəm, bir kimyaçı alim var, idi mənim dostum kimyəvi düsturla Allahın varlığını sübut eləmək ideyasına gəlmişdi. Mən o simpoziumda iştirak elədim və qısa fikrimi dedim. Sənin haqqında deyilən bu xoş sözlərdən çox fərəhləndim. O xoş sözləri deyən insanların mənəviyyatnda mən bir bütövlük gördüm. Bəşəri deyirlər gözəllik xilas edəcək. mən o gözəlliyin içərisinə məhəbbət və qeyrəti də əlavə edərdim. Məgər rəhmətlik kişi sizin haqqında yazdığınız dissertasiyada onu məcbur eləyənmi var idi ki, bu inqilaba qoşulsun bu boyda

əsərlər yazsın, bu boyda fikirlər həll eləsin. Deməli, onun özünün içərisindəki fikrin, hissin, qeyrətin diktəsi idi bu. İnsan içinin diktəsi ilə yüksəklərə qalxır, şəxsiyyət zirvəsinə yüksəlir. Mən həmişə deyirəm insanın intizamıda onun daxili mədəniyyət strukturunun yuxarıda dayanan müstəvisidir. Mən sizi tanış olandan bəri çox mədəni bir insan kimi tanıyıram, sözünə qiymət verən bir insan kimi tanıyıram böyüklə-kiçiyin yerini bilən bir insan kimi tanıyıram və son zamanlar mən hiss etdim ki, çox gözəl şeirlər də yazırsınız. Həm də şairsiniz siz. Deyir ki, dəli uzaqdan gələndə bilsəydi ki, başında palıd ağacı var, bilərdi ki, bu dəlidir. Şairin başında palıd ağacı olmur ki, şair də sizin kimi insandır. Mən sizin şeiri də sevirəm, çünki məni şeir də musiqidə və gözəlliyi duymaqda qəti aldatmaq olmaz. Sizdə gözəl insanlıq, gözəl şeiriyyət, gözəl fəhm, gözəl sözün danışıq tərzindəki zəncirvari düzülüşü var, bunlara mən diqqətlə fikir verirəm. Mən güman edirəm ki, möhtərəm ağsaqqalımız, Azərbaycan elminin karvanına Vüqar Əhməd adlı bir insanın daxil olması bizim Azərbaycan xalqının elminə çox böyük xeyr gətirəcək. Mən sizə müvəffəqiyyətlər diləyirəm.

Kamal Talıbzadə: Doğrusu, çox çətindir belə məclisi yekunlaşdırmaq. Bizim bugünkü məclisimiz elə ahəng alır ki, bu məclisi mən inandırıram sizi ki, bir saatda bu təntənə ilə, bu dəbdəbə ilə, bu ahənglə davam etdirmək olar. Amma bir işi başlayanda gərək qutarmaq barədə də düşünəsən. Çünki əsl təntənəsi o biri təntənəsi qurtarandan sonra olacaq. Ona da enerjini saxlamaq lazımdır, enerjini yığmaq lazımdır. Çox zaman bizim belə məclislərimiz bu cür qurtarmır. Bu ahənglə qurtarmır. Bizim elə məclislərimiz olur ki, orada bir az təhlil, tənqid bir az geniş olur, geniş maştabda olur. Ancaq təntənəli bir şəkil səviyyəsinə qalxmır, ancaq bugünkü məclisimizdə mən o təntənəni hiss elədim. O təntənənin də səbəbi odur ki, mövzü elə mövzudur ki, bu mövzuya girişən şəxsiyyət, Vüqar

Əhməd elə şəxsiyyətdir ki, onun yaradıcılığında elm, musiqi, insan mənəviyyatı bütün sahələri əhatə edərək vəhdət təşkil edir. Son dərəcə geniş mövzudur ki, ona görə mən dedim ki bizim bugünkü məclisimiz həm də təntənəli keçdi. Əlbəttə, mən yenidən çıxışlara təhlil vermək fikrində deyiləm, amma o fikirimi davam etdirsəydim çox uzanardı. Mən istəyərdim ki, biz son sözü bizim müdafiəçimizə verək, öz cavab sözünü desin.

Vüqar Əhməd: Hörmətli sədr, hörmətli şura üzvləri. Bütün söylənilən fikirlərə görə bayaq da qeyd etdiyim kimi, hörmətli opponentlərimə, eləcə də Dissertasiya Şurasının üzvlərinə dəyərli fikirlərinə görə təşəkkür edirəm. Ümumiyyətlə, burada iştirak edən bütün sənət adamlarına, qonaqlara, qohumlara, dostlara hamıya təşəkkür edirəm ki, öz vaxtlarını ayırıblar. Eyni zamanda mən Teymur müəllimə təşəkkür edirəm, özü yoxdur burada mənim elmi məsləhətçim. Və burada mənim müəllimlərim, üç müəllimim var - Xeyrulla Məmmədov, Vilayət müəllim, Himalay müəllim və bütün Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə. Ümumiyyətlə, Ədəbiyyat İnistitutunun bütün əməkdaşları mənə doğma olub, hamı kömək edib. Sabir müəllim mənim rəhbərim olmasa da mən bütün mövzunu işləyib qutarana qədər, yəni cənubşünas bir alim kimi ondan həmişə məsləhət almışam. Yəni həqiqəti etiraf edirəm. Mən istəyərdim ki, Kamal müəllim, Novruz Feyzullayev Pişəvərinin silahdaşı olub. yəni mən onu niyə buraya dəvət eləmişəm? Pişəvərinin canlı şahidi olub - Novruz Feyzullayev həmin dövrdə. 1993-cü ildə mən gəldim Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə. Yəni bu mövzu ilə müraciət elədim. Teymur müəllim mənə bu mövzunu təklif elədi və Tehrana göndərdi ki, get bir Cavad Heyətlə məsləhətləş. əfsus ki Cavad Heyət indi Bakıdadır. biz onu tapa bilmədik, telefonu cavab vermədi. Məndən xahiş eləmişdi onu dəvət edim. Və Cavad Heyətin məktəbi var Tehranda, Fələstini-Cerobində. Birdən Cavad Heyət ayağa qalxdı və başladı ağlamağa. Mən həqiqəti danışıram və özü də

indi sağ-salamatdır. Sonra baş əyəndən sonra dedi ki, biz cənubluların qeyrəti çatmadı, siz şimallılar bu işi gördünüz. Məni bağrına basdı və çox təşəkkür etdi ki, sən bu işi başla. 1993-cü ildən başladım. On bir il Pişəvəri Qəsri-Qacarda yatdı, on bir ildir ki, mən də bu mövzu ilə yatıram. Hamınıza təşəkür edirəm, Sağ olun!

Kamal Talıbzadə: Gizli səsvermə komissiyasının tərkibini mən elan etmişəm: Bəhlul Abdullayev, İsrafil Abbasov, Zaman Əsgərli. Xahiş edirəm gizli səsvermə komissiyasının işinə başlayasınız.

Bəhlul Abdullayev: 19 nəfər şura üzvündən bugünkü tədbirdə 18 nəfəri iştirak edib. Qutuya 18 bülleten salınıbdır. Qutudan çıxarılan bülletenlərin 18-də Vüqar Mıkayıl oğlu Əhmədin lehinə səs veriblər. Korlanmış bülleten yoxdur və ona filologiya elmləri doktoru alimlik dərəcəsi verilməsi nəzarət planında səs verilmişdir.

Xahiş edirəm protokolu açıq səsvermə ilə əsaslandırın. Qərar lahiyəsi ümumən qəbul olunub.

Filologiya elmləri doktoru, professor Vüqar Əhmədin «M.C. Pişəvəri: həyatı, mühiti və yaradıcılığı» (monoqrafiya), Bakı, «Göytürk» nəşriyyatı, 1998-ci ildə çap olunub.

Monoqrafiyaya "Ön söz" yazan cənubşünas alim Sabir Nəbioğlu əsəri belə qiymətləndirir: "İstedadlı tədqiqatçı Vüqar Əhməd son illərin məlum hadisələrindən sonra M.C.Pişəvəri, onun ayıq, sağlam və mübariz şüurunun məhsulu olan publisistikası, ədəbi yaradıcılığı, 21 Azər hərəkatı, Milli Hökumət barədə bəzilərinin dillərində-dodaqlarında gəzib-dolaşan qeyri-səmimi mülahizələrə sinə gərərək belə bir insanın həyatı, yaradıcılığı məsələlərini elmi əsər üçün mövzu seçməkdə nəcib iş görmüşdür.

Bu məsələnin bir tərəfidir.

Başqa bir cəhət isə bundan ibarətdir: kimsə bu həqiqətə göz

yuma bilməz ki, Cənubi Azərbaycan xalqının taleyi ilə əlaqədar problemlər indi də özünün ədalətli həllinin yolunu gözləyir. Bu tarixi missiyanı bu günün cavanları, sabahın fədailəri, mücahidləri həyata keçirməlidirlər. Bu işdə M.C.Pişəvəri və onun məsləkdaşlarının irsinə tarixi ehtiyac olacaqdır. Bizə belə gəlir ki, azadlıq məşəlinə güclü nur bəxş edən mənbələr sırasında Vüqar Əhmədin oxucuların mütaliəsinə təqdim etdiyi kitabın öz rolu, çəkisi olacaqdır. Bu qısa yazıda təbii ki, bir də tədqiqatçının öz istəyinə nə səviyyədə nail olduğundan, kitabın elmi dəyərindən söhbət açılmalıdır.

Əsəri diqqətlə mütaliə edərkən məndə belə bir inam yarandı ki, müəllif mövzu ətrafında mövcud olan ədəbiyyatla kifayət qədər tanış olmaq üçün xeyli axtarış aparmışdır". (5, 4-5)

Monoqrafiyanın "Giriş" hissəsində V.Əhməd belə yazır: "Təəssüf ki, ideoloji qadağalar və uzun illər boyu mədəni əlaqələrin zəif inkşafı səbəbindən Güney Azərbaycanı ədəbiyyatımız kifayət qədər araşdırılıb nəşr edilməmişdir. Quzey Azərbaycanında yaşayıb yaratmış Xətib Təbrizi, Qətran Təbirizi, Arif Ərdəbili, Əssar Təbrizi, Zeynalabdin Marağalı, Əhvədi, Qövsi Təbrizi, M.Ə. Möcüz kimi sənətkarların ədəbi-bədii irsi geniş tədqiq və araşdırmalara layiq olan tükənməz bir xəzinədir". (5, 6)

Monoqrafiyada müəllif görkəmli ictimai-siyasi xadim Mir Cəfər Pişəvərinin Güney Azərbaycan ədəbiyyatında müstəsna xidmətlərini ön plana çəkir. Onun ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin çoxşaxəli miqyas daşımasından, Quzey Azərbaycanında gördüyü işlərdən söhbət açaraq yazır: "Güney Azərbaycan ədəbiyyatında ictimai-siyasi, ədəbi-bədii, publisistik və tərcüməçilik fəaliyyətinin miqyası, genişliyi, rəngarəng və zənginliyi ilə seçilən böyük şəxsiyyətlərindən biri Mir Cəfər Pişəvəridir (Cavadzadə Xalxali). Güney Azərbaycanında dünyaya göz açan Mir Cəfər 12 yaşında olarkən dövrün iqtisadi, ictimai bəlaları onun ailəsini də Bakıya köçməyə məcbur etmişdir. O, Quzey Azərbay-

canında təhsilini davam etdirməklə yanaşı, işləməyə başlamış, siyasi fəaliyyət meydanına atılmışdır. İran Sosial-Demokrat Partiyasının Qafqazdakı təşkilatlarında fəaliyyət göstərən M.C.Pişəvəri elə burada da mətbuat aləminə qədəm qoymuş, "Azərbaycan cüzi layənfəkki İran", "Hürriyət" qəzetlərində müxbir və redaktor kimi çalışmışdır. O, eyni zamanda iranlıların "İttihad" mədrəsəsində müəllimlik etmişdir". (5, 7)

I fəsil "Mübarizələrdə yaşanmış ömür" adlanır. Müəllif fəslə M.C.Pişəvərinin fikirlərini epiqraf seçib:

"Mən azad doğulmuşam, azad da dünyadan gedəcəyəm. Həbslər, sürgünlər, əzablar və işgəncələr mənim azad fikrimin, sağlam əqidəmin və sarsılmaz inamımın qarşısını almağa qadir olmamışdır". (5, 12)

V.Əhməd ilk növbədə M.C.Pişəvərinin həyat yolundan söhbət açaraq yazır: "Mir Cəfər Seyid Cavad oğlu Cavadzadə Xalxali belə ictimai-iqtisadi-mədəni mühitin səciyyəvi olduğu bir kənddə- Güney Azərbaycanın Xalxal mahalındakı Zivə obasında (Zaviyə-sadat) anadan olmuşdur. Yoxsul ruhani atasından oxuyub-yazmağı öyrənmiş, kənddə ilkin təhsil almışdır. Zaviyədə ağaların özbaşınalığı, feodalların zülmü Seyid Cavadın da ailəsindən yan ötüşmürdü. Kəndlilərin məşəqqətli həyatı hələ uşaqlıq cağlarından Pişəvərinin xatirində dərin iz buraxmış, onu düşündürmüşdür. Bu acı uşaqlıq xatirələri sonralar Cavadzadə yaradıcılığında özünün bədii əksini tapmışdır... Mövcud iqtisadi vəziyyətin ağırlığı, hüquqsuzluq və mənəvi sarsıntılar özünəməxsus əxlaqi-mənəvi mühiti olan Seyid Cavadın ailəsini də bürümüşdü. Odur ki, 1905-ci ildə Cavadzadələr ailəsi Bakıya köçməyə məcbur olur. Onda Mir Cəfərin 12 yaşı vardı. Bakının Bülbülə kəndində məskunlaşan Seyid Cavad oğlunun təhsilinə xüsusi qiymət vermişdir. Bakıda "İttihad" məktəbinə daxil olan uşaq 1913-cü ildə təhsilini başa vurub, 20 yaşında ilk əmək fəaliyyətinə başlamışdır". (5, 15-16)

Monoqrafiyada "Mir Cəfər Seyid oğlu Pişəvərinin

keçdiyi bənzərsiz həyat yoluna, azadlıq aşiqinin ömründə mühüm əhəmiyyət kəsb edən Bakı dövründə yaşayan atası Seyid Cavad Pişəvərinin əmək fəaliyyətinə geniş yer ayıran V. Əhməd yazır: "Pişəvəri bioqrafiyası ilə tanışlıq gostərir ki, o,qəlbinin və ağlının hökmü ilə mübarizə mydanına atıldığı ilk dövlərdən başlayaraq hadisələ qiymət vermək, xalqı azadlığa çıxarmaq yolunda əsl fədai kim çarpışmaq istəyirdi. Bu mübarizədə o, ilkin vasitə olaraq mətbuatı götürmüş, müəllimlik fəaliyyəti ilə yanaşı, publisistika aləminə daxil olmuşdu. Əslində bu, tarixi bir forma idi, dünya miqyaslı inqilabçıların fəaliyyətində özünü təcrübədə təsdiq etmiş bir vasitə sayılırdı. Dövrünün fəlsəfi, tarixi və ədəbi mənbələrini öyrənməyə böyük marağı olmuş M.C.Pişəvəri "Açıq söz" qəzetindən sonra İran Sosial-Demokrat Partiyasının orqanı olan "Azərbaycan" və "Hümmət" qəzetlərində yazılar dərc etdirir. Pişəvərinin "Azərbaycan" qəzetində iştirakı uzun müddət davam etmir, çünki o, Azərbaycan qəzetinin ziddiyyətli və məhdud cəhətləri ilə razılaşa bilmirdi. Partiyanın mətbu orqanını yaratmaq zərurətini duyan Ədalət Partiyasının Mərkəzi Komitəsinin tapşırığı ilə 1919-cu ilin iyun ayında "Hürriyət" qəzetini təsis edir, onun məsul redaktoru olur. "Hürriyyət" qəzeti nəşrə başlayan vaxt Azərbaycan Demokratik Respublikası yaradılmışdı.

1918-1920-ci illərdə Pişəvəri Bakıda qızğın publisistik fəaliyyətlə məşğul olur, "Hürriyyət" qəzetini idarə etməklə bərabər, "Azərbaycan füqərası", "Zəhmət səsası", "Füqəra səsası", "Bakı fəhlə konfransının əxbarı" qəzetlərində kəskin mövzulu məqalələri ilə çıxış edir. Bu dövrdə gənc ictimai xadim eyni zamanda Gənc İşçilər İttifaqının orqanı olan "Yoldaş" jurnalının da məsul redaktoru vəzifəsində çalışırdı". (5, 18)

Azərbaycanda Sovet hakimiyyəti bərqərar olduqdan bir müddət sonra Pişəvəri Ədalət Partiyasının tapşırığı ilə Gilana göndərilir.

Vüqar Əhməd bu bölmədə Mir Cəfər Pişəvəri İrana dönən vaxtı ölkənin hər yerində xüsusən Azərbaycan, Gilan və Xora-

san əyalətlərində demokratik hərəkatın güclənməsi və İngilis qoşunları azadlıq yolunda çarpışan qüvvələrin təsiri ilə Qəzvinə doğru çəkilməsini, Rəşt Cəngəlilər hərəkatının qüvvələrin tərəfindən tutulmasını qeyd edir. Yaranmış vəziyyətdən istifadə olunaraq 1920-ci il iyun ayında İran Kommunist Partiyasının I qurultayında Pişəvəri həm Mərkəzi komitənin üzvü seçilir, eyni zamanda Mərkəzi Komitəyə katib təyin edilir. Sonralar Pişəvəri Azərbaycan Hökümətinin sədri (baş nazir) olmuşdur.

Monoqrafiyaya Pişəvərinin intintaqi bütünlüklə daxil edilib. Həmçinin Mir Cəfər Pişəvərinin istintaq vərəqəsi də əsərdə yer alıb. Bu baxımdan tarixi sənədləri ilk dəfə olaraq kitaba daxil edən Vüqar Əhməd olduqca böyük iş görmüşdür.

"Milli-azadlıq və Milli-demokratik mətbuat naminə yaşanan ömür" bölməsində Vüqar Əhməd yazır: "Bioqrafiyasının hər hansı bir günü və ayı İranda gedən azadlıq və demokratiya uğrunda mübarizə tarixi ilə sıx, qırılmaz tellərlə bağlı olan Pişəvərinin həyatının bundan sonrakı hər ilinin özü ayrılıqda bir tədqiqat əsərinin mövzusu, salnamə obyekti ola bilər. Bu bioqrafiyanın sonrakı illərini ayrıca sadalamaq, onun xidmətlərini araşdırmaq, ictimai, siyasi və publisistik sahədəki fəaliyyətini onun bioqrafiyasının başlıca məzmunu kimi təhlil etmək zəruri və lazımdır. Belə ki, onun həyat yolu, fəaliyyəti həyatının qayəsi ilə üzvi surətdə vəhdət təşkil etmişdir. Bu illərdə onun fəaliyyətində "Ajir" qəzeti səhifələrində ictimai şüuru formalaşdırmaq, mübariz qüvvələri təşkilatlandırmaq, xalqı dünya mədəniyyəti dəyərləri ilə tanış edib, maarifləndirmək xüsusi yer tuturdu" (5, 27). 1945-ci ildə İranın şahlıq rejiminə və irticaçı hakimiyyətinə qarşı S.C.Pişəvərinin tutduğu mövqe digər qüvvələrin mövqeyindən fərqli idi. Pişəvəri inqilabi mövqe tutaraq İranın mərkəzi hökümətindən qanun, ədalət və azadlıq tələb edib, intizarda oturmağın qəti əleyhinə idi. Aşağıdan, xalq kütlələrinin məhəlli və milli inqilabi qüvvəsi ilə İranda iri mülkədarların və mürtəce burjuaziyanın hakimiyyətini yıxmağı, xalq kütləsinə və millətlərə geniş hüquqlar

verilməsi yolu ilə İranın dövlət quruluşunu demokratikləşdirməyi irəli sürürdü. Pişəvəri Azərbaycanda böyük inqilabi imkanlardan istifadə olunmasını və beləliklə hakimiyyət məsələsinin və milli məsələnin inqilabi yolla həll olunmasını təklif edirdi (5, 33).

Vüqar Əhməd monoqrafiyanın II fəslinə "M.C.Pişəvərinin ədəbi-bədii yaradıcılığı" adını verib. Məlumdur ki, M.C.Pişəvəri siyasi fəaliyyətlə yanaşı, ədəbi-bədii yaradıcılıqla da məşğul olub. Onun qələmə aldığı publisistik məqalələr, etdiyi tərcümələr, şeirləri o taylı, bu taylı Azərbaycan ədəbiyyatının dəyərli xəzinəsi inciləri sayılır. Vüqar Əhməd göstərir ki, "Ədəbiyyat tariximizə nəzər saldıqda, açıq-aşkar görürük ki, görkəmli ədiblər yaradıcılığın əksər sahələrində qələmlərini sınamışlar. Siyasi xadimlər, məsələn, N. Nərimanov və M.C. Pişəvəri ictimai-siyasi fikirləri daha kəsərli söyləmək üçün bədii yaradıcılıqdan mühüm vasitə kimi istifadə etmişlər. Şübhəsiz, hər bir yazıçı məfkurəsinə xas olan fikirləri bədii şəkildə ifadə edir". (5, 71)

Pişəvərinin yazdığı şeirlərdən biz milli təəssübkeş, vətən fədaisi, xalqını müstəqil və birləşmiş görmək istəyən vətəndaş obrazıyla rastlaşırıq. Pişəvərinin şeirləri azlıq təşkil etməsinə baxmayaraq, o dövrkü ictimai çatışmamazlıqlar və nöqsanlara toxunmaq nöqteyi nəzərindən əhəmiyyətlidir. (5, 71)

On bir il məhbəsdə saxlanılan M.C.Pişəvərinin "Zindan xatirələri dəftərindən" povesti Vüqar Əhmədin təhlilində geniş şəkildə əksini tapıb. Onun qeyd etdiyi kimi, müəllifin gördüyü, şahidi olduğu, şəxsən iştirak etdiyi hadisələr haqqında xatirələrdən ibarətdir. Bu tipli əsərləri ədəbiyyatşünaslıqda memuar ədəbiyyatına daxil edirlər. (5, 33)

"M.C.Pişəvərinin ədəbi-tənqidi fikirləri" adlanan III fəsildə alim M.C.Pişəvərini ədəbiyyatşünas kimi səciyyələndirir.

Əsərdə M.C.Pişəvərinin ədəbi-tənqidi məqalələri barədə Vüqar Əhməd belə yazır: "Mir Cəfər Pişəvəri bədii yaradıcılıqla yanaşı, realist ədəbiyyatın nəzəri problemləri, estetika,

ədəbi tənqidlə də məşğul olmuşdur. Onun ədəbi irsində ictimai siyasi, elmi-publisist və ədəbi-tənqidi məqalələr mühüm yer tutur. M.C.Pişəvərinin ədəbiyyata, maarifə, teatra, operaya, ümumən mədəniyyətə, siyasi-ictimai hadisələrə aid fikirləri Quzey və Güney Azərbaycanın ədəbiyyatında inqilabi-demokratik və bədii-estetik prinsiplərin inkişafına az təsir göstərməmişdir. Bütün şüurlu həyatını əzilən, istismar olunan xalqın, özü də təkcə Azərbaycan xalqının deyil, Yaxın və Orta Şərqin, dünyanın məzlum xalqlarının azadlığı və istiqlaliyyəti uğrunda inqilabi mübarizəyə həsr etmiş Pişəvəri ictimai fikir tariximizdə həm də ədəbiyyatşünas, alovlu publisist və tənqidçi kimi yer tutmağa layiq irs qoymuşdur. Onun ədəbi-tənqidi görüşləri və publisistikası inqilabi fəaliyyəti ilə sıx bağlıdır. (5, 99)

"Pişəvərinin klassik və çağdaş ədəbi əsərlərə münasibəti" bölməsində alim M.C.Pişəvərinin bütövlükdə ədəbi-tənqidi irsini yığcam və epizodik şəkildə təsvir edir. Vüqar Əhməd onun klassik ədəbi və mədəni irsə, rus ədəbiyyatına, həmçinin opera və dram əsərlərinə münasibətindən bəhs edir, heca vəzni haqqında dəyərli fikirləri və mülahizələri olduğunu bildirir: "Pişəvərinin milli irsi qorumaq məsələsində tutduğu mövqe milli abidələr haqqında söylədiyi fikirlə səsləşir. "Azərbaycan səfərinin qeydləri" adlı oçerkində Ərdəbil şəhərindəki Şeyx Səfiəddin abidəsi ilə bağlı hissəni aşağıdakı sətirlərlə bitirir: "Nadir sənət əsərlərini şahlar düzəltmirlər. Təxti-Çəmşidin heyranedici memarlığını, İranın sair yerlərində olan incə yonulmuş daşları şahlar öz əlləri ilə yaratmayıblar, bunlar xalq içindən çıxmış sənətkarların əməyinin nəticəsidir. Bu sənətkarları xalqın mədəniyyəti yetiribdir. Bu nöqteyi-nəzərdən abidələrimizin qorunmasına xüsusi səy göstəririk, onlara yönəldilən əliuzunluğu milli namusumuza olan təcavüz hesab edirik". (5, 118)

Pişəvərinin ədəbi-tənqidi irsini təhlil edən Vüqar Əhməd başlıca bir cəhəti qeyd etməyi zəruri hesab edir: " Pişəvərinin ədəbi-tənqidi irsindən danışarkən bir cəhəti də qeyd etmək zəruridir. O, hər hansı bir mövzuda yazarkən təkcə predmetlə

kifayətlənmir, bütövlükdə obyekti alır, oxucuda daha ətraflı təsəvvür yaratmağa nail olurdu. Bu, böyük ədibin bilik və məlumatının dərinliyi haqqında təəssürat yaradır. Faktlar təsdiq edir ki, Cavadzadə yazmaq istədiyi mövzu ilə bağlı zəngin məlumat toplamadıqda qələmə əl atmamış, hər yazıda əsas mövzu ilə az-çox bağlı motivlərə də toxunmuşdur. Məsələn, Səməd Vurğunun "Vaqif" pyesi haqqında yazdığı məqaləsində təhlilə başlamazdan əvvəl Molla Pənah Vaqif haqqında qısaca məlumat verir. Vaqifi Azərbaycan realist şerinin banilərindən hesab edir, onun irsini dəyəri barədə oxucuda müəyyən təsəvvür yaratmağa çalışır". (5, 120)

Növbəti bölmədə Pişəvərinin ana dilimizə olan münasibəti, dilimizin inkşafında qayğı göstərməsi, onu necə qurmaq barədə fikirləri yer alıb. M.C.Pişəvərinin ədəbi-bədii dil haqqında mülahizələrinə gəlincə isə Vüqar Əhməd yazır: "Pişəvəri Güney Azərbaycanında milli dil və milli mədəniyyəti müdafiə etməklə Cənubi Azərbaycan xalqını fars şovinistlərinin əsarəti altında saxlamaq istəyənlərə qarşı çıxır və onun gələcək yolunun tam düzgünlüyü və aydınlığını nəzərə alırdı. O vaxt Azərbaycan dili məsələsi üzərində gedən mübahisələrin siyasi əhəmiyyətini daha aydın görmək üçün yalnız bunu qeyd etmək kifayətdir ki, milli dil üzərində gedən mübahisələr Güney Azərbaycan xalqının milli mədəniyyəti və nəhayət, onun milli istiqlaliyyətilə üzvi surətdə bağlı idi. Pişəvərinin Azərbaycan xalqının dili və milli ədəbiyyatının düşmənlərinə qarşı apardığı mübarizədə onun öz xalqına və vətəninə olan dərin məhəbbəti və nəhayətsiz sevgisi görünür". (5, 133)

"Qüdrətli publisist, istedadlı jurnalist-mühərrir. Pişəvəri publisistikasının xüsusiyyətləri" adlanan IV fəsildə Vüqar Əhməd qeyd edir ki, M.C.Pişəvəri ilk publisist yazısını Bakıda nəşr olunan "Hümmət" qəzetində 3 iyul 1917-ci il tarixində dərc etdirmişdir. Vüqar Əhməd onun istedadlı jurnalist mühərrir kimi fəaliyyətinə diqqət yetirir, müxtəlif mətbu orqanlarda işıq üzü görən məqalələrinə münasibət bildirir. Pişəvərinin

publisistikasının xüsusiyyətlərinə gəldikdə isə Vüqar Əhməd yazır: "Publisistikanın oçerk, ədəbi-tənqidi və ictimai-siyasi məqalələr, pamflet, felyeton, intibahnamə, çağırış və s. janrlarında müvəffəqiyyət qazanan publisist Güney Azərbaycanında və ümumən İranda mütərəqqi jurnalistlərin yaradıcılığında gözəl və güclü təsir göstərmişdir. Xüsusilə Güney Azərbaycanında 1945-1946-cı illərdə milli azadlıq hərəkatının yeni yükşəlişi dövründə Pişəvərinin publisist yaradıcılığı boyük rol oynamışdır. Fars şovinistlərinin uzun illər boyu yürütdükləri zorakı assimlasiya siyasəti Güney Azərbaycanında milli ədəbiyyatın və mətbuatın inkşafına mane olmuşdu. Pişəvərinin "Hürriyyət", "Həqiqət", "Ajir" və "Azərbaycan" qəzetlərində çap olunan yazıları bu dövrdə Cənubi Azərbaycanın yalnız jurnalistlərinə deyil, yazıçı və şairlərinə də təsir edir, onlara yeni mövzular verirdi. Onun döyüşkən publisistikası milli azadlıq mübarizəsinin qələbəsi nəticəsində əmələ gəlmiş milli mətbuat üçün örnək idi. Pişəvərinin o vaxt yazdığı bir çox məqalələr dillər əzbəri olmuşdur. "Ölmək var, dönmək yoxdur!", "Hamıya, hamıya, hamıya!", "İki yolun ayrıcında", "Güc birlikdədir", "Xalq bizimlədir", "Korlar görsün, karlar da eşitsin!" və onlarca bu kimi çağırış xaraterli məqalələri ilə o, mübariz publisistikanın gözəl nümunələrini yaratmışdır. Bu əsərlər öz aydın ideyası, mübariz ruhu və yüksək bədii səviyyəsinə görə gözəl sənət əsərləri ilə bir sırada durur". (5, 176)

Monoqrafiyada M.C.Pişəvərinin müxtəlif illərdə çəkdirdiyi fotoları da yer alıb.

Filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı" (monoqrafiya) əsəri haqqında mətbuatda 5 rəy dərc olunub. Oqtay Gürşad "Mübarizələrdə yaşanmış ömür": " İki sahil" qəzeti 1998, 16 may; Anar Niftəliyev "Cənubi Azərbaycanın azadlıq mücahidi": "Xalq qəzeti, 1998, 22-28 may; Məmməd Aslan "Əməkdaşımızın yeni kitabı nəşr olunub". "Ekran-efir" həftəliyi 1998, 18-24 may; Qafar Əsgərzadə "Milli azadlıq hərəkatından

danışan kitab": "Hakimiyyət" qəzeti, 1998, 25 iyun; Yaşar Qarayev " İki əsr və iki era ayrıcında" (kitaba istinad): Ədəbiyyat məcmuəsi, AMEA Nizami adına Ədəbiyyat İnistitutu, Bakı, Ağrıdağ, 1998, s.88; Salman Vilayətoğlu "Tədqiqatın kamilliyi": "Spektr" jurnalı. Bakı, 2001 № 2.

Oqtay Gürşadın "Mübarizələrdə yaşanmış ömür" məqaləsində müəllif monoqrafiyanın başlıca məziyyətləri, M.C.Pişəvərinin uşaqlıq və gənclik illəri, əmək fəaliyyəti və Bakı mərhələsi haqqında məlumat verir. Oqtay Gürşad həmçinin M.C.Pişəvərinin siyasi fəaliyyətinə də toxunur, "«Zindan xatirələri dəftərindən»" söhbət açır. Eyni zamanda, görkəmli ictimai-siyasi xadimin elm, təhsil, mədəniyət, iqtisadiyyat, ordu və dövlət quruculuğu sahəsində gördüyü azman işlərlə barədə oxucuları tanış edir. Oqtay Gürşad yazır: "Bütün bunlar barədə Vüqar Əhməd M.C.Pişəvəri ilə bağlı yazdığı kitabında daha ətraflı məlumatlar verir, oxucu üçün indiyə qədər bəlli olmayan yeni faktlar açıqlayır.

Bu gün heç kimə sirr deyil ki, Güney Azərbaycan tarixi indiyə qədər öyrənilməmiş və orada baş verən hadisələr bizə və dünya ictimaiyyətinə birtərəfli çatdırılmışdır. Vüqar Əhmədin "M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı" kitabı bu yöndə nəşr olunan ən dəyərli və qiymətli əsərlərdən biridir. Bu kitab xalqımızın dahi oğlu, ədib, jurnalist, nasir, şair, dövlət xadimi, publisist-tənqidçi M.C.Pişəvərinin timsalında xalqımızın tarixinin, ədəbiyyatının, mədəniyyətinin obyektiv işiqlandırılmasında və yenidən araşdırılmasında bizim və gələcək nəsillər üçün tutarlı sənəddir". (6)

Əsərin tarixi əhəmiyyəti və elmi məziyyətləri haqqında Rafael Hüseynov 27 iyun 1998-ci ildə "Azadlıq" radiostansiyasında müəllifdən geniş müsahibə almışdır.

Eyni zamanda, Azərbaycan televiziyasında Vüqar Əhmədin monoqrafiyası haqqında xüsusi verilişlər hazırlanmış, bir çox alimlərimiz, o cümlədən akademik Vasim Məmmədəliyev əsər barədə geniş söhbət açmışlar.

Ş.M.Xiyabani

Vüqar Əhmədin elmi yaradıcılığında "Şeyx Məhəmməd Xiyabani" monoqrafiyası xüsusi yer tutur. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Teymur Əhmədov, ön sözün müəllifi və rəyçi filologiya elmləri doktoru, professor Elman Quliyev, rəyçi Azərbaycan MEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Əkrəm Rəhimlidir. Kitaba filologiya elmləri doktoru, professor Elman Quliyev "Xiyabanişünaslığa yeni bir töhfə" adlı olduqca maraq doğuran "ön söz" yazmışdır. "Ön söz" də deyilir: "Hörmətli alimimiz Vüqar Əhmədin Seyid Cəfər Pişəvəri irsinin öyrənilməsində göstərdiyi xidmətlər elmi ictimaiyyətə yaxından bəllidir. "Şeyx Məhəmməd Xiyabani" monoqrafiyasında Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər və bu proseslərin önündə gedən Şeyx Məhəmməd Xiyabani hərəkatı, onun publisistikasının mövzu dairəsi konkret faktlar əsasında tədqiq edilmiş, bugünkü oxucunu razı sala biləcək səviyyədə diqqətə çatdırılmışdır. Əsərlə tanışlıq bir daha onu təsdiqləyir ki, Vüqar Əhməd həm Xiyabaninin həyat və fəaliyyətinə həm də onun haqqında yazılmış tədqiqlərə yaxından bələddir. Müəllifin Şeyx Məhəmməd Xiyabani ilə bağlı Q.Məmmədlinin, A.A.Vinoqradovun, Q.Q.İlyinskinin, Q.Kəndlinin, Ş.Tağıyevanın və başqalarının yazdıqları əsərlərdən bəhs açması, bu fikirlərin Xiyabanişünaslıq tarixindəki yeri və s. məsələlərə toxunması onun bu problemin dərinliyinə enib fikir söyləmək bacarığını təsdiqləyir. Eyni zamanda, Vüqar Əhmədin Şeyx Məhəmməd Xiyabaninin həyati detallarını bütün təfərrüatları ilə təqdim etməsi və ictimai-siyasi proseslərin Xiyabani dünyagörüşünə təsiri, onun bir inqilabçı kimi yetişməsində rolu məsələlərinə münasibəti bu bacarığın məntiqi davamına çevrilir". (7, 5)

Monoqrafiyanın I fəsli "Şeyx Məhəmməd Xiyabani (1879-1920): həyatı və mühiti" adlanır. Vüqar Əhməd kitabın əvvəlində Şeyx Məhəmməd Xiyabanini Güney Azərbaycanın

azadlığı uğrunda imperializm və despotizmə qarşı amansız mübarizə aparan böyük şəxsiyyət kimi dəyərləndirir. Onun həyatı və mühiti haqqında oxuculara məlumt verir. Tədqiqatdan məlum olur ki, müəllif görkəmli mütəfəkkir, siyasətçi, publisist ədib, alim Şeyx Məhəmməd Xiyabani barədə əsər yazarkən xeyli mənbədən bəhrələnmiş, məqalələr mütaliə etmiş, Güneydə çap olunan materialları kifayət qədər araşdırmış, fars dilində olan yazıları fikir süzgəcindən keçirmiş, ədəbiyyatşünaslığımıza layiqli monoqrafiya bəxş etmişdir.

Xiyabaninin publisistikasından söhbət açan Vüqar Əhməd yazır: "Xalqını və Vətənini coşğun hisslərlə sevən publisistin məqalələrinin hər bir sətrində Azərbaycan xalqının milli varlığını inkar etməyə cəhd edən və beləliklə, öz təcavüzkarlığına bəraət qazandırmaq istəyən şovinistlərə və hakim millətlərə qarşı qəzəb və dərin nifrət ifadə olunmuşdur.

Xiyabaninin vətənpərvərliyi yüksək tipli vətənpərvərlikdir. Bu elə bir vətənpərvərlikdir ki, öz vətənini və xalqını sevməklə bərabər, başqa xalqların azadlıq və istiqlaliyyətinə hörmət edir.

Xiyabaninin publisistikası realist publisistikadır. O, həyat həqiqətini heç vaxt təhrif etməmiş və heç nə uydurmaq fikrində olmamışdır". (7, 24)

Vüqar Əhməd "Xiyabaninin bədii obrazı" bölümündə isə Azərbaycan ədəbiyyatında xalq yazıçısı İlyas Əfəndiyevin "Şeyx Xiyabani" pyesinin, Pənahi Makulunun "Xiyabani" romanının, xalq şairi Xəlil Rza Ulutürkün "Xiyabani yurdunda" şeirinin, şərqşünas Arif Səfanın " Xiyabani" qəzəlinin adlarını çəkir.

Vüqar Əhməd əsərdə xalq yazıçısı Hüseyn Abbaszadənin, İlyas Əfəndiyevin "Şeyx Xiyabani" pyesinə yazdığı "Tarixə müasir baxış" adlı resensiyasından, P.Makulunun "Xiyabani" romanındakı sənətkarlığından, xalq şairi X.R.Ulutürkün Şeyx Məhəmmədə həsr etdiyi şeirdən, Xiyabani qəhrəmanlarına yazdığı məqalədən,, Arif Səfanın Xiyabaniyə ithaf etdiyi qəzəldən misallar gətirir.

Vüqar Əhməd monoqrafiyada Xiyabani irsinin geniş tədqiqinə ehtiyac olduğunu önə çəkərək yazır: "Ş.M.Xiyabaninin keçdiyi mübarizə yolu siyasi, elmi, bədii və jurnalistik irsi zəngin və çoxşaxəlidir. Bu irsin geniş tədqiqinə ehtiyac var. Biz inanırıq ki, bu sahədə boşluq gələcəkdə tarixçi və ədəbiyyatşünaslarımız tərəfindən doldurulacaq. Ş.M.Xiyabaninin əsərləri toplanıb nəşr olunacaq. Ümumiyyətlə, deyə bilərik ki, Xiyabaninin ictimai, siyasi və fəlsəfi görüşü layiqincə öyrənilməmiş və tədqiq edilməmişdir. Azərbaycanın fəxri olan bu böyük şəxsiyyət haqqında əhatəli, geniş və ətraflı kitablar, monoqrafiyalar yazılmasına ehtiyac var". (7, 29)

Xiyabaninin ədəbi fəaliyyətinin başlıca qayəsini daxili istibdada və xarici müstəmləkəçilərə qarşı mübarizə, müstəqillik ideyaları, hüriyyətə yetmək arzusu, iqtisadi yüksəliş və digər vacib məsələlər təşkil edirdi. Xiyabani həmişə xalqın arasında idi. Xalqın dərdini-sərini yaxşı bilirdi. Cənubi Azərbaycanda xalqın azadlığı və istiqlaliyyəti uğrunda gedən mübarizəyə başçılıq edirdi. Əlində mübariz qələm olan Xiyabani ictimai-siyasi baxışlarını publisistik dövrünü, hadisələri yazılarında ortaya qoyur, bir filosof kimi təhlil edirdi. Bütün bu amillərə əsərdə yer ayıran Vüqar Əhməd yazır:

"O, Güney Azərbaycan milliyətçi hərəkatının lideri olmaqdan əlavə, həm də Azərbaycanın ən görkəmli publisistlərindən biri sayılır. Onun düşüncəsinin mərkəzində "Təcəddüd" (müasirləşmə) məfhumu dayanırdı. O, hətta üsyanın həyata keçirilməsini nəzəri cəhətdən işləyib hazırladığı "Tərəddüd" məsləki əsasında təşkil etmişdi "Təcəddüd" yenilikçi məsləki imperializm ağalığına, şah hakimiyyətinin zülmünə, feodal geriliyi və istibdad qalıqlarına, ictimai ədalətsizliyə qarşı üsyan edən siyasi və demokratik azadlıqlar, həqiqi xalq hakimiyyəti və s. kimi inqilabi tələblər irəli sürən, nəhayət, Güney Azərbaycanın milli hüquqları uğrunda mübarizə aparan bir əqidə, siyasi-nəzəri bir cərəyan idi. Bu cərəyan siyasi mübarizədə nə sağ, nə də sol olmayan, Xiyabaninin dəfələrlə təkrar etdiyi "Qara xətt" götürən

radikal xırda burjua platforması idi. Həmin cərəyan iri burjuaziya və torpaq əsilzadələrindən başqa bütün sinif və təbəqələri vahid bir cəbhədə birləşdirmək imkanı verən və o vaxt üçün məqbul sayılan düzgün hərəkət xətti idi". (7, 54)

Xiyabaninin ən böyük amallarından biri Güney Azərbaycanda qadınların ictimai həyatda fəal iştirakı məsələsi idi. Məhz Xiyabaninin qələmə aldığı ("Dünyanın məhşur qadınları", "Dünya qadınlarının tərəqqisi", "Bizim qadınlarımız", "Sabahkı analarımız" və s.) məqalələrdə və nitqlərində aydın hiss olunurdu. Təbrizdə baş verən üsyan zamanında Xiyabaninin ideyası və təşəbbüsü ilə pulsuz qız məktəbinin yaranması qadınların maariflənməsi yolunda atılan ilk addımlardan biri oldu. Xiyabaninin məqalələri adətən "Təcəddüd" qəzetində dərc olunurdu. 1917-ci ildən faəliyyətə başlayan "Təcəddüd" qəzeti Güney Azərbaycanda ictimai fikrin inkşafında mühüm rol oynayırdı. Vüqar Əhməd Xiyabaninin məqalələrinə münasibət bildirərkən yazır: "Xiyabani siyasi mübarizənin məqsəd və amalı haqqında "Təcəddüd"ün səhifələrində dərin və bariz məqalələr yazırdı. 24-cü səhifədə Xiyabani tərəfindən yazılmış "Azərbaycan" adlı məqalə diqqəti xüsusilə cəlb edir. O, bu məqaləsində Azərbaycanın müqəddəratı, azadlığı, istiqlaliyyət və milli varlığı məsələsini fəlsəfi baxışlarla vermişdir. Ümumiyyətlə, hər cümləsində dərinliklərə varan Xiyabani heç vaxt boş-boşuna söz işlətməmiş, dahi şairimiz Nizami Gəncəvinin təbirincə desək, hər sözü az, daha xoş və yerində işlətmişdir. Xiyabani bu məqalədə öz ürək sözlərini belə ifadə edir". "Azərbaycan! Bəhanə axtaran özgələr və kinküdurətli özününkülər qarşısında vurdu, vuruldu, öldü, öldürüldü. Həyatın çətinliklər və çəkçevirləri içərisində inqilab və təkamül yolunu keçib yaşadı. Ucdan tutma qırğınlar, soyğunlar, zülm və işgəncələr Azərbaycandakı istiqlaliyyət hərəkatını və azadlıq tələblərini məhv edə bilməyəcəkdir". (7, 57)

Xiyabani və Din

Şeyx Məhəmməd Xiyabani gənc yaşlarında ilahiyyat təhsilini və elmini mükəmməl şəkildə mənimsəyərək müctəhid dərəcəsinə-yəni ali-elmi zirvəyə yüksəlmişdir. Ş.M.Xiyabani həmişə müqəddəs Qurani-Kərimə səcdə etmiş, bu ulu kitabdan faydalanmışdır. Vüqar Əhməd yazır: "Xiyabani çıxışlarının birində deyirdi ki, Allah-təalanın İslamın bizim üçün istədiyini yenidən əldə etmək, müasir dünyada yeni mədəniyyət yaratmaq, ya heç olmasa istər-istəməz meydana gələcək bir mədəniyyətin yaranmasında fəal iştirak etməkdə öz layiqli borcunu yerinə yetirmək üçün biz müsəlmanların iki əsas işdə səy göstərməsi zəruridir: bunlardan biri ağıl və təfəkkür, digəri isə səbat və həmrəylikdir. Bu iki qiymətli gövhəri əldə etmək üçünsə müqəddəs Qurani-Kərimdən faydalanmaqdan daha qənaətbəxş bir iş ola bilərmi? Quran kimi hansı bir kitabda varlıqda, dünyada elmə, səbrə, təfəkkürə və tədbirə, millətlərin, xalqların taleyindən nəsihətamiz məsələlərə bu qədər diqqət verilmişdir? Bütün irqi, milli, dil və hətta məzhəb ixtilaflarının mövcud olmasına baxmayaraq, Quran bizim vəhdət amilimiz, bizi bir-birimizə bağlayan ən möhkəm kəndirimiz-vasitəmizdir. Əgər onun qədrini bilsək, bir tərəfdən durğunluqdan və adətpərəstlikdən, digər tərəfdən başqalarının qarşısında özümüzü itirməkdən uzaq olsaq, ağılla ona müraciət etsək, bugünkü həyatımızı və gələcəyimizin üfüqlərini onun nuru ilə işıqlandıra bilərik". (7, 67)

Monoqrafiyada müəllif Ş.M.Xiyabaninin çıxışlarına yüksək fəhm, ən əsası isə natiqlik bacarığına malik olan şəxsiyyət kimi qiymət verir: "Xiyabani siyasi və ictimai xadim, eyni zamanda peşəkar bir publisist olmaqla yanaşı yüksək səviyyəli bir natiqdir. Onun hər bir kəlməsində insan psixologiyasına nüfuz edə biləcək təlqin vardır. Xiyabani eyni zamanda olduqca nikbindir və xalqıda daim nikbin olmağa səsləyir. Bir çoxlarına bəllidir ki, İslam aləmində şəhid olmaq olduqca böyük şərəf sayılır və

şəhidlərin sorğu sualsız behiştə getdikləri də hamıya məlumdur. Onu da qeyd etmək lazımdır ki, şəhid sözü ancaq müsəlmanlara aiddir. Hansısa bir dinsizi və yaxud müsəlman olmayan bir kimsəni şəhid hesab eləmək küfrdür. Şəhidlərə yüksək qiymət verən Xiyabani, şəhidliyin nə qədər müqəddəs bir iş olmağını dilə gətirərək, valideynlərə, xüsusilə də analara övladlarını, şəhid və yaxud qazi olmaq ruhunda tərbiyə etməyi tövsiyə edir". (7, 81)

Xiyabaninin ən başlıca məsləklərindən biri istiqlaliyyət olduğunu qeyd edən Vüqar Əhməd yazır: "İstiqlaliyyət Xiyabaninin ən öndə gələn prinsipidir. Fəqət milli mübarizə adını verdiyimiz böyük hadisə, hər şeydən əvvəl bu prinsipin gerçəkləşməsi üçün həyata keçirilmiş, müvəqqəti olsa da müvəfəqiyyət qazanmışdır. Çünki əsas olan, istiqlaliyyətinə qəsd edilən Azərbaycan xalqının heysiyyətli və şərəfli bir millət kimi yaşaması idi: bu əsas da ancaq xalqın azadlıq və istiqlaliyyətə sahib olması ilə təmin ola bilərdi. Xalqı öz müqəddəratına hakim etmək, əsası Xiyabaninin istiqlaliyyət prinsipi ilə ayrılmaz vəhdət təşkil edən ikinci böyük prinsipdir. Bu prinsipə görə xalqın müqəddəratı, qeyd-şərtsiz onun özünə məxsus olmalıdır. Heç bir məna, heç bir şəkil və heç bir vəhclə şəriklik qəbul edə bilməz. Bu iradənin bütün millət fərdlərinin arzularının, əməllərinin birləşməsindən ibarət olmasına görədir ki, cəmiyyət içində hər cür qüvvə bu iradədən yaranar: ancaq bu iradəyə uyğunlaşmaq surətiylə yaşaya bilər. Xiyabani anlayışına görə, xalqın iradə və əməlinə tabe olmayanların taleyi acıdır, məhv olmaq dərəcəsindədir". (7, 90)

Monoqrafiya geniş elmi ictimaiyyətin müzakirəsinə verildikdən sonra alimlərimiz əsər barədə kitab və mətbuat səhifələrində məqalələrlə çıxış etmişlər. Ədəbiyyatımızın yorulmaz tədqiqatçısı və təbliğatçısı, 70-dən artıq kitabın müəlifi, ciddi alimimiz Sona Xəyal görkəmli ədəbiyyatşünas Bəxtiyar Məmmədzadənin əziz xatirəsinə ithaf etdiyi "Yaddaşlarda yaşayacaq" əsərinə ("Kredo" qəzeti, 17.04.10) Vüqar Əhmədin

kitabı haqqında "Şeyx Məhəmməd Xiyabani" adlı məqaləsini daxil edib. Sona xanım əsərin əsas məziyyətlərini təhlil etmiş, yüksək səviyyədə monoqrafiya yazmış, müəllifin çəkdiyi zəhmətə dəyər vermişdir.

"Xiyabaninin "Azərbaycan və Azərbaycanın demokratik qüvvələri" əsəri vaxtilə İsmayıl Şəms tərəfindən fars dilindən tərcümə edilmiş, Balaş Azəroğlunun və İsmayıl Cəfərpurun redaktorluğu ilə nəşrə hazırlanmışdır. Vüqar Əhməd həmin əsəri ərəb qrafikalı əlifbadan transliterasiya edərək, kitaba daxil etmişdir.

Vüqar Əhmədin uzun illərin, ağır zəhmətin bəhrəsi olan bu kitabı xalqımızın mütəfəkkir oğlu, görkəmli siyasətçi, ilahiyyatçı, ədib Xiyabaninin həyat və yaradıcılığını, eyni zamanda Cənubi Azərbaycanda gedən milli –azadlıq hərəkatını öyrənmək baxımından dəyərli vəsaitdir". (8, 64-65)

Monoqrafiya barədə ikinci məqaləni filologiya üzrə fəlsəfə doktoru, tanınmış şair, dilçi alim Sərdar Zeynal qələmə alaraq "Hürriyyət" qəzetinin 2010-cu il 1-4 fevral tarixli sayında dərc etdirmişdir. Məqaləyə "Şeyx Məhəmməd Xiyabani Bakıda" adını verən Sərdar Zeynal yazır:

"Professor Vüqar Əhmədin Cənubi Azərbaycan xalqının öz azadlığı uğrunda apardığı mübarizəyə bir lider kimi başçılıq etmiş Şeyx Məhəmməd Xiyabaninin həyat və yaradıcılığına həsr etdiyi bu monoqrafiyanın nəşri əslində, gecikmiş bir işdir. Cənubi Azərbaycanda baş verən azadlıq hərəkatları və bu hərəkatlara başçılıq edən igid Azəbaycan övladları haqqında elmi və tarixi əsərlər elə Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi illərdən yazılıb nəşr edilməli idi. Bu cür əsərlərin yaranması, elə başa düşürəm ki, Şimali Azərbaycanda bütöv Azərbaycanın ayrılmaz bir parçası olan Dağlıq Qarabağın işğaldan azad olunmasında böyük əhəmiyyət kəsb edəcək, yol göstərən bir mayaka çevriləcək və bugünkü gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinin inkşafında müstəsna əhəmiyyətə malik olacaqdır". (9)

Vüqar Əhməd AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Şeyx Məhəmməd Xiyabani hərəkatının 90 illiyinə həsr olunmuş Beynəlxalq konfransda "Xiyabaninin dini-fəlsəfi görüşləri" mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Məruzə İnstitutun direktoru, professor, millət vəkili Gövhər Baxşəliyeva və konfrans iştirakçıları tərəfindən hərarətlə və sürəkli alqışlarla qarşılanmışdır. Həmin məruzə AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun tərəfindən "Xiyabani-90" konfrans materialları məqalələr toplusunda dərc olunmuşdur.

VÜQAR ƏHMƏD VƏ CƏNUB MƏTBUATI

C) Ədəbiyyat nəzəriyyəsi və uşaq ədəbiyyatı məsələləri Vüqar Əhmədin elmi nəzəri fəaliyyətinin tərkib hissəsi kimi

Artıq neçə illərdir ki, Azərbaycan elminin ayrılmaz tərkib hissəsi sayılan ədəbiyyatşünaslığımızda sanballı çəkisi olan, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin adını xüsusi vurğulamaq lazımdır. Kimdir Vüqar Əhməd? Ilk növbədə alim, ədəbiyyatşünas, tənqidçi, şair, jurnalist, publisist, musiqi tənqidçisi. Bütün bu epitetlərə yüksəlmək üçün Vüqar Əhməd 30 ilə yaxın ləyaqətli ömür sərf edib. Bu çətin enişli-yoxuşlu yolda onun bir məqsədi bir vəzifəsi olub. Azərbaycan elminə,ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, musiqisinə, mətbuatına xidmət göstərmək.

Otuz ildə otuz kitab araya-ərsəyə gətirib dəyərli qələm sahibi Vüqar Əhməd. Yuxarıda qeyd olunan sahələrdən nə yazıbsa, hamısında cəsarətlə demək olar ki, uğur əldə edib. Həmişə qələminə, sözünə, intelllektinə zəngin dünyagörüşünə, dərin zəkasına alimlik bacarığına arxalanıb. Böyük bir elm ocağının görmədiyi işləri Vüqar Əhməd tək başına hasil edə bilib. Hələ Azərbaycan Pedaqoji İnistitutunun tələbəsi olarkən tez-tez elmi konfranslarda, ədəbi-bədii məclislərdə etdiyi çıxışlar, söylədiyi fikirlər təhsil ocağının müəllimlərinin diqqə-

tini cəlb edirdi. Vüqar inistitutu fərqlənmə diplomu ilə bitirir. Yüksək elmi cəhətdən qələmə aldığı; "Elçinin sənətkar mövqeyi və bədii qəhrəmanları" adlı diplom işini uğurla müdafiə edir. Vüqar yazır;

"Elçin müasir nəsrimizin görkəmli nümayəndələrindən biri kimi cəmiyyətimizin inkşafına öz müəllif mövqeyindən yanaşır və elə bu nöqteyi-nəzərdən də vaxtaşırı nəsrin müxtəlif janrlarına müraciət edir.

Məlumdur ki, roman və povest ədəbiyyatın elə janrlarıdır ki, bir sıra keyfiyyətlərinə görə yaradıcılarımızın mövqeyini müasir dünya ədəbiyyatı prosesində ifadə edə bilər. Sənətkarın mövqeyi hər bir əsərin ideya isiqamətini müəyyənləşdirir. Yəni elə bir əsər tapmaq olmaz ki, orada bir mövqe aşkarlanmasın.

Sənətkar mövqeyi əslində ədəbiyyatşünaslıqda həll edilmiş məsələdir, lakin ədəbiyyatımızın hər bir mərhələsində zəruri bir problem kimi bütün şərhinə daima ehtiyac duyulmuşdur.

Elçin öz qəhrəmanlarını çox gözəl tanıyır. O, bizə deyə bilər ki, Baladadaşın ürəyini ağrıdan hansı hisslərdir, dəllal Zübeydə bu gün bazarda neçə süpürgə satmış və iyirmi il bundan qabaq Şirinbacı ilə nə barədə söhbət etmişdir. Məsməxanım gecə vaxtı gilavar əsdikdə dənizlə nə danışır. Bunlar insanın qəlbini o qədər həyacalandırır ki, bu reallıq bir növ Elçinin ecazkar nağıl aləmi ilə birləşir". (10, 52-53)

Vüqar elm aləminə tənqidçi kimi gəlib. İnstitutu bitirən gənc mütəxəssis təyinatla 1984-87-ci illərdə Şamaxı rayonu Dərəkənd kəndində dil-ədəbiyyat müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olur. Amma bir an belə alim olmaq, həyatını elmə sərf etmək istəyi bitib-tükənmir. 1986-cı ildə sənədlərini APİ-nin qiyabi aspiranturasına verib daxil olur. O illəri Vüqar Əhməd müəllifi olduğu "Qarabağ Yuxusu və yaxud Yuxuda Qələbə" (avtobioqrafik roman) kitabında belə xatırlayır: "Imtahanları verib aspiranturaya qəbul oldum. Əvvəlcə mənə Qafur Rəşaddan mövzu verdilər. Tez bir zamanda mövzunu işləyib qurtardım. Mövzunu təsdiq eləmədilər. Professor Xeyrulla

Məmmədov elmi rəhbərim idi. Rəhmətlik mənə dedi ki, heç narahat olma. Qafur Rəşadı sən işləməsən, heç kim işləməyəcək. Təzə mövzu verdi mənə, ədəbi əlaqələrdən. Akademiyada mövzunu yenə təsdiq eləmədilər. Yadımdadır tapşırılanların mövzusu şırıppıltıyla keçdi. Amma onlar böyük adamların uşaqları idi, heç təsdiqə də gəlmədilər. Indi onlar polisdə, gömrükdə işləyirlər. Xeyrulla müəllimlə gəldik koordinasiyanın katibi Teymur Əhmədovun yanına. Dedi, bala, narahat olma, mən sənə təsdiq kağızı verərəm. Monoqrafiyana da belə ad verirəm: "Rus uşaq ədəbiyyatı və Azərbayan". Elə bu adla çap elətdirdim. Xeyrulla müəllimin APİ-dəki düşmənləri məni düz iki il müdafiəyə buraxmadılar. Amma gücləri çatmadı, nəhayət ki, uğurla müdafiə elədim. Diplomumu da Moskvadan aldım. Şuranın sədri mərhum professor Afad Qurbanov idi. Rəhmətlik Qulu Xəlilli haqqımda çox yaxşı danışdı. Dedi bu oğlan cəsarətlidir. Elə bil mənim cavanlığımdır" (11, 168). (Vüqar Əhmədin namizədlik işinin mövzusu " Azərbaycan-rus ədəbi əlaqələri tarixindən: Uşaq ədəbiyyatı materialları əsasında. 1901-1920). Əhmədov Vüqar Mıkayıl oğlu. Elmi rəhbər: Xeyrulla Məmmədov, opponentlər: Əflatun Saraclı (Məmmədov), Mətləb Nağıyev.

Ilk elmi yazısı isə 1987 ci ildə işıq üzü görür. Müqaləyə Vüqar Filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədov "Yazıçı" nəşriyyatında çap edilmiş "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər monoqrafiyasının adını verir. Vüqar professor Xeyrula Məmmədovun kitabına yüksək qiymət verir: "Filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovun yenicə çapdan çıxmış monoqrafiyası belə adlanır. "Yazıçı" nəşriyyatında işıq üzü görmüş bu kitabın redaktoru Azərbaycan EA-nın müxbir üzvü Əziz Mirəhmədov, rəyçi Azərbaycan EA-nın müxbir üzvü Bəkir Nəbiyevdir".

Azərbaycan ədəbiyyatının mürəkkəb bir mərhələsinə XIX əsrin sonu, XX əsrin əvvəllərində (1880-1905) maarifçi-realist ədəbi hərəkatın tədqiqinə həsr olunmuş monoqrafiyada diqqəti

cəlb edən əsas cəhətlərdən biri alimin şablonluqdan qaçması, ənənədən fərqli olaraq mövzuya, onun təhlilinə müstəqil, orijinal anaşma meyarıdırsa, digəri, faktların və müddəaların güclü ümumiləşdirməsidir. Milli maarifçilik və onun bədii ədəbiyyata təsiri maarifçi realizmin spesifikası, Axundvdan sonra Azərbaycan ədəbiyyatının yüksəliş yolu və s. təsdiqini məsələlər haqqında ətraflı məlumat verən professor Xeyrulla Məmmədovun irəli sürdüyü fikirlər, elm təsdiqini isbat edən konkret nəticələr özünün orijinallığı, elmi tutumu, müasir metodoloji səviyyəsi ilə diqqəti cəlb edir". (10, 24)

Vüqar Əhmədin elmi yaradıcılığında dəyərli ziyalı, redaktor, coğrafiyaşünas Qafur Rəşad Mirzəzadənin fəaliyyətinə həsr etdiyi "Ayineyi-millət" kitabı xüsusi önəm daşıyır. Hələ 1992-ci ildə "Maarif" nəşriyyatında dərc edilən kitaba qədər Qafur Rəşad irsi alimlərimiz tərəfindən tədqiq olunmamışdı. İlk dəfə olaraq məhz Vüqar Əhməd alimlik cəsarəti göstərərək Qafur Rəşad Mirzəzadəni xalqımıza tanıtdırdı: "Əsrimizin əvvəllərində meydana gəlmiş milli hərəkatlar sosial həyatın bütün sahələrində böyük canlanmaya səbəb oldu. O zamankı ictimai hadisələri tədqiq edərkən belə bir qənaətə gəlmək olur ki, xalqı milli dirçəliş hərəkatına qoşmaq üçün qabaqcıl ziyalıların hər biri imkan daxilində müəyyən faydalı iş görmüşdür. Vətənə və xalqa xidməti həyatının amalı sayan ziyalılardan biri də Qafur Rəşad Mirzəzadə olmuşdur. Ictimai fəaliyyətə birinci rus inqilabından sonra gələn və qısa müddətdə özünü geniş erudisiyaya malik ictimai xadim kimi tanıdan Qafur Rəşadın publisistik məqalələri, coğrafiyaya, riyaziyyat və ana dilinin tədrisinə dair dərslikləri, xüsusilə də uzun ömürlü uşaq jurnalı "Məktəb"in nəşri sahəsindəki böyük xidmətləri XX əsr Azərbaycan ədəbi və elmi ictimaiyyətinin diqqətini cəlb etmişdir... Bütün şüurlu fəaliyyəti dövründə Azərbaycan xalqının mədəni tərəqqisinə yardım göstərmək əzmilə çalışan görkəmli ziyalı 1908-ci ildə çap etdirdiyi ilk publisistik əsəri "Ayineyi-millət" də xalqımızın həyatının zəruri problemlərinə toxunmuş,

milli məktəblərin çoxaldılması, oğlan və qızların elmə cəlb edilməsi kimi vacib məsələlərdən bəhs etmiş, mətbuatın geniş yayılması ideyasını irəli sürmüşdür. "Ayineyi-millət":

"Düşmən bir olsa dəfi
asandır eyləmək,
Vay o zaman ki, yüz qoya hər
biri kənardan"

misraları ilə başlanır və əvvəldən axıradək cəhalətə, nadanlığa qarşı mübarizənin zəruriliyini təbliğ edir". (10, 15-16)

Kitabı təhlil edən şair Ağasəfa "Ayineyi- millət" məqaləsində yazır:

"Bütün ömrünü, həyatını, qüvvə və bacarığını xalqın, millətin maariflənməsi, oyanışına, ağ günə, işığa çıxmasına sərf edən, gecə-gündüz qələm çalan, millətlər içində millətini uca görmək istəyən, xalqın içində xalqa çıraq tutanlardan biri olan Qafur Rəşad Mirzəzadənin (1884-1943) kiçik həcmli, lakin dərin və geniş məzmunlu "Ayineyi-millət" ("Oyanız, qardaşlar"!) kitabı ilk dəfə 1908-ci ildə nəşr edilmişdir. Bu əsər vətənpərvər, millətsevər bir gəncin, bir işıqlı təfəkkür sahibinin ürək yanğısı, könül harayıdır. Əsərin müasirliyini, bu günlərimizlə səslənişi, həmahəngliyini duymuş, onu əski-ərəb əlifbasından kiril əlifbasına çevirib, "Maarif" nəşriyyatı vəsaiti hesabına oxuculara təqdim etmiş filologiya elmləri namizədi Vüqar Əhməd xeyirxah, dəyərli iş görmüşdür. Tərtibçi kitabın ön sözündə Qafur Rəşad Mirzəzadə haqqında müasirlərimizə elmi məlumat vermiş, ədibin həyat və yaradıcılığının, ictimai fəaliyyətinin mühüm cəhətlərini işıqlandırılmış, açıqlamışdır... Müəllif diqqəti ona cəlb etməyi vacib sayır ki, islam dinini, islam mədəniyyətini zərərli sayan əcnəbilərin bu dindən xəbərləri yoxdur. Onların nəzərini bu dinin müsbət tərəflərinə cəlb etmək lazımdır. Onların fikirləri qərəzlidir. "Onların bəzi səyi islamın gözü açılmağından çox qorxur. Zənn edirlər ki,

islam tərəqqi edib qüvvət tapsa, onlara ziyandır. Bu səbəbə islam mətbuatında bir ittihad ləfzi gördükdə "qoymayaq, panislamizm əmələ gəlir " deyə, bağırırlar". (12, 92-194)

1992-ci ildə Vüqar Əhmədin "Bilik" nəşriyyatında "Rus uşaq ədəbiyyatı və Azərbaycan" mövzusunda namizədlik işinin monoqrafiya şəklində çap olundu. XX əsrin 90-cı illərində qələmə alınan iri həmcli əsər müstəqil ədəbiyyatşünaslığımızda böyük hadisə kimi qəbul edildi. Vüqarın elmi rəhbəri filologiya elmləri doktoru, professor unudulmaz insan, sağlığında alimlik zirvəsini fəth edən Xeyrulla Məmmədov monoqrafiyaya yüksək qiymət vermişdi:

"Vüqar Əhmədin namizədlik dissertasiyanın elmi rəhbəri olmuşam, tədqiqat işinə qarşı çox məsuliyyətlə yanaşaraq monumental tədqiqat işi aparıb. Tədqiqat üzrə işləri zaman olduqca dəyərli nəticələr əldə edib. Gənc olmasına baxmayaraq öz tədqiqat işi ilə elmimizə layiqli töhfələr bəxş edib. Bir də onu qeyd edim ki, V.Əhməd sözdən lazımınca və dəyərincə istifadə etmək qüdrətinə malikdir. Vüqarın hər bir uğuruna sevinirəm və onun uğurlarını görəndə ustadı kimi fəxr edir, öyünürəm. Sevinirəm ki, yetişdirməm həm poeziya sahəsində, həm də ədəbiyyatşünaslıq elmində nailiyyət əldə edib.

Nəğməkar şair kimi mahnıları dillər əzbəridir. "Pişəvəri" kimi tarixi bir əsərin müəllifidir.

Vüqara uğurlar arzulayıram!" (3, 10)

Əsər alimlərimiz tərəfindən ədəbi əlaqələrin yaxınlaşmasında körpü olacağı, xüsusi əhəmiyyət kəsb edəcəyini rəylərində vurğuladılar. Bu mənada professor Buludxan Xəlilovun " Yeni Dünya" qəzetinin 1 dekabr 1993-cü il sayında kitab barədə dərc etdirdiyi yazıda oxuyuruq:

"Monoqrafiya iki fəsildən ibarətdir. I fəsildə "XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri tarixinə nəzər salınır – A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundov kimi sənətkarların yaratdıqları ənənə qiymətləndirilir. XIX əsrin 70-ci illərindən rus ədəbiyyatına olan meylin səbəbləri açıqlanır. Peşəkar

tərcüməçilərin (F.Köçərli, S.M.Qənizadə, R.Əfəndiyev, S.Vəlibəyov və başqaları) xidməti sahəsində İ.A.Krılov, A.S.Puşkin, M.Y.Lermontov, M.A.Nekrasov, L.N.Tolstoy və s. sənətkarlardan Azərbaycan dilinə çevrilmiş nümunələrin "Rus-müsəlman məktəblərində tədris olunması ehtiyacdan yaranmış zərurət kimi izah olunur. Uşaq ədəbiyyatı uğrunda mübarizədə siyasi məfkurə baxımından fərqlənən C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, S.M.Qənizadə, R.Əfəndiyev və başqalarının eyni dərəcədə narahatlığı uşaq tərbiyəsi sahəsində ziyalı xidməti kimi mənalanır". (2, 196)

Bütövlükdə Vüqar Əhmədin ədəbiyyatşünaslıq faəliyyətinə nəzər yetirdikdə aydınca duyulur ki, tədqiqatçı bu sahənin inkşafında qlobal işlər görüb. Neçə-neçə kitabları, ədəbi məqalələri nəşr olunub. Bu baxımdan onun ədəbiyyatşünaslıq fəaliyyəti alimlərimizin nəzər-diqqətindən yayınmayıb. Vüqar Əhmədin "Söz, musiqi, bir də mən.." kitabına akademik Vasim Məmmədəliyev "Vüqar Əhmədin ədəbiyyatşünas alim, musiqi tədqiqatçısı çoxşaxəli yaradıcılığına baxış" adlı ön sözdə oxuyuruq: "M.C.Pişəvərinin həyatı, mühiti, yaradıcılığı ilə bağlı monumental tədqiqatı ilə ədəbiyyatşünaslığımıza öz inamlı imzasını atan və gənc bir tədqiqatçı-alim kimi özünü təsdiq edən Vüqar Əhməd təkcə nəğməkar şair deyil, həm də istedadlı ədəbiyyatşünas alim, musiqi tədqiqatçısı kimi çoxşaxəli yaradıcılığı ilə ədəbiyyatsevər, musiqi duyumlu ədəbi ictimaiyyətin diqqətini özünə cəlb edə bilmişdir.

Vüqar Əhmədin bir ədəbiyyatşünas alim, musiqi tədqiqatçısı kimi yaradıcılığının məhsulu olan "Söz, musiqi, bir də mən..." adlı kitabı tədqiqatçı alimin müxtəlif illərdə qələmə aldığı məqalələrin toplusudur. Kitab 7 bölmədən ibarətdir". (2-3)

Vüqar Əhmədin elmi yaradıcılığında ədəbiyyatşünaslıq əsas tərkib hissəsi təşkil edir desək qətiyyən yanılmarıq. Belə ki, ədəbiyyatşünaslığımıza dair bəxş etdiyi "Ədəbiyyatşünaslıq" (filologiya fakültəsinin tələbələri üçün dərslik) kitabı (13) mühüm əhəmiyyət kəsb edir. Cəsarətlə demək lazımdır ki, bu

günə qədər ədəbiyyatşünaslığa yazılmış kitablar və dərsliklər arasında Vüqar Əhmədin fundamental əsəri xüsusi yer tutur. Əsərin dəyərini pedaqoji elmlər namizədi Nazilə Abdullazadə önə çəkərək yazır: "Filologiya elmləri doktoru, professor, söz sərrafı Vüqar Əhmədin gərgin tədqiqatçılıq axtarışlarının məhsulu olan "Ədəbiyyatşünaslıq" əsəri bu mənada çağdaş ədəbiyyat tariximizdə vəsait kimi gənc alim və tədqiqatçılara, ədəbiyyatsevərlərə, ali məktəb tələbələrinə əvəzsiz töhfədir. Vəsaitin elmi dəyəri, hər şeydən əvvəl, onun müasirliklə köklənməsində, özünəqədərki tədqiqatlardan orijinallığı ilə seçilməsindədir. Vüqar Əhməd ədəbi-nəzəri məsələlərin tədqiqi tarixinə dialektik səpkidə yanaşmış, gəldiyi nəticələri faktlarla əsaslandırmış, bədii nümunələrin seçiminə xüsusi diqqət yetirmişdir. O, yeri gəldikcə, əsrlər boyu hökmünü saxlayan tərifləri kifayətlənməmiş, öz mülahizələrini irəli sürərək sənətin doğruçuluğa xidmət etməli olduğunu bir daha sübuta yetirmişdir". (13, 3)

Kitabın başlıca qayəsi ondan ibarətdir ki, tədqiqatçı fikirlərini, mülahizələrini tam şəkildə cəm halda sistemləşdirərək ortaya qoya bilmişdir. Alimin dili lirizmə, düşüncələrə, duyğulara köklənir. Bizə elə gəlir ki, həssaslıq Vüqar Əhməd yaradıcılığının başlıca cəhətlərindəndir. Onun həyata həssas münasibəti olduqca səmimidir, ürəkaçandır. Əsərin müqəddiməsi yəhudi əsilli macar şərqşünası Vamberinin: "Millətləri mühafizə edən qalalar, istehkamlar deyil, zəngin insan ilə zəngin ədəbiyyatdır" ölməz fikirləri ilə açılır. (13, 5) Bu böyük fəlsəfi həqiqətdir. Hər bir insanı həyatda etdiyi əməllər ucaldır, təmənnasız yaxşılıqlar, nəcibliklər ucaldır, bəzən də pisliklər öz yolundan döndərir.

Yaxşı deyiblər "Həyat səhnə, insanlar aktyordur". Bu mənada Vüqar Əhmədin insanlığı ilə sənətkarlığı onu bütövləşdirir. Oxucuya daha da yaxınlaşdırır.

Ədəbiyyatşünaslıq əsərində ədəbiyyat və insan məfhumu barədə Vüqar Əhmədin fikirləri diqqətəlayiqdir.

"Ədəbiyyatın ən böyük əhəmiyyəti onun insanlarda bir qayə və ideal doğurmasından ibarətdir. Əsrlərdən bəri dühaların bədii fəhmin işığında yaratdığı nəfis əsərlər insanlığı yüksək bir ideala, ülvi bir həqiqətə sövq etmişdir.

Sənətkarlar həyatda adi gözlərin görmədiyi, adi qafaların düşünmədiyi bir çox həqiqətləri kəşf etmişlər. O, "rentgen" şüası kimi hər şəxsin, hər fərdin ruhuna, qəlbinə girir, onun işıqlı və qaranlıq cəhətlərini müayinə edərək bir fotoqraf kimi rəsmini alır və olduğu kimi açıq-aydın bir surətdə göstərir. Oxucular bu əsərlərdə öz ruhlarının, qəlblərinin yaxşı və pis cəhətlərini görməklə özlərini islah etməyə çalışırlar ki, bu da ədəbiyyatın çox böyük tərbiyəvi əhəmiyyətə malik olduğunu anladır". (13, 5-6)

Kitabda Vüqar Əhməd ədəbiyyatşünaslığın elmi əsaslarını bölmələr üzrə təhlil edir. Müəllif "Ədəbiyyatşünaslığın şöbələri" adlanan bölmədə aşağıdakıları çözələyir: "Ədəbiyyatın qanunauyğun inkşafı və spesifik xüsusiyyətlərindən bəhs edən ədəbiyyaşünaslıq bədii əsərin elmi kontekstini, tipoloji səpgisini, mövzu və problemlər kompleksini, ideya-bədii səviyyəsini, əlvanlıq və zənginliyini, hər bir sənətkarın spesifik bir fərdi əlavəsini, bədii ədanı, ədəbi-bədii fikrin inkşafını müəyyənləşdirən, eyni zamanda qiymətləndirən, gənc ədəbiyyatçısını bütövlükdə ədəbi prosesi öyrənməyə və dərk etməyə istiqamətləndirən olduqca geniş bir sahədir". (13, 7)

Məlumdur ki, ədəbiyyatşünaslıq üç bölməyə ayrılır: Ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, ədəbi tənqid. Hər üç bölmənin məramını, xüsusiyyətlərini, ədəbiyyat tarixini, ədəbi tənqidin əsas mahiyyətini Vüqar Əhməd ədəbiyyatşünas kimi dərin zəkayla, yüksək intellektlə, müdrikcəsinə açа bilmişdir. Aristotel, Bualo, Xətib Təbrizi, F.B.Köçərli, İ.Kraçkovksi, H.Araslı, M.S.Ordubadi və başqalarının elm dünyasına bəxş etdikləri incilərin, əvəzsiz nümunələr yaradan qüdrətli ədəbi şəxslərin xidmətlərini əhatəli şəkildə alimlik süzgəcindən keçirərək yüksək qiymət verir.

Kitabın başlıca mahiyyəti ondan ibarətdir ki, Vüqar Əhməd elmimizdə heç vaxt öyrənilməyən və tədqiqat obyektindən müəyyən mənada kənarda qalan bəlağət elmi haqqında yenilikçi alim kimi çıxış etməsidir. Vüqar Əhməd bəlağət elminin yaranmasının ta qədim dövrlərə yəni (e.ə IV-III əsrlər) təsadüf etdiyini vurğulayaraq, yeni fikirlər irəli sürərək, apardığı araşdırmalar nəticəsində yazır: "Ərəb-müsəlman mədəni mühitində antik ritorikadan faydalanan müəlliflər həmin sistemdən qat-qat əhatəli və güclü olan bəlağət elmini yaratdılar. Əgər ilkin mərhələdə bəlağət Quranın ecazı- yəni füsunkarlığı məsələlərini öyrənirdisə, sonrakı inkişaf dövründə ədəbi tənqid, bədii-estetik təfəkkür sistemi və poetik qəliblər haqqında geniş bir təlim şəklində formalaşdı. Buradan ortaya belə bir sual çıxa bilər ki, bəlağət elmi hansı səpkidə -ədəbiyyatşünaslıq, yoxsa dilçilik baxımından bir elm kimi təsbit edilmişdir?

Bəlağət elminin ədəbiyyatşünaslıq və linqvistik cəhətləri bir-birilə elə qarşılıqlı vəhdət təşkil edir ki, hətta klassiklər nə qədər çalışmışdılarsa da bunların arasında dəqiq sərhəd qoya bilməmişlər. Bəlağət – dil, ədəbiyyatşünaslıq və üslubiyyat haqqında bir çox ümumi cəhətləri özündə birləşdirir". (13, 49)

Bundan başqa əsərə daxil edilmiş bölmələrdə Vüqar Əhmədin bir ədəbiyyatşünas qismində apardığı elmi təhlillər diqqəti xüsusilə cəlb edir. "Müasir ədəbiyyatda yeni bənd növləri", "Poema", "Azərbaycan şeirində vəzn", "Əruz vəzni", "Sərbəst vəzn", "Lirika", "Aşıq yaradıcılığı", "Yeni ədəbiyyatda şeirin janrları", "Epik növ", "Ədəbi metod və cərəyanlar", "Ədəbiyyatda islam dininin rolu və mövqeyi" bölmələrində Vüqar Əhmədin Azərbaycan şeirini, bədii nümunələri mükəmməl, dərindən bilməsi daha çox səciyyəvi xarakter daşıyır. Gənc yaşında zəngin daxili aləmi və elmi biliklərə malik olmaqla belə bir mötəbər mövzuya müraciət etmiş Vüqar Əhməd milli ədəbiyyatşünaslığa yeniliklər gətirmişdir. Əsər çox qısa müddətdə alimlərizin, ziyalılarımızın diqqətini cəlb etdi. Onlar yazılı, bəzən də şifahi şəkildə müəlliflə polemika edir, mətbuat-

da öz fikirlərini bildirirdilər. "Azad Azərbaycan" qəzetinin (9 aprel 2008-ci il, №47) ci sayında "Ədəbiyyatşünaslığımıza yeni bir töfhə" məqaləsində tanınmış pedaqogika üzrə fəksəfə doktoru Nazilə Abdullazadə və yazıçı-rejissor Ağalar İdrisoğlu əsər barədə belə yazırlar. "Vüqar Əhmədin ədəbiyyatşünaslıq əsəri ali və orta məktəb müəllimləri, tələbələri, şagirdlər və geniş oxucu kütləsi üçün maraqlı bir əsərdir, oxunaqlı kitabdır" (14). Onu da qeyd etmək lazımdır ki, akademik Vasim Məmmədəliyev kitabın elmi redaktorudur. Filologiya elmləri doktoru, AMİ-nin Azərbaycan dili, ədəbiyyatı və tədrisi metodikası kafedrasının müdiri Fikrət Xalıqov, filologiya elmləri namizədi, MEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "İran filologiyası" şöbəsinin baş elmi işçisi, mərhum yazıçımız Əlibala Hacızadə, AMİ-nın Azərbaycan dili, ədəbiyyatı və tədrisi metodikası kafedrasının baş müəllimi, pedaqoji elmlər namizədi Nazilə Abdullazadə əsərə rəy vermişlər. AMEA-nın Nizamı adına Ədəbiyyat İnstitutunda 27 may 2011-ci ildə keçirilən "Azərbaycan Ədəbiyyat Nəzəriyyəsi elminin vəziyyəti və vəzifələri" müsavirəsində filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu "Nəzəri-estetik fikrimiz" və Vüqar Əhmədin "Ədəbiyyatşünaslıq" kitabı haqqında geniş məruzə çıxış etmişdir: (15, 57-66) «Vüqar Əhmədin yaradıcılıq yolu» monoqrafiyasının həmmüəllifi olan Rasim Nəbioğlunun həmin məruzəsini olduğu kimi kitaba daxil edirik: "Tarixən fəlsəfənin bətnində təşəkkül taparaq yaranmış dünya nəzəri-estetik və ədəbi-elmi fikri antik dövrdən bu günə qədər keçdiyi mürəkkəb inkişaf və təkamül mərhələlərində incəsənətin və bədii yaradıcılığın daxili qanunauyğunluqlarını, mövzu, məzmun, ideya keyfiyyətlərini, habelə növ, janr, forma, şəkil, dil, üslub xüsusiyyətlərini, sənətdə gözəlliyi, həmçinin digər kateqoriya və anlayışları təhlil və tədqiq etməklə, ümumiləşdirici qənaət, mühakimə və hökmlər verməklə işləyib araşdırır.

İncəsənətin, bədii yaradıcılığın ən yüksək, ali növü olan ədəbiyyat və ya söz sənəti özünün spesifik xüsusiyyətləri ilə

ədəbiyyatşünaslıq adlanan elm sahəsini meydana gətirib doğurmuşdur. Miladdan öncə - antik dövrdən başlayaraq XX əsrin birinci onilliyi daxil olmaqla əvvəllərinə qədərki bir zaman ərzində gözəllik və incəsənət fəlsəfəsindən qidalanıb bəhrələnən Qərb-Şərq nəzəri-estetik və ədəbi-elmi düşüncə sahəsində Zərdüşt ("Avesta"), Pifaqor, Sokrat, Platon, Aristotel, Horatsi, Lukretsi Kar, Eliy Donat, Xəlil ibn Əhməd, Fərabi, İbn Sina, İbn Qüteybə, Xətib Təbrizi, Nəsrəddin Tusi, Dante, Bokkaço, Patritsi, Drayden, Bualo, Lessinq, Yum, Byörk, Vinkelman, Kant, Herder, Houm, Baumqarten, Didro, Volter, Helvetsi, Dyubo, Conson, Gete, Şiller, Şlegel qardaşları, Şellinq, Hegel, Ralf Emerson, Belinski, Gertsen, Dobrolyubov, Pisarev, Lonqfello, Madzini, Çernışevski, Veselovski, T.Eliot, M.F.Axundzadə, Merinq, Orteqi-i-Qaset, İ.Ten, Sent-Byov, N.A.Berdyayev, Haydegger, A.Berqson, Hartman, Freyd, S.N.Bulqakov, Zolya, Vyaçeslav İvanov, Plexanov, Brandes, K.Kautski, F.Köçərli, Ə.Hüseynzadə və digər mütəfəkkir və nəzəriyyəçi alimlər yazıb yaratmışlar və ya müəyyən dərəcədə fikirlər söyləmişlər.

XIX əsrin əvvəllərindən - XX əsrin ilk iki onilliyinə qədər Çar Rusiyası, daha sonra xalqımıza 23 aydan ibarət qısa müddətli, lakin məzmunlu müstəqillik dövrü yaşatmış Azərbaycan Xalq Gümhuriyyətindən sonrakı dövrdə - 1920-ci ildən kommunist-sovet imperiyası tərkibində olarkən milli mədəniyyətimiz, o cümlədən ədəbiyyatımız, incəsənətimiz, nəzəri-estetik fikrimiz, ədəbiyyatşünaslığımız bir tərəfdən ümummüsəlman Şərq özülündə, digər tərəfdən ateist-materialist şəraitdə və mühitdə bu və ya digər dərəcədə inkişaf edib zənginləşdi. Keçmiş SSRİ, indiki MDB məkanında, habelə xaricdə marksizm-leninzmdən irəli gələn müəyyən siyasi-ideoloji tendensiya ilə olsa da Maksim Qorki, A.V.Lunaçarski, V.V.Vorovski, M.S.Ol-minski, Qramşi, Foks, Brext, Araqon və b., həmin dövrdə və daha sonralar P.S.Koqan, Bartold, Krımski, Kraçkovski, Konrad, Bertels, Fliştinski, Losev, Jir-

munski, M.M.Baxtin, V.V.Vinoqradov, L.İ.Timofeyev, C.B.Turayev, T.L.Abramoviç, Pospelov, Lifşits, Yuri Borev, İ.V.Stebleva, Saqadeyev, B.Y.Şidfar, M.K.Həmrayev və b. istər Şərq və Qərb estetik və ədəbi-elmi düşüncə tarixinin öyrənilməsinə, istərsə də nəzəri-estetik fikrin özünə dəyərli töhfələr verdilər. Bu dövrdə Yaxın Şərqdə və Azərbaycanda Şəmsəddin Sami, Məhəmmədəli Tərbiyət, Məhəmməd Fuad Köprülzadə, Əhməd Ağaoğlu, Abdulla Sur, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn (Kazımoğlu), İsmayıl Hikmət, Əmin Abid və başqaları ədəbiyyatşünaslığı şərhçilik və təzkiräçiliyin ibtidai səviyyəsindən elmi- nəzəri yüksəkliyə qaldırmış sələflərinin yaradıcılığına istinadla ayrı-ayrılıqda müsəlman - Şərq zəminində ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi və ədəbi tənqid qollarının müstəqil təşəkkül və inkişafına təkan verdilər.

Keçmiş sovet dövründə nəzəri-estetik fikir sahəsində və ədəbiyyatşünaslıqda gedən inkişaf prosesləri, həmçinin baş qaldıran bəzi mənfi hallar, o cümlədən proletkultçuluq, vulqar sosiologizm, konfliktsizlik nəzəriyyəsi kimi bir sıra neqativ hadisələr Azərbaycan ədəbi və elmi mühitinə də nüfuz etdi. Bununla belə, XX əsrin 20-80-ci illərində milli əsaslı ədəbi-elmi və nəzəri-estetik düşüncə ilə yanaşı, mətnşünaslıq və biblioqrafiya kimi əlavə köməkçi sahələr də Bəkir Çobanzadə, Xəlil İbrahim, Əli Nazim, Mustafa Quliyev, Hənəfi Zeynallı, Məmməd Arif, Məmməd Cəfər, Məmməd Kazım Ələkbərli, Mehdi Hüseyn, Həmid Araslı, Mirzə İbrahimov, Səməd Vurğun, Əli Sultanlı, Cəfər Xəndan, Mir Cəlal, Mikayıl Rəfili, Əkrəm Cəfər, Mübariz Əlizadə, Feyzulla Qasımzadə, Aslan Aslanov, Əziz Mirəhmədov, Mehdi Məmmədov, Fuad Qasımzadə, Kamal Talıbzadə, Əkbər Ağayev, Mirzağa Quluzadə, Pənah Xəlilov, Kamran Məmmədov, Orucəli Həsənov, Hidayət Əfəndiyev, Malik Mahmudov, Rüstəm Əliyev, Cahangir Qəhrəmanov, Seyfulla Əsədullayev, Xalid Əlimirzəyev, Azadə Rüstəmova, Cəfər Cəfərov, Məsud Əlioğlu, Mirəli Seyidov,

Əlyar Səfərli, Bəkir Nəbiyev, Arif Hacıyev, Xəlil Yusifov, Firidun Hüseynov, İmamverdi Həmidov, Nüşabə Araslı, Fəridə Vəlixanova, Qulu Xəlilov, Abbas Hacıyev, Gulrux Əlibəyova, Asif Əfəndiyev, Yusif Seyidov, Əhəd Hüseynov, Akif Hüseynli, İsrail Mustafayev, Xəlil Yusifov, Mehdi Kazımov, Sabir Əliyev, Mahirə Quliyeva, Yaşar Qarayev, Tofiq Hacıyev, Kamandar Şərifov, Arif Səfiyev, Nizaməddin Şəmsizadə, Nizami Cəfərov, Kamal Abdulla, Aydın Məmmdəov, Şamil Salmanov, Osman Əfəndiyev, Şirindil Alışanlı, Nadir Cabbarlı, Teymur Kərimli, Niyazi Mehdi, Rəhim Əliyev, Elməddin Əlibəyzadə, Qorxmaz Quliyev, Zeydulla Ağayev, Akif Bayramov, Vaqif Arzumanlı, Nazif Qəhrəmanlı, Zaman Əsgərli, Rafael Hüseynov, Elçin, Anar, Vaqif Yusifli, İsa Həbibbəyli, Kamil Allahyarov və b.-nın timsalında inkişaf edib zənginləşdi.

Vaxtilə müsəlman Şərqində geniş yayılmış ədəbi-poetik antologiya, təzkirə, cüng və müntəxəbatlardakı, daha sonrakı dövrlərdə bədii ədəbiyyatin qayda-qanunlarından bəhs edən "Qəvaidi-ədəbiyyə" tipli kitablardakı nəzəri-elmi fikirlərin müasir günlərimizdə Qərb ədəbi-estetik düşüncəsinə inteqrasiya və sintez olmaqla "Ədəbiyyat nəzəriyyəsi", "Ədəbiyyatşünaslığa giriş", "Ədəbiyyatşünaslığın əsasları" və s. bu kimi kitab, monoqrafiya, dərslik, dərs vəsaiti adları altında nəşri dövrün, zamamn zəruri ehtiyacından irəli gəlmişdir.

Son vaxtlar ədəbiyyatşünaslıq üzrə yerli əhəmiyyətli, lokal təyinatlı bir sıra dərsliklər meydana çıxmış, sanki yalnız müəyyən bir ali məktəb, universitet üçün nəzərdə tutulan kitablar nəşr olunmuşdur. Bu cür dərslik və kitablardan biri də Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) professoru, filologiya elmləri doktoru, tanınmış şair və ədəbiyyatşünäs alim Vüqar Mikayıl oğlu Əhmədin "Ədəbiyyatşünaslıq" dərsliyidir. Bu dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 dekabr 2007-ci il tarixli 1282 saylı əmri ilə təsdiq edilmişdir. Dərslik AMİ tərəfindən filologiya fakültəsinin tələbələri üçün "HS 020200 - Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə

2008-ci ildə "Müəllim" nəşriyyatında işıq üzü görmüşdür. Cəmi 150 səhifədən ibarət olan bu kitabın elmi redaktoru akademik Vasim Məmmədəliyevdir. Dərsliyin üç nəfər rəyçisi vardır: AMİ-nin Azərbaycan dili, ədəbiyyati və tədrisi metodikası kafedrasının müdiri, filologiya elmləri doktoru Fikrət Xalıqov, AMEA Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin keçmiş baş elmi işçisi, tanınmış yazıçı, mərhum Əlibala Hacızadə və nəhayət, AMİ-nin Azərbaycan dili, ədəbiyyatı və tədrisi metodikası kafedrasının baş müəllimi, pedaqoji elmlər namizədi Nazilə Abdullazadə.

Ədəbiyyatşünaslığın üç bölməsinə dair anlayış və problemlərin təhlil və şərhindəri ibarət olan dərslik kimi yazılmış bu kitabın bir sıra məziyyətləri vardır. Hər şeydən əvvəl, müəllif haqqında bəhs etdiyi ədəbi-elmi anlayış və problemlərin yığcam məzmununu ədəbi dilin sadə elmi üslubunda oxucusuna, əsasən də konkret ünvanı məlum olan tələbə auditoriyasına çatdırmağa çalışır və bu məqsədinə xeyli dərəcədə nail ola bilir.

Kitab rəyçilərdən birinin - N.Abdullazadənin "Ön söz"ü ilə açılır. Sonra müəllifin "Müqəddimə"si gəlir. Vüqar Əhməd hərtərəfli olaraq ədəbiyyatşünaslığın şöbələri, ədəbi-nəzəri fikrin inkişafı və mərhələləri, Yaxın Şərq xalqlarına məxsus spesifik müstəqil bir maarifçilik hərəkatı ilə yanaşı, müstəqil bir intibah mədəniyyəti, məzmun və forma, bədii kompozisiya və süjet, şeirşünaslığın əsas problemləri, Azərbaycan şeirində vəzn, aşıq yaradıcılığı, yazılı ədəbiyyatda şeirin janrları,lirika, epik növ, ədəbi metod və cərəyanlar və s. mövzuları əhatə etməyə və bununla da tələbələrə əsaslı məlumat verməyə səy göstərmişdir. Dərslikdə "Azərbaycan ədəbiyyatında ilahiyyat fəlsəfəsinin rolu", "Ədəbiyyatda islam dininin rolu və mövqeyi" kimi diqqəti cəlb edən mövzular üzrə materialların verilməsini təqdir edərək göstərməliyik ki, müəllifin bu münasibətlə apardığı ədəbi-elmi təhlil və şərhlərə heç də hər bir dərslikdə və ya dərs vəsaitində rast gəlmək olmur. Müəllif

haqlı olaraq göstərir ki, sovetlər birliyi dönəmində Azərbaycanda müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərim bir dəfə də olsun nəşr edilməmiş, islama, onun təliminə, əsas ehkamlarına, fəlsəfəsinə dair tədqiqat əsəri belə yazılmamışdır (13, 32). V.Əhməd daha sonra yazır: "Ateizm siyasəti nəticəsində islam dini, ərəb dili ilə bağlı olan, hətta ərəb əlifbası ilə ana dilimizdə yazılmış elm və mədəniyyətimizin böyük bir irsini təşkil edən əlyazmalar, kitablar yandırılıb məhv edilmişdir. Əski əlifbamız əlimizdən alınmış, bu əlifbada yazılmış on minlərlə əsərlərə, məcmuə, qəzetlərə biganə qalmışıq. İqtisadi-siyasi və mədəni həyatımızda vaxtilə mühüm rol oynamış dini mərkəzlər... torpaq üzərində bizə vətəndaşlıq hüququ verən maddi-mənəvi pasportlarımız, tarixi abidələrimiz dağılıb yerlə yeksan edilmişdir... Sovet istilası ədəbiyyatımızın maneəsiz irəliləməsi üçün əngəllər törətdi. Milli ruha yabançı olan kommunist hökuməti formaca milli olan ədəbiyyata əvvəlcə guya demokratikcəsinə yanaşdısa, lakin bir qədər sonra onu buxovlayıb öz istədiyi şəklə salmağa çalışdı" (13, 33) və s. Əlbəttə, müəllif müstəqillik dövründə dəfələrlə deyilmiş bu fikirlərlə heç də Amerika kəşf etmir. Lakin o, dərslik vasitəsilə gəncliyi tarixi həqiqətlərə ayıq gözlə baxmağa sövq edir. Bunun isə milli-mədəni və tərbiyəvi əhəmiyyəti misilsizdir.

Dərslikdə diqqəti cəlb edən mövzulardan biri də "Bəlağət elmi" haqqında verilən məlumatdır. Fikrimizcə, müəllifin bu mövzuda yığcam şəkildə verdiyi təhlil və şərhlər tələbələr və gənc mütəxəssislər üçün çox faydalı ola bilər.

Vüqar Əhməd öz təhlil və şərhlərini konkret ədəbi materiallar əsasında apardığına görə onun nəzəri mühakimə və düşüncələri predmetli olub, oxucusunda zəruri bilik və məlumatın yaranması üçün geniş imkanlar açır. Burada klassik Şərq ədəbiyyatının, o cümlədən milli söz sənətimizin klassiklərinin ən görkəmli nümayəndələrinin bədii əsərlərindən örnəklərlə rastlaşırıq. Çox yaxşı haldır ki, müəllif poeziyamızın XX əsr, habelə müasir və ən müasir nümayəndələrinin əsərlərinə də

müraciət etmişdir. Dərslikdə qədim və zəngin folklor nümunələrimizlə - bayatı, holavar, sayaçı sözlər, habelə Alp Ər Tunqa (Əfrasiyab) əfsanəsi, mərsiyələrlə (sağu) yanaşı, müsəlman - Şərq dünyasından Mahmud Qaşqari və Azərbaycan - türk ədəbiyyatından Nizami, Nəsimi, Füzuli, Nəbati, M.P.Vaqif, S.Ə.Şirvani, Hüseyn Cavid, Məmmədhüseyn Şəhriyar, Səməd Vurğun, M.Dilbazi, Ramiz Rövşən, Musa Ələkbərli və digər bu kimi görkəmli sənətkarların və nisbətən cavan müəlliflərin adları bir sırada dayanır.

Vüqar Əhməd görkəmli nəzəriyyəçi alimlərin, estetiklərin, şərqşünasların, ədəbiyyatçıların fikirlərinə gen-bol istinad edir, öz şərh və təhlillərini inandırıcı şəkildə arqumentləşdirir.

Bütün bunlarla bərabər, Vüqar Əhmədin "Ədəbiyyatşünaslıq" adlı dərsliyində müəyyən qüsur, xəta və çatışmazlıqlar da müşahidə etdik.

Hər şeydən əvvəl, kitabın titul vərəqində onun dərslik olduğu göstərilsə də annotasiya və ön sözdə kitab gah dərslik, gah da dərs vəsaiti kimi təqdim edilir. Bizə belə gəlir ki, müəllif, elmi redaktor və üç nəfər rəyçi Təhsil Nazirliyinin yuxarıda sözügedən əmrindən çıxış edərək kitabın dərslik, yoxsa dərs vəsaiti olmasını qəti şəkildə müəyyənləşdirməli idilər.

Digər tərəfdən, Vüqar Əhmədin bu kitabı sadə üslubda yazılmasına baxmayaraq o, dərslik və dərs vəsaiti üçün zəruri olan bir sıra keyfiyyətlərdən məhrumdur. Birinci növbədə, bildiyimiz kimi, dərslik və vəsaitlərdə əsasən sabitləşib qərarlaşmış, ümumən elmi-pedaqoji ictimaiyyət tərəfindən qəbul edilmiş hökm və qənaətlər təsbit edilir. Tədqiqat və araşdırmalarda, o cümlədən monoqrafiyalarda adətən çox geniş yer alan elmi mübahisələr, polemikalar oxucuda, indiki halda isə elmi bilikləri, dünyagörüşü, mənəvi-əxlaqi aləmi hələ tam formalaşmamış gənc tələbələrdə müəyyən çaşqınlıq, şübhə və tərəddüdlər yarada bildiyinə görə, vəsait və dərsliklər üçün səciyyəvi deyil. Bu baxımdan səhifə 54, 55 və s. - də bədii müqayisə və digər məsələlər ilə əlaqədar polemikaların,

müxtəlif fikirlərin toqquşmasının kitabda verilməsini biz qüsur hesab edirik.

Kitabda müəyyən təkrarlar da özünü göstərir. Məsələn, lirika ilə əlaqədar həm "Lirika" (13, 94-100), həm də "Yazılı ədəbiyyatda şeirin janrları" (13, l01-113) bəhslərində verilmiş təxminən eyni məzmunlu məlumatlar bir- birinə çox yaxın və oxşardır.

Dərslikdəki bəzi bilgi və məlumatlar isə V.Əhməd tərəfindən elmi və pedaqoji ictimaiyyətə məlum olan ədəbiyyatlardan hazır şəkildə iqtibas edilmişdir. Doğrudur, müəllif bunu müəyyən yerlərdə özü də etiraf edir. Məsələn, "Əruz vəzni" bəhsinin (13, 76-92) görkəmli alim Əkrəm Cəfərin "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" kitabından istifadə edilməklə tərtib olunduğu göstərilir. Əlbəttə, çox mürəkkəb mövzu olan əruz haqqında hazır ədəbi-nəzəri materialı olduğu kimi hər hansı bir dərslikdə bəlkə də vermək olar. Bununla belə, fikrimizcə, dərslik müəllifi elmi monoqrafiyadan götürdüyü məlumatları ali məktəb üçün nəzərdə tutulmuş dərsliyin xarakterinə uyğunlaşdırmaqla tələbələrin səviyyəsində özününküləşdirib, sadələşdirib şərh etsə idi, onlar üçün daha faydalı olardı.

Kitabda bir sıra tarixi, elmi-məntiqi və üslubi xəta və səhvlərlə də üzləşirik. Məsələn, müəllif yazır: "...istər Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin, istərsə də başqa klassik sənətkarlarımızın yaradıcılığının ilham mənbəyi Qurani-Kərim və islam elmləri idi. Şübhəsiz ki, o vaxt nə materialist fikirlər, nə də uydurma sosialist-realizmi yox idi. Bu böyük sənətkarların bütün yaradıcılığının məntiqi nəticəsi müqəddəs Quranın müqəddəs ayələrinə, islam elmləri - fiqhə, fəlsəfə - hikmətə - işraqiliyə, sufizmə, peripatetizmə dayanır. Bundan əlavə bu mütəfəkkirlər nücum elmini, riyaziyyatı, tibb elmini, coğrafiyanı, incəsənəti, eyni zamanda bütün dünya tarixini çox mükəmməl surətdə bilirdilər" (13, 145). Özünün bəzi tavtaloji deyimlərinə baxmayaraq əsasən elmi məzmun daşıyan bu ab-

zasda-sosialist realizmi istisna olmaqla - o vaxt materialist fikirlərin olmadığına dair mülahizə tamamilə yanlışdır. Bildiyimiz kimi, hələ eramızdan əvvəl VI-V əsrlərdə Qədim Yunan fəlsəfəsinin Heraklit, Demokrit, Epikür kimi nümayəndələri, atomistlər, həmçinin Orta əsr müsəlman-Şərq fəlsəfəsinin mövhumata, xurafata, dini fanatizm və korafəhm zehniyyata zidd olan bir sıra azadfikirli mütəfəkkirləri, o cümlədən təqib və təzyiqlərə məruz qalmış, edam edilmiş bəzi sənətkarlar məhz bu və ya digər dərəcədə materialist ünsürlərlə zəngin olan dünyagörüşünə malik idilər.

Kitabdakı texniki təhriflərin, orfoqrafik səhvlərin də sayı çoxdur. Məsələn, bir çox şəxs adlarını oxuyub başa düşmək olmur ki, söhbət kimdən gedir. Bunu yalnız ehtimal etmək olur: Aistotel (Aristotel), Fikte (Fixte), Dikkeps (Dikkens), Vahid Dəstxurdu (Vəhid Dəstgirdi) və b. Böyük-kiçik hərflərin yeri bir sıra hallarda qarışıq salınır, düzgün bilinmir. Əruz vəzninə aid məlumatlarda bəhrlərin adı gah ehtiyac olmadan böyük hərflə, gah kiçik hərflə, gah yenə ehtiyac olmadan dırnaqla, gah da dırnaqsız yazılır. Münsərih bəhrinin adı isə həm mənasız şəkildə "müklərik", həm də düzgün "münsərih" və təhrif edilərək "müstərih" şəklində getmişdir.

Bizə belə gəlir ki, sözü gedən "Ədəbiyyatşünaslıq" dərsliyindəki səhv və qüsurları müəllifin özü qədər heç kim açıq-aşkar görə bilməz. Fikrimizcə, Vüqar Əhməd kitabının yeni nəşri üçün göstərdiyimiz və göstərmədiyimiz bu və ya digər elmi, üslubi və orfoqrafik səhv, xəta və çatışmazlıqları yeni nəşrdə diqqətlə təshih edib aradan qaldırmaqla və materialları əsaslı şəkildə işləməklə "Ədəbiyyatşünaslıq" dərsliyini müasir nəzəri-estetik və pedaqoji-didaktik tələblər baxımından ortaya qoya bilər.

Müstəqil dövlətçiliyimizin bərpasından keçmiş 20 il müddətində Azərbaycan nəzəri-estetik fikri və ədəbi-elmi düşüncəsi sürətlə inkişaf etməkdədir. Qloballaşmanın rəvac verdiyi mədəniyyətlərarası dialoq və inteqrasiya prosesləri ictimai şüu-

run bütün formalarında olduğu kimi gerçəkliyin, həyatın, cəmiyyətin, insanın fəlsəfi və estetik inikası və idrakında da yeni-yeni üfuqlərin fəthinə doğru genişlənməkdədir. Azərbaycanda estetikanın və ədəbiyyatşünaslığın inkişafi, genişlənməsi və dərinləşməsi isə zəruri ümummilli və ümumbəşəri tələblərlə şərtlənmişdir".

Yer üzünün ən təmiz, ən saf varlığı sayılan uşaqların layiqli vətəndaş kimi yetişməyində bədii ədəbiyyatın rolu əvəzsizdir. Bütövlükdə uşaq ədəbiyyatının əsas məqsəd və vəzifələri gələcəyimiz sayılan övladlarımızın müasir dünyagörüşünün günün tələbləri səviyyəsində formalaşdırması anlamını daşıyır. Uşaqlara ağılları kəsəri gündən vətəni ülvi məhəbbətlə sevmək hisslərini, torpaq uğrunda canından keçmək duyğularını aşılamaq ədəbiyyatın başlıca prinsiplərindən ibarətdir. Uşaq oxuduğu hər hansı bədii əsərdə bütün yuxarıda sadaladığım keyfiyyətləri əxz etməli, daxili aləmi zənginləşməli, ruhu bu yöndə yaşamalıdır. Azərbaycanda uşaq ədəbiyyatının təşəkkülü, tədqiq və tətbiq olunması, yaranmış problemlərin mühüm məsələ kimi aradan qaldırılmış qayğı XX əsrin 60-ci illərinə təsadüf edir. Bu sahədə elm xadimlərimizdən Bəkir Nəbiyevin, Xeyrulla Məmmədovun, Qara Namazovun, Əflatun Məmmədovun, Camal Əhmədovun, Aydın Haciyevin, Rafiq Yusifoğlunun, Baba Babayevin və başqalarının apardıqları tədqiqatlar qələmə alınmış, monoqrafiyalar yazılmış, dərs vəsaitləri uşaq ədəbiyyatımızın inkşafına dəstək olmuşdur. Bu baxımdan, pedaqoji elmlər namizədi Bilal Həsənlinin "Azərbaycan uşaq ədəbiyyatı" (mühazirə mətnləri) dərs vəsaitində müəllif yazır:

"Azərbaycan uşaq ədəbiyyatının keçdiyi tarixi inkşafın təbii və məntiqi nəticəsi kimi həmin ədəbiyyatı tədqiq edən uşaq ədəbiyyatı haqqında elm yaranmışdır. **Uşaq ədəbiyyatı haqqında elm əsrlər boyu bilavasitə uşaqlar üçün yaradılmış əsərlərin seçilməsi və qiymətləndirilməsi meyarlarını müəyyənləşdirir, həmin əsərlərin ədəbiyyat tarixində rolunu aydınlaşdırır, müasirlik baxımından əhəmiyyətini tədqiq**

edir". (16, 5)

Eyni zamanda, Bilal Həsənli 1-ci sinif üçün "Ana sözü" dərs vəsaitinə Vüqar Əhmədin "Vətəndir" şeirini daxil edib, körpə uşaqlar, birincilər bu şeiri sevə-sevə oxuyub, əzbərləyirlər. Şeir uşaqlarda vətənə məhəbbət, vətənpərvərlik hissi yaradır. Pedaqoji elmlər namizədi, dosent Vaqif Qurbanovun rus məktəblərinin 9-cu sinif şagirdləri üçün tərtib etdiyi "Azərbaycan dili" dərsliyində Vüqar Əhmədin "Xəzri" şeirinə "Anam mənim" mahnısı ilə bağlı oçerk yer alıb.

Şairin uşaqlar üçün yazdığı əsərləri eyni zamanda ali məktəblərdə də tədris olunur. Ali məktəblərin filologiya, ibtidai təhsil, məktəbəqədər tərbiyə fakültələrində uşaq ədəbiyyatı fənnindən mühazirə və seminarlarda keçirilir. Təsadüfi deyil ki, ali məktəblər üçün nəzərdə tutulmuş Bilal Həsənlinin "Azərbaycan uşaq ədəbiyyatı"nın dərs vəsaitinə, eləcə də şairin özünün yazdığı eyni adlı dərsliyə Vüqar Əhməd haqqında tədris proqramına uyğun olaraq oçerklər və yaradıcılığından nümunələr salınmışdır. Müəllifin öz dərsliyində təvazökarlıq prinsipi gözlənilərək onun haqqındakı oçerki Mövsüm Əhməd qələmə almışdır.

Uşaq ədəbiyyatının elmi baxımdan işlənməsi Vüqar Əhmədin yaradıcılığının başlıca qayəsini təşkil edir. Buna bariz nümunə olaraq Vüqar Əhmədin uzun illər bundan əvvəl işləyib hazırladığı "Rus uşaq ədəbiyyatı və Azərbaycan" monoqrafiyasının adını çəkmək yerinə düşərdi.

Azərbaycan-rus ədəbi əlaqələrinə bir daha toxunan Vüqar Əhməd monoqrafiyada uşaq ədəbiyyatı fonunda tədqiq edilmiş əsərləri təhlil edərək yazır:

"Uşaq ədəbiyyatı konteksində Azərbaycan-rus ədəbi əlaqələri filologiya elmləri namizədi Ə.Bağırovun "Lev Tolstoy və Azərbaycan" monoqrafiyasında təhlil edilmişdir. Lakin tədqiqatın adından da göründüyü kimi Ə.Bağırovun araşdırmalarında problem Lev Tolstoy yaradıcılığı dairəsində məhdudlaşmışdır. Müəllif ilk dəfə olaraq L.Tolstoyun Azərbaycan

dilinə tərcümə olunmuş əsərləri haqqında ətraflı məlumat vermiş, onların çevrilmə prinsiplərini müəyyənləşdirmiş, eyni zamanda milli uşaq ədəbiyyatına təsir məsələlərindən bəhs etməmişdir. Tədqiqatçı monoqrafiyanı ümumiyyətlə, Tolstoyun Azərbaycanla bağlılığı məsələsi, inqilabdan əvvəlki müxtəlif məsləkli mətbuatın ədibə baxışı, əsərlərinin tərcüməsi və bunların keyfiyyəti, Tolstoy ənənələrinin Azərbaycan ədəbiyyatında əksi kimi nəzəri və əməli əhəmiyyəti olan məsələlərin əksi kimi nəzəri və əməli əhəmiyyəti olan məsələlərin şərhinə həsr etmişdir". (1, 6)

Uşaq ədəbiyyatının təbliğində tərcümə məsələlərindən aydınlıq gətirən alim bu mühüm sahə ilə məşğul olan ziyalılarımızın gördüyü vacib işləri qabardaraq yazır:

"XIX əsrin sonu, XX əsrin ilk illərində Krılov təmsillərinə 60-a yaxın nümunə nəzm və nəsrlə dilimizə H.X.Qaradağı, M.Ə.Növrəs, R.Əfəndiyev, S.Hacıbəyov və b. tərəfindən tərcümə olunmuşdur. H.X.Qaradağı Krılovdan 27 təmsil tərcümə, təbdil və adaptasiya edib, "Vətən dili" dərsliyində dərc etdirmişdir". (1, 14)

Bütövlükdə Vüqar Əhməd ölməz ziyalımız H.X.Qaradağının tərcümə ilə bağlı xidmətlərini yüksək dəyərləndirərək yazır: "H.X.Qaradağinin Krılov təmsillərini tərcümə etməkdə məqsədi birinci növbədə uşaq mütaliəsi üçün ədəbiyyat yaratmaq işinə xidmət etməkdən ibarət idi. Bu onun tərcümələrinin xarakterini müəyyələşdirirdi. Ona görə də şair Krılov təmsillərini eynilə uşaqların mütaliəsinə verməyi məsləhət görməmişdir. O nəinki şairin uşaq şeirlərində rus dilinin zəngin ifadə tərzini, şən, sadə, lakin dərin mənalı yumorunu, xalq ədəbiyyatından gələn satiranı, hətta bir qism təmsilin bütün mətnini belə tərcümə etməyi məqsədə müvafiq hesab etməmişdir. O bu təmsillər üzərində ciddi əməliyyat aparandan sonra köhnə həmvətənlərinə müraciətin məqsədi aydınlaşır". (1, 15)

Monoqrafiyanın "Uşaq ədəbiyyatı uğrunda mübarizə bölməsi 1901-1917-ci illəri əhatə edir. Vüqar Əhməd bu dövrdə

baş verən ictimai-siyasi hadisələrə alim gözü ilə ekskurs edir. XX əsrin əvvəllərində xalq maarifi, milli mətbuat teatr və incəsənətin, xüsusilə uşaq ədəbiyyatının inkşafı uğrunda genişlənən mübarizələri ön plana çəkir: "Bu inqilablar dövründə xüsusi əhəmiyyət kəsb edən, millətin gələcək inkişafını təmin edə bilən yüksək səviyyəli vətəndaşlar tərbiyə edib yetişdirmək ideyası ilə bağlı məsələ idi. Ona görə də uşaq ədəbiyyatı qabaqcıl maarif və ədəbiyyat xadimləri tərəfindən mədəni tərəqqinin əsas amillərindən biri kimi qiymətləndirildi".

Elmi əsərdə müəllif XX əsrin ilk illərində yaranan uşaq ədəbiyyatının əsas ideyalarından söhbət açır: "Əsrin maarif xadimləri uşaq ədəbiyyatının qarşısında duran məsələlər haqqında mübahisə edir, onun məzmun, ideya və forması haqqında mühakimələr yürüdür, beləliklə, onun inkşafına istiqamət verməyə nail olurdular.

Bu baxımdan uşaq ədəbiyyatının məqsəd və vəzifələri onun funksiyaları, spesifik xüsusiyyətləri barədə irəli sürülmüş fikirlər və mülahizələr onun inkşaf xüsusiyyətlərini müəyyənləşdirmək baxımından diqqəti cəlb edir. Uşaq ədəbiyyatının qarşısında hansı vəzifələr dururdu, onun məqsədi nə idi və necə olmalı idi? Bu suallara əsrin əvvəlində nəşrə başlayan "Dəbistan" jurnalı cavab verirdi. Jurnalın mühərrirləri Ə.Cəfərzadə və M.H.Əfəndiyev "Dəbistan" jurnalının ilk nömrəsinə əlavə olaraq nəşr etdikləri "Valideynə məxsus vərəqə"də bu yüksək niyyətin həyata keçirmək üçün hər iki xalq müəllimi müxtəlif əqli keyfiyyətlərin inkşafına kömək edən əsərlərin yaradılması zərurətindən söhbət açırdılar: " Cümləmizə məlumdur ki, elm, mərifətə və əxlaq-ətvara dair maddələri qiraət etməklik uşağın ruhunu açıb, fikir və hissini oyadıb, qüvveyi-hafizələrin və qüvveyi-xəyalların zəngin edib onları növbənöv ali qüssələr və niyyətlər fikrinə salır". (1, 24-25)

Fikirlərini davam etdirən Vüqar Əhməd uşaq ədəbiyyatına ehtiyac olduğunu xüsusi vurğulayır: "Bütün bunlar XX əsrin başlanğıcında, dünyanın yeniləşdiyi dövrdə uşaq ədəbiyyatına

nə qədər ciddi ehtiyacın yarandığını göstərir. Əsrin ədəbi mühitində fəaliyyət göstərən ziyalılar belə bir fikri müdafiə edirdilər ki, uşaqların mütaliəsinə verilən ədəbi nümunələr yalnız xalqın ruhundan doğan şeylərdən ibarət olmalıdır. Bunu müvəqqəti siyasi azadlıqlar əldə etmiş və kökünə qayıtmağa imkan tapmış xalqın milli mənafeyi müdafiə edirdi. Ona görə də bu illərdə milli zəmində yaranmış orijinal əsərlərə yol açmaq məqsədilə kənardan gələn əsərlərə münasibət müəyyən qədər ciddi, hətta ziddiyətli, bir sıra hallarda tam subyektiv idi". (1, 26)

Rus uşaq ədəbiyyatının Azərbaycanda təbliği və yayılması yolları bölməsində Vüqar Əhməd uşaq ədəbiyyatının inşafı, Azərbaycan-rus ədəbi əlaqələr zəminində olduğunu qeyd edir: "Yeni yüzilliyin xüsusiyyətlərindən irəli gələcək bu əlaqələr daha məhsuldar və rəngarəng oldu. Lakin buna baxmayaraq XIX əsrin 80-90-cı illərində olduğu kimi təzə dövrdə də inkşaf yolu hamar olmalıdı. O manelərlə qarşılaşa-qarşılaşa, müəyyən fikir ixtilafları şəraitində irəlidədi. Belə ki, elan edilmiş müvəqqəti, azadlıqlardan sonra milli soykökə qayıdış meylinin qüvvətlənməsi, başqa sözlə desək, milli mənəvi sərvəti qısqanclıqla müdafiə səyləri bir sıra yazıçıları kənardan gətirilən fikirlərə, rus və Avropa ədəbiyyatı nümunələrinə qarşı mübarizəyə səfərbər olmağa sövq etdi. Beləliklə, bədii tərcüməyə münasibətdə fikir ixtilafı yarandı. Sırf milli mənafe mövqeyində çıxış edən və uşaq mütaliə dairəsini yalnız xalqın özü tərəfindən yaradılmış ədəbiyyatla məhdudlaşdıran ziyalılarla uşaq mütaliəsini milli sərvətlə bərabər dünya xalqlarının yaratdığı ən yaxşı nümunələrlə zənginləşdirən yazıçılar arasında fikir ayrılığı yarandı və mübahisələrə səbəb oldu". (1, 31)

Bütün fikir ayrılıqlarına və mübahisələrə baxmayaraq 1905-1917-i illərdə orijinal əsərlərin tərcüməsi nəticəsində yeni bir ədəbiyyat yarandı. Bütün bu məsələləri həyata keçirən alimlərin, ziyalıların xidmətlərini qeyd edən Vüqar Əhməd yazır: " XX əsrin əvvəlində rus uşaq ədəbiyyatının təbliği və yayılması

yollarına və vasitələrinə gəldikdə bunlar da xeyli müxtəf və rəngarəng idi. Bu yollardan birincisi dövri mətbuat idi. Ə.İ.Cəfərzadə, M.H.Əfəndiyev, M.Mahmudbəyov, Q.Rəşad, Ə.Tofiq, ötən əsrin sonunda N.Nərimanov, S.M.Qənizadə, H.Mahmudbəyovun arzu etdikləri uşaq jurnalı çap etmək niyyətini birinci rus inqilabından sonra həyata keçirdilər.

1901-1920-ci illər arasında Azərbaycan dilində "Dəbistan", "Rəhbər" və "Məktəb" kimi üç uşaq jurnalı nəşr olundu. Azərbaycanın ən görkəmli sənətkarları- M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, H.B.Zərdabi, S.M.Qənizadə, A.Divanbəyoğlu, S.S.Axundov bu jurnalların ətrafında sıx birləşərək milli uşaq ədəbiyyatını yeni inkşaf pilləsinə qaldırdılar. Rus ədəbiyyatından,o cümlədən Krılov, Puşkin. Lermontov, Nikitin, Pleşşeyev, Jukovski, Baranskeviç, Korolenko, Litvinski, Qorbunov, Tutçev, Karamzin, Belausov, Çexov, İzmaylov, Bardanoviç, Buryusov, Qoqol, Tolstoy və b. yaradıcılığında çoxlu bədii nümunələr tərcümə olunmuşdur. Bunlardan başqa "Həyat", "İttifaq", "Səda", "Həqiqət", "Günəş", eləcə də digər və jurnallar da rus ədəbiyyatının uşaqlara məxsus nümunələrini dərc edib yayırdılar". (1, 34)

Tərcümələrin janr xüsusiyətləri mövzu dairəsi və ideyası bölməsindəVüqar Əhməd XX əsrin əvvəlində azərbaycanlı mütərcimlərin rus uşaq ədəbiyyatının bütün növlər üzrə yaranmış nümunələrin müraciət etdiklərini ön plana çəkir. Bunlardan tərcümədə nəsr, poeziya və dram növləri üstünlük təşkil edir. Alim nəsr növündə isə əsasən hekayə janrına diqqət yetirən tərcüməçilərin fəaliyyətinə işıq salır. Vüqar Əhməd tərcümələrin mövzusuna toxunaraq yazır: "Tərcümələrin mövzusuna gəldikdə burada demək olar müxtəlif həyat səhnələri əhatə olunmuşdur. Tərcüməçilərin bir çoxu dünyagörüşü etibarı ilə maarifi olduqlarından tərcümə üçün ədəbi-bədii əsərlərin əxlaqi-tərbiyəvi əhəmiyyətini əsas tuturdular. Başqa sözlə desək, onlar daha çox tərbiyəvi məzmuna malik əsərlərə tərcümə zamanı üstünlük verirdilər. əməyə ("Köməkdarlıq",

L.Tolstoy) məktəbə, ailəyə, valideyinə məhəbbət, xeyirxahlıq (“Çöl xanımı”, A.C.Puşkin; “Kor və onun yoldaşı”, ruscadan; “Dövlətli Marqo və Bədbəxt Vasili”; “İki yoldaş”, L.Tolstoy; “Allahın keşişə qəzəbi”; Jukovski; “Nənə və nəvə”, Pleşşeyev); azadlıq, həyati gözəllik (“Azadəlik” Baraskeviç; “Qurd və it”; L.Tolstoy; “Yaşamaq nə gözəldir” Baqatova və s.) kəndli məişəti “Flipok”, “Kəndli və su adamı”, Tolstoy), zəhmət (“Bərabər irs”, L.Tolstoy), habelə mərdlik və qorxmazlıq, yalançılığa, xəyanətə nifrət aşılayan mövzu və ideyalarda qələmə alınmış nəsr nümunələri tərcümə, təbdil, adaptasiya olunurdu”. (1, 39-40)

Fikrinə davam edən alim poeziyada əsas mövzuların azadlıq, təbiət tərənnümü məktəbə çağırış təşkil etdiyini vurğulayır. Ölməz şairimiz M.Ə.Sabirin rus təmsilçisi Krılovdan iqtibas etdiyi “Qarğa və tülkü” təmsilini təhlil edən Vüqar Əhməd yazır: “Sabir böyük şair həssaslığı ilə hiss etmişdi ki, təmsildəki sözlərin leksik mənalarının birbaşa verilməsi yolu ilə getsə, məqsədinə nail ola bilməyəcək və təmsil orijinaldakı bədiilik və təsirini itirəcək. Ona görə dahi şair öz daxilindəki, sinəsində yatan ədəbi xəzinəyə folklor incilərinə müraciət etmiş və bunlardan məharətlə faydalanmışdır.

M.Ə.Sabirin tərcüməsində hər şeydən əvvəl sadəlik və aydınlıq diqqəti cəlb edir. Çünki təmsildə bütün sözlər məntiqi bağlılıqla tamamlayır, canlandırır, ifadə tərzinin və ideyanın gözəlliyinə xidmət edir”. (1, 41)

Alim dahi ədibimiz A.Səhhətin tərcümə sahəsində xidmətlərini xüsusi qeyd edir. Vüqar Əhməd A.Səhhətin rus şairləri Puşkindən, Lermontovdan etdiyi tərcümələrin bədii cəhətdən daha dolğun olmasını bildirən Vüqar Əhməd yazır: “Puşkindən tərcümələr içərisində ən şöhrət qazanan A.Səhhətdir. Puşkindən Azərbaycan dilinə poetik tərcümənin yeni tarixi A.Səhhətlə başlayır. Bu, Azərbaycan şairinin Puşkindən çox əsər tərcümə etməsi ilə əlaqədar deyildi. Onun tərcümələrinin orijinal qədər qüvvətli səslənməsi ilə, Puşkin sənətinə

sadiq olmaları ilə əlaqədar idi.

A.Səhhət Puşkindən 9 şeir tərcümə eləmişdi. Mütərcim əsasən şairin təbiətin tərənnümünə həsr olunmuş şerlərinə müraciət edirdi. Bunların içində ən müvəffəqiyyətli, bədii cəhətdən yüksək, poetik axarlı, dillər əzbəri olan "Qafqaz" şeridir. Bu şer Azərbaycan tərcümə tarixində xüsusi yer tutur. Tərcümənin dolğunluğu, aydın və səlis bir dildə olması, vəznin oynaqlığı, onun Azərbaycan oxucuları tərəfindən sevilə-sevilə oxunmasına səbəb oldu". (1, 50)

A.Səhhət rus şairlərindən əvvəldə söylədiyimiz kimi ən çox Lermontovdan tərcümələr etmişdir. " Məğrib günəşləri" nin birinci hissəsində Lermontovun "Peyğəmbər" əsərindən birinci hissə, ikinci hissədə şairin "Çərkəzlər", "Hacı Abrek", "Qanlı" kimi üç poeması, "Vətən", "Mübahisə", "Terekin sovqatı", "Üç xurma ağacı" kimi əsərlərin tərcüməsini vermişdir".

Nəsr sahəsinə gəlincə isə Vüqar Əhməd daha çox hekayə formasının aparıcı Azərbaycan yazıçılarından Ə.İbrahimov, B.Talıblı, R.Məhəmmədzadə, H.Qasımzadə, M.Ağasıyev, A.Mütəllibzadə, U.Qəbulov, A.Mirzəzadə, A.İsrafilbəyov kimi mütərcimlərin zəhməti sayəsində ərsəyə gələn əsərlər uşaqların mütaliə dairəsini genişləndirdiyini, diqqətə çatdırır. Bədii tərcümə sahəsində yaranmış vəziyyəti xarakterizə edən Vüqar Əhməd yazır: "Şübhəsiz, bədii tərcümə sahəsində müşahidə olunan bu vəziyyət təkcə Azərbaycana adi hadisə deyildi. Bütün, xalqların bədii tərcümə tarixi bələ başlamışdır. Milli ənənə qanununa çevrilmiş, çərçivəsindən çıxıb, başqa xalqların, xüsusilə dini əqidə və etnik tərkibi yad olan xalqların ədəbiyyatına müraciət onu qəbul edən millət tərəfindən bir növ missionerlik missiyasi kimi qiymətləndirilir". (1, 53)

"Təbdil, iqtibas, adaptasiya haqqında" bölməsində Vüqar Əhməd aşağıdakıları yazır: "Əsrin əvvəllərindəki rus uşaq ədəbiyyatından tərcümə materiallarının xeyli hissəsini təbdil və iqtibaslar təşkil edir. Ədiblər müxtəlif mövzulu bir sıra əsərləri təbdil və iqtibas edərək uşaqlara çatdırırdılar. S.M.Qənizadə

"Dəbistan" jurnalında nəşr olunmuş "Nabəkar qonşu"nu A.Paqosskidən, ikinci şəhər məktəbinin şagirdi Ə.Rzazadə "Kərim və kompas"ı ("Dəbistan", 1906- № 6) və başqa əsərləri ruscadan tərcümə edilmiş təbdillər idi". (1, 68)

Monoqrafiyanın II fəsli "Rus uşaq ədəbiyyatının Azərbaycan dilində ifadəsi" adlanır. Bədii tərcümənin leksik-frazeoloji xüsusiyyətləri bölməsində Vüqar Əhməd bildirir ki, əsərlərin orijinaldan daha çox tərcüməsi oxunur, geniş oxucu kütləsinə yol tapır: "Rus uşaq ədəbiyyatının Azərbaycan dilinə tərcümə materiallarında diqqəti cəlb edən əsas amillərdən biri dil və ifadə tərzinin aydınlığıdır. Bu, uşaqlara təqdim olunan əsərlər üçün daha ciddi hesab oluna bilən xüsusiyyətdir. Mütərcimlər bu cəhətə fikir verir, anlaşıqlı dil ilə çatdırmağa çalışırdılar.

Tərcümə nümunələrində konkret tarixi şəraitin ədəbi dil və norma xüsusiyyətləri istər leksik- frazeoloji, istərsə də təhkiyə və ifadə tərzi baxımından öz əksini tapmışdı". (1, 77)

Bədii təsvir vasitələrinin ifadə xüsusiyyətləri bölməsində isə Vüqar Əhməd elmi dildə fikirlərini cilalayaraq yazır: "Əlbəttə, frazeoloji vahidləri hərfən tərcümə edəndə söz yığını alınır. Çünki rus dili ilə Azərbaycan dili genoloji cəhətdən ayrı-ayrı dil qruplarına məxsusdur. Əsrin əvvəllərində də tərcüməçilər rus dilindən tərcümə zamanı rus şair və yazıçılarının leksikasındakı frazeoloji vahidlərin Azərbaycan dilindəki qarşılığını tapırdılar.

Qeyd etdiyimiz kimi... frazeoloji ifadələrin hərfi tərcüməsi mümkün deyil. Məsələn, L.N. Tolstoyun hekayələrində işlənən " " ifadəsini "Allaha canı vermək" kimi hərfi tərcümə edilsəydi düzgün olmazdı. Tolstoyun tərcüməçisi Q.Rəşad bu ifadəni "rəhmətə getdi" şəklində düzgün vermişdir. Ümumiyyətlə, L.Tolstoyun dilindəki dini ifadələr əsrin əvvəlindəki mütərcimlər tərəfindən çox düzgün qarşılıqda verilmişdir. Frazeoloji ifadələr bacarıqsız tərcüməçinin əlinə düşəndə, o, söz birləşmələrini məhv edir". (1, 84)

"Nəticə" hissəsində monoqrafiyanı bitirən Vüqar Əhməd

yazır: "XX əsrin əvvəllərində (1905-1917) Azərbaycan rus ədəbiyyatlarının (uşaq ədəbiyyatı materialları əsasında) zəngin yaradıcılıq əlaqələri olub, bu illər Azərbaycan-rus ədəbi əlaqələrinin inkşafı tarixində mühüm mərhələ kimi özünü göstərir. Azərbaycan ədəbi-mədəni mühitinin rus uşaq ədəbiyyatına, rus yazıçılarının həyat və fəaliyyətinə marağın artması, rus ədəbiyyatı ilə, o cümlədən rus uşaq bədii nəsri və poeziyası ilə Azərbaycanlı balaları tanış etmək tələbatını birinci dərəcəli vəzifələr sırasına çıxardı. Bu vəzifənin yerinə yetirilməsinin ən yaxşı vasitəsi bədii tərcümə oldu. Tərcümə nəzəriyyəsinin və praktikasının formalaşmasına, Puşkinin, Lermontovun, Tolstoyun, Nikitinin yaradıcılığından bir sıra nümunələr azərbaycanlı oxucuya onun öz dilində çatdırılmasına səbəb bədii tərcümə oldu". (1, 97)

Vüqar Əhmədin "Rus uşaq ədəbiyyatı və Azərbaycan" monoqrafiyası müəllifə uşaq ədəbiyyatı sahəsində yeni bir əsərin, fundamental şəkildə qələmə aldığı "Azərbaycan uşaq ədəbiyyatı" (dərs vəsaiti) nın yazılmasına stimul yaratdı. 2006-ci il "Müəllim" nəşriyyatında işıq üzü görən "Azərbaycan uşaq ədəbiyyatı" (dərs vəsaiti) əsərinin rəyçiləri ADPU-nin müəllimi, filologiya elmləri doktoru Elman Quliyev, AMİ-nin dosenti, filologiya elmləri namizədi İsgəndər Orucəliyev, isə AMİ-nin əməkdaşı, filologiya elmləri namizədi Baba Babayevdir. Kitab müəllifin "Əsərin ərsəyə gəlməsi, ideya dəstəyi və qayğısına görə siyasi elmlər doktoru professor Aqiyə Naxçıvanlıya dərin təşəkkürümü bildirirəm" epiqrafı ilə açılır. "Ön söz"ün müəllifi və kitabın redaktoru Baba Babayev əsərə belə qiymət verir: "Metodik dərs vəsaiti müəllimlərimizin tələbatını yüz faizli ödəyəcəkdir. Sadəcə, yardımçı olacaq qədərdə köməklərinə çatsa bu da qənaətləndirici iş sayıla bilər. Müəllif haqqında bəhs etdiyimiz metodiki vəsaitində proqramda verilməsi nəzərdə tutulan mövzulara əlavə materialların təqdim olunmasına diqqət yetirib. Yəni mövzuya dair informasiya bolluğu yaratmağı qarşısına məqsəd qoyub. Ayrı-ayrı

əsərlərin şərhi, bildirən münasibət qənaətbəxşdir. Filologiya elmləri doktoru, nəğməkar şairimiz Vüqar Əhmədin uzun illərin, yuxusuz gecələrin bəhrəsi kimi ərsəyə gətirdiyi sözü gedən dərs vəsaiti onun bu sahədə ilk işidir". (17, 6)

Uşaq ədəbiyyatının məqsədi və vəzifələri bölməsində alim uşaq ədəbiyyatının əsas məramı sabahımız olan vətənpərvər ruhda tərbiyə etməkdən ibarət olduğunu önə çəkərək yazır: "Bu ədəbiyyat böyüməkdə olan nəslə vətənə sədaqət, xalqlar dostluğu və beynəlmiləlçilik ideyalarına hörmət, vətənpərvərlik və humanizm, əməksevərlik, dostluq və yoldaşlıq, eyni zamanda torpaqlarımızın iyirmi faizini işğal edən, bir milyondan artıq soydaşımızı elindən-obasından didərgin salan azğın düşmənə qarşı barışmaz olmaq, düzlük və doğruçuluq, özünə qarşı tələbkarlıq kimi yüksək mənəvi keyfiyyətlər aşılamalıdır.

Uşaq ədəbiyyatı uşaqların qəlbində nəcib hisslər oyadan mənzum və mənsur əsərlərlə işıqlandırmalı, onların gələcək haqqında gözəl və ümidli arzularına qanad verməlidir. Uşaq ədəbiyyatı uşaqları zəngin mənəvi və estetik zövqə malik insan kimi tərbiyə etməlidir. Uşaqlar öz xalqının mübarizələrlə zəngin tarixi keçmişinə dərindən bələd olmalı, bu günün nəhəng addımlarıyla addımlamalı, gələcəyin böyük quruculuq işlərində yaxından iştirak etməlidir". (17, 7)

Uşaq ədəbiyyatının xüsusiyyətləri bölməsində isə Vüqar Əhməd spesifik sahənin xüsusiyyətlərindən bəhs edir.uşaqlar üçün yazmaq olduqca çətin və məsuliyyətli iş olduğunu qeyd edən ədəbiyyatşünas alim yazır: "Uşaq aləminin epik həyatını, onun maraqlı və romantik hadisələrini, elm və texnikanın xarüqələrini geniş və ətraflı göstərməklə sənətkar mürəkkəb və eyni zamanda sadə uşaq qəlbini həyəcanlandırır, onda yüksək əxlaqi hisslər tərbiyələndirir". (17, 8)

Əsərdə Vüqar Əhməd pedaqoji təlimə uyğun olaraq 17 yaşına qədər olan oxucuları 4 qrupa bölündüyünü vurğulayır: 1) bağça yaşlı uşaqlar (3-7); 2) kiçikyaşlı məktəblilər (7-11); 3) ortayaşlı məktəblilər (11-15); 4) yuxarıyaşlı məktəblilər (15-17).

Bütövlükdə həyat yollarında uşaqların tərbiyəsi ilk növbədə ailədən başlayır. Daha sonra uşaqların bağça dövründə onlara nə öyrədirlərsə çocukların yaddaşına ədəbi həkk olunur. Hər hansı bir bədii əsər, bəstələnmiş nəğmələrin dili olduqca aydın, məzmunu isə sadə olmalıdır. Bağçada topladıqları biliyi və bacarığı uşaqlar məktəb illərində inkişaf etdirirlər. Bütün bu vacib məsələləri təhlil edən Vüqar Əhməd yazır:

Bağça uşaqlarına öyrədilən bədii əsərlər bir neçə misralıq şeir və musiqi bəstələnmiş nəğmələrdən ibarət olur. Şeir və nəğmənin məzmunu aydın, hecaların sayı az, qafiyələri oynaq, sözləri sadə olmalıdır. Uşaqlar üçün yazılan nağıl və hekayələrin də məzmunu sadə və aydın olmalıdır. Uşaqlar üçün yazılan nağıl və hekayələrin də məzmunu sadə və rəvan, dili aydın olmalıdır. H.Andersenin əyləncəli təmsil hekayələri, Qrim qardaşlarının nağılları, M.Ə.Sabirin "Yaz günləri", "Uşaq və buz", A.Səhhətin "Cücələr", "Köç", A.Şaiqin "Xoruz", "Uşaq və dovşan", "Keçi" və s. bu qəbil şeirlər bağçayaşlı uşaqların həm estetik dünyagörüşünün, həm də dilinin inkşafı üçün ən münasib nümunələrdir.

Kiçikyaşlı məktəblilərin ideya-bədii vasitələri isə fərqlənməlidir. Burada balaca məktəblilər get-gedə müstəqil oxu vərdişinə yiyələndiklərinə görə, bədii əsərlərdə uşaqların anlaya bildiyi məzmun bitkinliyi, maraqlı hadisələr, alleqorik surətlər geniş yer tutur. Uşaqlar, sinifdən-sinifə keçdikcə, yaşa dolduqca daha dolğun, məzmunlu, nisbətən mürəkkəb süjetli bədii əsərlərlə qarşılaşırlar . L.Tolstoyun "İki yoldaş", "Tullanma", S.Ə.Şirvaninin "Aslan və iki öküz", A.Şaiqin "Tülkü həccə gedir" və s. əsərləri bu cəhətdən səciyyəvidir. (17, 9)

Vüqar Əhməd dərs vəsaitində Azərbaycan uşaq ədəbiyyatının yaranmasını belə səciyyələndirir:

"Azərbaycanda ötən əsrin 20-ci illərindən sonra yaranan uşaq ədəbiyyatı klassik ədəbiyyatın ənənəsini davam etdirməklə, xalq həyatını daha dolğun, hərtərəfli işıqlandırmışdır. Beləliklə, uşaq ədəbiyyatı mənəvi-estetik və ideya-məfkurəvi

tərbiyə məktəbinə çevrilmişdir. Vətənimizin əzəmətli tikintilərinə, şəhər və kəndlərinə, bərəkətli torpaqlarına aparan sadə əmək adamlarının qəhrəmanlıq hünəri, mübarizəsi, həyat idealı ilə öz oxucusunu tanış edən uşaq ədəbiyyatı yeniyetmələri əməksevər, namuslu, vətənpərvər və beynəlmiləlçi olmaq ruhunda tərbiyə edir. Öz qaynaqlarını əsrlərin dərinliyindən alan Azərbaycan şifahi xalq ədəbiyyatı xəzinəsinin inciləri-nağıllar, mahnılar, dastanlar, atalar sözləri, lətifələr və s. uşaq ədəbiyyatını, xəlqilik və sənətkarlıq baxımından zənginləşdirir. Məlumdur ki, uzun əsrlərdən bəri xalq öz folklorunda uşağı pedaqoji və bədii-estetik tərbiyə metodunun ideal nümunəsini yaratmışdır. Haqlı olaraq deyirlər ki, "xalq estetikasından, xalq yumorundan, xalq zövqundən və idealından" ayrı düşən uşaq ədəbiyyatı bəhrəsiz olur, tez unudulur". (17, 12)

Kitabın ən böyük hissəsini Vüqar Əhməd "Azərbaycan şifahi xalq ədəbiyyatı" bölməsinə həsr edib. Qədim tarixə söykənən "Azərbaycan şifahi xalq ədəbiyyatı" müqəddəs xalqımızın milli sərvətidir, dəyəri, qiyməti ölçüyəsığmazdır. Miqyası, vəzni-ağırlığı ümmanlarla müqayisə olunan dürr-inci xəzinəsidir. Bu xəzinə, bu ümman, bu dövlət, bu sərvət xalqındır. Bu böyük xəzinəni yaşadan xalqdırsa, bu xəzinəni isə elmi cəhətdən yaşadan, sistemləşdirən alimlərimizdir. Bu baxımdan dəyərli alimimiz Vüqar Əhmədin yeni fikirlər söyləməsi onu bir folklorşünas kimi güclü fəhm sahibi olmasından xəbər verir. Alim yazır: "Xalq ədəbiyyatı özünün bütün inkişaf mərhələlərində xalqın estetik tərbiyəsinə xidmət etmiş mənəvi silaha çevrilmiş, əsl tərbiyə məktəbi olmuşdur. Onun yaradıcıları – ağ saçlı atalar və analar; onu mənimsəyənlər, hafizəsinə qoruyub yaşadanlar isə xalqın övladları –uşaqlar və gənclərdir.

Folklor qədim dövrlərdən bəri xalqın mənəvi qida mənbəyi, xalq kitabı olmuşdur. Azərbaycan xalq yaradıcılığı zəngin bədii sənət inciləri xəzinəsidir. Xalq yaradıcılığı, xalqın əqli birliyinin təntənəsi, parlaq təzahürüdür. Xalqın zehni inkşaf səviyyəsini, istedadını, estetik duyumundakı zərifliyi büruzə verən

əsl amildir. Hər bir nümunə neçə-neçə yüzilliklər arasından bu günümüzə uzanan incə tellər kimi gərilmişdir; ani titrəyişdən; xəfif bir təmasdan mənsub olduğu xalqın taleyi, maddi-mənəvi güzəranı barədə saysız-hesabsız hekayətlər söyləməyə qadirdir". (17, 15)

Vüqar Əhməd kitabda "Kiçik (xırda) növ" başlığı altında "Tapmacalar"ı, "Yanıtmacları", "Lətifələri" "Lirik növ"də isə "Laylaylar"ı, "Mövsüm və Mərasim nəğmələri", "Atalar sözü", "Hədislər və kəlamlar"ı təhlil edərək uşaqların biliklərinin zənginləşməsində, hafizələrinin gücləndirilməsində, onların təfəkkür tərzinin yüksəlməsində geniş imkanlar açdığını ifadə edir. "Peyğəbərimizin elm haqqında söylədiyi hədislər", bölməsində alim "Uşaqlıqda öyrənilən elm daş üstündə yazıya öyrənilən isə su üstündə yazıya bənzəyən" "Elmi beşikdən qəbrədək öyrənin" hədislərindən misal gətirməsi uşaqların maraq dairəsinin genişlənməsinə onların elmi biliklərinin gələcəkdə artırılmasına xidmət edir. "Epik növ" bölümündə Vüqar Əhməd uşaqlar arasında ən çox sevilən "Məlikməmməd", "Ağ atlı oğlan", "Yetim İbrahimin nağılı" nağılları barəsində fikirlərini yazır. Həmçinin alim "Rəvayətlər", "Qaravəllilər", "Əfsanələr", Məhəbbət dastanları, "Dastanlar", "Qəhrəmanlıq dastanları" haqqında söhbət açır. "Qız qalası" abidələri barədə Vüqar Əhməd yazır: "Məlum olduğu kimi, ölkəmizin bir çox bölgələrində "Qız qalası" abidələri var. Bu qalalar haqqında bir çox əfsanələr mövcuddur. Bu əfsanələrin zilərində həmin qayalar, yadelli işğalçılardan qorunmaq üçün, müdafiə məqsədi daşıyan istehkam kimi təqdim olunur. Bəzilərində öz doğma atası tərəfindən eşq hədəfi seçilən qız, bu rüsvayçılığa dözə bilməyib, özünü qalanın başından atır. "Qız qalası" əfsanələrinin bir qismi isə, öz sevgilisinin Xəzər dənizində boğulduğunu görən qızın, əbədi olaraq sevgilisinə qovuşmaq üçün, qalanın başından atması ilə bitir". (17, 38)

"Kitabi-Dədə Qorqud" eposu haqqında mülahizələrini irəli sürən Vüqar Əhməd yazır: "Kitabi-Dədə Qorqud" Azərbaycan

xalqının tarixi-qəhrəmanlıq keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Təxminən min üç yüz il bundan əvvəl meydana gələn bu epos oğuz tayfalarının bədii zövqünü, adət-ənənəsini, mənəvi-ruh aləmini, alp-ərənlik həyatını öyrənmək baxımından böyük əhəmiyyətə malikdir.

XIV əsr tarixçisi Rəşidəddin Dədə Qorqudu tarixi şəxsiyyət hesab edərək yazır: "Dədə Qorqud 215 il yaşamış və oğuz hömdarı İnal Sar Yavnuy xanın zamanında, elçi sifətiylə Həzrəti Muhəmməd əleyhəssəlamın yanına göndərilmiş, özü islam dinini qəbul etmiş, Oğuzun böyük xanını da müsəlman etmişdir". (17, 41)

"Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatı nümunələri" bölümündə Vüqar Əhməd XI-XII əsrlərdə Azərbaycan elmi və mədəniyyətinin yüksəlişindən bəhs edir. O yazır: "XII əsrdə Azərbaycanın şimalında Şirvanşahlar, cənubunda isə Eldəgizlər dövlətinin güclənməsi, ticarətin, elmin, incəsənətin, o cümlədən ədəbiyyatın inkşafına güclü təkan verdi. Hər yerdə mədrəsələr açılır, İlahiyyat elminin tədrisi üçün yeni mətəblər inşa edilirdi. Bu isə xalqın maariflənməsi üçün, elminin, mədəniyyətinin çiçəklənməsi üçün öz müsbət nəticəsini göstərdi. Yeni-yeni memarlıq abidələri yaranır, sənətkarlar yetişirdi. Bu dövrdə bir sıra alimlər, filosoflar, şairlər, sənətkarlar yetişir. Azərbaycan elminin, ədəbiyyatının, incəsənətinin və mədəniyyətinin dirçəlişi və tərəqqisi üçün gözəl sənət əsərləri yaradırdılar. Bu sənətkarlardan Ömər Gənci, Yusif ibn Tahir, Eynəlqüzzat Miyanəçi, Əbülüla Gəncəvi, Əbu ən-Nizam Məhəmməd Fələki Şirvani, Əmir İzzəddin Şirvani, Əbülməkarim Mücirəddin Beyləqani, Qivami Mütərrizi Gəncəvi, Qətran Təbrizi, Xətib Təbrizi, Məshəti Gəncəvi və sairləri Azərbaycan elminin, ədəbiyyatının görkəmli nümayəndələri idi". (17, 47)

Vüqar Əhməd həmçinin bu bölümdə Əfzələddin Xaqani Şirvaninin söz dünyasının bəzi məqamlarını təhlil edərək yazır:

"İlahiyyat elmi və fəlsəfəsinə dərindən yiyələnən Xaqani,

zəngin biliyə malik alim və filosof olmaqla yanaşı, şeir və sənətin ən mükəmməl bilicilərindən idi. O, tövhid, guşənişlik, möizə və nəsihət, fəxriyyə, həmasə, təvazökarlıq mövzuları haqqında danışdıqda mədh və həcv, qəzəl və növhə və sair şeir növlərində görünməyən qüdrət və bacarıq göstərirdi. Yazdığı şinuyə və rauyə qəsidələri ona nəzm sahəsində böyük uğurlar qazandırmışdır. Xalqının zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanından, "Töhfətül-İraqeyn" poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir.

Şair poemaları, qəzəlləri, qəsidələri, növhələri ilə yanaşı, yeniyetmələri və gəncləri düzgünlüyə, saflığa, nəcibliyə, nəfsinin nökəri olmamağa səsləyən bir sıra nəsihətamiz şeirlər yazmışdır. Xaqaninin bədii irsindən bəzi nümunələr gənc nəsil üçün tərbiyəvi əhəmiyyətə malikdir". (17, 48-49)

Ölməz söz ustadı "Nizami Gəncəvi" bölümündə Vüqar Əhməd dahi insanın yaşadığı dövrə, ədəbi mühitə nəzər salaraq fikirlərini belə əsaslandırır: "Nizaminin yaşadığı dövrdə ədəbiyyatda iki tendensiya qarşı-qarşıya dururdu. Birincisi mədhiyyə-saray ədəbiyyatı, ikincisi Xaqani və Sehrvərdi tərəfindən özülü qoyulmuş yeni təmayüllü, xalqın ideyalarını müdafiə edən tərəqqipərvər ədəbiyyat. Saray ədəbiyyatı öz mahiyyətinə görə xalqın mənəviyyatına buxovdan başqa bir şey deyildi. O, şahı, hökmdarı mədh edir, onun əməllərini idealizə edirdi.

Bədii fəhmin məhsulu olan Nizami irsi isə söz qəlibindən yeni heykəllər tökərək, xalqın taleyini, arzularını, kədərini və sevincini, hüquqlarını, namusunu və şərəfini ifadə edirdi.

Nizami irsində vətənpərvərlik, humanizm, əxlaq və tərbiyə, zəhmətsevərlik, halallıq, insanpərvərlik, xeyirxahlıq, vəfa və sədaqət əsas meyardır". (17, 50)

Ədəbiyyatşünas – alim əsərdə Nizaminin "Kərpickəsən qocanın dastanı" və "Sultan Səncər və qarı" hekayətində də bəhs edir.

Şeirimizin günəşi sayılan, məhəbbət şairimiz Məhəmməd Füzuliyə həsr etdiyi bölümünə Vüqar Əhməd onun aşağıdakı

fəlsəfi fikirləri ilə başlayır: *"... Nəzm fənlərinin şəhərlərini fəht etmək üçün söz bayrağını qaldırdım, Allaha şükür ki, müxtəlif dillərin açarları ilə nəzm fənninin qapılarını açmağa başladıqda, hansı qapıya ki çatdım, onu nəzər sahiblərinin üzünə açdım. Gah məsnəvi üsulunun bağçasından gül, çiçək dərdim, gah qəzəl söyləmək küçəsində müşk qoxulu qəzəllərin dalınca yüyürdüm. Gah müəmma fənnində ad çıxardım, gah da qəsidə sehri sehri tərzində böyük və fazil adamların ürəklərini təskin etdim...*

Orta əsrlər Azərbaycan şeirinin və ümumiyyətlə, Şərq bədii poetik fikrinin görkəmli simalarından olan dahi söz ustası Məhəmməd Füzuli tək Azərbaycan yox, bütün Şərq ədəbiyyatı üçün böyük bir irs qoymuşdur". (17, 58)

Dərs vəsaitində Vüqar Əhməd Füzulinin "İt və pişik", "Padişahi- mülk" qitələrinə "Bəngü-Badə" əsərinə "Meyvələrin söhbəti" təmsilinə istinad edərək gənc nəslin. Xüsusilə uşaqların tərbiyəsində ölməz nümunələrin xüsusi əhəmiyyət kəsb etdiyini deyir. Füzuli poeziyasının bəşəri ideyalara söykəndiyini bəyan edir: "Füzuli poeziyası lirik, təmkinli, olduqca həzin bir poeziyadır. Füzuli yüksək sənətkarlıq məharəti, güclü bədii imkanları ilə, həyata, insana məhəbbət ideyasını, insan həyatının ən zəruri problemlərini öz əsərlərinin başlıca mövzusu etmiş, sözün ecazkar qüvvəsi ilə ifadə etmişdir". (17, 59)

Kitaba "XIX əsr Azərbaycan uşaq ədəbiyyatı" başlığı altında daxil edilmiş eyni adlı bölməsində Vüqar Əhməd həmin dövrün mədəniyyətinin təbliğindən, xalqı maarifləndirən ziyalıların fəaliyyətindən, həmçinin Azərbaycanın hər bir bölgəsində yeni üsullu məktəblərin, yeni dərsliklərin, milli mətbuat və milli teatr yaratmaq haqqında düşündükləri barədə mülahizələrini vurğulayır: Bu sahədə A.Bakıxanovun, Mirzə Kazımbəyin, M.Ə.Vəzirovun, Rəşid bəy Əfəndiyevin, Həsən bəy Zərdabinin Səid Əfəndi Ünsizadənin misilsiz xidmətlərindən söhbət açır. Vüqar Əhməd Azərbaycan mədəniyyəti və ictimai fikir tarixinə adları yazılmış A.Bakıxanovun, Qasım

bəy Zakirin, Seyid Əzim Şirvaninin həyat və yaradıcıqlarına alim kimi elm münasibətini bildirir. A.Bakıxanov ədəbi yaradıcılığında uşaqlara və gənclərə yer ayırmasını alim qeyd edir: "A.Bakıxanov uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar olan iki əsər yazmışdır. Bunlardan biri **"Təhzibül-əxlaq"**, digəri isə **"Kitabi-nəsihət"**dir. Hər iki əsas ideyasi gənclərin əxlaqını yaxşılaşdırmaq, onları pis əməllərdən uzaqlaşdırmaq, onlarda gözəl və nəcib əxlaqi sifətlər tərbiyə etməkdir. Vicdan təmizliyi, doğruluq, mərdlik, insanlarla yaxşı rəftar, böyüklərə hörmət, məzlumlara, darda qalanlara kömək, zərərli ehtiraslardan özünü saxlamaq, təvazökarlıq, şöhrətpərəstlikdən çəkinmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq, vətənə, xalqa məhəbbət "Təhzibül-əxlaq" əsərinin irəli sürdüyü əsas məsələlərdir". (17, 71-72)

Dərs vəsaitində yeniyetmələr üçün alim A.Bakıxanovun qələmə aldığı "Tülkü və qoyun", "Qurd və ilbiz", "Yersiz iftixar" təmsillərini, həmçinin "Hikmətin fəziləti", "Ümidin boşa çıxması" mənzum hekayələrinin təhlilinə geniş yer verib.

Qasım bəy Zakirin janr etibarilə yaradıcılığının müəyyən qismindən bəhs edən Vüqar Əhməd şairin keçdiyi həyat yolundan söz açır. Şairin uşaq mütaliəsi üçün yazdığı "Qurd çaqqal və şir", "Dəvə və eşşək", " Tısbağa, qarğa, kəsəyən, ahu" təmsillərində, "Tərlanlar və elçilər" mənzum hekayəsində söz ustası heyvanların timsalında dövrün eybəcərliklərini açıb göstərir, zülm və haqsızlığın əleyhinə çıxır, başıboş adamların iç üzünü verir, dostluqda sədaqətli, hökmdarları ədalətli olmağa çağırır. Seyid Əzim Şirvani bölməsində alim yenədə əvvəlcə dahi şairin keçdiyi ömür şəcərəsinə diqqət yetirir. Bir neçə il şam şəhərində ilahiyyat elmi ilə yanaşı fəlsəfə və dünyavi elmlərə yiyələnərək Seyid Əzimə axund adı verildiyini, onun maarifpərvər ziyalı olduğunu önə çəkir: "Seyid Əzim məktəb açaraq müəllim kimi fəaliyyətə başlayır. Onun açdığı məktəbdə dini dərslərdən başqa hesab, tarix və rus dili dərsləri də təlim edilirdi. 1874-cü ildə Şamaxıda Səid Əfəndi Ünsi-

zadənin təşəbbüsü, Cəlal Ünsizadə və Seyid Əzimin yaxından iştirakı ilə yeni tipli, müasir mündəricəli, "Məclis" adlı məktəb açılır. Seyid Əzim həmin məktəbə fars və Azərbaycan dilləri müəllimi təyin olunur.1877-ci ildə Şamaxı dövlət məktəbində şəriət və Azərbaycan dili müəllimi təyin olunan Seyid Əzim ömrünün axırına qədər bu vəzifədə çalışır". (17, 85)

Alim Seyid Əzimin "Mir Cəfərə xitab" və yaxud "Oğluma nəsihət adı altında yazdığı silsilə öyüdlərində oğluna, eyni zamanda "Sultan Məlikşah və qarı", "Nuşirəvan və qonaqpərvər kişi" hekayələrində, "Aslan və iki öküz", "Qaz və durna" təmsillərində bir başa uşaqlara müraciət olunduğunu Vüqar Əhməd vurğulayır: "Seyid Əzim təmsillərindəki dil sadəliyi onun xəlqiliyi, həyata daha sıx bağlılığı və realizmi ilə əlaqədardır. Bu təmsillərdə uşaq aləminə yaxınlıq, obrazların parlaq və canlı təsviri, hadisələrin qısa, yığcam şəkildə əksi və bundan çıxarılan nəticənin tərbiyəvi əhəmiyyəti olduqca böyük sənətkarlıqla ifadə olunur. Lirik şeirlərində romantik, epik əsərlərində: mənzum hekayə, təmsil və satiralarında realist bir insan kimi tanınan Seyid Əzimin Azərbaycan ədəbiyyatında olduqca böyük bir mövqeyi vardır. Onun didaktik mahiyyət daşıyan öyüd və təmsillərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur". (17, 88-89)

"XX əsrin əvvəllərində (1900-1920) Azərbaycan uşaq ədəbiyyatı və uşaq mətbuatı"

Haqqında söhbət açdığımız bölmədə Vüqar Əhməd XX əsrin birinci rübündə Azərbaycan ictimai fikir tarixində yeni bir mərhələnin yarandığını açıqlayır. Bu sahədə xidməti olan millət cəfakeşlərinin gördükləri nəcib təşəbbüsləri yüksək dəyərləndirir.

"Bu maarifpərvər insanların təşəbbüsü ilə bir-birinin ardınca maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradılırdı. Azərbaycanın namuslu v vətənpərvər oğulları el atası Hacı Zeynalabdin Tağıyevin və başqa millətin qayğısını çəkən xeyriyyəçilərin vəsaiti və maddi yardımı ilə yeni kitablar

nəşr elətdirir, incəsənət və mədəniyyət ocaqları tikdirirdilər. Bu dövrdə Azərbaycanın böyük oğlu, olduqca nəcib sifətlərə malik, xalqını canından artıq sevən, öz var-dövlətini xalqın maddi rifahının yüksəlişi, maariflənməsi, tərəqqisi yolunda xərcləməyi özünə şərəf bilən bir insan olan Hacı Zeynalabdin Tağıyevin xidmətləri əvəzsizdir". (17, 90)

Bu dövrün aktual məsələlərindən ən vacibi ondan ibarət idi ki, günün tələbləri səviyyəsində yeni üsullu məktəblərin artması və tamam başqa səpgidə şagirdlər üçün məqsədyönlü dərsliklərin yaranması olsun. Bütün bu amillər heç şübhəsiz ki, uşaq ədəbiyyatının inkşafına təkan verdi.

Alim XX əsr uşaq ədəbiyyatının zənginləşməsində və yayılmasında görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərlinin əməyinə diqqət çəkir: "O, şifahi xalq ədəbiyyatının ən yaxşı nümunələrindən toplanıb hazırlanmış "Balalara hədiyyə" (1912) adlı dərs vəsaitini yeni pedaqoji prinsiplər əsasında tərtib etmişdir. XX əsr Azərbaycan romantizminin görkəmli nümayəndələrindən olan H.Cavid, M.Hadi, A.Səhhət, Ə.Cavad, A.Divanbəyoğlu realist və maarifçi yazıçılardan kəskin şəkildə ayrılmır, elm və maarifin yayılmasında, xalq kütlələrinin savadlanmasında, xüsusilə gənc nəslin təhsil və tərbiyəsində eyni mövqedə dayanırdılar. M.Hadinin "Məktəb şərqisi, "Qızlar baxçası", "Tərəqqeyi-sənayə" şeirləri, H.Cavidin "Öküz Ənvər", "Kiçik sərsəri", "Vərəmli qız", "Qız məktəbində", şeirləri, Abdulla bəy Divanoğlunun "Dan ulduzu", "Cəng", "İlan və fəhlə" hekayələri, Əhməd Cavadın "Müəllim", "Quşlara", "Beşik", "Mən tuqayam, bir quşam", "Uşaqların əylənməsi üçün" və s. şeirlərini uşaq ədəbiyyatının yaxşı nümunələrindəndir". (17, 93)

Ədəbiyyatşünas-alim XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və mədəni həyatın canlanmasını, maarif, məktəb və mətbuat xalqın tələbatına çevrildiyini yazır:

" "Zənbur", " Kəlniyyət", "Babayi-Əmir", "Məzəli", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnalların meydana çıxması

uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuələri uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkşafına geniş yol açdı. Dövrün qabaqcıl ziyalıları – yazıçılar, müəllimlər və tərcüməçilər bu jurnallarda yaxından çıxış etməyə başladılar. Bu dövrdə M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.S.Axundov kimi uşaq ədəbiyyatının qüdrətli yaradıcıları yetişdi. Onlar öz ictimai-ədəbi və pedaqoji fəaliyyətləri ilə yanaşı, XX əsr Azərbaycan uşaq ədəbiyyatını yaratdılar". (17, 93-94)

Əsərdə "Füyuzat"da uşaq ədəbiyyatı nümunələri" bölməsində Vüqar Əhməd jurnalın başçısı Əlibəy Hüseynzadənin həmçinin onun məsləkdaşlarının "Füyuzat" ədəbi məktəbinin ətrafında birləşməsindən söhbət açır. Dərs vəsaitində Vüqar Əhməd dövrün dəyərli ədəbiyyat alimlərindən biri Firudin bəy Köçərlinin elm sahəsindəki danılmaz xidmətlərini, o cümlədən tatarlarının ədəbiyyatı adlı monoqrafiyasını "Balalara hədiyyə" kitabı haqqında mülahizələrini bildirir. Monoqrafiyada alim Rəşid bəy Əfəndiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Hüseyn Cavidin bütövlükdə uşaq ədəbiyyatına bəxş etdikləri əsərlərdən bəhs edir (17, 145). Əsərdə Vüqar Əhməd "Sovet dövrü" Azərbaycan uşaq ədəbiyyatı (1920-ci illər) uşaq ədəbiyyatı bölməsində tədqiqat obyekti kimi təhlil edir. O, Azərbaycan uşaq ədəbiyyatının klassiklərindən biri A.Şaiqin bilavasitə uşaqlara ithaf etdiyi şeirləri, hekayələri, nağılları söz incisi hesab edir.

1930-cu illərdə uşaq ədəbiyyatı bölməsində alim Mikayıl Müşfiqin, Almas İldırımın, Mir Mehdi Seyidzadənin uşaqlar üçün yazdığı poeziya nümunələrində onların yaş xüsusiyyətlərini nəzərə aldıqlarını, aydın, rəvan, axıcı bir dildə ifadə etdiklərini vurğulayır. (17, 163)

İkinci Dünya müharibəsi dövrü uşaq ədəbiyyatı (1941-1945) bölməsində Vüqar Əhməd yazır. Yaranan əsərlərə münasibətini bildirir. Həmçinin Səməd Vurğunun, Süleyman Rüstəmin,

Mirvarid Dilbazinin, Əhməd Cəmilin, Ənvər Məmmədxanlının uşaqlara və gənclərə həsr etdikləri şeirlərdə vətənpərvərlik ruhunda tərbiyə olunmaları, əməyə məhəbbət, özündən böyüyə hörmət hissinin aşılanması başlıca mövzu kimi əksini tapır.

"Müasir uşaq poeziyası" bölməsində Vüqar Əhməd XX əsrin 1960-70-ci illərini Azərbaycan uşaq poeziyasının yeni inkşaf mərhələsi kimi qiymətləndirir: "Bu illər ərzində Zeynal Cabbarzadə, Mikayıl Rzaquluzadə, Rəsul Rza, Mirvarid Dilbazi, Fikrət Sadıq, Əli Kərim, Tofiq Mütəllibov, Xanımana Əlibəyli, Teymur Elçin, İlyas Tapdıq, Tofiq Mahmud, Məstan Əliyev, Məmməd Aslan, Zahid Xəlil, Ə.Küçaylı, M.Araz, C.Novruz, N.Həsənzadə, X.Rza və s. şairlərimiz uşaqlar üçün müxtəlif mövzularda şeir, nağıl və poemalar yazmışlar". (17, 190)

Monoqrafiyada V.Əhməd adlarını yuxarıda sadaladığımız şairlərdən Zeynal Cabbarzadə, Mikayıl Rzaquluzadə, Rəsul Rza, Əli Kərim, Tofiq Mütəllimov, Xanımana Əlibəyli, Teymur Elçin, İlyas Tapdıq, Tofiq Mahmud, Məstan Əliyev, Fikrət Saqıq, Zahid Xəli haqqında ayrı-ayrılıqda oçerklər həsr etmişdir. Oçerklərdə söz ustalarının həyatlarından qısa məlumat və uşaq ədəbiyyatı nümunələrdən parçalar verilib.

"Müasir uşaq nəsri" bölməsində uşaq nəsri- uşaq bədii ədəbiyyatının çox vacib sahə olduğunu çözələyir: "Məlumdur ki, uşaq canlı təhkiyəyə böyük, fəal maraq göstərir. Məhz buna görədə uşaqlar üçün yaradılan nəsr əsəri hərşeydən əvvəl cazibəli olmalı, uşağın qəlbini ələ almalı və onu düşündürməlidir. Deməli, böyüklər üçün yaradılan nəsrə verilən bədii tələblər eynilə uşaq nəsrinə də aiddir.

Müasir uşaq nəsri 1960-ci ildən bu günümuzə qədər olan bir dövrü əhatə edir. 1960-80-ci illərin uşaq nəsrinin ən gözəl nümunələrini qocaman ədiblərimizdən M.İbrahimov, S.Rəhimov, Ə.Vəliyev, M.Rzaquluzadə, S.Vəliyev və b. yaratmışlar" (17, 229).

Əsərdə ənənəyə sadiq qalan V.Əhməd bu dəfə qadın ədiblərimizdən Xalidə Hasilova, Ələviyyə Babayeva, Əzizə

Əhmədova barədə oçerklərdə keçdiyi ömür-gün yolundan müəyyən məqamları xatırladır. Uşaqların düzgün tərbiyə olunması, yeniyetmələr üçün yazılan əsərlərdə verilən xarakterlərin mənəvi aləmi, balacaların hiss və duyğularını ələ almaq bacarığı hər üç yazıçının yaradıcılığının əsas qayəsi təşkil edir.

Monoqrafiyanın "Müasir Azərbaycan uşaq dramaturgiyası" bölməsində V.Əhməd Azərbaycan ədəbiyyatının uşaq və gənclər dramaturgiyası 60-ci illərdən yeni inkşaf mərhələsinə qədəm qoyduğunu qeyd edərək yazır: "Bu illərdə dramaturgiyanın mövzu dairəsi daha da genişlənmiş, yeni nəslin əsrin tələb etdiyi səviyyədə tərbiyəsinə yönəlmişdir. Gəncliyin əsl vətəndaş kimi kəmala çatması üçün müasir elmi və texniki biliklərə yiyələnmək, yüksək zövqə, mnəvi yetginliyə, zəhmətə və əməklə ucalmağa cəhd göstərməsi günün ən başlıca məsələsi kimi dramaturgiyanın qarşısında dururdu. Istər Gənc Tamaşaçılar Teatrında, istərsə də A.Şaiq adına Kukla Teatrında tamaşaya qoyulan bir sıra pyeslər uşaq və gənclərə məxsus dramaturgiyanın yeni inkşaf mərhələsinə daxil olması haqqında aydın təsəvvür yaradır". (17, 236)

Əsərdə tanınmış uşaq dramaturqlarından Yusif Əzimzadə və Əli Səmədov haqqında oçerklər qələmə almış V.Əhməd onların uşaqlara və gənclərə məxsus hekayə və povestlərindən, pyeslərindən söz açır.

Monoqrafiyanın əsas qayəsi ondan ibarətdir ki, V.Əhməd ilk dəfə olaraq "Müstəqillik dövrü Azərbaycan uşaq ədəbiyyatı" mövzusunda oçerk işləyib hazırlamışdır (17, 242-245). V.Əhməd alim, vətəndaş cəsarəti göstərərək mühüm mövzunu ürəyinin dərinliklərindən keçirərək araya-ərsəyə gətirib. Belə bir aforizm var "Tarixi doğru-dürüst yazanlar tarixin yaddaşında qalırlar". Nə yaxşı ki, Vüqar Əhməd kimi tarixi yaşadanlar var.

Haqqında söhbət açdığımız bölmədə V.Əhməd xalq şairləri Bəxtiyar Vahabzadəyə və Zəlimxan Yaquba (ilk dəfə olaraq) həsr etdiyi oçerklər yer alıb (17, 246-250).

Dərs vəsaitində dramaturq, bəstəkar, şair Mövsüm Əhmədin "Vüqar Əhməd" oçerki də yer alıb (17.ş 251-254).

Mövsüm Əhməd oçerkdə V.Əhmədin uşaqlara həsr etdiyi "Azərbaycan bayrağı" və "Əlifbanı öyrəndim" şeirlərini də təhlildən kənarda qoymur: "V.Əhmədin "Azərbaycan bayrağı" şeiri uşaqlarda dövlətin mühum atributlarından biri olan bayrağa sevgi və məhəbbət hissinin tərbiyəsi üçün, türklüyün milli bir rəmzi kimi dəyərləndirilməsi üçün olduqca əhəmiyyətlidir:

Ən əziz, ən müqəddəsdir,
Yenilməzdir türk bayrağı,
Dalğalandı nəfəs kəsdi,
Yağı salar, türk bayrağı.

Tədqiqatçı "Əlifbanı öyrəndim" şeiri haqqında belə yazır: "V.Əhmədin "Əlifbanı öyrəndim" şeiri uşağın gələcək həyatının müəyyənləşməsində, uşağın gələcəkdə bir şəxsiyyət kimi formalaşmasında təhsil, savad almasında əlifbanın nə qədər əhəmiyyətli olduğunu, eyni zamanda elmin, biliyin insana xoşbəxtlik gətirən yeganə mənbə olduğunu əks etdirən, kiçik yaşlı uşaqlar üçün olduqca sadə və anlaşıqlı, eyni zamanda səmimi hisslərlə yazılan bir poetik nümunədir:

"A"-la başlayır "Ana",
"A"-la yetir o sona.
Car çəkirik sabaha,
Əlifba bayramıdır.

Oxuyacam Sabiri,
Mən Vurğunu, Müşfiqi,
Şirvanini, Zakiri,
Mən Səhhəti, Şaiqi.

Monoqrafiyada "Son illər uşaq ədəbiyyatına bir nəzər", "Cənubi Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatı nümunələri" və xalq şairi Balaş Azəroğluya həsr edilmiş oçerklər öz əksini tapıb. (17, 255-268)

D) Ədəbiyyatın klassik dövrü və müasir ədəbi proses

Vüqar Əhmədin yaradıcılıq yolunda müasir ədəbi proses həmişə diqqət mərkəzində olub. Alimin müasir ədəbi proseslə bağlı kitablarda, qəzeti səhifələrində, curnallarda, məcmuələrdə məqalələri, resenziyaları, təhlil və mülahizələri dərc edilib. Vüqar Əhməd yeni ədəbi nəşrləri təhlil süzgəcindən keçirərək, mütəmadi olaraq ədəbi münasibət bildirmişdir. Bir çox hallarda onlar haqqında rəyləri çap olunmuşdur. Vüqar Əhməd ədəbi proseslə bağlı araşdırmalarında həm ayrı-ayrı fərdlərin, həm müəyyən ədəbi mərhələlərin ədəbi-bədii poetik, prozaik məziyyətlərini, ideya xüsusiyyətlərini bədii dil və üslub çalarlığını tədqiqata cəlb etmişdir. Tədqiqatçı alim Quzeylə yanaşı Güney ədəbi prosesinə də bicanə qalmamışdır. Vüqar Əhmədin ədəbi prosesə münasibətində istər Quzeyin, istərsə də Güneyin ədəbi-poetik mənzərəsini oxucuların ixtiyarına vermişdir. Quzey və Güneyin klassik ədəbi nümunələrini, ədəbi tarixini daim tədqiq edə nalim yeni ədəbi nəslin yaratdıqları əsərlərin janr və üslub xüsusiyyətlərini, hansı ədəbi cərəyana mənsub olduqlarına fərq qoymayaraq onların da yaratdıqlarına münasibət bildirmişdir. İstər ayrı-ayrı şair və yazıçılar, istərsə də onların yaratdıqlarına küll hallında ədəbi xülasə xarakterli məqalalər həsr etmişdir. Beləcə 25 ildən çoxdur ki, tanınmış alim ədəbi prosesi izləyir və qələmə aldığı yazılar buna bariz nümunədir.

Vüqar Əhməd müasir tədqiqatçı kimi ilk məqaləsi filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovun «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər kitabına həsr olunub. V.Əhmədin bir alim kimi yetişməsində, nüfuz sahibi

olmasında mərhum, xatirəsi daima qəlbimizdə yaşayan Xeyrulla Məmmədovun məhz böyük xidmətləri olmuşdur. Vüqar Əhmədi hələ tələbəlik dövründən istedadını müsadirə edən Xeyrulla Məmmədov onun gələcəkdə elm adamı olacağına əmin idi.

1987-ci ildə Vüqar Əhmədin yazısı onun həyat müəllimi, Xeyrulla Məmmədovun kitabı barəsində olması gənc tədqiqatçının ustadına olan sonsuz diqqətinin nəticəsi idi. Bu məqalə Vüqar Əhmədin ilk qələm təcrübəsi olmasına baxmayaraq olduqca səlis dildə yazılmışdır: "Əsər beş hissədən: Müqəddimədən, 3 fəsildən və nəticədən ibarətdir. Müqəddimə tədqiqatçı mövzu ilə bağlı problemin, tədqiqi obyektinin – 25 illik dövrü əhatə edən mərhələnin əlvan boyalarla geniş mənzərəsini verir. Tədqiqatçı XIX əsrin 80-cı illərində Azərbaycan ədəbiyyatının inkişafı üçün qeyri-müqasib şəraitin yaranmasının səbəbini 70-ci illərdə «Əkinçi»nin bağlanması, Axundovun fəfatı, Zərdabinin Bakıdan uzaqlaşması, Seyid Əzimin siyasi etibarsızlıqda təqsirləndirilib müəllimlikdən çıxarılması, digər ədəbi simaların obyektiv və subyekiv səbəblər üzündən kənarda qalmasında görməkdə düzgün qənaətə gəlir. Adi «Ziya» (1879) qəzetinin sözdə bir, əməldə başqa mövqe tutmasını, Ünsizadənin redaktorluq fəaliyyətinin təsvirini verir. «Ziya»nın panislamist ideyalar təbliğ etməsini onun mədəniyyətimizin inkişafı yolunda heç bir faydalı iş görmədiyini, realist ədəbiyyatın tərəqqisinə ağır zərbə vurduğunu xüsusi qeyd edir." (10, 24-25)

Kitabı haqqında rəyin çap olmasına baxmayaraq, Məmmədov məqaləni oxuduqdan sonra Vüqar Əhmədə xeyir-dua və dəyərli məsləhətlər vermişdir. Bütün bunlardan ruhlanan Vüqar Əhməd silsilə məqalələr dərc etdirmişdir. Müasir ədəbi proseslə əlaqədar Vüqar Əhmədin 1993-cü ildə «Hər kəsin öz səsi» adlı ayrıca kitabı da işıq üzü gördü. Kitaba "Ön söz" yazan Əbülfəz Naxçıvanlı əsər barədə fikirlərini aşağıdakı şəkildə bildirir: "Son on ildə ədəbi prosesi dərindən izləyən və ona öz mövqeyindən yanaşmağa çalışan tədqiqatçı alim Azərbaycanda maarifçiliyin, curnalistikanın ilk

təməl daşını qoyanlardan biri, «Məktəb» uşaq qəzetinin yaradıcısı və naşiri Qafur Rəşad Mirzəzadədən başlamış bugünkü nəslimizə, poeziyamıza, uşaq ədəbiyyatımıza öz obyektiv münasibətini bildirir. Müəllif xalq şairi, Dövlət mükafatı lauretı Nəbi Xəzrinin, xalq yazıçısı Sabir Əhmədli və əməkdar incəsənət xadimi Cabir Novruzun yaradıcılığına orijinal yanaşır və bu tanınmış ədiblərin son illər işıq üzü görmüş əsərləri barədə doğru-dürüst fikir söyləməyə çalışır". (10, 3)

Kitaba daxil edilmiş yazılar müxtəlif məzmunludur. «Uşaq jurnallarımızda rus və dünya ədəbiyyatının təbliği» adlanan ilk məqalədə Vüqar Əhməd Azərbaycanda professional uşaq ədəbiyyatının inkişafının XIX əsrin 70-ci illərindən başlandığını qeyd edir. Oxucuda belə qənaət yaranır ki, xalqımızın uşaq ədəbiyyatı olmayıb. Alim bu sahədə ilk nümunələrini şifahi surətdə yaradıldığını xüsusi vurğulayan Vüqar Əhməd yazır:

Nənə və babalarımız özləri də hiss etəmədn şəxsiyyətlərində yazıçılıq məharəti ilə pedaqoci ustalığı birləşdirmişlər. Onların yaratdığı ədəbi nümunələr yüksək estetik təsirə malik olmaqla bərabər, həm də dərin əxlaqi-didaktik məzmun kəsb edir. Layla və oxşamalardan qəlbinə humanist duyğular axır və onlarda bədii sözün qüdrətinə dərin maraq hissi oyanır. Sadə, bədii sənətə məhəbbət onların beşiyi başında oxunan nəğmələrdən başlayıb, inkişaf edir.

Azərbaycan dilində çıxan ilk uşaq curnalları «Dəbistan», «Rəhbər» və «Məktəb» olmuşdur. Azərbaycanın görkəmli söz sərrafları M.Ə. Sabir, A. Səhhət, A. Şaiq, H.B. Zərdabi, S.M. Qənizadə, A.Divanbəyoğlu, S.S. Axundov bu curnalların ətrafında sıx birləşərək milli uşaq ədəbiyyatımızı yeni inkişaf pilləsinə qardılmışlar.

«Məktəb» milli uşaq mətbuatı nümunələri arasında xüsusi mövqeyə malikdir. Bu curnalların nəşri bilavasitə Qafur Rəşadın adı ilə bağlıdır. Qafur Rəşad həmyerlisi Ə.T. Əfəndizadə ilə birlikdə 1911-ci ilin 29 noyabrında bu qəzetin nəşrinə başladı. 1916-cı ilin mayında Ə.T. Əfəndizadə vəfat et-

dikdən sonra qəzeti nəşr etməyin bütün ağırlığı onun öhdəsinə düşdü.” (10, 5)

Qafur Rəşad Mirzəzadənin əvəzsiz xidmətlərini Vüqar Əhməd kitabda yer almış «Ayineyi-Millət»in yaradıcısı məqaləsində davam etdirir. Bütün şüurlu həyatını xalqın maarifləmməsinə sərf etmiş Qafur Rəşadın məktəb dərslikləri barədə və yeni tədris ocaqlarının açılmasının təəssübkeşi olduğunu yazısında Vüqar Əhməd önə çəkir: “Qafur Rəşadın xüsusi əhəmiyyət verdiyi məsələlərdən biri də məktəb dərslikləri ilə bağlı idi. Onun «Rəhbəri-sərf» (M.S. Axundovla birgə), «Hesab məsələləri» (Ə.T. Əfəndizadə ilə), “Qafqaz Coğrafiyası” dərslikləri ana dilində milli dərslik yaratmaq sahəsində ilk müvəffəqiyyətli addım oldu. Həmin dərsliklər alimin müxtəlif elm sahələrini yaxşı bildiyini nümayiş etdirməklə yanaşı, həm də pedaqoci aləmə onun tədris metodikasına çox gözəl bələd olduğunu sübut edirdi. Q.R.Mirzəzadə ictimai həyatın müxtəlif məsələlərinə dair məqalələr yazsa da publisistika onun yaradıcılığında onun yaradıcılığında əsas yer tuturdu. XX əsrin demokratik ictimai-siyasi publisistikasında Q.R. Mirzəzadənin öz üslubu var. «Təzə həyat», «Nicat», «İqbal», «Azərbaycan» və s. mətbuat orqanlarında öz dəstxətti ilə çıxış edən Qafur Rəşadın məqalələrində xalqı maarifləndirmək məsələləri mühüm yer tutur. O, yeni təlim və tərbiyə metodlarının təbliğatçısı olaraq təzə məktəblər açmaq təşəbbüsünü bütün varlığı ilə müdafiə edirdi”. (10, 16)

«Doqquz əsrlik Azərbaycan qəzəli» məqaləsində (10, 19-23) isə Vüqar Əhməd 1992-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən lirik poeziyamızın ən geniş yayılmış forması olan qəzəllərdən ibarət toplunun çap olunduğunu oxucuların diqqətinə çatdırır. «Azərbaycan qəzəlləri» kitabında izahların və lüğətin müəllifi Əhmədağa Əhmədov, tərtibçisi isə filologiya elmləri namizədi Məmməd Nuruoğludur.

Bütövlükdə qəzəldən söhbət düşəndə dahi Məhəmməd Füzuli, Xaqani, Nizami, Nəsimi, Nəbati, Seyid Əzim, Əliağa Vahid və digər söz sərrafları yada düşür. Vüqar Əhməd şeirimizin ən nəhəng ustadı Füzulinin «Qəzəldir səfabəxş -

əhli-nəzər» mətləli qəzəlinə istinadən Füzulinin qəzəl haqqında ədəbi-nəzəri, fikirlərini oxucularla bölüşərək əruzda yazılmış poetik nümunəni onlara təqdim edir.

«Qəzəldir səfabəxş - əhli-nəzər» Vüqar Əhməd kitabda iki yüzdən çox şairin yaradıcılığında bədii qəzəllərin bədii keyfiyyətlərə cavab verdiyini, tərtibçinin isə hər bir sənətkarın şeirindən əlavə annotasiya xarakterli aftobioqrafik məlumatlara yer verdiyini qeyd edərək yazır: Topluda XIX əsr Azərbaycan nəşrləri daha çox üstünlük təşkil edir. Çünki məlum olduğu kimi, bu əsərdə qəzəl aparıcı janrlardan biri olmuşdur.

Kitabın tərtibi və bədii məziyyətlərindən biri də şairlərin Cənub və Şimal başlığı altında bölünmələri, vahid Azərbaycan sənətkarları kimi təqdim olunmalıdır.

Klassik Azərbaycan şairi, ustad Məmmədhüseyn Şəhriyarın lətif, ictimai məzmunlu, Vətəni, məhəbbəti tərənnüm edən «Özü eşq əhli mərdlər içrə Vahid binəzir ərdi», «Çoxlar incikdi ki, sən onlara naz eyləmisən», «Nazlı, duzlu o pəriçöhrə ki nərgiz gülüdür», «Türkün dili tək sevgili, ehsaslı dil olmaz», «Yenə qanadlanıram mən Vətən havası ilə» və s. mətləli qəzəlləri topluya xüsusi rövnəq verir:

...Şəhriyaram, gərçi mən söz mülkünün sultanıyam,
Göz yaşımdan başqa yoxdur dürri-şəhvarım mənim.

Poetik topluda XIII-XIV əsrlərdə yaşaması ehtimal olunan Möhnəti Bakun, görkəmli alim, nasir, «Qüdsü» təxəllüsü ilə şeirlər yazmış A. Bakıxanovla eyni əsrdə, eləcə də sonrakı dövrlərdə yaşamış Mirzə Bağır, A. Sürəyya, S.Həsənzadə, Ə.Razi, İ.Zülali, M.Cürmi, M.H. Sabit, M.M. Binəva, M.Ə. Qüdsi, A. Salik, M.Ə. Yusif, Ə.Cənnəti, Ə.Mina, Ə.Biləqəm, M.A. Şahin, M.Mehdi, A. Hicri, A.Münri, Məşədi Azər, H.Sabiq, N. Nəyyir, Ə.Asəf, H. Pərişan, Ə.Şərqi, S.Mənsur, Ə.Bibak, M.Münsif, Məşədi xanım Leyli, H.Səyyar, B. Məmmədzadə, A.Cövhər, Seyidağa, Xədicə, B.Hüseynov və b. Bakı-Abşeron şairlərinin qəzəllərindən də nümunələr verilmişdir.

Kitaba xalq şairi Nəbi Xəzrinin yaradıcılığı barədə «Məhəmməd Peyğəmbərin poetik obrazı» (10, 45-47), «Çiynində şəhidlər daşıyan gözəl», (10, 46-58), «Mən bir dənizəm» (10, 59-60) adlı üç məqalə daxil edilib.

Məhəmməd Peyğəmbərin poetik obrazını ədəbiyyatımıza gətirən xalq şairi Nəbi Xəzri lirik-psixoloci üslubun poetik gedişində dünya müsəlmanlarına Peyğəmbəri, Allahın elçisi Məhəmməd Əleyissəlamın haqqında qmymətli əsər yaratdığını vurğulayaraq Vüqar Əhməd yazır: «Şeir peğəmbəri köməyə çağırır, ona xalqın xoşbəxtliyi naminə müraciət edərək kömək əli uzatmasını arzulayır». (10, 47)

Xalq şairi Nəbi Xəzrinin Azərbaycanın ilk şəhid curnalisti, Milli qəhrəman Salatın Əsgərovun ölməz xatirəsinə həsr etdiyi «Salatın» poemasını təhlil edən Vüqar Əhməd söz ustasının bu itkiyə biganə qala bilmədiyini, Salatını öz poeziyası ilə əbədiləşdirdiyini dilə gətirir: Qəhrəman Salatının faciəli qətlinə həsr olunmuş poemada epik təsvirlərlə yanaşı, şair qələminə məxsus lirizm də güclüdür. Şair həyatda qəhrəmanla yalnız bir kərə görüşmüşdür. Elə həmin hissənin adı da «Bir kərə, yalnız bir kərə» adlanır:

Qonaqlıq…
Mahnılar uçur göylərə,
Çıraqlar baş üstə,
rəngin çətirdi.
Bir kərə görüşdük,
yalnız bir kərə,
Özüylə bir düya
heyrət gətirdi. (10, 57)

Azərbaycan xalqının qəhrəmanlıq salnaməsində bir ad da əlavə olundu – Salatın adı! Həmin qəhrəmanlar həmişə sənətdə əbədiləşiblər. Sonra bu cəngavərlər əfsanələşiblər, nağıllaşıblar. Ya dub u qəhrəmanlar, əksinə, nağıllardan, əfsanələrdən gəliblər. Vaxt gələcək, Salatın da əfsanələşəcək, nağıllaşacaq, yenidən ədəbiyyatda bədiiləşəcək, şeirləşəcək, nağıllaşacaq:

Sanki məğrur-məğrur
bir humay quşu
Gəldi nağıllardan,
əfsanələrdən… (10, 57)

«Mən bir dənizəm…» məqaləsi Nəbi Xəzrinin bəzi təbiət təsvirli şeirlərinə həsr olunub. Şairin poeziyasında Azərbaycan təbiəti – Abşeron təbiətinin detalları güclü bir koloritə malik olduğunu alim süzgəcindən keçirən Vüqar Əhməd yazır: «Əlbəttə, Nəbi Xəzri yaradıcılığı təkcə Abşerona məxsus təbiət detalları ilə məhdudlaşmır. Şairin yaradıcılığında insanların da maddi, mənəvi zövq və ehtiyaclarını ödəyən, təbiəti əks etdirən şeirlər onlarcadır. Lakin onun Abşerona vurğunluğu, bu torpağın özünəməxsus təbiətinin poetik tərənnümü də özünəməxsusdur:

Yenə qumlu sahir, yenə sərin bağ,
Yenə axşam düşüb meynəliklərə… (10, 59)

Xəzri küləyinin mehi ilə oyanan, qızıl qumda dəcəlləşən, ağ şanı şirinliyində ömrü boyu xalqının acı taleyinə yazan Nəbi Xəzri bu torpaqda dünyaya göz açmışdır. O, amalı, əqidəsi, tərənnümü, bütövlüyü ilə həmişə Azərbaycan oğludur və bu gün də xalqını layiqincə təmsil edir, onun adına layiq bir şair vətəndaşdır.

Xəzər sahilində doğulmuşam mən,
Laylamı çalmışdır dalğalar mənim.

Xəzər – mənəvi bütövlük, təbiətin möcüzəsi, sirdaş kimi Nəbi Xəzrinin poeziyasında təsvir olunur və şair Xəzərlə danışmağı qəlb dərinliyindən gələn bir məhəbbətlə sevir.

Kitabda həmçinin Vüqar Əhmədin başqa mövzuları əhatə edən «Əsrimizin əvvəllərində Rus uşaq ədəbiyyatından Azərbaycancaya çevrilmiş əsərlərin dil xüsusiyyətləri», «Əsrimizin Səyavuşu», «Uşaq ədəbiyyatımızın təşəkkülü», «Azərbaycan qadınlığının poetik salnaməsi», «Dədə Qorqud

dünyasına yeni töhfə», «Qarabağ Dosyası», «Uşaqlara göhəl hədiyyə», «Bəşər Nəsimi – Nəsimi suyundandır», «Haqqın səsi», «Sözün sehri»nin sehri», «Sabir ədəbi məktəbi», «Müasir nəsrimizin əzabkeşi», «Dünyaya heyfslənən poeziya», «Keçid», «Hər kəsin öz səsi», «Söz gülləsi», «Həyata həssas münasibət» məqalələri öz əksini tapıb.

Filologiya elmləri doktoru, professor Vüqar Əhməd 2010-cu ildə qələmə aldığı «Elmi-filoloji qaynaqlar, ədəbi simalar haqqında düşüncələr» kitabında da çağdaş ədəbi prosesi əhatə edən mövzulardan yan keçməyib. İlk növbədə alimin «Əliağa Vahid» fundamental məqaləsi (18, 14-51) diqqətimi çəkdi. Bu iri həcmli yazını Vahidə həsr olunmuş ədəbi dəyərini vermək olar. Vüqar Əhməd Böyük «Füzulilərin xaki-payinin biriyəm» deyən Vahidin ölməz qəzəllərini təhlil etməklə Vahid şeirindəki sadəliyə, səmimiyyətə, axıcılığa və ürəyə yatımlığa məftun olduğunu bədii çalarlarla ifadə edir:

«Ə.Vahidi ədəbiyyat tariximizdə bir şair kimi tanıdan və sevdirən, şübhəsiz ki, onun qəzəlləridir. Vahidin qəzəlləri xalqın zövqünə uyğun olaraq yaradılmışdır. Yaşadığı keşməkeşli, ziddiyyətli bir dövrün gözəllik, məhəbbət nəğmələri olan bu qəzəllərin bir səciyyəvi cəhəti onlarda lirik qəhrəman olan məşuqənin, onun gözəlliyinin şərhinə geniş yer verilməsidir. Bir çox qəzəllərində şair bunu əsas götürür, başdan-başa özünün gözəllik idealına çevirir. Arzuladığı və bəyəndiyi cismani və mənəvi gözəllikləri özündə birləşdirən lirik qəhrəmanı Vahid dövranını, əxlaq normaları, estetik baxışları ilə təqdim edir. Bu gözəl şairin dövrünün məşuqə, sevgi surətindən reallığı, konkretliyi və s. ilə seçilir. O, keçmiş şeirin mücərrəd, ancaq çox dərin fəlsəfi ümumiləşdirmə nəticəsi olan gözəlinə oxşamır». (18, 15-16)

Vahid poeziyasını gözəllik aşiqi, sevən ürəkləri vəsf edən aşiqlərin tərənnümçüsü kimi qiymətləndirən Vüqar Əhməd yazır: Vahidi sevən qəlbin sevincini, kədərini, rəngarəng boyalarla qələmə alır. O, Füzuli məktəbinin bədiilik piryomlarından məharətlə istifadə edir. ənənəvi üsul, obraz və təşbehlərlə səmimi insan duyğularının inikasına nail olur. Müəyyən bir fikri və ya hissi ifadə etməklə bərabər gözəl

bədii lövhələr yaradır. Şair böyük heyranlıqla insanın gözəlliyini, daha çox bu gözəlliyin təsirindən doğan hissləri əks etdirir:

Dəli könlüm gözəlim, zülfünə olmuş mail,
Yenə zənciri-cünün ətqilim etmiş zail.
Min bahar olsa, cahan cənnətə dönsə, gözəlim,
Görməyincə üzünü aşiqin olmaz zail.

Vahidin qəzəlləri insan qəlbinin tərcümanıdır, desək qətiyyən yanılmarıq. Bu qəzəldə məhəbbəti dərindən hiss edən insanın poetik obrazını Vahid böyük ustalıqla yaradıb.

Vüqar yazır: «Vahidin qəzəllərinin bir qədər geniş şəkildə nəzərdən keçirməsi göstərir ki, bu qəzəllər insan haqqında dərin düşüncələrin məhsuludur. Bu qəzəllər ancaq geniş fəlsəfi mənada aşiqanə əsərlərdir. İnsanlığın, gözəlliyin, idealın təsdiqidir. Bu qəzəllər sadədən mürəkkəbə, müəyyənlikdən mücərrədliyə, dünyəvi məhəbbətdən fəlsəfi məhəbbətə doğru inkişaf verməк baxımından isə ardıcıllıq, qanuna uyğunluq Vahid irsini klassik şeirimizin ən yaxşı nümunələri kimi qiymətləndirməyə bizə haqq qazandırır». (18, 18)

Şairin qəzəllərində musiqi duyumu olduqca güclüdür. Mənə elə gəlir ki, Vahid əksər qəzəllərini musiqi sədaları altında bədahətən deyib. O, həm də Muğam bilicisi olub. Bütün muğamlarımız üstündə qəzəllər söyləyib. Hələ sağlığında Vahidin ölməz qəzəlləri xanəndələrimizin dilindən düşməyib. Əsrlər boyu nə qədər Azərbaycan xalqı var Vahidin qəzəlləri daima oxunacaqdır.

Vüqar Əhməd Vahidin Azərbaycan musiqisinə, muğamımıza bağlılığından söz açaraq yazır:

«Ə.Vahid qəzəllərinin çox orijinal avazı vardır, sanki bu qəzəllər Azərbaycan musiqisinin təməli, kökü olan muğamların hər guşəsi üçün cilalanmışdır. Xanəndələrin muğam üstündə Vahid qəzəllərindən istifadə etməsi, onların ifa zamanı nəfəslərinə, zəngulələrinə, xırdalıqlarına yardımçı olur, onların öz səslərindən məharətlə istifadə etməsi üçün zəmin yaradır. Vahid qəzəllərinin dili olduqca rəvan, səlist, tez an-

laşılan, tez yadda qalan və sadə olduğuna görə hələ xanəndəlik sənətini öyrənən gənc müğənnilər oxuduqdarı muğam şöbələrini bu qəzəllər vasitəsiylə ifa edəndə, onun daha asan ifa olunması üçün şərait yaranır və gənc müğənnilər Vahidin qəzəlləri vasitəsilə muğamı daha tezliklə mənimsəyir və bir neçə il müddətində peşəkarlığa yiyələnirlər». (18, 19)

Alim həm də Vahidin ustad xanəndələrlə, müğənnilərlə dost olmasını məqalədə önə çəkir:

Məlumdur ki, Ə.Vahid Azərbaycan milli musiqisini və muğamını çox sevdiyi üçün muğam ifaçıları – xanəndələrlə, müğənnilərlə dostluq və əməkdaşlıq etmiş, bəzi qəzəllərində klassik xanəndələrimizin ifaçılıq məharətini vəsf etmiş, bəzi xanəndələrin sifarişi və xahişi ilə qəzəllər yazmışdır. Ə.Vahid xalq şairi Süleyman Rüstəmin 50 illiyinə həsr etdiyi qəzəldə korifey sənətkar Zülfü Adıgözəlovla və Xan Şuşinskini hörmətlə yad edir:

Nə olar, Vahid, əgər məclisimiz sakit ola,
Oxusun bu qəzəli Zülfü ilə Xan bu gecə.

Uzun illər Bakı və Abşeron toylarının xanəndəsi olmuş Zülfü

Adıgözəlovun sənətinin heyranı olan Vahid başqa bir qəzəlində də Zülfü Adıgözəlova olan dərin məhəbbətini belə vurğulayır:

Vahid istərsən əgər, məclisimiz xoş keçsin,
Zülfünün «orta segahı», Paşanın tarı gərək.

Ə.Vahid ustad xanəndə Əbülfət Əliyevə də yüksək qiymət verərək qəzəllərinin birində onun adını ehtiramla dilə gətirir:

Bu şeiri Vahid, Əbülfətdən ötrü yaz, oxusun.
Gözəl vətənimizə bu şeiri yadigar edirik.

Ə.Vahid başqa bir qəzəlində həm Əbülfət Əliyevi, həm də ustad Tarzən Bəhram Mənsurovu belə qiymətləndirir:

Vahid, istərsən əgər musiqidən zövq alasan,
Məclisində həm Əbülfət, həmi Bəhram olsun!

Ümumiyyətlə, musiqiyə böyük qiymət verən və musiqi ab-havası ilə yazıb-yaradan Ə.Vahid musiqi zövqünü, musiqidən alınan həzzi hətta min sevgili-canandan belə artıq hesab etmişdir.

Musiqi nəşəsi min sevgili cananə dəyər,
Əsəri, naleyi-ney arif üçün cana dəyər.

Vüqar Əhməd qeyd edir ki, Vahid Mədəniyyət xadimləri ilə yanaşı, qələm əhlinin nümayəndələriylə də yaxın münasibətdə olmuşdur. O, dövrün ən məşhur qəzəlxanları Ağadadaş Muniriyə, Məşədi Azərə, Əbdülxalıq Yusifə, həmçinin ədəbiyyatşünas alim Salman Mümtaza və s. əsərlərində yer ayırmışdır. Ölməz ustad yaradıcılığında Səməd Vurğuna, Süleyman Rüstəmə və başqalarına qəzəllər həsr etmişdir. Vahidin ən çox isti münasibət bəslədiyi şair Hüseyn Cavid olmuşdur. Bu barədə Vüqar belə yazır: «Ə.Vahidin ən çox sevdiyi və hörmət bəslədiyi, eyni zamanda öz dövrünün ən qüdrətli dramaturqu hesab etdiyi sənətkar isə dahi Hüseyn Cavid idi». Hüseyn Cavidin əlçatmaz sənətinə və yüksək intəhasız məhəbbət bəsləyən Ə.Vahid Hüseyn Cavid repressiya qurbanı olandan sonra ürək yanğısı ilə böyük ədibi belə xatırlayıb:

Cavid əbədidir, qalacaq nami cahanda,
Məhv etmə, cəllad onu xəlqin nəzərindən.
Ölməz o böyük dahi, böyük bir gələcək var,
Övladi-Vətən zövq alacaq hər əsərindən.

Ə.Vahid ürəyə nur çiləyən bu məşhur bir qəzəli də unudulmaz Hüseyn Cavidə həsr etmişdir:

Biz bir qatar tutiyi-şirin süənlərik
Öz nəğməmizlə ziynəti-sərvi-çəmənlərik

Gülüzlülər təranəmizin həsrətin çəkir
Bağı-vətəndə bülbüli-xoş nəğməzənlərik,
Bir kimsə bilməyir nə xərabətilərdənik.
Meyxanələr müsafiri rindü-kuhənlərik,
Bizdən həmişə zövq alır Ərbabi-mərifət,
Biz əhli-halə ətir saçan yasəmənlərik.
Məşuqəmiz həqiqi Züleyxayi-əsrdir.
Eşq aləmində Yusifi-gülpirihənlərik
Lövh üzrə pirimiz bizi yazmış şəhidi-eşq,
Meydani-ədli-daddə gülgün nəfənlərik.
Cavid həmişə xəlqımızın xatirindədir,
Vahid, o yoxsa, ruhi ilə həmvətənlərik. (18, 23)

Vahid rəsmi şəkildə «Xalq şairi» adını daşımasa da qəlblərdə, ürəklərdə xalqın şairi idi. atam danışırdı ki, Vahid dünyasını dəyişəndə xalqımız əllərində sağlığında dahiləşən insanı son mənzilə – Fəxri Xiyabana yola saldılar. Vahid Azərbaycanı daxildən sevən ölməz insan idi. Azərbaycan vahidsiz, Vahidi Azərbaycansız təsəvvür etmək mümkün deyil. Vahid çox yaxşı deyib:

«Fəxr eyləmə ey bülbüli-seyda çəmənim var,
Qoy mən fəxr eyləyim mən ki, gözəl bir vətənim var».

Vüqar Əhməd məqalədə məhz Vahidin bu cəhətləri haqqında fikirlərini belə əsaslandırır: Vahidin bədii yaradıcılığını nəzərdən keçirən bütöv bir Azərbaycan obrazı ilə rastlaşır. Vahid əsərlərində yaşadığı sovetlər birliyi dövrünün bir sıra şairləri kimi elə yerli, yersiz sosializmi, Leninizmi, bolşevizmi, kommunist partiyasını, komsomolu təbliğ və tərənnüm etmir, onun bədii yaradıcılığında bu uydurma zorakı quruluş və onun faşist təbliğatçıları haqqında bir kəlməyə də rast gəlmək mümkün deyil. Vahid heç bir quruluşdan asılı olmayaraq, Azərbaycanın sədaqətli övladı idi və Azərbaycanın füsünkar təbiətinin aşiqi eyni zamanda tarixinin gözəl bilicisi, Azərbaycan xalqının bulaq tək qaynayan istedadının, yüksək mənəvi keyfiyyətlərinin öz möhtəşəm əsərləri ilə nəhə-

ng bir güzgüsü idi. Vahidin əsərləri formaca klassik poeziyanın ənənəvi qəliblərini xatırlatsa da, məzmun və mahiyyətcə müasir tələblər, müasir zövq, duyğu baxımından xeyli fərqlənirdi. Onun lirik qəhrəmanı Azərbaycan xalqının mənafeyi uğrunda əlindən gələni əsirgəmir. Xüsusilə söhbət eldən, obadan, vətəndən gedəndə bu qəhrəman mübariz ruhlu, canlı obraza çevrilir. Vahidin lirikasına ilham və qanad verən də məhz vətən, xalq və onun, səadəti mübarizəsi, azadlıq istəyi, qurub yaradan oğul və qızlardır. Ona görə də: – Yaz yaxşı əsərlər vətənə yadigar üçün, – deməklə şairin cəmiyyət qarşısındakı borcunu səmimi etiraf edir və istedadının tələb və imkanlarına müvafiq oynaq qəzəllər, lirik şeirlər, şərqilər, mahnılar yazırdı:

Məni zənn etməyin Məcnundan əskik,
Mən ondan yüksəyəm əfsanələrdə.

Beləliklə Ə.Vahid sözün əsl mənasında xalqının şairi idi. Nazirindən tutmuş fəhləsinə qədər, akademikindən tutmuş – savadsız adamına qədər, hamılıqla Vahidi sevən Azərbaycan xalqıdır. Hər yerdə, hər şeydə gözəllik axtaran şair bütün çatışmayan cəhətlərin, eyiblərin, nöqsanları üstündən xətt çəkərək, yalnız gözəlliyi, məhəbbəti, müsbət əhval-ruhiyyə doğuran hissləri, duyğuları tərənnüm və təbliğ edirdi. (18, 24)

Məlumdur ki, şeirimizin Füzuli yadigarı Vahid Vüqar Əhmədin təbirincə desək, Füzuli ədəbi məktəbinin ən əlaçı şagirdlərindən biri, eyni zamanda klassik poetik qanunlarına çox dərindən bələd olduğu üçün səlist, rəvan, vahid ölçüdə və vahid vəzndə prinsipi əsasında qəzəllər yazılmışdır.

Vüqar Əhməd sözü gedən məqalədə dahi Füzuli və Vahidin qəzəllərinə paralellər qurur: Bütün yaradıclığı ilə Füzuli sənətinin ideya-forma sərvətindən bəhrələnən Ə.Vahid öz əsərlərini tipoloji sxem və modelin, estetik strukturunun eyni tipi nəticəsində meydana çıxır. Məhz buna görədir ki, Füzuli şeirinin üslub və vəzni, tələffüz və ritmi, ahəngi, poetik model və qəlibləri, hətta ifadə tərkibi bədii sintaksisi və leksikalı Vahid qələmi üçün bu qədər münbit və əlverişli bir zəmin

yaradırdı. Dramatik ehtiraslarla aşıb-daşan daxili aləmin lirik ifadəsi Füzulidə olduğu qədər, Vahid də iztirabla, ruhi vəziyyətin təsviri nəticəsində meydana çıxır. Burada Füzulinin «eylərəm» rədifli qəzəlinə və Ə.Vahidin «etmişəm» rədifli qəzəlinə nəzər yetirəndə, eyni həsrət, iztirab və vüsal təşnəliyinin şahidi oluruq:

Ney kimi, hərdəm ki, bəzmi-vəslin yad eylərəm,
Ta nəfəs vardır quru cismimdə fəryad eylərəm.
Tap yaşım qılmaz vəfa, giryan gözüm nerafına,
Bunca kim, hərdəm cigər qanından imdad eylərəm.

İnciməm, hər gecə kim, əğyar bidad eyləsə,
Yar qövrüçün, könül bidadi mötad eylərəm
Bilmişəm bilməm vüsalın, leyk bir ümmid ilə,
Gah-gah öz xatiri naşadımı şad eylərəm.
Lövhi-aləmdən yudum eşq ilə Məcnun adını,
Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm.

Və Vahiddə:

Könlümü zülfün xəyalilə pərişan etmişəm,
Öz əlimlə eşq mülkün gör nə viran etmişəm!
Bir vəfasız güldən ötrü xarə çox yalvarmışam,
Hər zaman bülbül kimi min ahu-fəğan etmişəm
Eşq bir divanəlikdir, dərdə düşmüş könlümə
Eşqdən əl çəkmədi yüz dəfə dərman etmişəm
Məndən əvvəl yoxdu bir aşiq diyari-eşqdə
Eşq dərsin mən gedib Məcnuna elan etmişəm
Vahidəm, mən Leyliväşlər zülfünün Məcnuniyəm,
Çox zamanlar vadiyi eşq içrə cövlan etmişəm. (18, 30-31)

Vahid bədii yaradıcılığa satira ilə başlayıb. Şeirimizin o nəhəngi Sabirdən təsirlənərək Vahid satirik ruhlu şeirlər yazmışdır. Vahid ustad Füzulidən sevgi hisslərini əxş etmişdirsə, ölməz Sabirdən isə satiranın gücünü, eybəcərliklərini açıb-göstərmək bacarığını yaxşı mənada byrənmişdir. Vahid dahi Sabiri özünə müəllim hesab etmiş, ona şeirlər ithaf etmişdir Sabir!..»

Xalis formal struktur əlamətlərin səslənməsi mənasında müəyyən tipoloci paralelləri hər iki şairin işlətdiyi bədii şəkil və növ xüsusiyyətləri arasında da davam etdirmək olar: Şikayət, fərhad, etiraz və giley-güzar nitqinin eyni çalarlığı Füzulinin də, Vahidin də «daxili nitq» avtobioqrafik monoloq formasına maraq göstərməsinə səbəb olmuşdur. Füzuliyə bənzərliyi Vahidin zahirində «Füzuli libasını» əsərlərində axtaran tədqiqatlar, Füzuli nəfəsini, bütünlüklə Vahid ruhunun və ehtiraslarının məzmununda, miqyas və ölçülərində aparılsa daha məqsədə uyğun olar. Məlumdur ki, Ə.Vahid şeirlərinin və qəzəllərinin bir çoxunu əruz vəznində yazmışdır. O, əruzun əsasən həzəc, rəməl, müzare, müctəs bəhrələrindən istifadə etmişdir. Əsərlərinin əksəriyyətini rəməl bəhrində yazan şair, həmin bəhrin bir neçə növündən istifadə etmişdir.

FA il - Atün FA il Atün FA il Atün Failün –
Ey Vətən öv - ladı, bir an dərsi-ibrət düşmənə,
Qəhrəman zər - bəldə göstər vermə-fürsət düşmənə.

Əsasən rəməl bəhrinin üç failatün, bir fəülün bölümündən istifadə edən şair bəzi şeirlərini rəməlin üç fəülatün ölçüsündə yazmışdır. Bir çox xanəndələrimiz tərəfindən iffa olunan «Dəli Ceyran» təsnifi rəməl bəhrinin bu ölçüsündədir.

FəiIAtün fəiIAtün fəilAtün
Gözəlim a şiqini sal-ma nəzərdən,
Həsrətindən ölürəm, gəl bizə hərdən!

Ə.Vahid eyni zamanda:

Müftə ilün Məfaülün Müftəilün məfA ilün ölçüsündə şeirlər və qəzəllər yazmışdır.

Vüqar Əhməd Əliağa Vahidin Sabir ənənələrinə bağlılığını belə qiymətləndirir:

«Ə.Vahid Sabir ənənələrinə sadiq qalaraq 1914-1920-ci illərdə «Babayi-Əmir», «İqbal», «Məzəri», «Tuti», «Dirilik» kimi qəzeti və curnallarda çap olunan əsərlərində elmsizlik, cəhalət, mövhumat və məişətdəki qusurların tənqidi əsas hə-

dəf olmuşdur. «Mollanın» adlı satirada Sabir ədəbi ənənələrinin davamına, Vahidin satirik janrda Sabirlə eyni ideya-məfkurə cəbhəsinin şahidi oluruq:

Deyir bu ayda mollalar: o kəs ki, töksə göz yaşı,
Haqq ona huri lütf edər, üzü günəş, kaman qaşı
Ayağı səmti-qərbdə, keçib də Şərqdən başı
Olar o huridən biri aşinası mollanın
Bu ayda müstəcəb olar bütün düası mollanın».

Vahidin yaradıcılığın əsas yerlərdən biri meyxana üstündə qələmə alınan poetik nümunədir, deyən Vüqar Əhməd yazır:

İstər 1920-ci ilə, yəni Azərbaycanı Rus Bolşevik qoşunları işğal edənə qədər, istərsə də ondan sonrakı dövrlərdə Ə.Vahidin yaradıcılığında qəzəl janrı kimi, satira janrı da özünəməxsus yer tutmuşdur. Bundan əlavə, Ə.Vahid Azərbaycan şifahi xalq ədəbiyyatının kiçik qrupunun növünə daxil olan «meyxana» janrından da məharətlə istifadə etmiş, müharibə dövründə Hitlerin və faşizmin əleyhinə bədahətən çoxlu meyxanələr demişdir.

Vahidə bir tərcüməçi kimi Vüqar Əhməd qiymət verir:

Vahidin əsl klassikliyi də onda idi ki, fars dilində yazılmış əsərlərdən sərişləsi və bacarığı var idi və Xəqanədən, Nizamidən, Fələkidən, Füzulidən, Nəvaidən tərcümələr edərdi. Onun etdiyi tərcümələr qətiyyən öz mənasını itirməyib, öz ahəngdarlığını, ritmini, axıcılığını və bədii səviyyəsini saxlayaraq sadə və anlaşıqlı bir dildə oxucular tərəfindən oxunur.

Yeri gəlmişkən akademik, türkoloq, cərrah, doktor Cavid Heyətin «Azərbaycan ədəbiyyatı tarixinə bir baxış» əsərində Ə.Vahid haqqında yazdığı bir cümləni misal gətirsək, Vahid Azərbaycandan başqa bütün türk ellərində və İranda nə qədər məhşur olduğunun şahidi olarıq. «Əliağa Vahid Azərbaycan Türküstan və İran ölkələrində şöhrət qazanmışdır».

«Əliağa Vahid» məqaləsi ədəbi proses sahəsində yazılmış dəyərli nümunə kimi Vüqar Əhmədin ədəbiyyatşünas-alim kimi elmi potensialını göstərir. Yazının sonunda şair Vüqar

Əhmədin «Sənə zəmanə yetişməz, dübarə bir dənəsən» misrasıyla əbədilik qazanıb.

Məqalədə toplusunda Vüqar Əhməd akademik Bəkir Nəbiyevin müəllifi olduğu «Xəzan vurmasın» kitabı barədə qələmə aldığı eyni adlı yazını daxil edib.

Ədəbiyyat İnstitutunun baş elmi işçisi olan Vüqar görkəmli, məşhur, mərhum ədəbiyyatşünasın rəhbərliyi altında çiyin-çiyinə çalışmış necə deyərlər, onun tökdüklərini yaxşı mənada yığışdıra bilmişdir. İndinin özündə də institutda Bəkir müəllimdən söz düşəndə hamı kimi Vüqar Əhməd onun ədəbiyyatşünaslığına cəfakeşini həmişə böyük məhəbbətlə yada salır. Məqalədə alim Bəkir Nəbiyevin əsəri barədə hələ sağlığında yazdığı fikirlər buna əyani sübutdur:

Hamıya məlumdur ki, akademik Bəkir Nəbiyev ədəbiyyatşünaslıq elmimizin flaqmanı, ədəbiyyatşünasların ağsaqqalıdır. Ədəbiyyat İnstitutunun direktoru kimi nüfuzu, şəxsiyyəti, nurlu baxışı, müdrik, mədəni rəftarı, qayğısı, münasibəti ilə ədəbiyyatşünasların rəhbəridir. Ötən əsrdən ədəbi prosesə qoşulan alim oricinal, fərdi üslubu ilə cavan vaxtlarından ədəbi ictimaiyyət içində böyük nüfuz və geniş şöhrət qazanmışdrr. Yaşadığı ömrün xeyli hissəsini ədəbiyyatımızın tədqiqinə yorulmadan həsr edən ədəbiyyatşünas həddən ziyadə mülayim rəftarı ilə hamının məhəbbətini və hörmətini qazanmışdır.

Sonda Vüqar Əhməd kitaba toplanmış məqalələri təhlil edir, ədəbiyyatşünas-alim kimi elmi dəyərini vacib sayır. Sonda kitabın adına toxunan Vüqar Əhməd yazır:

Kitabın adı Xızıda, Giləzi kəndində yaşayan 11 yaşlı Qönçənin «Arzu qönçələri» adlı şeirlər kitabı haqqında yazdığı resenziyanın adından götürülüb. Ustad alim gənc şairə Qönçəyə uğurlar diləyərk ulu Tanrıdan arzu edir ki, şeirimizin təzə-tər qönçəsini xəzan vurmasın. Heç vaxt vurmayacaq. Çünki bu arzunu müqəddəs bir insan böyük alim Allahdan diləyir. Qönçə çox uğurlar qazanacaq. Ona xeyir-duanı ustad bir alim verib.

«Mirvarid Dilbazi» məqaləsində (18, 104-106) Vüqar Əhməd xalq şeirinin bəzi məqamlarına işıq salır. Alim Mir-

varid Dilbazinin uşaqlara ünvanladığı şeirlərə diqqət çəkərək yazır: «Yaradıcılığının bütün illərində o, uşaq şeirlərinə müraciət etmiş, yadda qalan, lakonik, əlvan, səlist, mənalı və məzmunlu poetik nümunələri ilə fidanları sevindirmişdir. Onun XX əsrin ortalarında nəşr etdirdiyi kitablara nəzər yctirsək, elə bu dövr yaradıcılığının bir şair ömrü ilə bərabər olduğunu görərik. «Mənim hədiyyəm» (1948), «Balaca nümayəndə» (1950), «Qardaşlar» (1952), «Reyhan» (1955), «Şeirlər, nağıllar, kiçik pyeslər» (1955), «Seçilmiş şeirləri» (1957), «Seçilmiş əsərləri» (iki cilddə 1967-1968) və başqaları dediklərimizə nümunə olmaqla şairin ədəbi mövqeyini müəyyənləşdirir. Uşaq psixologiyasına dərindən bələd olan onların maraq dünyasını duyan şairə «Yaz gəlir», «Yaz yağışı», «Günəş», «Göy gurlayır», «Bahar bayramı», «Yaz buludu» poetik nümunələri ilə təbiətə məhəbbət hissi oyatmaqla təbiətin füsunkar gözəlliyini, günəşin həyat üçün vacib və zəruri olduğunu, baharın mənzərəsini, Novruz bayramının milli dəyər kəsb etməsini və s. məsələlər bu şeirlərdə öz poetik ifadəsini tapmışdır». (18, 104)

Uşaq dünyasına yaxşı bələd olan Mirvarid Dilbazi gənc dostlarına yazdığı şeirlərlə yanaşı təbiət mövzusuna da müraciət etdiyini Vüqar Əhməd belə qələmə verir: «M.Dilbazi baharı necə zövqlə, ürəklə tərənnüm edirsə, payızı da, qışı da həmin dərəcə də nəzmə çəkir. Şairə təbiətə necə vurğundursa, onun nemətlərinə də - canlısına da, cansızına da eyni hərarətlə, məhəbbət və istəklə vurğundur. «Açıl bənövşə» şeirində bənövşəyə müraciət özünə layiq, kövrək bir hisslərlə, necə varsa eləcə poetik əksini tapmışdır. Bu şeiri oxuyanda dərk olunur ki, ancaq və ancaq təbiətin qoynunda olan, kolların dibinə qısılan, səhər tezdən yarpağı üstə şehi görən, barmaqları ilə yarpaqlara toxunarkən izi qalan bir gözəl bu şeiri bax beləcə poetikləşdir bilər, rəssam tablo çəkən kimi canlılar aləminə münasibət istəklə yekunlaşır. «Qaranquş», «Sığırçın», «Torağay», «San qulan», «Boz oğlağım» şeirləri uşaqların bu quşlara və heyvanlara istəyini çoxaldır». (18, 105)

Mərhum xalq şairi artıq on ildən çoxdur ki, həyatda yox-

dur. Amma onun əsərləri oxucuların, xüsusilə uşaqların yaddaşındadır. Vüqar Əhməd bu məqaləni qələmə almaqla bir daha Mirvarid Dilbazi şeiriyyatına elmi aspektdən yanaşır, onun müasir uşaq ədəbiyyatımıza yaradıcılığından biri kimi qiymətləndirir.

Vüqar Əhmədin yaradıcılıq yolunda qeyd etdiyimiz kimi Cənub mövzusu böyük bir xətt təşkil edir. Müəllifin «Elmi-filoloci qaynaqlar, ədəbi simalar haqqında düşüncələr» kitabına «Cənubi Azərbaycan poeziyasında demokratik ideyalar (1990-cı illər) iri həcmli monoqrafiyası daxil edilib. Monoqrafiyanın I hissəsi 90-cı illərdə Cənubi Azərbaycanda ictimai-siyasi şərait və ədəbi mühit adlanır. vüqar Əhməd sözügedən hissədə ideoloci nəticəsində illər uzunu mədəni əlaqələrin zəif inkişafı Güney Azərbaycan ədəbiyyatının kifayət qədər araşdırılmaması, nəşr edilməməsi başlıca səbəb olduğunu göstərir. Alim inkişaf etdirmək üçün AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun «Cənubi Azərbaycan ədəbiyyatı» şöbəsi yaradıldığını diqqətə çatdırır. Aparılan məqsədsədyönlü işlər nəticəsində güneyli ədiblərin həyat və yaradıcılığını əks etdirən müxtəlif məzmunlu məqalələr işıq üzü görmüş, dissertasiyalar müdafiə olurmuş, monoqrafiyalar yazılmış, cənublu söz sahiblərinin əsərlərindən ibarət müntəxəbatlar çap edilərək oxucuların ixtiyarına verilmişdir.

Vüqar Əhməd monoqrafiyada XX əsrin sonuncu on illiyində Cənubda fəaliyyətdə olan gənc yazarların poetik aləmlərinə istinad edir: «90-cı illər Güney şairlərinin yaradıcılıqlarında demokratik ideyaların poetik izini araşdırdıqda daha çox gənclərin şeirlərinə müraciət etmək məcburiyyətində qaldıq. Çünki, gənc cənub şairləri daha mübariz, ictimai alovu ilə coşan, müasir psixoloci dünyagörüşünə mənsub yaradıcı şairlərdir. Burada yaş fərqinin müsbət və ya mənfi dövr xüsusiyyətlərinin qabartmaq bəlkə də yerinə düşmür. Lakin qocaman sənətkarlar artıq sözünü deyib. İndi gələcək nəsilləri, millətimizi təzyiqlərdən qorumaq naminə yaşın ahıl dövrünün müdrikliyinə xas olaraq şovinist «qardaşlarımızla» «atəşkəs və koalisyon» bir mövqe duyulur». (18, 110)

Əlbəttə, Güney ədəbiyyatında gənc qüvvələrin qədəm

qoyması, onların istedadlarının üzə çıxması ədəbiyyatşünas alim Vüqar Əhmədin həmişə diqqətində olub: «Cənub gənc şairlərinin gəlişi ilə ədəbiyyata yeni baxış tərzi, forma və üslub cəhətləri gəldi və bu gənc nəslin yaradıcılıq nailiyyətləri, tapıntı və itgiləri, uğur və qüsurları haqqında söz demək şübhəsiz, o qədər də asan deyildir. Əvvəla, ona görə ki, yaradıcılıqları haqqında söz açacağımız yeni nəsil özlüyündə yaş amilindən daha çox poetik hiss və düşüncə amilini, həyatın, cəmiyyətin, baxışlar sisteminin yeniləşmə sistemini təzahür etdirir. Bu baxımdan 90-cı illərdə Cənub poetik mühitinə Səhər Ərdəbilli, Nuşin Musəvi, Rəsul Rəhimi Dizəci Rəşid Kərbasi, İbrahim Zahid, Məhəmmədrza Məlikpur və başqalarının yaradıcılığı bu günkü şeirimizin gəncliyini ifadə baxımından təhlil üçün daha səciyyəvi görünür». (18, 110)

Sıra ardıcıllığa və etik normalara uyğun olaraq Vüqar Əhməd şairə Səhər Ərdəbilini birinci təqdim edir: «Şeir – ilhamdır, əzabdır, zəhmətdir, yuxusuz gecələrdir. Yaradıcı qadın üçün bu daha əzabkeş və çoxqatlıdır. Belə qadın şairlərdən biri də bütün İran sənətsevərlərinə tanış olan şairə Səhər Ərdəbilidir. Yaşının az olmasına baxmayaraq, şeirləri qonşu ölkənin oxucuları arasında məşhur olan Həmidə Rəiszadə-Səhər Ərdəbil təxəllüsündən məlum olduğu kimi Ərdəbildə dünyaya göz açıb. Poeziyanın bir çox əzəli, əbədi mövzularında, eləcə də irtica əleyhinə dərin məzmunlu, bədii-poetik səciyyəli şeirləri mətbuatda çap olunur. Səhərin şeirlərindən biri görkəmli kaman ustası Habil Əliyevə həsr olunmuşdur:

Kədərli könlümə odlu nəvalardan səda bəslə,
Məni çənli, uca dağlar dalından söz ilən səslə,
Dolubdur söz ilə sazın,
Nədir saz ilə pərvazın?
Nəvalardan gümandır ki, qadınımı bəsləyir sazın?
Ətəş nacə (dəvə-V.Ə.) gedən səmtə,
Tərəbdən (sevinc-V.Ə.) yol kəsir sazın,
Əbəd yurdundan canlanmış nəvalardan

Əzəl izlə əsir sazın. ***(«Habil qardaşıma» şeirindən)***
(18, 111)

Tədqiqatçı əsərində digər şairə – Nuşin Müsəvi ilə oxucuları tanış edir.

Gənc Cənub şairlərindən biri də Nuşin Musəvidir. Şairənin ədəbi təxəllüsü Ayşin Aydadır. Nuşin 1963-cü ildə Tehranda anadan olub. Əslən təbrizlidir. Nuşin universitetin kitabxanaçılıq fakültəsini bitirib. Uşaq ədəbiyyatı üzrə mütəxəssis olan Nuşin məktəbdə müəllim işləyir, eləcə də qələmini nəsrdə sınayır. Həmçinin ədəbiyyatşünaslığa dair bir neçə əsər və monoqrafiyanın tərtibçi-müəllifidir. Vətən dərdlərinə Nuşin Ayda ağlayır, torpaq itkisi, bölünmüş Vətən, əsir düşən oğullar, qızların dərdi şairəni kövrəldir, şəhidlərə matəm tutur. Bu göz yaşları poetikləşir, misralaşır, həzin pıçıltıya çevrilir:

Günüm başlandı ötən günlərlə, keçən xatirələrlə
Buludlar göydə daşınır könlümlə,
Könlümün buludlarıyla
Hardadır, yaşayışın anları
(«Buludlar»)

* * *

Sevməyi xırdaca kəpənəkdən öyrənmək gərək,
Yaşayışın anlamını, yanmağı, birləşməyi.
(«Kəpənək») (18, 112)

İstedadlı şair Rəsul Rəhimi Dizəciyə gəlincə isə Quzeydə onun imzasına müəyyən mənada bələd olublar.

Müasir Cənub şeirinin yeni nəslinə mənsub olan Rəsul Dizəcinin şeirləri 1993-1994-cü illərdə «İki sahil» və «Axtarış» qəzetilərində təqdim edən həmin poetik nümunələri radioda dinləyiciyə çatdırılmasında vasitəçi olan Vüqar Əhməd yazır: Çağdaş Cənub şeirinin yeni nəslinə mənsub olan istedadlı şairlərindən biri də Rəsul Rəhimi Dizəcidir. Rəsul bir qədər şimal oxucusuna tanışdır. Şeirləri bu sətirlərin müəllifi

tərəfindən 1993-1994-cü illər «İki sahil» və «Axtarış» qəzetilərinə təqdim olunaraq çap olunmuş, habelə radiomuzda səslənmişdir.

«Rəsulun 47 yaşı var. Şair 15 ildən çoxdur ki, qəzəllərini şeir və hekayə janrında sınayır:

Yaşıl yarpaqların solmaqdadır varlıq budağında,
Məni bu qorxulu biyaz yaman sıxışdırdı bağında. (18, 113)

Rəsul Rəhimi iki dildə yazır və iki dildə də çap olunur. Şeir vəhekayələri «İttilaat», «Cavanşir», «Şeir həftəliyi», «Surə», «Mehdi Azadi» və s. qəzeti və jurnallarında çap olunub.

Zəhmətkeş bir ocaqda dünyaya göz açan Rəşid Kərbasi yarıməsrlik ömür payı yaşayıb. Rəşidin şeirlərində özünəməxsusluğu duyan Vüqar Əhməd fikirlərini Quzey oxucusuna çatdırır.

Rəşid Kərbasinin artıq 50 yaşı var. O da Rəsul Rəhimi ilə həmyerlidir. Şəbüstər mahalının Dizəc kəndində əkinçi ailəsində anadan olub. Üç il teatr-kino rejissorluğu üzrə texnikumda təhsil alıb:

Gəl al məni çənli yaşayış zirvələrindən,
Bu tutqun evin şaşqın olan ləhzələrindən,
Qurşunlu hava, dərdli bulud, bir acı tüstü,
Ay da boğulub qara gecə hörmələrindən. (18, 113)

Rəşidin şeirləri ilə tanış olduqda yaxşı haldır ki, elə ilk andan özünəməxsus poetik nəfəsini, dəsti-xəttini deyim və duyumunu hiss edirəm. «Dərdli bulud», «Qurşunlu hava», «Div zərbələrindən», «İlbizlərin nəğmələri» və s. frazeoloji birləşmə və ifadələr şairin poetik sintaksisini zənginləşdirir və bunlar nisbətən şeirdə yeni deyimlərdir. Bütün bunlar Rəşidin işıqlı gələcəyindən xəbər verir.

Şeirlərdə irad kimi sayılan bir məsələni qeyd etmək istəyirəm. Bu irad da 90-cı illər şairlərinin ədəbi təhsilinin ol-

maması ilə bağlıdır. Məsələn: hər hansı bir gənc şairin «qəzəl» kimi təqdim etdiyi şeir görürsən ki, qəzəlin janr tələblərinə cavab vermir, bu əslində hecanın 13,14 və ya 15-lik növüdür. Bir çox cənub şairləri misraları hər sətirdən bir qafiyələndirməklə bunu «qəzəl» hesab edirlər. (18, 114)

Şair Məmmədrza Məlikpurun poeziya dünyası ilə quzeyli oxucularla baş-başa qoyan alim fikirlərini belə açıqlayır: «Məhəmmədrza Məlikpurun «Ulduzlu dünya» adlı Azərbaycan dilində şeirlər kitabı vardır. Kitaba üçcildlik «Ədəbiyyat» ocağının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, ədəbiyyatşünas, Təbrizdə yaşayıb-yaradan Yghya Şeyda «Ön söz» yazmışdır: «Düşünürəm ki, iqtidarlı ədibə, duyğulu şairə türk, fars və ərəb ədəbiyyatında müsəllət bir əsər yazmaq olar? Mənim yazmağa əsrarım varsa qələm öz ecazkarlığını göstərir… Kitabın ünvanı belə duyğulu olduğu üçün gələn sözlər və məzmunlar tərəddüdsüz ki, dolğun olacaqdır...» (18, 114-115)

İbrahim Zahid Xəzayeri şair olmaqla yanaşı, istedadlı musiqiçi, həm də ürəkləri fəth edən qarmon ifaçısıdır. Bu cəhətləri özündə birləşdirən şairin hər iki aləmi barədə tədqiqatçı yazır: «Çağdaş, cənub türk şeirinin müasir poetik aləmində qeyd etdiyimiz kimi, bir çox şairlər öz istedadlarını, deyimi, duyumu, həyatı həssas və ədəbi münasibətləri ilə fərqlənir. Onlardan biri də Tehranda yaşayan şair, daha doğrusu, şair-musiqiçi İbrahim Zahid Xəzayeridir. İbrahimin 26 yaşı var. Cənubi Azərbaycanın Muğan-Germi şəhərinin ətrafındakı Tülün kəndində anadan olub. Gözəl qarmon çalır. Musiqili-poetik məclislərə həm şair, həm də musiqiçi kimi dəvət olunur. «Qarabağ» ansamblının bədii rəhbəridir. Şeirlərində, əməllərində və çalğısında milli təəssüb, milli ayrıseçkiliyə etiraz, bölünmüş Vətən hisslərinin təzahürü daha qabarıqdır.

O yanda qardaşım qanına batır,
Bu yandakı başın basdırır yatır.
Nədir ki, «dost məni» düşmənə satır,

O dostların gərək varlığın danım,
Kimə arxalansın Azərbaycanım? (18, 116)

İbrahim heca vəznində şeirlər yazsa da, əsasən gözəl qəzəllər müəllifidir. Qəzəllərində Əliağa Vahid təsiri açıq-aşkar duyulur. Burada bir məsələni də qeyd etmək istərdim ki, İranda Vahid şeirinə xüsusi məhəbbət var. Vahid misraları bütün məclislərin bəzəyidir. Fəhlədən tutmuş dövlət işçisinə qədər bütün türklər Fizulini, Seyid Əzimi, Vahidi əzbərdən bilir.

Sözüm ondadır ki, adlarını çəkdiyimiz klassiklərin mütaliəsi ilə şeir dünyasına gəlmiş və artıq iki kitab müəllifi olan İbrahimin də poetik istedadı bu kökdən pərvəriş tapmışdır.

II FƏSİL

VÜQAR ƏHMƏD POEZİYASI ÇAĞDAŞ AZƏRBAYCAN ŞEİRİNİN YENİ MƏRHƏLƏSİ KİMİ

Vüqar Əhmədin öz deyim və yazı dili var

Yaradıcılığını izlədiyim qələm, söz sahiblərindən biridə Vüqar Əhməddir. "Gözəl məkan-Nəqşicahan" istirahət mərkəzində şairin yaradıcılıq gecəsində iştirakımdan çox məmnunam. Vüqarın təzə şeirlərini dinlədim, çox xoşuma gəldi.

O, bizim klassiklərə, yaşlı nəsilə mənsub şairlərin yaradıcılığına hərzaman həssas yanaşmış, onların poeziyalarından bəhrələnmiş, öz töhfələrini vermişdir.

Şeirlərini nəğmə üstə yazan şairin öz deyim və yazı dili var, heç kimi təkrarlamır. Vüqar poeziyamızda öz inamlı addımlarını atır. Inanıram ki, Vüqar bundan sonrada öz oxucularını təzə-təzə şeirləri ilə sevindirəcək və onlara mənəvi zövq verəcək.

Məmməd Araz
xalq şairi

Vüqar Əhməd yaradıcılıq yoluna şeirlə başlayıb. Ölməz klassiklərimiz və XX əsrin böyük şairlərindən bəhrələnən Vüqar Əhməd xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığından ilham alaraq poeziyamıza qədəm qoyub. Vüqar Əhməd şeirimizə öz dəst-xəttilə, yeni nəfəs gətirməklə poeziyamızda yeni bir cığır açıb. Hələ tələbəlik illərində böyük xalq yazıçımız İsmayıl Şıxlıdan, şairlər Zahid Xəlil, Firuzə Məmmədli, görkəmli ədəbiyyatşünas, dilçi-alimlərdən Xeyrulla Məmmədov, Himalay Qasımov, Qəzənfər Kazımov, Abbas Hacıyev kimi müəllimlərdən dərs alması, xalq şairləri Nəbi Xəzri və Cabir Novruzla sıx təmasda olması, Xalq şairi Məmməd Arazdan mənəvi dəstək və xeyir-dua alması onun bir şair kimi

yetişməsində mühüm rol oynamışdır. Xalq şairi Nəbi Xəzrinin, doktor Cavad Heyətin, şair Ağasəfanın, tənqidçi-alim Nadir Cabbarlının, yazıçı Aqşin Babayevin, xalq yazıçısı Mövlud Süleymanlının, professor Yaşar Qarayevin, xalq şairi Qabilin, Fikrət Sadığın zəmanət və səsvermələrilə 1994-cü ildə Yazıçılar Birliyinə üzv qəbul olunan Vüqar Əhməd poeziyada onların etimadını doğrultdu. Öz poetik nəğməli dünyası ilə, nəğməli ürəyilə (akademik İsa Həbibbəyli) yaratdığı bədii poetik nümunələriylə ədəbi ictimaiyyətin hörmətini, ən əsası isə xalq məhəbbətini qazandı. Beləcə çağdaş Azərbaycan şeirində yeni Vüqar Əhməd mərhələsi kimi öz təsdiqini tapdı.

Vüqar Əhmədin şeir yaradıcılığının ən böyük qiyməti akademik Vasim Məmmədliyev verib. Tədqiqatçı Alim Nəbioğlunun «Vüqar Əhmədin söz dünyası» monoqrafiyasına yazdığı «Ön söz»də qüdrətli şərqşünas Vüqar Əhmədin poeziya aləmini belə səciyyələndirir: «Vüqar yaxşı mühitdə böyüyüb, dinimizi də yaxşı bilir. Bakı kəndlərində dindar mühit güclü olur. Vüqar da gözünü açıb, o mühitdə formalaşıb. Hacı Madərlə qohumdur. Hacı Madərin böyük məclislərində Şeyxülislamdan tutmuş bütün tanınmış din xadimlərimiz iştirak edib. Vüqar da o din xadimlərimizi görüb, onlardan bəhrələnib, öyrənib. Dini nöqteyi-nəzərdər Vüqarın hazırlığı yaxşıdır. Ona görə də o bizim həm lirik, həm də nəğməkar şairimizdir. Mən ona bir statusda verirəm – «Dini şair». (3, 6)

V.Əhməd poeziyasının mövzu dairəsi və ideya xüsusiyyətləri

Artıq 30 ildir ki, Vüqar Əhməd təbi bulaq kimi axan şair kimi yol gəlir. Bu yolda onu bəyənənlər daha çox olub. Ona paxıllıq edənlər, gözü götürmƏəyənlər, qısqanclıqla yanaşanlarda az olmayıb. Bu amil poeziyada qəbul olunmuş bir məqamdır. Ona görə ki, şeirdə istedadlıları qəbul etmək istəməyən, poeziyaya güclə soxulmuş istedadsızlar əsl şairlərin

başından basmaq, onları mənəvi cəhətdən sıradan çıxatmaq istəkləri bəzən baş tutur. Bəli, Vüqar Əhmədi həmin üzdəniraqlar bir vaxtlar labirintə salıb,onu təbindən döndərmək, şeirlərindəki axıcılığı, ilkinliyi, təmizliyi, vətənpərliyi əlindən almaq istəyirdilər lakin onlar nəhayətdə Vüqar Əhmədin şeirinin qüdrəti önündə buz kimi əridilər, su olub çayda axdılar. Vüqar Əhməd "həminlərə" heç məhəldə qoymadı, baş qoşmadı. Ona görə ki, "şairciklərə" cavab verəndə düşünürlər, daşınırlar elə bilərlər onlar nəyəsə qadirdilər. Vüqar Əhməd isə təkliyə çəkilib şeir yazdı. Söz qalasını, poeziya dünyasını yaratdı. Şeirlərinin mövzu dairəsi çoxşaxəli, müxtəlif istiqamətli, dilin zənginliyi, bədii təsir qüvvəsi isə durmadan artdı, getdikcə qüvvətləndi.

Şeirlərinin başlıca leytmotivini Vətən, Qarabağ dərdi, Şuşa və Təbriz nisgili, Göyçə harayı, Ana, məhəbbət və sevgi, təbiət mövzuları təşkil edir. Vüqar Əhmədin "Yaxşı günlər öndədir..." şeirlər kitabı ilə baş-başayıq. Kitaba dəyərli şairimiz Musa Ələkbərli "Yaxşı günlərdə, yaxşı şeirlər də hələ öndədir" adlı səmimi "Ön söz" yazıb. Şeirlər toplusunu təhlil edən Musa Ələkbərli istedadlı şair Vüqar Əhmədin söz dünyasına belə qiymət verir: "Kitabında gedən bütün şeirlərdə nəğməkar şairin dostlara doğmalara can yandıran, vətənin, torpağın ağrısıyla yaşayan, ailə, övlad qayğısıyla nəfəs alan, bugünümüzlə ürəkdən candan bağlı, sabahımızdan nigaran, hamının uğuruna sevinən, gözüdarlığ, paxıllıq nə olduğunu bilməyən xeyirxah şair " Mən"ini görürük". (19, 4)

Daha sonra Musa Ələkbərli xalq şairi Məmməd Arazın Vüqar Əhməd haqqında söylədiklərini ön sözə daxil edib. Bu fikirlər bir oxucu kimi biz böyük maraq yaratdı. Düşündük ki, poeziyamızın günəşi Məmməd Araz "hələm-hələm şair" (bu fikir xalq şairi Cabir Novruza məxsusdur M.C.) haqqında söz deməz.

"Yaradıcılığını izlədiyim qələm, söz sahiblərindən biri də Vüqar Əhməddir. "Gözəl məkan-Nəqşicahan" istirahət mərkə-

zində şairin yaradıcılıq gecəsində iştirakımdan çox məmnunam. Vüqarın təzə şeirlərini dinlədim, çox xoşuma gəldi.

O, bizim klassiklərə, yaşlı nəsilə mənsub şairlərin yaradıcılığına hərzaman həssas yanaşmış, onların poeziyalarından bəhrələnmiş, öz töhfələrini vermişdir.

Şeirlərini nəğmə üstə yazan şairin öz deyim və yazı dili var, heç kimi təkrarlamır. Vüqar poeziyamızda öz inamlı addımlarını atır. Inanıram ki, Vüqar bundan sonrada öz oxucularını təzə-təzə şeirləri ilə sevindirəcək və onlara mənəvi zövq verəcək". (20, 3)

"Azərbaycan vətəndir"

"Yaxşı günlər öndədir" kitabı "Vətəndir" qəzəli ilə açılır. Əlbəttə ölməz qəzəlxanlarımız Vahiddən, Mayıldan və b. sonra qəzəl, qafilənməsilə həmdə vətən haqqında yazmaq olduqca müşkül məsələdir. Mənə elə gəlir ki, "Vətəndir" qəzəlində onların ruhu duyulur, bəhrələri hiss olunur. Dahi şairlərin əsərlərində də vətən mövzusu başlıca anlam təşkil edir. Amma Vüqar Əhmədin "Vətəndir" qəzəlində isə bütöv Azərbaycan vəsf olunur:

Qoy sizi ərz eyləyim dönə-dönə, vətəndir,
Harda "Segah" çalınsa, ora mənə vətəndir.

Bakı, Gəncə, Naxçıvan, Qarabağım vətəndir
Göz açdığım Abşeron, düzüm, dağım vətəndir.

Dəli Kür, Xan Arazım, Ulu Göyçəm vətəndir,
Dərbənd, Zəncan,Təbrizim, Borçalım- cəm vətəndir.
(19, 9)

Vüqar Əhməd poeziyasının özəyini, rişəsini, canını, qanını, Qarabağ ağrısı, Qarabağ faciəsi, Qarabağ yarası onu yaradıcılığının əsasıdır. O, əksər şeirlərdə birbaşa, bəzən də

tamam ayrı mövzularda yazdığı, poetik nümunələrdə bir misra ilə də olsa belə Qarabağ dərdinə toxunmadan keçə bilmir:

Həsrət qalıb ağlar gözüm üzünə,
Nəğmə qoşdum bayatına, sözünə,
Əlim çatmır əsir Cıdır düzünə,
Nəmli yanaq, cənnət-məkan Qarabağ. (19, 22)

"Cənnət Qarabağ" şeirindən götürdüyümüz parça Vüqar Əhmədin şair qəlbinin harayıdır. Şair Cıdır düzünə həsrət qalıb. "Qarabağdayam" şeiri isə daha kədərlidir. Həyəcan, qəm qüssə insanı özünə alır. Bir daha Qarabağ, Şuşasızlıq ağrısına dözməli olursan. Bu şeirdə şairin nikbinliyi duyulur:

Şuşanı yuxumda gördüm dün gecə,
Şəhəri bərbaddı, ilahi, necə
Oyağkən, röyada, gündüz, həm gecə,
Cənnət bağındayam, Qarabağdayam. (19, 25)

"Şəhidim" şeirində Vüqar Əhməd şəhidlərimizin ümumiləşdirilmiş obrazını dolğun şəkildə verə bilib. Şeirdə müəllif şəhidlərə xitabən aşağıdakı misraları yana-yana, alovlana-alovlana yazıb:

Vətən torpağını qucan şəhidim,
Ruhları göylərə uçan şəhidim,
Torpağa qovuşdun haçan şəhidim?
Ömrü yarı qalan nakam şəhidim". (19, 31)

Arzulu dünya

Vüqar Əhməd tükənməz arzularla, istəklərlə yaşayan şairdir. O arzularını ümman, dünya hesab edir, taleyinin yolu bilir:

Mən soraqladım bəxt ulduzumu,
Mən arzuladım ümi- arzumu
Arzular ümman, arzu nə boldu
Arzulu dünyam taleyə yoldu". (19, 39)

Bu parça Vüqar Əhmədin məhşur "Arzu" şeirindəndir. Poetik nümunəyə dillər əzbəri olan mahnı da yazılıb.

Vüqar Əhmədin arzuları onu yaşadır. Arzuları sonsuz, arzuları boldur. Bəzən arzuları şirin, bəzən röyadı. Bir gün arzusuz yaşaması qəmə, kədərə dönür. Arzuları həyatının mənası, sabaha qolu, qanadıdır.

Vüqar Əhmədin şeirləri səmimiyyətdən yoğrulub. Vüqar Əhməd həyatda nə qədər səmimidirsə, şeirlərində də səmimi hisslər aydın görünür. "Dostlarla görüşəndə" şeiri səmimi duyğulardan xəbər verir:

Bu gün dostlar cəmləndi,
Hamı dedi,şənləndi.
Üzümə nur çiləndi
Dostlarla görüşəndə.

Istədiyim gün oldu,
Yuxularım çin oldu,
Məhəbbət ölçüm oldu
Dostlarla görüşəndə. (19, 24

Bu misralarda şair səmimiliyi diqqəti cəlb edir. Insan əsl dostlarla görüşəndə səmimilik aləmə nur səpir. Vüqar Əhmədi yaxından tanıyanlar bilirlər ki,onun ürəyi pakdır, təmizdir, səmimidir. Bu da onun şair şəxsiyyətinin bütövlüyündən, şair amalının mərdanəliyindən irəli gəlir. Bu bütövlükdə, mərdanəlikdə Vüqar Əhmədin şair xislətinin çırpıntıları var. Şeirlərində dumduru təmiz misralarında üsyankarlıq, haqq uğrunda əsl vətəndaşlıq, həzinlik, kövrəklik qabarıq görünür.

Dənizlər göz yaşımdır,
Ulduzlar sirdaşımdır.
Torpaqsa yaddaşımdır,
Mən yol gedən yolçuyam.

Nəğmə dolu ürəyəm,
Vaxtsız açan çiçəyəm.
Payızdan da kövrəyəm,
Mən yol gedən yolçuyam. (19, 137)

"Dənizlər göz yaşımdır" misrası Vüqar Əhməd şeirində poetik tapıntıdır. Vüqar Əhmədin həyatda ən çox sevdiyi varlıq dənizdir. Dəniz qarşısında tək-tənha dayanmaq, onunla söhbət etmək, ona dərdini demək, xüsusilə gecələr Xəzərin qoynunda fikirlərə qərq olmaq Vüqara xas keyfiyyətlərdəndir. Düşündüm ki, Vüqar "Dənizlər göz yaşımdır" deyimini görən hardan tapıb. Öz-özümə cavab tapdım. Dənizlər Vüqar Əhmədin göz yaşıdırsa, onun hər bir sözünün, hər bir misrasının arxasında gözəgörünməyən yaşartılar var. Bu göz yaşlarında Vüqar Əhmədin ulduzlarla sirdaşlığı, nəğmə dolu ürəyi, vaxtsız açan çiçəyi, payız kövrəkliyi var.

Şairlər bəzən fikirlərini dolayısı, sətiraltı mənalarda deyirlər. Axı başqa yol yoxdur. Üz-üzə, birbaşa sözləri demək olmur. Ona görə də müxtəlif priyomlardan istifadə edirlər, sözlərini məcazi deyirlər əsl sənətkarlar. Bu baxımdan Vüqar Əhmədin "Ağ saçlı palma" sərlövhəli şeirlər kitabında maraqlı nümunələrlə rastlaşırıq. Müəllif "Peşə qəhətdi" (zarafatla) adlı şeirində çox gizli mətləbləri ustalıqla açа bilib:

Şairlik də sənətdir?
Başımıza peşə qəhətdir?
Elə hamı şeir yazır,
Bəlkə bunlar yolun azır?
Çox pis cəhətdi,
Şeir ordusu yaratmaq,
Sözə qarmaq atmaq,
Yalançı şöhrətə çatmaq.
Rəssam da şeir yazır,
Heykəltəraş da

Şeirlə fərq yoxdur daş-başda.
(Elə mən də yazıram)
Vallah ağıl yoxdur başda,
Fəxri adlar çaşdırıb
Deyəsən yazanları.
Qələmlə bu gor qazanları,
Cəfəngiyyat yazanları
Yolunu azanları.
Buraxmayın heç olmasa
ədəbi birliklərə,
göndərin zibilliklərə... (21, 18-19)

"Şairlik də sənətdir?" sualını şair ortaya çıxarır. Əlbəttə, əsl şairlər üçün ilk növbədə sənətdir, Vüqar Əhməd. Bunu sən çox gözəl bilirsən. "Başınıza peşə qəhətdi?." Doğru buyurursan, Vüqar Əhməd. Elə yerindən duran hamı şeir yazır. "Yazırlar, qoy yazsınlar, günah işlətmirlər ki," (Cabir Novruz) Vüqar Əhməd. Bəlkə, bunlar yolunu azır? Bəli, bunlar yollarını azıblar, olduqca pis cəhətdir. Nə gözəl demisən, şair, ürəyimizdən tikan çıxartmısan. Şeir ordusu yaratmaq, sözə qarmaq atmaq, yalançı şöhrətə çatmaq, gərək fikirlərini dırnaqda verəydin, Vüqar Əhməd. Yəqin demisən ki, bu bir zarafatdır. Sən qətiyyən zarafat etmirsən. Adam düz sözü zarafatla deyər. Yuxarıda dediklərin insanlar şeirə, sənətə soxulmuşlardır. Onlar sözə qarmaq atmaq istəyirlər, lakin tilovlarına bir söz belə düşmür. Düzdür, bir müddətə yalançı şöhrətə çatırlar, lakin elin gözü tərəzidir, Vüqar Əhməd. Rəssam da şeir yazır, heykəltəraş da. Onlar öz işləri ilə məşğul olsalar, daha yaxşı olar. Dad yarımçıq əlindən. Şeirlə fərqi yoxdur daş-başın. Lakin sənin bütün şeirlərində bir dünya gözəllik var. Heç nə yazmasaydın, təkcə "Anam mənim", "Abşeron", "Dinlə məni, sevgilim", "İzim qalacaq", "Arzu" şeirlərini qələmə alsaydın belə, adın poeziyada qalacaqdı.

Bütün istedadsızları, cəfəngiyyatbazları, şeir alverçilərini

görən Vüqar Əhmədin "Eşit mənim səsimi" adlı şeirində uca Tanrıya üz tutmaqdan başqa yolu, digər çarəsi qalmır!

Allahımın yetsə mənə zərrəsi,
Mənim olur bu dünya,yer kürəsi,
Sındırıram yaşadığım qəfəsi,
Uca Tanrım, eşit mənim səsimi. (19, 120)

Şairin "Ruhuma toxunmayın" şeiri müəllifin xarakterini açıb göstərir:

Dəyişin siz bədənimdə əzaları,
Verin mənə bu mənəvi cəzaları,
Necə ki, verirsiniz.
Yazın əleyhimə yazıları,
Necə ki, yazırsınız,
Amma ruhuma toxunmayın.

Xalq şairi Cabir Novruz deyirdi ki, "Bir evə bir şair bəsdir".

Toxunmayın ruhuma, Vətənimə,
Qıymayın qələm tutan əlimə.
Yasaq qoymayın şeir deyən dilimə,
Muğamımdı,nəğmələrdi, dilimdi.
Azadlığım tənha bitən gülümdü. (19, 149)

Vüqar Əhməd həmişə şeirinə, sözünə, şair əqidəsinə arxalandı. Yenə də şeir yaza-yaza ucaldı Vüqar Əhməd. Ona mənəvi əzablar versələr də ruhunu sındıra bilmədilər. O bir qırağa çəkilərək "Yağışlar" şeirini yazdı. Dərdini, daxildən çəkdiklərini yağışlara söylədi. Həmin şeiri mərhum sənətkarımız, dostu əməkdar incəsənət xadimi Həsənağa Qurbanova həsr etdi:

Leysan yağan, narın yağan yağışlar,
Dikilibdir sənə məsum baxışlar,
Bu yağışlar mənə dünya bağışlar,
Yağ ey yağış, qəlbimə yağ, yuyulsun".

Vüqar Əhməd, ürəyini yağışlara danışsan yaxşıdır. Yağış sənin iç dünyanı sakitləşdirir. Sən yağışlarla baş-başa qalanda nisgilini, əzabları, yaraları unudursan. Yağışlar səni güclü olmağa çağırır. Nur, işıq, enerji bəxş edir.

Bizim gücümüz tükənəndə üz tuturuq Allaha, peyğəmbərə, "Mirmöhsün ağa" ziyarətgahına. Ağrımızı-acımızı ona danışırıq, ondan kömək diləyirik. Saflaşırıq, dünyaya inamımız artır. Heç bilmirdik sənin "Mirmöhsün ağa", "Muğam üstə" şeirlərin var. Bir neçə dəfə oxuduq və çətin günlərimizdə bu şeir bizə ilham verdi:

Zəvvarlar şəfa tapır,
Arzu, murada çatır,
İnamı daha artır,
Burda, Mirmövsüm ağa. (19, 26)

Ağam bizimçün diri,
Qalıb izi, ləpiri,
Ziyarətgahdır piri,
Ağam, Mirmövsüm ağam. (19, 127)

Allah sənə ürəyincə versin, Mirmövsüm ağanın cəddi köməyin olsun, Vüqar Əhməd. Inam hissi sənin həyatının amalıdır. Inam olan yerdə insana heç nə toxuna bilməz. Sənin şeirlərin səndə olan sonsuz inamdan yaranır. Alim Vüqarla, şair Vüqarı yaşadan, ucaldan məhz bu inam, bu etiqad, bu qüdrətdir. Vüqar sözə inanan, sözü qoruyan, sözə səcdə edən şairlərimizdəndir. Bu məqamda mərhum alimimiz, filologiya elmləri namizədi, dosent Fərrux Həsənovun "Vüqar Əhməd

şeirlərinin dil və üslub xüsusiyyətləri" məqaləsini qeyd etmək yerinə düşərdi. F.Həsənov yazırdı: "Şəxsiyyətin şəxsiyyət kimi varlığını təsdiq edən, onun qabiliyyətini, mədəniyyətini, savadını müəyyənləşdirən, fikir zirvəsinə qaldıran da, endirən də sözdür. Şöhrət tacı sözün əlindədir.

Qibləgahsan, səcdəgahsan, inamsan,
Yaradanım, sən atamsan, anamsan,
İbadətlə inamını qazansam,
Yüksəklərə ucalaram, ya Allah,
Məhəmmədün Rəsulallah, ya Allah!

Bəli, dostum, qardaşım Vüqar Əhmədi yaşadan, şöhrətləndirən, ucaldan da məhz bu inam, bu məslək, bu əqidədir.

Deyirlər söz və istedad əkizdir. Bədii nitqin dialektik vəhdətini, sözün ecazkar gücünü fitrətən duyanlar, onun nazıyla oynayıb, gəlin tək ona bəzək vuranlar, sözü dirildib ona ruh, can verənlər, sözün siqlətini, məna gözəlliyini dərindən mənimsəyib yaradıcılıq prosesinə sərrast şəkildə tətbiq edənlər, üslubi məqamına görə ondan yerli-yerində istifadə etməyi bacaranlar gözəl, qəlbləri oxşayan sənət nümunələri yarada bilirlər:

Hərdən qılar ağzın sirrin,
Xəzinədir gizlin-gizlin.
Az götürsən ağlar qəlbin,
Kərbəladı, Nəcəfdi söz. (22)

"Anam mənim"
(poema)

Ana- yer üzünün ən müqəddəs, ən dahi insanı. Bizi dünyaya gətirən varlıq - Ana. Biz anaları günəşlə tən tuturuq, gözümüzün nuru, həyatımızın mənası, güvənc yeri, dilimizin əzbəri bilirik.

Qibləgahımız, səcdəgahımız - Ana. Baş əyirik, təzim edirik analar qarşısında.

"Vüqar Əhmədin yaradıcılıq yolu" mövzusunda elmi monoqrafiyanı qələmə alarkən onun əsərlərində Anası – ölməz insan Hacı Almaxanımın timsalında əbədiləşmiş Ana obrazı yaratmış şairə bir daha heyran olduq. Həyatda Hacı Almaxanımı görənlər, onu yaxından tanıyanlar bilirdilər ki, o təkcə dünyaya gətirdiyi övladlarının anası deyil. Cəsarətlə, fəxarətlə deyə bilərik ki, Hacı Almaxanım analar-anası idi. Onun ömrünün mənası yalnız insanlara yaxşılıq etmək idi. Yaxşılıq mücəssəməsi, insanlıq zirvəsində dayanan etibarlı, qeyrətli ana idi. Onun ətəyində nəsə deyərlər namaz qılmaq olardı. O, daxili təmiz, saf, pak, əsl qadınlıq rəmzi idi. Bizim qəlbimizdə, yaddaşımızda belə insani keyfiyyətlərilə qalıb, əziz dostumuz Vüqar Əhmədin anası Hacı Almaxanım. Xoşbəxt o anadır ki, onun Vüqar Əhməd kimi övladı var. Biz hələ sağlığında Vüqarı dünyaya gətirən anaya ürək sözlərimizi demişdik. Hər bir övlada öz anası şirindir, əzizdir. Bu, dünyanın həmişəcavan fəlsəfəsidir. Amma Vüqar kimi anasını istəyən övladlara az rast gəlmişik. Onun anaya olan məhəbbətini izah etmək üçün gərək Vüqar Əhməd olasan.

Azərbaycan poeziyasında Ana haqqında yazılan əsərlər kifayət qədərdir. Bu günə qədər nə yazılıbsa hamısında analar vəsf olunub. Vüqar Əhmədin "Anam mənim" poemasına gəlincə, o bədii cəhətdən olduqca güclü əsərdir. Vüqar Əhməd poemanı anasının simasında bütün analara həsr edib. Poemanın baş qəhrəmanı – Anadır.

Poema ayrıca kitab şəklində 10000 nüsxə tirajla 2002-ci ildə çap olunub. Tez bir zamanda oxucuların rəğbətini qazanıb, əl altından satılıb. Kitabın naşiri, bu yaxınlarda dünyadan vaxtsız getmiş fizika-riyaziyyat elmlər namizədi Rafiq Babayevin əsərə yazdığı "Allah yaradanındır, Ana isə..." "Ön söz"ündə oxuyuruq: «Cənnət – analarımızın ayaqları altındadır» deyib Həzrəti Məhəmməd. Ana müqəddəsdir, ana şirindir, ana

əzizdir. Ana haqqında çox yazılıb, çox sözlər deyilib. Ancaq ana haqqında şah əsəri – «Anam mənim»i məhz qəlblərin şairi Vüqar Əhməd yaratdı. Yaşada-yaşada yaratdı. Ana ətrinə ehtiyac duyanlara, o sığala həsrət qalanlara analı bir dünya yaşatdı. Analarını kimsəsizlər evinin kandarına atan qeyrətsiz oğulları ayıltdı, neçə-neçə oğulu anaya, neçə-neçə ananı oğluna qovuşdurdu Vüqar Əhməd. O, «Anam mənim» deyərək öz anasının simasında bütün anaları ümumiləşdirərək ideal bir ana obrazı yaratdı.

O, mənim anamı, sənin ananı, anaların anasını bir daha kəşf etdi və sübut etdi ki, ana daha güclüdür; xəstələnəndə səni heç bir həkim sağalda bilmədikdə, ananın bir an başına sığal çəkməyi, nəvazişi sənə şəfa verir. Çünki hər birimiz anamızın bir hissəsi kimi dünyaya gəldik. Allah yaradandır. Ana isə…

Vüqar Əhməd yaradıcılığında ana obrazı üstünlük təşkil edir. Elə ona görədir ki, Vüqar müəllimin anaların tərənnümünə xidmət edən bütün nəğmələri xalq tərəfindən sevilir, bəyənilir, geniş pərəstişkar sevgisi qazanır. «Anam mənim» isə axırıncı illərdə ən çox populyarlıq əldə edən yeganə, hər an dinlənən nəğmədir, Vüqar Əhməd sözünün gücündən doğan nəğmə…

Hifz eyləyən duasıdı,
Səsi Quran sədasıdı,
Anaların anasıdı
Anam mənim, anam mənim".

Vüqar Əhmədin anaya verdiyi belə yüksək qiymətin nəticəsidir ki, ana xeyir-duası nəğməkar şairi daha yüksək zirvələrə qaldırır. Ananın qədrini bilən, torpağının, elinin, dilinin, dininin də qədrini bilər. Vüqar Əhməd məhz belə şəxsiyyətlərimizdəndir. Mən nəğməkar şairə yaradıcılıq nailiyyətləri arzulayıram. Vüqar Əhməd kimi bir şairin əsərlərini nəşr etmək böyük və şərəfli işdir. Çünki o, sözün qədrini və dəyərini bilir,

ətrafındakını duyur, hamımızın qəlb çırpıntılarını ümumiləşdirərək bir-birindən gözəl əsərlər yaradır.

Sənə uğurlar, qardaşım!
Belə oğul böyüdən anaya, min alqış! (23, 3)

Kitabın redaktoru M.Araz mükafatı laureatı, Vüqar Əhməd yaradıcılığının ilk tədqiqatçısı Alim Nəbioğludur. O, "Anam mənim" kitabına daxil edilmiş "Sənə qurban olsun, canım, ay ana..." adlı çox kövrək, həzin ürəkləri isidən, oxucuda anaya məhəbbət hissini alovlandıran məqalə qələmə almışdır. Məqaləni həyəcansız oxumaq olmur. Kövrəlirsən, düşüncələrə qərq olursan.

Sağ olsun Alim Nəbioğlu ki, "Anam mənim" poemasında Hacı Almaxanım obrazını təhlil etmiş, onun həyatda gördüyü xeyirxah əməlləri canlandıra bilmişdir.

"Eşidəndə ki qələminə, sözünə, ilhamına, nəğməsinə, şəxsiyyətinə, insani keyfiyyətlərinə dərin rəğbət bəslədiyim, M. Araz mükafatı laureatı, nəğməkar şair, filologiya elmlər namizədi Vüqar Əhməd «Anam mənim» poemasını yazıb, çox sevindim. Çünki analıq hissləri, analıq duyğuları, ana mövzusu Vüqar Əhmədin sınaqdan çıxmış, şeir dünyamızda öz çəkisini və yerini tutmuş qələmində daha güclü, təsirli alınır.

Özünə məxsus söz düzümü, müqayisələri, ədəbi dil normalarına riayət etməsi, dialektimizdən bəhrələnmə, sintaktik rəngarənglikdən istifadə və ən əsası qələmə aldığı mövzunun yazı tərzi, deyimi, üslubu səni sətirlər dənizinin dalğalarında üzdürür. Bir anın içərisində gözlərin payız buludu kimi dolur.

Ağaran saçların gümüşə çalır
Düşünən gözlərin xəyala dalır,
Gecələr xəyalın özünlə qalır,
Sənə qurban olsun canım, ay ana. (23, 4)

Bu misraları oxuduqca sözün bütöv mənasında insan xəyallara dalır. "Sənə qurban olsun canım, ay ana" deyən Vüqar Əhməd anasına olan hədsiz məhəbbətini ishar edir.

"Ana! Dünyada ən müqəddəs varlıq... Bizi dünyaya gətirən, bizi böyüdən, gecələr beşiyimizin üstündə sübhə qədər ayıq qalan analar... Özü ac qalsa da, övladının ac qalmaması üçün min bir əziyyətə qatlaşan analar. Oğul, qız itirən analar... Dərdini, ağrısını övladından gizlətməyə çalışan analar... Ana! Ona hökmdar da, şah da, sərkərdə də, adi qul da səcdə edir, baş əyir. Xeyir-duası uğurlarımızın açarı olan analar... Yayın istisində, qışın şaxtasında, bahar küləyində bizə laylay çalan analar... Ona görə də Vüqar Əhməd «Anam mənim» mahnısını, ana mövzusunu poema şəklində oxuculara təqdim edir.

Balasını atan ana da vardır,
Şeytandı, iblisdi ana deyildir,
Sonradan peşmandır necə yalvarır?
Bala sorağıyla sərsəm veyildir.

Ana var övladını atır. Övlad var anasını atır. Siz deyin ana atılarmı? Ana öz doğma evinə, nəvəsinə həsrət qalarmı? Kimsəsizlər evi analara yaraşarmı? Ana küçədə çörək pulu üçün dilənərmi? Susuruq. Çünki... Bəli, o övladlar yad planetlərdən deyil, elə özümüzünkülərdəndir. Toylarda, kef məclislərində göbəyi açıq qızların açıq bədənlərinə pul səpən azəri övladları... Sərxoş vəziyyətdə anasından bixəbər «Ana» mahnısını sifariş verib yalandan ağlayan oğullar... Ananı yad bir qıza satan oğullar... Sizə «oğul» deməyə dilim də gəlmir. (23, 4-5)

Ana övladını atırsa deməli bu özlüyündə böyük faciədir. Onlar ana adı daşımağa layiq deyillər. Vüqar Əhməd demişkən: "Şeytandı, iblisdi ana deyildir". Əgər övlad anasından imtina edirsə, ona verilmiş ana südü gözlərindən gəlsin. Onlar bununla mənəvi cinayət etmiş olurlar. Mən belə nadürüst insanlara əsla inanmıram. "Anam mənim" mahnısı Vüqar Əhməd

şeiriyyətinin rəmzi hesab olunur. Bu şeir şairin anası Hacı Almaxanıma ünvanlansada bütün müqəddəs ana adı daşıyanlara həsr olunmuş möhtəşəm əsərdir.

«Anam mənim» mahnısını dinlədikdən sonra isə peşimançılıq çəkərək özünü anasının qucağına atan oğullar, qızlar da az deyil. İlahi varlıq olan bütün anaların, analıq simasının simvolu olan «Anam mənim» ürəkləri riqqətə gətirən bir əsərdir. Qiyməti, tayı, bərabəri olmayan bir əsər. Vüqar Əhməd yaradıcılığının zirvəsi olan bir əsər. Nədən bu sənət incisi belə təsirli alınıb? Çünki əsərin əsas qəhramanı Vüqar Əhməd kimi nəğməkar şairi dünyaya gətirən, dinə sitayiş edən Hacı Almaxanımdır. Övladlarının yolunda saçlarını dən edən namus, qeyrət təcəssümü, analıq simvolu olan Almaxanım ana ...

Ana itirəndə qalırıq yetim,
Yox, yox anasızlar sayılır yetim,
Bu yetim dünyada hamımız yetim,
Ən böyük dünyadır analı dünya. (23, 5)

Bir ailədən ana dünyasını dəyişəndə o evin çırağı da sönür, isti sobası da. Ona görə də bir ana itirəndə yetim qalırıq. Çünki ana sığalının, ana nəvazişini heç nə dünyada əvəz etmək gücünə malik deyil. Ana anadır, anaların qədrini bilmək gərəkdir. İnanırıq ki, bu poemanı oxuyandan sonra sizi dünyaya gətirən anaların qədrini daha çox biləcəksiniz, onların xətrinə dəyməyəcəksiniz. Axı, ana qəlbi kəpənək kimi zəif olur...

Sanki, bir dünyadı məsum baxışlar,
Qəlbindən qəlbimə yağır yağışlar,
Məhəbbətin mənə dünya bağışlar,
Dünya gözəlisən, dünyamsan mənim. (23, 5)

Bu günün qızı, gəlini sabahın anasıdır. Nənə də, bibi də, xala da, bacı da anadır. Ona görə də Vüqar Əhməd bu poe-

masında bütün bu məqamlara toxunur. Öz iki övladlarının anasını «dünyamsan mənim» adlandırır. Axı, Hüseyn və balaca Almaxanımı dünyaya gətirən Səbinə xanımdır. Vüqar müəllimin mənəvi dünyası olan Səbinə xanım. Çünki ananın özünə də ana lazımdır. Yaşlıya da, ahıl qocaya da ana lazımdır. Anasız həyatın nə mənası?.. (23, 6)

Dünyada anasızlıq ağrısını, itkisini yaşayanlar, ana yoxluğu ilə qətiyyən barışa bilmirlər. Biz də - Rasim Nəbioğlu anası Hürriyyəni və Müşfiq Cabiroğlu anası Səfurəni erkən yaşımızda itirmişik. Ana ilə vidalaşmaq, onu gözün görə-görə dəfn etmək olduqca ağırdır. Insanın içi yanır, göz yaşları axıdırsan. Ana itirən insan yetimləşir, cılızlaşır, bədbinləşir. Vüqar Əhməd anasıyla vidalaşanda biz bilirik nələr çəkdi. Zülüm-zülüm ağladı, göz yaşlarını müqəddəs anası Hacı Almaxanımın məzarına axıtdı.

O ruhən həmişə anası ilə bir yerdədir. Duyğularında, düşüncələrində, "Anam mənim" deyə-deyə ömür sürür. Onu yaşadan, təsəlli verən qızı Almaxanımdır. Anası Almaxanımın sağlığında qızına anasının adını verib. Allah saxlasın, getdikcə nənəsi Almaxanıma oxşayır. Danışığı da, baxışları da eynidir. Şükür sənə xudaya!. Vüqar Əhmədin sevgisi anasına əbədi bitməzdir, tükənməzdir.

Nə Günəş de, nə Ay de
Ana, mənə laylay de.

Nə gözəl düşündürücü, təsirli misra… Sadə dildə deyilən bu misranın hikməti böyükdür. Çünki ana laylasından şirin musiqi yoxdur. Ən böyük musiqi əsəri də elə ana laylasıdır. Ona görə də Vüqar Əhməd ana laylasını Günəşdən də, Aydan da üstün tutur.

Poemanı oxuduqca insan göz yaşlarını saxlaya bilmir, necə deyərlər, gücü gözlərindən axan yaşına çatır. Ancaq poema sanki anasız qalanlara analı bir dünya bəxş edir. Hər bir söz, hər bir sətir sənə öz ananı xatırladır; istər anam həyatda olsun,

istər axirət dünyasında,bax budur sənət, qələmin, sözün gücü. Budur anaya sevgi, analığa qiymət, sədaqət, vəfa. Budur yer üzünün əşrəfi sayılan insana tanıtdırmaq, özünü özünə, ruhunu ruhuna qaytarmaq, qəlbində qeyrət çəpəri qurmaq...

Binəqədi kəndində dünyaya göz açan Hacı Almaxanım ana dəfələrlə Kərbala, Məşhəd və Həcc ziyarətlərində olub. Dualı əlləri ilə doğma Qarabağımızın xilasına, analara, övladlara dualar edib. Neçə-neçə insanı haqq, din, paklıq yoluna qaytarıb. Neçə-neçə dağılmaqda olan ailənin səadət çırağını yandırıb. El anası kimi elin toy və yas mərasimlərində iştirak edib, neçə-neçə gəncə xoşbəxtlik xeyir-duası verib. O, bu gün öz övladları, nəvələri ilə ömür payını yaşayır.. Ey el anası, qoy oğlumuzun Sizin simanızda analara həsr etdiyi «Anam mənim» poeması çəkdiyiniz zəhmətin müqabilində oğul borcunun bir hissəsi olsun. O borcu, o haqqı qəbul edin və xeyir-duanızı verin. (23, 6)

Dünyada ana laylasından daha bəşəri əsər ola bilməz. Vüqar Əhməd bu sətirləri yazmaqla bu yaşında da ana laylasına möhtacdır. Darıxanda, analı günləri xatırlayanda qızı Almaxanıma deyir ki, mənə çoxlu nağıl oxu, nağıl de. Sakit-sakit Almaxanımın oxuduğu nağıllara qulaq asır. Vüqar Almaxanımın səsində çox güman ki, anasının pak, nurlu üzünü gözləri önünə gətirir. Nağıllara qulaq asmaqla Vüqar Əhməd analı dünyası ilə, baş-başa qalır. Xəyallara,xatirələrə dalır. Anasının müqəddəs Kərbəla, Məşhəd və Həcc ziyarətində olduğunu, qaradağın xülasını arzuladığını, nə qədər insana xeyir-dua verdiyini bir daha yaşayır.

"Anam mənim" poemasında Vüqar Əhməd bütün analara müraciət edir. Anaları çoşqun dənizlə, bəşərə, kurreyi-ərzə, qocaman dağa, çiçəkli yaza, ən qiymətli qızıla tən tutur. Vüqar Əhməd poemaya "Ata" şeirini də daxil edib. Şeiri atası Mahmud Mikayıla həsr edən şair ata obrazını poetik çalarlarla yarada bilib.

Söyköküm, nəslim,
Əcdadım, əslim.
Ən yaxın kəsim,
Atadır, ata. (23, 9)

Bizlərdən birimiz (Müşfiq Cabiroğlu) həyatda Mikayıl Mahmud əmini görmüşdü. Böyük Vətən müharibəsinin odundan-alovundan keçən mübariz, sərt və əyilməz insan idi. 1947-ci ildə sevib-seçdiyi Almaxanımla ailə həyatı qurmuşdu. Altı övladı dünyaya gəlmişdi. İndi Binəqədi qəbirstanlığında Mikayıl Mahmudun və Hacı Almaxanımın qəbirləri yanaşıdır. Bu yaxınlarda Vüqarın böyük bacısı Çeşmi vaxtsız dünyasını dəyişdi. Atasının-anasının yanında dəfn edildi. Ruhları şad olsun!

Bir müddət öncə Vüqar Əhmədin "Qarabağ yuxusu və yaxud "Yuxuda qələbə" (avtobioqrafik roman) əsəri işıq üzü gördü. Vüqar əsəri bacısı Çeşminin əziz xatirəsinə həsr etmişdir.

Poema "Sənə qurban olsun canım, ay ana", "Analı dünyam", "Ana ocağı", "Ana həm bibidir, həm də xaladır" (xala, bibi), "Zəhmətkeş anam...", "Xalamı itirdim", "Allah, bir kimsəni qoyma anasız", "Nənələr", "Ana, mənə laylay de", "Dünyamsan mənim", "Bəsimdi", "Qardaş", "Anam mənim" şeirlərindən ibarətdir. Poemanın məzmununu da əsas qayəsi, ideyası başlıca olaraq Vüqar Əhməd anaların ümumiləşdirilmiş obrazında cəm halda böyük ustalıqla tərənnüm edə bilmişdir. Poemada dolğun ana xarakteri, şəhid anası harayı, anasını itirən insanın yetimlik harayı, övladının nazını çəkən ana surəti, xala və bibinin yanar ana qəlbi, balasını itirən ananın harayı, ananın bacı həsrəti, poemanı daha da mənalı və oxunaqlı edir. Şair Allaha üz tutaraq:

Allah, bir kimsəni qoyma anasız,
Allah, bir kimsəni qoyma balasız,
Anasızlar sanki elsiz- obasız,
Allah bir kimsəni qoyma anasız. (23, 16)

"Analı dünyam" şeirində Vüqar Əhməd ilk müəllimimizin məhz ana olmasını, şair qəlbi üçün ananın nə demək olduğunu aydın görmək olar. Vüqarın analı dünyasında Vətən yolunda əziz balasını itirən ananın ah-naləsi, qəm, kədər bəxş edir.

Daha müqəddəsdir şəhid anası,
Canından da əziz bala itirib,
Bir üzü gülərdi, o biri ağlar,
Ölsə də balası şöhrət gətirib. (23, 10)

Poemada emosionallıq güclüdür. Poeziya üçün isə bu əsas faktordur. Şair insanları, anaları sevməklə yanaşı, onları qorumağa çağırır. Poemada verilmiş hisslər, bizə o qədər doğma, o qədər əzizdir ki, hər bir övlad əsərdə təsvir olunan ana obrazını öz anası kimi qiymətləndirir. Bura onu da qeyd edək ki, poema sənətkarlıq cəhətdən də yüksək səviyyədə qələmə alınmışdır.Vüqar Əhməd olduqca gözəl ailə başçısıdır. Hüseyn və Almaxanım adında tərbiyəli və qabiliyyətli övladları var. Iki balanı dünyaya bəxş edən, abırlı-ismətli, ömür gün yoldaşı Səbinə xanıma həsr etdiyi "Dünyamsan mənim" şeirində uşaqlarının anasına müraciətlə yazır:

Oğluma anasan,anama gəlin,
Nazlı bir qızısan, doğma bir elin,
Bal, şəkər, şərbətdi hər sözün, dilin,
Dünya gözəlisən, dünyamsan mənim. (23, 19)

Məhəbbətdən yoğrulmuş bu parçada Vüqar Əhməd Səbinə xanıma olan sevgisini gizlədə bilmir.

"Anam mənim" poeması poeziyamızda analar dünyasına həsr olunmuş əsərlər arasında mövzu dairəsi və ideya xüsusiyyətlərinə görə olduqca zəngindir.

Vüqar Əhməd "Anam mənim" poemasındakı misralarda sərrastlıq, axıcılıq, sözə qənaət, lakoniklik gözləməklə yanaşı,

yeni poetik formalardan istifadə etmiş, eyni zamanda milli poeziyamızın dil və üslub ənənələrinə əsaslanaraq əsərə dərin fəlsəfi məna verməklə parlaq, yeni, müasir, orijinal şəkildə Ananın poetik abidəsini yaratmışdır.

Poema Quzeyin sərhədlərini aşaraq, Güneydə işıq üzü görüb. Belə ki, şair Savalan " Anam mənim" poemasını ərəb qrafikasına çevirib, İran Mədəniyyət Nazirliyinin qrifi ilə Tehranda nəşr etdirib. Kitabın naşiri Abulla Əsədullahi, ön sözün müəllifi və transliterasiya edəni, görkəmli Cənub şairi Həsən Məcidzadə Savalandır. Savalan ön sözündə poemanın bədii-poetik xüsusiyyətləri və məziyyətləri haqqında məlumat verməklə şairin yaradıcılığını yüksək dəyərləndirərək yazır ki, o məhşur alim-şair olmaqla yanaşı görkəmli incəsənət və musiqi xadimidir. Eyni zamanda Savalan qeyd edir ki, Vüqar Əhmədin İran-Azərbaycan ədəbi əlaqələri tarixində, Güney ədəbiyyatı və musiqisinin Quzeydə təbliğatı sahəsində böyük xidmətləri var.

Poemanın sonu dilləri əzbəri olmuş "Anam mənim" şeiriylə bitir. Hələ sağlığında Vüqar anası Hacı Almaxanım xalaya həsr etdiyi "Anam mənim" şeirinə tanınmış bəstəkar Rauf Məmmədovun bəstələdiyi eyni adlı mahnını müğənni Baloğlan Əşrəfov özünəməxsus şəkildə ifa edir. Mən həmin mahnını analara həsr olunmuş himn hesab edirəm. Allah Almaxanım xalaya qəni-qəni rəhmət eləsin, qəbri nura boyansın.

"Anam mənim yox daha"

Müasir Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Vüqar Əhmədin bu yaxınlarda "Anam mənim" adlı kitabının İranda fars dilinə tərcümə edilmiş variantı işıq üzü görmüşdür. Kitabda Vüqar Əhmədin müxtəlif vaxtlarda anasına həsr etdiyi şeirlər toplanmışdır. Xüsusilə anasının vəfatından sonra yazdığı şeirləri daha təsirlidir.

Anam getdi, Dünyam getdi dünyadan,
Çox dərdliyəm, ayrılmıram röyadan,
Gözü yaşlı qoydu məni yaradan,
Anam mənim, gözəl anam yox daha.

Hifz eyləyən duasıydı anamın,
Səsi Quran sədasıydı anamın.
Analar da balasıydı anamın,
Anam mənim, şirin anam yox daha.

Laylasıyla şirin yuxu tapardıq,
Su atardı, haçan evdən çıxardıq,
Duasıyla arzulara çatardıq,
Anam mənim, qoca anam yox daha.

Quru canla dəryadakı dağ idi,
Gülüstandı, cənnət-məkan bağ idi,
Çox güclüydü, nə qədər ki sağ idi,
Anam mənim, uca anam yox daha.

Dərd-sərimiz qubarlatdı anamı,
Bala dərdi hey ağlatdı anamı,
Xoş günümüz Vüqarlatdı anamı,
Anam mənim, anam mənim yox daha.

Nəvələrə "can"-deyərdi ürəkdən,
Usanmırdı gecə-gündüz görməkdən,
Ömrü boyu güc alardı fələkdən,
Anam mənim, anam mənim yox daha.

Meşədiydi, Kəbleyiydi, həm Hacı,
Namusuyla hamımıza baş tacı,
Qardaşsızdı, itirmişdi üç bacı,
Anam mənim, anam mənim, yox daha.

Şirin-şirin söhbət etdik anamla,
Bir andaca biz ayrıldıq anamdan,
Əzrayıl da salam aldı anamdan,
Anam mənim, anam mənim, yox daha.

Əməliylə yuva seçdi cənnəti,
Gözü toxdu, sevməzdi heç sərvəti,
Tənha qoydu oğlu Vüqar Əhmədi,
Anam mənim, anam mənim, yox daha. (24, 1)

Bütövlükdə Vüqar Əhmədin yaradıcılığında "Anam mənim" şeiri və xüsusilə də mahnı zirvə nöqtəsidir.

Doğrudan da, bu əsər Vüqar Əhmədə başucalığı, olmazın şöhrət gətirib. Bir şair kimi onu təsdiq edib. Həm əməkdar artist Baloğlan Əşrəfovun, həm bəstəkar Rauf Məmmədovun, həm də Vüqar Əhmədin yaratdıqları misilsiz mahnı-əsərə görə fəxr edə bilərlər.

Pedaqoji elmlər namizədi, dosent Şahrza Ağayev "Vüqar Əhməd poeziyası" məqaləsində məhşur şeiri və mahnını geniş təhlil edir.

Məqalənin müəllifi fikirlərini əsaslandıraraq mahnıya görə Baloğlan Əşrəfovun qazandığı alqışlardan söhbət açır. Bəs mahnının bəstəkarı və şairi ünvanına gələn alqışları Şahrza Ağayev şeirdə Vüqar Əhmədin xoş ovqat yaratması ilə yanaşı, övladları düşündürən cəhətləri irəli çəkir: «Vüqar Əhmədin şeirlərində təravət, doğmalıq, sadəlik, musiqi ruhu məhz alim düşüncəsinin və istedadının sintezi ilə bağlıdır. Təsadüfi deyildir ki, onun yazmış olduğu hər hansı bir şeiri tezliklə müğənnilərin ifasında pərvazlanıb, insanların qəlbinə köçüb əbədi məskən salır. «Anam mənim» mahnısı ilə sevimli müğənnimiz Baloğlan Əşrəfovun qazanmış olduğu alqışların gətirdiyi sevinci heç bir mükafat əvəz edə bilməz. Pedaqoji motivlər əsasında yazılan bu şeirdə ana anlayışının məzmunu

tərbiyəvi əhəmiyyət baxımından çox-çox yüksəkdə durur. Ananın müqəddəsliyinin övlad üçün şərtləndirən faktorları, qarşılıqlı şəkildə poetik cizgilərlə musiqi ölçüsünə gətirmək məharət tələb edir.

Bu şeirdə şair xoş ovqat yaratmaqla yanaşı, eyni zamanda övladları düşündürməyə vadar edir:

Xoş günümə yol açandı,
Taleyimə nur saçandı,
Heyf, qocalıb haçandı,
Anam mənim, anam mənim. (25, 3)

"Məhəbbət poeması"

Bildiyimiz kimi, Vüqar Əhməd yaradıcılıq yolunda poema janrına da müraciət edib. Şairin indiyə kimi "Anam mənim", "Məhəbbət poeması", "Əski məhəllə", "Ağlayan uşaq", "Abşeron" adında 5 poeması işıq üzü görüb. "Məhəbbət" poeması 203 misradan ibarətdir. Bütünlüklə lirik səciyyə daşıyır. Ümumiyyətlə, məhəbbət elə ali hissdir ki, o insan qəlbində pak, təmiz, saf duyğular oyadır. Məhəbbət elə bəşəri məhfumdur ki, insanı həyatda yaxşı, nəcib əməllər görməyə, ancaq gözəllik haqqında düşünməyə sövq edir. Məhəbbət insanı insan eyləyir. Məhəbbətsiz ömür eyləyən insanlar isə daş qəlblidir, cılızdır. Məhz bu cəhətlərdənVüqar Əhməd "Məhəbbət poeması"nda söhbət açır.

"Allahın eşqində biz yaranmışıq" deyən Vüqar Əhməd anaya, ataya, bacıya, qardaşa, doğmalarına olan məhəbbətini tərənnüm edir. Məktəb illərini yada salır:

Məktəbdə qazandıq ilk məhəbbəti,
Yarandı dostluğun ilk sədaqəti.
Bir qızı sevirdi, beşi, on beşi
Özünü sanırdı hər uşaq kişi. (20, 142)

Qayğısız məktəb dövründə ilk müəllimi məhəbbətlə sevirsən. Güllərin gözəlini ona verirsən. Bir qızı sevirsənsə sonra görürsən ki, sinfin yarısı ona vurulub. İlk məhəbbətin boşa çıxır. Məktəbi bitirirsən, hər kəsin yolu ayrılır. Amma ilk məhəbbətini unuda bilmirsən.

Poemada Vüqar Əhməd Vətənə məhəbbət hissini ön plana çəkir:

Vətən məhəbbəti necə müqəddəs,
Onu sevməlidir, hər insan hər kəs...

Sözüm odur, biz Vətəndən doymayaq,
Düşmən qabağında biz qul olmayaq.

Biz odlar oğluyuq, oda bağlıyıq.
Bu gün hər birimiz qarabağlıyıq.
Demirəm başlara qara bağlayaq,
Gecə-gündüz inildəyək, ağlayaq. (20, 144)

Vüqar Əhməd bütün sevənləri Leyliyə və Məcnuna bənzədir. Böyük məhəbbət şairi Əliağa Vahidin sevgini vəsf edən iki ölməz misrasını misal gətirir:

Sevgilim, eşq olmasa varlıq bütün əfsanədir,
Eşqdən məhrum olan insanlığa biganədir.

Vüqar Əhməd insanları mehriban olmağa, əbədi dost məhəbbətini yaşatmağa səsləyir. Poemanın sonu isə məhəbbət çağırışları ilə bitir.

“Abşeron” poeması

Abşeron qədim diyardır, ulu babalarımızın bu torpaqda ayaq izləri var. Vüqar Əhməd üçün Abşeron doğma məskəndir.

Abşeron onun həyat amalı, ürək çırpıntılarıdır. Atasının, anasının doğulduğu Pirşağı və Binəqədi kəndləri, vaxtilə əcdadlarının yaşadığı Abşeron yarımadası. Axı, Vüqar Əhməd milyon illər yaşı olan Abşeron torpağında ilk addımlarını atıb. Gecələr Xəzər dənizinin sahilində ulduzlara baxmaqdan zövq alıb. Tək-tənha öz-özünə düşünüb, daşınıb. Yeni-yeni şeirlərini, elmi ədəbi-tənqidi məqalələrini məhz mavi gözlü Xəzərin qoynunda yazıb, yaradıb. Bir sözlə, Abşeron Vüqar Əhmədin məhəbbəti, eşqi, çırağıdır, döyünən ürəyidir. Abşeron öz qoynunda Vüqar Əhmədə də yer verib. Bütün yaradıcılığında Vüqar Abşerona olan məhəbbətini, duyğularını, hədsiz sevgisini həmişə diqqətdə saxlayıb. Elə "Abşeron" poemasından götürülmüş məşhur "Abşeronum mənim" mahnısı buna əyani sübutdur:

Qızıl qumun dava-dərman,
Burda bitir al zəfəran.
Ana vətən Azərbaycan,
Abşeronum mənim. (26, 444)

Poema boyu Abşeronda yetişən tarixi şəxsiyyətlərdən söhbət açılır: bir vaxtlar Abşerondan pərvazlanan bu ölməz insanlar bütün dünyada Azərbaycanı tanıdıblar:

Bəstəkarlar diyarıdır,
Cahangirimin yarıdır,
Qarayevin baharıdır,
Tofiqin iftixarıdır,
Abşeronum, Abşeronum. (26, 444)

Bu torpağın yetişdirmələri arasında Tağıyev, Rəsulzadə, Ş.Qurbanov, Z.Bünyadov, N.Xəzri və başqalarının adlarını qürurla çəkirik.

Müəllif poemada Qara yanvar hadisələrini bir daha yada salır. O vaxt Abşerondan gətirilən saysız-hesabsız qərənfil güllər xalqa təsəlli oldu. Şəhid məzarları qərənfillərlə bəzədildi:

Ələkbərin balabanı,
Qara yanvar... bala banı,
Sordu ana: balam hanı?
Qərənfilli Abşeronum. (26, 444)

Vüqar Əhmədin 117 misralıq "Abşeron" poeması lirik əsərdir. Lirika isə insan qəlbinin təzahürüdür. Poemanın mövzu dairəsi Vüqar Əhməd tərəfindən səlist şəkildə işlənib. Poemada nikbin əhval-ruhiyyə, ifadə qüdrəti, ideya xüsusiyyətləri tərənnüm olunur.

Əsər Abşeronun toponimləri haqqında yazılan tarixi bir dastandı. Şair poetik dildə Abşeronu qədim türk diyarı kimi təsvir edir, əhalisinin türk mənşəli olduğunu isbat edir.

"Əski məhəllə"
(kiçik poema)

Hər bir kəsə doğulduğu ocaq, yaşadığı ev olduqca doğmadır. Vüqar Əhmədin "Əski məhəllə" poemasını oxuduqdan sonra xəyallar bizi çox uzaqlara apardı. Onu da qeyd edək ki, biz Vüqar Əhmədi uzun illərdir tanıyırıq. Dostluğumuz da elə bu əski məhəllədən başladı. Ilk dəfə Vüqargilə gedəndə bizim heç ağlımıza belə gəlməzdi ki, vaxt gələcək xatirələr bizi həmin illərə aparacaq. 1902-ci ildən başlayaraq onun dədə-babası bu ünvanda mülk ucaltmışdılar. Vüqar da ailəsiylə birlikdə həmin mülkdə yaşayırdı. Həmin mənzil, həmin həyət o dövr üçün böyük sarayı xatırladırdı. Evlərindən qonaq əskik olmazdı. Kimlərlə tanış olmuşuq bu evdə: Firuz Əliyev, Şamo İsayev, Munis Şərifov, Möhlət Müslümov, Bəhram Nəsibov, Niyaməddin Musayev, Bilal Əliyev (çoxlarını unutmuşuq) Vüqarın ad günləri çox təmtəraqla keçərdi. Bəxtəvər günlər idi. Bu ev, məhəllə o qədər doğmalaşmışdı ki, artıq bütün qonşular bizi tanıyırdılar. Vüqarın qardaşı Mövsüm Əhməd xalq şairi Cabir Novruzun xalası nəvəsi Sevil xanımın həyat yoldaşıdır. İndi o vaxtdan təxminən 30 il vaxt keçib.

İndi hər dəfə o evin, məhəllənin qarşısından keçəndə həmin günlər yadımıza düşür. Ayaq saxlayırıq, qəhərlənirik. Axı, həyatımızın bir hissəsi buralarda keçib. Onu da qeyd edək ki, burada demək olar ki, heç nə dəyişməyib. Hər şey köhnə qaydasında qalıb. Vüqar poemada əski məhəlləsini çox gözəl təsvir edib.

Dünyanın işi budur, köks ötürmə, Vüqar Əhməd. Həyatda heç nə əbədi deyil. Sənə qalan isə əski məhəllənin, əski günləridir. Poema haqqında dəyərli fikirlərini Alim Nəbioğlu aşağıdakı şəkildə bildirir:

" V.Əhmədin öz məhəlləsinə, əski günlərə həsr etdiyi "Əski məhəllə" poemasında şairin əski günləri, məhəlləsi bir kino lenti kimi oxucunun gözləri önündə canlanır. V.Əhməd Vətəni Azərbaycanın məhz onun üçün həmin məhəllədən başlandığını söyləyir". (3, 76)

"Ağlayan uşaq"
(kiçik poema)

Vüqar Əhmədin "Ağlayan uşaq" olduqca kiçik poemadır. Kiçik olmasına baxmayaraq oxucunu düşündürən əsərdir. Hər misrasında ağlayan uşağa müraciət edən müəllif narahatdır:

Gözlərində nə sevinc var nə qəm var,
Görən bilir bu dünyada nələr var?
Sevincdən çox bu dünyada kədər var,
Anlamır bunları südəmər körpə. (26, 444)

Vüqarın uşağın sabahından nigaran qalması şair qəlbini dilə gətirir. Ağlamaqla dünyanı qarşılayan cocuğun taleyi Vüqar Əhmədi dərin fikrə getməyə sövq edir:

"Bilir ki, dünyanın yoxdur vəfası,
Bir günlük sevincin min gün cəfası.

Sağ günləri çox az, azdır şəfası,
Ağlayır bunlara südəmər körpə".

Ağlaya-ağlaya uşaq böyüyür. Şair bir qədər nikbinləşir:

O böyüyür çatır bircə yaşına,
Ata-ana sığal çəkir başına,
Heyran olur gözlərinə qaşına,
Hamı gəlir əlidolu yaşına. (26, 441)

Uşaq bir yaşında ilk dəfə oyuncaqlar görür. Oyuncaqlarla oynayır. Dünyanın dərdi-sərini heç vecinə almır. Şair uşağa kənardan baxır. Üzü gülür. Şair onun Çöhrəsində xoşbəxtlik hiss edir. Vüqar Əhməd oyuncaqlara baxa-baxa "Bu dünyada olacaqdır oyuncaq" misrasını böyük qəzəblə işlədir. Bu qəzəbin özündə şairin ürək çırpıntıları, şair harayı var. Bu misra bir uşağın timsalında poemanın məzmununu daha qabarıq şəkildə göstərir.

Vüqar Əhməd poeziyasında Güney həsrəti

"İranım, İranım, gözəl İranım
Sənə nəfəs verir Azərbaycanım!"
Vüqar Əhməd

Bütövlükdə filologiya elmləri doktoru, professor Vüqar Əhmədin elmi yaradıcılığında, ədəbi-bədii məqalələrində, publisistik yazılarında, poeziyasında Cənub mövzusu mühüm qayə təşkil edir. Vüqar Əhmədin şeirlərində Güney həsrəti aydın şəkildə hiss olunur. Şairin Güney həsrətli misraları Təbrizə tərəf boylanır. Ikiyə bölünmüş Vətənin iki paytaxtı ola-ola Təbriz dərdi, Bakı dərdi Vüqar Əhmədə göz dağıdır.

Güneyimdə qalıb özüm,
Şirin ləhcəm, şirin sözüm.
Həsrətdədi mənim gözüm,
Təbrizim, ay Təbrizim.

Bölünübdür Vətən iki,
Paytaxtım var iki-iki.
Birləşmədi Təbriz-Bakı,
Təbrizim, ay Təbrizim. (19, 32)

Neçə əsrlik həsrət, nisgil ulu Şəhriyarın ruhunu, Süleyman Rüstəmin, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Məmməd Arazın, Cabir Novruzun, Xəlil Rza Ulutürkün, Balaş Azəroğlunun gözlərini yolda qoydu. Onlar Cənub, Güney, Təbriz deyə-deyə dünyadan köçdülər. Bizlərə qalan onların o taylı, bu taylı şeirləri, sözləri oldu.

İndi söz ustadlarımızın misralarını oxuduqca müəyyən mənada təsəlli tapırıq. Sözü-sözə calayıb həsrətimizi bir az olsa da ovuduruq. Nə yaxşı ki, sözlər yaşayır. Güneyli –Quzeyli soydaşlarımızın qəlbində. Bu gün Vüqar Əhməd ölməz şairlərimizin söz misrasını, Cənub həsrətini çiyinlərində ləyaqətlə daşıyır. Vüqar Əhmədin özünü və imzasını o tayda çox yaxşı tanıyırlar. Alim Nəbioğlunun təbirincə desək: "O taylı Azərbaycanın el şənlikləri də, bu taylı Azərbaycanın el şənliklərində olduğu kimi Vüqar Əhməd şeirləri, sözləri üstə oxunan muğamlar və nəğmələr ilə müşayiət olunur". (26, 24)

Vüqar Əhmədin söz yaradıcılığında Güney ruhlu şeirləri oxuduqca mövzu dairəsinə köklü şəkildə bağlılıq görürük.

Güney həsrətini dərindən duyduğunu, o tayda yaşayanların arzu və istəklərinə bələd olduğunu oxucunun gözündən yayınmır. Vüqar Əhməd Cənub dərdini yaşaya-yaşaya yazır:

Tehranda özgə bir eldəyəm yenə,
Qızılgül gətirdi Bakılı Nadir.

Elə bil cahanı verdilər mənə,
Güllər Azərbaycan ətiri dadır.

Güllər dərilmişdi Kərəc bağından,
Gülün də qızılı biqiymət imiş,
Sanki dərilmişdi Qarabağımdan,
Qələbə ətirli bir zinət imiş. (21, 19)

Qızılgül gətirən Nadirə ünvanlanmış şeirdə Vüqar Əhməd Kərəc bağından dərilmiş gülləri Qarabağdan gətirildiyini zənn edir. Gülləri qələbə ətirli zinət bilir. "Vətən bayatıları"nda Vüqar Əhməd yenə də o taydan söhbət açır:

Yol gedirdim Təbrizə,
Sizdən düşər kim bizə,
Xəzərdən su apardım,
Şah gölünə səpməyə.

"Heydərbaba" dastanım,
Şəhriyar "Gülüstan"ım,
Əliağa Vahid mənim,
Şeir yazan sultanım.

Yol düşdü Ərdəbilə,
Rast oldum şirin dilə.
Rübabəni dinlədim,
Oxurdu "Qaragilə. (19, 122)

Bayatılar olduqca sadə, rəvan dildə yazılıb. Vüqar Əhməd Təbrizə yol gedir. Mavi Xəzərin suyunu Şah gölündə səpir. Şəhriyarın "Heydər baba"sını, söz gülşənini xatırladır. Füzuli yadigarı Əliağa Vahidə şeir yazan sultanım kimi qiymət verir. Ərdəbilə gedən şair şirin dilə rast olduğunu, ölməz Rübabə Muradovanın yanğılı səslə oxuduğu "Qaragilə"sini dinlədiyini

yana-yana deyir. Mən Rübabə Muradovanın ifasını xüsusilə də "Qaragilə"ni dinləyəndə hər dəfə kövrəlirəm. Rübabə xanımın oxu tərzindən, təkrarsız ifasından insanda Cənub duyğuları pərvazlanır.

Vüqar Əhmədin bacısı ağlayanlarına həsr etdiyi "Gəlir" şeiri oxunaqlıdır, şairi qanadlandırır:

... Mətinimlə, Kənan gəlir,
Mərd oğullar gəlir, ay can.
Güney ilə birləşməyə,
Gəlir Quzey Azərbaycan. (21, 15)

Mətinlə Kənanın gəlişini gözləyən şair ürəyinin bir parçası Bakıda Fəridin yanında qalıb. Fərid tələbə olduğu üçün dayısının görüşünə gedə bilməyib.

Vüqarın böyük bacısı Çeşminin (Allah rəhmət eləsin) üç oğul övladı Fərid, Mətin, Kənan. Olduqca tərbiyəli, Vətəni sevən, qabiliyyətli, qanacaqlı cavanlardır. Şeir həm də tərbiyəvi xarakter daşıyır. Şair bir dayı kimi mərd oğulları ikiyə bölünmüş millətə dayaq olmalarını həyatda insanlıq adını uca tutmalarını tövsiyə edir.

Vüqar Əhməd yaradıcılığının yorulmaz tədqiqatçı Alim Nəbioğlu "Vüqar Əhmədin söz dünyası" dünya şöhrətli cərrah, "Varlıq" jurnalının naşiri və redaktoru Cavad Heyətə, həsr etdiyi şeiri təhlil edərək yazır:

Tehrandakı "Varlıq" jurnalının naşiri və redaktoru Doktor Cavad Heyətə həsr olunan şeirdə "Varlıq" Azərbaycanın əbədi eşqi kimi çatdırılır:

Heyətsiz "Varlıq" bütün əfsanədir,
Bu doktor İranda tək dürdanədir. (26, 404)

Vüqar Əhmədin şəxsi həyatda dostluq etdiyi insanlar o qədər də çox deyil. Bunların arasında cənublu dostu Eldar

Əşrəfi qızının toyu münasibətilə bədahətən dediyi "Adın Eldar qoyasan" (Oğulsuz, 4 qız atası cənublu dostum Eldara ithaf) şeirdə gəlinbacıya üz tutur:

Ay gəlinim, ay bacım,
Səni ana olasan
Oğlun olsa ay bacım,
Adın Eldar qoyasan. (26, 402)

Ancaq əsl dost, dostuna belə ülvi arzular diləyə bilər. Eldar Vüqardan yaşca böyük olmasına baxmayaraq onların dostluğu tuturdu. Nə az, nə çox 17 il dostluq etdilər. Eldar Vüqara bir titul da verib: İki Azərbaycanın böyük şairi. Vüqar onu hörmət əlaməti olaraq ağamız deyə çağırırdı. Ağayi Eldar ustad xanəndəmiz Hacı Tələt Qasımovla, xalq artistləri Ağaxan Abdullayev, Firuz Əliyevlə də isti münasibətləri var idi. Şeirə, sənətə, muğamata qayğı göstərən insan idi. Ağayi Eldarın qəfil ölüm xəbəri dostu Vüqarı dərindən sarsıtdı.

Vüqar Əhmədin daha bir cənublu dostu Ağayi Nadir Cavadidir. Vüqar Nadir Cavadi haqqında 13 noyabr 1994-cü il "İki sahil" qəzetində "O, əsl Azərbaycan oğludur" məqaləsini qələmə alıb. Müəllif yazır: Nadir Cavadi Cənubi Azərbaycanda eləcə də hal-hazırda yaşadığı Tehranda tanınan, sayılan musiqiçilərdəndir. Nadir xanəndəliyi bu tərəfdə də olduğu kimi, bəzi musiqiçilər kimi, qazanc mənbəyi kimi baxmır. Bütün məclislərdə, toy şənliklərində dilindən "Azərbaycan", Nizami, Füzuli, Vahid düşməyən Ağa Nadirin məqsədi musiqimizi özgə şəhərlərdə yaşatmaq, təbliq etməkdir.

Vüqar Əhməd məhşur xanəndəyə "O Nadirdi" şeirini həsr edib:

Dostluqda, elə bil ağadı, xandı,
Nurlu kəhkəşandı, bir asimandı.
Ürəyi böyük bir Azərbaycandı.
O Nadirdi, O Nadirdi, O Nadir. (21, 30)

Vüqar Əhmədin Cənub şeirlərində Təbriz sözü, Təbriz deyimi, Təbriz kədəri başlıca məziyyət təşkil edir. Vüqar poeziya dünyasında Təbrizə həsr olunmuş iki şeir var. Bunların biri "Təbrizim" haqqında artıq söhbət açmışıq. "Təbriz" şeiri isə təxminən 20 il bundan qabaq yazılıb:

Burdan ora uçacağam,
Bura Tehran, ora Təbriz.
Mən birliyi umacağam,
Yaman düşüb tora Təbriz. (21, 18)

Təbriz qanadlı sətirlər. Vüqar Əhmədin misralarının fövqündə Təbriz həsrəti dayanır. Vüqarın dillər əzbəri olmuş "İzim qalacaq" mahnısında da Təbrizə nəğmə payı aparır.

Şəffaf bulaqda, nəmli yanaqda,
Doğma torpaqda izim qalacaq.
Təbriz, Zəncanda, Azərbaycanda,
Bu diyarda sözüm qalacaq". (26, 38)

Vüqarın şair izi, alim izi, söz izi həm o tayda, həm də bu tayda dolanmaqdadır. Şair üçün bundan böyük şərəf ola bilməz.

Vüqar Əhmədin şeirlərində məhəbbətin tərənnümü

"Məhəbbət özü gözəllikdir".
Vüqar Əhməd

Vüqar Əhmədin poeziya aləmində əksər şeirləri məhəbbət dünyasından xəbər verir. Yer üzünün əzəli və əbədi mövzusu olan məhəbbət Vüqar Əhmədin şeirlərindən də yan keçməyib. Əgər Vüqar Əhmədin məhəbbət şeirlərini bir yerə toplasaq böyük kitab araya-ərsəyə gələr. Bütün bunlara görə Vüqar Əhmədə məhəbbət şairi epitetini şamil etmək olar. Vüqar Əhməd nə vaxtdan məhəbbət şeirləri yazır onu dəqiq deyə bil-

mərik. Amma onu deyə bilərik ki, Vüqar Əhməd bu ülvi məhəbbəti şeirlərində yaşadıb. Məhəbbət Vüqar Əhməd şeirlərinin əsas özülünü, rişəsini, canını-qanını, mayasını təşkil edir:

Axtarıram onu hərgün,
Ala gözlü sevgilimi,
Ürəyimdə saxlayıram,
Bu ümidmi sevgidimi?.
"Ümidmi, sevgimi?" (21, 23)

Bax, bu şeir parçasında Vüqar üçün məhəbbətin nə demək olduğu açıq-aydın hiss olunur. Doğurdan da əsl məhəbbətlə sevənlər dünyada hər şeyə qadir olan insanlardır. Vüqar Əhmədə həyatda nadir məhəbbət payı qismət olub. Vüqar Əhmədin Məhəbbət payı böyük bir hekayətdir. Əsl məhəbbət hekayəsi haqqında söhbət açsaq əlbəttə ki, maraqlı olar. Vüqar Əhməd məhəbbətini axtarıb-arayıb. "Sevməsəm, yaşaya bilmərəm" deyib Vüqar Əhməd. Bir də məhəbbət qarşılıqlı olmalıdır. Gərək ki, hər iki tərəf bir-birlərini sevsin. Amma təmənnasız. Sevgidə təmənna, umacaq ola bilməz. Hər şey dəyərli müğənnimiz İzzət Bağırovla tanışlıqdan başladı. Vüqar Əhməd o anları belə qələmə alıb: "Bir gün İzzət məni evlərinə qonaq çağırdı. Gələcək həyat yoldaşım Səbinəni də ilk dəfə onda gördüm. 30 yaşı keçmişdim. Ruhumda daim eşq qığılcımı olsa da Səbinəni görənə qədər alovlanmamışdı. Səbinəni görən kimi lap nağıllarda deyildiyi kimi bir könüldən min könülə aşiq oldum ona. Elə bil uca yaradan onu məndən ötrü yaratmışdı. Səbinə mənim yeniyetmə vaxtından düşüncələrimdə qurduğum sevda bağçasının pərisi idi. Sanki onu daim axtarmışdım, amma indi tapmışdım. İlk baxışdan, zaman kəsiyindən aşiq oldum onun xətti-xalına, gül camalına:

Mən bilirəm qovuşacaq qəlbimiz,
Bir olacaq sevincimiz, qəmimiz,

Bir dinəcək pıçıldaşan səsimiz,
Öz arzunu qəlbinə yaz, sevgilim.

Bu "görüş"dən bir müddət sonra mən İzzətgilin ailəsini bağımıza qonaq çağırdım. Məqsədim o idi ki, anam qızı görsün. Rəhmətlik anam Səbinəni görən kimi çox bəyəndi, dedi, elə əsl mən deyəndi. Bir neçə gündən sonra anam getdi elçiliyə və Səbinənin "Hə"sini aldı. Bir neçə gündən sonra nişan apardıq, 1998-ci il noyabrın 24-də toyumuz oldu". (11, 246-274)

Bax beləcə ümidlə, sevgiylə axtardığı məhəbbətinə, sevda bağçasının pərisi Səbinə xanıma qovuşdu. Səbinə xanıma olan ülvi, pak, əbədi sevgisi məhəbbət şairi etdi. Budur Səbinə xanımla Vüqar Əhmədin sevgisi. Səbinə xanım Vüqar Əhməd məhəbbətinin baş tacıdır.

Vüqar öz məhəbbəti yanında olanda əlçatmazdır, səadətini görür, insanlara nəğmələr bəxş edir. "Sözündən çıxmaram" şeirində isə "Tək sənin sözündən çıxa bilmirəm" deyir Vüqar Əhməd.

Sənin baxışların qəlbimə məlhəm,
Sənlə olanda heç bilmirəm qəm,
Inan sözlərimə, min dəfə desəm,
Tək sənin sözündən çıxa bilmirəm. (26, 165)

Bu, həqiqətdir. Burada söhbət həqiqi məhəbbətdən gedir.

Vüqar Əhmədin "Dünyamsan mənim" şeiri birbaşa Səbinə xanıma müraciətlə yazılıb:

Oğluma anasan, anama gəlin,
Nazlı bir qızısan doğma bir elin,
Bal, şəkər, şərbətdi hər sözün, dilin
Dünya gözəlisən, dünyamsan mənim. (26, 221)

Sevdiyi insana bizcə, bundan böyük etiraf ola bilməz. Vüqar Əhmədin məhəbbəti bəşəri duyğulardan güc alır. Vüqar Əhməd üçün dünya, yaradan məhəbbət onu qələmə sarılmağa sövq edib. Oğlu Hüseynə ana olan Səbinə xanım, qayınanası Hacı Almaxanıma da layiqli gəlin olub. Doğma yurdumuzun nazlı qızı olan Səbinə xanıma Vüqar Əhməd "Dünya gözəlisən, dünyamsan mənim" qiymətini verir.

Vüqar Əhməd məhəbbət şeirlərində bütün sevilənləri də tərənnüm edir. Məhəbbətin gücünü dərindən başa düşən sevgi ruhlu poezisında şair sevən ürəklərə büllur, təmiz hisslər aşılayır. Sevən ürəklər incədən-incə, qar kimi təmiz, tez alışıb yanan olur. Məhəbbət əvvəlcə sevənlər arasında gizli şəkildə başlanır. Ilk görüş, ilk naz-qəmzə, ilk sevgi etirafı, iki sevən arasında məhəbbət baş tutarsa onda aşkara dönür. Bu mənada Vüqar Əhmədin "Sevənlərin" şeiri olduqca təbiidir.

Yaddan çıxır sevənlərin dərdi-qəmi,
Kim deyir ki, sevənlərin vardır qəmi?
Yetişəndə, başlayanda görüş dəmi,
Görüşəndə dünya olur sevənlərin. (26, 154)

Şairin şeirdə gəldiyi nəticə budur ki, dünya sevənlərindir. Məhəbbətin qüdrəti insanı-insan eyləyir. Bu sevgi şair dili ilə daha da ülviləşir. Tənqidçi-jurnalist Alim Nəbioğlu "Vüqar Əhmədin söz dünyası" kitabında şairin sevgi şeirlərinin şairin yaradıcılığında xüsusi yeri olduğunu qeyd edir:

"Sevgi Vüqar Əhməd şeirlərində özünə xüsusi yer tapıb. Istər şeirlərində, ithaflarında, istərsə də qəzəl ruhlu şeirlərində bu mövzu dönə-dönə işlənilərək oxucuların ixtiyarına buraxılıb. "Yarə mən yalvarmaram əqlimi başdan almasa"-deyən V.Əhməd xanımlarımıza xas olan işvəni, nazı, gözəlliyi xüsusi bir ilhamla qələmə almışdır". (3, 44)

Şairin "Bilmədin" şeirinə (19, 209) müxtəlif rakurslardan yanaşmaq olar. Sevən gənc sevgi etirafını etməkdən utanır. Ürəyində olan məhəbbəti, sədaqəti, qiyaməti, dəyanəti, səadəti,

itaəti sevdiyi qıza açа bilmir. Onu görəndə danışmır, dinmir, könlünü ona verə bilmir, cəsarəti çatmır. Amma baxışlar hər şeyi deyir. Ilk dəfə sevirəm sözünü aşiq olan deməlidir.

"Sən olacaqsan" şeirində (26, 142) Vüqar Əhməd eşqi bir varlıq kimi müqəddəs sanır, aşiqanə sözlərdən doymadığını, sevginin ilahidən gəldiyini özünəməxsus şəkildə ifadə edir.

Bizə elə gəlir ki, Vüqar Əhmədin yazdığı məhəbbət şeirləri onun qanına hopub və şairlə daim bir yerdədir. Vüqar Əhmədin məhəbbəti onun ürəyində əbədi iz salıb. Vüqar Əhmədin məhəbbət haqqında poetik fikirləri olduqca maraqlıdır.

Vüqar Əhmədin uşaq şeirləri

Bir bacıdır, bir qardaş,
Həm doğma, həm də sirdaş,
Oğlan Hüseyn, qız Alma,
Sanki onlar bir alma.

Vüqar Əhməd

Vüqar Əhmədin poeziya dünyasında uşaqlar üçün yazılmış şeirlər xüsusi yer tutur. Vüqar Əhmədin bu mövzuda qələmə aldığı poetik nümunələr uşaqların vətənpərvərlik ruhunda tərbiyə almasında, xalqa layiqli övlad kimi yetişməsində, qədim tariximizin öyrədilməsində, eyni zamanda bilikli, elmli olmalarında, dünyagörüşlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Şair şeirlərdə saf, təmiz duyğuları da tərənnüm edir. O şeir yaza-yaza özü də uşaqlaşır, uşaqların iç dünyasına səyahət edir. Uşaq aləmi sözün ən böyük mənasında çox qəribədir. Qəribə olduğu qədər də incədir, zərifdir. Vüqar Əhməd uşaqların dili ilə danışa bilən şairlərimizdəndir. Uşaqlarla dil tapmaq üçün şair gərək səmimi hisslərə malik olsun. Bütün bu cəhətlər Vüqar Əhmədin uşaq şeirlərində səciyyəvi xarakter daşıyır. Vüqar Əhməd uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərən, elmi araşdırmalar aparan alimlərimizdəndir. Onun 2006-cı ildə işıq üzü gördüyü "Azərbaycan uşaq

ədəbiyyatı" adlı dərs vəsaiti həm uşaqlarımıza hədiyyədir, həm də elmi-pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan, bəyənilən əsərdir.

"Azərbaycan uşaq ədəbiyyatı" (mühazirə mətnləri) dərs vəsaitinin müəllifi, pedaqoji elmlər namizədi Bilal Həsənli əsərdə xususi olaraq Vüqar Əhmədə həsr etdiyi oçerkdə yazır:

"Vüqar Əhməd son illərdə uşaq ədəbiyyatı sahəsində səmərəli elmi-pedaqoji, ədəbi-bədii yaradıcılığı ilə seçilən sənətkarlardandır. Şairin vətən, ana, məktəb mövzusunda yazılmış, mənəvi dəyərlərimizi tərənnüm edən uşaq mütaliəsi nümunəsi olan şeirləri dilinin aydınlığı, axıcılığı, bədii əlvanlığı ilə diqqəti cəlb edir". (16, 277)

Dərs vəsaitində Bilal Həsənli şairin şeirlərindən söhbət açır:

"Şairin sənət uğurlarından olan "Azərbaycan" şeirində müəllif yeni söz demək bacarığını bir daha nümayiş etdirir. Bu şeirin təlim-tərbiyəvi əhəmiyyəti nəzərə alınaraq ümumtəhsil məktəblərinin birinci sinfində tədris olunan "Ana sözü" dərs vəsaitinə daxil edilib. Şeirdə vətənimizin birliyi ideyası aparıcı yer tutur:

Azərbaycan- doğma elim,
Nə gözəldi ana dilim.
Ən ətirli solmaz gülüm,
Vətənimdir, Vətənimdir. (16, 277-278)

Vüqar Əhmədin yaradıcılığında "Anam mənim" şeiri və mahnısı analara ucaldılmış ən böyük abidələrdən biridir.

"Anam mənim" və "Əlifbanı öyrəndim" şeirlərini diqqətdən kənarda saxlamayan Bilal Həsənli yazır:

"Anam mənim" şeiri dünyanın ən nurlu müqəddəs varlığı olan analara həsr olunub. Öz övladının xoş günlərinə yol açaaça ananın qocalıb, əldən düşməsi əsərin lirik qəhrəmanının qəlbində kədər hissi oyadır. Illər keçdikcə övladın böyüyüb boya-başa çatması, ananın isə qüvvəsinin azalması, tükənməsi, həyatın təzadı, təbiətin məntiqindən doğan bir həqiqətdir. Bu

həqiqətlə barışmaq istəməyən lirik qəhrəmanın keçirdiyi hisslər təbiidir:

Necə safdı, müqəddəsdir,
Dünyada ən yaxın kəsdi,
Quruca nəfəsi bəsdi,
Anam mənim,anam mənim. (16, 278)

"Əlifbanı öyrəndim" şeirində şair insan ömrünün heçvaxt unudulmayacaq bir dövrünü təsvir edir. Əsərin qəhrəmanı olan məktəblinin əlifbanı öyrənməsi gələcək həyatda böyük uğurların təməli kimi mənalandırılır. Məktəbli əlifbanı öyrənəndən sonra daha özünü körpə saymır, ana dilini daim sevəcəyini, vətəni qoruyacağını söyləyir:

Körpəliyi unutdum,
Elə ki, qələm tutdum,
Dərsimi bilməyəndə
Mən utandım, tutuldum.

Söyləyirəm sənə can!
Vətəndir Azərbaycan.
Səni qoruyacağıq
Bəs, görəsən biz haçan? (16, 278-279)

V.Əhmədin uşaq ədəbiyyatı sahəsindəki fəaliyyətinin bir qolunu elmi araşdırmalar təşkil edir. Onun "Azərbaycan uşaq ədəbiyyatı" dərs vəsaiti elmi-pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. V.Əhməd həm öz elmi tədqiqatları ilə, həm də poetik yaradıcılığı ilə uşaq aləminin dərinliklərinə baş vura bilir.

Almadı yanaqları,
Qönçədi dodaqları,
Saçının saçaqları,
Gözəldi gözəl qızım

***

Anasıyla o sanki
Bir almadı bölünüb,
Bir övladtək sevilir,
Gözəldi gözəl qızım.

***

Nənəsinin adaşı
Vardır Hüseyn qardaşı,
Onlar yatır yanaşı,
Gözəldi gözəl qızım. (26, 137)

Bu parça Vüqar Əhmədin "Gözəl qızım" şeirindən götürülüb. Şair bu şeiri də öz qızı Almaxanıma həsr edib. Almaxanım həqiqətən gözəl qızdır. Nənəsinin adaşı Almaxanım anası Səbinə xanımın əksidir sanki bir almadır yarıya bölünüblər. Almaxanıma baxanda "Gözəllik dünyanı xilas edəcək" deyimi yad düşür. Gözəllikdə tayı-bərabəri olmayan Almaxanım tərbiyəli, mələk simalı bir yavrudur. Allah bədnəzərdən qorusun.

"Üç yaşı var Almanın" şeiri şair qəşəng qızına həsr edib. Vüqar Hacı Almaxanımın sağlığında ciyərparasını onun adını verib.

Təbrik edir sirdaşı,
Hüseyn adlı qardaşı,
Onlar birgə yanaşı,
Üç yaşı var Almanın. (20, 132)

Üç yaşı tamam olan Almaxanımı birinci qardaşı Hüseyn təbrik edir. Onların yanaşı dayanması şairi qürurlandırır. Onlar şairin həyatda dayaqları, gələcəyə aparan mayaqlarıdır. Almaxanım isə hələlik sevincli günlərini yaşayır. Nənənin xeyirxah əməllərini yaşadasan. Atana, anana layiqli övlad olasan. Özün kimi bəxtində gözəl olsun Almaxanım.

"Hüseyn, Alma- bir Alma" şeirini də Vüqar Əhməd iki əziz övladına ünvanlayıb. Şeirdə Vüqar Əhməd bir bacı, bir qardaşın qayğısız uşaqlıq çağlarını təsvir edir

...Onlar qumda oynayır
Oyunlardan doymayır
Gəlir Xəzərin səsi,
Artıq çimmək həvəsi.
Külək qalxır qoymayır,
Toz içində çöl- bayır.

Oynaya-oynaya yaxından Xəzərin dalğalarının səsi gəlir. Uşaqlarda dənizdə çimmək həvəsi yaranır. Amma ənənəvi Bakı küləyi buna imkan vermir. Bayırda isə toz göyə qalxıb:

Hüseyn dedi, ay ana,
Nolar gedək dənizə.
Ana dedi: küləkdir,
Evdə olmaq gərəkdir,
Indi dəniz əzazil,
Orda çimən nə gəzir?

Ana sözü qarşısında uşaqlar müntəzirdirlər. Bu məqamda ananın övladlara verdiyi tərbiyə misralarda hiss olunur:

Alma dedi: neyləyək?
Gəlin evdə şənlənək
İlbiz yığaq, toplayaq,
Bir oyun var bu sayaq.
Ilbiz yerin sırğası,
Gəl oynayaq "Qığbulası". (20, 169)

Almanın təklifi ilə Hüseyn o dəqiqə razılaşır. "İlbiz yerin sırğasını" toplayan uşaqlar "Qığbulası" oynayırlar. İlbiz yerin sırğası ifadəsini işlədən Vüqar Əhməd şeirimizə yeni deyim gətirib. Bu Vüqar Əhməd tərəfindən poetik tapıntıdır.

Gəl oynayaq "Gizlənpac"
Gözləyim gözünü aç.
Hüseyn çıxdı palmaya,
Dedi kiçik Almaya,
Dəniz görünür, bacı,
Mənə baxır qıyğacı,
Alma dedi, baxım mən,
Ora necə çıxım mən?
Ata, qaldır oraya,
Baxım günəşə, aya
O, qaldırdı Almanı,
Fəth elədi palmanı. (20, 169-170)

Bir sözlə, uşaqların başı qarışır "Gizlənpaç"a, Hüseyn cəld palmaya qalxır, Alma gözlərini açanda qardaşı artıq palma ağacındadır. "Burada dəniz elə yaxşı görünür" deyən Hüseyn bacısına səslənir. Bacını maraq götürür. Atasını köməyi ilə Alma da palmanı fəth edir.

Vüqar Əhməd şeirdə palma ağacını təsvir edir. Şair Abşeronun əncirini ağ saçlı palmalara bənzədir. Bu heyrətamiz fikrin özündə Vüqar Əhməd şeirinin kamilliyi, bəşəriliyi, özünəməxsusluğu, ifadələri yerində işlətmək bacarığı, şair təbinin rəvanlığı, hazırcavablığı, aydın sezilir.

Dramaturq, bəstəkar, şair Mövsüm Əhməd şeir haqqında öz mülahizələrini Vüqar Əhmədin "Azərbaycan uşaq ədəbiyyatı" dərs vəsaitinə yazdığı "Vüqar Əhməd" oçerkində açıqlayır.

"V.Əhmədin "Hüseyn, Alma - bir Alma" şeiri şairin övladlarının timsalında balalarımız üçün yazılmış, bütövlükdə həyat materialı ilə yoğrulmuş, eyni zamanda onların estetik zövqünün formalaşması üçün möhkəm zəmin yaradan bir nümunədir". (17, 254)

"Ay oğlum" şeiri şairin oğluna ata nəsihətidir.

Bu dünyada yaşayırsan, qənimət,
Böyüklərə gəl, sən eylə itaət.
Məmləkəti çox gəz, eylə səyahət,
Olacağa çarə yoxdur, ay oğlum.

Nə olursa, elə imiş məsləhət,
Uca Allah bağışlamır xəyanət,
Israf haram sayılır, et qənaət,
Olucağa çarə yoxdur, ay oğlum. (26, 23-24)

Oğluna atanın öyüdü bütün övladara deyilən çağırışıdır Vüqar Əhmədin. Vətənə, xalqa, valideynlərə edilən xəyanəti Uca Tanrı bağışlamır. Israfçılıq etmək isə haram sayılır.

İmam Hüseyn adaşısan,
Süfrəmizin sən başısan,
Nəslimizin yaddaşısan,
Ay Hüseynim, Hüseyn balam.

Hüsnü gözəl, Hüseyn bala,
Hüseyn nə vaxt bir əl çalar,
Zirvələrə o ucalar,
Ay Hüseyn, Hüseyn balam.

İlki oldun sən bir evin,
Şair oğlu şadlan sevin!
Ürəyisən Səbinənin,
Ay Hüseynim, Hüseyn balam. (26, 40)

Vüqar ilk övladı dünyaya gələndə ona İmam Hüseyn adını verib. Bu təsadüfi deyil. Vüqarın babaları Məşədi Soltan Əhməd, Kərbəlayi Əzim əqidəli, imanlı insanlar olmuşlar, İmam Hüseyn adı onlar üçün müqəddəs olub. Vüqarın anası Hacı Almaxanım xala çox dindar qadın idi. Hər dəfə Aşura günlərində qardaşı Mövsümlə, Vüqar anasının ehsan kimi hazırladığı bir

vedrə şərbəti küçəyə çıxarıb yoldan ötənlərə "İmam Hüseyn şərbətidir" deyib paylayırdılar. Mən də bütün bunların dəfələrlə şahidi olmuşam. Özüm neçə dəfə İmam Hüseyn ehsanından içib "Allah qəbul eləsin"demişəm. Bütün bunların nəticəsidir ki, Vüqar oğluna İmam Hüseyn adını bəxş edib. Hüseyn çox tərbiyəli, sözünün yerini bilən, ürəyi ağ vərəq kimi təmiz, paxıllıqdan uzaq olan oğuldur. Hüseyn ilk növbədə adına, atasına, anasına, xalqına, bütün nəslinə layiq övlad olacaq.

"Şəms qızım" və "Qardaşımoğlu Ərtoğrula" şeirlərini qardaşı Mövsümün övladlarına müraciətlə yazıb:

Şəms qızım balacadır,
Gözləri alacadır.
Qucağa götürəndə,
Əmidən çox ucadır.
Sarışın Şəmsim
İstərsən əmisin? (21, 22)

Ey körpə, ey yavru, gözündə ilıq təbəssüm,
Dünya kədərindən uzaq bir görkəm görürəm.
Ey quzum, ey cocuk, çatma qaşında, alnında
Müəmma, aydınlıq, baxışı ötkəm görürəm. (21, 23)

Hər iki şeir parçasını da şair bacı-qardaşa həsr edib. Birinci parçada balaca, sarışın Şəmsi qucağına götürəndə əmisindən ucada dayanması misralarda bədii şəkildə təsvir olunur. Ikinci parçada isə Vüqar Əhməd cocuğun çatma qaşında, alnında müəmma, aydınlıq, baxışında ötkəmliyi duyur. Amma yavrunun görkəmində kədərdən uzaq bir dünya hiss edən şair nikbindir. Ümumiyyətlə Vüqar Əhmədin uşaq şeirlərində həssaslıq, bu aləmin bənzərsizliyi, poetik nümunələrin əsas məziyyətlərini təşkil edir.

\

Vüqar Əhmədin tərcüməçilik fəaliyyəti

Vüqar Əhməd filologiya elmləri doktoru, professor, tənqidçi-ədəbiyyatşünas, şair, jurnalist, tele-radio jurnalisti, musiqi tənqidçisi, söz xiridarı olmaqla yanaşı həm də tərcüməçilik fəaliyyətiylə məşğul olmuşdur.

Hələ sovetlər birliyi dağılmamışdan öncə dini ədəbiyyatı çap etmək tərcüməçi Vüqar Əhməd və naşir Balaş Abbaszadədən böyük cəsarət tələb edirdi. "Qurban" kitabçası yüksək tirajla 1991-ci ildə "Tanıtım" nəşriyyatında mərhum Balaş Abbaszadə tərəfindən nəşr edilərək pulsuz oxuculara paylanmışdır. Tənqidçi-jurnalist Alim Nəbioğlu qələmə aldığı "Vüqar Əhmədin söz dünyası"əsərində "Qurban" adlı yazısında kitabın tərcüməsinə böyük ehtiyac duyulduğunu qeyd edir.

Tərcüməçi Vüqar Əhməd İranda yaşayıb-yaradan şair Əlirza Qəzvi barədə 1 fevral 1995-ci ildə "Vaxt" qəzetində "Əlirza Qəzvi" adlı məqalə yazaraq onu Azərbaycan oxucuları ilə tanış etmişdir:

Vüqar Əhməd namizədlik dissertasiyası üzərində işləyərkən tərcümə nəzəriyyəsi və prinsipləri ilə məşğul olan orjinal elmi mülahizə və fikirlər söyləmişdir.

Vüqar Əhməd tərcüməçilik fəaliyyətində tamamilə başqa bir mövzuya müraciət edib. Belə ki, iqtisad elmləri doktoru, soydaşımız Mirəşrəf Fətiyevin "Şəhərin mənzil-kommunal təsərrüfatının innovasiyalı inkşafı" (33) monoqrafiyasını dilimizə çevirib. Adı çəkilən monoqrafiya ilə ilk dəfə Azərbaycan oxucularının görüşünə gələn tanınmış alim Mirəşrəf Fətiyev olduqca sanballı əsər qələmə alıb.

Ön sözün müəllifi və kitabın redaktoru Vüqar Əhməd, əsərə yazdığı layiqli "Azərbaycan oğlu" adlı ön sözdə Mirəşrəf Fətiyevin həyatı və elmi fəaliyyəti haqqında geniş məlumat verir.

Mütərcim qələm adamı olduğundan tərcümədə müəyyən qədər bədii məqamlarda hiss olunur.

B) Vüqar Əhmədin poeziyasının forması və bədii təsir keyfiyyətləri

Çağdaş Azərbaycan şeirinin ağır yükünü çəkən şairlərdən biri kimi Vüqar Əhməd klassiklərdən bəhrələnmə ənənəsinə sadiqliklə bütün yaradıcılığı boyu poeziyamızın dil və üslubca yeni istiqamətdə inkişafına, yeniləşməsinə xidmət edir. Şair gerçəkliyi fəal estetik mövqedən işıqlandırarkən sənət dilinin orijinallığına xüsusi diqqət yetirir. Odur ki, Vüqar Əhmədin şeirləri poeziyamızda sənətkarlıq yetkinliyi, forma və məzmun birliyinin yeni mərhələsi kimi dəyər qazanır. Onun yaradıcılığına nəzər salarkən şeir dilinə təravətin gəlməsinin sadə xalq dilində təsvir və tərənnümün istiqamətini, ruhunu təyin edən başlıca amilə çevrilməsinin şahidi oluruq. Onun poeziyasında üslub-dil zənginliyi ana dilimizin bədii-məcazi imkanlarından maksimum istifadə müşahidə olunur, poetik nümunələrində yenilik ruhu bədii inikasla işıq saçır. Vüqar Əhməd şeiri məhz bu məziyyətlərinə görə dəyərlidir. Onun zoeziyasında bədii mətn bir küll halında yüksək səviyyəyə qalxır və şair möhkəm ədəbi qanunlar daxilində lazımi yetkinliyə nail olur.

Vüqar Əhmədin yaradıcılıq yoluna nəzər salarkən əhəmiyyətli cəhət ondan ibarətdir ki, onun poeziya dili öz müasirlərindən geridə qalmır, inkişaf edir, bədii tərənnümün müasir səviyyəsi poeziya dilinin müxtəlif meyllərində yaranan tərəqqi prosesinə təzahür edir.

Bütün dövrlərdə ədəbiyyatın ən tipik əlaməti ilk əvvəl onun dilində özünü göstərir. Vüqar Əhməd şeirində dövrünün narahatlığını, nigarançılığını əks etdirərkən onun dilində ədəbi prosesin üslubi təmayüllərini, estetik oricinallığının izlərini hifz edir. Bu şeirdə onun dilində oricinallıq və novatorluğa diqqət yetirək:

Tarixi qədimdir, milyon il öncə,
Oğullar cəngavər, qızlar da incə.
Dünya şöhrətlidir Bakıyla, Gəncə,
Azərbaycan, elim, doğma Vətənim.

Şeir dili zəhmətlə yoğrulmasa cilalana bilməz. Poeziyada dil vasitələrinin təkmilləşməsi, təravətlənməsi daimi və gərgin yaradıcılıq prosesinin nəticəsidir. Hazır obraz və sözün təkrarı estetik tələblərə ziddir. Ona görə də şair sözün estetik tələblərini incəliklərinə qədər bilməsə bədii-məcazi deyim və ifadənin gözəl cəhətlərini, ülvi əlamətəlrini, ən xırda detallarını duymasa, sözün tam mənasında sənət hadisəsinə çevrilən əsər yarada bilməz.

Pedaqoji elmlər namizədi, dosent, mərhum alimimiz Fərrux Həsənov «Vüqar Əhmədin şeirlərinin dil və üslub xüsusiyyətləri» məqaləsində yazır:

«Nəğməkar şair Vüqar Əhməd də sözdən ehtiyatla, yerində istifadə edir, yersiz fikirlərə, mənasız ifadələrə, qafiyə xatirinə qafiyələrə yol vermir, söz həmayilinə düzdüyü incilər bir zərgər dəqiqliyi ilə ölçülüb-biçilir, həzin bir nəğməyə dönüb qəlbimizi, könlümüzü oxşayır, adlı-sanlı bəstəkarlarımızın böyük əksəriyyəti onun şeirlərinə üz tutur, mahnılar bəstələyirlər. Şeirlərindəki saflıq, paklıq, təmizlik, axarlılıq, axıcılıq, ifadəlilik, təbiilik və dil şirinliyi onların (şeirlərin) bədii təsir qüvvəsini artırır:

Ah, necə xoşbəxtəm, bəxtiyaram mən,
Pozulmaz ilqaram, etibaram mən.
Əyilməz bir aşiq, bir Vuqaram mən,
Sevib-sevilməyi duyandan bəri.

Nəğməkar şairin şeirlərinə obrazlılıq gətirən onun bədii dilin ifadə vasitələrindən – epitet, təşbeh, metafora, metonomiya və s. qədərincə, düzgün istifadə etməsi, frazeoloci vahidlərə üslünlük verməsidir:

Bəxtim də qaradı, saçım da qara,
Saçlarım ağardı, bəxt ağarmadı.
Deyin dərd əlindən mən gedim hara,
Saçım ağarınca, bəxt ağaraydı…

Səadətin yenə üzü çönübdür,
Bəlkə elə bəxt ulduzum sönübdür.
Vüqar Əhməd bir dərvişə dönübdür,
Saçım ağarınca, bəxt ağaraydı». (22)

Təsadüfi deyil, daima öz əsərlərində təkrirlərdən, təşbehlərdən, istivarələrdən, cinaslardan çox məharətlə istifadə edən və heç zaman təkrara yol verməyən klassiklərimiz daim misilsiz sərvətlər yaratmışlar.

Sevindiricidir ki, Vüqar Əhməd öz poetik yaradıcılığı ilə ənənəyə sadiq qalaraq, klassiklərin yolu ilə gedir.

Vüqar Əhmədin poeziya dilinin uğurlarının təsdiq və təqdiri üçün kifayət qədər nümunələr vardır:

Bir incidir, sədəfdir söz,
Bəd sözlərə bənd olma heç.
Sonu uzun kələfdi söz,
Bulağından doyunca iç.

Vüqar Əhməd yaradıcılığında yüksək sənətkarlıqla həqiqi şeir poeziya dilində son dərəcə zəngin, emosional ahəngdə yazılmış çoxlu nümunələrə rast gəlmək mümkündür:

Ya Rəbb, öz gülümə qovuşdur məni,
Ya Rəbb, öz gülümlə tutuşdur məni,
Ya Rəbb, öz dilimdə danışdır məni.
Ya Rəbb, ya rəbb, ya rəbb, ya rəbbim mənim.

Misralardakı sərrastlıq, axıcılıq sözə qənaət, yığcamlıq, üslubdakı qüvvət Vüqar Əhməd şeirlərinin tarixi-milli zəmində inkişafı ənənə və novatorluq daha qabarıq, daha parlaq şəkildə özünü göstərir. Onun poeziyasında şifahi xalq yaradıcılığı ruhunda, folklor ənənələri üzərində köklənən sadə və axıcı misralar, yaradıcılıq üçün çox səciyyəvidir.

O, duyğularını doğma azəri türkcəmizdə bəzək-düzəksiz, son dərəcə təbii və səmimi ifadə edir:

Toy-büsat elçim oldu,
Arzularım çin oldu,
Sevdiyim bir gün oldu,
Novruz gələndə elə.
***
Aşıqlar dilə gəldi,
Bülbüllər gülə gəldi.
Gəlhagəl belə gəldi,
Novruz gələndə elə.

Qar getdi, sel açıldı,
Bu bağçada gül açıldı,
Qəlb coşdu, dil açıldı,
Novruz gələndə elə.

Vüqar Əhməd yaradıcılığının forma müxtəlifliyindən söhbət açarkən, onun qəzəllərinə diqqət yetirmək lazımdır. Müəllif bu qəzəlləri bədii təvazökarlıqla əruz vəzninin bəhrlərindən çəkinərək böyük klassiklərimizin əsərləri müqabilində bunları «qəzəl ruhlu şeirlər» adlandırır. Onun qəzəllərində qəzəb, pərişanlıq, narazılıq, ictimai-satirik ruh da var, əzəmət, məhəbbət, şəfqət də…

Bu sadaladıqlarımızı, mükəbbət psixoloci halları xüsusi sənətkarlıqla cəmləyən Vüqar Əhməd olduqca gözəl ruhda nümunələr yaratmışdır. Qəzəllərdən bir neçəsi, o cümlədən «Sevgilim», «Vətəndir», «Söz dünyam var» və s. nümunələr bu gün də xanəndələrimizin repertuarından düşmür:

Ey duyduğum, özü, ismi, qəlbi nihan sevgilim,
Qəlbimdəki surət-xəyal, eşqi cavan sevgilim.
Butan mənə yuxularda, röyalarda verildi,
Sürət, pünhan, sənsən mənə dünya, cahan, sevgilim.

Sevgisinin sürətini pünhana bənzədən Vüqar Əhməd özü, ismi, qəlbi nihan olan xanımın simasında bütün sevənləri ümumiləşdirilmiş obrazını yarada bilmişdir. Şairin müqayi-

sələrdən yerində istifadə etməsi, müqayisələrin uyğunluğu, qafiə xatirinə misralara düzülməməsi, əlavə olunan fəlsəfi fikirlər qəzəl ruhlu şeirin təsir gücünü artırır, necə deyərlər, oxucunu bezdirmir, özünə daha da yaxın edir.

Busəyə qərq elədin canımı canım ilə,
Təzyiqi necə artdı qanımızın canım ilə.
Çılğınlıqla görüşdük, çox hərarətlə öpüşdük.
Ax, ləzzətlə döyüşdük bir xətasız canım ilə.

Dövranın gərdişi, insan övladının dəyişkənliyi, kreslo, vəzifə xəstəliyinə tutulanların iyrənc məqsədləri, iblis simalı insanların şərəfsizliyi, rastlaşdığı ikiüzlülük, riyakarlıq, kişi vüqarının əyilməsi, adicə bir salam verəndə də yeddi qat əyilənlərin qorxulu sifətləri Vüqar Əhmədin diqqətindən yayınmır. Lazımsızların lazımi yerdə əyləşmələr şair qəlbinə yük olur.

Vüqar Əhməd böyük satirik şair Sabirdən bəhrələnərək bəhri-təvildən də yaratmışdır. Bu bəhri-təvillərdən biri torpaqlarımızı işğal edən düşmənlərin ifasına «Ey iblisi-şeytan (bəhri-təvil)» həsr edib:

«Ey iblisi-şeytan, əl çək, millətimin yaxasından, bir qədər seyrə çıx türkün başından, qafasından, havasından, uzaq ol daşnak tavasından, mənə sən söylə görüm xainliyi, alçaqlığı, murdarlığı nə vaxt atacaqsan, yoxsa elə bilirsən ki, bəd niyyət ilə döyünən qəlbinin arzusuna çatacaqsan; yox, yox İvan, başında var nəsə, duman, TÜRKÜN üstə cuman pərişan qayıdıbdır, sonra ayılıbdır, o da çox gec olub ki, özünü rüsvay eləmisən külli-cahanda, qızına, arvadına heyran olur hər kimsə baxanda: səbəbi millətinin namusu yoxdur, çünki qüsurun çoxdur, arağı özünə amal eyləmisən, ey rus: pisliklərin əvəzində səni görüm qan qus: nifaq sal övladı-bəşər arasında, dostluq ki, gördün kürreyi-ərzin harasında, becid ol sən, zəhəri ora qat, miyançı ol, sonra da lal ol, guya xəbərin yoxdu xəbərdən, dünyaya üz verən qəm və kədərdən, qardaşlıq elə dığaya, daşnaka, həyan ol, ey rus, dünyada xaçına

tuş gələnə bəyan ol, istərsən əgər Rüstəm-Zal ol, yetəcəksə sənə TÜRKÜN külli-qapazı, gələcək BMT-dən zərbə avazı…». (26, 372)

Vüqar Əhmədin dini ruhlu şeirlərindəki məziyyətlərini təhlil edən unudulmaz alim Fərrux Həsənov yazır:

«Şairin dini mövzuda, İslam dini ilə bağlı yazdığı şeirlərdə onun klassik üsluba dərindən bələd olduğu və yeri gəldikcə, onlardan (klassik üslubda yazılan şeirlərdən) yetərincə faydalandığının şahidi oluruq:

Dualardır dodağımda,
Azan səsi qulağımda,
İmam Hüseyn bulağından
Su içəydim, Uca Tanrım.
Dərd ümmandı bu anımda,
Ümid ancaq Quranımda,
Nadanların qabağında
Əyilmərəm, Uca Tanrım». (22)

Nəğməkar şair şeirlərinin, demək olar ki, çox hissəsində Vətəni, dostlarını, yaxşılığı, düzlüyü, insanlığı öz plana çəkmiş, öz «mən»ini hər şeydən üstün tutmuş, onu çox sadə, özünəməxsus dillə ifadə etməyə çalışmışdır:

Xoşbəxtəm, bəxtiyaram,
Cavankən ixtiyaram,
Eşqim, qürurum uca,
Əyilmərəm, Vüqaram.

İnanırıq ki, vaxt gələcək şeirlərinə mahnılar bəstələnən şairin, ədəbi-bədii yaradıcılığı, poetizmi, Vüqar Əhməd şeirlərinin bədii dəyəri, dil və üslub xüsusiyyətləri geniş tədqiqat mövzuları olacaq, öz müəllifinə əbədi baş ucalığı gətirəcəkdir».

Vüqar Əhmədin şeirlərində ənənələrlə yeniliyin ecazkar vəhdəti, folklor poetikasının naxışları ilə yeni şeirin əsra-

rəngiz ritmi, ahəng və ifadə səsləşməsi duyulur. Lakin bütün bunlardan əlavə onun ən böyük dərdi, ən ağır möhnəti elin qəmi, elin kədəridir, Qarabağ dərdi, Cənub həsrətidir.

Vüqar Əhmədin yaradıcılığında istər xalq şeirinin, istərsə də müasir poeziyamızın forma qəliblərinə, xüsusilə onun obrazlarına, ifadə üsullarına meyli özünü parlaq şəkildə ifadə edir. Şübhəsiz ki, bu meyil ədəbi həqiqət kimi, xalqın zəngin bədii-mənəvi sərvətlərinə məhəbbətdən irəli gəlir. Əsərlərinin forma-məzmun gözəlliklərinə nail olmaq üçün müəllif şifahi ədəbiyyatın poetik sərvətlərindən bəhrələnərək, mühüm sənətkarlıq sirlərini öyrənərək söz və ifadələrin fikir tutumuna, misraların ahəngdarlığına, melodikliyinə, qafiyə kamilliyinə və s. estetik biçim verir.

Formanın tərkib hissələri, poetik növün janr əsas əlamətləri qafiyə, təqti, ahəng, ölçü və başqalarıdır. Məlumdur ki, ədəbi əsər həyat hadisələrinin bədii ifadəsidir. Hadisələr birbirini əvəz edib dəyişdikcə ədəbi janrın mövzusu da dəyişir. Tarixi inkişaf nəticəsində insanların müəyyən amal uğrunda apardıqları mübarizə vətənpərvərlik və s. ilə əlaqədar yeni mövzulu ədəbiyyat üçün obyektə, aktual mövzuya çevrilir. Hamıya bəllidir ki, xalq dilindən və şeirindən əxz olunan bəhr, ritm sərbəstliyi şeirdə poetik yekrənglikdən, ifadə və üslub monotonluğundan qaçmağa imkan verir. Zamanın yeni problemləri ilə birgə həyatımızın yeni ritmi, sürəti və enerji tempi də şeirə gəlir.

Vüqar Əhməd yaradıcılığı boyu klassik poeziya, folklor, ənənələrini davam etdirərək istər mənzum əsərlərində, poemalarında, süjetli şeirlərində, istərsə də ictimai-siyasi və fəlsəfi-poetik parçalarda, istərsə də lirikasında Azərbaycan şeirinin əsas şəkillərindən istifadə etmişdir. Məlum məsələdir ki, biz mənzum əsərin məhz elə bədii formasından danışırıq ki, o şeirin çox ifadəli, təsirli olmasına və onun daxili məzmununun açılmasına kömək edir.

Azərbaycan poeziyasında qoşma əsrlər boyu ənənəvi bəndlər sistemi kimi yaşamaqdadır. Eyni sözü qoşa misralarla qafiyələnən məsnəvi haqqında da demək olar. Vüqar Əh-

məd xalq yaradıcılığından bəhrələnməklə klassik şeirimizin ənənələrini davam etdirmiş və bir çox poetik formalardan istifadə etmişdir.

Məsələn:

Niyə zülmü dəstəklədin, a dünya,
İnsan oğlu, insanlığa dan görün,
Niyə zülmü dəstəklədin, a dünya.
Yetər artıq axılan qan, a dünya.

Və yaxud:

Göz yaşım axmayır qəmli üzümə,
Tökülür içimə, yandırır məni.
Müntəzir dolanır, baxmır sözümə,
Belə naxələflik yandırır məni.

Bayatı türk xalqlarının müstərək şeir növüdür. Azərbaycan ədəbiyyatında, folklorda bayatının məşhur nümunələri yaranmışdır. Bu janrın yaranma tarixi çox qədim dövrlərə gedib çıxır. Bayatı türk xalqlarının tayfa, ulus, el halında yarandıqları dövrlərdə oğuz ədəbiyyatı nümunəsi kimi söylənibmiş. Bayatı bizə doğma olduğu kimi dilimizin bütün şirinliyini, poetik imkanlarını, məna çalarlarını, semantik xüsusiyyətlərini özündə əks etdirir. Vüqar Əhməd də çoxsaylı bayatılar yaratmışdır. Şair bu misilsiz xalıya yeni ilmələr vuraraq bayatının yeni formalarını meydana gətirmişdir. Onun bayatıları mövzu etibarilə məzmunlu, rəngarəngdir:

Çərəzlər dada-dada,
Yol getdim Ordubada,
Göygölü gördüm burda,
Xəzərim düşdü yada.

Yol getdim Qarabağa,
Qoymadılar yatağa,
Öz doğma Vətənimdə
Mən dönmüşəm qonağa.

Əncir, üzüm quruyur,
Qəlbim hər şeyi duyur,
Nəslim, köküm, əcdadım,
Bu torpaqda uyuyur.

Burada şair bayatı şəklinin ənənəvi –A –A –B –A şəklindən istifadə etsə də dil və üslubu şifahi xalq şeiri üslubu olsa da, misralar özünəməxsus olaraq təsirli, qüvvətli, sərrastdır. Vüqar Əhmədin yazdığı bayatılarda novatorluq özünü qabarıq şəkildə göstərir və müasir şeirimizdə bədii novatorluğun müxtəlif formalarından birini təşkil edir:

Əzizim, yaman ağlar,
Sevgimdən aman ağlar
Eşqi nakam olana,
El ağlar, aləm ağlar.

Onun bayatıları xalq ədəbiyyatından mayalanmaqla yanaşı, öz oxucusuna Vətəni sevməyi, onun obalarını, ellərini, Güneyi-Quzeyi, doğulduğu Abşeronu, müqəddəs ana dilimizi əziz tutmağı, yüksək mənəvi keyfiyyətlərə, nəcib sifətlərə malik olmağı, kişi kimi yaşamağı tövsiyə edir.

III FƏSİL

VÜQAR ƏHMƏDİN BƏDİİ NƏSRİ, DRAMATURGİYASI VƏ PUBLİSİSTİKASI

Vüqar Əhməd yaradıcılıq dövründə tanınmış ədəbiyyatşünas, şair olmaqla yanaşı, həm də roman və hekayələr, dram əsərləri, publisistik məqalələr qələmə almışdır. Vüqar Əhməd nəsr dünyamıza hekayə ilə gəlib. Çox qədim dövrlərdən geniş yayılmış bu janrda formaca dinamik, mənaca yığcam hadisələri ümumiləşdirən, dil baxımından sadə surətləri ilə seçilən hekayələr qələmə almışdır.

«Aktyorun dəftəri», «Təzə zibil», «Bayatı-nəqşicahan», «Qulaqsız», «Bir dəfə yüksələn bayraq, bir daha enməz», «Qastrol», «Milli Məclis», «Dünyanın xoşbəxti mənəm dünyada», «Duzsuzluq» hekayələrində məzmun müxtəlifliyi, obrazların xarakteri, həyati detallar, məişət qayğıları, faciəli, sevimli anlar ifadə olunur. Bir dramaturq kimi V. Əhmədin «Ulduzların yağışı» və «Hazıra nazır» adlı iki musiqili komediyası var.

Əsərlərindəki ulduzluq bəlasına düçar olan özlərindən razı, sənətdən uzaq «sənətkar»lar, səsi olmayan musiqiçilər, bir mötəbər nazirin səviyyəsizliyi, onun adi süpürgəçi ilə rəftarındakı kobudluq insanda acı gülüş yaradır.

«Qarabağ yuxusu və yaxud yuxuda qələbə» romanı Vüqar Əhmədin iri nəsr janrında oxucularla ilk görüşüdür. (Roman barədə söhbət açacağıq – R.N., M.C.)

Ümumiyyətlə, publisistika əsrimizin iki qərinəsini əhatə edən və müasir dövrümüzün ən çətin, ən məsuliyyətli sahələrindən sayılır. Bütövlükdə publisistikanın vacib, ciddi prinsipləri, özünə məxsusluğu vardır. Publisistin doğru-dürüst sözü, fikri, səviyyəsi o qədər yüksək olmalıdır ki, oxucunu öz mükalimələrinə, dialoqlarına inandıra bilsin.

Vüqar Əhməd publisist kimi neçə illərdir bu adı şərəflə daşıyır. Onun publisistikası biz deyərdik ki, yaradıcılıq yolunun başlıca istiqaməti, qoludur. Müəllif dövri mətbuatda, ay-

rı-ayrı kitablarda, ictimai-siyasi, ədəbi-bədii mövzularda, elm sahəsində çalışan alimlərimizin, ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərimizin həyat və yaradıcılıqlarından bəhs edən publisistik məqalələrlə vaxtaşırı çıxış edir.

A) Nəsr yaradıcılığında – roman, hekayələrində tarixilik və müasirlik

Qeyd etdiyimiz kimi, Vüqar Əhməd nəsr aləminə hekayə ilə qədəm qoyub. İlk hekayəsini 25 il əvvəl qələmə alıb. Onda Vüqarın 25 yaşı vardı. Azərbaycan radiosunda musiqi baş redaksiyasında ədəbi redaktor vəzifəsində çalışmağına baxmayaraq, elmi fəaliyyətlə də məşğul olurdu. Bilirdik ki, ara-sıra hekayələr də yazır. Evlərində olanda əlyazmalarını görmüşdük. Amma oxumamışdıq. Ona görə ki, hekayələr yarımçıq, bitmiş halda deyildi. Nəhayət, Vüqar bizə tamamladığı bir neçə hekayəsini oxudu. Dinlədikdən sonra ona dedik ki, deyəsən hekayələrin məzmunu çətin həyatında başına gələn hadisələrdir. Bərk gülüşdük. Bizim dediklərimiz Vüqarın ürəyincə oldu. Biz indi də bu fikirdəyik ki, Vüqarın hekayələrində müasir həyatın özü var. Bizim görə bilmədiklərimizi Vüqar dərindən duyub görə bilir. Həyatın qəribəliklərini, təzadlarını, haqsızlıqlarını qəhrəmanlarının dili ilə müəllif oxuculara çatdırır.

Vüqar Əhmədin 8 hekayədən ibarət «Aktyorun dəfni» kitabı 1995-ci ildə işıq üzü görüb. Hekayələr toplusunda ön sözün müəllifi Zümrüd Orxan, redaktoru Mövsüm Əhməddir. «Gələcəkdən xəbər verən nəsr» adlı ön sözdə Zümrüd Orxan belə yazır: «Nəsrə gəlişi çox vaxt səssiz-küysüz olan yazıçıların ilk hekayələrini dəqiq eləyəndə qeyri-adi heç nə görmürsən. Minlərlə hekayələrin birini andıran bu ilk yazılar yazıçının sonrakı taleyi haqqında heç bir proqnoz verməyə imkan vermir. Böyük bir yazıçının hekayələrini vərəqlədikcə onun pilə-pillə necə inkişaf etdiyini, öz yolunu tutduğunu, qələmindən özünəməxsusluq dolduğunu duyursan. Bəs elə olmur ki, elə ilk hekayələrindəcə gələcəkdə sözün qüdrətin-

dən məharətlə istifadə edərək öz sözünü deyə biləcək bir yazıçının gəldiyini duyasan. Tez-tez olmasa da ədəbiyyatda nadir olmayan bu hadisə ilə Azərbaycan nəsrində də rastlaşırıq. Budur, qarşımda cəmi bir neçə hekayənin əlyazması olan Vüqar Əhməd nəsrdə elə gəlişi ilə öz sözünü dediyini anladır. Belə olmasaydı, bu hekayələrin orijinallığı, kədəndən və qəmdən yoğrulmuş istehzalı yumoru, dili yəqin ki, məni özünə əsir etməzdi».

«Qastrol» hekayəsi satirik ruhda yazılıb. Hadisələr Kamallı kəndində vaqe olur. Simfonik orkestr kənd camaatına konsert vermək üçün qastrola göndərilib. Kolxoz sədri Nəriman kişinin zəhmi, hökmüylə sadə xalqı simfonik musiqi dinləmək üçün güclə kluba doldurublar. Üç gün konsert proqramı ilə çıxış edən çalğıçılar tamaşaçılardan narazıdır. Ona görə ki, onlar bu misiqini başa düşmürlər, dinləmək istəmirlər. Musiqiçilər isə bu hala dözmürlər. Nə etsinlər orada quzu kababı, yeyib-içmək var. Axşam yenə də ziyafət təşkil olunur. Sədr Nəriman yüksək səslə: - «Sabah da çalacaqsınız». Katibin özü məsləhət görüb. Dedim yaxşı nərildəyirlər. Dedi bəsdi, «heyvagülü»yə qulaq asdılar, nə qədər qara zurnanı eşitmək olar. Katib onu da əlavə etdi ki, simfonik musiqi camaatı partiya qərarlarına da ruhlandırır.

Səhərisi gün yenə, konsert, yenə ağzınacan dolu klub, yenə tamaşaçı nifrəti. Nəhayət, salondakıların səbri daşır. Onlar səhnəyə tərəf sürətlə qaçmağa başlayırlar…

Budur, partiya qərarlarını həyata keçirən katibin və onun havadarı kolxoz sədrinin aqibəti, güclə insanlara musiqi dinlətdirməsi, camaatın səhnəyə hücumu nəticəsində yaranmış qalmaqal, saksafonun tamaşaçının baş nahiyyəsində sınması. Hekayədə baş verən hadisələr bizdə gülüş doğurur. Bu acı gülüş oxucunu dərin düşüncələrə qərq edir.

«Təzə zibil» hekayəsi satirik ruhda, yumoristik nağıldır. Texniki-peşə məktəbində təhsil alan Orxan adlı bir gəncin obrazı üstündə qurulub. Məktəbin 8-ci sinfini bitirən Orxan oxuduğu peşə məktəbi ürəyincə deyil. Ona görə ki, nə fərlibaşlı dərs keçirlər, nə də ki, qaynaqçı sənətini öyrədirlər.

Dərsləri olmadığından Orxan kənddəki nohurun qırağına üz tutur. Düşüncələr onu məktəb illərinə aparır. Daxilində «niyə yaxşı oxumadım, axı» - nidası yaranır. Sinif uşaqlarını, Rza müəllimi yadına salır. Özünü sındırmır: «Gərək yaxşı oxuyum, sənətin sirlərini öyrənim».

Bu dəm Orxanın fikrini nohurun həndəvərinə səhərdən zibil gətirən yük avtomobilinin səsi pozur. Orxan uzaqdan ata qədər sevdiyi Rza müəllimlə keçmiş sinif yoldaşlarının gəldiklərini görür. Ekskursiyada onlarla mehribancasına görüşür. Bu onda adəti üzrə təzə zibilləri qurdalayan atası Xanbabanın səsi gəlir:

- Adə, Orxan, bura gəl, təzə zibil, təzə zibil.

Təzə zibilləri aparmaq üçün Orxanı səsləyir.

Orxan istəmir ki, atasını bu vəziyyətdə görsünlər. Amma Xanbabanın qışqırtıları kəsilmir. Ata oğlunu təhqirə keçir. Onun ünvanına nalayiq sözlər deyir ki, təki evə təzə zibil aparsın. Hadisədən pərt olan Orxanı ağlamaq tutur, torpağa yıxılır. Halı birdən-birə pisləşir, anası təcili yardım çağırmalı olur. Qırx dərəcə qızdırmanın içində: - «Mən zibil yığmıram, zibil yığmıram» - deyən Orxan soyuqlayır. Atası Xanbaba isə halsız vəziyyətdə «ax təzə zibil, təzə zibil» - deyir.

«Təzə zibil» hekayəsində atanın oğula qarşı etdiyi haqsızlıqlar oxucuda Xanbabaya qarşı nifrət hissi yaradır. Xanbabanın bir ata kimi səhvi ondadır ki, o oğlunun qəlbini müəlliminin, yaşıdlarının yanında qırmırdı. Orxanın «canın»da da az yoxdur. Yaxşı oxumadığı üçün Orxan məktəbin 8-ci sinfindən çıxıb, peşə məktəbinə keçib. Burada da müxtəlif bəhanələr gətirir. Müəllimini, sinif yoldaşlarını görəndə təhsil almaq hissi onda baş qaldırır. Təzə zibil eşqinə düşən ata oğlunun ürəyinə heç vaxt sağalmayacaq yara vurur. Xalq şairi Qabilin ən çox sevdiyi nəsr nümunəsi olan «Təzə zibil» hekayəsi üçün rəhmətlik yarı gerçək, yarı zarafat deyirmiş kimi, bu əsər Nobel mükafatına layiqdir.

«Aktyorun dəfni» hekayəsini həyəcansız oxumaq olmur. Müəllif əsərin məzmununu real həyatdan götürüb. Dəfn mərasimi olsa da, iki dost arasındakı anlaşılmazlıq qəhqəhəli

gülüşə səbəb olur. Göz yaşları içində gülüşə. Hiss olunur ki, Mirzə Cəlil ruhunda yazılmış bir əsərdir. Ümumiyyətlə atalar deyir ki, xeyrlə şər qardaşdır. Hekayədəki obrazlar məqamında olmayan hərəkətlərinə görə sonda peşmançılıq çəkirlər, özlərini bağışlaya bilmirlər. Atalar demişkən sonuncu peşmançılıq fayda verməz.

Yumoristik hekayə tragikomik səpkidə qələmə alınıb. Əsərdəki hadisələrin leytmotivi, süjeti insanı qəmləndirsə də təbii şəkildə yaranan komik vəziyyət oxucuda gülüş doğurur. Müəllifin gücü ondadır ki, oxucunu həm kövrəldir, həm güldürür və oxucu obrazların sondakı peşmançılığına şərik edir. Əsər o qədər real boyalarla qələmə alınıb ki, oxucu özünü hadisələrin iştirakçısı hesab edir. Hekayəni mütaliə edərkən sanırsan ki, əsərdəki hadisələr elə bil sənin başına gəlib, sən orada iştirak eləmisən. Ümumiyyətlə, əsər tragikomik səpkidə yazılmış hekayə olaraq bədii cəhətdən mükəmməl bir nəsr nümunəsidir.

V.Əhmədin «Qulaqsız» hekayəsindəki hadisələr türk-erməni alayında cərəyan edir. Əsər torpaqlarımızı, doğma Qarabağı işğal etmiş erməni daşnaklarına qarşı müəllif mövqeyindən doğan nifrəti əks etdirir. Bu hekayədə də tragikamızın ruhu üstünlük təşkil edir. «Tayqulaq bircə bəyəm Andronikdi. Türklər o qədər erməni qulaqlayıblar ki…» deyən nazir sözaltı dərin fikirlərini öz oxucusu ilə bölüşür. Müəllifin bir türkcü kimi Androniklərə nifrəti öz bədii təcəssümünü tapmışdır.

Bayatı-nəqşicahan

Xalq yaradıcılığı ruhunda, milli təhkiyə ilə yazılmış bu hekayədə bir daha musiqi sənətinin ilahiliyi qarşısında şahda bərabər biz də baş əyirik.

Musiqi sənətimizin ecazçarlığı, müqəddəsliyi V. Əhməd qələmində çox təsirli alınmışdır. Bu hekayənin başqalarından fərqi ondadır ki, hekayədə müəllif musiqi sənətimizə, milli musiqi qaynaqlarına toxunur, onun gücü qarşısında padşahın belə baş əyib səcdə etməsi səhnəsi oxucuları dərin düşüncələrə qərq edir.

Bir dəfə yüksələn bayraq, bir daha enməz
(nikbin finallı fəci məzhəkə)

V. Əhməd bu məzhəkəni yazmaqla sanki nəsrimizə yenilik gətirib. Nikbin finallı fəci məzhəkə olan, «Bir dəfə yüksələn bayraq, bir daha enməz» - sanki bir oyanışdır. Elə bir oyanış ki, bu insan əqidəsinin öz məslək və məqsədini tapmasında yardımçıdır. Hekayə ilə dərindən tanış olsanız özünüz bunun real şahidi olarsınız.

Milli Məclis

Bu hekayədə isə nasir qələmini sərtləşdirir və hadisələri özünəməxsus bir tərzdə öz oxucu auditoriyasına çatdırır. Hekayə hadisələrin dolğun təsviri ilə fərqlənir.

Dünyanın xoşbəxti mənəm dünyada

Hərə bir cür yaşayır öz həyatını. Həyat insana bəxş olunan ən şirin, ən gözəl nemətdir. Kimi xoşbəxt olur, kimi bədbəxt. Bəzisi bədbəxt olsa da ağıldan kəmliyi ona xoşbəxtlik təlqin edir. O, bu dünyada qara gününü duymur, bu səadətdən pərvazlanır, ruhlanır, xaruqələr yaradır və nəhayət, o da haqq ölümlə yekunlaşanda özünü nəyə görəsə xoşbəxt sansa, bu daha gözəldir. İdeyasını sadaladıqlarım təşkil edən hekayə, məhz insanda xoşbəxtlik haqda nisbi fikirləri labütləşdirir.

Duzsuzluq
(hekayə)

Vüqar Əhmədin «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» romanının redaktoru və ön sözünün müəllifi kimi (Müşfiq Cabiroğlu) mənə aydın oldu ki, «Duzsuzluq» hekayəsindəki əsas qəhrəman müəllifin anasının prototipidir. V. Əhməd hekayəni geniş formada buraya da daxil etmiş və obrazı reallığa uyğun olaraq anasının adı ilə vermişdir.

16 yaşlı Həlimə bazarda duz satmaqla cörəkpulu qazanar, ailəsini dolandırardı.Bir gün Həlimə adəti üzrə bazarda duz

satırdı.Ancaq qəti alveri olmamışdı. Yenicə duz kisəsini qoltuğuna vurub evə qayıtmaq istəyirdi ki, əli əsalı güclə yeriyən qoca kişi ona yaxınlaşıb bir ovuc duz istəyir. Üç oğlu davada olan kişinin pulu az olduğndan bir ovuc duza eytiyaci vardı. Həlimə qoca kişinin halına acıdı,onu atasına oxşatdı. Kişiyə bütöv bir kisə duz verdi, pul da almadı, evlərinə qədər də ötürdü. Bazara qayıdanda artıq gec idi. Sonuncu kukuşka da getmişdi. Məcbur qalıb 12 km yolu piyada gedir, yolda itlərlə rastlaşır, qorxur. Bir təhər evə çatır. Evə qayıdanda anası artı yatmışdı. Atası Kərbəlayi Əzim isə qızını gözləyirdi. Ata qızından niyə gec gəldiyinin səbəbini soruşdu. Həlimə hər şeyi atasına danışdı.Tez mətbəxə keçdi, qaznda iki-üç dənə düyü qalmışdı.Hiss olunurdu ki, evdə şorba bişirilmişdi.Atası məyus halda onun payının ac qonşuya verdiyini söylədi.

Qızcığaz ac-susuz yatdı. Səhəri si gün bazarda alveri yaxşı getdi. Atasının xaişi işdən sonra bibisigilə getdi. Varlı bir kişinin arvadı idi bibisi. Bibi dilücü Həliməni yeməyə dəvət etdi. Həlimə isə yalandan tox olduğunu söylədi. Sonra ailə qonaqlığa getdi, Həliməni özlərinə sığışdırmayıb qonaqlığa aparmadılar. Ac-susuz evdə tək qaldı Həlimə. İki saatdan sonra qonaqlıqdan qayıtdılar. Həlimə acından halbahal olmuşdu. Məcbur olub məhəccərin qırağındakı quru çörəyi ğötürüb çarpayısına uzandı və xırt-xırt yeməyə başladı. Xırt-xırt səsi bütün otaqlara yayılmışdı. Bbisigil isə evdə siçanın olduğunu zən edib səs-küy qaldırmışdılar.

Vüqar Əhməd bu hekayədə iki ailənin müqayisəli təhlilini verir. Bir ailə kasıb, o birisi isə varli.Əli açıq kasıb və simic. Bu hekayə günümüzün real hadısələrının bədii dillə təsviridir. Bu yaşantılar müəllif tərəfindən olduğu kimi qələmə alınmış, bir birinə doğma olan, ancaq isdər təbiət, isdərsə də yaşayış tərzi üzrə fərqlənən ailələrdəki fərq-kasıb qəlbinin genişliyi, son tikəsini imkansızlarla bölməsi, varlının isə kasıba, həttda qohumuna yuxarıdan aşağı baxması, bir dilim çörəyinə belə qıymaması V.Əhməd qələmində faciə şəkilində oxucularına təqdim olunur.

Gürcüstanda yaşayan həmvətənlərimizin müstəqil ictimai-siyasi mətbu orqanı, «Qeyrət» qəzetinin 13 avqust 1994-cü il tarixli nömrəsində «Duzsuzluq» hekayəsinin təhlili oxuculara çatdırılmışdır.

V.Əhmədin öz məhəlləsinə, əski günlərinə həsir etdiyi "Əski məhəllələr" poemasında şairin əski günlərinin məhəlləsi bir kino lenti kimi oxucunun gözləri önündə canlanır. V.Əhməd Vətəni Azərbaycanın məhz onun üçün həmin məhəllədən başlandığın söyləyir. Ensiz bir küçədə, dar bir dalan olan məhəllədə ağbirçək ağsaqqal sözünün ali bir qanun olduğunu, yerliçilik, məhləçiliyin olmadığı, böyüyün, kiçiyin öz yerini bilməsi poetik bir formada yazılıb. Köhnə məhəllədəki birlik, küçələrin darısqal olmasına baxmayaraq qonşunun qonşuya həmdəmliyi və s. kimi müsbət keyfiyyətlər məhəllənin təmizliyi haqda bizdə tam təəssürat yaradır.

Vüqar Əhmədin "Qarabağ yuxusu"

Aşağıda Müşfiq Cabiroğlunun Vüqar Əhmədin romanında yazdığı "Ön söz"ü (11, 3-15) veririk:

"Filologiya elmləri doktoru, professor Vüqar Əhməd sayca 29-cu kitabına olduqca maraqlı bir ad verib: "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" (avtobioqrafik roman).Onu qeyd etmək vacibdir ki, tanınmış alim ilk dəfə olaraq yazıçı qismində yeni romanı ilə oxucuların görüşünə gəlib. Ümumiyyətlə Vüqar Əhməd ədəbiyyat aləmində tənqidçi-ədəbiyyatşünas, şair, jurnalist, musiqi tədqiqatçısı kimi şöhrət qazanıb. Birdənbirə onu iri həcmli roman yazmağa hamımızın ağrısı-acısı-Qarabağ dərdi oldu. Əsər avtobioqrafik ruh daşısa belə, Vüqar Əhmədin yolu Qarabağa doğrudur.

Müəllif əsərə "Bismilləhir-Rəhmənir Rəhim" kəlmələriylə başlayır. Yəni Rəhman və Rəhimli olan Allahın adıyla. Bildiyimiz kimi, Rəhman sözü dilimizdə bağışlayan mənasını əks etdirir. Bu baxımdan bizim fikrimizcə müəllifin əməlisaleh, mərhəmətli olması, yüksək keyfiyyətlərə xoş xasiyyət kimi xarakteri duyulur. Əslində Vüqar Əhməd "bağışlayan"

deməklə təkcə özünə yox, bütün insanlara üz tutur:

"Ey yer üzünün əşrəfi sayılan insan. Heç vaxt həddini aşma, əyri yollarla yaşama, paxıllıq hissini ürəyindən çıxart. Halalla haramı ayırd etməyi bacar. Bir sözlə, insan kimi yaşa, insanlığın fövqündə dayan". Bax, biz məhz Vüqar Əhmədə mən insanlığın fövqündə dayanan ali, nəcib, əsl ziyalı, təkrarsız insan qiymətini verərdim. İnsanlığın isə nə tərifi, nə də resepti var. İnsan insan olmalıdır. Vüqar Əhməd kimi insan.

Bütövlükdə Vüqar Əhməd əsli-nəcabətli, soyu-kökü, olduqca zəngin şəcərəsi olan nəslin nümayəndəsidir. Onun babaları Məşədi Soltan Əhməd, Kərbəlayı Əzim kimi əqidəli şəxslər olmuşlar. Onların hər ikisi də müqəddəs yerləri ziyarət etmiş, imanlı insanlar olaraq xalqın hörmətini qazanmışlar. Məşədi Sultanın kiçik qardaşı Əhməd Bilal teatr sahəsində fitri istedada, zəngin dünyagörüşə, yüksək səviyyədə bacarığa qadir incəsənət və mədəniyyət xadimi olmuşdur. Əhməd Bilal "Türk işçi teatrı"-nın direktoru və baş rejissoru işləmiş, əməkdar artsit fəxri adına layiq görülmüşdür. Əhməd Bilal "panturkist", "panislamist", "millətçi" və "xalq düşməni" damğası ilə heç bir günahı olmadan güllələnib.

Vüqar Əhməd 1880-ci ildə Tağıyev adına teatrda Əhmədə Bilalın "Namus" adlı faciə dramını ön plana çəkir. Tamaşada iki gəncin acı taleyinin dəhşətli sonluqla bitməsini Vüqar Əhməd yüksək bədii çalarlarla, oxunaqlı dildə açıb göstərir.

Tamaşanın olduqca böyük uğur qazanması ilə heç cür razılaşmayan, vaxtilə

Stepan Şaumyanın çuğulu olmuş Qafqaz İslam ordusu Bakıya gələr-gəlməz Həştərxana qaçan, 1920-ci ilin apreklində 11-ci Qırmızı Orduyla birgə Bakıya gələn, neçə-neçə günahsız insan qətlində iştirak edən Qulu Qulamlı "səxavət" göstərərək "Namus" əsəri haqqında qəzetlərin birində iftira, böhtan dolu məqalə dərc etdirərək yazır:

"Əhməd Bilalın Tağıyev teatrında yeni tamaşaya qoyulmuş "Namus" pyesi insanpərvərlik duyğularının bədii əksi baxımından tük ürpəşdirir. Əhməd Bilalın bu əsərində tənqid və

inkar mücərrəd mövqedən aparılmır, ümumiyyətlə mənfiliyə, yamanlığa, şərə qarşı mövqeyindən aparılmır. Burda ictimai cizgilər, dərin və mənalı xarakterlər, problemlər və ümumiyyətlə dramatizm yoxdur. Əhməd Bilal keçmişdən qalma çürüntü və yaprıntıları meydana ataraq, guya milli dəyərləri ön plana çəkib, yırtıcı atanın öz qumarbaz oğlunu öldürməsi səhnəsi ilə, qaranlıq quyunun dibindəki zülmətdən kor olan və havasızlıqdan boğulan insanlara işıq gətirən Şura hökumətinə meydan oxuyur. Əhməd Bilalın vəhşilik və əxlaqsızlıq nümayiş etdirən bu əsəri sağlam və təbii Sovet həyatı qarşısında çox sönük və dəyərsiz görünür".

Qəzeti köşkdən alan Bilal hiss edir ki, Qulu onu haqsızlıqlara qərq edib. Məqaləni oxuyan Əhməd Bilal işin nə yerdə olduğunu, onu nə gözlədiyini başa düşür. Həyat yoldaşı Leyla xanıma üz tutaraq deyir: "Deyəsən mənim də kitabım bağlandı Leyla". Belə də olur. Əhməd Bilal kimi əsl istedadın başından basmağı, mənəvi təzyiqlərə sürükləmək, belə insanları gözü götürməmək, bir sözlə məhv etmək bu cür üzdəniraqların həyat amalı olmuşdur. Beləcə Əhməd Bilala "pantürkist", ""panislamist, "millətçi", "xalq düşməni" damğası vurub qətlə yetirdilər.

Bu hissəni yazıb keçirik o biri fəsilə. Yenə də Vüqar Əhməd Abşeron yarımadasından, anası, mənim həyatımda (Müşfiq Cabiroğlu) dərin izlər buraxmış Almaxanım xalanın doğulduğu Binəqədi qəsəbəsinin qədim tarixi olmasından söhbət açır. Bu məqamda xalqımızın dilində əzbərə dönmüş Vüqar Əhmədin sözlərinə dəyərli bəstəkarımız Elçin İmanovun musiqisində və Eyyub Yaqubovun təkrarsız ifasında "Abşeronum mənim" mahnısından misralar yadımıza düşür:

Qızıl qumu dava-dərman,
Burda bitir al zəfəran.
Ana vətən Azərbaycan,
Abşeronum mənim.

İnsanlığın əzəlisən,
Azərbaycan gözəlisən.
Sən Vahidin qəzəlisən,
Abşeronum mənim.

Göy Xəzərin beşiyisən,
Mədəniyyət keşiyisən,
Muğam, sənət beşiyisən
Abşeronum mənim.

Bəli, Abşeron müəllifin yaradıcılığında bir leytmotiv olaraq həyat amalı, ürək çırpıntılarıdır. Axı, yazıçı milyon illər yaşı olan Abşeron torpağında ilk addımlarını atıb. Gecələr Xəzər dənizinin sahilində ulduzlara baxmaqdan zövq alıb. Tək-tənha öz-özünə düşünüb, daşınıb. Yeni-yeni şeirlərini, ədəbi və elmi məqalələrini məhz mavi gözlü Xəzərin qoynunda yazıb-yaradıb. Bir sözlə, Abşeron Vüqar Əhmədin məhəbbəti, eşqi, çırağıdır, döyünən ürəyidir.

Müəllifin babası binəqədili Kərbəlayı Əzim kişidən söhbət açmaq istəyirik. Kərbəlayinin qızı on bir yaşlı Almaxanım beş-altı qızcığazla “”gizlənpaç” oynayırmışlar. Bu vaxt Almaxanıma yaxın məsafədə dayanan qara maşından iki nəfər mesin gödəkçəli adamların düşdüyünü görür. Tez gizləndiyi tut ağacından düşərək evlərinə tərəf qaçmağa başlayır. Atası Kərbəlayı Əzim namaz qılırmış. O taxçada qoyulmuş müqəddəs Qurani-Kərimi götürüb bağrına basır. Pəncərədən həyətə tullanır. Bu dəm Kərbəlayı namazı bitirir. Artıq qızı qayıdırmış.

Kərbəlayı həyəcanla soruşur:

– Nə olub, qızım?

Almaxanım pəncərədən içəri girib barmağı ilə yuxarını göstərdi:

– Quranı ehtyatla gizlətdim, ata. İki nəfər adam qara maşından düşdü. Mənə elə gəlir ki, onlar səni axtarırlar. Kərbəlayı təəccüblə çiyinlərini qaldırdı:

– Məni? Mən onların nəyinə lazımam?

Almaxanım yenə taxçaya tərəf getdi və canamazı götürüb qoynunda gizlətdi:

– Namaz qılanları, Quran oxuyanları, Kərbəlada, Məkkədə olanları, hamısını tuturlar. Sən namaz qılırsan, Quran oxuyursan, özün də Kərbəlada olmusan.

Nəhayət, küçə qapısı döyülür. Kərbəlayı qapını açanda görür ki, qarşısında iki nəfər NKVD məmuru dayanıb. Məmurun birinin adı Boris, digərinin adı isə Çingiz idi. Çingiz Kərbəlayinin əynindəki geyimini nəzərdən keçirir. Kərbəlayı onlara deyir ki, 1916-cı ildə Kərbəlannı ziyarət etmişəm, özüm də kommunistəm. Cibindən partbiletini çıxarıb onlara göstərir. Hər iki məmur icazə almadan evə daxil olurlar. Hər iki otağı axtarmağa başlayırlar. Heç nə tapa bilməyəndə qanları yaman qaralır. Kor-peşman vəziyyətdə Kərbəlayiyə üz tutaraq:

– Bizə çatan məlumata görə, sən namaz və Quran oxuyursan. Kərbəlayı dodağını büzdü:

– Mən Quran oxuya bilmirəm, oğlum. Heç mollaxana təhsili də görməmişəm. Bir də ki, Quran oxumaqdan ötrü kitab lazımdır. Əgər kitab yoxdursa onu necə oxumaq olar?

Çingiz Borisə baxıb üzünü Kərbəlayiyə çevirdi:

– Mən bilən yoldaş Bağırov sənin ifşa olunmağın üçün sənə bizdən daha mənalı və sanballı suallar verəcək. Səni onun hüzuruna aparmağa gəlmişik, qoca. Onlar Kərbəlayini qara maşına otuzdurub birbaş Bağırovun yanına aparırlar.

Maşında yol gedərkən Kərbəlayinin qıçları titrəyirdi. O eşitmişdi ki, Mircəfər Bağırov ürəyi istəyən adamları elə kabinetindəcə güllələyir.

Mən bu fəsildə Mir Cəfər Bağırovla Kərbəlayinin görüşü səhnəsini əsərin ən maraqlı, ən oxunaqlı hissəsi kimi dəyərləndirirəm. Bu məqamları mütaliə etdikcə belə qənaətə gəlirsən ki, Allahdan başqa heç nə insanı qoruya bilməz.

Hər bir insan həqiqəti deməlidir. Allah insanın üstündə olanda Kərbəlayı Əzim kimi şəxslər hifz olunur. Şair yaxşı deyib: "Həqiqəti deyən adam güclü olar". Mən bu hissəni

əlbəttə müəllifdən icazə alıb bütünlüklə ön sözə daxil etməyə qərara aldım.

"Kərbəlayinin qıçları titrəyirdi. O ölümdən qorxmurdu, lakin onun evdə kiçik yaşlı qızları vardı, əgər onu həbs etsəydilər, onların aqibəti necə olacaqdı? Hələ həbs olunmaq bir yana dursun, Kərbəlayi eşitmişdi ki, Mircəfər Bağırov ürəyi istəyəndə adamları elə kabinetində güllələyib öldürür.

Kərbəlayi Mircəfər Bağırov haqqında hələ Azərbaycanda Şura hökuməti qurulmamışdan, daşnak-bolşevik hərbi birləşmələri Azərbaycan xalqını qanına qətlyam elədiyi vaxt eşitmişdi. 1918-ci ildə daşnak ordusu Quba əhalisini hələ tarixdə görünməmiş bir vəhşiliklə qətlə yetirən zaman Mircəfər Bağırov silaha sarılaraq daşnak ordusuna qarşı savaşan ləzgi dəstəsinə başçılıq etmiş və Qafqaz İslam ordusu Qubaya, müsəlman əhalini xilas etməyə gələnə qədər dəfələrlə daşnaklarla ölüm-dirim savaşına girmiş, yüzlərlə insanı sıyqırımdan xilas etmişdi. Kərbəlayi savadsız adam idi, yəni dünyəvi elmləri tədris edən məktəbdə oxumamışdı, lakin Cavid, Cavad, Müşfiq kimi sənətkarların həbs olunmasından xəbəri vardı və bunu da eşitmişdi ki, "Mərdimazarlar və haramzadalar cəmiyyəti"nin üzvüləri Mircəfər Bağırovdan bu şairlərin həbsini, ölüm cəzasına məhkum olunmasını tələb eləyirlər. Mircəfər Bağırov da "Mərdimazarlar və haramzadalar cəmiyyəti"nin üzvülərinin tələblərini yerinə yetirməyəcəyi halda onların Stalin yoldaşa şikayət eləyəcəyindən ehtiyat etdiyi üçün Cavid, Müşfiq, Cavad kimi dahi şairlərin həbsinə fərman verməyə məcbur olmuşdur.

Kərbəlayi Mircəfər Bağırovun kabinetinə girən kimi bütün tələşı keçib getdi. Sanki Allahın rəhmət mələkləri ona bildirdilər ki, daha qorxmağa bir əsas yoxdu, sən burdan sağ-salamat gedəcəksən. Kərbəlayi ilk dəfə idi Mircəfər Bağırovu canlı olaraq görürdü. O, orta boylu, bir qədər arıq ağbəniz bir adam idi. Gözünə, gözü zəif görən adamların taxdığı eynəkdən taxmışdı. İlk baxışdan Kərbəlayiyə elə gəldi ki, Mircəfər Bağırovun gözləri heç bir şey ifadə eləmir. Lakin bir qədər keçəndən sonra

o bu gözlərin dərinliklərində çox sirlər gizləndiyini hiss elədi. Mircəfər Bağırov Kərbəlayinin yaşıl rəngli araxçınına, nimdaş, amma təmiz əndisələrinə, mürdü getmiş çarıqlarına baxdı:

— Əzim Əbdürrəhim oğlu..

Kərbəlayi yüngülcə başını tərpətdi:

— Elədir, yoldaş Bağırov..

Bağırov sol əliylə alt çənəsini qaşıdı:

— Vaxtilə kəndxuda olmusan, indi də kənd sovetinin sədrisən?!

Kərbəlayi yenə başını tərpətdi:

— Elədir, yoldaş Bağırov..

– Özün də kommunistsən?!

— Elədir, yoldaş Bağırov..

– Nə vaxtdan partiyanın üzvüsən?

– On ildən yuxarıdır..

Kərbəlayi pencəyinin cibindən partbiletini çıxarıb Bağırova göstərdi. Bağırov gözücü partbiletə baxdı:

— Amma Kərbəla ziyarətində olmusan?!

Kərbəlayi saat yarım bundan qabaq NKVD məmurlarına dediyini indi də təkrar eləməyə məcbur oldu:

Mən 1916-cı ildə Kərbəla ziyarətinə getmişəm yoldaş Bağırov.

Bağırov əllərini pencəyinin altından geydiyi jiletin cibinə qoyub bir qədər kabinetin içində var-gəl etdi:

— Görürəm yalan danışmırsan.

Bağırov Kərbəlayinin iki addımlığında dayandı:

— Mənə bunu da düzünü de, Əzim kişi, Allaha inanırsan?

Kərbəlayini soyuq tər basdı, indi onun ruhunda zaman elə sürətlə cərəyan edirdi ki, heç bir ölçüyə sığmırdı, onun alnından puçur-puçur tər axırdı. O pis-yaxşı, bu boyda məmləkətin rəhbərini aldada bilməzdi. Hə deməydi, Bağırov onu elə kabinetdəcə güllələyə bilərdi. Bu yaşa çatana qədər həmişə Uca Yaradanın qarşısında alnı açıq, üzü ağ olan Kərbəlayi "Hər şeydən öncə Allahdır"-deyə düşünüb polad iradəsinə dayanaraq cəsarətlə dilləndi:

– İnanıram, yoldaş Bağırov, özü də çox inanıram.

Bağırovun gözlərinin dərinliklərində "Bu oldu əsl kişi söhbəti" ifadəsi hiss olundu, lakin o sanki rejissor, aktyor, teatr nəzəriyyəçisi və mütəxəssisi Stanislavskinin "Göstərmə" prinsipi ilə rol aparan bir aktyor kimi qəribə bir jest alıb rola girdi:

-Şura hökuməti bütün dinlərə qarşı mübarizə aparır, o cümlədən İslam dininə. Artıq məscidləri bağlamışıq, ibadətgahları sökmüşük, ziyarətgahları dağıtmışıq, xanəgahları yerləyeksan eləmişik. Tezliklə qəbirstanlıqlardakı İslam dininin nişanəsi olan başdaşılarını da yığışdıracağıq. Bir sözlə, İslamın nə qədər mənzərəsi varsa, hamısını yox edəcəyik.

Bağırov bir qədər susdu, sonra yenə nitqinə davam elədi:

– Əzim kişi, axı neyçün indiyə qədər başa düşməmisiz ki, insanlara qaranlıqdan və fanatizmdən başqa bir şey gətirməyən din heç kəsə lazım deyil. Bu dünyada elmdən başqa elm yoxdu.

Bağırov yenə susdu. Onun nitqi bitmişdi, daha doğrusu daha deməyə sözü yox idi.. Bağırov bir qədər susandan sonra düz Kərbəlayinin gözünün içinə baxdı:

– Əzim kişi, bilirsən səni kim satıb?

Kərbəlayi bu sözdən diksindi, onun baxışlarının ifadəsi dəyişdi. İndiyə qədər kimsəyə pisliyi keçməyən, bir insanın qəlbini belə qırmayan kəramət sahibini kim sata bilərdi? Kərbəlayinin gözləri sualla dolmuşdu. Bağırov üzünü bir qədər yana tutub köksünü ötürdü və Kərbəlayini satan iki nəfər adamın adını çəkdi, sonra sözünə belə xitam verdi:

– Ehtiyatlı ol, Kərbəlayi. Gedə bilərsən, amma daha kənd sovetinin sədri işləməyin mümkün deyil.

Kərbəlayinin gözlərində Bağırova təşəkkütrlə yanaşı Uca Yaradana intəhasız həmd və sənalar ifadə olunurdu. O Allahın intəhasız inayəti, mərhəməti və rəhmanlığı ilə yırtıcı bir canavarın dişindən qurtulmuşdu.

Kərbəlayi Binəqədiyə qayıdarkən heç bir nəqliyyat tapmadığı üçün yolda papiros çəkə-çəkə, dincələ-dincələ düz altı saata döndü. O evinə çatarkən artıq şər qarışmaq üzrə idi.. Qapını açıb içəri girərkən səhərdən dilinə nə çörək, nə su

vurmayan Almaxanım ağlaya-ağlaya ona sığındı:

-Mən elə bildim bir də səni görməyəcəyəm, ata.

Kərbəlayi çox kövrəlmişdi. Körpə ikən dörd oğul itirən ata, bu qeyrət, namus mücəssəməsi olan qızcığazın ona oğul əvəzi olacağını bütün varlığı ilə hiss eləyirdi.

Bu əhvalatdan bir müddət sonra Kərbəlayini satan iki nəfər adamın hər ikisinin evləri yanıb külə döndü və tifaqları dağıldı..”

Növbəti fəsillərdə yazıçı valideynlərindən, qardaş və bacılarından söhbət açır. Onların keçdiyi ömür-gün yolundan bəhs edir, həyat yollarına işıq salır. Atası Mahmud Mikayılın 1939-cu ildə hərbi xidmətə çağırılmasından, “Fin müharibəsi”nə göndərilməsindən, döyüşlərdə əsl qəhrəmanlıq göstərərək medallarla təltif edilməsindən və “starşina” rütbəsinə yüksəlməsindən, başına gələn faciələrdən məlumat verir. Mahmud Mikayıl iki müharibənin odundan, alovundan keçib, mübarizədə sərt və əyilməz olub. Düşmənə qarşı amansız olub. Onları məhv edə bilib. Göstərdiyi cəsurluğa görə o ordenlə təltif edilir, həmçinin ona leytenant rütbəsi verilir və tağım komandiri təyin edilir. Müharibənin qanlı-qadalı vaxtı idi. Hər gün Mahmud Mikayıl ölümü gözünün qarşısına gətirirdi, onunla üz-üzə dayanırdı, strateji əhəmiyyət kəsb edən məkan uğrunda qızğın döyüş gedirdi. Bu nöqtə əldən verilsəydi Mahmud Mikayılın komandiri olduğu tağıma baha başa gələrdi. İş o yerə çatdı ki, sonda əlbəyaxa döyüş başladı. Mahmud Mikayıl cəmi iki dəqiqə ərzində şeş faşisti qanına qəltan etdi. Lakin düşmənin canlı qüvvəsi çox idi. Faşitlər Mahmud Mikayılın əsgər yoldaşlarının hamısını öldürdülər. O vəziyyətin həddən artıq ağır olduğunu görüb təkbaşına savaşmalı oldu. Mahmud Mikayılın səyi və tükənməz enerjisi, döyüş bacarığı nəticəsində həmin vacib nöqtəd üşmənə təhvil verilmədi. Mahmud Mikayılı almanlar üç yerdən süngüləmişdilər. Möhkəm ağrılar ona əzab-əziyyət verirdi. Yaşayacağına inanmırdı, dizi üstə yerə oturdu. Başını arxaya dön-

dərəndə, arxadan namərd gülləsinə tuş olduğunu gördü. Bu bayaqdan səngərdə tülkü kimi gizlənən serjant Arşax Qazoryan idi. Düz iki həftə komada qalan mübariz ruhlu döyüşçü, gözlərini açanda əvvəlcə harda olduğunu anlamadı. Ağ xalatlıları görəndə başa düşdü ki, hospitaldadır. Həkimlər onu həyata qaytara bilmişdilər. Özünə gələn Mahmud Mikayıl hərbi hospitalın rəhbərliyinə onu arxadan güllə ilə qaralayan erməni haqqında məlumat verdi. Hərbi prokurorluq onun axtarışına başladı. Məlum oldu ki, Arsaq Qazoryan – Mahmud Mikayılı arxadan vurduğu üçün faşistlərə satılıb. Sonuncu döyüşdə göstərdiyi şücaətə, qəhrəmanlıqlara görə hərbi korpusun rəhbərliyi onun sovet İttifaqı Qəhrəmanı adının verilməsi üçün əlaqədar təşkilata təqdimat verdi. Amma Ali Baş Komandanlığın rəisi Marşal Baqramyan nəinki Mahmud Mikayılın təqdimatını, eləcə də yüzlərlə həmvətənimizin sənədlərini yeddi qapı arxasında gizlətdi. Hətta xəsarət edib yandırdı. Beləcə Mahmud Mikayılın təqdimatı külə sovruldu. Səkkiz ay hospitalda müalicə alan Mahmud Mikayıl 1946-cı ildə yaralı vəziyyətdə, 25 orden-medalla doğma Bakıya qayıdır. 1947-ci ildə isə Mahmud Mikayıl sevib-seçdiyi Almaxanlmla ailə həyatı qurur. Onların 6 övladları - üç qız, üç oğlan uşaqları dünyaya göz açır. Çeşmi, Əhməd, Afət, Zita, Mövsum, Vüqar. Söz var deyirlər ki, ata-ana üçün övladlar hamısı əzizdi, şirindi. Belə bir yazılmamış qanun var ki, evin son beşiyi daha istəkli olur. Mən özüm də ailəmizin sonuncusu olduğumdan bunu yaxşı bilirəm. Bir məsələ də var ki, axı valideynlərlə əsasən axırıncı övlad yaşayır. Buna görə də onlar çox əzizlənir. Sonda isə ərköyün böyüyürlər. Bunu Vüqarın timsalında qətiyyən demək olmaz. Vüqar ailədə sevilsə də, xoşlansa da bunlardan istifadə etmədi. Həyat öz yolunu tapdı. Vüqar hələ tələbəykən artıq tanınmış insan idi. Onunla hesablaşırdılar. Günlərin bir günü, dəqiq yadıma sala bilmirəm Vüqarla tanış olmaq mənə də nəsib oldu. İndi o vaxtdan təxminən 30 ilə yaxın bir müddət keçib. Sonra məlum oldu ki, Vüqarla biz atam tərəfdən həm də

qohumuq. Olduqca az vaxtda hər ikimiz mehribanlaşdıq, əlaqələrimiz yarandı. Hər gün demək olar ki, bir yerdə idik. Ailəvi yaxınlığımız başladı. İsti münasibətlərimiz, təmənnasız dostluğa döndü. 1988-ci ildə anam dünyasını dəyişəndən sonra Vüqarın anası unudulmaz Almaxanım xala mənə həyan oldu. Məni övladlarından ayırmırdı, diqqətini, qayğısını əsirgəməzdi. Tez-tez məni evinə çağırırı, dadı hələ də damağımdan getməyən xörəklərə qonaq edərdi. Almaxanım xala həyata yalnız yaxşılıq etmək üçün gəlmişdi. Üzündən nur yağırdı. Bir tikəsi olsa belə insanlarla bölüşərdi. Vüqarın ailəsinin təklifi ilə mən ailə həyatı qurdum. Vüqar mənim nigahımda şahidim oldu. Toyumda Almaxanım xala ilə Vüqarın rəqs etmələri heç vaxt yadımdan çıxmaz. Vüqar məni həyat yoldaşla evində qonaq etdi, hədiyyələr verdilər. Hər dəfə Vüqargilə gedəndə mütləq atası Mahmud Mikayıl əmiylə görüşərdim. Olduqca nəcib bir insan idi. Onunla söhbətim tuturdu. Atamla yaxınlığı var idi. Atam "Seçilmiş əsərləri"nin 2-ci cildini ona hədiyyə etmişdi.

Hələ sağlığında Vüqar anası Hacı Almaxanım xalaya həsr etdiyi "Anam mənim" şeirinə tanınmış bəstəkar Rauf Məmmədovun bəstələdiyi eyni adlı mahnını, müğənni Baloğlan Əşrəfov özünəməxsus şəkildə ifa edir. Mən həmin mahnını analara həsr olunmuş himn hesab edirəm. Allah Hacı Almaxanım xalaya qəni-qəni rəhmət eləsin, qəbri nura boyansın.

Mahmud Mikayıl əmi 1995-ci ildə rəhmətə gedəndə atamla yas mərasiminə getdik. Dərslərinə şərik çıxdıq. Atam isə 2002-ci ildə dünyadan köçəndə, son mənzilə yola salınanda, dəfn ediləndə Vüqar mənim yanımda idi.

Atamla Vüqarın münasibətləri olduqca yaxın idi, Tez-tez müxtəlif tədbirlərə bir yerdə gedər, qızğın yaradıcılıq söhbətləri aparardılar. Atamın 60 illiyində Vüqar mətbuatda "Dünyaya heyfslənən poeziya" adlı məqalə yazmışdı. 1995-ci ildə Milli Məclisdə keçirilən təbliğat zamanı Vüqar atamın əsas vəkillərindən idi. Seçkiqabağı keçirilən görüşlərdə Vüqar namizədlik həyatından, məramnaməsindən danışardı. Atam da ona

"Ey mənim böyük vəkilim" deyirdi. Bütövlükdə atam Vüqarın gələcəyinə böyük inamla baxırdı. Atam ona dəyərli məsləhətlərini verirdi. Bu günün özündə də Vüqar Cabir Novruz adını həmişə uca tutur. Təbliğində lazımi işlər görür. Əlaqədar təşkllatlarda yubileyinin keçirilməsdində, təşkilində yaxından iştirak etmişdir. Vüqar namizədlik müdafiəsi edəndə atam qürur hissi keçirirdi. Qardaşım Vüqardan alim Vüqarı ayırmırdı.

Romanı oxuyub qurtarandan sonra yuxarıda sadaladıqlarım bir lent kimi göz önümdən keçdi. Çox hadisələri də Vüqar Əhməd mənim yadıma saldı. Yaxşı ki, hafizəmi təzələdi. Yoxsa bəzi məsələləri unutmuşdum. Sağ olsun Vüqar. Yaman yaddaşı var. Əsl adamdır. Yaradıcı insandır. Bu romanı mütaliə edəndə Vüqar Əhmədi tam fərqli bir çözümdə, yeni bir anlamda yazıçı kimi kəşf etdim.

Mən özüm Vüqarı bir yazıçı kimi tanıdım. Onun dilinin səlistliyinə, rəvanlığına

heyran oldum. O, hadisələri maraqlı, cəzbedici şəkildə oxucuya çatdırmağı bacarığını duydum. Ölməz yazıçılarımız Əli Vəliyevin, Manaf Süleymanovun, Qılman İlkinin, Anarın məhz avtobioqrafik ruhda yazdıqları əsərlər yadıma düşdü. Romanda Vüqar Əhmədin fəlsəfi dünyası bəzi məqamlarla qətiyyən razılaşmadığını aydınca sezdim. Əsərin sonu daha böyük arzularla bitir. Vüqar "Qarabağ yuxusu"nda qələbənin bir addımlığında imiş. "Türkün savaşı həmişə qələbəylə bitib çünki". Sənin gördüyün yuxu inşallah tezliklə gərçəyə çeviriləcək. Mütləq qəhrəman oğullarımız Qarabağı azad edəcək, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq. O gün yaxındadır.

Arzuların çin olsun Vüqar Əhməd!

Müşfiq Cabiroğlu

Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü (11, 3-15)

Yazıçının "Qarabağ yuxusu"

Müşfiq Cabiroğlu romanın müzakirəsi haqqında "M. Novruzlu" imzası ilə xəbər dərc etdirmişdir.

A.Bakıxanov qəsəbəsində yerləşən "Aygün Sity"-də filologiya elmləri doktoru, professor Vüqar Əhmədin sayca 29-cu "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" (Avtobioqrafik roman) əsərinin geniş ədəbi ictimaiyyət üçün təqdimat mərasimi keçirilmişdir.

Mərasimi giriş sözü ilə açan tanınmış televiziya aparıcısı İlkin Həsəni kitab barəsində məlumat verdi. Təqdimatda akademik Vasim Məmmədəliyev cixiş edərək Vüqar Əhmədi coxdan tanıdığını bildirdi, onun elmi yaradıcılığına,seir ailəminə, musiqi dünyasına ehtiramını xüsusi vurğuladı. Alim onu da qeyd etdi ki, Vüqarın yazıçı qismində qələmə aldığı ilk romanı oxuyanda həyacanlandığını bildirdi. Bütövlükdə romanı fundamental əsər kimi dəyərləndirdi. Əsərin adına yüksək qiymət verən görkəmli şərqşünasımız müəllifin "Qarabağ yuxusu"nun tezliklə çin olmasını arzuladı. Kitabın ön sözünün müəllifi yazıçı-jurnalist Müşfiq Cabiroğlu dəyərli əsər münasibətilə müəllifi təbrik etdi. Əsərin bədii məziyyətləri haqqında ətraflı danışan filologiya elmləri doktoru, professor Elman Quliyev Vüqarın Azərbaycana məhəbbətindən söz açdı. Filologiya elmləri doktoru, cənubşünas alim Sabir Nəbioğlu müəllifin böyük iş gördüyünü ön plana çəkdi.

Müəllifin yaxın dostu şair Yusif Nəğməkar əsəri oxuyub qürur duyduğunu təqdimat iştirakçılarına çatdırdı. Filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu romandan aldığı mənəvi zənginlikdən ətraflı söhbət açdi. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin dosenti Vamiq Məmmədəliyev bütün ziyalılarımızın bu kitabı oxumasını tövsiyə etdi. Azərbaycan Milli Konservatoriyasının professoru, musiqişünas Rafiq Musazadə başdan-ayağacan oxuduğu romanın əsas ideyasının Qarabağ və avtobioqrafik ruh daşıdığını, müəllifin insani keyfiyyətlərini, sədaqətli dost olduğunu vurğuladı. Filologiya

üzrə fəlsəfə doktoru Esmira Fuad Vüqar Əhmədin doğmaları haqqında yazdığı fikirlərini, düşüncələrini maraqla oxuduğunu, romanın başlıca leytmotivinin isə Qarabağ mövzusu və Güneyə məhəbbət olduğunu ifadə etdi. Mərasimdə sair Maşallah Məftun, aparıcı Elgiz Əkbər cıxış edərək Vüqar Əhmədə yeni-yeni yaradıcılıq uğurları arzuladılar.

Təqdimatın bədii hissəsində xalq artisti Nisə Qasımova şairin sözlərinə Nailə Mirməmmədlinin bəstələdiyi "Arzular məndən uzaq" mahnısını ifa etdi. Əməkdar artistlər Razı Şükürov, Teyyub Aslanov, Mirnazim Əsədullayev, müğənnilərdən İzzət Bağırov, Eldar Ələkbərov, Emil Bədəlov mərasim iştirakçılarına musiqi payı bəxş etdilər. Bədii qiraət ustası Nazilə xanım xalq artisti Firuz Əliyevin müşayiətində romana daxil edilmiş şeir parçalarından nümunələr söylədi. Bəstəkar Rauf Məmmədov müəllifin "Qarabağ" şeirinə bəstələdiyi və özünün ifa etdiyi eyni adlı mahnı hamını duyğulandırdı. Sonda cıxış edən Vüqar Əhməd təqdimatın təşkilatçılarına sonsuz minnətdarlığını bildirdi. Televiziya və mətbuat nümayəndələrinə təşəkkür söylədi,"Qarabağ" və "Vətəndir" şeirlərini oxudu.

M.Novruzlu

"Ədəbiyyat" qəzeti, 1.02.2013.

Təqdimat mərasimi keçirildi

Şair, ədəbiyyatşünas, musiqi tədqiqatçısı, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" kitabının təqdimatı keçirilmişdir. Tədbiri giriş sözü ilə açan ATV kanalının aparıcısı İlkin Həsənli bu roman haqqında qısaca məlumat verdi. Akademik Vasim Məmmədəliyev çıxış edərək bildirdi ki, Vüqar Əhməd bu romanını "Bismillahir-Rəhmanir Rəhim" kəlmələri ilə başlayır. Yəni Rəhman və Rəhimli olan Allahın adıyla. Rəhman sözü dilimizdə bağışlayan mənasını ifadə edir. Mənim fikrimcə, Vüqar Əhmədin əməlisaleh, mərhəmətli olması, yüksək keyfiyyətlərə

xas xarakteri bu romanda duyulur. Əslində müəllif bağışlayan deməklə təkcə özünə yox, bütün insanlara üz tutur. Onun qələmə aldığı "Qarabağ yuxusu və yaxud yuxuda qələbə" romanı kaş bizim üçün çin olaydı.

Tədbirdə yazıçı-jurnalist Müşfiq Cabiroğlu 29 il dostluq etdiyi nəğməkar şairin qələmə aldığı bu romanının ilk oxucusu olduğunu söylədi. Tədbirdə söz alan professor Elman Quliyev Vüqar Əhməd yaradıcılığına yüksək qiymət verərək bu romandan irəli gələn məsələlərə münasibətini bildirdi.

Filologiya elmləri doktoru, professor Sabir Əmirov (Nəbi oğlu) roman haqqında ürək sözlərini söylədi. O, bu romanın əhatəli şəkildə yazılmasını, hətta bu romana görə onun İrana gedib bir çox məqamlara aydınıq gətirməsini qeyd etdi.

Musiqişünas Rafiq Musazadə, filologiya üzrə fəlsəfə doktoru Esmira Fuad, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu, şair Yusif Nəğməkar, Maşallah Məftun "Anam mənim" mahnısının müəllifi, bəstəkar Rauf Məmmədov çıxış edərək Vüqar Əhmədi təbrik etdilər.

Tədbirdə qiraətçi Nazilə Səfərli Vüqar Əhmədin şeirlərindən parçalar oxudu. Xalq artisti Nisə Qasımovanın Vüqar Əhmədin sözlərinə yazılmış "Arzular" mahnısı alqışlarla qarşılandı.

Xalq artisti, tarzən Firuz Əliyev, əməkdar artist, kaman ifaçısı Mirnazim Əsədullayevin müşayiəti ilə əməkdar artistlərdən Teyyub Aslanov, Razi Şükürov, müğənni İzzət Bağırov Vüqar Əhmədin sözlərinə yazılmış mahnılar ifa etdilər.

Sonda Vüqar Əhməd tədbir iştirakçıları qarşısında çıxış edərək "Aygün City" ticarət mərkəzinin rəhbərliyinə, romanın işıq üzü görməsində Müşfiq Cabiroğluna, təşkilatçılara və təqdimat mərasiminin iştirakçılarına öz təşəkkürünü bildirdi.

Elşad Dağlı

"Respublika" qəzeti,
19 yanvar 2013-cü il

B) Dram əsərləri

Vüqar Əhmədin dramaturgiyası cəmi iki əsərdən ibarətdir. Qələmini bu sahədə sınayan müəllif özündən əvvəlki dramaturqların əsərlərindən bəhrələnmiş, onları özünə istiqamət kimi müəyyən etmişdir. Uzun illər Azərbaycan teleməkanında ilk dəfə canlı (canlı telefon bağlantıları olmaqla)… «Gəl, səhərim» adlı musiqili-əyləncəli proqramın ssenari müəllifi və redaktoru olmuşdur. Proqramı əsas dramaturji obrazlar üstündə qurulan hər bir veriliş üçün müəllif komedik səpkidə, dramatik səhnədən ibarət 15 səhifəlik ssenari yazmışdır. Əfsuslar olsun ki, AzTV-nin kanalında quruluş verilişin həmin komik-dramatik səhnəciklərin ssenariləri müəllif tərəfindən saxlanılmamışdır. Vüqar Əhmədin öz əsərlərinin əlyazmalarına təvazökarlıqdan və qismən də səhlənkarlıqdan irəli gələn bu münasibəti bizdə təəssüf doğurur. Eyni fikri müəllifin yüksək komizmlə yazılmış «Hazıra nazir» komediyası haqqında da demək olar. 2003-cü ildə nəşr olunan Alim Nəbioğlunun «Vüqar Əhmədin söz dünyası» monoqrafiyasında komediyanın təhlilinə müəyyən qədər yer verilsə də biz əsərin orijinalını əldə edə bilmədik.

Müəlliflə əlaqə saxlayarkən məlum oldu ki, əsərin nüsxələri bəstəkarlardan Ramiz Mirişli, Adil Bəbirov, Nailə Mirməmmədli və tədqiqatçı Alim Nəbioğluya verilmiş, özündə isə heç bir nüsxə qalmamışdır. Adil Bəbirov hal-hazırda Kanadada yaşayır. Ramiz Mirişli və Nailə Mirməmmədli isə komediyanın nüxsələrini qoyduqları yeri unutmuşlar (onlar əsərə musiqi bəstələmək üçün müəllifdən alıblarmış, lakin nəticə hasil olmayıb – R.N. M.C.). Ona görə də biz əsəri tam tədqiqata cəlb edə bilmədik. Komediyanı mütaliə etmiş ədəbi ictimaiyyətin nümayəndələrindən Zümrüd Orxan (Gürcüstan), Mövsüm Əhməd, İzzət Bağırov, Firuz Əliyev, Mirkazım Əsədullayev və başqaları belə söyləyirlər ki, əsər klassik komediya ənənələri ilə modernist üslubun vəhdətində qələmə alınmış, insanda şiddətli gülüş doğuran, dövrün ictimai nöqsanlarını ifşa edən yüksək bədii səviyyəli bir məzhəkədir.

«ULDUZLARIN YAĞIŞI»

(iki hissəli, bir məkanda musiqili komediya)

V.Əhmədin "Ulduzların yağışı" adlı iki hissəli, bir məkanda musiqili komediyası da real həyatdan götürülüb. Bugünkü müğənni bolluğunda ulduz xəstəliyinə yoluxan şöhrəstpərəst "müğənnilər", "tamada"lar, " reketlər" komediyada öz prototiplərini görə bilirlər. Qəhrəmanlarına da gözəl adlar seçib V.Əhməd: Professor Ziya İdrak, Qönçələb Çələbi, Şamama Bostan qizi, Canan Yuxayeva, Şöhrət Günəş, Masabəy Musayev, Bədrəddin Dərəbəyli, Qarik Ləkinski, Kosa Kosayev, Dursun Gəncilitbəyov, Bamәzə Məzəyev, Azər Bəycan, Vəhmi... və s.

Biz - biz - biz bizlərik,
Hər kəsdən eşq gözlərik,
Şöhrətbaz ulduzlarıq.

Sənəti, səsi olmayan, ancaq özlərini məşhur müğənnilər hesab edən, günlərini eyş - işrət məclislərində keçirən "müğənnilər" komediyada gülüş hədəfinə çevrilir. Ancaq bu gülüş ötəri gülüş deyil, düşündürən gülüşdür. Hətta göz yaşı bəxş edən gülüşdür. Maraqlı bir səhnə:

Bamәzə: - Hələ yeniyetmədir...
Şamama: - Özümündü.
Qönçələb: - Haçan minnan oldun, heç görmədik?
Şamama: - Aa bilmirsən, mənim qarnım yoxdu ki, belimin ölçüsü 50 idi, oldu 60...
Qönçələb: - Başın gicəllənirdi?
Şamama: - Hərdən...
Qönşələb: - Neçə aylıqdı?
Şamama: - Altı... Dekabrın 16 - da anadan olub...
Bamәzə: - Şamama xanım, toydan çıxıb getdin?
Şamama: - Hara?
Bamәzə: - Doğum evinə.
Şamama: - Dekabrın 16 - da bir yerdə toyda idik, yadıva

gəlmir?

Şamama: - Nə bilim, toy bəyəm birdi, ikidi, yadıma gəlsin.

Baməzə: - Dekabrın 17-də də bir yerdə toyda idik, Masabəyi də bizimlə idi.

Masabəyi: - Hə, qoyun Firdovsinin toyu idi, biz şampaniski içirdik, Şamama xanım konyak.

Bədrəddin: - Konyak cana xeyirdir, o, ağzının dadını bilir.

Baməzə: - Sonra necə, sən Zahidlə getdin, klarnet çalanla?

Şamama: - Aa, Zahid məni xəstəxanaya apardı da...

Müğənninin iç üzü yumoristik bir formada oxucuya təqdim olunur. Komediyada maraqlı toy səhnələri, macəralar dolğunluğu ilə oxucuya catdırılır. Öz yolu olmayan müğənnilərin kimlərisə yamsılaması, Öz səviyyələrini bilməmələri, mədəniyyətdən uzaq düşmələri oxucuda əks tərəfə qarşı ikrah hissi oyadır.

Şöhrətpərəstliyin son aqibəti V.Əhmədin "Hazıra nazir" komediyasında kəskinliyi ilə fərqlənir. Əsər hadisələrin kəskin cərəyanı, süjet xəttinin qeyri-adiliyi, standart qəliblərdən uzaqlığı ilə fərqlənir. Sadəliyi gözəllik sayan V.Əhməd insanları, sənət adamlarını ucuz şöhrət dalınca qaçmamağa, təbii olmağa səsləyir. Bu qayə, ideya komediya boyu özünü biruzə verir.

«HAZIRA NAZİR»

(musiqili komediya)

V.Əhmədin kıskin süjetli " Hazirə nazir" komediyasının adı oxucunu tez cəlb edir. Adından məlum olan komediyada hazıra nazirlik, əlindən bir iş gəlməyən, ancaq hazıra nazir olan vəzifə sahiblərinin iç üzü, eybəcərlikləri gülüş hədəfinə tutulur. Sadə süpürgəçi qadınla Nazirin söhbəti elə komediya başlayandan gülüş doğurur. Süpürgəçinin mahnısı ilə başlayır komediya.

Süpürürəm kabineti,
Şef gələndə toz olmasın,
İstəmirəm, istəmirəm
Aramızda söz olmasın,

Neçin axı, neçin axı,
Bu cavanlar, bu cavanlar,
Hazıra nazir olurlar.
Nazir: - Az, sabahın xeyir, a süpürgəçi.

Süpürgəçi: - Sabahın xeyir, Nazir bəy. Nazir müəllim çəkdim kisə, bağışlayın çəkdim süpürgə, otaq oldu tərtəmiz. Dünyada sənsən mənə hər kimsədən əziz.

Buradan Nazirin səviyyəsizliyi, qadını "az" deyə çağırması, bir yandan da süpürgəçinin işinin xatirinə naziri özünə hər kimsədən əziz sayması hadisələrin gələcək inkişafının hansı məcrada cərəyan edəcəyindən xəbər verir. Avamlılıq və ya qəsdən özünü avam yerinə qoyma, kobud şəkildə desək, " sarımaq", səviyyəsizlk, onun ən aşağı dərəcəsi V. Əhməd tərəfindən gülüş doğuran cümlələrlə çatdırılır.

Süpürgəçi: - Xeyir a, Nazir bəy, mərhum ərim yazıb. Rəhmətlik qırğı olub. Bir dənə də şeiri var:

Uçan quşu göydə duman saxlayır.

Əsl qırçı qapıda tiyan saxlayır,

Nazir: - Hə, hə şair. Nə fərqi var e. Yazanmış da.

Süpürgəçi: - (ağlamsınır) Otuz ildir ki, gedib.

Nazir: - Hara?

Süpürgəçi: - Rəhmətə.

Nazir: - Rəhmət haradı? Çox uzaqdı?

Süpürgəçi: - Rəhmətə gedib. Yəni ölüb, həlak olub, vəfat edib.

Nazir: - Az, indi deyirsən gedib o tərəflərdə evlənib eləyər, hə? Qısqanırsan, hay?

Süpürgəçi: - Ey, nə evlənmək, Allah bilir indi sümükləri də çürüyüb rəhmətliyin.

Şeri poema sayan, şairi bəstəkar bilən Nazirirn sözlərindən onun vəzifə kreslosunda necə " əyləşməsi" bəlli olur. Səviyyəsizlərin bəzən səviyyəsinə uyğun olmayan səviyyəli yerlərdə əyləşərək vəzifə icra etmələri vəzifə sahiblərinin özlərinə gülünc görünməsə də, kənardakılara gülünc görünür. Təəssüf ki, həmin insanlar özləri düşdükləri gülünc vəziyyəti

görmürlər, ya da görmək istəmirlər.

Heç bir əziyyət çəkmədən hazırın naziri olmaq, heç bir zəhmətə qatlaşmadan milyonlara sahib olanlar, pula, vəzifəyə hərislik göstərənlər, harınlayanlar, bütün bunlarla yanaşı, ən adi insani ünsiyyətdən, mədəniyyətdən məhrum olanlar, özlərində bütün bu mənfi keyfiyyətləri cəmləşdirənlər V.Əhmədin "Hazirə Nazir" komediyasında gülüş içərisində faciə dolu təbəssümlə ifşa olunurlar.

Komediya janrında qələmini sınayan V.Əhmədin " Hazıra nazir" klmediyası bir daha bizi ətrafa daha iti baxışlarla baxmağa, insanları dərindən tanımağa çağırır. Bu çağırış təkcə bir insanın deyil,yüzlərin çağırışıdır. Axı bu, bu kimi digər hadisələr gündəlik həyatımızdan yan keçmir. O, elə həyat qəribəliklərinin özündədir, öz aramızda, sıramızdadır.

C) Publisistikasının bədii məziyyətləri

Publisisttka ədəbiyyatımızda özünəməxsusluğu ilə seçilir və böyük salnamə təşkil edir. Milli-publisistika tarixinə nəzər salarkən ilk növbədə araşdırılması, öyrənilməsi zəruri olan şəxsiyyətlər gözlərimizin önündən keçir. Belə ki, publisistikamızın inkişafında tənqidçi, filosof, tarixçi və ədəbiyyatşünasların əvəzsiz xidmətlərini ön plana çəkmək lazımdır. Ədəbiyyatımızda publisistikamızın ilk nümunələrinə hələ Mirzə Fətəli Axundzadənin yaradıcılığında rast gəlirik. 1905-1907-ci illər dövründə və Oktyabr çevrilişi ərəfəsində Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, F.B. Köçərli, M. S. Ordubadi, M. S. Pişəvəri, T. Şahbazi və başqaları siyasi publisistikanın dəyərli nümunələrini yaratmışdılar. Ümumiyyətlə, tarixi təcrübə baxımından publisistika bütün zümrədən olan qələm sahiblərinin yaradıcılığında mübariz ədəbi forma kimi mühüm əhəmiyyət daşıyır. Publisistikada vətənpərvərlik hissi, qəhrəmanlıq ruhu, sədaqət, düşmənə qarşı amansızlıq motivləri həmişə düşündürücü, qüvvətli olmuşdur.

Publisistik yazıları ilə formaca zəngin, məzmunca gözəl nümunələr araya-ərsəyə gətirmiş iti qələmli Vüqar Əhmədin

bu sahədəki geniş fəaliyyətinin tədqiqi, onun publisist kimi yazdığı əsərlərinin ideya-bədii məziyyətlərini araşdırıb üzə çıxarmaq heç şübhəsiz ki, çox faydalıdır. Müəllifin publisistik məqalələri mövzu genişliyi, obrazlılığı və çoxşaxəliliyi ilə seçilir.

V.Əhmədin publisistikası Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələrinin üzərində inkişaf etmiş, ictimai həyat həqiqətlərini əks etdirmişdir. Onun publisisttk yazılarında ədəbi dil rəvandır, axıcıdır, səlistdir.

Vüqar Əhmədin "Elmi-filoloji qaynaqlar, ədəbi simalar haqqında düşüncələr" kitabında toplanan yazılar içərisində «Hələ bunlar nədir ki…» adlı ilk publisistik məqaləsi tələbəlik dostu, BDU-nun jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor, əməkdar jurnalist Şamil Vəliyevin 50 illiyinə həsr edilmişdir. Olduqca səmimi duyğularla, incə hisslərlə qələmə alınmış yazıda Şamil Vəliyevin həyati gerçəkliklər zəminində dəyərli elm adamı kimi yetişməsini izləyə bilərik.

İlk növbədə müəllif tələbəlik sirdaşı Şamil Vəliyevlə 30 illik dostluğundan söhbət açır. Eyni vaxtda aspiranturada oxuduqlarını qeyd edir. Vüqar – rəhmətlik Xeyrulla Məmmədovun, Şamil isə Kamil Talıbzadənin rəhbərliyi altında çalışırdılar. Bir yerdə Axundov kitabxanasında gecə-gündüz material toplamaq, bulvarın içini o baş, bu başını gəzərək ölçmək, sonra isə körpü ətrafında çay içərək söhbət etmək...

Şamil Vəliyevin mərhum akademik Kamal Talıbzadə elm məktəbinin layiqli yetişdirməsi olduğunu qeyd edən professor Vüqar Əhməd yazır:

«Şamilin məncə üç kitabı var: «XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri (1895-1917)», «Fyuzat ədəbi məktəbi» və Nizaməddin Şəmsizadə haqqında – «Azərbaycanşünas alim». Hər üç əsər elmi-nəzəri kamilliyi, problemin həlli, orijinal üslubu ilə diqqəti cəlb edir. Şamil Vəliyev faktoqraf alimdir. Bütün elmi müddəalarında faktlara söykənir. Onun araşdırmalarında sözcülük və çürükçülük yoxdur. Şamil ildə say artırmaq üçün kitab sərgiləyən müəlliflərdən

deyil. Müasir aforizmlə desək: «Az yazır, saz yazır». (18, 5)

Məqaləni oxuyana qədər düzü biz Şamil müəllimin şair olduğunu bilmirdik. Bu işin səbəbkarı məhz Vüqar Əhmədir və onun dostuna sədaqətindən irəli gəlir. Şairin mahnı ruhlu şeirlərini seçib məşhur cütlük – Nailə və Hikmət Mirməmmədlilərə təqdim edir. Rəhmətlik Hikmət və Nailə xanım bu sözlərə mahnılar bəstələyirlər. Vüqar həmin mahnılardan ibarət konsert çəkdirir və belə ad verir: «Musiqi proqramı, sözləri Şamil Körpülünündür». Beləcə, həm də nəğməkar şair kimi tanınır.

Hər bir alimin elm dünyasında zirvə nöqtəsi var. Vüqar Əhmədin sözləri ilə desək Şamilin şah əsəri «Fyuzat ədəbi məktəbi»dir. Bizcə, illər uzunu müxtəlif səbəblərdən arxivlərin bir küncündə qalmış, ədəbiyyat tariximiz üçün mühüm olan mövzunu Şamil Vəliyev üzə çıxartdı. Akademik Kamal Talıbzadənin əsər haqqında fikirləri olduqca qiymətlidir: «İnamla deyirəm ki, Şamilin əsəri ölkəmizdə sivil xalq, bütöv Vətən, müstəqil dövlət, azad cəmiyyət uğrunda mübarizə aparan həmvətənlərimiz və intellektual çevrənin adamları üçün qiymətli mənbə rolunu oynayacaqdır». (18, 7-8)

Vüqar Əhməd tərəfindən yazılmış məqalə bədii publisistikamızda bir nümunə kimi diqqətçəkəndir. Biz bu yazıya cəsarət edib «Dost publisistikası» adını verərdik.

Rəşid bəy Əfəndiyev və maarifçi-realist ədəbiyyat

Qədim və möhtəşəm tarixi olan Azərbaycan ədəbiyyatının müasir mərhələdə mükəmməl şəkildə bütöv mənzərəsini yaratmaqdan ötrü zəngin ənənələrə, kök və qaynaqlara söykənən milli ədəbiyyatımız yenidən araşdırılır. Nəticədə ədəbi elmi fikrin inkişafı və zənginləşməsi ədəbiyyat tariximiz naminə alimlərimiz tərəfindən işlənilərək ortaya yeni-yeni elmi əsərlər qoyulur. Bu baxımdan tədqiqatçı Səkinə Adil qızı Bayramovanın «Azərbaycan maarifçi-realist ədəbiyyatının inkişafında Rəşid bəy Əfəndizadənin rolu» mövzusundakı namizədlik dissertasiyasını xüsusi qeyd edən Vüqar Əh-

məd yazır: «Dissertasiyanı elmi-publisistik dillə təhlil edən alim həmkarının apardığı tədqiqata yüksək qiymət verir, görkəmli şair, nasir, dramaturq, publisist və ədəbiyyatşünas Rəşid bəy Əfəndizadənin maarifçi-realist ədəbiyyatın inkişafında rolu haqqında müəllifin dəyərli monoqrafik əsər qələmə aldığını vurğulayır.

«Çağdaş Tehran mətbuatında Pişəvəri haqqında xatirələr»

Vüqar Əhmədin haqqında söhbət açdığımız «Çağdaş Tehran mətbuatında Pişəvəri haqqında xatirələr» publisistik məqaləsində müəllif görkəmli dövlət xadiminin müxtəlifyönlü fəaliyyətini bir daha yada salaraq yazır: «Cavadzadə (Pişəvəri-V.Ə) memuar janrını özünün siyasi-ictimai motiv və məzmunu, müxtəlif çalarlı, zahiri və daxili portret cizgili obrazları ilə zənginləşdirən xatirə-povestin, hələlik əldə olmayan, lakin yazıldığına şəhadət verilən bir neçə nəsr əsərinin müəllifidir. Nəhayət, M. S.Pişəvəri siyasi-ictimai mətbuat tariximizdə prinsipial, obyektiv və qüdrətli publisist, bacarıqlı redaktor kimi layiqli yer tutur. Onun publisist, mühərrirlik fəaliyyəti iki başlıca dövrü əhatə edir. Həmin dövrün birinci mərhələsi aprel çevrilişindən əvvəlki və sonrakı illəri əks etdirir. Publisist fəaliyyətinin ikinci dövrü 1943-cü il mayın 23-dən başlayır və 1946-cı ilə qədərki dövrü əhatə edir». (18, 52)

Publisistik yazıda alim M.C. Pişəvərinin «Ajir» qəzetinin nəşri üçün apardığı axtarışlar nəticəsində 1943-cü ildə çoxmilyonlu oxuculara təqdim olunduğunu, üç ilə yaxın nəşr olunan mətbuat orqanının İranın mütərəqqi mətbuat tarixində özünəməxsus görkəmli yer tutduğunu qeyd edir. Qəzetidə Pişəvəri ilə birgə fəaliyyət göstərən Kərim Keşavərzin «Ajir»in səhifələrində qələmə aldığı məqalələri ilə yanaşı rus ədəbiyyatından tərcümələri ilə yadda qaldığını önə çəkən müəllif yazır: «Bu yaxınlarda K.Keşavərzin Tehranda 1997-ci ildə çap olunan 2000-ci sayı «Buxara» jurnalının əlimizə

keçdi. Məqalənin adı «Pişəvəri haqqında xatirələr» adlanır. Xatirələr K. Keşavərzin sağlığında öz səsi ilə lentə alınıb. K.Keşavərz 1984-cü ildə dünyasını dəyişib. Ümidi adlı şəxs tərəfindən alınmış bu xatirələr Nemət Laleyi tərəfindən yazıya alınaraq kiçik təqdimatla «Buxara» jurnalının naşiri ağaye (cənab - V.Ə.) Əli Dehbaşiyə ünvanlanıb. Xatirələr farsca çap olunurdu. Xatirələrin Pişəvəri irsini və Cənub tariximizi, ədəbiyyatımızı, mətbuatını araşdıran bir şəxs kimi mənim üçün və ümumiyyətlə, oxucular üçün maraqlı olduğunu nəzərə alıb bir Pişəvərişünas kimi lazımlı bilib farscadan dilimizə çevirdim». (18, 53-54)

Filologiya elmləri doktoru, professor Vüqar Əhməd xatirələri olduğu kimi oxuculara təqdim edir.

Kitaba həmçinin «Əli Xələfliyə ədəbi məktub» bədii-publisistik, «Arzum-arzuların, Arzumanlı, çin olsun! Vaqif Arzumanlı», «Öz taleyinin «son zəng»ini vuracağını duyan şair». (Adil Əsgər), «Qarşıda Günəşli bir gündüz qalıb». (Sərdar Zeynal) - 60 yaşın mübarək! (Hacı Madər Musayev) publisistik yazıları daxil edilib.

Alimin «Ədəbi qaynaqlar yeni baxımdan tədqiq edilməlidir» bədii-publisistik məqaləsi mühüm səciyyə daşıyır. Məlumdur ki, bütün dünya xalqlarının mənəvi aləminin zənginləşməsində ədəbiyyat və incəsənəti xüsusi əhəmiyyət kəsb edir. Sırf bədii publisistik dildə yazılmış müəllif Azərbaycan müstəqillik qazandıqdan sonra ortaya çıxan reallıqlar baxımından sovet dövründə tədqiqat obyekti kimi təhlil edilən ədəbi irsimizi çağdaş dəyərlər sistesini yenidən araşdırılmasını vacib sayır. Məhz 1991-ci ildən başlayaraq yazılan dissertasiyalar, yeni ruhda aparılan araşdırmalar ədəbiyyatımızın birbaşa tədqiqi ilə əlaqədar qələmə alınmış əsərlərə yeni dəyərlər bucağından baxılaraq təhlil olunduğunu, elmi həllini tapdığını bildirən alim yazır: «Müstəqilliyimizi əldə etdiyimiz bu on beş ildə Azərbaycan ədəbi-nəzəri fikri ideoloji qadağalar olmadan sərbəst inkişaf etmişdir. Hər sahədə olduğu kimi əbədiyyatşünaslıq elmimiz üçün də geniş imkanlar açılmışdır. Sovet dövründə olduğu kimi yenə də Azərbaycan

MEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, o cümlədən ali məktəblərimizin ədəbiyyat kafedralarının əməkdaşları ədəbi-mədəni irsin tədqiqi ilə məşğul olmaqdadırlar. Yenidən Azərbaycan ədəbiyyatı fundamental şəkildə yeni baxışlarla araşdırmalı, onun ayrı-ayrı görkəmli nümayəndələrinin elmi və bədii yaradıcılığı öyrənilməli, nəzəri məsələlər, ədəbi əlaqələr, eləcə də ədəbi abidələr və klassiklərin vaxtilə sosializm realizmi ruhunda olan əsərləri, həmçinin qəti qadağan olunmuş bədii nümunələr nəşr olunmalıdır». (18, 184-185)

«Vətən dili» keçmişimiz, bu günümüz adlanan ədəbi publisistik dildə yazılmış məqalədə Vüqar Əhməd «Vətən dili» dərsliyinin I və II hissələri AMEA-nın M. Füzuli adına ədəbiyyat əlyazmaları institutunun Elmi Şurasının qərarı ilə latın qrafikalı əlifbası ilə çap olunmasını mühüm hadisə hesab edir. Tərtib transponoliterasiya, öz söz, qeyd şərhlər, sözlük və cədvəllər istedadlı şərqşünas alim Vüqar Aydın oğlu Qaradağlıya məxsusdur. Elmi redaktorlar akademik Vasim Məmmədəliyev və AMEA-nın müxbir üzvü Tofiq Hacıyevdir.

Böyük zəhmətin, yuxusuz gecələrin nəticəsidir ki, Vüqar Qaradağlı «Vətən dili» dərsliyini xalqımıza, ədəbi ictimaiyyətimizə çatdırmaqla akademik iş görmüşdür. Belə bir mötəbər tarixi əsəri hasil edən Vüqar Qaradağlı böyük elmi institutların görə bilmədiklərini təkbaşına meydana gətirə bilmişdir. Nə yaxşı ki, Vüqar Əhməd bu məqaləni yazdı. Ürəyimizdən müəyyən tikanları çıxartdı, «Vətən dili» dərsliyinə yüksək dəyər verdi.

«Vətən dili» haqqında yüksək fikir bildirənlər də olub.

Möhtəşəm, əvəzsiz əsəri haqqında Vasim Məmmədəliyev və Tofiq Hacıyev kimi qüdrətli alimlər əsl özlərinin ziyalı mövqelərini bildiriblər. Amma bildirəcəkləri sözünü Vüqar Əhməd eyhamla dilə gətirir. Bu gün ali məktəblərin filologiya və ibtidai təhsil fakültəsində bakalavr, eləcə də magistr təhsili alanlara. «Vətən dili»ndən mühazirələr oxunmalıdır. Onlara bu nəşr dərs vəsaiti kimi tövsiyə olunmuşdur. «Mən deyərdim «Vətən dili» ilk dərsliklərimizdən olduğundan onda müqəddəslik var. «Vətən dili» bizə doğmadır. Bu qiyabi

doğmalığı əyaniliyə çevirən V. Qaradağlıya elmi ictimaiyyətin hər bir nümayəndəsi, eləcə də soydaşları öz şükranlarını bildirir və bildirəcəklər». (18, 242)

Məqalənin sonunda alim Vüqar Qaradağlıya müraciət edir: «Vüqar, adaşım, qardaşım, qələmdaşım, nəhayət soydaşım, vətənini sevən, təəssübkeş vətəndadşım. Böyük iş görmüsən. Böyük alimlər də işinə qiymət verib. Hələ veriləcək də. Allah bu xidmətini mükafatlandıracaq, dövlət də, xalq da və nəhayət tarix də… Ulu baban H. Qaradağlının – ədəbiyyat tariximizə, atan Aydın Qaradağlının dünyanın ən məlahətli avazı səs yaddaşımıza həkk olunub. Sənin bu işlərin, geniş erudisiyan, yaradıcılığının geniş coğrafiyası məni sevindirir. Vaxt gələcək sənin də haqqında yazılacaq, əsərlərin XXI əsrdə çap olunacaq. Ot kökü üstə bitər. Ata nəslin H. Qaradağlı, ana nəslin C.Cabbarlıya ilişkilidir. Hər iki şəcərən şərəflidir. Özü də şərəfli yol tutmusan. Vaxt gələcək balaların fəxr edəcək.

«Vətən dili» bizim azəri türkcəmizdir. Dünyadakı 50 milyonluq soydaşlarımızın canları qədər sevdikləri Azərbaycan dilidir. Qeyd etdiyim kimi, «Vətən dili» hamımıza doğmadır, müqəddəsdir». (18, 242-243)

H.X.Qaradağski (Qaradağı): «Fələyin bir belə dövrü olacaqmış…» ədəbi publisistik məqaləsini (18, 84-89) Vüqar Əhməd XIX əsrin ikinci yarısında fəaliyyətə başlayan tanınmış maarifçi, şair, ədəbiyyatşünas, pedaqoq, aktyor, tərcüməçi (Həsənəli ağa Xan Qaradağlıya) həsr edib.

Məlumdur ki, H.X. Qaradağlı (əslində Qaradağski V.Ə.) - 1850-ci ildə sentyabrın 25-də qədim Şuşada anadan olub. Həsənəli ağa 8-9 yaşlarında ikən Şuşadakı qəza məktəbində oxumağa başlayır. Təhsil alayında dərslər rus dilində keçirildiyi üçün Həsənəli qısa bir vaxtda rus dili və ədəbiyyatını mükəmməl şəkildə əxz edir.

1866-cı ildə qəza məktəbini qurtaran Həsənəli ağa Şuşada «Təzə» məhəllədə bir otaqlı ev kirayələyərək müstəqil şəkildə yaşamağa başlamışdır. O, fars, ərəb dillərini öyrənir, bir müddət M. Ə. Yusifzadədən dərs alır. Müqəddəs Qurani-

Kərimi, dini kitabları, Azərbaycan və Şərq klassiklərini (fars dilli) orjinalda, sərbəst şəkildə oxumağa başlayır.

Həsənəli ağa bacarıqlı pedaqoq kimi Şuşada müəllimlik edir, qohum-qonşu uşaqlarına dərs deyir. Şuşada ilk dəfə olaraq parta və yazı taxtasından istifadə edib dərs keçən Həsənəli idi. Qaradağı ilk Azərbaycan müəllimi olmuşdur.

H.X.Qaradağı Şuşa ədəbi mühitinin öndə gedən, nüfuzlu simalarından sayılmış, «Xandəmirov teatr»ında müxtəlif xarakterli rollar yaratmış, «Məclisi-üns»də yaxından iştirak etmiş, «Məclisi-Fəramuşan» ədəbi məclisinin ən fəal üzvü olmuş, yazdığı lirik qəzəllərin, şeirlərin bir neçəsini Mirmöhsün Nəvvabın «Təzkireyi-Nəvvab» kitabında dərc etdirmişdir.

Vüqar Əhməd məqalədə o dövrün mütərəqqi ziyalısı H.X. Qaradağının çoxşaxəli fəaliyyətinə bir daha işıq salır: «XIX əsrin 70-ci illərində ictimai həyata qədəm qoyan H.X. Qaradağı həm tərcümələri, həm lirik qəzəlləri, uşaq əsərləri, aktyorluq fəaliyyəti, ədəbiyyatşünaslığa dair araşdırmaları ilə Azərbaycana varlığıyla xidmət etmiş maarifçi ziyalılardan biridir. Çox yaxşı haldır ki, 2003-cü ildə «Azərbaycan milli ensiklopediyası» tərəfindən ədibin şeirləri, təmsilləri, tarixi salnamə, həyat və yaradıcılığı ilə bağlı araşdırmalardan ibarət «Fələyin bir belə dövrü olacaqmış…» adlı kitab yüksək bədii tərtibatla nəşr olunmuşdur. «Öz söz» Vüqar Qaradağlı, tərtib Raqub Kərimova aiddir». (18, 89)

D) «Novruz», «Min bir mahnı», «Sənət dünyası» qəzetilərinin, «Azərbaycan dünyası» nəşriyyatının baş redaktoru, mühərrir Vüqar Əhməd

«Novruz» qəzeti

Vüqar Əhmədin yaradıcılıq yolunda mətbuat sahəsindəki fəaliyyəti xüsusi yer tutur. «Novruz» qəzeti qeyd edim ki, Azərbaycanın xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin orqanı kimi fəaliyyətə başlayıb. Onda Vüqar Əhməd və bu sətirlərin müəllifi Müşfiq Cabiroğlu həmin

cəmiyyətdə birgə çalışırdıq. Bir otaqda əyləşirdik. Sədrimiz xalq şairi, mərhum Nəbi Xəzri idi. Vüqar Əhməd cəmiyyəti ədəbi, bədii, publisistik nəsri olan «Novruz» qəzeti ilə müntəzəm şəkildə əlaqəyə başladı. Bir-birinin ardınca onun «Novruz» qəzetində müxtəlif çəpkili məqalələri dərc olundu. Tez bir zamanda çalışdığı cəmiyyətdə Vüqar Əhməd jurnalistik bacarığına, ziyalı mövqeyinə, nizam-intizamına görə mahir qəzetiçi kimi böyük hörmət qazandı. Nəbi Xəzri istedadlı qələm sahibini 1993-cü ilin yanvar ayının 15-dən etibarən baş redaktor əvəzi, elə həmin ilin mart ayının 4-dən etibarən isə yeni adda fəaliyyət göstərən «Azərbaycan dünyası» beynəlxalq əlaqələr mərkəzinin mətbu orqanı olan «Novruz» qəzetinə baş redaktor təyin etdi. Qəzetin tutduğu mövqe qalmaq şərtilə oxucu dairəsi genişləndi. Vüqar Əhmədin apardığı genişmiqyaslı iş nəticəsində qəzetin tiracı 5000 nüsxəyə yüksəldi. Bu o dövr üçün böyük rəqəm idi. Qəzetin səhifələrində yeni rublikalar yarandı, yeni müəlliflər cəlb edildi. Qarabağ dərdi, Qarabağ ağrısı, Qarabağ həqiqətləri qəzeti səhifələrində bütün dünyaya yayıldı. Gənc ədəbi quvvələrin qələmə aldıqları şeirlər, xaricdə fəaliyyət göstərən həmvətənlərinin həyatı, elm, sənət xadimlərinin haqqında portret yazılar məhz redaktorun işgüzarlığı nəticəsində «Novruz» qəzetində işıqlandırıldı. Tez bir zamanda qəzeti oxucuların diqqətini cəlb etdi. Məqalələrin mövzu və əhatə dairəsi genişləndi. Baş redaktorun apardığı səmərəli iş müqabilində Güneyli-Qüzeyli Azərbaycanın bütövlükdə dünya azərbaycanlıları arasında «Novruz» qəzeti körpü roluna döndü.

«Min bir mahnı» qəzeti

2002-ci ilin avqust ayından başlayaraq Vüqar Əhməd «Min bir mahnı» qəzetinin redaktoru qismində fəaliyyətini davam etdirdi. Qəzetin yaranmasının əsas səbəbkarlarından biri də məhz tanınmış jurnalist Vüqar Əhməd oldu. Mədəniyyətimizin, incəsənətimizin təbliğ olunması qarşıya əsas məqsəd kimi qoyuldu. Bütün bunlara tədqiqatçı-curnalist

Alim Nəbioğlu «Vüqar Əhmədin söz dünyası» kitabında gözəl şərh edir:

«2003-cü ilin fevral ayından isə V.Əhməd «Min bir mahnı» qəzetinin baş redaktorudur. Qəzetidə dərc olunan hər bir məqaləyə, hər bir yazara, oxucuya tələbkarcasına yanaşan V.Əhmədin qəzetin səhivələrində Ə.Vahidin, İranlı Savalanın, Alim Qasımovun, Aqşin Babayevin, professor N. Xudiyevin, akademik Vasim Məmmədəliyevin həyat və yaradıcılığı haqqında dolğun yazıları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır».

Onu da qeyid edim ki,"Min bir mhnı " qəzetinin mətbu orqanlar içərisində tanınmasında V.Əhməd şəxsiyyətinin rolu danılmazdır. Belə ki bu gün "Min bir mahnı"nı başda elit kütlə olmaqla hamı oxuyur . Alimlərimiz, musiqiçilərimiz, elm xadimlərimiz, səhnə ustalarımız böyük həvəslə "Min bir mahnı " qəzetini oxuyur, hər bir nömrəsini səbirsizliklə izləyir.

V.Əhməd baş redaktor kimi qəzetidə Cənubi Azərbaycan mədəniyyətinə və incəsənətinə xüsusi yer ayırır və müntəzəm olaraq unudulan,dünyadan köçən, eləcə də o tayda yaşayan şeir, sənət fədailərimizin yaradıcılığını bu taylı soydaşlarımıza təqdim edir.Gənc qələm sahiblərinin ilk qələm təcrübələrinə yiyələnmək, duyğularını oxucularla bölüşmək yolunda onlara yardımçı olur.

Özü, qələmi, sözü, əqidəsi kimi təmənnasız. (3, 104-105)

«Sənət dünyası» qəzeti

Qəzeti təsis etmək, onu qurub-yaratmaq, başında dayanmaq, oxucu audiğoriyası yaratmaq olduqca çətin prosesdir. Filologiya elmləri doktoru, professor, mətbuat sahəsində kifayət qədər təcrübəsi olan Vüqar Əhməd bu ağır yükü çiyinlərində dostluq iqtidarında olduğun bilərək «Sənət dünyası» qəzetini təsis etdi. 2008-ci il fevral ayının 29-da «Sənət dünyası» ədəbi-publisistik qəzetinin ilk sayı «Təsisçidən» yazısı ilə açılır.

Qəzetin ilk sayından başlayaraq dərc olunmuş yazılar. «Anam mənim yox daha!» (şeir Vüqar Əhmədin anası Hacı Almaxanımın unudulmaz xatirəsinə həsr olunur - M.C), «Əkinçiyə məktub», «Orxan Yenisey ailələri türk mədəniyyətinin mənbəyidir», «Müsabiqələr bizə nə verir», «Muğam», «Dahi bəstəkar», «Rəssam ömrü», «Səhnəmizin ilk çadrasız müğənnisi», «Xətai təxəllüsü necə yarandı», «Bəşər tarixinin ən qanlı səhifələri», «Kövrək qəlbin pıçıltısı», «İslam kişilik, ərlik, qeyrət rəmzidir» və başqa müxtəlif mövzulu məqalələr və s. «Sənət dünyası» qəzetinin tutduğu inamlı yolun təzahürləridir.

Mühərrir Vüqar Əhməd

«Azərbaycan dünyası» nəşriyyatının baş redaktoru işlədiyi dövrdə, bir mühərrir kimi Vüqar Əhməd dahi şairimiz Nizami Gəncəvinin 850 illik yubileyi münasibətilə şairin qəzəllərini ilk dəfə olaraq (eyni qəzəlləri) müvazi şəkildə latın və kiril qrafikası ilə hazırlanmış və onun redaktorluğu, həm də şəxsi vəsaiti hesabına çap olunub, geniş oxucu kütləsinə təqdim edilmişdir… «Səhər» qəzetiinin 19 mart 1993-cü il sayında «Borçalılara hədiyyə» adlı bir xəbər dərc edilmişdir:

«Azərbaycan dünyası» nəşriyyatının baş redaktoru Vüqar Əhməd özünün yenicə çapdan çıxmış kitablarından 200 nüsxəsini borçalılara hədiyyə vermişdir. Eyni zamanda, nəşriyyat işçisi olaraq onun təklifi və mənəvi köməkliyi, dəstəyi nəticəsində bir çox müəssisələrin şeir, hekayə, roman, elmi əsərləri toplanıb küll şəklində oxuculara çatdırılmışdır. Yaradıcılığı dövründə nə qədər kitablara, monoqrafiyalara, dərs vəsaitlərinə ön söz yazmış, redaktoru olmuş, ədəbi-bədii məqalələri toplularda yer almışdır.

IV FƏSİL

V.ƏHMƏD MUSİQİ TƏDQİQATÇISI KİMİ

«Musiqi ruha qidadır» – belə deyib müdrik babalarımız. Hər dəfə qəlbə toxunan, ürəyi ovsunlayan musiqi dinləyəndə insan mənən zənginləşir, daxili aləmi sakitləşir, özünü əlçatmaz, ünyetməz zirvədə hiss edir. Böyük mütəfəkkir Əbdi bəy Şirazi musiqiyə belə qiymət vermişdir: «Musiqi cana səfa və ürəyə şəfa bəxş edəndir"

Musiqi duyumu, musiqi hissiyyatı güclü olan şəxslərin iç dünyasında musiqiyə tükənməz bir sevgi, ilahi bir baxış var. Ta körpəlikdən tutmuş, yaşlı vaxta qədər bizləri musiqi yaşadır.

Vüqar Əhməd tükənməz yaradıcılıq yolunda müsiqi tədqiqatçısı kimi sözün həqiqi mənasında mühüm işlər görmüşdür. Bu sahədə tədqiqatçı yorulmadan çalışmış, musiqi dünyamıza «Şahnaz sədası» oçerklər toplusunu, «Urəyimdə oxuyuram», «Səsi Quran sədasıdı» kitablarını, «Azərbaycan oğluyam» fundamental məqaləsini, həmçinin muğam, xanəndəlik sənəti, müğənnilər ilə bağlı xeyli yazılar bəxş etmiş, özündən əvvəlki tədqiqatçıları yaxşı mənada geridə qoymuşdur.

Onun apardığı tədqiqatlar qədim tarixi köklərə söykənən muğam sənətimizdən də yan keçməmiş, bu sahənin inkişafına öz qiymətli töhfələrini vermişdir. Onun «Muğam düşüncələrim» publisistik məqaləsi və xalq artisti, sağlığında klassikləşən, əvəzsiz sənətilə muğamımızı dünyanın bir çox ölkələrində tanıdan, muğamdan dərs deyən pedaqoq Firuz Əliyevin həyat və yaradıcılığına həsr etdiyi «Əfsanəvi tarzən» monoqrafiyası dediklərimizin sübutudur.

A) «Şahnaz sədası» oçerklər toplusu

Tanınmış musiqi tədqiqatçısı Vüqar Əhmədin «Şahnaz sədası» kitabı 1994-cü ildə «Şərq-Qərb» nəşriyyatında işıq üzü görüb. Toplunun redaktoru və ön sözün müəllifi unudulmaz

alim, pedaqoji elmlər doktoru B. Abbaszadə kitab barəsində səmimi fikirlərini belə ifadə edir: «Vüqar Əhmədin oxuculara təqdim olunan kitabındakı oçerklər sənətçilərimizin qeyri-adi ömür yollarına baxışlardan doğan qələm məhsullarıdır. Səmimi münasibət, dərin məhəbbət, musiqi duyumu, musiqi sərvətimizin zənginliyindən və ifaçıların məharətindən doğan heyrət yazıların başlıca məziyyətlərindəndir. Azərbaycan musiqi ifaçılığı ilə bağlı bir çox yazılar yazılıb və bunlar sonrakı nəsillər üçün musiqi mədəniyyətimizin öyrənilməsində mühüm rol oynayan qaynaqlandandır. «Şahnaz sədası» adlı bu kitabın da belə bir olacağı ümidilə onu Sizə təqdim edirik». (28,4)

Kitab araya-ərsəyə gəldikdən sonra musiqi ictimaiyyətimizin böyük marağına səbəb oldu. Qəzet səhifələrində əsər barədə yazılmış məqalələr yer aldı.

Şahnaz sədası

Son vaxtlar kitab nəşri tale yüklü məsələyə çevrilib. Bazar iqtisadiyyatının amansız qanunları, qiymətlərin tuğyan etdiyi bir dövrdə kitab buraxmaq nəcib iş, əvəzsiz xidmətdir. Belə bir nəcib işi «Şərq-Qərb» nəşriyyatı öz üzərinə götürüb. Yaxın günlərdə nəşriyyatda tanınmış musiqişunas, filologiya elmləri namizədi, milli televiziyamızın musiqi redaksiyasının baş redaktar müavini Vüqar Əhmədin nəfis tərtibatda «Şahnaz sədası» kitabı işıq üzü görüb. Kitabın redaktoru və ön söz müəllifi pedaqoji elmlər doktoru Balaş Abbaszadədir. O, kitab haqqında fikirlərini belə ifadə edir: «Xalqın mənəvi sərvəti ona musiqimizin yaşaması, təbliği və inkişafında musiqiçilərimizin əməyi böyük, rolu misilsizdir. Onların həyatı bir sıra musiqidə bir özgə qüvvət alaraq günəş kimi hərarət verir …".

Topluda tədqiqatçının müxtəlif illərdə qələmə aldığı məqalələr verilir. İyirmi iki incəsənət xadimindən bəhs edən

kitabın ilk yazısı dünya şöhrətli müğənni, əvəzi olmayan Zeynəb Xanlarovaya həsr olunub. Daha sonra mərhum xanəndəmiz Əbülfət Əliyevə, müğənni Niyaməddin Musayevə,Habil Əliyevə, Məmmədbağır Bağırzadəyə, Şamo İsayevə, Şəfiqə Eyvazovaya, Munis Şərifova, Oktay Kazımova, Vamiq Məmmədəliyeva, Ağasəlim Abdullayevə və digər musiqiçilərin yaradıcılıq yollarına həsr edilən məqalələrdə müəllif onların mədəniyyətimizə bəxş edikləri sənət incilərindən söz açır.

Onu da qeyd etmək vacibdir ki, kitabın içində hər bir sənətkarın foto-əksi verilib .

İnanırıq ki, alim Vüqar Əhmədin sayca səkkizinci kitabı olan "Şahnaz sədası" bədii publisistikamızda, musiqişunaslıqda özünə layiqli yer tapacaqdır. Bu yolda müəllifə yeni-yeni uğurlar diləyirik.

Müşfiq CABİROĞLU

"Yeni Azərbaycan" qəzeti, 5 avqust 1999-cu il. (29,204)

«Ürəyimdə oxuyuram»

Vüqar Əhmədin «Ürəyimdə oxuyuram» (müştərək) 2003-cü ildə «MBM» nəşriyyatında işıq üzü görən kitabı görkəmli xanəndə, xalq artisti Hacı Tələt Qasımovun anadan olmasının 70 illiyinə, həyat və yaradıcılığına həsr olunub. Kitabın redaktoru və ön sözün müəllifi akademik Vasim Məmmədəliyev, rəyçi isə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadədir.

Əsərdə həmçinin xalq yazıçısı Elçinin, xalq rəssamı Kamil Əliyevin, akademiklər Mirməmməd Cavadzadənin, Fuad Qasımzadənin, Ziyad Səmədzadənin, millət vəkilləri Hacı Madər Musayevin, Hacı Qalib Salahzadənin, Ərəstun Cavadovun, iş adamı Sabir Abdullayevin, Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Teymurçin Əfəndiyə-

vin, AMEA-nın müxbir üzvü Kamal Abdullanın, İslam Universitetinin rektoru Hacı Sabir Həsənlinin, professorlar Fərahim Sadıqlının, Rafiq Sadıqovun və xalq artisti Ağaxan Abdullayevin və başqalarının yubiyara ürək sözləri, şairlərdən Hacı Mailin, Ənvər Nəzərlinin, Vüqar Əhmədin Hacı Tələtə həsr etdikləri şeirləri yer alıb.

Müəllif uşaqlıq dünyasından Tələt Qasımovun bənzərsiz səsinin vurğunu olduğunu, radiomuzda muğam saatı və xalq musiqisi konsertlərində görkəmli xanandənin heyrətamiz oxu manerasından böyük zövq və ləzzət aldığını qeyd edərək yazır:

«Mərhum atam danışardı və anam da təsdiqləyərdi ki, Tələt kimi növhə deyən yoxdur. Nəql edirdilər ki, baba (babam – V.Ə.) Məşədi Soltan Əhməd aşura günləri təziyə tutardı və mərsiyələri məhəllə adamı gənc Tələt deyərdi. 17 yaşlı gənc Tələt elə növhə, mərsiyə deyərmiş ki, sinəzənlər göz yaşını saxlaya bilməzmişlər». (29,129)

Vüqar Əhməd əsərdə xanəndənin ifaçılıq məziyyətlərindən söhbət edir: Onun «Şüştər»i, «Tərkibi», «Segahı», «Şuru», «Mahuru» özünəməxsus, orijinaldır. Tələt Qasımov ifaçılıq tarixində qızıl hərflərlə yazılan bir «Şüştər təsnifi" oxuyub, «Tərkib» şöbəsində elə boğazlar, elə improvizasiyalar, xırdalıqlar, nəfəslər vurub ki, tamaşaçını heyrətdə qoyur. «Segah»da öz yolu ilə bizi düşündürür. «Rast»da yüksək peşəkarlıq, ustalıq göstərir.

Bu yaxınlarda tarzən, əməkdar artist Firuz Əliyev, mən və Hacı Tələt Zərdaba bir məclisə gedirdik. Yol boyu Tələtə qulaq asırdıq. Heyrətimizi saxlaya bilmirdik. Firuzla bir-birimizin üzünə baxırdıq. - Ürəyimizdən bu sözlər keçirdi: - «Balam, kişi oxuyub da». Bu fikri baxışlarımız təsdiq edirdi.(29,130-131)

«Səsi Quran sədasıdı»

Musiqimizin yorulmaz tədqiqatçısı və təbliğatçısı Vüqar Əhmədin 2002-ci ildə «Araz» nəşriyyatında «Min bir mahnı»

silsiləsindən çap edilən «Səsi Quran sədasıdı» kitabı (müştərək) tanınmış müğənni Baloğlan Əşrəfovun həyat və yaradıcılığına həsr olunub. Kitab tanınmış sənətçilərimiz – xalq artistləri Zeynəb Xanlarova, Ağaxan Abdullayev, Habil Əliyev, Məmmədbağır Bağırzadə, əməkdar artistlər Nisə Qasımova, Brilyant Dadaşova, Tələt Qasımov, Möhlət Müslümov, müğənnilərdən Kəmalə Rəhimli, Süleyman Abdullayev, bəstəkarlardan Nəriman Məmmədov, Sevda Məmmədli, Cavanşir Quliyev, Gövhər Həsənzadə, xalq şairi Nəbi Xəzrinin müğənni haqqında fikirləri ilə başlayır. B. Əşrəfovun sənət dünyası, ailəsi, nəğmələri kitabda öz əksini tapmışdır. Bununla yanaşı müğənninin sənətə gəlişi zamanı ona olan haqsızlıqlar obyektiv şəkildə qələmə alınmışdır.

Kitabın naşiri «Min bir mahnı» kitabının tərtibçisi Rafiq Xan Sayad oğludur. Kitabda V.Əhmədin bir musiqi tədqiqatçısı kimi tənqidi qeydləri də öz əksini tapmışdır. (3,69)

"Hara tələsdin, qardaş"

Fəlsəfə elmləri doktoru, professor Tarıyel Əhmədovun «Azərbaycan oğluyam» kitabı, xalq artisti Məmmədbağır Bağırzadənin ölməz xatirəsinə həsr olunub. Yüz otuzdan çox sənət adamının qələmə aldıqları yazılar arasında Vüqar Əhmədin «Hara tələsdin, qardaş» məqaləsi öz dəst-xətti, ahəngdarlığı ilə seçilir. Məsələ burasındadır ki, digər yazılarda əsasən Məmmədbağır dünyasına, onun həyatdan vaxtsız gedişinə daha çox üstünlük verilir. Bu da təbiidir. Ona görə ki, kitab xatirə xarakteri daşıyır. Amma musiqi tədqiqatçısının məqaləsində mərhum sənətkarın çoxsaylı yaradıcılığı, həyat yolu demək olar ki, tamamilə təhlil olunur. Müəllif illər uzunu yaxından tanıdığı müğənninin sənətə gəlişini belə qələmə alır:

Məmmədbağırın bir ifaçı kimi yetişməsində, doğulub boya-başa çatdığı Nardaran kəndinin böyük təsiri olub desək, səhv olmaz. Uşaqlıqdan kəndin el şənliklərində Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov,

Hacıbaba Hüseynov, Yaqub Məmmədov kimi ustad sənətkarların səsini eşidib, hərəkətlərini izləmiş Məmmədbağır kəndlərindəki muğam bilicisi Hidayət Nəbiyevdən məsləhətlər alıb. Sonra elə Hidayət kişinin təşəbbüsü ilə «Dilkəş» özfəaliyyət ansamblını yaradıb. Bədii rəhbəri elə özü olub. Onun sənət aləminə ilk addımı dərnəkdə atılıb və bir sual məni maraqlandırırdı. «Dilkəş»lə ünsiyyətin tarixi qədimdir, ansablının adı «Dilkəş»dir, ən gözəl, ürəkdən gələn, şirin məlahətlə «Dilkəş» oxuyursan. Bunun sirri nədədir? İlıq təbəssümlə cavab verdi ki, «Dilkəş»i çox istəyirəm, elə ona görə.

Məmmədbağır gənclik illərində Əzizbəyov rayonu mədəniyyət evi nəzdində «Bahar» xalq çalğı alətləri özfəaliyyət ansablında da məşğul olub. Necə deyərlər, sənətdə ilk kövrək addımlarını burada atıb.

Məmmədbağır Bağırzadə müğənnilik fəaliyyətinə «Hümayun» ansamblında başlayır, Azərbaycan Dövlət Filarmoniyasının solisti olur. 1975-ci ildə ilk musiqi təhsili almaq üçün atası Məmmədəli kişinin təkidi ilə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin muğam şöbəsinə daxil olan Məmmədbağır xanəndə Əlibaba Məmmədovdan xalq musiqimizin incəliklərini əxs edir, ifaçılıq sənətinin sirlərini öyrənir.

Təhsil ocağını bitirən gənc sənətçi 1980-cı ildə Azərbaycan Dövlət Konsert Birliyinə dəvət alır, burada ömrünün sonuna qədər rəhbər olduğu «Dilkəş» ansamblını yaradır.

Məqalədə Vüqar Əhməd daha sonra yazır:

«Mahnı onun canıdır, həyatıdır. O, Məhəmməd Füzulini, Əliağa Vahidi hədsiz dərəcədə sevirdi… Azərbaycan qəzetiinin poetik imkanlarını, bədii-estetik dəyərlərini yaşatmış bu sənətkarların irsini dərindən mənimsəyir. «Ey dil, bu qara gözlünü dindirmə, xətadır» mətləli qəzəli, «Dilkəş» üstə elə məharətlə oxuyur ki, onun həmin məqamdakı qeyri-adi anını sözlə ifadə etmək çətindir».

O danışanda da nəğməsiz keçinə bilmirdi. Söhbət əsnasızda ən çox sevdiyi mahnıları özü də hiss etmədən, bəmdən, şirin bir məlahətlə oxumağa başlayanda buna zərrə qədər şübhə qalmır. Varlığı nəğmə ilə yoğrulub. Onun sənətə

bağlılığını, musiqi ilə nəfəs aldığını müasirləri olan müğənnilər də təsdiq edirlər. Axıcılıq və şirinlik milli musiqi köklərinə bağlılıq, mahnı mətni ilə musiqinin bir-birinə tamamlanması Məmmədbağır mahnılarına nəinki Azərbaycanda, eləcə də ümumtürk kontekstində maraq oyatmışdır. Bir faktı da oxuculara çatdırmaq yerinə düşərdi. Onun mahnıları azərbaycanlı müğənnilərlə yanaşı, türk müğənnilərindən Nəclə Akpen, Coşqun Sabah, Nəşə Qaraböcək, Müşərrəf Akay, Özbəkistan müğənnisi Nəsibə Abdullayevanın repertuarında özünə geniş yer tutub.

Məmmədbağır mahnı bəstələmək üçün şairlərdən Əliağa Vahid, Süleyman Rüstəm, Məmməd Rahim irsinə, Tofiq Mütəllibov, Sabir Rüstəmxanlı, Hafiz Baxış, Həmid Abbasın poeziyasına müraciət etmişdir. Onun sözlərinə mahnı bəstələdiyi, yaradıcılığına müraciət etdiyi sənətkarlardan biri də şair Zivər Ağayevadır. Zivər xanım Türkiyədə olarkən Müşərrəf Akayın ansamblının konsertmeysteri Əsəd Təkdal onun vasitəsilə Məmmədbağır üçün fonoqramlar göndərib. Müğənni yüksək məharət, böyük ehtirasla, türk ahəngində bu mahnıları hazırlayıb.

Məmmədbağır Bağırzadənin repertuarında oxuduğu «Ayrılıq olmayaydı» mahnısında belə misallar var:

«Ürək deyər ayrılığın, üzü dönsün bu dünyadan».

Nəhayət, xalqından ayrılmaq növbəsi Məmmədbağıra da çatdı. Cəmi 55 il yaşamaq qismət oldu.

Yazı qəmli notlarla bitir: «Mərkəzi klinik xəstəxanasının həyətindəyik. Bizi yaxına buraxmırdılar. Tez-tez oğlu Rahimlə zəngləşib, halını soruşurduq. Dostum Niyaz Moskvada yəhudi həkim də tapdı. Rahim onunla danışdı. Amma gec idi.

Təzə Pirdə meyit yuyulurdu. Bütün müğənniləri oraya topladıq. Azərtac Mədəniyyət Nazirliyi xəttilə Ramiz Mirzəyevin təşəbbüsü ilə nekroloqu göz yaşlarımla mən yazdım. 40 gün yasında da oldum, ilində də. Hər onun lent yazılarına tamaşa edəndə və qulaq asanda kövrəlirəm. Tez getdin, qardaş, niyə tələsirdin, hara tələsirdin? Yerin görünür».

«Unudulmaz ifaçılar»
Ədalət Vəzirov

Vüqar Əhmədin əməkdar artist, klassik kamança ustası Ədalət Vəzirovun həmişəyaşar xatirəsinə həsr etdiyi «Unudulmaz ifaçılar» məqaləsi (29,145-148) müəllifin «Kamança çalınanda» şeiri ilə başlayır. Bu poetik, kədərli nümunəni oxuyanda göz önündə cəmi 51 il ömür sürmüş, həyatdan vaxtsız-vədəsiz getmiş Ədalət Vəzirovun ölməz surəti canlanır:

Gəldi ölüm röyası,
Vətəndən uzaqlarda.
Dəyişmişdi dünyası,
Gözyaşı yanaqlarda.

Xəyallar səhayətdə,
Əllərim itaətdə,
Qulağım Ədalətdə,
Kamança çalınanda.

Vardı 51 yaşın,
Üç balan gözü yaşlı,
Atan, anan yanaşı,
Yatır sənlə məzarda.

Bir kəs deməz acıydın,
Yaxşılığın acıydın,
Bir mömindin, Hacıydın,
Ay Ədalət qardaşım.

Ağlar Xızıda dağlar,
Göy kişnər, bulud ağlar.
Qürbətdə qərib ölüb,
El-oba hamı ağlar.

Vüqar Əhməd «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» romanında yazır: «Rəhmətlik Ədalət həm Firuzun, həm Hacı Ağaxanın, həm də mənim çox yaxın dostumuz idi. Allah ona qəni-qəni rəhmət eləsin. Hacı Ədalət vaxtsız dünyasını dəyişdi, amma iz qoyub getdi, böyük bir kamança məktəbi, kamançanı həzin-həzin inlədən onlarla gəncin yetişdiyi «Ədalət məktəbi»ni. Bir gözəl bayatıda deyildiyi kimi:

Mən aşiq bizim qala,
Sənə var sözüm, qala,
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala…» (11,308-309)

Nə deyəsən belə dünyaya, Ədalət Vəzirovu da əlimizdən apardı. Təkcə dostu Vüqar Əhmədi yox, xalqımızı yandırdı. Məqaləni – «Min bir mahnı» qəzetinin 18 sentyabr tarixli yazını həyəcansız, qəmsiz, ağrısız, dərdsiz oxumaq olmur…

Bundan başqa «Kaman naləsinin sehri» (Elman Bədəlov), «Son söhbət» (Əbülfət Əliyev), «Nəğməli ürəklər: mahnıdan mahnıya (Oqtay Kazımov), «Alim Qasımov fenomeni», «Ağaxanın nəğməli dünyası», «Müğənni və onun «röya»sı», «Səsi Quran sədasıdı», «Oxuyan barmaqların izi ilə», «Dünyanın harasındayam», «Mənsurovlar sülaləsi», «Yad müğənninin doğma səsi» və başqaları bu səpgidə məqalələri yazmaqla Vüqar Əhməd tədqiqatçı kimi müasir musiqi dünyamıza incilər bəxş edib.

Tehran-Türk müsiqiçiləri

Musiqi tədqiqatçısı olaraq Güneydə yaşayıb-yaradan sənətkarların yaradıcılıqları həmişə Vüqar Əhmədin diqqət mərkəzində olub.

Bu silsilədən olan «Ustad Aşıq Bulud», «Rəsul Rəhimi Dizəçi», «O, əsl Azərbaycan oğludur», «Tarzən Fərhad Fərəcli və xanəndə Vədud Müəzzinzadə», «Xanəndə Vəli Qa-

sımi», «Arzuların həyata keçsin, xanəndə Cabir Əbdi», «Təki türkcə olsun…», «Xanəndə Əziz Nəsiri», «Bəstəkar Cabir İtaəti», «Azərbaycan musiqiçilərinin ağsaqqalı xanəndə Əbazər», «Şair-musiqiçi İbrahim Zahid Xəzayeri», «Qoşa qanad», «Fəyyaz Sağlam», «Əlirza Qəzvi», «Təbrizdən gələn səs», «Sənə nəfəs verir Azərbaycanım!..», «Musiqimizə maraq», «Kamanzənin şərəfinə», «Sənə minnət borcum var, qardaşım (Cənubdan minnətdarlıq məktubu)» adlı məqalələrində Vüqar Əhməd tanınmış Tehran-Türk musiqiçilərini Azərbaycan oxucusuna təqdim edir.

Bunu şairin müxtəlif illərdə mətbu orqanlarımızda dərc olunan məqalələri xəbər verir[1].

V.Əhmədin «İki sahil» qəzetiinin 16 sentyabr 1994-cü il tarixli sayında dərc olunan ***«Tarzən Fərhad Fərəcli və xanəndə Vədud Müəzzinzadə»*** adlı məqalədə şair bu taylı Azərbaycanın oxucularına o tayda yaşayıb yaradan sənətçi soydaşlarımızın yaradıcılığı haqda məlumat verir:

«Fərhad hələ gəncdir – 25 yaşı var. Tehranda anadan olub. Atası Həsən Fərəcli 1937-ci ildə Bakıdan köçüb İrana. 30-cu illər köçhaköçündə cənublularla yanaşı, müəyyən məqsədlər üçün İran pasportu alan şimallıları da mühacirətə göndəriblər. Fərhadgil Bakının «Kubinka» deyilən məhəlləsindəndirlər. Fərhad söyləyir ki, dəfələrlə ara bağlı olanda mərzə (sərhədə – V.Ə.) gedib, o tərəfi seyr edib için-için ağlayırdım. Şükürlər olsun ki, bu ayrılıq qismən də olsa sovuşdu».

Məqalədən məlum olur ki, Fərhad 14 yaşından tar çalmağa başlayıb, həmkarlarından fərqli olaraq musiqi təhsillidir. 7 il musiqi məktəbində «İran tarı» üzrə oxuyaraq təhsil alıb. Fərhad həm solist, həm də gözəl müşayiətçidir. O, təbrizli kamançaçalan Əmir və görkəmli rəssam və istedadlı xa-

[1] Bu bölmənin yazılmasında Alim Nəbioğlunun kitabından istifadə edilmişdir (3,50-58)

nəndə Vədud Müəzzinzadə ilə trio-muğam üçlüyü təşkil edib. Şərq üçlüyünün Tehranın kinoteatr və konsert salonlarında çıxışı zamanı bilet tapmaq qeyri-mümkündür.

«Vədud əslən ərdəbillidir. İranın birinci sayılan, ustad, məşhur növhəxanı Səlim Müəzzinzadənin oğludur. Səlim ağanın mərsiyyələri (türk və fars dillərində), növhələri, azanı ehtizaza, riqqətə gətirən kədərli bir səsin, dini avazın ifadəsidir. Bu səs daşı da da sanki parçalayır. Atası Səlimdən Vəduda da pay düşür. Vədud indi İranda gənc türk xanəndələri içərisində öndə gedir. Ustad kamançaçalan, hər iki Azərbaycanın sevimlisi Habil Əliyevlə Tehranda konsertə çıxıb» -

Məqalədən aydın olur ki, Vədud əslində həm rəssam, həm də xanəndə kimi peşəkar və yüksəkdir. Vədud da atası kimi zilxandır.

Adı gedən qəzetidə ***«Ustad aşıq Bulud»*** adlı yazı da diqqətətlayiqdir. Tehran türk musiqiçiləri, xanəndələri, aşıqları içərisində həddən ziyada məşhur, adı hörmətlə çəkilən Aşıq Bulud haqqında şair belə yazır:

«Aşıq Bulud 1312-ci (1933) ildə Cənubi Azərbaycanın Miyanə şəhərinin yaxınlığındakı Əfzəl kəndində əkinçi ailəsində anadan olub. Aşıqlıq sənətinə həvəsi onda o vaxt Təbrizdə yaşayan mərhum ustad Aşıq Hüseyn Cavan oyatmışdır. Aşıq Bulud özünə iki nəfəri ustad edir – Hüseyn Cavanı və ona müəllimlik etmiş Hacı Mütəllimi».

Hər bir cümlədə ətraflı məlumat verən V.Əhmədin bu məqaləsindən bəlli olur ki, Aşıq Buludun yüzdən çox yetirməsi var. Ustad aşığın 12 övladı, 45 nəvəsi var. Oğlanlarından ikisi musiqiçidir. Nadir istedadlı xanəndə Fərəməz tarzəndir.

«Aşığın gənclik xatirələrindən: O vaxt radio tapılmazdı. Bizim evdə də yox idi. Yoldaşlarımdan biri mənə Almaniyadan bir radio gətirdi. Aşıq Şakiri həvəslə, böyük maraqla dinlədim. Təkcə Aşıq Şakiri yox, eləcə də Pənahı, Məmmədağanı, Bəyləri. Bu sənətkarlara qulaq asa-asa öyrəndim. Sonra Təbriz radiosu ilə çıxış etməyə başladım. Şərqi Azərbaycanda el-obalara yol açdım, elatın içinə girdim. Radio

məni tanıtdırandan sonra xanəndə kimi də sayılmağa başladım».

Aşıq Bulud dastançı aşıqdır. Bir çox dastanları ilə yanaşı, Ulu Şəhriyarın «Heydər baba»sını dastan şəklində və şirin səsi, aydın tələffüzü ilə söyləyir.

«Vətəndaş» qəzetiinin 25 noyabr 1994-cü il tarixli sayında dərc etdirdiyi ***«Bəstəkar Cabir İtaəti»*** məqaləsində Vüqar Əhməd tehranlı bəstəkarla bizi tanış edib. «Cabir İtaəti 1961-ci ildə Tehranda fəhlə ailəsində anadan olub. Atası sənətin dalınca, o cümlədən toylara getməsə də qaval çalırmış, şirin səsi var imiş. «Var imiş» deyəndə Həsən kişi artıq qocalmışdır. Gözəl musiqi duyumundan oğluna da pay düşüb, irsinin təzahürü göz qabağındadır. Cabirgil Tehranda yaşasa da əsilləri Güney Azərbaycanın Astarasındandır».

12 il orta təhsil aldıqdan sonra musiqi universitetini – Konservatoriyanı bitirən Cavid, həm də Konservatoriyadan əvvəl yeddi il musiqi məktəbində skripkaçı ixtisasına yiyələnib. Aydınlıq gətirilir ki, Cabir simfoniya, konsert, instrumental pyeslər müəllifi olaraq əsas yaradıcılığını mahnı janrına yönəldir. 30-dan çox mahnı müəllifi olan Cavidin bütün mahnıları türkcədir və hamısı da bəstəkarın özünün çalışdığı orkestrin müşayiətilə lentə alınıb. «Bahar gəlir», «Əkinçi müsəlman», «Məhəbbət cavanəsi», «Şirin sözlər» mahnıları musiqi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

«İki sahil» qəzetiinin 15 oktyabr 1994-cü il tarixli sayında «Tehran türk sənətçiləri» rubrikası altında dərc edilən ***«Şair-musiqiçi İbrahim Zahid Xəzayeri»*** məqaləsində şair və musiqiçi dünyasına səyahət əks olunur.

«İbrahim Hicri tarixi ilə 1347-ci ildə Cənubi Azərbaycanın Muğan-Germi şəhərinin Tülün kəndində anadan olub. 15 yaşına qədər elə o kənddə ibtidai və orta təhsil alıb. Öz dediyinə görə, Tülün kəndi Şimali Azərbaycana çox yaxın olduğundan o, ilk musiqi və ədəbi istedadını Bakı radio və televiziyasından eşitdiyi səslər və nəğmələrə uyğunlaşdırıb. Elə uşaqlıqdan şeirlər yazmağa başlayıb».

Tədqiqatdan bəlli olur ki, İbrahim istedadlı şair, gözəl qəzəllər müəllifidir. Qəzəllərində Əlağa Vahid təsiri açıq-aşkar duyulur. İbrahim Xəzayeri şerlərini «Zahid» təxəllüsü ilə yazır.

Davadı dərdinə abu-havası ölkəmizin,
Cahana qarşıdır qaşlar qarası ölkəmizin.
Vətənə cənnət arasında çox şəbahət var,
Bu dəhrə bənzəri var gör harası ölkəmizin.
Vətən sənindir, sən ona can fəda qıl, ey Zahid,
Sən ölməyinlə gözəlsə, sorası ölkəmizin.

Məqalədə şairin poetik dünyasının əksi olan bu şeirin verilməsi məqaləni tamamlayır.

Həmin qəzetin eyni sayında dərc olunan ***«Azərbaycan musiqiçilərinin ağsaqqalı xanəndə Əbazər»*** sərlövhəli digər məqalədə V.Əhməd oxuculara xanəndə Əbazar haqqında dolğun məlumat verir.

Əbazər Erfanian 1933-cü ildə Türkmənistanın paytaxtı Aşqabadda anadan olub. O, hər mənada ustad, gözəl sənətkardır. İrandakı demək olar ki, bütün xanəndələrin qavalları onun əlindən çıxıb Əbazərin milli ornamentlərlə bəzədilmiş, sədəfli dəflərindən Şimal xanəndələri mərhum Əbülfət Əliyevə, Əlibaba Məmmədova, Arif Babayevə və başqalarına da ərməğan düşüb. Əbazər mərhum Əbülfət Əliyevi özünə ustad, müəllim sayır.

«Əbazər muğam, təsnif və xalq mahnıları ilə yanaşı gözəl mahnı ifaçısıdır. Müğənni Azərbaycan bəstəkarlarından Fikrət Əmirovun, Tofiq Quliyevin, Ramiz Mirişlinin, Emin Sabitoğlunun və başqalarının «Reyhan», «Sənə qurban Hacı», «Ay qəlbi kövrək», «Azərbaycan» və s. mahnılarını lentə yazdırıb. Sevə-sevə, şövqlə, məhəbbətlə oxuyub və yeni yaranan bəstələri də bu gün də ifa etməkdədir. Əbazərin klassik şairimiz Əlağa Vahidin qəzəllərinə oxuduğu «Dilkəş», «Zabul», «Segah», «Şur», eləcə də Ə.Məmmədovun «Dəşti» təsnifləri gözəl, təravətli və şirindir.

Bəli, Əbazərin səsi şirindir, məlahətlidir. Bu səs xırdalıqlarla zəngindir. Əbazərin «Müxalif» üstə oxuduğu bir şeirdə Cənubi Azərbaycan şəhərləri - Urmiya, Xoy, Mərənd, Marağa, Ərdəbil, Təbriz, Maku vəsf olunur. Xanəndə deyir:

Yayda gəl Təbrizə, könlün xoş olsun,
Ürəyin qüssədən, qəmdən boş olsun.

«Ağa Əbazər, bu gəliş uzun illər hamımızın arzusu idi. Nəhayət, Allah bu gediş-gəlişə imkan verdi. İnşallah, tikanlı məftillər əbədi götürülsün. Ustad, siz də Bakıya gəlin. Ürəyiniz xoş olsun… ».

Xoş arzu və niyyətlə yekunlaşan məqalədə bir daha tehranlı sənətçilərin Azərbaycanla, onun musiqisi ilə sıx bağlılığı bariz təcəssümünü tapır.

«Vaxt» qəzetiinin 1 fevral 1995-ci il tarixli sayında isə V.Əhməd bizə şair ***Əlirza Qəzvi*** haqqında məlumat verir. Bizə məlum olur ki, Əlirza Qəzvi 1963-cü ildə İranın Kərmsar şəhərində dünyaya göz açmışdır. Universitetin hüquqşünaslıq fakültəsini bitirib. İki şeirlər kitabı çap olunub: «Xurma bağından xiyabanadək» və «Od aparan insan». İranın baş qəzeti «İttilaat»da ədəbiyyat şöbəsinin müdiridir. Qəzəl və sərbəst şerləri ilə məşhurdur. Əsərləri ərəb dili, Türkiyə türkcəsinə tərcümə olunub. V.Əhməd şairin 2 şerini fars dilindən dilimizə çevirib – «Adımı unudacaq» və «Yetmədi». İndi həmin şeirlərlə tanış olun.

ADIMI UNUDACAQ

Tarı otağın güncünə qoysan,
Yenə də nəğmə oxuyur pərdələr.
Bir kəs gözləyirəm ki, gələ,
Simlər qan ağlayır, bax buna görə,
Simlər qan ağlayır, kəndli qoca da,
Qohum-əqrəbələr xəyanət etmiş ona.

Yer fırlanır, dolaşır,
Gecə isə bir avaradır, yetişmir evinə.
Və biz, arzuladıq göylə yeri,
Qanadımız üstə dolandırdıq
Düşünürəm: göylə yeri
Ay da, Göy də, Yer də
Mənim adımı unudacaq.

YETMƏDİ

Nifrət olsun o gecəyə son ana yetmədi,
O buluda, bir damla suyuna yetmədi.
Bu qılınc kimin əlində qəbirdən qalxıb,
Öz başını verməklə bir yana yetmədi.
Hanı o kəslər ki, öldürdü, öldü hanı?
Noldu axırı? Varlığı insana yetmədi.
Məzardakı ölülər dərdsizdi, tənhadı,
Peyğəmbər dövrü, insan imana yetmədi,
Ey mərhum, nə görürsən eldə, bu taledə,
İmansızlar heç çörəyə, nana yetmədi,
İndi də çörək qalıb süfrədə nə iman,
Əlirza Ümid, arzu son ana yetmədi.

«İki sahil» qəzetiinin 1 sentyabr 1994-cü il tarixli sayında çap olunan ***«Xanəndə Əziz Nəsiri»*** adlı məqalədə xanəndə ömrünə işıq tutulub. Məqaləni oxuyanda öyrənirik ki, Əziz Nəsiri 1944-cü ildə Azərbaycanın Masallı rayonunda anadan olub. Atası İmaməli Hacıyev rus-alman müharibəsində həlak olub. Atasını erkən itirən Əziz, anası Sultan xanımla İrana köçür. Hazırda Tehranda yaşayan Əziz ağa 18 yaşından oxumağa başlayıb. Onda musiqiyə həvəs mərhum xanəndə Əbülfət Əliyevin İrana qastrola gəlməsi ilə yaranıb. Əlibaba Məmmədov, Elmira Rəhimova, Rübabə Muradovadan çox şeylər öyrənib. Vüqar Əhməd yazır:

«Xanəndə Əziz ağanın repertuarında muğamlara, xalq havaları ilə yanaşı, Azərbaycan bəstəkarlarının mahnıları da

özünə yer tutub… Üç övladı var. Musiqimizin yaşaması, təbliği üçün əlindən gələni əsirgəmir»

V.Əhmədin tədqiqatı nəticəsində qanı qanımızdan, canı canımızdan olan bir xanəndəmizi də tanıyıb yaradıcılığına bələd oluruq.

«Axtarış» qəzetiinin 22 dekabr 1994-cü il tarixli sayında isə V.Əhməd bizə 1968-ci ildə Cənubi Azərbaycanın Şəbüstər mahalının Dizəçi kəndində anadan olan, ilk şeiri «İttilaat» qəzetiində çap olunan ***şair Rəsul Rəhimi*** haqda məlumat verir və şairin «Gözüm vardır» şerini oxucuların ixtiyarına buraxır.

Soyuq keçmə kənarımdan,
Soruş bir halı-zarımdan,
Payız xoşdur baharımdan,
Tanışlıq ver, sözüm vardır.

Çəkir dərdin ayağımdan,
Ayırsın ta tifağımdan,
Çıxar canım dodağımdan,
Aman, səndə gözüm vardır.

Rəsul B.Vahabzadə, N.Xəzri, H.Bülluri, R.Zəka, İ.Göyçaylı, F.Qoca və b. şairlərimizin şeirlərini fars dilinə tərcümə edərək «İttilaat», «Cavanşir», «Mehdi Azadı», «Surə», «Şer həftəliyi» kimi qəzet və jurnallarda çap etdirib. Doğma kəndi «Dizəçi»ni özünə təxəllüs götürüb.

«İki sahil» qəzetiində həmçinin V.Əhmədin təqdimatında xanəndə ***Cabir Əbdi və Vəli Qasimi*** haqda dolğun məlumat əldə edirik. Cabir Əbdi səs diapozonuna görə zilxandır. «Cabir Əzizulla oğlu Əbdi miladi tarixi ilə 1959-cu ildə Həşbər şəhərinin Çokəndan məhəlləsində dünyaya göz açıb. Mədrəsəni bitirdikdən sonra müəllimlik etməyə başlayıb. Elə məktəb illərindən xanəndəliyə həvəsi varmış. Həşbər bölünmüş

Azərbaycanın cənub sərhədində olduğundan o birilərindən, eləcə də Həşbərdə qardaş və bacılarımız televiziyonumuzu seyr edə bilirlər. Cabir də uşaqlıqdan Bakı radiosunu dinləyə-dinləyə, milli televiziyona baxa-baxa çox şey öyrənib. Əbülfətin, Arifin və başqalarının konsertlərini çox dinləyib».

Məqalə ilə tanışlıqdan öyrənirik ki, İran inqlabından sonra Həşbər şəhərində məhəllə çalğıçıları ilə orkestr təşkil edib konsertlər verən Cabiri sonralar Tehrana dəvət ediblər. Tehranda «Qarabağ» adlı xalq çalğı alətləri orkestri təşkil edir. Atası Əzizulla kişinin də gözəl səsi varmış. Atası ancaq fars ləhcəsi ilə oxuyarmış. Cabirin ifasında isə bir misqal da olsa yad nəfəslər, xallar yoxdur. O, təpədən-dırnağa fars şəhərində yaşayan türk xanəndəsidir.

Xanəndə Vəli Qasimi haqqında da V.Əhməd oxuculara dolğun məlumat verərək onu olduğu kimi oxuculara təqdim edir: «Vəli Qasimi 1328-ci (Hicri) ildə Cənubi Azərbaycanın Zəncan şəhərində anadan olub. Sonralar Tehrana köçüblər. Vəli uşaqlıq illərindən – 9 yaşından oxumağa başlayıb. Həmin illərdən Tehran radiosunun uşaqlar üçün verilişlərində həm oxuyurmuş, həm də dəf çalırmış. V.Qasimi 22 yaşından sənət aləmində tanınaraq xanəndə kimi fəaliyyət göstərməyə başlayıb. Vəli ağa özünə iki nəfəri sənət müəllimi – ustad hesab edir: görkəmli bəstəkar, Təbriz xalq çalğı alətləri orkestrinin bədii rəhbəri, məşhur «Ayrılıq» mahnısının müəllifi Əli Səlimini və Tehran radiosu türk orkestrinin bədii rəhbəri, bəstəkar Səfərəli Cavidi».

Onu da qeyd edək ki, Vəli Qasiminin Azərbaycan televiziyası ilə konserti olmuş, «Segah» muğamını oxumuşdur. «Şur», «Segah», «Mahur» muğam, dəstgahlar və təsniflərdən ibarət proqramla Vətəndə çıxış etmək arzusu ilə yaşayır.

«İrandan gələn töhfə» adlı məqalədə isə öyrənirik ki**,** ***Kərim Rəcəbzadə*** 1947-ci ildə İranın Lahıcan vilayətində anadan olub. «Şərqin qanı», «Dilsiz xanəndə», «Zeytun yarasından» və «Bu ulduz ölsə» şeir kitablarının müəllifidir. İranın

istedadlı və görkəmli şairlərindən olan Kərim Rəcəbzadə əruz və sərbəst şeir növlərində qələm çalır. «Vahid» üçün bir şeir göndərmişdir. Həmin şeiri V.Əhməd fars dilindən çevirib oxuculara təqdim etmişdir.

SƏMA

Göy üzü quşlarla dolu…
Köynəyimin qarası tək.
Ürəyim qəmli,
Yaxşı ki, evim önündə
Küknar ovudur məni…
Bir də quşların səsi.

Oxuyuruq,
Yağış yağır. Yazırıq,
Günəş doğur…
Bu həyatın
Gözəllikləri,
Göy qurşağına bənzər.

Başımdakı həyəcan
Qərarsız.
Qürbət qəmi,
Nakamlıq yarası canımda
Gecə mehində əriyir
Güllər diyarı…
Söylə, gülüm,
Ən gözəl gülün hanı?

Səma buludludur,
Yağış yağacaq yəqin.
Sənin sakitliyin
«Tufanqabağı»
Sakitlikdir.

Fəyyaz Sağlam haqda məlumat verən V.Əhməd yazır ki, ***Fəyyaz Sağlam*** 1959-cu ildə Türkiyənin Konya şəhərində anadan olub. Universitetin türk dili və ədəbiyyatı fakültəsinin məzunudur. Yunanıstanla yanaşı, Yuqoslaviya, Rumıniya, Bolqarıstan kimi Balkan ölkələrindəki türklərin ədəbiyyatları haqqında araşdırma və monoqrafiyaların müəllifi kimi tanınmışdır.

Yunanıstan (Batı Trakya) Türkləri Ədəbiyyatı ilə bağlı tədqiqatları elmi aləmdə çox yaxşı qarşılanmışdır. F.Sağlam «Yunanıstaniyə çağdaş türk ədəbiyyatı» (1990), «Yunanıstan (Batı Trakya) türkləri ədəbiyyatına dair tədqiqlər» (1991) adlı kitabların müəllifidir.

Fəyyaz Sağlam ötən il çapdan buraxdırdığı «Yunanıstan (Batı Trakya) türkləri ədəbiyyatında Atatürk» kitabını doğma – Azərbaycanımıza avtoqrafı ilə ünvanlamışdır. Kitab türk nəşrlərinə məxsus yüksək çap mədəniyyəti ilə buraxılmışdır. Üz qabığında böyük Atatürk rəsmi, son qabıqda müəllifin fotosu və qısa avtobioqrafiyası verilmişdir.

Türk Respublikasının başçısı – Mustafa Kamal Atatürkə həsr edilən topluya «Batı Trakya» dərgisinin sahibi Səlahəddin Yıldız «Təqdimat», tərtibçi-müəllif isə «Ön söz» yazmışdır.

Kitabda əsasən, Atatürkə həsr olunmuş Yunanıstan türk yazarlarının şeir və elmi-bədii yazıları toplanmışdır. Şair, Əlirazi Saracoqlu yunanıstanlı türk balasına Atatürkü belə tanıdır və «Atanı tanı, cocuğum» deyə tövsiyə edir:

Günəşidir, o, hər Türkün;
Bir məşəldir Atatürküm;
Aydınladır Türkü hər gün
Atanı tanı, cocuğum.

…Beləcə, Tehran-Türk musiqiçiləri haqqında yazdığı məqalələr Vüqar Əhmədin uzun illər gərgin zəhmət hesabına topladığı sənət inciləri idi.

B) Muğamlarımızın tarixi, etimologiyası və tar sənətinin ifa xüsusiyyətləri

«Əhsən yaradana..."
(esse)

Muğam bir xəzinədir, açarıdır duyğular,
Muğamda sevinc də var, muğamda kədər də var.
Muğam mənim xalqımın misilsiz kamalıdır,
Tarixidir, eşqidir, arzusu, amalıdır.

B.Vahabzadə

Qədim tarixi köklərə, rişələrə söykənən Azərbaycan muğamı xalqımızın rəmzi kimi heç vaxt dəyişməyən, qiymətini itirməyən, canımızda, qanımızda coşub-çağlayan ölməz sənət əsəridir.

Vüqar Əhməd "Muğam düşüncələrim" (18,59-77) publisistik məqaləsində yazır:

«Muğam xalqın bütövlüyünü, mənəvi böyüklüyünü tarix boyu nəsil-nəsil özünə çatdırır. Nizamini, Xaqanini, Xətaini, Sabiri bizə muğam verib. Muğam onların canında, qanında olub. Onlar muğamı öz istedadları ilə birləşdirib hikmət xəzinələri, söz inciləri yaradıblar. Və nəhayət, muğam sevgi, məhəbbət sədasıdır.

Muğam bütün musiqi növlərinin sintezidir. Muğam Ana Musiqidir. Bütövlükdə Şərq musiqisinin və ərazicə Avropada yerləşən Yunanıstan musiqisinin deyil, o, Afrika-Amerika mənşəli caz musiqisinin də kökündə duran ən qədim tarixi reallıqdır. Buna görə də muğamın yaşca əlahiddə qoca olduğunu deməyə haqqımız var.»(18, 59)

«Əfsanəvi tarzən» kitabında isə alim muğamlar haqqında elmi traktatların şərqin böyük musiqiçilərindən olan Səfiəddin Urməvi, Əbdülqədir Marağayi, Əl-Fərabi və başqaları tərəfindən yaranmasını qeyd edir:

Muğam tədqiqatçısı, professor Rafiq İmrani «Muğam tari-

xi» (Bakı, Elm, 1998, 280 s. I cild) əsərinin 31-ci səhifəsində tərtib etdiyi birinci cədvəldə "Muğam" sənətinin yayıldığı əraziləri göstərmişdir. Əgər bu cədvələ istinad etsək, muğamın coğrafiyasının bir tərəfdən Çin Türküstandan başlayaraq, Yunanıstana qədər uzandığını, o biri tərəfdən isə Hindistandan ayaq tutaraq bütün Şərqi dolaşıb, Afrika qitəsinə qədər rişə atdığını görərik. ABŞ-da yaşayan soydaşımız Tarıyel Vəli Nuvədilinin «Əcdad» kitabına əsaslansaq müəllifin özünün qeyd etdiyi kimi, muğamın şəcərə ağacının Azərbaycandan və türki-kərkükdən başlayaraq əsas kökdə TÜRK – türkmən, özbək, qazax, qırğız, uyğur, sol kökdə İRAN – İran xalqları, yunan, sağ kökdə isə ƏRƏB – Misir, İraq, Suriya, Əlcəzair, eyni zamanda Dağıstan və Gürcüstana qədər rişə atdığının şahidi olarıq:

«Muğam bütün musiqi növlərinin sintezidir. Muğam ana musiqidir. Bütövlükdə şərq musiqisinin ərazicə Avropada yerləşən Yunan musiqisinin deyil, o eyni zamanda Afrika-Amerika mənşəli caz musiqisinin də kökündə duran ən qədim tarixi reallıqdır. Buna görə də Muğamın yaşca əlahiddə qoca olduğunu deməyə tam haqqımız var. Muğam bəşər tarixi ilə birgə yaranıb. Heç şübhəsiz dünyaya yeni gəlmiş və bilavasitə, biz azəri türklərinin şaquli istiqamətdə birbaşa babası olan Adam muğam oxumurdu. Amma muğamın yaşı barədəki fikirlərimiz yazılı tarixi mənbələrə əsaslandı» (T.V.Nüvədili. Əcdad. Siete. ABŞ. 1997.Səh 5).(31,5)

Dəyərli musiqi tədqiqatçısı Vüqar Əhmədin muğamlarımızın əvəzi, etimologiyası və şeir sənətinin ifa xüsusiyyətləri sahəsində apardığı məqsədyönlü elmi araşdırmaları göstərir ki, o Muğam dünyasına dərindən bələd olan, incəliklərinə qədər tədqiq edən alimlərimizdəndir. Onun qələminin məhsulu olan «Elmi-filoloci qaynaqlar, ədəbi simalar haqqında düşüncələr» kitabına daxil etdiyi «Muğam düşüncələrim» bədii publisistik məqalədə və xalq artisti, turzən Firuz Əliyevin həyat və yaradıcılığına həsr etdiyi «Əfsanəvi turzən» əsərindəki fikirləri bir daha sübut edir ki, Vüqar Əhməd bu aləmin bilicisi, muğamı hər bir azərbaycanlının qan yaddaşı

hesab edən əsl ziyalıdır.

«Onlar öz elmi əsərlərində muğamların yaranma tarixindən, şöbə və guşələrin bir-biri ilə qarşılıqlı əlaqəsindən, musiqi alətlərində istifadə olunan ifaçılıq ştirxlərindən və bir çox başqa xüsusiyyətlərdən bəhs edirdilər. Səfiyyəddin Urməvinin yazdığı «Kitab əl-ədvar»da («Musiqi dövrləri haqqında kitab») geniş şifahi ənənələrə və yüksək professional keyfiyyətlərə malik olan xalq musiqimizin əsasını təşkil edən səs komplekslərinin sistemləşdirilməsi başlıca yer tuturdu. Müəllif burada özünün yaratdığı vahid sistemi təşkil edən risalələrində meydana çıxardığı mükəmməl tabulatura (musiqi notları yazısında qrafik işarələr, hərflər-rəqəmlər sistemi) 12 əsas (dövri) və 6 törəmə məqamın səs düzümünü, eləcə də melodiyalardan parçaları verirdi».

Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə musiqi yazılışında tabulaturadan (not yazısından) istifadə etmək Urməvinin həmin yaradıcılıq işi ilə başlanan ilk tədqiqat, yaxud nailiyyət deyildi. yazan tədqiqatçı kimi fikirlərini belə izah edir. Musiqi tədqiqatçısı «Muğam düşüncələrim» məqaləsində yazır: «Hər hansı xalqın mənəviyyatına bələd olmaq istəyən, onun folkloruna nəzər salmaq və musiqisinə qulaq asmaq kifayətdir. Xalqımızın bədii təfəkküründün qiymətli məhsulu olan musiqi folklorumuzda torpağımızın müqəddəsliyi, namus və azadlıq uğrunda mübarizəmiz, heyrətamiz igidliklərimiz, sevincimiz, kədərimiz öz parlaq əksini tapmışdır. Vətən məhəbbətindən, ağsaqqal, ağbirçək hörmətindən ürək dolusu söz açan bu misilsiz təranələr sözün əsl mənasında, elimizin mənəviyyat pasportu sayıla bilər. Bu tükənməz xəzinəyə bələd olmaq vətən övladı kimi şərəfli ad daşıyan hər bir elsevərin ümdə borcudur. Azərbaycan şifahi-professional musiqiçisinin aparıcı janrı muğamatdır. Qəliz strukturuna, həcm və əhatə dairəsinə, fəlsəfi mahiyyətinə görə muğamlar monimental və möhtəşəm sənət abidələridir».

«Muğam»

Bu gün Azərbaycan muğamı bütün dünyada böyük uğurlar qazanıb, xalqımızın mənəvi pasportuna çevrilib. Bu sahədə

dövlətimiz, xüsusilə UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili, birinci ledi Mehriban xanım Əliyevanın xidmətlərini önə çəkən tədqiqatçı Vüqar Əhməd yazır:

«Muğamın son illərdə daha geniş şöhrət tapması, genişlənməsi Heydər Əliyev fondunun prezidenti, ölkənin birinci xanımı, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın təəssübkeşliyi sayəsində keçirilən muğam konsertləri ifaçılara qayğı, beynəlxalq aləmdə respublikamızda muğamın təbliği ilə bağlı gördüyü işlərin analoqu yoxdur. Şübhəsiz, bütün bunlar hörmətli prezidentimiz İlham Əliyevin bütün sahələrdə olduğu mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə qayğı və məhəbbətinin təzahürüdür."

«Azərbaycan tarı»

Tar aləti haqqında düşünəndə nədənsə nakam şairimiz Mikayıl Müşfiqin «Oxu, tar» şeirini xatırlayırıq. Mikayıl Müşfiq bu ölməz sənət varlığını söz xridarını qələmə alanda bizcə tarın qiymətini verib, bəlkə də tərifini:

Oxu, tar, fikrimdə oyansın
Baharın, Seyidin qəzəli;
Oxu, tar, ruhlansın
Şirvanın, Gəncənin mehriban gözəli
Damağından düşənlər,
Ürəyi şişənlər,
İlk bahar seyrinə çıxmayan,
Özünü dağların döşünə yıxmayan
Sinəsi dağlılar,
Vəfasız bir eşqin dağınıq zülmünə bağlılar
Dəxilin olmuşlar,
Qapında təsəlli bulmuşlar.
Zilin var, vəsiətin, bəmin var,
Sənin də quşların dəmindən ayrılan
Bir özgə dəmin var.
Səni də avara eyləmiş

Dağınıq telli bir «zərəfşan».
Onunçun «Segah»ın danışır
Pərişan-pərişan.

Səsini dinləmiş
Şahların, xanların sarayı,
Sənlə birlikdə inləmiş
Əsirlər alayı,
Bəzən də simlərin qəmləri ovutar,
Olardın onların sirdaşı,
Sən ey tar!..

Bizə belə gəlir ki, tar bütün musiqi alətlərinin önündə gedən bir varlıqdır, bir təlatümdür, bir ovsundur. Tar muğamın əkiz qardaşıdır. Musiqimizin mayası tarla yoğrulub. Tar bir dünyadır, bir həzinlikdir, bir dəniz ləpəsidir, bir igidin döyüşə gedən qollarıdır. Musiqi tədqiqatçısı, musiqişünas alim Vüqar Əhmədin «Azərbaycan tarı» məqaləsini oxuduqdan sonra əmin oldum ki, Mikayıl Müşfiq şeirdə tarın qiymətini veribsə, Vüqar Əhməd də onun elmi araşdırıçılar sırasında əsas cəhətlərini izah etmişdir. Bizcə bu məqaləni bütün tar ifaçıları mütləq oxumalıdır. Təkcə onlar yox, həm də tara bağlı olan insanlar. Elmi məqaləni vəsait kimi ayrıca müxtəlif dillərə tərcümə edilib, nəşr olunması məqsədə uyğundur. Həmçinin slayd düzəldib xarici ölkələrdə keçirilən mədəniyyət və musiqi tədbirlərində göstərmək olar.

Tar alətinin kim tərəfindən, nə zaman yaranmasını və dəqiq inkişafını F.Şuşinski tərəfindən göstərildiyini qeyd edən Vüqar Əhməd yazır:

«Mötəbər tarixi vəsiqələrə əsaslanıb deyə bilərik ki, tarı miladın X əsrindən Türküstan türklərindən olan Tərxanın oğlu Məhəmməd Cərco şəhərinin Fərab adlı bir kəndindən qayıtmışdır». Həmin dövrdən, yəni X əsrdən tar alətindən Azərbaycanda da istifadə edilmişdir. Tarın «atası» sayılan Mirzə Sadıq Əsəd oğlu (1846-1902) 1870-1875-ci illərdə tar üzərində bir sıra uğurlu islahatlar apardıqdan sonra alətə

qonşu ölkələrdə Azərbaycan tarı adı verilmişdir. Tarın əski forması isə 1875-ci ildən sonra «İran tarı» kimi adlandırılmışdır. Çünki, İranda bu növ tarlardan o vaxtdan müasir dövrə kimi də istifadə edilir. İranda Sadıqcanın (Mirzə Sadıq Əsəd oğlu el arasında çox sevildiyindən ona Sadıqcan kimi müraciət edilirdi) tarlarından da istifadə edilir, belə tarlar İranda Azərbaycan tarları adlandırılır».

Xalqımız görkəmli muğam ustaları ilə yanaşı, məşhur tarzənlərlə qürur hissi keçirir, onların unudulmaz adları çəkiləndə ilk növbədə Sadıqcan Əsəd oğlu, Qarabağlı Zeynal, Şirin Axundov, Qurban Pirimov, Əhməd Bakıxanov, Mansur Mansurov, Bəhram Mansurov, Baba Salayev, Həbib Bayramov, Hacı Məmmədov, Əhsən Dadaşov və başqa sənət fədailəri yada düşür. Məhz həmin sənətkarların fərdi, təkrarsız ifaçılıq üslublarını özlərindən sonra gələn nəsillərə layiqincə ötürə bilmişlər.

Məqalədə müxtəlif paralellər aparan Vüqar Əhməd yazır:

«Sadıqcan, Q.Primovun ənənələri, dövrümüzün ustad tarzənləri Əhsən Dadaşovun, Adil Gərəyın, Hacı Məmmədovun təcrübəsi nəsildən-nəslə keçmişdir. Onlardan hər birinin özünəməxsus ifaçılıq tərzi var idi, hər biri öz deputatlarının bənzərsizliyi ilə fərqlənirdi. Qurban Primovun ifasında «Çoban bayatı», Əhsən Dadaşovun «Şur», Hacı Məmmədovun «Orta Mahur» və not repertuarı daha məşhur idi. Təbii ki, keçmişdə yaşamış tarzənlər müasir həyatın dinamikasını emosional dolğunluğunu, ifaçılıq üsullarının çox planlılığını görməmiş və ifaçılıq texnikaları da indiki kimi inkişaf etməmişdi. Lakin ötən illərdə olduğu kimi, indi də tarzənlərin bir çoxunun repertuarında elə əsərlər var ki, bunların ifatsı təkcə virtouzluğu ilə deyil, həm də incəliyi, dərin mənalığı ilə, ifasına fərdilik, mükəmməllik verən çoxlu əlavə çaları ilə dinləyicini valeh edir. Dinləyici ifaçı ilə onun ifa etdiyi əsərin üzvü vəhdətini hiss edir. İfaçı muğamın yaradıcısına çevrilir və dinləyiciyə elə gəlir ki, həmin muğamın nailiyyətini, ruhunu və xarakterini ona yalnız o çatdıra bilər. Hal-hazırda Ramiz Quliyev, Firuz Əliyev, Möhlət Müslümov, Elçin Hə-

midov, Humay Qədimova Azərbaycan xalqının məhz belə tarzənləri səviyyəsinə yüksəlmişdirlər».

Muğam adlarının yaranması haqqında

Məqalədə musiqi tədqiqatçısı bütün muğam, şöbə və guşə adlarının yaranma tarixinin 4 qismə bölündüyünü yazır:

1. Say adları.
2. a) yer, məkan adları (toponimlər)
   b) xalq, tayfa, qəbilə adları
3. Tarixi şəxsiyyət və ifaçının adı ilə bağlı muğam və şöbə adları.
4. Müxtəlif adlar

Say adı ilə bağlı olan muğam və şöbələr bunlardır:

1. Yegah
2. Dügah
3. Segah
4. Çahargah
5. Pəngah
6. Şeşgah
7. Həftəgah

Adlarını çəkdiyimiz muğam və şöbələrin bir-bir təhlil edən Vüqar Əhməd yazır:

«Bir çox muğam və şöbə adlarının yaranma tarixi öz yerləri və məkanları ilə əlaqədardır. Qarabağ şikəstəsi, Şirvan şikəstəsi, Salyan şikəstəsi, Şikəsteyi-fars, Arazbarı, Bayatı-şiraz, Bayat-isfahan, Bayatı-kürd, Ərak, Əfşarı, Ovşarı, Əşiran, Zabul, Heyrat-Kabili, Osmanlı, Qatar, Hicaz, Nəva-Nişapur, Hissar, Xavəran, Mavərənnəhr, Pəhlivi, Tehrani, Azərbaycan, Xarazmiyyə, Mahur-hindi və bir çoxlarını buna misal göstərmək olar. Bu muğam və şöbələrin hər birinin adı, onların hara aid olduğunu bizə bir daha sübut edir. Məsələn, «Çahargah» muğamında ifa olunan «Hisar» Hindistanda, Dehli şəhərinin yaxınlığında yerləşən kiçik bir kənd adıdır. «Hisar» daha bir ölkədə, İranın Xorasan əyalətində yer adıdır. Qədim Midiya dövlətində bu yerə «Hisar-təpə» dey-

irdilər. Lakin bir sıra musiqişünas və ifaçılar bu şöbəni «Hissar» deyil, «Hassar» və yaxud «Həsar» adlandırırlar».

Mahur-Hindi dəstgahına ayrıca şəkildə toxunan müəllifin apardığı araşdırmalar məqalədə öz əksini tapır:

«Mahur-Hindi» dəstgahı Azərbaycan musiqisində xüsusi yer turur. Bu muğamın adından onun hara mənsub olduğunu dərhal görə bilərik. «Mahur» Hindistanda kiçik bir şəhər adıdır. Tarixdən bildiyimiz kimi, Hindastan vaxtilə müsəlman hökmdarlarının hakimiyyəti altında olmuşdur. Bu dövrdə Hindistanda böyük dəyişikliklər əmələ gəlir. Yaxın Şərq ölkələrinin mədəniyyəti və incəsənəti hind mədəniyyətinə böyük təsir göstərir. Şərq ölkələrinin Muğam sənəti də hind musiqisinə məhz bu dövrdə öz təsirini göstərir. Eləcə də hind musiqisinin intonasiyaları muğam sənətinə təsir edib, onu zənginləşdirmişdir. Hal-hazırda «Mahur - Hindi» həm Azərbaycan, həm İran, həm də türk və hind musiqisində xüsusi yer turur. Hind raqallarının bir neçəsi məhz «Mahur» məqamında ifa olunur. Mahur sözü dəqiq tərcümədə uçurum, dərin yağan deməkdir. Azərbaycanda Mahurun başqa növü də mövcuddur. Bu «Orta Mahur» «Mahur - Hindi»nin variantı olub, «Bərdaşt»dan deyil, «Hüseyni» şöbəsindən çalınıb-oxunur»

ƏFSANƏVİ TARZƏN

«Məhəbbətsiz necə ömür eylər insanlar»

Musiqi tədqiqatçısı, filologiya elmləri doktoru, professor Vüqar Əhməd mənə "Əfsanəvi tarzən" sayca 29-cu kitabını hədiyyə etdi. Adı çəkilən kitab xalq artisti, görkəmli tar ifaçısı Firuz Əliyevin həyat və yaradıcılığına həsr olunub.

"Müəllim" nəşriyyatında yüksək poliqrafik səviyyədə çap olunan kitabı demək olar ki, bir nəfəsə oxudum. Kitabın elmi redaktoru, Azərbaycan Milli Konservatoriyasının rektoru, professor, xalq artisti Siyavuş Kərimidir. Əvvəla onu qeyd edək ki, kitab Firuz Əliyevin adına, sənətinə, şəxsiyyətinə

layiqli şəkildə qələmə alınıb. İlk növbədə kitabın adı bizi özünə çəkdi. Məlum oldu ki, Türkiyədə ölməz Füzulinin 500 illik yubileyində xalq şairimiz Bəxtiyar Vahabzadə ona "Əfsanəvi tarzən" adını verib. Sağlığında Bəxtiyar Vahabzadə kimi klassik söz ustasından belə bir qiymət almaq Firuz Əliyevin sənətkarlıq xüsusiyyətlərindən xəbər verir. Kitab elə "Əfsanəvi tarzən" məqaləsi ilə başlanır. Məqalədə müəllif bütövlükdə muğam dünyamızdan geniş, əhatəli şəkildə söhbət açır. Müəllif son vaxtlar qədim sənətimizin kürreyi-ərzin dörd bir yerində təbliğ olunmasında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və "Heydər Əliyev" fondunun prezidenti, Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini önə çəkərək yazır: "İstər cənab İlham Əliyev, istərsə də Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanın ən qiymətli xəzinəsi olan muğamı qoruyanların başında durmuşlar. Muğamı qorumaq isə Azərbaycanın müstəqilliyini, milli dəyərlərini, mədəniyyətini eyni zamanda ədəbiyyatını qorumaq deməkdir. Məhz zati-aliləri İlham Əliyevin və Mehriban xanım Əliyevanın dəstəyi nəticəsində bu gün muğamımız xarici ölkələrdə ləyaqətlə nümayiş olunur, milyonların ürəyinə yol tapır."

Kitabda ustad tarzənin tərcümeyi-halı, Xalq və əməkdar artist Fəxri adının verilməsi haqqında fərmanların sürətləri, müəlliflə müsahibəsi, həmçinin akademiklər Vasim Məmmədəliyevin, Ziyad Səmədzadənin, millət vəkilləri Hacı Madər Musayevin, Ərəstun Cavadovun, xalq artistləri Arif Babayevin, Əlibaba Məmmədovun, Ağaxan Abdullayevin, Alim Qasımovun, əməkdar jurnalist Cavid Xaspoladovun, foto-müxbir Üzeyir Muradovun, türk müğənnisi İbrahim Tatlısəsin və başqalarının sənətkar barədə ürək sözləri, fikirləri, şeirlər, fotolar əksini tapır. Onun haqqında deyilənləri maraqla mütaliə etdim. Qərara gəldim ki, mən də Firuz Əliyevin sənəd dünyası və insani keyfiyyətlərini yazıya alım. Onunla ilk tanışlığım yadıma düşdü. 21 il bundan qabaq Hava limanında görüşümüz

baş tutmuşdu. 1991-ci ildə "Vətən cəmiyyəti"nin xətti ilə sənətkarlarımızdan Arif Babayevi, Əliabbas Qədirovu, Firuz Əliyevi, Munis Şərifovu ABŞ-a yola saldım. Demək olar ki, Azərbaycan tarını ilk dəfə olaraq məhz Firuz Əliyev okeanın o tayında təbliğ edənlərin birincilərindən oldu. Xalq artisti mərhum Əliabbas Qədirov səfərdən sonra danışırdı ki, Firuzun tarda ifası amerikalıları heyran edirdi, dəfələrlə alqışlarla qarşılanırdı.

Firuz Əliyevin heyrətamiz çalğısına, müxtəlif yubileylərdə, muğam festivallarında, toylarda, məclislərdə heyranlıqla tamaşa etmişəm. Firuz möhtəşəm tarımızı dinləndirəndə insan mənən zövq alır. Tarıma çəkilmiş əsəbləri, Firuzun tarı sakitləşdirir. Firuzun sehrli barmaqları tarın pərdələrində gəzişəndə qəlblərə güc gəlir, millərin ruhu, əzmi yüksəlir. Firuz Əliyev həm də şeirə-sözə bağlı insandır. Füzulinin, Vahidin, Müşfiqin, Bəxtiyar Vahabzadənin qəzəllərinin, şeirlərinin vurğunudur. Onunla hər dəfə görüşəndə atamın 1994-cü ildə yazdığı "Məhəbbətsiz necə ömür eylər insanlar" şeirini əzbərdən söyləyir. Təxminən 10 il bundan qabaq, dünyasını dəyişmiş, atamla Firuzun səmimi münasibətləri var idi. Yaşasa idi, haqqında söhbət açdığımız kitaba fikirlərini bildirərdi. Amma nə etmək olar, tale aman vermədi. Firuza olan sonsuz hörmət və ehtiramımı yuxarıda adını çəkdiyim şeirdən aşağıdakı misralarla bitirmək istərdim:

"Hamı laqeyd olub daş tək, hamı biganəyə dönmüş,
Ürəklər bumbuz olmuş boş, soyuq bir xanəyə dönmüş,
Məhəbbət, sevgi qeyb olmuş, tamam əfsanəyə donmuş,
Küdurət indi hakimdir, odur ki, hey axır qanlar,
Xudaya, bəs məhəbbətsiz necə ömür eylər insanlar?

Müşfiq Cabiroğlu,
Yazıçılar Birliyinin üzvü
"Ədalət" qəzeti.-2012.-17 mart.-S.6. (32,6)

D) Televiziya və radio fəaliyyəti, mahnı yaradıcılığı

Müəllif, redaktor, aparıcı.

Vüqar Əhmədin yaradıcılıq yolunun əsas hissəsi dövlət televiziyası və radio verilişləri komitəsi, sonralar teleradio şirkəti, teleradio Qapalı Səhmdar Cəmiyyəti ilə bağlıdır (1987-2006). Azərbaycan radiosunda 1987-1997-ci ilin fevral ayına kimi musiqi baş redaksiyasında ədəbi redaktor və xalq musiqi sovetinin böyük redaktoru vəzifəsində işləyib. Dörd ildə onun radio dinləyiciləri üçün hazırladığı verilişlərin siyahısında sənət korifeyləri, xalq artistləri, həmçinin görkəmli xanəndələr, həyatdan vaxtsız getmiş ifaçılar, əbədiyaşar bəstəkarların, şairlərin adlarını çəkmək maraqlı olardı.

Mayestro Niyazi, Arif Məlikov, Cahangir Cahangirov, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, Yaqub Məmmədov, Tələt Qasımov, Ağaxan Abdullayev, Alim Qasımov, Niyaməddin Musayev, Əbülfət Əliyev, Əhsən Dadaşov, Məmmədbağır Bağırzadə, Ələkbər Əsgərov, sənətşünaslıq doktoru Abbasqulu Nəcəfzadə ilə müştərək Məmmədağa Muradov, Əşrəf Əşrəfzadə, Firuz Əliyev, Flora Kərimova, Şövkət Ələkbərova, Şəfiqə Eyvazova, Nisə Qasımova, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Mələkxanım Əyyubova, Səkinə İsmayılova, Qaraxan Behbudov, Oqtay Kazımi, Nazim Qəmərlinski, Ədalət Vəzirov, Munıs Şərifov, Nəcəfzadə qardaşları, Şamo İsayev, Baloğlan Əşrəfov, Tofiq Mütəllibov, Zeynal Cabbarzadə, həmçinin cənub türk musiqiçiləri Əziz Nəsiri, Vədud Müəzzinzadə, məşhur İran xanəndələri Əbazər, Aşıq Bulud, Nadir Caqdi və.b kimi sənətkarlar haqqında hazırladığı, redaktoru və ssenari müəllifi olduğu musiqili verilişlərində V.Əhməd hər bir şəxsiyyətin həyat və yaradıcılığını mövzu baxımından tam rəngarəng şəkildə dinləyicilərə təqdim etmişdir.

O, ömrünün 15 ilini Azərbaycan televiziyasının musiqi verilişləri redaksiyası ilə bağladı. Həmin redaksiyanın baş re-

daktorunun müavini olan Vüqar Əhməd Azərbaycan televiziyasının tarixində ilk dəfə olaraq gecəyarı canlı əyləncəli (telefon bağlantılarıyla) proqramının yaradıcısı, müəllifi və redaktoru olmuşdur. Verilişin ilk aparıcısı mərhum xalq artisti, sevimli aktyorumuz Yaşar Nuri, rejissoru isə əməkdar incəsənət xadimi Nazim Zeynalov idi.

Bundan başqa onun rəhbərliyi və redaktorluğu ilə xalq artisti Nisə Qasımovanın apardığı «Ulduzlar görüşəndə» musiqili verilişinə canlı efir vaxtı ayrıldı. Onun ssenari müəllifi və redaktoru olduğu «Nəğməli sətirlər» verilişi şairlərdən H.Cavidə, C.Cabbarlıya, M.Müşfiqə, Ə.Zahidə, S.Rüstəmə, İ.Səfərliyə, N.Xəzriyə, C.Novruza, N.Kəsəmənliyə (dəfələrlə), H.Baxışa həsr olundu.

O, «Qızıl açar» mahnı müsabiqəsinin ssenari müəllifi olmaqla yanaşı «Nəğməli görüşlər», «Ay işığında», «Sizin istəyinizlə», «Musiqi mozaikası», «Nəğmə çələngi», «Sevgi nəğmələri» kimi musiqili verilişləri Vüqar Əhmədin ssenari müəllifliyi və redaktorluğu ilə tamaşaçı rəğbətini qazanmışdır. «Sabahınız xeyir», «İrs» folklor ansamblı, Cahangir Cahangirov, Mahrux Muradova, Ə.Vəzirov, Məmməd Salmanov, Gülxar Həsənzadə, Firudin Mehdiyev, Kifayət Gəncəli, qabalçalan Əzizağa Nəcəfzadə, nağara ifaçısı Böyükağa Muradov barədə verilişlər məhz onun xeyir-duası ilə ekran həyatı tapmışdır.

Dünyadan köçmüş sənətkarların müntəzəm şəkildə lent yazılarını bir xatirə işığı kimi verilməsi və kliplərin göstərilməsi Vüqar Əhmədin təcrübəli televiziyaçı kimi xidmətlərini qeyd etmək vacibdir.

Mahnı yaradıcılığı

«Mən şeir yaradıcılığında onu nəğmə kimi yazıram». Bu fikirlər, sözlərdə yazılmış mahnıların bir çoxu xalqın əzbərinə dönmüş Vüqar Əhmədə məxsusdur. Bir şair kimi musiqiyə xidmət göstərən müəllifin yaradıcılıq yollarında mahnı

janrı xüsusi əhəmiyyət daşıyır. Nəğməkar şairlərimiz Nəbi Xəzrinin, İslam Səfərlinin, Zeynal Cabbarzadənin, Tofiq Mütəllibovun, Cabir Novruzun, Vahid Əzizin, Baba Vəziroğlunun, Nüsrət Kəsəmənlinin arasında özünəməxsusluğu ilə seçilir. Vüqar Əhmədə artıq çoxdan xalq nəğməkar-şair epitetini verib. Bu amil hər şairə də nəsib olmur. Nəğməkar şair adını fəxrlə daşıyan Vüqar Əhməd 500-dən çox nəğmə mətninin müəllifidir. Bu müəlliflər arasında ən çox məşhur olanlardan ***«Anam mənim»*** mahnısı nəğməkar şairə başucalığı gətirib. ***«Anam mənim»*** mahnısının adı çəkiləndə Vüqar Əhməd yada düşür. Vüqar Əhmədin adı çəkiləndə isə «Anam mənim» yada düşür. Artıq «Anam mənim» musiqisi qəlblərdə yaşayır. Dünyanın esperanto dilində oxunan «Ey həyat, sən nə qəribəsən», «Bakı, sabahın xeyir», «Ana», «Küləк», «Dünya sənin, dünya mənim», «Tut ağacı», «Qurban verərdim» mahnıları ilə yanaşı çoxdan ölməzlik qazanıb.

Vüqar Əhməd nəğməkar şair kimi mahnı yaradıcılığında bəstəkarlar, əməkdar incəsənət xadimləri Nailə və Hikmət Mirməmmədlilərlə başlayıb (Allah Hikmətə rəhmət eləsin – R.N. M.C.). Hikmət Mirməmmədlinin bəstəsində «Niyə məhəbbətin bu sayaq oldu» Vüqar Əhmədin sözlərinə yazılmış ilk mahnıdır. Qarabağ mövzusu ilə bağlı olan mahnını Azərin və Nurlan Əzizbəyli oxuyublar. Nailə xanım şairin yaradıcılığına daha çox müraciət edən bəstəkarlarımızdandır.

«Gecələr», «Arzular», «Mən sənətkaram» (izim qalacaq), «Xəzər», «Sözüm vardır», «Necə olacaq», «Azərbaycan», «Novruz», «Səninləyəm» və başqa mahnıları musiqi həyatını Nailə Mirməmmədli verib. Mahnıları xalq artisti Brilyant Dadaşova ifa edib.

Vüqar Əhməd 25 illik mahnı yaradıcılığı dövründə Ramiz Mustafayev, Ramiz Mirişli, Oktay Kazımi, Emin Sabitoğlu, Mehriban Əhmədova, Mobil Babayev, Əlikram Məmmədov, Bəhram Nəsibov, Əlibaba Məmmədov, Sevda Məmmədli, Cavanşir Quliyev, Aydın Ağasıyev, Tahir Əkbər, Nüsabə Muradova, Rauf Məmmədov, Solmaz xanım, Nazim Qəmər-

linski, Nadir Əzimov, Dilarə Həkimova kimi görkəmli bəstəkarlar onun sözlərinə müraciət ediblər.

Həmçinin Zamiq Əliyev, Abbasqulu Nəcəfzadə, Razim Paşayev, Namiq Şuşalı, Mirsaleh, Mahir Tahiroğlu, Əli Baxış, Tacir Şahmaroğlu, Çingiz Balaxanlı, Sıdqi Mustafayev, Hikmət Aslanov, sintezator çalan Zamiq Məmmədağa Dadaşova, Nəvvab həkim, Adil Cəbiyev, Tarıyel Məmmədov, Musa Musayev, Yaqub Cavadov kimi həvəskar bəstəkarlar nəğməkar şairin poetik aləminə müraciət ediblər. Dünyadan vaxtsız getmiş xalq artisti Məmmədbağır Bağırzadə «Qardaş» mahnısını onun sözlərinə yazmışdı. Bundan başqa Mövsüm Əhməd də kiçik qardaşının yaradıcılığına müraciət edərək xeyli mahnı bəstələyib. «Anam mənim» mahnısının yayım dairəsi o qədər genişdir ki, Baloğlan Əşrəfov ifasında ABŞ kanallarından birində gündə iki dəfə səslənir. Xalq artisti Nisə Qasımova məşhur «Azərbaycan məndən uzaq» mahnısını sonsuz məharətlə, zövqlə oxuyub. Xalq artisti Elmira Rəhimova «Dinlə məni sevgilim» mahnısını məhəbbətlə, qayğı ilə ifa edib. Nəğməkar şair mahnı yaradıcılığı barədə belə yazır:

«Mənim mahnılarımı yüzlərlə müğənni ifa eləyib. Onların arasında çox görkəmlisi də var, bir qədər az tanınmışı da. Çox məşhur müğənnilər oxuyub mənim mahnılarımı. Hətta sırf muğam ifaçısı, bəstəkarlardan bütün yaradıcılığı boyu mahnı alıb oxumayan, səsi qəlblərə məlhəm ustad xanəndəmiz Ağaxan Abdullayev mənim xahişimlə artıq 500 ildir müsəlman şərqinin poeziya günəşi olan Mövlanə Füzuliyə həsr etdiyim mahnını oxuyub. Mənim şəhidlərimiz haqqında yazdığım şeirə Nüşabə Muradova rekviyim bəstələmişdi. Dünya şöhrətli müğənnimiz Alim Qasımov, incə səsi ilə ruhumuza su çiləyən Elmira xanım Rəhimova birlikdə ifa ediblər o rekviyemi. Eləcə də Brilyant Dadaşova 20-yə yaxın mahnımı ifa edib».(11,214)

Vüqar Əhmədin sözlərinə dəyərli bəstəkarımız Elçin İmanovun musiqisində əməkdar artist Eyyub Yaqubovun təkrarsız ifasında «Abşeronum mənim» mahnısı əvəzsiz sənət incisidir.

Vüqar Əhməd nəğməkar şair olmaqla yanaşı, həm də gözəl musiqi duyumuna malik olan insandır. Bu baxımdan şair Tofiq İmişli dəyərli söz sahibinə həsr etdiyi «İstedadlı publisist, nəğməkar şair» məqaləsində yazır:

«Vüqar Əhməd gözəl xasiyyətli, sözünə düz, dostluğa sədaqətli, öz işini bacaran, gözəl istedada malik olan publisist, nəğməkar bir şairdir. Onun yaradıcılığı Azərbaycan xalqına bəllidir. Çünki onun artıq ona qədər kitabı çıxmış və mahnıları müğənnilərin dilində əzbər olub, xalqın qəlbinə yol tapmışdır. Vüqar Əhməd güclü bir publisist şair olmaqla bərabər, gözəl bir bəstəkardır. O, bütün alətlərdə ifa etməyi bacarır. O, nə qədər şeirlərə musiqi bəstələmişdir. Bir gün Vüqar Əhməd məni gözəl muğam ustası Səfər Məmmədovun məşq otağına qonaq dəvət etdi. Orada bir neçə alətlər var idi. Vüqar Əhməd əvvəl tarı sinəsinə basdı, bir muğam çaldı ki, sözün düzü mən ona heyran qaldım. Sonra o, tarı yerinə qoyub, kamançaya əl atdı.O, kamançanı elə çaldı ki, sanki kamança ağlayırdı. Kamançadan sonra qavala əl atdığını görəndə doğrusu ilhama gəldim, aşağıdakı şeir misraları qəlbimdən keçdi:

Tarı basdı sinəsinə,
Muğam çaldı Vüqar Əhməd.
Sanki tarın simlərindən
İlham aldı Vüqar Əhməd.

Tarın həzin-həzin səsi,
Valeh etdi hər bir kəsi.
Artdı yazmağa həvəsi,
İlham aldı Vüqar Əhməd. (29,215-216)

Tarı qoydu bir tərəfə,
Kamança düşdü hədəfə.
Ağladı kaman bu dəfə,
İlham aldı Vüqar Əhməd.

Bir az da qavalı çaldı,
Tofiq ondan ilham aldı.
Xudaya, barmaqlar baldı,
İlham aldı Vüqar Əhməd».

Müəllif, redaktor, aparıcı

Vüqar Əhməd Azərbaycan televiziyasında fəaliyyəti dövründə hazırladığı çoxçaylı verilişlərdə ssenari müəllifi, redaktoru olmaqla yanaşı, həm də bir aparıcı kimi yüksək qabiliyyətə, zəngin dünyagörüşünə, musiqini dərindən bilməsi onu birbaşa tamaşaçı ilə təmasda olmasına imkan yaratdı. Onun aparıcı və ssenari müəllifi olduğu «Hər gülün öz ətri», «Muğam ifaçılarımız», «Unudulmaz ifaçılar», «Muğam məclisləri» verilişləri maraqla qarşılandı. Vüqar Əhmədin ssenari müəllifi və aparıcısı olmuş verilişlərin birini həm nümunə, həm də dediklərimizin sübutu kimi oxucuya təqdim edirik:

Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti
Musiqi verilişləri baş redaksiyası

«Cahangir Cahangirov - 80»
musiqili xatirə verilişinin ssenarisi
Müəllif və aparıcı Vüqar Əhməd
Televiziya rejissoru: Xanım Muradova
Bakı - 2002

İLLƏR, SƏNDƏ NƏYİM QALDI?!..
CAHANGİR CAHANGİROV – 80

Studiya… Hər şey
Cahangir Cahangirovun əsərlərini xatırladır.
Kamera aparıcıya yönəlir
Musiqi sədaları altında

Aparıcı: Salam, əziz tamaşaçılar (Pauza).

Dünya bir pəncərədir, hər baxan gəlib, gedər. O da bu dünyaya gəldi çiçəklər açanda. Baharın ilk günündə dünya ilə vidalaşıb əbədiyyət dünyasına qovuşdu… Ancaq insan qəlbini riqqətə gətirən mahnılarını musiqimizin əbədiyyətində qoyub getdi. O musiqiləri və mahnıları ki, bu gün də sevə-sevə dinləyir, ecazkarlığına, təsir gücünə heyran kəsilirik.

O da bu dünyaya gəldi… Hamı kimi gəlsə də, hamı kimi yaşamadı. Ömrünü yalnız musiqiyə bağladı. Bir-birindən gözəl mahnılarını pərəstişkarlarına ərməğan etdi. Təəssüf ki, bu gün Cahangir müəllim sıramızda yoxdur. Ancaq ölməz sənətkarın, Respublikanın xalq artisti, gözəl mərhum bəstəkar Cahangir Cahangirovun ad gününün, xatirəsinin əbədi işığına yığışmışıq. Həmişə qəlblərdə yaşayacaq Cahangirimizin… Güllər heç zaman ətrini itirmir. Çiçəklər açanda dünyaya gəldisə, güllər tumurcuqlayanda gül, çiçək yağışı ilə də sıramızı tərk etdi.

Qısa arayış: Cahangir Cahangirov 1921-ci ilin iyun ayının 20-də anadan olub. Bakı musiqi məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirmişdir. 1940-cı illərdə Flarmoniyanın mahnı və rəqs ansamblının xor qrupuna «Sazçı qızlar» ansamblına, 1940-60-cı illərdə isə Azərbaycan radiosunun xoruna rəhbərlik etmişdir. Onun yaradıcılığının əsas hissəsini təşkil edən xor əsərləri Azərbaycan xor musiqisinin inkişafında əhəmiyyətli rol oynamışdır. Bəstəkar həmçinin bir neçə opera və operattaların, bir çox kino və tamaşaçıların musiqi müəllifidir. Onun «Xanandənin taleyi», «Təzə gəlin» kimi əsərləri bəstəkara xüsusi bir şöşrət gətirdi. 1992-ci ilin mart ayının 24-də Novruzun, Baharın ilk günlərində dünyasını dəyişdi.

Musiqi

Aparıcı: Cahangir musiqisində Şərq koloriti daha güclüdür. Bəstəkarın «Füzuli» kontatasından tutmuş mahnıları, xüsusilə də kinofilmlərə yazdığı müsiqilərdə öncə millilik olmaqla Şərq musiqisi ahənginin təzahürü görünməkdədir. Cahangirovu dinləyərkən bütün Qoca Şərq, Şərq dünyası göz

önündə canlanır. Janr və mövzuca müxtəlifliyə baxmayaraq oricinal frdi üslub onu dinləyərkən ilk andan fərqlənir.

Bəstəkarın melodizmi rəngarəngdir, çoxçalarlıdır. Üzeyir bəy məktəbinin layiqli davamçısı Cahangirov bəstəkarlar içərisindən milliliyə sadiqliklə ustadından – Üzeyir bəydən sonrakı sıradadır.

Dahi şairimiz Mövlanə Məhəmməd Füzulinin əsərləri əsasında yazıb şairə ithaf etdiyi etdiyi «Füzuli» kantatası ilə özünə ölməzlik gətirib. Füzuli şeirini, onun nəğməli şeiriyyətini nəğmələşdirən böyük bəstəçi ümumən Fizuli poeziyasına ən çox müraciət etmiş sənətçilərdəndir. Bəstəkarın «Qatır Məmməd» kinofilminə yazdığı musiqidən «Etməzmidim» mahnısı onun ümumiyyətlə gözəl və dinləyicilər tərəfindən dərin rəğbət və məhəbbət qazanmış mahnıları içərisində seçilir. Mahnı düşündürür, həzin və dərin melodizmi ilə insanı öz dünyasına aparır, sanki qədim dünyamızdan, orta yüzilliklərdən ərməğan olan bir nəğməni dinləyirsən.

Niyaməddin Musayevin dedikləri:

- Ustad tərzənimiz Əhsən Dadaşov bir gün mənə dedi ki, səni Cahangir Cahangirovun yanına aparacağam. Dedim:

- Əhsən müəllim, niyə? Dedi ki, «Qatır Məmməd» filmindəki mahnıları oxumaq üçün. Özü dedi ki, yeni səs olsun.

Getdik Cahangir müəllimgilə. Görkəmli bəstəkarımızla tanış olduq. Bəstəkar mahnıların melodiyasını fortepianoda çaldı. Mahnılar klassik şairimiz Məhəmməd Füzulinin qəzəllərinə bəslənmişdi. «Etməzmidim», bir də «Könlüm açılır». Məni görəndə Əhsən müəllimdən soruşdu ki, bu oğlan oxuya biləcəkmi? Əhsən müəllim dedi ki, gəl bir yerdə oxuyaq, özü də musiqi furğunları ilə, hecaları bölə-bölə oxu. Mən dedim ki, tək oxuyacağam və oxudum. Əhsən Dadaşov da, Cahangir Cahangirov da məmnun qaldı. Allah hər iki sənətkara rəhmət eləsin.

Cahangir Cahangirov bir böyük bəstəkar kimi həmişə ifaçılıq tariximizdə yaşayacaq. Onun yaradıcılığı əbədidir. Cahangir dünyası şərq dünyası, ümumilikdə Azərbaycan dünyasıdır. («Etməzmidim». Oxuyur N.Musayev)

Aparıcı: Eləcə də ustad bəstəçinin bədii dəyəri ilə incəsənət və ədəbiyyat tariximizdə şərəfli yer tutan «Dəli Kür» kinofilminə yazdığı musiqi. XX yüzilliyin əvvəlində inqilabi çarpışmalar ərəfəsini, maarifçilik uğrunda mübarizəni əks etdirən dini fanatizmi tənqid edən əsərdəki yüksək səviyyəli, peşəkarlıqla, həddən ziyadə gözəlliklə yazılmış musiqi dövrün mənzərəsini, koloritmini yaratmaqda ən ümdə bədii vasitələrindən ümdəsidir. Filmdəki iki mahnı isə xalqımızın səs yaddaşına əbədi həkk olunub. «Ana Kür» və «Bayatılar» mahnıları yazıldığı gündən görkəmli müğənnilərimizin repertuarında özünə yer tutan bu həzin, lirik nəğmələr xalqımızın səs yaddaşında özünə əbədi yer tutub.

(Musiqi – «Dəli Kür») filmindən fraqment. Elmira Rəhimovun ifasında "Bayatılar" mahnısı.

Gülağa Məmmədovun ifasında "Ana Kür" mahnısı

Aparıcı: Cahangirov musiqisi əbədi, həmişəyaşar və bəşəridir. Dahi bəstəkar öz yaradıcılıq sənət dünyası ilə musiqi tariximizdə şərəfli yer tutur. O bütün yaradıcılığı və şəxsiyyəti ilə doğma Azərbaycanımıza, xalqımıza ləyaqətli, milli qeyrətlə xidmət edib.

Cahangirovun xor sənətimizin, bu sahədə ifaçılığın inkişafında xidmətləri əvəzsizdir. Vaxtilə radio xorunun bədii rəhbəri və baş drijoru kimi bu sahədə gərgin fəaliyyət göstərmiş xor üçün bir çox mahnılar, vokal əsərlər bəstələnmiş, eyni zamanda başqa bəstəçilərin xor üçün yazılmış əsərlərini işləmiş, tövsiyə etmişdir.

Cahangirovun fəaliyyəti dövründə xor Azərbaycanda intibah dövrünü yaşamış və indi maestronun rəhbərliyi və drijorluğu ilə lentə alınmış nümunələr radionun «qızıl fondunda» qorunur.

(«Ərəb xoru» və ya «Atəşpərəstlər xoru»)

Xalq artisti İslam Rzayevin çıxısı və ifasında mahnı

Aparıcı: Cahangirov yaradıcılığında xüsusi yerlərdən birini də onun operaları tutur. «Azad», «Xanəndənin taleyi» opera-

ları vaxtilə ən çox tamaşaçı qazanan əsərlərdən olmuşdur. «Xanəndənin taleyi» ilə əsrimizin əvvəlində öz yanıqlı, şirin, məlahətli səsi, zəngurələri ilə hamını heyrətdə, acınacaqlı mühacir taleyi ilə ürəkləri ağrıdan Seyid Mirbabayevin məşəqqətli həyatı əks olunmuşdur.

(Operadan fraqment)

Aparıcı: Cahangirovun simfonik musiqisi ayrıca tədqiqatın mövzusudur. Onun simfonik əsərləri içərisində «Arazın o tayında» vokal simfonik poeması xüsusi yer tutur. Ədəbiyyatımızda bölünmüş Vətən, Araz mövzusu son 30 ildən bir qədər ürəklə əks olunmuşsa Cahangirov alman-sovet müharibəsindən sonrakı illərdə Cənub mövzusuna əsər həsr eləmişdi. Və bu əsər yüksək simfonizmi, mövzusu, bədii səviyyəsinə görə o dövr Dövlət mükafatına layiq görülmüşdü.

(«Araz»ın o tayında)

Xalq artisti kaman ustası Şəfiqə Eyvazovanın xatirələri və ifasında bəstəkarın musiqisi

Aparıcı: Əziz tamaşaçılar, bu gün sizi qısa da olsa Cahangir dünyası ilə baş-başa buraxdıq. O dünyanın sakini olmaq qəlbi musiqi ilə döyünən hər bir insanın borcudur. Elə isə Cahangir dünyasından heç zaman ayrılmayın. Həmin ecazkarlıqdan güc alaraq nurlu sabahlara üz tutun. Biz isə üzümüzü mərhum sənətkarımız Cahangir Cahangirovun ruhuna tutub deyirik:

- 80 yaşınız mübarək, ölməz sənətkar!

Son

V FƏSİL

VÜQAR ƏHMƏD HAQQINDA ÜRƏK SÖZLƏRİ

Siyavuş Kərimi,
Azərbaycan Milli Konservatoriyasının rektoru,
professor, Respublikanın xalq artisti

Elm aləmində, müasir dünyamızda, mətbuatımızda pedaqoq kimi təhsil sahəsində həmişə sanbalı ilə seçilən filologiya elmləri doktoru, professor, Nyork Elmlər Akademiyasının üzvü Vüqar Əhməd haqqında ürək sözlərimi bildirməyim xahiş olunanda o dəqiqə razılaşdım. Ona görə ki, Vüqar Əhməd kimi ziyalı barədə söz deməsi vacibdir. Biz şair demişkən: «Sağlığında qiymət verin insanlara» (Cabir Novruz).

Əvvəlcə onun musiqi sahəsində gördükləri işləri ön plana çəkmək istərdim. İlk növbədə Vüqar Əhmədin xalq artisti Firuz Əliyevin həyat və yaradıcılığına həsr etdiyi «Əfsanəvi tarzən» kitabı barədə danışmaq istərdim. Əsəri oxuduqdan sonra böyük məmnuniyyətlə kitabın elmi redaktoru oldum. Musiqi tədqiqatçısı monoqrafiyada qədim tarixə söykənmiş muğamlarımızı dərindən bilməsi, onun elmi əsaslarını təhlil etməsi Azərbaycan tarı barədə düşüncələri ifadəli şəkildə monoqrafiyada qələmə almışdır.

Elmi-bədii üslubda yazılmış kitaba müəllif «Əfsanəvi tarzən» adını verməklə xalq artisti Firuz Əliyevin obrazını bütövlükdə yarada bilib. Əsərdə mənim də Firuz müəllim haqqında fikirlərim yer alıb.

Vüqar Əhməd həm də nəğməkar şairdir. Onun sözlərinə 90-cı illərin əvvəlində yazılmış bir neçə mahnısının oranjimançısı mən olmuşam. Vüqar onda Azərbaycan televiziyasında çalışırdı. Onun ssenari müəllifi və aparıcısı olduğu bəzi verilişlərində mən də iştirak etmişəm. Verilişlər indi də yadımdadır. Onun ədəbiyyatşünas-alim kimi yazdığı monoqrafiya elmimiz üçün olduqca dəyərlidir.

Son vaxtlar onu bir yazıçı kimi də tanımışam. Bu yaxın-

larda mənə göndərdiyi «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» avtobioqrafik romanını oxudum. Olduqca maraqlı mövzudur. Bütün ziyalılarımıza bu əsəri oxumağı tövsiyə edirəm.

Mən Vüqar Əhmədi 20 ildir ki, tanıyıram. İllər bir göz qırpımında keçdi. O vaxt düşünməzdim ki, vaxt gələcək Vüqar Əhmədin 50 illik yubileyi münasibətilə ürək sözlərimi yazacağam.

Belə bir gündə səni təbrik edirəm. Sənin hələ irəlidə görəcəyin işlər çoxdur. Ona görə də Vüqar Əhməd sənə cansağlığı arzulayıram.

Ramiz Mirişli

Bəstəkar, xalq artisti, professor

-Vüqar Əhməd çox maraqlı bir insandır. Həm ədəbiyyatı, həm də musiqini çox gözəl bilir. Ələlxüsus da xalq musiqisini. Bu da ondan irəli gəlir ki, musiqi ilə gənc yaşlarından məşğul olub və musiqi təhsili alıb. Bu da onun şeirlərində öz əksini tapıb.

Vüqar Əhmədin bir neçə kitabları dərc olunub. Bunlardan biri musiqi aləminə həsr olunub və musiqisevərlər tərəfindən rəğbətlə qarşılanıb. Vüqar Əhmədin onlarla şeirinə bəstəkarlarımız tərəfindən mahnılar bəstələnib. Onun bu yaxınlarda şeirlərindən ibarət bir kasset albomu işıq üzü görüb və bu da ona misal ola bilər. Və bu albomdakı mahnılar da bizim görkəmli müğənnilərimiz tərəfindən ifa olunub. Mən də V.Əhmədin bir neçə şeirinə mahnı bəstələmişəm. «Mavi dünyam», «Sevgi bayatıları», «Dünyanın sevinci», «Aysel», «Demə, eşqə düşmüşəm». Mənə elə gəlir ki, gələcəkdə də belə istedadlı şairlərlə yaradıcılıq əlaqəsini davam etdirəcəyəm. Ona yaradıcılıq işində uğurlar arzulayıram.

Arif Babayev
Xanəndə, xalq artisti, professor

-Vüqar Əhməd gənc nəslin ən öncül nümayəndəsi kimi mənim həmişə məhəbbətimi qazanıb. Vüqar çox zövqlü şairdir. Xatırladım ki, hətta mənə də şeir yazıb və mən bundan çox məmnun oldum. Vüqarın çox incə, gözəl musiqi duyumu var. Bir də ki, omənim stilimə uyğun mahnı mətni yazarsa mən onu məmnuniyyətlə ifa edərdim. Onun dini şerlərinə bəstələnmiş mahnılara daha çox qiymət verirəm. Həm də mənim dostumdur. Elə ona görə də mən ona xoşbəxtlik arzu edirəm. Bir də arzu edirəm ki, muğam xalq sənətinə çox diqqətli olduğu kimi onun bəzi problemləri ilə də daha çox məşğul olsun. Ona ən gözəl günlərin ləzzətini diləyirəm.

Niyaməddin Musayev
Müğənni, xalq artisti

-Vüqar haqqında danışmaq mənim üçün çox xoşdur. O, yalnız mənim deyil, həm də bütün müğənnilərin, bəstəkarların, işlədiyi kollektivin sevimlisidir. Onun mahnılarında bir axarlıq, ritmlik, məna hiss olunur ki, sevimli müğənnilərimiz tərəfindən sevilə-sevilə ifa olunur. Onun mahnılarını diqqətlə dinləyirəm və yəqin ki, yaxın günlərdə öz stilimə uyğununu ifa edəjəyəm. Vüqar Əhməd həm də xalq musiqisini çox gözəl bilir. Gənc istedadların üzə çıxarılmasında çox böyük əməyi var. Müğənnilərimizin əməyini yüksək qiymətləndirir və bu da «Şahnaz sədası» kitabında öz əksini tapıb. Eyni zamanda, Vüqar gözəl ədəbiyyatşünas və tənqidçidir. Həm də filologiya elmləri doktoru, professordur. Bir çox kitabları işıq üzü görüb.

Hacı Ağaxan Abdullayev
Xanəndə, xalq artisti

- Əgər Vüqar haqqında nəsə bir söz demək mənə də qismət olubsa, o zaman mən özümü çox xoşbəxt hiss edərəm. Çünki, Vüqar olduqca istedadlı və talantlı bir gəncdir. O, həm biz müğənnilərin, həm bəstəkarların, həm də xalqın

sevimli nəğməkarıdır. Vüqarın «Ya Məhəmməd Füzuli» mahnısını mən ifa etmişəm…

Vüqara yaradıcılıq işlərində yeni-yeni nailiyyətlər, həyatda ən gözəl nemət olan cansağlığı və xoşbəxtlik arzulayıram.

Brilliant Dadaşova

Xalq artisti, müğənni

– Vüqarla bizim dostluğumuzu bağlayan musiqidir. Vüqar mənim ailəmlə, yoldaşımla da dostluq edir. Mən Vüqar Əhmədin sözlərinə bəstələnmiş musiqiləri həmişə ürəklə oxumuşam. Mahnılarımın çoxusunu bəstəkar Nailə Mirməmmədli ilə işləmişəm.

Hər yeni il gecəsində, Novruz bayramlarında yeni mahnılar ifa edirdim. «Gecələr», «Novruz», «İstiqlal», «Xatirələr», radio «Sara»da tez-tez səslənən «Arzular», «Xəzər» mahnısı, «Neylərdin İlahi» və Vüqarın mənə şəxsən həsr etdiyi «İzim qalacaq» mahnıları və s. «İzim qalacaq» mahnısı 1996-cı ildə ilin ən yaxşı mahnısı hesab olundu. Düzü, mən «İzim qalacaq» mahnısını ifa edən ərəfədə çox tərəddüd etdim. Vüqarın öz sadə dili olduğu kimi, şerləri də ürəyəyatımlığı ilə sevilir. Vüqara mənim, ailəmin çox böyük hörmətim var və mən həmişə bu dostluğa şadam. Vüqara həyat yollarında böyük uğurlar arzulayıram. Həmişə onun sözlərinə mahnı oxumaq da böyük arzumdur. Vüqara ucalıq, məhəbbət və ailə səadəti arzu edirəm.

Nailə Mirməmmədli

Bəstəkar, musiqişünas,

Əməkdar İncəsənət Xadimi, Bəstəkarlar İttifaqının üzvü

– Adı qazanmaq, ada layiq olmaq həyatda özünü tapmaq deməkdir. Torpağımızın suyundanmıdır, ya havasındanmıdır bilmirəm, deyimə görə belə dedim, bu torpaqda ayaq tutub gəzən hər körpənin də olmasa, ondan biri şeir, musiqi düşkünü, həvəskarı, yaradıcısı ola bilir. Yaradacıların da bəziləri tarixdə qalır. Bəlkə də zamanın ələyindən keçənlər arasında unudulanlardan zəifləri olacaq...

Amma çox yəqin ki, ömrünü sənətə həsr edənlər bu ələkdə yaratdıqlarının sayı deyil, dəyərinə görə qalacaq. Seçilənlər sırasına aid olacaq. Onu deyim ki, yaradan yaradıcı bunu çox vaxt fikirləşmədən ürəyinin, beyninin bəhrəsini sakitləşdirmək, yüngülləşdirmək üçün yaradır.

Hə...belə yaradıcıların Azərbaycan mədəniyyəti tarixində öz yeri olur.

Adına layiq olan, adını qazanan, həyatda yerini tapan, yaratdığının dəyərinə görə tarixdə qala bilən ad Vüqar Əhməddir. Alim kimi, nəğməkar şair kimi, əlbəttə, gözəl insan kimi.

İlk dəfə 1989-cu ildən "Arzu", "İzim qalacaq", "Azərbaycan", "Xəzər", "Gecələr", "Sənə bir sözüm var", "Yaşayıram El üçün", "Aman-aman", "Vuruldum", "Ümidim, arzularım", "Ya Rəbb", "Ya Məhəmməd", "Füzuli", "Neylərdin, İlahi" və s...bu günədək hələ nə qədər şeirin müəllifi olub ki, adların çəkdiklərimə musiqilər yazdıq. Hikmətlə mən... Şeir özü ritmiylə, sözlərdən süzülən musiqililiyilə bizi yaradıcılıq əlaqələrinə sövq etdi, dostluq münasibətlərinə gətirib çıxartdı. Şükür, bu günədək ailəvi əziz etdi.

Çünki, Vüqar Əhməd nəinki yazdığı şeirlərlə, səmimiliyilə, insanlığı ilə, düzgünlüyü ilə, tələbkarlığı ilə, həm də üzügülərliyilə, mehribanlığı ilə bizə doğmalaşdı . Yazdıq, yaratdıq...bir də gördük yaddaşlarda qalır...Deməli, yaddaşlarla tarixə yol açacaq Vüqar Əhməd!

Yazdıqlarım, əlbəttə, Hikmətdən də eşitdiklərimin nəticəsidir.

Zöhrə Abdullayeva

Müğənni, Əməkdar artist,

-Günlərin birində Vüqar Əhməd mənə zəng vurub dedi ki, bəstəkar Rauf Məmmədov «Qarabağdayam» şeirimə musiqi bəstələyib. İstəyirəm onu siz ifa edəsiniz. Çünki, bu mahnı sizin qəlbinizə daha yaxındır. Bundan başqa oxuduğum «Bilə-bilə», «Sevindir məni» mahnısının sözləri də Vüqarındır.

Vüqar Əhməd gözəl və sadə insan, istedadlı ədəbiyyatşünas və tənqidçidir. Onun mahnılarını tək mən yox, bütün müğənnilər sevə-sevə oxuyurlar. Gənc yaşlarında bu qədər sevilmək hər bir sənətkara nəsib olmur. Vüqar Əhmədə yaradıcılığından uğurlar, müqəddəslik və xoş günlər arzulayıram.

Firuz Əliyev
Tarzən, Xalq artisti

«Ürəyi yanan ya bir olar, ya iki»

Həyat və sənət yollarında çox insanlarla təmasda olmuşam. Bu şəxslərin arasında özümə yaxın, sözün həqiqi mənasında əsl dost dediyim adamlar olduqca azdır. Şair bu məqamda yaxşı deyib: «Ürəyi yanan ya bir olar, ya iki». Mənə ürəyi yanan, aramızda 13 yaş fərqinə baxmayaraq həqiqi dostum olan Vüqar Əhmədin adını xüsusi olaraq böyük məhəbbətlə çəkmək istəyirəm. Hərdən mənə elə gəlir ki, Vüqar Əhməd Allah tərəfindən ömür yoluma nur, işıq salmaq üçün göndərilib. Siz mənim səmimiyyətimə inanın. Bu həqiqətən belədir. O mənim sənətimin təbliğində çox işlər görüb. Qardaş-qardaşa etmədiyini mənə görə edib. Bəzən özümün xəbəri olmadan məni çox təzyiqlərdən qoruyub. Mənim karyerama zərbə vurmaq istəyən sənət yoldaşlarıma layiqli cavablar verib. Sənət aləmi belədir ki, bir balaca istedadın oldu, başlayırlar səni gözləri götürməməyə, paxıllığını çəkməyə. Vüqar bütün bəd xislətlilərə mənim əvəzimdən cavab verib, onları yerlərində otuzdurub. Vüqarın elə bir saf xasiyyəti var ki, bir məsələni əvvəlcə həll edir. Sonradan bilirəm ki, mənim üçün vacib olan işləri Vüqar görüb. Ürəyində zərrə qədər kin-küdurət yoxdur. Bu keyfiyyətlər məhz Vüqar Əhmədə xas olan insani cəhətlərdir. Siz mənə onun haqqında yazılacaq kitaba görə mənə müraciət edəndə çox sevindim. Ürəyim dostuma görə dağa döndü. Vüqar elə bir

şəxsiyyətdir ki, ona nə etsən halaldır. O mənim üçün insanlıq etalonudur. Ürək sözlərimi yazmağa başlayanda xəyallar məni 1993-cü ilin sentyabr ayına apardı. O gün heç vaxt yadımdan çıxmaz. Məni onunla dəyərli kaman ustamız, əməkdar artist Munis Şərifov tanış etdi. Fürsətdən istifadə edib Munisə öz təşəkkürümü bildirirəm. İlk dəfə Vüqar Əhmədin rəhbərliyi ilə Tehrana qastrol səfərinə getdik. Nümayəndə heyətinin tərkibinə xalq artistləri Əlibaba Məmmədov, Canəli Əkbərov, əməkdar artist Munis Şərifov, meyxana ustaları Nizami Rəmzi, Kəbir Azəri, qarmonçu Elçin Dadaşov, nağaraçı Cavanşir və başqaları daxil idilər. Daha sonra Moskvada Ostankinoda Vüqar Əhmədin yaradıcılıq gecəsində öz tarımla iştirak etdim. Böyük Vüqar Əhmədin adına layiq bir tədbir keçirildi. Onun yazdığı ssenari əsasında mənim haqqımda film çəkilib. Vaxtilə televiziyada Vüqarın apardığı «Hər gülün öz ətri» verilişində musiqi hissəsinə rəhbərlik etmişəm. Solo konsertimi çəkdirib. Yaradıcılığım barədə radioda, televiziyada oçerklər yazıb. Qızlarımın «hərisini» xalq artisti, ağsaqqalımız Hacı Tələt Qasımov və dostum Vüqar Əhməd veriblər. Ailəvi yaxınlığımız var və mənim övladlarım ona əmi, onun övladları mənə əmi deyərək müraciət edirlər. Vüqarın çox gözəl musiqi duyumu var. Bütün alətlərdə mükəmməl ifa edə bilir.

Vüqar Əhmədin alimliyi, şairliyi, elmi əsərləri, musiqi tədqiqatçılığı göz qabağındadır. Mən ona həmişə deyirəm ki, sən elmimizin, ədəbiyyatımızın, musiqi sənətimizin fədaisi, cəfakeşisən. Otuz illik yaradıcılığı ərzində Vüqar nə qədər işlər görüb. Təvazökarlıqdan uzaq olsa da mənim həyat və yaradıcılığım haqqında «Əfsanəvi tarzən» kitabını yazıb. Bu nəcib işə görə bir daha dostuma təşəkkürümü bildirirəm. Sənət adamı üçün sağlığında bundan böyük qiymət ola bilməz. Etiraf edim ki, bu kitabı yazmaqla Vüqar məni tarixə salıb. Gələcək nəsillər məni ifalarımla, bir də bu kitabla tanıyacaqlar. Adi bir tarzən üçün bundan böyük xoşbəxtlik ola bilməz.

Dostum, qardaşım Vüqar Əhmədin 50 yaşı tamam olur. Əlli illik ömrünün düz 20 ili mənimlə birgə keçib. Mən ona

əvvəlcə cansağlığı, daha sonra isə yaradıcılıq uğurları arzulayıram. Övladları Hüseynin, Almaxanımın toylarını görək. Yaşasın Vüqar Əhməd insanlığı.

Baloğlan Əşrəfov
Müğənni, əməkdar artist

-Vüqar Əhmədlə mən bir neçə vaxtdır ki, dostluq edirəm və bu dostluqdan da çox məmnunluq hissi duyuram. Onun şeirlərinə bəstələnmiş mahnıları ifa etmək mənim üçün həmişə xoş olub.

Vüqarın «Anam mənim» şeirinə bəstələnmiş mahnını ifa edəndə, o mahnının həm sözləri, həm musiqisi çox məhəbbətlə qarşılandı.

Bu yeni il gecəsində ifa etdiyim «Gül üzlü yarım» mahnısının sözləri də həmçinin Vüqar Əhmədə məxsusdur. Vüqarın gözəl düşüncəsi, yüksək intellektual səviyyəsi və həddən ziyadə sadəliyi onu tanıyanlara sevdirməyə bilmir. Onun şeirlərində, istər təfəkküründə çox böyük həssaslıq və həyat eşqi var və mən arzu edərdim ki, bu həyat eşqi heç zaman sönməsin. Biz nəğməkarların onun kimi insana, onun kimi şairə həmişə ehtiyacımız var. Vüqara böyük uğurlar, həm də Tanrı yolçusu kimi müqəddəslik arzu edirəm.

Tofiq İmişli
Şair, İmişli rayonu

Vüqar Əhməd – 50

Vüqar Əhməd bu gün nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda yaxşı tanınan, sevilən, nəğmə dolu misraları oymaq – oymaq yayılaraq ürəkləri fəth edən, özünə geniş oxucu auditoriyası qazanan söz sahiblərimizdəndir.

Mən onu çoxdan tanıyır, aramızda böyük və səmimi do-

stluq əlaqələri vardır.

Vüqar Əhməd bir insan kimi gözəl xasiyyətli, sözünə, düz, əhdinə vəfalı, dostluqda sədaqətli, peşəsini dərindən sevən, tükənməz enerjiyə və istedada malik şair və publisistdir. Onun sözlərinə yazılmış mahnılar həmişəyaşar nəğmələr kimi istedadlı müğənnilərimizin repertuarını bəzəyir və müəllifinə el məhəbbət qazandırır. Vüqar Əhməd bu gün cəmiyyətdə özünə şərəfli yer tuta bilmişdirsə, bu, müəyyən mənada həyatın bir qanunauyğunluğu kimi bütün ona rəğbət bəsləyənləri, o cümlədən məni də qəlbən sevindirir və fəxr edirəm ki, belə gözəl insan və istedadlı şairlə dostluq edirəm.

Dəfələrlə onun Bakıda, Sumqayıtda və digər yerlərdə keçirilən yaradıcılıq gecələrində iştirak etmiş, onun oxucular tərəfindən necə rəğbətlə qarşılanmasının şahidi olmuşam. Belə bir sual meydana çıxa bilər: Vüqar Əhmədi bu qədər sevdirən, şöhrətləndirən nədir? "Cavab, məncə çox sadədir: Əvvəla, onun bir insan kimi bütün gözəl keyfiyyətlərə malik olması, ikinci, onun qələmindən çıxan, qəlbləri ehtizaza gətirən nəğməli şeirləri və nəhayət, onun yazdığı şeirlərə bəstələnmiş mahnılar.

Vüqar Əhməd xoşbəxt insandır ki, özünə əsl el məhəbbəti qazana bilib. Onun musiqi ilə bağlı qələmə aldığı verlişlər Azərbaycan radiosunun "Qızıl Fondu"na daxil olub.

Vüqar, eyni zamanda, istedadlı alim kimi elm dünyamızda özünəməxsus yer tutur. O belə hesab edir ki, elm yolunu seçməklə doğma Azərbaycana daha çox xidmət etmiş olar. Bu əqidə onun 100-dən çox elmi, publisistik, tənqidi məqalə və bədii yazıların müəllifi olmasına və şöhrətlənməsinə səbəb olmuşdur.

Mən Vüqar Əhməddə bir keyfiyyət də müşahidə etmiş və şəxsən şahidi olmuşam ki, o, bir çox musiqi alətlərində ifa etməyi bacarır, eyni zamanda xalq mahnılarımıza, xüsusən muğamlarımıza dərindən bələddir.

Şairliyindən söz düşəndə Vüqar Əhməd belə deyir: "Mən

özümü şair hesab etmirəm, yalnız nəğmə yazıram". Onun haqqında saatlarla danışsan da, keyfiyyətlərinin hamısının əhatə etmək o qədər də asan deyildir. Ona görə fikrimi yekunlaşdıraraq onu 50 yaşının tamam olması münasibətilə təbrik edir, ona elm və sənət yollarında yeni-yeni nailiyyətlər, möhkəm cansağlığı və ailə səadəti arzulayır. Sonda bu münasibətlə yazdığım şeiri dostum Vüqara ünvanlayıram:

Artıq əlli yaşı yola salırsan,
Gələn illərindən ilham alırsan,
Maşallah, baxıram, cavan qalırsan,
Ad günün mübarək, ay Vüqar Əhməd.

İlləri şərəflə vurursan başa,
Ömrünün yelkəni dəyməsin daşa.
Yaşa, qələminlə hər zaman qoşa
Ad günün mübarək, ay Vüqar Əhməd.

Bir dağsan, zirvəsi bəmbəyaz qardır,
Bir çeşməsən, suyun daim axardır,
Qəlbini oxşayan kamandır, tardır.
Ad günün mübarək, ay Vüqar Əhməd.

Oğlun Hüseynin toyun görəsən,
Dostlarla şənlənib, deyib – gülәsən,
Nəvə ətri nədir, onu bilәsən,
Ad günün mübarək, ay Vüqar Əhməd.

Neçə müğənniyə əl yetirmisən,
Ümid yeri olub qəlbdə bitmisən,
Tofiq İmişlini çox şad etmisən
Ad günün mübarək, ay Vüqar Əhməd.

Qədir Məmmədov
Müğənni

- Əgər Vüqar Əhməd haqqında xoş söz demək mənə də nəsib olursa, mən buna çox şadam.

Vüqar haqqında həm bir insan kimi, həm güclü filoloq, həm də duyumlu şair kimi çox söz demək olar. Vüqarla mənim dostluğum var və mən bu dostluq etdiyim müddət ərzində təəssüf edirəm ki, onun mahnısını ifa etməmişəm. Amma çox güman ki, yaxın bir vaxtda Vüqar Əhmədin şeirinə bəstələnmiş mahnının növbəti ifaçısı olacağam. Mən həyatda özümə nə arzu edirəmsə, Vüqar Əhmədə də onu arzu edirəm. Həyatın məna dolu, keşməkeşli yollarında hamar cığır və bu cığırın sonunda isə bundan uca mövqe fəth etməyi arzu edirəm.

Elşad Qarayev
Müğənni

-Mənim Vüqar Əhmədlə tanışlığımın qəribə tarixçəsi var. 1991-ci ildə Novruz bayramı ərəfəsində «Muğam» teatrı ilə İrana getmişdik. Orada otelə gedərkən otaqda gördüm kimsə mənə farsca müraciət etdi. Mən isə farsca bilmədiyimə görə tərcüməçi axtardım ki, görüm bu adam nə deyir. Bir də gördüm ki, Vüqar bərkdən gülüb özünü təqdim etdi və tanışlıq verdi. Dedi ki, mən tarda müşayiət edəcəyəm sən oxu, elə də etdik. Və çox da maraqlı alındı. Beləliklə, Vüqarla mənim dostluğum başlandı. 1996-cı ildə isə o, mənim mahnılarımın fonda düşməsində çox yaxından köməklik göstərdi. Baxmayaraq mənim ifa etdiyim «Zəngi» mahnısına qəzetidə iradını bildirmişdi və mən o iradın yerində olduğuna inandığıma görə bizim dostluğumuz daha da yaxınlaşdı. Vüqar Əhməd səmimiyyətinə, insanlığına və yüksək elmi bacarığına görə çox diqqətə və məhəbbətə layiqdir. Onun şeirləri, istərsə də danışıq tərzi adama sanki rahatlıq, həvəs

gətirir. Həyatda mübariz olan Vüqar Əhmədə ən xoş diləyim ailə xoşbəxtliyi, elmdə yüksəliş, ədəbiyyatda ulduz, musiqidə şirinlikdir. Səni həmişə bəxtiyar görək, Vüqar Əhməd!

V.Əhməd haqda sənətçilərimizin fikirləri çoxdur. Həmin fikirləri toplayıb bir kitab yazmaq olar. Ancaq biz sizə Vüqar Əhmədin ünvanına deyilmiş gözəl,səmimi fikirlərdən bir qismini təqdim edirik.

Mobil Babayev

Bəstəkar, Əməkdar incəsənət xadimi

-Vüqar Əhməd haqqında çox sox deyə bilərəm. Bilmirəm ona bəstəkar deyim, şair deyim, yoxsa ədəbiyyatşünas deyim. Sadəcə onu deyə bilərəm ki, Vüqarın gənc olmasına baxmayaraq o, çox istedadlı bir insandır. Onu tək biz bəstəkar dostları deyil, bəlkə də bütün incəsənət xadimləri – sevir və hörmət edir. Hal-hazırda Vüqar Əmədin sözlərinə bir mahnı bəstələyirəm və bu mahnını da müğənni Aygün Hümbətova ifa edəcəkdir. Vüqara yaradıcılıq işlərində yeni-yeni müvəffəqiyyətlər arzulayıram. Əminəm ki, onun pərəstişkarları bu təzə qədəm qoyduğumuz ildə də yeni mahnılarını müğənnilərimizin ifasında eşidəcəklər.

Rauf Məmmədov

Bəstəkar

-Vüqar Əhmədlə mənim tanışlığım 1986-cı illərdən başlayıb.

Onunla 1993-cü ildə bir yerdə çalışmışıq. Onun şeirlərinə mənim musiqi bəstələdiyim bir çox mahnılar var ki, o mahnılar indiki populyar müğənnilər tərəfindən ifa edilib və rəğbətlə da qarşılanıb, «Eşqinə qul olmuşam» mahnısını Şamo İsayev ifa edib. Baloğlan Əşrəfovun ifa etdiyi «Anam mənim", Zöhrə Abdullayevanın «Qarabağdayam», «Biləbilə» Yusif Mustafayevin «Bacılar», yenə Zöhrə Abdullaye-

vanın mahnıları artıq indi populyarlıq qazanıb. Vüqar Əhmədin dini mövzuda yazdığı şeirlərin musiqisi də çox gözəldir və mən onun «Ya Rəbbim» dini şeirinə musiqi bəstələyirəm. «Qardaş» haqqında şeirinin musiqisi üzərində işləyirəm. Vüqar Əhmədə sürpriz kimi bir şeyi qeyd etməyi istərdim. Onun «Sevgilim» şeirinə mən musiqi bəstələməli idim. Lakin mən ona «Sevgilim» yox «Afətim» kimi musiqi bəstələdim. Həmin mahnı həm məndən, həm Vüqar Əhməddən onun gözəl, mehriban bacısı Afət xanıma bir hədiyyədir. Mahnını sevimli müğənnimiz Sabir Əliyev ifa edəcək.

Ümumiyyətlə, Vüqarın şeirlərinə bəstələdiyim 12 musiqini albom kimi işləyib musiqisevərlərə və Vüqarsevərlərə təqdim edəcəyəm.

Vüqar mənim həm özümün, həm ailəmin ən yaxın dostudur.

Onun çox böyük ürəyi, gözəl bacarığı, həyata çox aydın baxışı var. Həm elm sahəsində, həm ədəbi sahədə Vüqar dəst-xətti artıq özünə yer tapıb və mənə elə gəlir ki, gənc nəslin nümayəndəsi üçün bundan böyük xoşbəxt günlər olmaz və mən ona mübarizələrlə dolu hə yatda dönməzlik arzu edirəm. Qoy Tanrı özü ona yar olsun!

Füzuli Nəcəfov
Muğam cəfakeşi, dostu

Əqidə adamı

Vüqar Əhmədi Azərbaycan televiziyasında işlədiyi vaxtlardan, yəni 90-cı illərin əvvəllərindən tanıyıram. O vaxt necə idisə, indinin özündə də həmin sadəliyi, insansevərliyi, dosta qarşı diqqətciliyi qoruyub saxlaya bilib. Mən inanmıram ki, həqiqi söz adamları kiməsə pislik etsinlər. Bu onların fikrində olan paklıqdan, mərhəmətlikdən irəli gəlir. Vüqar Əhməd əqidə adamı olmaqla yanaşı, onun böyük ürəyində

zərrə qədər paxıllıq, həsəd, insanın arxasınca danışmaq hissi qətiyyən yoxdur. Onun qəlbi olduqca kövrəkdir, həssasdır. Bu ali keyfiyyətlərinə görə mən ona sonsuz hörmət və ehtiram bəsləyirəm. Onu özümə yaxşı dost, etibarlı insan, məsləkdaş, nəhayət qardaş hesab edirəm.

Vüqar Əhməd müasir dövrümüzün tanınmış nəğməkar şairidir. Vüqarın sözlərinə bəstələnmiş onlarla yaddaqalan mahnılar və «Anam mənim» mahnısı isə qədirbilən ovladın, ölməz anası Hacı Almaxanımın timsalında bütün analara həsr etdiyi əsl sənət əsəridir. Allah onun anasına qəni-qəni rəhmət eləsin. Nə yaxşı ki, o, təmiz dünyaya Vüqar kimi təmiz bir oğul bəxş edib. Vüqar Əhməd əsli, kökü, mayası halallıqdan yoğrulmuş bir nəslin nümayəndəsidir. Vüqar Əhməd hal-hazırda cəmiyyətimizdə sevilib-seçilən hörmətcil bir insandır. Bütün bu hörməti o özü qazanıb. Məncə, Vüqar Əhmədin həyatda ən böyük uğuru – əsl insan olmasıdır.

Mən onu insanlıq mücəssəməsi adlandırardım. Biz belə bir əvəzsiz insanı qorumalıyıq. Ona mənəvi cəhətdən hər zaman dəstək olmalıyıq. Vüqar Əhməd çoxşaxəli yaradıcılıq yolu keçib. Filologiya elmləri doktoru, professor, tədqiqatçı, ədəbiyyatşünas, şair, jurnalist, musiqi tədqiqatçısı, pedaqoq, bəstəkar, yazıçı, nəhayət söz xiridarı, 30 kitab müəllifidir. Əlli illik ömrünün 30 ilini elm aləminin, ədəbiyyatın, musiqinin, mətbuatın inkişafına sərf edib. Mən elm, sənət dünyamızda ayrı-ayrı sahələri mükəmməl şəkildə birləşdirən Vüqar Əhməd kimi ikinci qələm sahibi tanımıram.

Vüqar Əhmədə bir də ona görə hörmət bəsləyirəm ki, o bizim muğam aləminin bilicilərindəndir. Mən özüm də muğamın vurğunuyam. Hər dəfə muğam səslənəndə öz dünyama qovuşuram. Vüqar Əhmədlə hər dəfə qarşılaşanda muğamla bağlı söhbətlər edirik.

Bir neçə il bundan qabaq Vüqar Əhmədin xalq artisti dostum Firuz Əliyevin 60 illiyinə qələmə aldığı «Əfsanəvi tarzən» kitabına «Barmaqları mizrablı dostum» adlı məqaləm daxil edilmişdi.

İndi isə Vüqar Əhmədin 50 illiyinə həsr edilən «Vüqar Əhmədin yaradıcılıq yolu» əsərinə böyük fəxr hissi ilə ürək sözlərimi yazdım. Bu dəfəki məqaləyə belə ad verdim: «Əqidə adamı». Mən yaşadığım həyatda əqidəsini heç nəyə dəyişməyən bütöv insan, dostum, qardaşım Vüqar Əhmədi anadan olmasının 50 illik yubileyi münasibətilə təbrik edirəm. Qoy onun müqəddəs qələmi hər zaman xalqımıza xidmət etsin! Amin!

Tofiq Hüseynli,
Sabiq millət vəkili, iş adamı,
Sumqayıt şəhəri

Kamil insan

Mən filologiya elmləri doktoru, professor, tənqidçi-ədəbiyyatşünas, musiqi tədqiqatçısı, şair, jurnalist, yazıçı, pedaqoq Vüqar Əhmədi çoxdan tanıyıram. Həmişə onu müşahidə edərkən görürəm ki, o nə qədər əməli-saleh, saf niyyətli, sözü bütöv dəyərli insandır, əqidəli şəxsiyyətdir. Onun xarakterilə qələmə aldıqları üst-üstə düşür. Bu amil hər bir yaradıcı insan üçün olduqca mühüm şərtdir. Otuz illik yaradıcılıq yoluna nəzər salarkən bu insanın kamilliyi, zəhmətsevərliyi məni heyran qoyur. Əlli yaşında böyük işlər görərək ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə, mətbuatımıza, təhsilimizə, poeziyamıza, elmimizə əvəzsiz töhfələr bəxş edən Vüqar Əhmədin qədrini bilməliyik. Ona həmişə səxavətimizi, məhəbbətimizi göstərməliyik. Mən onun sənət dünyasına həmişə qiymət vermişəm. Bundan sonra da ona münasibətim dəyişməyəcək. Ona görə ki, Vüqar Əhməd əsl ziyalı kimi xalqımıza lazımdır. Mən onun yaradıcılıq gecəsində dəfələrlə görmüşəm ki, dəyərli qələm sahibini oxucular yüksək qiymətləndirirlər. Mən özüm də onun yaradıcılığının vurğunuyam. Şeirlərini oxuyarkən saatlarla ona qulaq asmaqdan doymuram. Sözlərinə yazılmış mahnılardan böyük zövq alıram. Vüqar Əhməd sağlığında o biri dünyasını qazanan imanlı insan, tıxsız

balıq, dəyərli dostdur.

Mən inanmıram ki, Vüqar kiminsə ürəyinə toxunsun, ailəsinə, dostlarına xəyanət etsin. Böyüyə hörmət edən, ağsaqqallara baş əyən, elin xeyrindən, şərindən geri qalmayan, gənc yaşında müdrikləşən, incə qəlbə malik olan varlıqdır Vüqar Əhməd. O artıq çoxşaxəli yaradıcılığında elə bir irs qoyub ki, gələcək nəsillər Vüqar Əhmədin yaratdıqlarından bəhrələnəcəklər. Vüqar Əhmədin yaradıcılığı, tutduğu nəcib əməllər artıq tarixdir. Mən bu fikri cəsarətlə, inamla deyirəm. Vüqar Əhmədin gördüyü tarixi işlər göz qabağındadır. Çox haqlı olaraq akademik Vasim Məmmədəliyev ona «Vüqar Əhməd – dini şair» statusunu verib, xalq şairi Məmməd Araz isə «Vüqar Əhmədin öz deyim və yazı dili var» qiymətli fikirlərini bildirib. Vüqar Əhməd olduqca sadə bir insandır. Əslində onun mərtəbəsi, səviyyəsi çox böyükdür. Bu günə kimi cəmiyyətimizdə sanbalını, çəkisini hər şeydən üstün tutan Vüqar Əhmədin 50 yaşı tamam olur. Bu münasibətlə, şəxsən mənim üçün belə bir əziz gündə dostumu təbrik edir, ona özünəməxsus yaradıcılıq yolunda yeni-yeni əsərlər yaratmaq, cansağlığı, tükənməz enerji arzulayıram.

Əlfüqar Qasımov
İş adamı, Corat qəsəbəsi

Söz adamı

Mən söz xridarı Vüqar Əhmədi ilk dəfə milli televiziyamızda aparıcı olduğu verilişdən qiyabi tanımışam. O gündən onunla təmasda olmaq arzusu ürəyimdə yaşayıb. Onunla yaxından tanışlığım isə dəqiq yadımdadır. Memar Məhəddin Feyziyevin 2007-ci ilin yanvarın 21-də 50 illik yubileyi keçirilirdi. Məhz həmin tədbirdə Vüqarla tanışlığım nəsibim oldu. Məclisdəki çıxışı, yubilyarın ünvanına söylədiyi təbrik məndə belə bir qənaət yaratdı ki, Vüqar Əhməd həqiqi mə-

nada söz adamıdır. Ürəyi şeirə, ədəbiyyata bağlı olan həqiqi şair, elm xadimidir. İlk tanışlığımızda münasibətlərimiz elə istiləşdi ki, aramızda yaş fərqinə baxmayaraq yaxınlığımız dostluğa döndü.

Mən özüm təhsilimi rusca almışam. Rus şairlərinin şeirlərinin çoxunu əzbərdən bilirəm. Hər dəfə onunla görüşəndə söhbətimiz əsasən şeirdən düşür. O məndən xahiş edir ki, Puşkinin şeirlərini orijinaldan söyləyim. Mən də şairin xahişini yerə salmıram. Bununla yanaşı Füzulinin, Vahidin qəzəlləri, Nəbi Xəzrinin, Vüqar Əhmədin şeirləri yaddaşıma həkk olunub. Vüqar Əhmədin şeirlərində Vətənə, dostluğa, insanlığa, məhəbbətə həsr olunmuş poetik nümunələr üstünlük təşkil edir.

Vüqar Əhmədin bir ədəbiyyatşünas alim kimi qələmə aldığı monoqrafiyalar, tənqidi məqalələr elm dünyamıza bəxş etdiyi töhfədir. Musiqi tədqiqatçısının, tanınmış sənətkarlarımızın həyat və yaradıcılığına həsr etdiyi silsilə televiziya və radio verilişləri əvəzsiz bir nemətdir. Mən Vüqar Əhmədin hər bir uğuruna qəlbdən sevinirəm. Ona görə ki, Vüqara münasibətimdən, yaxınlığımdan, dostluğumdan fəxr duymuşam. Vüqar Əhmədin 50 yaşı üçün söz demək mənim borcumdur. Ona görə ki, bu kitabı oxuyanlar görsünlər ki, Vüqarın necə sədaqətli dostları var. Bu sözlər mənim ürəyimin dərinliklərindən gəlir. Mən böyük hörmət və nüfuz sahibi Vüqar Əhmədi 50 illik yubileyində bağrıma basıram, bərk-bərk qucaqlayıram, ürək arzularımı ona çatdırıram. Yaşasın Vüqar Əhmədin sənət aləmi, söz dünyası!

Rəşid Süleymanov
İş adamı, dostu

Yaradıcı insan

Mən nə alim, nə professor, nə də yaradıcı insan deyiləm, amma həmişə əsl sənət adamlarına böyük hörmətim olub. Böyük şəxsiyyətlərdən biri də tanıdığım, sonsuz ehtiram bəslədiyim Vüqar Əhməddir. Ona nəğməkar-şair, vətənini se-

vən, söz dünyası zəngin olan elm adamı, publisist kimi rəğbətim var. Vüqar Əhməd mənim üçün olduqca maraqlı insandır. Adam var vəzifə sahibi olduğuna görə özünü çəkir. Camaata yuxarıdan aşağı baxır. Vüqar Əhmədin də kifayət qədər vəzifələri olub, amma vəzifə, mənsəb stolu onu, əqidəsini dəyişməyib. Daima sadəliyi, iş yoldaşlarına diqqət və qayğısını əsirgəməyib. Məncə bu alimlər onu başqalarından fərqləndirib. Bir də ki, əsl şair, əsl sənətkar məhz Vüqar Əhməd kimi insanı keyfiyyətlərə malik olmalıdır. O, mənim yaddaşımda belə qalıb. Taleyin qisməti elə gətirib ki, Vüqar Əhməd ad günümdə masabəyi olub. Məclisi elə yüksək səviyyədə idarə etdi ki, bütün qonaqlar onun yüksək səviyyəsinə heyran oldular. Vüqar Əhməd zəngin mütaliəsi olan qələm sahiblərindəndir. Vüqarın söz ehtiyatı o qədər çoxdur ki, söylədiyi fikirlər, dediyi aforizmlər, verdiyi maraqlı açıqlamalar dinləyicilərini ona diqqətlə qulaq asmağa sövq edir. Vüqar Əhməd olduqca gözəl şairlərimizdəndir. Onun şeirlərində Yunis İmrə, Əhməd Yasəvi, Zəki İslam kimi saf şairlərin ruhu duyulur. XIV-XV əsrlərdə fəaliyyət göstərən sufi şairlərin nişanəsi var Vüqar Əhmədin poetik nümunələrində. Mən Vüqar Əhmədə 50 yaşının tamam olduğu gündə nə arzulaya bilərəm. Yeni zirvələri fəth etsin, yeni şeirlər, yeni elmi əsərlər yazsın. Həmişə Vüqar Əhmədin çıxışlarını televiziya ekranlarından, radio dalğalarından görüb eşidirik, məqalələrini mətbuatdan oxuyuruq.

Poladxan Dadaşov
İş adamı, dostu

Qürur hissi

Həyatda özümə yaxın bildiyim şəxsiyyətlərdən biri Azərbaycan xalqının sevimli şairi, əzizim, istəklim, mülayim xasiyyət sahibi olan Vüqar Əhmədin adını qürur hissi ilə çəkirəm. Tanışlığımızın səbəbkarı xanəndə, xalq artisti Zabit Nəbizadə olub.

Vüqar Əhmədin sözlərinə yazılmış «Azərbaycan» mahnısını Zabit Nəbizadənin ifasında eşidəndə qəlbim vüqarlanır, elə bil dağa dönür. Ona görə dağa dönür ki, bu sözlərin sahibi olan şairin mənim qəlbimdə xüsusi yeri var. Vüqarın yaxşı yol yoldaşlığı var. Şairlər, sənətkarlar torpağı Şamaxıya mən, Vüqar və Zabit bir yerdə səfərə getmişik.

Ölməz Seyid Əzim Şirvaninin qəbrini ziyarət etdik. Dahi Sabirin ev muzeyində olduq. Vüqar Əhməd hər iki şairdən bizə şeirlər söylədi. Vüqar mənə kitablarını bağışlayıb. Vaxt tapıb poemasını oxumuşam. İstər alim, istər publisist, istərsə də musiqi tədqiqatçısı kimi yazdığı əsərlərdə ən böyük qəhrəman insandır. Hər şeydən əvvəl Vüqar Əhməd gözəl insandır ki, Azərbaycanın tanınmış simalarından mükəmməl monoqrafiyalar, elmi məqalələr, publisistik yazılar qələmə alaraq ədəbiyyatımızda, mədəniyyətimizdə, incəsənətimizdə uca zirvəyə qalxıb.

Mən böyük məmnuniyyətlə 50 yaşı tamam olan dostum Vüqar Əhmədin ünvanına ürəyimin dərinliklərindən sözlərimi söylədim. Görkəmli ziyalımızı əlamətdar hadisə münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, uğurlar arzulayıram.

Fikrət Gülməmmədov,
Məktəb yoldaşı

Vüqar, yaşa-yarat

Biz Vüqarla oxuduğumuz Mikayıl Müşfiq adına 18 saylı orta məktəbdən tanışıq. Mən ondan bir sinif yuxarıda oxumuşdum. O mənim bacımla bir sinif şagirdləri idilər. O illərdən bizim münasibətlərimiz yarandı. Bir yaş ondan böyük olmağıma baxmayaraq onunla məktəb yoldaşlığımız isti (türklər demişkən sıcak) yaxınlığa keçdi. Asudə vaxtlarımızda Vüqarla gəzməyə çıxar, maraqlı söhbətlər edərdik. Beləcə uzun illərdir ki, onunla dostluq edirik. Düzdür, işlərimizin

çoxluğundan Vüqarla tez-tez təmasda ola bilmirəm. İmkan tapan kimi zəngləşirik, hal-əhval tuturuq. Görüşüb məktəb vaxtlarını şirin xatirə kimi yada salırıq. Mütləq bir yerdə nuşcanlıqla çörək yeyirik. Onu hər dəfə televiziya ekranlarında görəndə ürəyimdə qürur hissi yaranır. Fəxr edirəm ki, Vüqar Əhməd kimi ləyaqətli insan mənim məktəb yoldaşım olub. Onu özümə əziz bir qardaş hesab edirəm.

Biləndə ki, Vüqarın 50 yaşı tamam olur və mən də kitaba ürək sözlərimi yazmalıyam dərindən sevindim. İllər məni məktəb dövrünə apardı. Nə gözəl günlər idi, Vüqar. Qayğıdan uzaq idik. O günlərə bir daha qayıtmaq istərdim, Vüqar. Sənin haqqında yazılmış kitab məni hər dəfə o illərə qaytaracaq. Nə yaxşı ki, «Vüqar Əhmədin yaradıcılıq yolu» kitabı var. Sağ olsun kitabın müəllifləri – Rasim Nəbioğlu ilə Müşfiq Cabiroğlu.

Vüqar 50 yaşını təbrik edirəm. Yaşa-yarat, biz də baxaq, şadlanaq. Sənə cansağlığı arzulayıram, mənim məktəb yoldaşım. Filologiya elmləri doktoru, professor, tənqidçi-ədəbiyyatşünas, jurnalist, musiqi tədqiqatçısı, şair, tərcüməçi, bəstəkar, nəhayət, söz adamı Vüqar Əhməd…

Mirnazim Əsədullayev
Respublikanın əməkdar artisti, dosent, kamançazən

Vüqar Əhməd

Vüqar Əhməd şair, ədəbiyyatşünas, alim olmaqla yanaşı, həm də əsl dost, gözəl yoldaş və sirdaşdır. Bu sözlərimi təkcə mən yox, V. Əhmədlə yol yoldaşı olan hər bir kəs təsdiq edə bilər. V.Əhməd o insanlardandır ki, Allah ona hərtərəfli qabiliyyət, bilik və bacarıq vermişdir. Onun həyatda qazandığı nailiyyətlərin arxasında gərgin əmək, yuxusuz gecələr, yorulmadan aparılan elmi axtarışlar durur. V.Əhməd istedadlı alim, şair olmaqla yanaşı, həm də musiqimizi, muğamlarımızı dərin

bildiyi üçün, özü hərdən musiqi bəstələyir. Yəni o, musiqini o qədər gözəl, dərindən bilir ki, onun sözləri sanki musiqi mətnidir. Bəstəkarların V.Əhmədin şeirlərinə tez-tez müraciət etməsi təsadüfi deyil, çünki o şeirlə yanaşı musiqini də gözəl bilir. Onun şeirlərinə musiqi bəstələmək bəstəkarlarımız üçün çətinlik törətmir. Onun sözlərinə 500-dən çox mahnı bəstələnmiş, 7 video və bir neçə kaset, kompakt disk albomu "Səbuhi" studiyası tərəfindən kütləvi tirajla buraxılmışdır.

V.Əhmədlə tanışlığımın maraqlı tarixçəsi var. Belə ki, mən 12 saylı uşaq musiqi məktəbində işləyərkən V.Əhməd 1972-1979-cu illərdə həmin məktəbin violonçel sinfində təhsil alırdı. Elə o vaxtlar bu qarabəniz, toppuş uşağın çalışqanlığı, insanlarda onun parlaq gələcəyinə inam hissi yaradırdı.İllər ötdü, V.Əhmədlə mən nəinki yoldaş olduq, indi biz bir-birimizə qırılmaz tellərlə bağlanan dostlarıq. O, dostluqda sədaqətli, etibarlı, verdiyi sözünə əməl edən bir insandır.

2008-ci il yanvarın 27-də Moskvada Dünya Azərbaycanlılarının Konqresi keçirildi. Həmin vaxt Moskvanın Ostankino studiyasında V.Əhmədlə görüş keçirildi və əziz dostumun 45 yaşı təntənə ilə qeyd olundu. V. Əhmədin vətəndən uzaqda olmağı hiss olunmurdu. Çünki, mənimlə bərabər tədbirdə Azərbaycanın tanınmış sənət adamlarından Respublikanın xalq artisti, tarzən Firuz Əliyev, Respublikanın xalq artisti, xanəndə Ağaxan Abdullayev və başqaları da iştirak edirdi.

Filologiya elmləri doktoru, professor Vüqar Əhmədin həyat və yaradıcılığı çox zəngindir. O, "Füzuli-500", 2 dəfə "Zirvə", "M.Araz","A.Şaiq", "Min bir mahni","Məftunedici qələm", "Sənətin fatehi" və s. mükafatların laureatı, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, "Muğam" assosiyasiyasının, Dağıstan Ədəbiyyatçılar İttifaqının üzvüdür. Elmi əsərləri bir çox xarici ölkələrdə dərc olunub,

Azərbaycan-İran ədəbi və mətbuat əlaqələri sahəsində xidmətlərinə görə "Araz" ali ədəbi mükafatına layiq görülüb.Onun külli miqdarda elmi, ədəbi- bədii və publisistik məqaləsi, radio

üçün 60-dək ədəbi- bədii verlişi vardır.

1997-2006-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin musiqi verlişləri redaksiyasında baş redaktorun müavini işləmişdir. V. Əhmədin istəyilə mən "Nəva" və "Rahab" muğamlarını lentə yazdırdım. Həmin illərdə Azərbaycan Televiziyasında "Hər gülün öz ətri" adlı musiqili veriliş yayımlanırdı. O, xalqımızın sayılıb, seçilən, sevilən sənət adamlarını həmin verlişə dəvət edir, onların tamaşaçılarla ekran vasitəsilə ünsiyyətinə vasitəçi olurdu.

V.Əhməd bizim ən istedadlı alimlərimizdən biridir. O, "Mir Cəfər Pişəvərinin həyatı, mühiti və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasında bütövlükdə Pişəvərinin tam simasını canlandırmışdır. Azərbaycan oxucusuna Pişəvəri haqqında tam tədqiqat məhz V.Əhmədə məxsusdur. Bu elmi əsər V.Əhmədi bizə mükəmməl bir alim kimi tanıdır.Ancaq biz V.Əhmədi təkcə bir alim kimi tanımırıq. O, həm də musiqiçi, şair, nasir və dramaturqdur. Yüksək insani keyfiyyətlərə malik olan V.Əhməd saydıqlarımla yanaşı həm də gözəl insan və etibarlı dostdur. Mənim dediklərimi onunla ünsiyyətdə olan, yoldaşlıq edən hər bir kəs təsdiq edə bilər.

İnanıram ki, V.Əhmədin istedadı, bacarığı, savadı bundan sonra da uzun illər Azərbaycanın elminə, musiqisinə, poeziyasına öz töhfəsini verəcək.

Mən bu ürək sözlərimi 2013-cü ildə 50-illik yubileyi qeyd olunacaq əziz dostum V.Əhmədə hədiyyə edirəm.

Şərafəddin İLKİN
Şair, publisist

İşıq dolu ömür

Ziyalı işıqdır, nurdur...

Ziyalı millətin döyünən ürəyidir, görən gözüdür, ölməz ruhudur.

Ziyalı haqqın işığını üzündə, can evində gəzdirən insandır.

Söhbət əsl ziyalıdan gedir. Vüqar Əhməd ziyalıdır, haqqsızlıq önündə susmayan ziyalıdır, haqqın yanında dayanan, sözü məqamında deyən mükəmməl təfəkkür sahibidir. 50 il öncə dünyaya göz açsa da, dünyanı dağılmaya qoymayan yaxşı söz sahiblərindən biridir. O, əsl Azərbaycan oğludur. Türk dünyasının böyük alimi, nəğməkar şairidir. Yazdığı kitablardan, oxuduğu mühazirələrdən, şeir və hekayələrində, televiziya ekranlarında, radio dalğalarında bir ziyalı-şair kimi özünü dəfələrlə təsdiqləyən, dərin məntiqi, bilik və zəkası ilə hər kəsi heyrətləndirən Vüqar Əhməd işıq dolu bir ömür sürür, yaşının kamillik çağını yaşayır.

Filologiya elimləri doktoru, professor Vüqar Əhməd Azərbaycan mədəniyyətinin, dilinin, folklorunun, ədəbiyyatının və ənənəvi xalq sənətinin ümumtürk aspektində və dünya mədəniyyəti ilə əlaqələndirməyi bacaran alim, gözəl şairdir.

Öz əməlləri, qəhrəmanlıqlarla dolu keçmişi və bugünkü hünəri ilə tarixin şanlı səhifələrini yazan Vətən oğullarının vətəndaşlıq borcunu, bu yurdun dərdini, ağrı-acılarını öz qələminin məhsulu ilə gələcəyə çatdırmaq istəyən yazarlarımız yetərincədir. Vətənə qayıtmaq ovqatlı, yurda dönmək əhvalruhiyyəli qələm sahibləri hər zaman öz soydaşlarının dərdsəri ilə maraqlanmış, başı bəlalı, müsibətlər çəkmiş zavallı insanların qəlbinə həzinlik gətirməyə, təsəlli olmağa çalışmışlar. Belə yazarlardan biri də şair Vüqar Əhməddir. Onun üslub və janrına görə bir-birindən maraqlı bədii nümunələrini oxuduqca heyran qalmaya bilmirsən. V.Əhməd yazdıqca, ürəyini ağ vərəqə boşaltdıqca özü də elə bil sakitləşir, mənən təsəlli tapır. Həmişə ürəyini ağ vərəqə köçürtdükcə, sonra onu nəğməyə çevirdikcə özü də rahatlıq tapır. .

V.Əhməd gözəl şair, dəyərli alim olmaqla yanaşı səmimi dost, sözün əsl mənasında, YAXŞI ADAMDIR. Dostlarının hər birinin sevincini sevinci, kədərini kədəri bilən Vüqar Əhməd həddindən ziyadə diqqətcil, həssas adamdır. Hər kəsə yanaşma qaydasını bilir. Heç kimin xətrinə dəyməz. Dərdinə şərik olmağa çalışan bir ziyalıdır. Dostlarını bir-birinə təqdim etməyə, əhatə dairəsini daim genişləndirməyə çalışan

adamdır.

Vüqar Əhmədi Azərbaycanda nəğməkar şair kimi tanıyırlar. O, doğrudan da nəğməkar şairdir. Elə bir azərbaycanlı oxucu tapılmaz ki, onun şeirlərindən heç olmasa birini əzbər bilməsin. Elə bir məclis ola bilməz ki, onun mahnıları səslənməsin.

Hifz eyləyən duasıdır,
Səsi quran sədasıdır,
Anaların anasıdır,
Anam mənim.

və ya

Qardaşlara dayaqdı,
Xəstələnsəm oyaqdı,
Bacılar bu sayaqdı
Sizə qurban bacılar.

kimi nümunələrə bəstələnmiş mahnıları dillər əzbəridir.

Şeirlərində özü olan, sözünü çəkinmədən deyən, içini, ürəyini əridən V.Əhmədin iç dünyasını başa düşmək, onun həyat fəlsəfəsini başa düşmək çətin deyil. Vüqar təbii, səmimi və bir az da sadəlövhdü. O, şeiriyyəti canı, qanı ilə qoruyur.

Vüqar Əhmədin ictimai lirik ovqatla, sevgi, məhəbbət duyğulu yaradıcılığından danışmaq olar. Onun poetik örnəklərinin ümumi ovqatı yaradıcılığının daim təzələnməsi, yeni-yeni çalarlar kəsb etməsi fikrini söyləməyə əsas verir.

Belə bahar duyumlu, yaz hissiyatlı şairin poetik dünyası, söz aləmi ilə tanışlıq məndə ona qarşı bir daha məhəbbəti, rəğbəti daha da artırır. Onun yaradıcılığında da, taleyində də baharla oxşarlıq var. Sadəcə, onu duymaq, hiss etmək gərəkdir...

Ömür beşikdən başlanır. Nəhəng çaylara körpə çeşmələr süd verir. Geniş yolların kökü xırda cığırlardır. Balaca evlərin astanasından böyük Vətən dünyasına düşürük. Doğulduğun ocağı duymadan yurdu duya bilməzsən. Hər kəs Azərbaycanı sevməlidir, onun hər bir guşəsinə bağlı olmalıdır. Vüqar kimi… Azərbaycanın hər bir yerində uzaq ulduzların

çağırışından tutmuş torpaqdan zorla seçilən xırdaca çiçəklərin pıçıltısına qədər min bir dildə danışan təbiəti var. Həm də onun Vüqar kimi vüqarlı övladı var...

Vüqar şeiriyyəti ata ocağından, ümman sirri açan damladan, ruhumuza qanad verən bir yuvadan boy verərək Azərbaycanın gözəl görünüşünü yaradır.

Vüqar Əhmədin özünə və sözünə həmişə ehtiyac duyulur.

Vüqar Əhməd hələ cavandır, elmin, sənətin magistral yolu ilə zirvəyə doğru irəlləyir.

Vüqar Əhməd analitik fikir adamı kimi həmişə axtarışdadır.

Vüqar Əhməd 50 yaşını tamamladı, deməli, müdrik yaşına çatdı. Yox, o, həmişə müdrik olub. O, hələ təhsil aldığı illərdə kamil və müdrik bir tələbə kimi tanınıb.

Ömrünün bir əlliliyini səmərəli yaşayan, halal yaşayan, əsl ziyalı kimi yaşayan Vüqar Əhməd ikinci əlliliyini də eyni güc-qüvvətlə, eyni ugurlarla, nailiyyətlərlə yaşayacağına, yeni-yeni kitabları ilə ədəbiyyat elmini daha da zənginləşdirəcəyinə özümə inandığım qədər inanıram. Həm də inanıram ki, gözəl dost, gözəl insan, gözəl şair olan Vüqar Əhməd ömrünün yüz ilini də başa vuracaq, böyük alim, böyük şair kimi, böyük vətəndaş kimi ədəbiyyat tariximizdə əbədi yaşamaq hüququnu saxlayacaqdır.

Rafiq Musazadə
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
professor, Milli Konservatoriyanın
Magistratura şöbəsinin müdiri

Musiqi ona nəfəs verir

Vüqar Mikayıl oğlu Əhməd şəxsiyyəti ilə mənim ilk qiyabi tanışlığım, demək olar ki, on beş il əvvəl, televiziya ekranlaraından başladı. O zamankı dövrdə onun televiziya verilişlərindəki məntiqli çıxışları, musiqi ilə nəfəs alan nəsr əsərləri, mahnılara qol-qanad verən şeir külliyatı bütün poeziya

və musiqisevərlər kimi məni də özünə cəlb etdi. Vüqar Əhmədin iştirakı ilə keçirilən ədəbi-musiqili gecələri, muğam məclislərini maraqla izləməyə başladım. Ona görə məndə Vüqar müəllimlə yaxından tanış olmaq istəyi yarandı.

Tale elə gətirdi ki, mən Vüqar Əhmədlə İran İslam Respublikasının Tehran şəhərində görüşüb tanış oldum. Elə o gündən də qardaşlıq və dostluq münasibətlərini qurmağa çalışdım. Artıq onunla tez-tez görüşər və muğam sənəti, muğamın tarixi, xalq musiqi alətlərinin peşəkar ifaçıları haqqında fikir mübadilələri aparırdıq.

Vüqar Əhməd özü uşaqlıqda violonçel aləti üzrə ibtidai musiqi təhsili almış, sonralar isə kamança alətində çalmağa həvəs göstərmişdir. Məni valeh edən amil odur ki, Vüqar Əhməd artıq bir muğamşünas alim kimi çıxış edir, ifaçıların dəqiq, düzgün çalğı məziyyətlərini izah etməyi bacarır. İndi tam qətiyyətlə deyə bilərəm ki, akademik Vasim Məmmədəliyevdən sonra ikinci elə bir filoloq alim, nəğməkar şair tanımıram ki, Vüqar Əhməd kimi, muğam elminə, ifaçılıq sənətinə dərindən bələd olub, onun araşdırılması ilə məşğul olsun. Söylədiyim fikirlərin təsdiqi kimi Vüqar Əhmədin "Əfsanəvi Tarzən" kitabının əvvəlində verilən "giriş" hissəsini oxumaq kifayət edər. Yeri gəlmişkən onu da qeyd edək ki, Vüqar müəllim, tarzən Firuz Əliyev və Möhlət Müslümovun ifaçılıq məktəbinin aşiqidir.

Vüqar Əhməd nəğməkar şair olmaqla yanaşı filologiya elmləri doktoru, professordur. Yüksək elmi potensiala malik alimdir. O, daima öz üzərində gərgin çalışır. Istədiyinə nail olmasa, araşdırdığı elmi sahəni boş buraxmır. Sanki şeir və musiqi ilə nəfəs alır.

Vüqar Əhməd eyni zamanda sadiq bir dostdur. Bu haqda bir haşiyə çıxmaq istərdim.

- Mən 2006-cı ilin iyun ayında "Dügah dəstgahının tarixi mənşəyi və ifa xüsusiyyətləri" mövzusunda dissertasiya işini müdafiə etməli idim. Müdafiədən qabaq işlərin çoxluğundan

imkan tapıb Vüqar müəllimə avtoreferatımı göndərə bilmədim. O isə yaxın dostlardan müdafiə gününü öyrənərək nəinki orada iştirak etdi, hətta Müdafiə şurasının sədri, xalq artisti, professor, hörmətli Fərhad Bədəlbəylidən çıxış üçün söz aldı və məni layiqincə təqdim edərək öz dəstəyini bildirdi.

Sösüz bu əsl dostluq nümunəsi idi. Mən Vüqar müəllimin bu addımını heç vaxt yaddan çıxartmaram. Vüqar Əhməd çox təvazökar və qəlbiaçıq insandır. Hamı

Zahir Abbas
Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair

Vüqar Əhməd dünyası

Əlimə qələm alıb, tanınmış alim, sevilən şair, sınanmış dost, qayğıkeş ailə başçısı, qeyrətli Azərbaycan oğlu Vüqar Əhməd haqqında nəsə yazmaq istəyirəm. Düşünürəm... nədən başlayım ki, sonluğunu dinləyicimə olduğu kimi çatdıra bilim...

Mən Vüqar Əhmədlə tanışlığım tələbəlik illərimə təsadüf edir. Adını tez-tez eşitdiyim bu gözəl insanla nə vaxtsa dostluq edəcəyimi heç təsəvvürümə də gətirmirdim. Onun sevilən nəğmələrini eşitdikcə bu insana get-gedə məhəbbətim artmağa başlayırdı. Bu barədə bir az sonra...

Vüqar Əhməd sözün həqiqi mənasında çoxşaxəli insandı. Onun bədii yaradıcılığında şəxsiyyəti kimi eyni yolun davamçısıdır.

Birinci növbədə Vüqar cahanı bizlərə bəxş edən ilahi varlığı sevir, anaları, bacıları diqqətdən yayındırmır, onları şair qələmindən süzülən misraları ilə vəsv edir. Onun misralarından səmimiyyət süzülür.

İldə bir yol gülə bilsəm ürəkdən
Bircə günlük uzaq olsam kələkdən

Bir arzumu ala bilsəm fələkdən
Şükr edərəm mən buna da, bəsimdi.

(Bəsimdi şeirindən) və yaxud:

– Kimdir ana,
– Coşqun dəniz
– Varmı ondan əziz!
– O dəniz ki,
Balığın sahilə atmaz
Gəmisin qana boyatmaz...
tamam başqa şeir.
Nə günəş de, nə Ay de,
Ana, mənə laylay de,
Şirin yuxu tapım mən.
Hər an, hər gün, hər ay de
Ana, mənə laylay de.

Nənələr haqqında Vüqar Əhmədin şeirləri diqqətdən yayına bilməz.

Anaların anasıdır nənələr,
Ən böyük dövlətdi, vardı nəvələr,
Nənələr hamıya dualar edər,
Anaların anasıdır nənələr...

Yuxarıda qeyd etdiyimiz kimi, Vüqar müəllim həm də sevilən qardaş, gözəl ailə başçısıdır.

Qardaşlara dayaqdır,
Xəstələnsən oyaqdır,
Bacılar bu sayaqdır
Bacılar ay bacılar,

Və yaxud. Şair qardaşlara aid yazır:

Bəd gününə o ağlar,
Arxamda nəhəng dağ var,
Gəlin belini bağlar,
Namus, qeyrətdi qardaş.

Vüqar Əhməd ailəsini çox sevir. O dinə bağlı adamdı, islamçılığı qoruyan adamdı. Hətta sevimli övladlarına dini xadimlərinin adlarını qoyub.

Gənc anadır Hüseynimin anası,
Onun da var iki gözəl balası,
O olsa da bu qəlbimin sonası,
Almasına, Hüseynimə anadır.

Şairin ən çox sevdiyim şeirlərindən biri də öz ömür-gün yoldaşına yazdığı şeiridir.

Mənim kədərimə olmasan şərik,
Nə sən, nə də mən həsəd bilmişik,
Birgə ağlamışıq, birgə gülmüşük,
Ən şirin bir yuxum, röyamsan mənim.

Qələmə sövq etdin Vüqar Əhmədi,
Nə etsəm, borcumdur, yoxdur zəhməti,
Allahım veribdi bu məhəbbəti,
Dünya gözəlisən, dünyamsan mənim.

İstərdim Vüqar Əhmədin musiqi sahəsindəki xidmətlərinə də bir az yer verək.

Əvvəla onu deyim ki, Vüqar Əhməd milli musiqimizi çox sevir, onun təbliğindən zövq alır. Onun bu mövzuda çoxlu

sevilən nəğmələri vardır. Dünya şöhrətli sənətçimiz Zeynəb Xanlarovadan tutmuş ta bu gün kövrək addımlarını atan sənətçilərədək hamı onun şeriyyatına müraciət etmişdir.

Vüqar Əhməd milli musiqini tək sevmir, onu əməllərində real göstərir. vaxtilə çalışdığı Dövlət televiziyasında işlədiyi redaksiyada ən çox təbliğ etdiyi musiqi janrıda məhz milli oxuyanlar və milli musiqi olmuşdur.

Sevilən şairimiz həm də gözəl alimdir. O filologiya elmləri doktoru, professordur. Mən inanıram Vüqar Əhməd məktəbini keçmiş hər bir gənc gözəl təhsil almaqla yanaşı, kamil bir insan kimi formalaşacaqdır.

Əziz qardaşım Vüqar Əhməd! Siz xoşbəxt insansınız. Hamı Sizi sevir, hörmət edir, məhəbbətini göstərir. Sizə sonsuz məhəbbəti olan, hörməti olan bir insan kimi Sizə arzularımda tükənməzdir. Yuxarıda qeyd etdiyim kimi Siz təmənnasız insansınız.

Allahımdan Sizə möhkəm cansağlığı, tükənməz enerji, sağlam mühit ətrafında olmağınızı arzulayıram.

Şamil Vəliyev
Professor

Torpaq sevdalı dost

Minillərdir ki, zaman dəyişir, dünya düzəni mükəmməlləşir, bizi əhatə edən mühit yeniləşir. Lakin zamanın içində, uzaq və yaxın tarixdə elə dəyərlər var ki, onlar dəyişmir və dəyişməsə yaxşıdır. Bunlar insanın yaşamaq haqqı, azadlıq və ədalət arzusu, dostluq, birlik, bərabərlik… duyğularıdır. Qiymətli olan isə ondan ibarətdir ki, bu və bənzəri olan duyğular fərdi həyat faktı kimi yox, ictimai dəyər, örnək səviyyəsinə yüksəlir. Azərbaycan şəxsiyyətlərinin həyatından çoxsaylı misallar gətirmək olar ki, fikrimizi təsdiqləyək. Tələbəlik illərimin yaxın dostu, uzun illərin sınağından çıxan və yaddaşımda «böyük dost, qardaş» obrazı ilə özəl bir yer tutan Vüqar Əhmədlə bağlı bu yazımda həmin fikirləri önə

çəkməyimin bir səbəbi var. Onu tanıdığım ilk gündən azacıq belə dəyişmədi, sadiqliyi, təvazökarlığı, dostu böyük görmək bəsirəti, üzü işığa getmək həsrəti, anaya, ailəyə, cəmiyyət və vətəninə məhəbbəti, istedadı və yaradıcılığa təşnəliyi ilə məndə maraq doğurdu…

Vüqar Əhmədin yaradıcılıq axtarışlarının əvvəlində elmi-nəzəri tədqiqatlar dayanır. Filologiya elmləri doktoru olan və ədəbi-nəzəri monoqrafiyalarında, məqalə və tezislərində tarix və müasirlik meyarlarını irs-varislik əlaqələri kontekstində qoruyan tədqiqatçı nəzəri və tətbiqi ədəbiyyatşünaslıq sahəsində çalışıb. Onun «Ayineyi-millət» (Qafur Rəşad Mirzəzadə) kimi dəyərli bir əsəri transliterasitya edərək oxuculara çatdırması, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan-rus uşaq ədəbiyyatı əlaqələrinə dair dissertasiya yazması, Seyid Cəfər Pişəvərinin həyatı və fəaliyyətinə dair fundamental tədqiqat işini ortaya qoyması və ona dair sanballı monoqrafiya nəşr etdirməsi deyilənlərə parlaq sübutdur.

Vüqar Əhməd kimdir?- sualına çoxsaylı dostları, imzasını tanıyanlar birmənalı, aydın cavab verə bilər. «O tanınmış ədəbiyyatşünas-alim, publisist, müəllim, nəğməkar şair, filoloq-tənqidçidir» deyəcəklər. Amma mənim üçün onun görünən və görünməyən cəhətləri həmişə maraq doğurub. Ona görə ki, Vüqar Əhməd özündən çox dostlarının qayğısı ilə yaşayıb, onların ictimai həyatı və yaradıcılıq uğurlarını şəxsi uğuru kimi qiymətləndirib.

Vüqar Əhmədin kimliyindəki bir xüsusiyyət də mənim üçün qiymətlidir. O bütün ciddiliyi, rəsmiyyəti ilə birgə canında yumora, sadəliyə meyli, açıq-aydın danışmaq ənənəsini yaşadır. Sadə xalq dilində və təfəkküründə özünü göstərən keyfiyyət məqamlarına diqqət yetirməyi və ondan faydalanmağı vacib bilir. Hələ tələbəlik illərində müşahidə etmişdim ki, o sevdiyi və sevmədiyi dostlarını məharətlə təqlid edir, onları sadə və anlaşıqlı xalq kəlamları ilə xarakterizə edir. Vüqarın dostanə təqlidlərindən bir kimsə belə incimir,

əksinə digərləri də onun tənqidinə tuş gəlməkdən iranlılar demişkən «xoşhal» olurdular. Vüqar Əhmədin sadə, açıq-aydın dildə danışmaq istedadı onun fitrətində, təbiətindədir. Fikrimi izah etmək üçün dostluq tariximizin bir səhifəsinə işıq salmaq istərdim. Filologiya fakültəsinin əksər tələbələri kimi Vüqar da ilk gənclik illərindən şeir yazıb. Bunu gah gizli, gah da aşkar ifadə edən dostarımızdan fərqli olaraq mən o illərdə daha çox fəlsəfəyə, mücərrədliyə, dərk olunmazlara «sirr içində sirrə» (Kamal Abdulla) meyl edir, «özündə şeylər»in mürəkkəbliyinə maraq göstərir, fars-ərəb tərkibli izafət birləşmələrinə aludəliçilik ənənəsinin təsiri ilə klassikaya üstünlük verirdim. Aradan illər keçdi. Günlərin birində Vüqar indiki «Azərbaycan» nəşriyyatında görüşümüz zamanı mənə yenicə çapdan çıxmış «Ağsaçlı palma» adlı şeirlər kitabçasını verdi. Elə oradaca gənc tənqidçilərin fəal nümayəndəsi kimi çay süfrəsi arxasında, dost məclisində anidən Vüqara böyük qardaşlıq məsləhətləri verməyə başladım. Fikirlərimi sonadək dinləyən Vüqar Əhməd mənim ədəbiyyatşünas-alim kimi yüksəkdə olduğumu vurğulayandan sonra öz mövqeyini belə müdafiə etdi ki, artıq zaman dəyişir, ədəbi prosesedə yeni tendensiyalar təzahür edir, lakin xalqla onun öz dilində danışmaq tələbinə hər kəsin əməl etməli olduğunu hər zaman bilməlidir. Və bir də əksəriyyəti mahnı mətnləri olan kitabçaya klassik şeirin poetik normaları ilə yanaşmaq düzgün deyil. Nə gizlədim dostumun fikirləri ilə razılaşdım. Onun şair və publisist kimi kamilliyi haqqında digər dostlarıma dəyərli təşbehlər söylədim. Bu kiçik epizodu xatırlamaqla bir daha onu vurğulamaq istyirəm. Vüqar Əhməd mövqeyi aydın olan yaradıcı şəxsiyyət, sadəliliyi ilə seçilən vətəndaş kimi həm də kaloritli insandır. O həm də müasirlik hissini itirməyən, yeniliyə, axtarışa bağlı alim, şair, publisisdir. Ən vacib olanı isə odur ki, dostlarını da belə görmək istəyir, onların ictimai-mədəni həyatda fəal olmağına tələbkarlıqla yanaşır.

Vüqar Əhməd çoxlarından fərqli olaraq tənqidə dözüm-

lüdür. Hətta bu tənqid haqsız olsa da. Azərbaycan ədəbi mühitində və ictimai fikrində qabaqda gedəni, fəalı mədh etmək, geridə qalanı yıxıb sürümək ənənəsi ilə yanaşı bir də «gözü götürməmək» ənənəsi var və bu mentallığa bağlı həqiqətdir. Ədəbi prosesdə, xüsusən də nəğməkar-şairlik yarışında da bunu aydın görmək mümkündür. Qəzadan, yaxud da taleyin tanrı payından asılı olaraq Vüqar Əhməd bu yarışda birincilər sırasında öz yeri olan, populyarlığı ilə seçilənlərdir.

Vüqarın şeir, söz, nəğmə alımində lirik-psixoloji rəngarənglik, sadə insanların sevmək – sevilmək duyğuları, ayrılıq, kədər, həsrət notları ilə yanaşı məni ilgiləndirən iki məqam var; anaya ehtiram, torpağa sevgi. Bu sırada onun «Anam mənim» və «Abşeronum» şeirləri ilə bunlara bəstələnən mahnılarını xatırlamaq kifayətdir ki, şairin qəlb dünyası yaxından tanış olasan. Heç şübhə etmirəm ki, sənət sevdası ilə yaşayan hər bir kəs arzulayar ki, onun da belə şeiri və ona bəstələnən mahnısı olsun. «Abşeronum» şeirini həm də ona görə xatırladım ki, burada konkret bir ərazinin, məkanın «bakılı-bakinets» düşüncəsi yox, bütövlükdə vətən və torpaq sevdası var. Vüqar Əhmədi SSRİ dövründən və bu dövlətin süqutu ilə bağlı yaranan xaos illərindən yaxşı tanıdığıma, Vüqar Əhmədin həmişə yurddaş və soydaşlarına millət və vətən miqyasında qiymət verdiyinə, kimliyində Cənubi Azərbaycan, Qərbi Azərbaycan, Dərbənd, Borçalı ağrısı yaşatdığına görə belə deyirəm.

Düşünəndə ki, Vüqarın adını çəkdiyim mahnı və şeirləri kimi yüzlərlə əsəri var, onda dostumun yaradıcılıq mənzərəsi haqqında aydın təsəvvür yaratmaq olar. Və düşünəndə ki, Vüqar Əhməd hələ təzəcə əllini aşırıb yüzə doğru yol başlayıb, onda «alim, şair, publisist kimi görəcəyi işlərin, verəcəyi ictimai bəhrənin, ömür-gün hesabatının zənginliyi hələ qarşıdadır»- deyə bilərik.

Elman Quliyev
Azərbaycan Dövlət Pedaqoji Universiteti
"Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin müdiri,
filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Zəhmətin bəxş etdiyi şöhrət

50 illik yubileyi ilə bağlı görkəmli ədəbiyyatşünas, istedadlı şair və publisist, gözəl pedaqoq və musiqişünas Vüqar Əhmədin şəxsiyyəti, elmi və bədii yaradıcılığı haqqında bir dost kimi söz demək mənim üçün nə qədər asan olsa da, etiraf etməliyəm ki, müəyyən çərçivədə bir o qədər də çətindir. Çünki prof. Vüqar Əhmədin yaradıcılıq spektri o qədər geniş və çoxşaxəlidir ki, onu xarakterizə etmək üçün təkcə ədəbiyyatşünas olmaq azdır, mənə elə gəlir ki, digər sahələri də bilmək gərəkdir. Sirr deyil ki, dostum Vüqar Əhməd bəzi həmkarlarından fərqli olaraq sözün həqiqi mənasında Azərbaycan cəmiyyətində geniş tanınan, sevilən və hörmət bəslənilən insandır. O, alim kimi də nüfuz qazanıb, nəğməkar şair kimi də qəlblərə yol tapıb, pedaqoq kimi də tələbələrin sevimlisinə çevrilib, musiqişünas kimi də özünü təsdiqləyib və s. Hesab edirəm ki, çoxsahəli yaradıcılıq istiqamətlərində peşəkarlıq nümayiş etdirməyin kökündə iki vacib şərt dayanır: **İSTEDAD** və **ZƏHMƏT**. Əgər bunlar olmasa yaradıcı insan məqsədinə çata bilməz. Vüqar Əhmədin xoşbəxtliyi və uğurlarının səbəbi ondadır ki, ona allah tərəfindən istedad bəxş edilmişdir. Nəzərə alsaq ki, Vüqar Əhməd istedadı zəhmətdən güc alır, bu zaman onun uğurlarının səbəbi bizim üçün tam açıqlanar...

Bir ədəbiyyatşünas kimi prof. Vüqar Əhmədin elmimiz qarşısında xidmətləri olduqca böyük və əhəmiyyətlidir. Onun ədəbiyyatşünaslıq fəaliyyətinin istiqamətlərini ümumi olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar: Klassik və müasir Azərbaycan ədəbiyyatı tarixi (o cümlədən Cənubi Azərbaycan

ədəbiyyatı), Azərbaycan uşaq ədəbiyyatı, Azərbaycan-rus ədəbi əlaqələri və ədəbiyyat nəzəriyyəsi istiqaməti. Göründüyü kimi dövrləşmə və problematika baxımından genişliyi ilə fərqlənən ədəbiyyatşünaslıq fəaliyyəti ilə prof. Vüqar Əhməd bu elmi sahələrin inkişafında əhəmiyyətli rol oynamış və orijinal fikirlər söyləyə bilmişdir. Heç şübhəsiz o, bir tərəfdən XX əsrin əvvəlləri rus-Azərbaycan ədəbi əlaqələrinin tarixinə nəzər salır, bu kontekstdə uşaq ədəbiyyatı problemlərinə aydınlıq gətirir, digər tərəfdən Azərbaycan uşaq ədəbiyyatının tarixi-tipoloji inkişafının ümumi mənzərəsi haqqında geniş təsəvvür yaradır, başqa bir tərəfdən isə S.C.Pişəvərinin həyat və yaradıcılığı əsasında Cənubi Azərbaycan ədəbi-ictimai, ədəbi-bədii və ədəbi-tənqidinin mahiyyəti ilə əlaqədar nəzəri-estetik mühakimələrini ortaya qoya bilir və s. Onun "M.C.Pişvəri: həyatı, mühiti və yaradıcılığı" adlı monoqrafiyası (1998) Cənubi Azərbaycanda gedən milli azadlıq və milli demokratik hərakatın ictimai-siyasi zəmində inkişaf prosesi ilə yanaşı, həm də milli demokratik mətbuatın və ədəbiyyatın inkişaf problemləri haqqında müfəssəl tədqiqat əsəri hesab edilə bilər. Prof.V.Əhmədin bədii və elmi yaradıcılığı olduqca zəngindir. Onlarla sanbalı monoqrafiya, dərslik, dərs vəsaiti, yüzlərlə məqalə, tezis, müsahibə, çoxsaylı bədii əsər müəllifi kimi tanınan Vüqar Əhməd bir alim, bir şair, bir vətəndaş olaraq nəyi yazıbsa ürəkdən yazıb, bütün yazdıqlarına şəxsi məsuliyyət möhürünü vura bilib. Bu səbəbdəndir ki, prof. Vüqar Əhmədin həm elmi, həm də bədii yaradıcılığı Azərbaycan sərhədlərini aşaraq əcnəbi ölkələrdə də maraq doğurmuş, çap olunmuşdur. Əsərlərinin İran, Türkiyə, Yunanıstan, Almaniya, Rusiya və s. ölkələrdə çapı fikirlərimizi təsdiqləməyə kifayət edər. Şəxsən mən iki ölkədə - Türkiyə və İranda dostumun yaradıcılığına olan rəğbətin və məhəbbətin (həm də ehtiyacın) şahidi olmuş və bundan qürur duymuşam. Əslində mən prof. V.Əhmədin yubileyi ilə əlaqədar təqdim etdiyim bu yazıda yuxarıda qeyd etdiyim kimi onun olduqca böyük elmi və bədii

yaradıcılığı haqqında təhlil aparmaq fikrindən uzağam. Çünki yubiley yazısının öz prinsipləri var. Amma nə edəsən ki, prof.V.Əhməddən söz düşəndə onun alim və şairliyi ön sırada dayanır və adamı istər-istəməz münasibətə cəlb edir. Bu da onun bir müəllif xoşbəxtliyidir. Amma Vüqar Əhmədin başqa bir keyfiyyəti (xoşbəxtliyi deyilsə daha yaxşı ifadə olar) heç kimdə şübhə doğura bilməz: **Gözəl dost, təmənnasız dost, pis günün dostu, etibarlı dost...**

Çünki o kim ilə dostdursa onun cibinə, vəzifəsinə və s. görə dostluq etmir. Onun dostluğu əqidəyə, mənəviyyata söykənir. Oxuyanlara məlum olsun ki, mən yuxarıda onun haqqında gözəl dost, təmənnasız dost, pis günün dostu və s. ifadələrini elə-belə söz xatirinə işlətməmişəm. 2005- ci ilin yanvar ayında taleyin ağır qisməti – böyük qardaşım Arazın vaxtsız vəfatı ilə üzləşəndə V.Əhməd mənə daha çox mənəvi dayaq oldu. Qardaşımın şərəfinə şeir yazdı, mahnı bəstələtdirdi, həmin mahnını gözəl müğənni, minnətdar olduğum Tacir Şahmalıoğlunun ifasında Teleteatrda lentə yazdırdı və dəfələrlə televiziya ekranlarda yayımlatdı. Mən burada mahnının bəstəkarı V.Əhmədin qardaşı Möhsün Əhmədin adını da minətdarlıqla qeyd etmək istəyirəm. Amma bu deyilənlərə onu da əlavə etmək istəyirəm ki, Vüqar Əhməd bunları təmənnasız etdi, dost borcu kimi dəyərləndirdi. Təşəkkürlərimi belə lazımsız hesab etdi.

Məni dostum Vüqarla bağlayan mənəvi tellər olduqca möhkəmdir. Bir detalı da burada oxuculara çatdırmağı lazım bilirəm. Vüqar Əhmədin ana sevgisi insanlıq üçün nümunə ola bilər. O, rəhmətlik anasının sağlığında da ana şərəfini uca tutdu, onun vəfatından sonra da... Görünür elə bu səbəbdən də mən öz rəhmətlik anamın bir vəsiyyətini məhz Vüqar Əhmədin iştirakı ilə həyata keçirməyi vacib bildim. Rəhmətlik anamın oğluma bir hədiyyəsi var idi. Əhd etmişdi ki, onu məhz oğlumun toyunda ona təqdim etsin. Lakin əcəl bu əhdi anamın ürəyində qoydu... Mən anamın həmin hədiyyəsini sonralar oğlumun toyunda hansısa hissin hökmü ilə mahnı, şeir və

əməllərində insanların qəlbində ana məhəbbətinə abidə ucaldan gözəl dostum Vüqarla təqdim etməyə qərar verdim və elə o şəkildə də icra etdim.

Bu gün prof. Vüqar Əhməd ömrünün ən gözəl çağlarını yaşayır. 50 yaşda görkəmli ədəbiyyatşünas alim olmaq, istedadlı şair kimi tanınmaq, musiqi dünyasının ənginliklərinə baş vurmaq hər kəsə nəsib olmur. Elə bu yerdə dostumun gözəl ailə başçısı, gözəl ata, mehriban qohum, canyandıran qardaş olmasını qeyd etməsəm insafsız olaram.

Əziz qardaşım! Sənin haqqında fikirlərimi yazmağa mənim ürəyimdə bir dünya söz var. Güman edirəm ki, bu kiçik "Vüqarnamə"də bəzi mətləblərə toxuna bildim. Mən sənin 50 illik yaşını ürəkdən təbrik edir, sənə can sağlığı arzulayıram. Səni kökü dərin, budaqları göyə doğru şaxələnən, dibi kölgəli nəhəng palıd ağacına bənzədirəm. Bu kölgədə başqaları çox sərinlənir, nəinki sən özün...

Arzu edirəm ki, bu kölgənin yaratdığı sərinlikdə bundan sonra hər 10 ildən bir beş dəfə də yubileyinə gəlmiş qonaqlarını qəbul edəsən, onların ürək sözlərini dinləyəsən...

Vamiq Məmmədəliyev
Əməkdar artist, dosent, tarzən

Dostum Vüqar Əhməd haqqında bir neçə kəlmə

80-cı illərin sonunda o vaxtkı Azərbaycan Dövlət Televiziya və Radio Komitəsi ilə sənət mübadiləm başlayarkən tanışlarımın siyahısına bir çox adamlar daxil olurdu. Radio üçün bir çox muğamlarımızı ara-sıra lentə yazırdıq, televiziyanın "Muğam axşamı" konserti üçün bir neçə tamam-dəstgah hazırlayırdıq, haqqımda radio-oçerklər yazılırdı və s. Ta 1991-ci ilə kimi bu komitə ilə əlaqələrim daha da möhkəmlənirdi. Möhkəmlənirdi deyərkən – bir neçə sənət adamı ilə dostluq

münasibətlərim başlamışdı. 1987-ci ildə dostlarımın sırasına bu qəbildən bəlkə də birinci olaraq Vüqar Əhməd daxil oldu. Bizim ilk ünsiyyətlərimiz radionun musiqi redaksiyasından başlanmışdı. Əslən Pirşağı kəndindən olan Vüqar Əhmədin qonşu kəndli olduğumuzu az sonra biləndə bizim sıx getgəlimiz geniş vüsət almışdı. Yaz-yay aylarında o Pirşağıya gələrkən mütləq yolu Kürdəxanıdan keçdiyi zaman hər dəfə mənə baş çəkər, hal-əhval tutardı. 80-ci illərin axırlarında günlərin birində onu atam Məmmədəli doktor ilə də tanış elədim. Beləliklə də münasibətlərimiz ailə müstəvisinə keçdi. Daha dəqiq desəm, 1987-ci ildən indiyə kimi sağlam dostluq tariximiz var.

Vüqar Əhməd çox geniş əhatəyə malik olan bir insandır. O, dövrünün tanınmış ziyalıları ilə təmasda olaraq onlardan bəhrələnmiş və illərlə çalışqanlığı nəticəsində özü də bir ziyalı kimi yetişmişdir. İxtisasca filoloq olmasına baxmayaraq tarixi, coğrafiyanı bilməklə yanaşı musiqini də dərindən bilən, tədqiq edən bir ziyalıdır Vüqar Əhməd. İncəsənət adamları içində onu tanımayan adam olmaz, az tanıyan ola bilər. Çünki o, uzun illər radionun musiqi verilişləri redaksiyasında, sonralar televiziyanın eyni redaksiyasında redaktor kimi zəngin bir fəaliyyət dövrü yaşayıb. Bu illər ərzində mənim bir neçə sənətlə bağlı radio verilişimi hazırlayıb. Ən ümdəsi mənim haqqımda iki radio-oçerkin müəllifi və aparıcısı olub. Bunlarla paralel onun biblioqrafiyası da zənginləşib. İlk dəfə "Şahnaz sədası" kitabı Azərbaycan muğamsevərlərinə bir töhfə olsa da, sonralar xeyli sayda məqalələri və tədqiqatları çap olunurdu. Atam Məmmədəli Məmmədəliyevlə onun söhbəti yaxşı tuturdu. Atam ensiklopedik biliklərini o vaxtlar gənc Vüqar Əhmədlə sevə-sevə bölüşür, saatlarla muğamdan söhbət açır, Azərbaycan ziyalılarının bioqrafiyasından bəhs edərdi. Vüqar Əhmədin dostlarının coğrafiyasının genişlənməyi onun həlim xasiyyət və diqqətcil olmasından irəli gəlirdi. Özünün dediyinə görə qardaşım Akademik Vasim Məmmədəliyev ilə ilk tanışlığının

da maraqlı məqamları var. Çalışdığı qəzetin baş redaktorunun təkidi ilə V.Məmmədəliyevlə görüşə yollanan Vüqar Əhməd, bu görüşün sonuna kimi özünü təqdim etmədən suallar verib və qeydlərini aparıb. Səbəb isə aydın idi. Din və ilahiyyat haqqında söhbət edərkən tanınmış ziyalı ilə ünsiyyətin nə qədər məsuliyyətli olduğunu dərk edir və daha dəqiq desək ehtiyat edirdi. Lakin müsahibə uğurlu alınır. Vasim müəllim də razı qalır. Sonda jurnalistin adını soruşarkən kimliyini müəyyən edib onu qucaqlayır. Buradan Vüqar Əhmədin başqa bir keyfiyyəti üzə çıxır. O məsuliyyətli bir şəxsdir. Ümumiyyətlə, kimin məsuliyyəti varsa onunla dostluq eləmək yalnız xoş xatirələrə çevrilər. Vüqar Əhmədi də belə insanlar siyahısına mübaliğəsiz qatmaq olar. Onun kitab dilində özünəməxsus təhkiyyələri, rəvan, açıq-aydın nəqli, yazı dili var. Həyatda da elədir, münasibətlərdə də bu ahəngi saxlayır. Bəzən onu nəğməkar-şair kimi də təqdim edirlər. Onun bir neçə şeirinə mahnılar bəstələnib. Bu da Vüqarın digər bir bacarığının təcəssümüdür. Müşahidəsini, hisslərini nəzmə çəkib vərəqə köçürməyi bacaran digər sənət adamlarından, qeyri peşə sahiblərindən fərqli olaraq Vüqar Əhmədin şeirlərinin özünəməxsusluğu onun müəllifinin Vüqar Əhməd olması ilə səciyyələnir. Elə bir xatirə gecəsi, elə bir muğam gecəsi, yubiley mərasimi olmaz ki, Vüqar Əhməd orada olmasın. Bakının mədəni-ictimai həyatında Vüqar Əhmədin öz yeri var, onun öz şirinliyi var. Məzəli söhbətləri, maraqlı açıqlamaları bu gün də onun çevrəsində olanlar üçün maraqla dinlənilir. Fizionomiyasına görə dolu, hündürboy adam olmasına baxmayaraq, bu cüssənin içində qayğıkeş, nəzakətli, xoşxasiyyət adam siması var. Mən 25 illik yoldaşlıq, dostluq münasibətlərində Vüqar Əhməddən xeyli razı qalmışam. Onu 50 yaşı tamam olması münasibətilə təbrik edirəm! Əminəm ki, Vüqar Əhməd bundan sonra da maraqlı məqalələri, fundamental tədqiqatları ilə xalqımızı sevindirəcək!

NƏTİCƏ

Vüqar Əhmədin yaradıcılıq yolunun ayrı-ayrı məqamlarına etdiyimiz ekskursiyamıza əsasən deyə bilərik ki, o, 50 illik ömrünün 30 ilini elmi, ədəbi-bədii fəaliyyətlə məşğul olan şair, ədəbiyyatşünas, yazıçı, musiqi tədqiqatçısı, pedaqoq, jurnalist kimi çox məhsuldar işləmiş, elmi və bədii yükü baxımından tutumlu, tutarlı fundamental yüksək bədii-poetik əsərləri ilə ədəbiyyatımızı, xüsusilə poeziyamızı, eləcə də ədəbiyyatşünaslığımızı daha da zənginləşdirmişdir. Alim və şairin hər bir əsəri ədəbi ictimaiyyət və oxucular tərəfindən maraqla, sevilərək qarşılanmış, dövri mətbuatda, telekanallarda, radio dalğalarında dəyərli rəylərlə müsbət qiymətləndirilmişdir. Onun və ədəbiyyatşünaslığımızın, nəsrimizin, xüsusilə də poeziyamızın məzmun, ideya, janr, dil-üslub, mövzu və poetika baxımından zənginləşməsində müstəsna rolu və əməyi var. Vüqar Əhməd 50 illik, lakin neçə ömrə bəs edən dəyərli həyatını şərəflə yaşamışdır. Onun ədəbi-bədii aləmdə keçmiş ömür və yaradıcılıq yolunun öyrənilməsi, tədqiq edilməsində nəticəsi maraqlı faktlar üzə çıxarıldı.

1. Vüqar Əhmədin həyati və ədəbi fəaliyyəti poeziyamız və ədəbiyyatşünaslığımızın inkişafı, əsasən Güney Azərbaycanın istiqlal tarixi və ədəbiyyatının tədqiqi ilə sıx bağlıdır.

2. Vüqar Əhməd redaktor, pedaqoq, jurnalist, mühərrir və s. kimi fəaliyyətlə kifayətlənib məhdudlaşmamış, qələmini bədii və elmi yaradıcılıq sahəsində sınamışdır. Mətbu şeirləri göstərir ki, o güclü poetik duyuma malik ilhamla, təbii gücü ilə, Allah vergisi ilə poeziyamızın əzəli, əbədi mövzuları – Vətən, Qarabağ, Ana və Məhəbbət mövzusunda çoxsaylı şeir və poemalar yazmışdır. Mövcud ədəbi faktlar təsdiqləyir ki, şair klassiklərdən poetika baxımından bəhrələnmişdir.

3. Vüqar Əhməd nəsr sahəsində də qələmini sınamışdır. Əvvəl satirik, yumoristik hekayələrlə nəsrə gələn yazıçı, daha sonradan geniş həcmli iki roman qələmə almışdır. İlk romanı avtobioqrafik xarakterli «Qarabağ yuxusu və yuxuda qələbə» ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılan-

mışdır. İkinci romanı isə Güney Azərbaycan və Qarabağın tarixindən danışan, erməni daşnaklarının iç üzünü açıb göstərən tarixi səpgili «Qaradağlılar» adlı trilogiyadır. Hər iki əsər tarixi-sənədlidir, memuar və xatirələrə söykənməklə xüsusi ədəbi-bədii əhəmiyyətə malikdir. Bu əsərlər tarixi dövrlər, keçmişimiz və bu günümüz, ayrı-ayrı tarixi şəxslər barədə oxuculara zəngin informasiya çatdırır. Memuar janrında əsərlər fonduna daxil olan «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» romanı müəllifinin bədii isiedadını təsdiq edən çox siqlətli faktdır. Vüqar Əhmədin hər iki romanı, ümumiyyətlə nəsri çağdaş ədəbiyyatımızın dəyərli nümunələrindən olub, təfəkkür-təxəyyül parametrləri baxımından millilik zəminində yaranan qiymətli sənət əsərləridir.

4. Onun yaradıcılığı həm ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və həm də tarixşünaslıq baxımından əhəmiyyətli orijinal olan fikir və ideyalarla zəngindir. Vüqar Əhməd xalqımızın tarixinin qədimliyini, Azərbaycançılıq, türkçülük mövqeyindən millətimizin ululuğunu ədəbi və tarixi mənbələr əsasında və əldə etdiyi faktlarla öz tədqiqatlarında, elmi əsərlərində, monoqrafiyalarında, məqalələrində ətraflı göstərmişdir. Görkəmli ədib istər söz sənəti, Güney və Quzey ədəbiyyatı barədə, ədəbi şəxsiyyətlərin ayrı-ayrı əsərləri, istərsə də ümumən onların yaradıcılıqları haqqında elmi-nəzəri fikirlər irəli sürmüşdür.

5. Vüqar Əhmədin yaradıcılığının bu gün bir hissəsi onun poeziyasıdır. Xüsusilə də nəğmə yaradıcılığı. Ona yaxın şeir kitabının müəllifi 500-dən çox söz və musiqi müəllifidir.

6. Vüqar Əhmədin yaradıcılığının bir hissəsi onun publtsistik əsərlərindən ibarətdir. Onun publisistikası janr və forma etibarilə zəngindir. Publisist Vüqar Əhməd həmçinin bacarıqlı təşkilatçı və mühərrir, telejurnalist, qəzetçi kimi də fəaliyyət göstərmişdir.

7. Vüqar Əhməd həm də muğamşünas alim kimi musiqi ictimaiyyətinə yaxşı tanışdır. Onun televiziya və radioda aparıcı, redaktoru və ssenari müəllifi olduğu film və verilişlər tamaşaçı və dinləyicinin rəğbətini qazanmışdır. Bu sahə-

də «Şahnaz sədası» kitabı və «Əfsanəvi tarzən» monoqrafiyası musiqişünaslığa dəyərli töhfələrdəndir.

Tədqiqat göstərdi ki, Vüqar Əhməd XX əsrin sonu və XXI əsrin əvvəllərində yaradıcı ziyalımız olaraq, xalqımızın bizlərə bəxş etdiyi:

– möhkəm əqidəli, humanist təbiətli, mətin və yorulmaz iradəli bir vətəndaşdır.

– öz bədii istedadı ilə oxucu məhəbbəti qazanan bir şairdir.

– ədəbiyyat tariximizi memuar və tarixi janrla zənginləşdirən C.Məmmədquluzadə, Y.V. Çəmənzəminli, M.S. Ordubadi, A.Şaiq və b. yaradıcılığına dair müxtəlif müəlliflər tərəfindən tədqiqatlar aparılır, biz də bu ədəbi şəxsiyyətin elmi və ədəbi fəaliyyətini bütöv, fundamental səviyyədə araşdırmağı qarşımıza məqsəd qoymuşuq. Biz inanırıq ki, gələcəkdə V.Əhmədin yaradıcılığı haqqında namizədlik və doktorluq dissertasiyaları müdafiə olunacaq, neçə-neçə monoqrafiyalar yazılacaq.

On il bundan öncə tədqiqatçı Alim Nəbioğlu onun yaradıcılığından bəhs edən «Vüqar Əhmədin söz dünyası» adlı kitab nəşr etdirmişdir. Tədqiqatçının zəhmətini ilk addım kimi qiymətləndirsək də nəzərə çatdıraq ki, araşdırmada pərakəndəlik, nisbətən səthilik, tələskənlik diqqəti cəlb edir. Əsər sanki monoqrafiyadan daha çox ədəbi həyat və yaradıcılığı məlumat xarakterli təqdimat kimi əks etdirən xronoloji, biblioqrafik bir vəsaitdir.

- Vüqar Əhməd F. Kərimzadə, M. Süleymanov kimi sənətkarların davamçısıdır.

- tənqid və ədəbiyyatşünaslıq və uşaq ədəbiyyatına dair orijinal forma və üslubda yazılmış əsərin müəllifidir.

- rəngarəng janr və formada yazılmış zəngin mövzulu, yüksək ideya-bədii məzmunlu əsərlərin müəllifi, vətənpərvər bir publisistdir.

- dünya ədəbiyyatı və mədəniyyəti nümunələrini təbliğ və tədqiq edən, xalqlar arasında ədəbi əlaqələri yaradan ədəbiyyat tarixçisidir.

Butün bunlar çağdaş dövrümüzdə Vüqar Əhməd şəx-

siyyətinin məzmununu təşkil edir. Ondan görkəmli ədəbiyyatşünas alim, sevimli şair, istedadlı nasir, kəsərli qələm sahibi, publisist, humanist və vətənpərvər jurnalist kimi bəhs etməyə, onun şəxsiyyətini, həyat və fəaliyyətini indiki və gələcək nəsillərə örnək göstərməyə, təcrübə və mənbə kimi tədqiq etməyə əsas verir.

Mövcud tədqiqatları Vüqar Əhmədin həyat və yaradıcılıq fəaliyyətinə əsaslanan müəlliflər əsərində aşağıdakı təklifləri irəli sürməklə öz araşdırıcı – vətəndaş məsuliyyətlərini yerinə yetirməyi özlərinə borc bilirlər.

– Birinci sinif üçün «Ana sözü» və rus məktəblərinin 9-cu sinfi üçün tərtib olunmuş «Azərbaycan dili» dərsliklərində Vüqar Əhməd yaradıcığından nümunələr tədris olunur. Yaxşı olardı ki, mövcud orta məktəblərin ədəbiyyat proqramları və dərsliklərində «Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı» bölməsində Vüqar Əhməd barədə də söhbət açılsın və onun şeirləri tədris proqramına daxil edilsin, «Vüqar Əhməd» adlı ayrıca oçerk yazılsın. Bununla şagirdlər Vüqar Əhməd haqqında geniş məlumat alar, onun timsalında vətəndaş-vətənpərvər şəxsiyyət kimi tərbiyə olunarlar. Ali məktəblərin pedaqoji fakültələrində «Uşaq ədəbiyyatı» fənni üzrə Vüqar Əhmədin uşaq şeirləri tədris olunsa, filologiya fakültələrində şair-ədəbiyyatşünasın yaradıcılığına ayrıca dərc saatları ayrılsa yaxşı olardı.

Bu, indiki və gələcək nəsillərin ümumi dünyagörüşünün, bədii təfəkkürünün, ədəbi biliyinin zənginləşməsi baxımından əhəmiyyətli olardı.

-Vüqar Əhmədin əsərləri yaxşı olardı ki, xarici dillərə tərcümə olunub, dünya ictimaiyyətinə və oxucularına çatdırılsın. Bu hadisə ədəbiyyatımızın beynəlxalq aləmdə daha da şöhrətlənməsinə xidmət göstərəcəkdir.

- Həyatı və ədəbi fəaliyyəti bütövlüklə Azərbaycana bağlı olan görkəmli ədəbi şəxsiyyətə həsr edilən foto-albomun nəşri Güneyli, Qüzeyli xalqımıza ərməğan olardı.

İstifadə olunmuş ədəbiyyat

1) Vüqar Əhməd. Rus Uşaq Ədəbiyyatı və Azərbaycan. Bakı. Bilik. 1992, 104 s.
2) B.Xəlilov. Yeni dünya 1 dekabr 1993. Vüqar Əhməd. Söz musiqi bir də mən... Bakı MBM, 2003, 272 s.
3) Alim Nəbioğlu. Vüqar Əhmədin saz dünyası. Bakı. El. Alliance, 242 s.
4) Doktorluq dissertasiyası və sənədlər
5) Vüqar Əhməd M.C Pişəvəri: həyatı, muhiti və yaradıcılığı (monoqrafiya). Bakı. Göytürk. 1998, 196 s.
6) Oqtay Gurşad. Mübarizələrdə yaşanmış ömür. "İki sahil qəzeti, 16 may 1998 6 s.
7) Vüqar Əhməd. Şeyx Məhəmməd Xiyabani. Bakı. Müəllim. 2010. 140 s.
8) Sona Xəyal. Yaddaşlarda yaşayacaq. Bakı MBM. 2011 100 s.
9) Sərdar Zeynal. "Şeyx Məhəmməd Xiyabani" Bakıda. "Hürriyyət" qəzeti, 1-4 fevral 2010
10) Vüqar Əhməd. Hər kəsin öz səsi. Bakı. Azərbaycan Dünyası. 1993, 88 s.
11) Vüqar Əhməd. Qarabağ yuxusu və yaxud Yuxuda qələbə (Avtobiroqrafik roman). Bakı. MBM. 2012 164 s.
12) Ağasəfa "Ayineyi-Millət". "Ədəbiyyat qəzeti" 5 fevral 1993,
13) Vüqar Əhməd. Ədəbiyyatşünaslıq (Filologiya fakultəsinin tələbələri üçün dərslik). Bakı. Müəllim. 2008,150 s.
14) Nazilə Abdullazadə, Ağalar İdrisoğlu. Ədəbiyyatşünaslığa yeni bir töhfə "Azad Azərbaycan" qəzeti, 9 aprel 2003, №047
15) Rasim Nəbioğlu. Nəzəri-estetik fikrimiz və Vüqar Əhmədin, "Ədəbiyyatşünaslıq" kitabı, AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Azərbaycan Ədəbiyyatı nəzəriyyəsi elminin vəziyyəti və vəzifələri (musavirənin materialları 27 may 2011) Bakı. 2012 128 s.
16) Bilal Həsənli Azərbaycan Uşaq Ədəbiyyatı (muhazirə mətnləri). Bakı. Müəllim. 2008. 296 s.
17) Vüqar Əhməd. Azərbaycan Uşaq Ədəbiyyatı. Bakı Müəllim 2006,276 s.
18) Vüqar Əhməd. Elmi-filoloji qaynaqlar, ədəbi simalar haqqında

düşüncələr. Bakı. Müəllim. 2010.334 s.
19) Vüqar Əhməd Yaxşı günlər öndədir. Bakı. Şur, 2008, 280 s.
20) Vüqar Əhməd. İlhamım gələndə. Bakı MBM. 2003, 160 s.
21) Vüqar Əhməd. Ağ saşlı palma. Şərq-Qərb 1995. 62 s.
22) Fərrux Həsənov. Vüqar Əhməd şeirlərinin dil və üslub xüsusiyyətləri. "Azərbaycan müəllimi" 26 aprel. 2007.
23) Vüqar Əhməd. Anam mənim. Bakı. Araz. 2002. 24 s.
24) Vüqar Əhməd. Anam mənim yox daha. Bakı "Sənət dünyası" qəzeti 29 fevral 2008, s 7.
25) Şahrza Ağayev, Vüqar Əhməd poeziyası. Bakı "Respublika Press", 10 aprel 2003, №1 s3.
26) Vüqar Əhməd. Mənim nəğmələrim. Bakı. Araz 2002. 464 s.
27) M. Novruzlu "Qarabağ yuxusu" Bakı "Ədəbiyyat qəzeti" 1 fevral 2013 s 8.
28) Vüqar Əhməd Şahnaz sədası. Bakı. "Şərq-Qərb", 1994.128 s.
29) Vüqar Əhməd. Söz musiqi bir də mən... Bakı. MBM 2003,272 s.
30) Tariyel Əhmədov. Azərbaycan oğluyam. Bakı. Azərbaycan 2007 384 s.
31) Vüqar Əhməd. Əfsanəvi Tarzən. Bakı. Müəllim 2010, 186 s.
32) Müşiq Cabiroğlu. "Məhəbbətsiz necə ömr insanlar". "Ədalət" qəzeti. 17 may 2012. S 6.
33) Mirəşrəf Fətiyev. Şəhərin mənzil-kommunal təsərrüfatının innovasiyalı inkişafı, (monoqrafiya). Tərcümə edəni, ön sözün müəllifi və redaktoru: Vüqar Əhməd. Bakı, 2007, s 119.
34) Elşad Dağlı. "Təqdimat mərasimi keçirilmişdir". "Respublika" qəzeti, 19 yanvar, 2013.

Professor, şair-ədəbiyyatşünas Vüqar Əhmədin əsərlərinin biblioqrafiyası
KİTABLAR

1. «Qurban». Bakı. 1990, səh 21.
2. Q.R.Mirzəzadə. «Ayineyi-millət». Bakı, 1992, «Maarif».
3. Rus uşaq ədəbiyyatı və Azərbaycan. Bakı, 1992, «Bilik». səh 102.
4. «Hər kəsin öz səsi». Bakı, 1993, «Azərbaycan dünyası». səh 89.

5. «Səyavuşun faciəsi» (müştərək). Bakı, 1993, «Azərbaycan dünyası». səh 60.
6. «Şahnaz sədası». Bakı, 1994, «Şərq-Qərb». səh 120.
7. «Ağ saçlı palma». Bakı, 1995. «Şərq-Qərb». səh 61.
8. «Aktyorun dəfni». Bakı. 1995, «Şərq-Qərb». səh 34.
9. «Mir Cəfər Pişəvəri». Bakı, 1995, «Elm». səh 8.
10. «Pişəvəri publisistikasının xüsusiyyətləri». Bakı, 1996. «Elm». səh 10.
11. «Mübarizlərdə yaşanmış ömür». Bakı, 1996, «Elm». səh 13.
12. «Pişəvərinin klassik və çağdaş ədəbi əsərlərə münasibəti». Bakı, 1997, « «Elm»». səh 8.
13. «Milli azadlıq və milli-demokratik mətbuat naminə». Bakı, 1997, «Elm». səh 9.
14. «Pişəvərinin ədəbi tənqidi fikirləri». Bakı, 1998, «Elm». səh 11.
15. «M.C. Pişəvəri: həyatı, mühiti və yaradıcılığı». Bakı, 1998, «Göytürk». səh 196.
16. «Из истории Азербайдъанско-русских литературных связей XX века» (1905-1917). Bakı, 1998, «Şərq-Qərb».
17. «Səsi quran sədasıdı» (müştərək). Bakı, 2002, «MBM». səh 92.
18. «Mənim nəğmələrim». Bakı, 2002, «Araz». səh 464.
19. «Anam mənim». Bakı, 2002, «El-Alliance». səh 24.
20. «Пишевери: жизнь прожитая в борьбе». Bakı, 2002, «El-Alliance». səh 230.
21. «Saf su». Bakı, 2003, «El-Alliance». səh 174.
22. «Ürəyimdə oxuyuram» (müştərək). Bakı, «MBM», 2003, 236 səh.
23. «İlhamım gələndə…». Bakı, «Min bir mahnı», 2003, 160 səh.
24. «Söz musiqi bir də mən». «Min bir mahnı», Bakı, 2003. səh 272.
25. «Nəğməli dünyam». Bakı, «Araz», 2004, 144 səh.
26. «Yaxşı günlər öndədir». Bakı, «Şur», 2005, 280 səh.
27. «Azərbaycan uşaq ədəbiyyatı». Bakı, «Müəllim», 2006, 276 səh.
28. Ali məktəblərin filologiya fakültələrinin bakalavr hazırlığı üçün «Ədəbiyyatşünaslıq» fənninin proqramı. Bakı, «Müəllim», 2007, 15 səh.
29. Ali məktəblərin filologiya fakültələrinin bakalavr hazırlığı

üçün «Ədəbiyyat nəzəriyyəsi» fənninin proqramı. Bakı, «Müəllim», 2007, 15 səh.

30. «Ədəbiyyatşünaslıq» Filologiya fakültəsinin tələbələri üçün dərslik. Bakı, «Müəllim», 2008. səh 149.
31. «Əfsanəvi tarzən». Bakı, «Müəllim», 2010. 186 səh.
32. «Elmi filoloji-qaynaqlar, ədəbi simalar haqqında düşüncələr». Bakı, «Müəllim», 2010, 334 səh.
33. «Şeyx Məhəmməd Xiyabani». (Həyatı, mühiti və ədəbi fəaliyyəti). Monoqrafiya. – Bakı, «Müəllim», 2010. 140 səh.
34. «Qarabağ yuxusu və yaxud yuxuda qələbə», Bakı, «MBM», 2012. 464 səh.
35. «Qaradağlılar». Roman. «Trilogiya». «Araz» Bakı, 2013.

ŞEİRLƏR

1. Allahım qorusun səni. «Gənclik» qəzeti, may 2000. 5 səh.
2. Mübarək. «Min bir mahnı» qəzeti, №10, 07 oktyabr 2002. 12 səh.
3. Kirvələr. «Min bir mahnı» qəzeti, №11, 14 oktyabr 2002. 2 səh.
4. Sənin tək heç kimi sevə bilmədim. «Elm və təhsil», №11 (75) may 2002. 4 səh.
5. Səni xoşbəxt edərəm. «Şərqin səsi» qəzeti, №11 (75) may 2002. 4 səh.
6. Söz dünyam var. «Şərqin səsi» qəzeti, №11 (75) may 2002. 4 səh.
7. Sənətdə kamil, adında da Kamil. «Vaxt» qəzeti, iyun 2002. 13 səh.
8. Qonağam. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
9. Sən yanımda olanda. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
10. Yalan dünya sənə qalsın. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
11. Dostlarım görüşəndə. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
12. Qız sevəndə neyləsin. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
13. Bayatılar. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
14. Yaşın mübarək. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11

səh.

15. Anam mənim. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
16. Onda duydum, onda andım. «Min bir mahnı» qəzeti, 19-26 iyul, 2002. 11 səh.
17. Acizəm. «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
18. Məni. «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
19. Qocaman. «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
20. Bir olaq. «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
21. Mənəm (duet). «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
22. İstədim. «Min bir mahnı» qəzeti, 28 dekabr 2002. 5 səh.
23. Neyləyim. «Min bir mahnı» qəzeti, 23 yanvar 2003. 15 səh.
24. Şən gələr. «Min bir mahnı» qəzeti, 23 yanvar 2003. 15 səh.
25. Ürəyim. «Min bir mahnı» qəzeti, 23 yanvar 2003. 15 səh.
26. Xəstə. «Min bir mahnı» qəzeti, №1 (20), 14 yanvar 2003. 14 səh.
27. Eşq bağında. «Min bir mahnı» qəzeti, 14 yanvar 2003. 2 səh.
28. Hara gedim. «Min bir mahnı» qəzeti, 23 yanvar 2003. 15 səh.
29. Ruhlar. «Min bir mahnı» qəzeti, 15 fevral 2003. 10 səh.
30. Nifrət. «Min bir mahnı» qəzeti, 15 fevral 2003. 10 səh.
31. Yalvarım. «Min bir mahnı» qəzeti, 15 fevral 2003. 10 səh.
32. Dərdlərimə yananım. «Min bir mahnı» qəzeti, 15 fevral 2003. 10 səh.
33. Vüqarlı rəhbərim. «Min bir mahnı» qəzeti, 9 may 2003. 3 səh.
34. Min alqış. «Min bir mahnı» qəzeti, 30 may 2003. 15 səh.
35. Vallah. «Min bir mahnı» qəzeti, 30 may 2003. 15 səh.
36. Canım sağ olsun. «Min bir mahnı» qəzeti, 30 may 2003. 15 səh.
37. Mənəm mən. «Həftə içi» qəzeti, 7-9 iyun 2003. 6 səh.
38. Həqiqət. «Həftə içi» qəzeti, 7-9 iyun 2003. 6 səh.
39. Dərdlərimə yananım. «Həftə içi» qəzeti, 7-9 iyun 2003. 6 səh.
40. Aşiqəm gözəllərə. «Min bir mahnı» qəzeti, 29 avqust 2003. 9 səh.
41. Hər kəsin öz baxışı. «Min bir mahnı» qəzeti, 29 avqust 2003. 9 səh.
42. Mən dünyayam. «Min bir mahnı» qəzeti, 29 avqust 2003. 9 səh.

43. İftar. «Min bir mahnı» qəzeti, 15 noyabr 2003. 10 səh.
44. Bir kəsəm. «Min bir mahnı» qəzeti, 17 yanvar 2004. 10 səh.
45. Arzuların arzusunun arzusu. «Min bir mahnı» qəzeti, 17 yanvar 2004. 10 səh.
46. Ay ustad. «Min bir mahnı» qəzeti, 21 fevral 2004. 2 səh.
47. Bilgəh. «Min bir mahnı» qəzeti, 21 fevral 2004. 2 səh.
48. Təbrik edirik. «Min bir mahnı» qəzeti, 01 aprel 2004. 12 səh.
49. Taleyimlə barışdım. «Min bir mahnı» qəzeti, 6 mart 2004. 7 səh.
50. Şükür ki, öldürməyirsən. «Min bir mahnı» qəzeti, 6 mart 2004. 7 səh.
51. Vüqar Əhməd. Bilgəh şeiri. "Bilgəh".Bakı-2004 səh 313
52. Ana, mənə laylay de. «Min bir mahnı» qəzeti, 6 mart 2004. 7 səh.
53. Mübarək. «Xalqın elçisi» jurnalı, 23 noyabr 2007. 49 səh.
54. "Vətənim" şeiri, "Ana sözü-1". "Ümumtəhsil məktəbləri üçün dərs vəsaiti. Bakı-Çaşıoğlu-2007 səh 11
55. Anam mənim yox daha. «Sənət dünyası» qəzeti, 29 fevral 2008-ci il 1 səh.
56. "Ürək Dost istəyər""Xalqın müəllimi". Lətif Hüseynzadə. Prof.Vüqar Əhməd. (Lətif müəllimə ithaf). səh 95-96

HAQQINDA

1. Ağasəfa. «Ayineyi-millət» «Ədəbiyyat» qəzeti, 5 fevral 1993.
2. Borçalılara hədiyyə, «Səhər» qəzeti, 19.03.1993
3. İsmayıl Alışoğlu. «Hər kəsin öz səsi» – «İki sahil» qəzeti, 5 may, 1993.
4. Borçalı yaşayır… «Novruz» qəzeti, 7 may 1993.
5. «Şəms» Borçalıda «Səhər» qəzeti, 8 iyun 1993
6. B. Xəlilov. Rus uşaq ədəbiyyatı və Azərbaycan – «Yeni dünya» qəzeti, 1 dekabr 1993.
7. Təbrik, «Səhər» qəzeti, 15.10.1994
8. Təbrik. Dahi Füzuliyə ehtiramla, «Səhər» qəzeti, 14.12.1994
9. Mükafatlar təqdim edilmişdir. «Açıq söz» qəzeti, № 42, 23.12.1994.
10. Sözləri Vüqar Əhmədindir. «Ekran efir» qəzeti, 7 sentyabr 1997. səh 4.
11. Vüqar Əhməd. İşlərim düz gətirməyəndə Allaha dua edirəm –

«Bakı post» qəzeti, fevral 1998. 2 səh.
12. Sənətkarlarımız Vüqar Əhməd haqqında «Bakı post» qəzeti, fevral 1998. 3 və 5-6 səh.
13. Vüqar Əhməd İran mətbuatında «Bakı post» qəzeti, fevral 1998. 7 səh.
14. Ən çox adamların naxələfliyinə təəssüflənirəm – «Ədalət» qəzeti, 14 mart 1998.
15. Oqtay Gürşad. Mübarizlərdə yaşamış ömür «İki sahil» qəzeti, 16 may 1998.
16. Anar Niftəliyev. Cənubi Azərbaycan azadlıq mücahidi. «Xalq qəzeti». 1998, 22-28 may.
17. Məmməd Aslan. Əməkdaşımızın yeni kitabı nəşr olunub. «Ekran efir» qəzeti, 1998, 18-24 may.
18. Qafar Əsgərzadə. Milli azadlıq hərəkatından danışan kitab. «Hakimiyyət» qəzeti, 1998, 25 iyun.
19. Rəfael Hüseynov. Müəlliflə müsahibə. «Amerikanın səsi» radiosu, 1998, 27 iyun.
20. Nəğmə dolu bir ürəyəm – «İki sahil» qəzeti, 17 dekabr 1998.
21. Şeirlər və nəğmələr yazır – «Millət» qəzeti, 29 dekabr 1998.
22. Nəğməli sətirlər. ««Ekran efir» qəzeti, 6-12 dekabr 1999. səh 7.
23. Yaşar Qarayev. İki əsr və iki era ayrıcında (kitaba istinad). Ədəbiyyat məcmuəsi. AMEA Nizami adına ad. Ədəbiyyat İnstitutu. Bakı, Ağrıdağ, 1999, s.88.
24. Vüqar Əhmədlə üz-üzə söhbət (dosye) – «Üzbəüz» qəzeti, 9-15 may 1999.
25. Şair Azərbaycan yazır – 22 may 1999.
26. Sənətçilər imza kampaniyasını davam etdirir – «Üç nöqtə» qəzeti, 21 sentyabr 2000.
27. Salman Vilayətoğlu. Tədqiqatın kamilliyi. «Spektr» jurnalı, Bakı, 2001, №2
28. Tofiq İmişli. «İstedadlı publisist, nəğməkar şair». «Xeyirxah» qəzeti, 10 noyabr 2001.
29. Mənim nəğmələrim. «Ekran efir» qəzeti, 28 aprel 2002. səh 8.
30. Anam mənim – «Hakimiyyət» qəzeti, 23 avqust 2002.
31. «Cənnət məkan»da bir başqa gecə – «Min bir mahnı» qəzeti, 19-26 iyul 2002.
32. Vüqar Əhmədlə riyaziyyatçıların görüşü – «Min bir mahnı» qəzeti, 16 may 2003. 15 səh.
33. Alim Nəbioğlu. «Ad günün mübarək, Namiq!». «Min bir

mahnı» qəzeti, 15 noyabr 2003. 6 səh.
34. Vüqar Əhmədin yaradıcılıq gecəsini keçirtdik – «Min bir mahnı» qəzeti, 10 avqust 2002. 3 səh.
35. Sözün davası… – «Cümhuriyyət» qəzeti, 29 dekabr- 4 yanvar 2003.
36. Vüqar Əhmədin uğurları – 14 yanvar, «Min bir mahnı» qəzeti, 2003
37. Vüqar Əhməd fenomeni – «Ədalət» qəzeti, 31 yanvar 2003.
38. Şahrza Ağayev. Vüqar Əhməd poeziyası. «Respublika Press» qəzeti, 10 aprel, 2003-cü il.
39. Vasim Məmmədəliyev. «Mən ona bir status da verirəm – DİNİ ŞAİR» «Min bir mahnı» qəzeti, 16 aprel 2003. 3 səh.
40. Nağıla bənzər ömrüm – «Min bir mahnı» qəzeti, 16 aprel 2003. 4-5 səh.
41. Sənətçilər yubilyar haqqında – «Min bir mahnı» qəzeti, 16 aprel 2003. 6 səh.
42. «Ədcdaha» və canlı klassik şair – «Min bir mahnı» qəzeti, 16 aprel 2003. 7 səh.
43. Vüqar Əhməd dünyası – «Pillələr» qəzeti, 18 dekabr 2003.
44. «Ramiz Mirişli məni «vurdurmaq» üçün Vasif Adıgözəlovdan da istifadə etdi» – «Reytinq» qəzeti, 18 sentyabr 2005.
45. Vüqar Əhməd anası ilə vidalaşdı. «Oxu məni» qəzeti, 27 iyul 2007.
46. Öz şeirləri ilə hamını məftun edən şair – Vüqar Əhməd. «Açıq səma» qəzeti, 30 may 2007.
47. Xatirə Əsilbəyli. Şair Vüqar Əhmədin ömrünə bir il də yazıldı. «Azadlıq fədailəri» qəzeti, 25 aprel 2007.
48. Fərrux Həsənov. Vüqar Əhməd şeirlərinin dil və üslub xüsusiyyətləri. «Azərbaycan müəllimi» qəzeti, 26 aprel 2007.
49. Vüqar Əhməd-45. «Sənət dünyası» qəzeti, 28 aprel 2008.
50. Nazilə Abdullazadə, Ağalar İdrisoğlu. Ədəbiyyatşünaslığa yeni bir töhfə. «Azad Azərbaycan» qəzeti, 9 aprel 2008.
51. Elşad Ümid. «Yazıram da, kimin cibinə girirəm?..». «Reytinq» qəzeti, 2-28 fevral 2008.
52. Nisə Rafiqqızı. Vüqar Əhməd: Prorektorumuz Şamil Qasımlı üzümə gülsə də, işimə mane olur». «Olaylar» qəzeti, 19 fevral 2010.
53. Sərdar Zeynal. «Şeyx Məhəmməd Xiyabani» Bakıda. «Hürriyyət» qəzeti, 4 fevral 2010

54. Vüqar Əhməd. «Təşəkkür». «Təhsil və qanun» qəzeti, 14 fevral, 2011. 8 səh.
55. Rasim Nəbioğlu. "Nəzəri – estetik fikrimiz və Vüqar Əhmədin "Ədəbiyyatşüaslıq kitabı.Azərbaycan Ədəbiyyat nəzəriyyəsi elminin vəziyyəti və vəzifələri (Müşavirənin materialları) 27 may 2011.Bakı-2012 səh 57-66
56. Elşad Ümid. «Təşəkkür əvəzinə «qara siyahıya» düşmüşəm». «Reytinq» qəzeti, 20 noyabr 2011.
57. Sona Xəyal. Şeyx Məhəmməd Xiyabani. «Yaddaşlarda yaşayacaq». Bakı, 2011, 61-65 səh.
58. Nisə Rafiqqızı. Vüqar Əhməd: «Mübarizlərə, Ramillərə oxşamaq üçün telekanallar vətənpərvərlik mövzularına üstünlük verməlidir». «Olaylar» qəzeti. 19 oktyabr 2011.
59. Müşfiq Cabiroğlu, «Məhəbbətsiz necə ömr eylər insanlar». "Ədalət" qəzeti, – 2012 17 mart.-S.6.
60. Elşad Ümid. Vüqar Əhməd şair, ədəbiyyatşünas. «İmpuls» qəzeti, 07 dekabr 2012.
61. Şamil Vəliyev. Torpaq sevdalı dost. «İki sahil» qəzeti, 5 dekabr 2012.
62. Yusif Nəğməkar. Sözünün yiyəsi. «Təzadlar» qəzeti, 17 noyabr 2012.
63. Vüqar Əhməd mükafatlandırılıb. «Reytinq» qəzeti, 17 fevral 2013
64. M. Novruzlu. «Qarabağ yuxusu». «Ədəbiyyat qəzeti», 1 fevral 2013-cü il.
65. Elşad Ümid. Vüqar Əhmədin «Qarabağ yuxusu» çin oldu. «İmpuls» qəzeti, 18 yanvar, 2013.
66. Elşad Ümid. Vüqar Əhmədin «Yuxuda qələbəsi» təqdim olunacaq. «Reytinq» qəzeti, 13 yanvar 2013.
67. Elman Quliyev. Zəhmətin bəxş etdiyi şöhrət. «Üç nöqtə» qəzeti, 09 yanvar 2013.

MƏQALƏLƏR

1. Vüqar Əhmədov. «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər – Azərbaycan gəncləri qəzeti, 25 iyun, 1987.
2. Vüqar Əhmədov. «Ürəkdən gələn söz». «Bakı» qəzeti, 20 iyul, 1987.

3. Vüqar Əhmədov. «Uşaqlara hədiyyə». «Azərbaycan müəllimi» qəzeti, 11 dekabr, 1987.
4. Vüqar Əhmədov. «Uşaq mətbuatında klassik-ədəbi irsin təbliği» Azərbaycan Ali «Məktəb aspirantlarının XI respublika konfransının materialları». Bakı, 1988.
5. Vüqar Əhmədov. «Keçid» (Resenziya). «Azərbaycan gəncləri» qəzeti, 7 yanvar, 1989.
6. Vüqar Əhmədov. «Haqqın səsi». «Yeni fikir» qəzeti, 20 mart, 1989.
7. Vüqar Əhmədov. Görkəmli pedaqoq Qafur Rəşad Mirzədə». «Azərbaycan məktəbi» qəzeti, avqust, 1989.
8. Vüqar Əhmədov. Söz gülləsi – «Azərbaycan gəncləri» qəzeti, 2 noyabr, 1989.
9. Vüqar Əhmədov. Uşaq jurnalımızda rus və dünya ədəbiyyatının təbliği – «Müxbir» jurnalı, №8, 1989. 19-21 səh.
10. Vüqar Əhməd. «Müğənni və onun röyası». «Ədəbiyyat və incəsənət» qəzeti. 17 avqust 1990. №31. səh 5.
11. Vüqar Əhməd. Ankarada nəşr olunmuşdur – Novruz qəzeti, 24 aprel, 1991. 7 səh.
12. Vüqar Əhməd. «Müğənni-həkim». «Yurddaş» qəzeti, 5 iyun 1991. səh 6.
13. Vüqar Əhməd. Ölməzlik nəğməsi (N. Xəzri «Salatın») – «Azərbaycan gəncləri» qəzeti, 9 iyun, 1991. səh 7.
14. Vüqar Əhməd. Əsrimizin Səyavuşu. «Novruz» qəzeti, - 2 iyul, 1991.
15. Vüqar Əhməd. Həyata həssas münasibət. «Ədəbiyyat qəzeti», 16 avqust, 1991. səh 5.
16. Vüqar Əhməd. «Doqquz əsrlik Azərbaycan qəzəli». «Ədəbiyyat qəzeti», 29 noyabr, 1991.
17. Vüqar Əhməd. Azərbaycan qadınlığının poetik salnaməsi. «Novruz» qəzeti, 3 oktyabr 1991. 6 səh.
18. Vüqar Əhməd. «Gediş-gəliş çoxalıb». «Novruz» qəzeti, 10 oktyabr 1991. səh 6.
19. Vüqar Əhməd. Mənsurovlar sülaləsi. «Novruz» qəzeti, 27 noyabr 1991. səh 7.
20. Vüqar Əhməd. Yetkinlik. «Azərbaycan» qəzeti – səh. 186-188, 9-10 saylı, 1992.

21. Vüqar Əhməd. «Xəmsə»də qədim musiqi alətləri və muğamlarımızın vəsfi. «Şəhriyar» qəzeti, 19 yanvar, 1993.
22. Vüqar Əhməd. Fəyyaz Sağlam. «Novruz» qəzeti, 28 yanvar 1993. səh 2.
23. Vüqar Əhməd. «Azərbaycan dünyasında görüş». «Novruz» qəzeti, 18 fevral 1993.
24. Vüqar Əhməd. Uçanda turacdı, qaçanda ceyran. «Novruz» qəzeti, 18 fevral, 1993.
25. Vüqar Əhməd. «Biz torpaq adamıyıq». «Novruz» qəzeti, 18 fevral 1993. səh 3.
26. Vüqar Əhməd. «…Böyük Füzulimizin yadigarı mən özüməm». «Novruz» qəzeti, 4 mart 1993. səh 3.
27. Vüqar Əhməd. «Dağlar dərdə düşməsin». 17 mart, «Vətəndaş» qəzeti, 1993.
28. Vüqar Əhməd. «Məhəbbət yaşa baxmır…». «Həyat» qəzeti, 17 mart, 1993.
29. Vüqar Əhməd. Səmimiyyət olan yerdə – «Azərbaycan dünyası» qəzeti, 24 mart 1993.
30. Vüqar Əhməd. «Tanrına qurban, a qızıl qum, dəniz». «Şəhriyar» qəzeti, 31 mart, 1994
31. Vüqar Əhməd. «Tanrına qurban, a qızıl qum dəniz…». «Yazıçı», Bakı 1993.
32. Vüqar Əhməd. «Yolun Şirvana düşsə». «Şəhriyar» qəzeti, may,1993.
33. Vüqar Əhməd. «Yad» müğənninin doğma səsi». «İki sahil» qəzeti, 11 iyun 1993. səh 7.
34. Vüqar Əhməd. Naxçıvanda gördüklərim. «Qurtuluş» qəzeti, 22-30 iyul 1993.
35. Vüqar Əhməd. O torpaq həm də mənimdir (Ön söz). A.Görarxlı «Torpaq mənimdir» şeirlər.:. Bakı, 1993. səh 3-4.
36. Vüqar Əhməd. Xanəndə Əziz Nəsiri. «İki sahil» qəzeti, 1 sentyabr, 1994.
37. Vüqar Əhməd. «Tarzən Fərhad Fərəcli və xanəndə Vədud Müəzzinzadə». – «İki sahil» qəzeti, 16 sentyabr, 1994.
38. Vüqar Əhməd. «Xanəndə Vəli Qasimi». «İki sahil» qəzeti, 16 sentyabr 1994.

39. Vüqar Əhməd. «Arzuların həyata keçsin». «İki sahil» qəzeti, 23 sentyabr 1994.
40. 4 səh.
41. Vüqar Əhməd. Ustad aşıq Bulud. «İki sahil» qəzeti, 16 sentyabr, 1994
42. Vüqar Əhməd. «Təki türkcə olsun…». «İki sahil» qəzeti, 23 sentyabr 1994.
43. Vüqar Əhməd. Xanəndə Rəssam. «Ekran-efir» qəzeti, 9 oktyabr, 1994.
44. Vüqar Əhməd. Gənclərin qocaman dostu. «Azərbaycan gəncləri» qəzeti, 13 oktyabr, 1994. səh 7.
45. Vüqar Əhməd. Şair-musiqiçi İbrahim Zahid Xəzayiri. «İki sahil» qəzeti, 15 oktyabr, 1994.
46. Vüqar Əhməd. «Azərbaycan musiqiçilərinin ağsaqqalı». Xanəndə Abazər. «İki sahil» qəzeti, 15 oktyabr 1994, 4 səh.
47. Vüqar Əhməd. «Rəsul Rəhim Dizəçi». «İki sahil» qəzeti, 15 oktyabr, 1994.
48. Vüqar Əhməd. Şeir-məhəbbət və sevgidir – «Şəhriyar» qəzeti, 22 oktyabr 1994.
49. Vüqar Əhməd. «Sənə nəfəs verir Azərbaycanım!..». «Səhər» qəzeti, 29 oktyabr 1994.
50. Vüqar Əhməd. «Bəstəkar Cabir İtaəti». «Vətəndaş» qəzeti, 25 noyabr, 1994. səh 8.
51. Vüqar Əhməd. Nəsrimizdə Füzuli obrazı – «Zaman» qəzeti, 26 noyabr, 1994.
52. Vüqar Əhməd. Füzuli nəsrdə. «Vahid» qəzeti, 20 dekabr, 1994.
53. Vüqar Əhməd. Bu səsdə nə sehr var?! «Ekran efir» qəzeti, 21 dekabr, 1994.
54. Vüqar Əhməd. Şair Rəsul Rəhimi. «Axtarış» qəzeti, 22 dekabr, 1994.
55. Vüqar Əhməd. «O əsl Azərbaycan oğludur». «İki sahil» qəzeti, 13 noyabr 1994. 2 səh.
56. Vüqar Əhməd. Dahi Füzuliyə ehtiramla. «Səhər» qəzeti, 14 dekabr 1994.
57. Vüqar Əhməd. «Təbrizdən gələn səs». «Axtarış» qəzeti,

№11, 22 dekabr 1994.
58. Vüqar Əhməd. Simlərin nağılı. «Ekran-efir» qəzeti, yanvar, 1995.
59. Vüqar Əhməd. «Nəbiyəm bir dağam». Nəbi Xəzri – 70. «Bakı» qəzeti, 7 yanvar, 1995.
60. Vüqar Əhməd. «Şer-məhəbbət və sevgidir» – «Şəhriyar» qəzeti, yanvar, 1995.
61. Vüqar Əhməd. Füzuli ədəbi məktəbinin davamçıları. Ə.Vahid – 100. «Şəhriyar» qəzeti, 1995.
62. Vüqar Əhməd. Əlirza Qəzvi. «Vaxt» qəzeti, 1 fevral, 1995.
63. Vüqar Əhməd. «Kərbəladı, nəcəfdi söz». «Söz» qəzeti, 1-15 mart, 1995.
64. Vüqar Əhməd. Şairəm, adım Savalan. «Maarifçi» qəzeti, 4 aprel, 1995
65. Vüqar Əhməd. İrandan gələn töhfə – 1-15 aprel, «Söz» qəzeti, 1995.
66. Vüqar Əhməd. «Varlığı ilə var etdi «Varlığ»ı». «Söz» qəzeti, 1-15 aprel, 1995.
67. Vüqar Əhməd. Televiziyamızın çağdaş günü I – II hissə – «Güzəran» qəzeti, 24 aprel, 1997, səh 2.
68. Vüqar Əhməd. «Gülləbaran eylədilər». «Günay» qəzeti, 14 iyul, 1995.
69. Vüqar Əhməd. Maarifçi – alim. «Maarifçi» qəzeti, 16 avqust, 1995.
70. Vüqar Əhməd. Açıq sözə, açıq ürəklə. «Açıq söz» qəzeti, 20, dekabr, 1995,
71. Vüqar Əhməd. Səfirlərimizdən biri – «Azərbaycan» qəzeti. 14 iyun, 1995.
72. Vüqar Əhməd. «Koroğlu və şah Abbas». «Güzəran» qəzeti, 24 fevral 1998. 3 səh.
73. Vüqar Əhməd. «Oxuyan barmaqların izi ilə». «Min bir mahnı» qəzeti, 22 mart, 2002.
74. Vüqar Əhməd. «Axtarışda keçən ömür və ya dilçiliyin əlçatmaz zirvəsində». «Min bir mahnı» qəzeti, 27 aprel-2 may, 2002. 7 səh.
75. Vüqar Əhməd. «Təşəkür». «Min bir mahnı» qəzeti, 27 aprel-2 may, 2002. 7 səh.

76. Vüqar Əhməd. «Hələ sevirəm deməmişdilər». «Min bir mahnı» qəzeti, 27 aprel-2 may, 2002. 7 səh.
77. Vüqar Əhməd «Min bir mahnı» - XXI əsrin musiqi töhfəsi». «Azərbaycan dünyası» qəzeti, 15-22 iyun 2002. 1 səh.
78. Vüqar Əhməd. Şərqin böyük şərqşünası – «Min bir mahnı» qəzeti, 10 avqust 2002. 4 səh.
79. Vüqar Əhməd. Vasim Məmmədəliyev – 60 – «Min bir mahnı» qəzeti, 10 avqust 2002. 5 səh.
80. Vüqar Əhməd. «Ağaxanın nəğməli dünyası». «Min bir mahnı» qəzeti, 20 avqust, 2002.
81. Vüqar Əhməd. «Kaman naləsinin sehri». «Min bir mahnı» qəzeti, 15 oktyabr 2002.
82. Vüqar Əhməd. «Dünyanın harasındayam». «Min bir mahnı» qəzeti, 15 oktyabr, 2002.
83. Vüqar Əhməd. «Nəğməli ürəklər: mahnıdan mahnıya». «Min bir mahnı» qəzeti, 15 oktyabr, 2002.
84. Vüqar Əhməd. «Unudulmaz ifaçılar». «Min bir mahnı» qəzeti, № 15. 18 noyabr 2002.
85. Vüqar Əhməd. Pişəvəri yaradıcılığının ədəbi-bədii dəyəri – «Məruzələrin tezisləri», Bakı, 2002.
86. Vüqar Əhməd (ön sözun müəllifi və redaktor). A.Əsgər. "Uçun Nəğmələrim". Şeirlər. Bakı-2002 səh 134
87. Vüqar Əhməd. «Bir içim su istədim… və ya duyğularım duyğulananda». «Min bir mahnı» qəzeti, 14 yanvar 2003. 3 səh.
88. Vüqar Əhməd. «Kamanzənin şərəfinə». «Söz, musiqi, bir də mən». Bakı, 2003. 122 səh.
89. Vüqar Əhməd. «Muğamımız fəxr eləyir Tələtlə». «Söz, musiqi, bir də mən». Bakı, 2003. 129-132 səh.
90. Vüqar Əhməd. «Səsi quran sədasıdı». «Söz, musiqi, bir də mən». Bakı, 2003. 154-162 səh.
91. Vüqar Əhməd. «Alim Qasımov fenomeni». «Min bir mahnı» qəzeti, №3. 22 fevral, 2003
92. Vüqar Əhməd. Analar, bayramınız mübarək! «Min bir mahnı» qəzeti, 7 mart, 2003. 2 səh.
93. Vüqar Əhməd. Televiziyamızın ümid çırağı. «Min bir mahnı»

qəzeti, 21 mart, 2003. 8 səh.
94. Vüqar Əhməd. «Xatirəyə dönən illərin işığında» və ya Aqil Əliyev fenomeni Şəfiqə Əliyeva qələmində. «Min bir mahnı» qəzeti, 4 aprel, 2003. 2 səh.
95. Vüqar Əhməd. «Son söhbət». «Min bir mahnı» qəzeti. 4 aprel, 2003.
96. Vüqar Əhməd: Ən böyük hakim Allahdır. «Parlament» qəzeti, 9-16 aprel 2003.
97. Vüqar Əhməd. «Nizami Əsgərov». «Min bir mahnı» qəzeti, 11 aprel 2003. 3 səh.
98. Vüqar Əhməd. «Musiqimizin Qaraxanı». «Min bir mahnı» qəzeti, 11 aprel 2003. 6-7 səh.
99. Vüqar Əhmədlə tanışlıq. «Min bir mahnı» qəzeti, 16 aprel 2003. 2 səh.
100. Vüqar Əhməd. "M.C.Pişəvəri və Azərbaycan demokrativ firqəsinin yaranması". "Önər" Elm, Ədəbiyyat, Mədəniyyət, «Sənət» jurnalı. Bakı-2003 səh 8.
101. Vüqar Əhməd. «Qoşa qanad». «Min bir mahnı» qəzeti, 25 aprel 2003. 9 səh.
102. Vüqar Əhməd: Mən istedadı öz zəhmətimlə qazanmışam» – «Ruh» qəzeti, 07-14 may 2003.
103. Vüqar Əhməd. «Saflığa tapınan saf alim ömrü» – «Min bir mahnı» qəzeti, 14 fevral 2004. 2-3 səh.
104. Vüqar Əhməd. Sevginizə şərikik – «Min bir mahnı» qəzeti, 6 mart 2004. 10 səh.
105. Vüqar Əhməd. "Pişəvərinin dil və folklora münasibəti". Elmi araşdırmalar (elmi-nəzəri məqalələr toplusu). "Nurlan" Bakı-2004. №1-2.səh 73-75.
106. Vüqar Əhməd. «Pişəvərinin zindan xatirələri». «Azərbaycan» ədəbi-bədii jurnal, №11, 2004. 179 səh.
107. Vüqar Əhməd. «Əziz xanımlar bayramınız mübarək». «Min bir mahnı» qəzeti, 6 mart, 2004. 2 səh.
108. Vüqar Əhməd (redaktor). Hacı Qalib Salahzadə. "Bilgəh". Bakı-2004 səh 319
109. Vüqar Əhməd. «Çağdaş Cənub poeziyasının mövzu və ideya xüsusiyyətləri». «Pilələlər» qəzeti, 12 noyabr 2005. 5 səh.

110. Vüqar Əhməd. «Səməd Vurğun və Pişəvəri» Səməd Vurğunun 100 illik yubiley komissiyasının üzvü Vüqar Əhmədin məruzəsi. 06 aprel 2006.
111. Vüqar Əhməd. «Təbrik». «Qanunu səsi», 18-31 dekabr 2006. 1 səh.
112. Vüqar Əhməd (redaktor). Hökməlinin iftixari Biqələm. Toplayıb, tərtib edən Məmmədağa Ağarzaoğlu. Baki-Şirvannəşir, 2006 səh 140
113. Vüqar Əhməd (ön sözun müəllifi və redaktor). İbrahim Zahid "Qəzəllər", Bakı-2006 səh 94
114. Vüqar Əhməd. «Söz mülkünü xəzan vurmaz». «Xəzər» jurnalı, №5. 10 fevral 2007.
115. Vüqar Əhməd. «Xeyir-dua». «Parlamentin sədası» qəzeti, 19 mart 2007.
116. Vüqar Əhməd. «Palmali» şirkətlər qrupunun prezidenti Mübarizin Hatəm Səxavəti Baloğlanı xalqımıza qaytardı». «Qanun və məmur» qəzeti, 25 aprel-10 may 2007. 6 səh.
117. Vüqar Əhməd. Azərbaycan dili. Təlim və rus dilində olan məktəblərin 9-cu sinfi üçün dərslik. (Vüqar Əhməd: Təbrizim şeiri). - Bakı, 2007. səh - 122-123.
118. Vüqar Əhməd. «Cümhuriyyət dövrü (1918-1920) Azərbaycanda ədəbi mənzərə». «Vəkilin səsi» qəzeti, 10 iyun 2007.
119. Vüqar Əhməd. «Layiqli Azərbaycan oğlu» məqalə və şeir. Mirəşrəf Fətiyev «Şəhərin mənzil kommunal təsərrüfatının innovasiyalı inkişafı» monoqrafiyanın tərcümə edəni, ön söz müəllifi və redaktoru. Bakı, 2007, səh.120.
120. Vüqar Əhməd «60 yaşın mübarək». «Xalqın elçisi» jurnalı, Bakı şəhəri, 23 noyabr 2007. 49 səh.
121. Vüqar Əhməd (Hara tələsdin, qardaş. Məqalə) Tariyel Əhmədov "Azəerbaycan oğluyam". Bakı "Azərbaycan". 2007-səh 223-230
122. «В.Ахмед. Мемуары о реальных событиях прошлого». «Azərbaycan müəlimi jürnalı» №5. Bakı, 2007. səh 72-78.
123. V.Əhməd. "Qafur Rəşad Mirzəzadə.Azərbaycan Müəllimlər İnstitutunun xəbərləri.Bakı- "Müəllim" N2-2007 səh 4-12
124. V.Əhməd. "Ədəbi Qaynaqlar yeni baxımdan tədqiq edil-

məlidir". "Azərbaycan dili və ədəbiyyatı tədrisi"Elmi-metotik jurnal.Oktyabr-Dekabr 2007-N4 səh 49-50

125. V.Əhməd (Tərtib edəni, redaktoru və ön sözün müəllifi). Abbasqulu İsmayıl. "Bir taleyin nağılı".şeirlər. Bakı-2007 səh 300
126. Vüqar Əhməd. «Muğam». «Sənət dünyası» qəzeti, 7 fevral 2008.
127. Vüqar Əhməd. «Təsisçidən». «Sənət dünyası» qəzeti, 29 fevral 2008. 1 səh.
128. Vüqar Əhməd. «Vətən dili!» keçmişimiz, bugünümüz». «Sənət dünyası» qəzeti, 07 iyun 2008. 3 səh.
129. Vüqar Əhməd. «Layiqli Azərbaycan oğlu». «Sənət dünyası» qəzeti, 07 iyun 2008. 3 səh.
130. V.Əhməd. "Vətən dili!"keçmişimiz-bu günümüz. Azərbaycan Müəllimlər İnstitutunun xəbərləri.Bakı-"Müəllim" N2-2008 səh 10 -13
131. Vüqar Əhməd. "Novruz dini bayram deyil". "İdeal" jurnalı.Bakı-mart 2008 səh 36-37
132. Vüqar Əhməd. «Xiyabaninin həyatı, mühiti və yaradıcılığı». «Kredo» qəzeti, 31 yanvar 2009. 2 səh.
133. Vüqar Əhməd. «Xiyabaninin həyatı, mühiti və yaradıcılığı». «Kredo» qəzeti, 7 fevral 2009. 2 səh.
134. Vüqar Əhməd. «Faydalı təşəbbüsün uğurlu bəhrəsi». «Kredo» qəzeti, 4 aprel 2009. 8 səh.
135. Vüqar Əhməd. «Çəkə bilsəydim əgər mən bütün aləm qəmini…». «Kredo» qəzeti, 18 iyul 2009.
136. Vüqar Əhməd.H.X.Qaradaği:dövrü,həyatı və yaradıcılığı". Azərbaycan Müəllimlər İnstitutunun xəbərləri. Bakı-"Müəllim" N1-2009 səh 4-8
137. Vüqar Əhməd. Güney Azərbaycanda ilk demokratik milli hökumət I yazı. «Xalq cəbhəsi» qəzeti, 30 aprel 2010. 14 səh.
138. Vüqar Əhməd. Güney Azərbaycanda ilk demokratik milli hökumət II yazı. «Xalq cəbhəsi» qəzeti, 1 may 2010. 14 səh.
139. Vüqar Əhməd. «Çağdaş Ərdəbil ədəbi mühiti». «İmpuls» qəzeti, 18 noyabr 2011. 10 səh.
140. Vüqar Əhməd. «Şəhriyar yaradıcılığında xal qadət və ənənələrindən istifadə». «Yeni təfəkkür» qəzeti, 2 noyabr 2012. 3 səh.

141. Vüqar Əhməd. «O, bizim folklorumuzun Müşfiqidir» (müştərək). «Ədalət» qəzeti, 13 noyabr 2012. 6 səh.
142. Vüqar Əhməd. "Cənubi Azərbaycan lirikasında ictimai motivlər".Ədəbiyyat Məcmuəsi. Bakı-Elm səh 178-197

Xarici ölkələrdə dərc olunmuş kitab və məqalələri

1. Ə.Vüqar. "Güney Azərbaycan və ziyalılarımız". "21 Azər". İctimai, siyasi və ədəbi dərgi.1998, dekabr №1. Dortmund, Almaniya.səh 32-33
2. Vüqar Əhməd. Baba yurdu dinlə bəni sən allah! – Gürcüstan qəzeti, 26 dekabr, 1992.
3. Vüqar Əhməd. Qəzəllər. «Qeyrət» qəzeti, aprel-may 1994 7 səh.
4. Vüqar Əhməd. Borçalı. «Qeyrət» qəzeti, aprel-may 1994 7 səh.
5. Vüqar Əhməd. Peyğəmbərin poetik obrazı. Tehran. «Varlıq» jurnalı, iyun-avqust, 1994.
6. Vüqar Əhməd. Duzsuzluq. «Qeyrət» qəzeti, Gürcüstan,13 avqust, 1994.
7. Vüqar Əhməd. Güney Azərbaycandan gələn səslər. «Qeyrət» qəzeti, Gürcüstan 13 avqust, 1994.
8. Vüqar Əhməd. Şer ilahi məhəbbətdir. Tehran, «İttilaat» ruznaməsi, 15 sentyabr, 1994.
9. Vüqar Əhməd. Böyük Füzulinin yadigarı mən özüməm. Tehran, Varlıq qəzeti, yanvar-may, 1995.
10. Vüqar Əhməd. Batı Trakyalı Fəyyaz Sağlam. Türk ədəbiyyatı məcmuəsi, Yunanıstan, 1995. 176
11. Vüqar Əhməd. İran mehriban qonşumuzdur. Tehran, «Əhli-qələm» qəzeti, 1995, səh. 32-33.
12. Vüqar Əhməd. «Seyid Cəfər Pişəvərinin müəmmalı ölümü». «Azərbaycan» qəzeti №1. oktyabr 1999. Köln Almaniya. səh 49-53.
13. Vüqar Əhməd. Bioqrafik məlumat və «Anam mənim» şeiri. Tehran 2006. səh 7.
14. Vüqar Əhməd. «Anam mənim» (poema). Tehran, 2008.

MÜSAHİBƏLƏR

1. «Şeir məhəbbət və sevgidir», İran «İttilaat» qəzeti, 22.09.1994
2. «Vüqar Əhməd toyunda özü boyda gül dəstəsi qazanıb», «Yeni müsavat» qəzeti, № 255 (618), 3.12.1998
3. «İnsani zirvəyə ucaldan da sözdür, ayaqlar altına atanda…» «Ulus» qəzeti, № 86, 17.04.1999
4. «Səhnəni başqa yerlə dəyişik salanları efirə buraxmıram», «Dövran» qəzeti, № 57 (286), 27.03.1999
5. «Üz-üzə söhbət» (dosye), «Üzbəüz» qəzeti, № 5 (18), 9-15.05.1999
6. «Musiqidə plagiatlığın qarşısını almaq Qarabağ azad etmək qədər çətindir», «Kaspi» qəzeti, 12-14.08.1999
7. «Həyatda öz məhəbbət ulduzuma bir az gec rast gəlmişəm», «İki sahil» qəzeti, № 171, 08.09.1999
8. «AzTV hər yoldan ötənin yeri deyil», «Elçi» qəzeti, № 19, 19-26.03.2000
9. «Mən şeir yazanda onu nəğmə kimi yazıram», «Gömrük xəbərləri» qəzeti, № 37, 15.09.2000
10. «Milli Məclisi teatra çevirmək olmaz», «Üç nöqtə» qəzeti, № 106 (245), 16.09.2000
11. «Böyük adamların kini olmur», «Mədəniyyət» qəzeti, № 3 (204), fevral, 2001
12. «Qadınlar səhnəyə çıxmağa can atır, vəzifəli şəxslər isə mahnı yazırlar», «Ayna» qəzeti, № 34, 05.10.2001
13. «Canlı klassik». Vüqar Əhməd, «Söz, musiqi, bir də mən…». 23.01.2003, 224 səh.

Mükafatlar

"Qızıl Qələm", "AKİVİHİ-nin Rəyasət heyətinin qərarı, "Simurq" milli mükafatı, 2 dəfə Zirvə mükafatı (Azərbaycan demokratik gənclər təşkilatı), "Füzuli" mükafatı, "Araz" Ali Ədəbi mükafatı, "Qızıl açar" (Aztv), "İlin şairi" (ANS) mükafatları. İran İslam Cümhuriyyəti I-ci Beynəlxalq elmi-bədii Musiqi Seminarının fəxri diplomu, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının fəxri fərmanı, İran dövlət televiziyasının "Gənclər saatı proqramında iştirakı və çıxışına görə qiymətli saatla təltif olunub. "Yeni düşüncə" gənclər təşkilatı və "Tələbə Press" qəzeti, "İlin nəğməkar şairi" adına layiq görülüb. "Min bir mahnı" nəsriyyatı Vüqar Əhmədin şərəfinə "Anam mənim" mükafatı təsis edib.

BAŞ SAĞLIQLARI

ADPU-nun professorları Himalay Qasımov və Elman Quliyev Möhsün və Vüqar Əhməd qardaşlarına anaları

HACI ALMAXANIMIN

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağılğı verirlər.

«Yeni Azərbaycan». 25 iyul 2007-ci il.

———————

Azərbaycan Yazıçılar Birliyi Vüqar Əhmədə, anası

HACI ALMAXANIMIN

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağılğı verirlər.

«Ədəbiyyat» qəzeti. 25 iyul 2007-ci il

———————

Əməkdar artist Baloğlan Əşrəfov, Yusif Mustafayev, Müşfiq Cabiroğlu və Tofiq İmişli professor Vüqar Əhmədə, bacısı

Çeşmi xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağılğı verirlər.

«Respublika» qəzeti, 28 noyabr 2012-ci il

———————

Əməkdar artist Baloğlan Əşrəfov, Yusif Mustafayev, Vüqar Cabiroğlu, Səfər Məmmədov və Tofiq İmişli professor Vüqar Əhmədə bacısı

Çeşmi xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağılğı verirlər.

«Xalq sözü» qəzeti, 12-26 dekabr 2012-ci il

———————

Azərbaycan Yazıçılar Birliyi Vüqar Əhmədə, bacısı

ÇEŞMİ xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Ədəbiyyat» qəzeti, 23 noyabr 2012-ci il

———————

«Respublika» qəzetinin kollektivi professor Əhməd Vüqara, bacısı

ÇEŞMİ xanımın

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Respublika» qəzeti, 20 noyabr 2012-ci il

———————

ADPU-nun professoru Elman Quliyev ailəsi ilə birlikdə professor Vüqar Əhmədə, bacısı

ÇEŞMİ xanımın

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Xalq» qəzeti, 22 noyabr 2012-ci il

RASİM NƏBİOĞLU, MÜŞFİQ CABİROĞLU

VÜQAR ƏHMƏDİN YARADICILIQ YOLU

Naşir: Ceyhun Əliyev
Bədii redaktor: Flora Əliyeva
Korrektor: Mövsüm Əhməd
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Kompüterdə yığdılar: Tünzalə Vahabova,
Səfura Novruz, Kəmalə Allahyarova
Operatorlar: Rübabə Vəliyeva,
Məlahət Quliyeva

Yığılmağa verilmişdir: 10.01.2013
Çapa imzalanmışdır: 01.04.2013
Tiraj 500; ş.ç.v. 24
«MBM» nəşriyyatının mətbəəsində
çap olunmuşdur